2009-cu il

MÜNDƏRİCAT

- "Xocalını anım mərasimini kilsədə təşkil etmişdik". Aslan Xalidi: "İndi Kanadada ermənilər "xristianlığın qara ləkəsi" sayanlar artır" 4
- Xocalı soyqırımı - erməni vəhşiliyinin bariz nümunəsi....6
- Qafa tasına qan möhürü vurulmuş cani 8
- Xocalı soyqırımının növbəti ildönümü ilə əlaqədar etiraz aksiyası keçiriləcək ...BMT-nin Nyu Yorkdakı mənzil qərargahı qarşısında 13
- Xocalı faciəsi yad ediləcək. Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev Xocalı soyqırımının on yeddinci ildönümünün keçirilməsinə dair tədbirlər planını təsdiq edib....14
- Meksikada Xocalı soyqırımı anılıb....15
- "Xocalı soyqırımı" kitabı ingilis dilində nəşr olunmuşdur....16
- "Xocalının 15 kəndində bir-birinə oxşar faciələr törədilib". Həvva Məmmədova: "Erməni vandalizmi ilə əlaqədar olaraq hər kənd üçün ayrı kitab yazmalıyıq"....17
- Xocalı soyqırımı və həqiqətlər. Tənzilə Rüstəmxanlı: "Artıq avropalı millət vəkilləri soyqırımlarla maraqlanır" 18
- Xocalı soyqırımını törədənlər cəzasını almalıdırlar....19
- Xocalı soyqırımının ildönümü ilə bağlı xarici ölkələrdə keçiriləcək silsilə tədbirlərdə Heydər Əliyev fondunun hazırladığı təbliğat materiallarından geniş istifadə olunacaqdır....20
- İndoneziyada Xocalı faciəsi qurbanlarının xatirəsi anılmışdır 21
- Strasburqda Xocalı həqiqətləri. Faciənin ildönümü ilə bağlı silsilə tədbirlər keçiriləcək 22
- Xocalı və Xocavənd faciələri....23
- Xocalı soyqırımı - bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayət. "Səs" qəzeti Xocalı faciəsinin 17-ci ildönümü ilə bağlı dəyirmi masa keçirib....25
- Xocalı faciəsi bəşəriyyətə qarşı cinayətdir 31
- Azərbaycan Xocalı faciəsiylə bağlı Haaqa Məhkəməsinə müraciət edir....33
- Xocalı soyqırımı - bəşəriyyətə qarşı tarixi cinayət 34
- Dünya Xocalı faciəsini anır 36
- Xocalı faciəsinin 17-ci ildönümü ilə bağlı xarici ölkələrdə silsilə tədbirlər keçiriləcək....38
- Xocalı soyqırımı 42
- Qəddarlığın son həddi....45
- Müqəssir nə birdir, nə iki....46
- Xocalı soyqırımı - əsrin faciəsi Bir gecənin qanla yazılmış tarixi....47
- Türkiyənin Adana şəhərində Xocalı soyqırımı qurbanlarının xatirəsini anma mərasimi keçirilmişdir. Mərasimdə Heydər Əliyev fondunun təbliğat materiallarından geniş istifadə olunmuşdur 50
- Utanmasan oynamağa nə var və yaxud Fransadakı ermənilərin Xocalı faciəsi qorxusu....51
- Xocalı faciəsinin 17-ci ildönümü Latviyada qeyd olunmuşdur....53
- Azərbaycan ombudsmanı, Xocalı soyqırımının 17-ci ildönümü ilə əlaqədar beynəlxalq təşkilatlara bəyanat göndərmişdir....54
- Xocalı qırğınının iştirakçılarından birinin məzunu olduğu Berkli Universitetində faciənin ildönümü ilə bağlı tədbir keçirilmişdir....55
- Türkiyədə Azərbaycan həqiqətlərini əks etdirən sənədli filmin çəkilişlərinə başlanmışdır 57
- Xocalı faciəsi 58
- Xocalı soyqırımı qurbanlarının xatirəsi Qarsda da anılmışdır....60
- Xocalı soyqırımı 61
- Xocalı faciəsi insanlıq əleyhinə törədilmiş ən ağır cinayətdir. Milli Məclisin deputatı, YAP Laçın rayon təşkilatının sədri Sevindik Hətəmovun www.yap.org.az saytına müsahibəsi....68
- İzmirdə "Qafqazda aktual mövzular" konfransında Xocalı soyqırımı qurbanlarının xatirəsi anılmışdır 70
- Xocalı soyqırımı ermənilərin türk dünyasına qarşı törətdikləri cinayətlərin ən dəhşətlisidir....71
- Xocalı soyqırımı insanlığa qarşı cinayətdir 72
- Türkiyənin iqtidar partiyası Xocalı soyqırımı ilə bağlı bəyanat yaymışdır 77
- Gürcüstanda Xocalı soyqırımı qurbanlarının xatirəsi yad edilmişdir....78
- Xocalı faciəsi bəşəriyyətə qarşı yönələn soyqırımdır....79

- Xocalı: Bir gecədə yandırılan, əhalisi qətlə yetirilən şəhər. Dünya ermənilərin törətdikləri bu soyqırımını tanımalıdır....80
- Dünyanın məşhur jurnalistləri Xocalı soyqırımı haqqında yazırdı....82
- Xocalı soyqırımı yaddan çıxmamalıdır....84
- İsveç Krallığında Xocalı soyqırımına həsr olunmuş tədbir keçirilmişdir....87
- Xocalı soyqırımı bəşəriyyət əleyhinə cinayətdir....88
- XX əsrin soyqırımı və etnik təmizləmələr tarixində müdhiş səhifə....91
- Sankt-Peterburqda Xocalı soyqırımı ilə bağlı anma mərasimi keçirilmişdir....93
- Ölüm doğdu o gecə....94
- Soyqırıma gedən yol....96
- Türkiyə paytaxtının Keçiörən bələdiyyəsi Xocalı qətliamını soyqırımı kimi tanıyıb....100
- Müdhiş gecənin şahidləri....102
- Beynəlxalq hüquq Xocalı qətliamının soyqırımı olduğunu tam təsdiqləyir....104
- Xocalı faciəsi yaradıcılıq əsərlərində. Bu mövzuda daha çox publisistika öz sözünü deyib....107
- Xocalı-bəşəri faciə....109
- Dərd....111
- Dünya, Xocalı hanı?....112
- Analoqu olmayan Xocalı soyqırımı....114
- Xocalının cavabı nə vaxt veriləcək?....117
- Xocalı soyqırımı bəşəriyyətə qarşı törədilmiş ən ağır cinayətdir....118
- Xocalı faciəsi qurbanları Kərbəla şəhidləri ilə bərabər tutulmalıdır....120
- Tale bizi seçdi... Xocalı faciəsinə aparan yollar....124
- Xocalıda daha nələr itirdik....128
- “Xocalı - adı və qisası qalmış şəhər!”....130
- Ermənilərin Xocalı soyqırımı barədə etirafları....132
- Xocalılıların kədəri və ümidi....134
- Strasburqda Xocalı soyqırımına həsr olunmuş anma mərasimi keçirilmişdir....138
- Xocalı faciəsi - vəhşiliyin, qəddarlığın son həddi....139
- Bu qan yerdə qalmaz....141
- Qaysaq bağlamayan yara....143
- Türk mətbuatında Xocalı soyqırımı....145
- Elmira Süleymanova: Beynəlxalq ictimaiyyətdən Xocalı hadisələrini soyqırımı kimi tanımağı və günahkarların cəzalandırılmasını gözləyirik....146
- Daha bir millət vəkili Xocalıdan danışdı. Canan Arıtman: "Türkiyədəki heç bir hökumətin azərbaycanlı qardaşlarımızı incitməyə haqqı və səlahiyyəti yoxdur"....148
- İnsanlık ayıbı: Hocalı katliamı....149
- "Ölən uşaqları meşədə qoydular"....151
- BMT-nin binası qarşısında piket keçirilmişdir....153
- Parisdə Xocalı faciəsi ilə bağlı tədbir keçirilmişdir....154
- AFR Bundestaqının deputatı Xocalı soyqırımına görə Ermənistanı qınamışdır....155
- Xocalıda tökülən qan yerdə qalmayacaq....156
- Britaniya Parlamenti Xocalı qətliamını tanıyacaq....158
- İstanbulda “Xocalı və insan haqları” mövzusunda konfrans keçirilmişdir....159
- Xocalının qədim tarixi....160
- Xocalı şagirdləri....162
- Azərbaycan Diasporu Nyu-Yorkda Ermənistanın BMT yanında daimi nümayəndəliyi qarşısında etiraz aksiyası keçirmişdir....164
- Haaqada Xocalı soyqırımı qurbanlarının xatirəsi anılmışdır....165
- Xocalı cəzası....166
- Xocalı soyqırımına hüquqi-siyasi qiymət....167
- Xocalı qırğınlarına məhkəmə qiymət verməlidir....170
- Ankarada Xocalı soyqırımı qurbanlarına abidə ucaldılacaq....171
- "Xocalıda və digər yerlərdə ermənilərin törətdiyi cinayətlərin videogörüntülərini izləmişəm"....172
- Tanınmış jurnalist Tatyana Çaladzenin "Qarabağ Soyqırımı: məhkum olunmuş Xocalı" kitabının təqdimatı olmuşdur....173
- Müsəlman dünyasından Obamaya Xocalı çağırışı....174
- "Qarabağ genosidi: məhkum Xocalı"....175

- Xocalı Səhər Məhkəməsi Xocalı faciəsi barədə hökm çıxara bilər 177
- ABŞ Konqresmeni: Xocalı - soyqırımıdır 179
- Türk dünyasının ədibləri Haaqada Xocalı soyqırımı abidəsini ziyarət etmişlər 180
- Xocalı soyqırımı 181
- "Xocalıda soyqırım həyata keçirdik" 183
- Xocalıdan yazanlar mükafatlandırılacaq 185
- Qarabağ mövzusu və Xocalı soyqırımı mediada 186
- Əsrin faciəsi olan Xocalı soyqırımı ermənilərin azərbaycanlılara qarşı yürütdüyü etnik təmizləmə siyasətinin nəticəsidir....187
- Xocalı qətliamı Avropada insan hüquqlarına həsr olunmuş konfranslarda müzakirə ediləcəkdir....189
- «Xocalı ili» təklifi dəstəklənir 190
- "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyi müraciət ünvanlayıb....191
- Xocalı müəmmaları 192

"Xocalını anım mərasimini kilsədə təşkil etmişdik". Aslan Xalidi: "İndi Kanadada ermənilər "xristianlığın qara ləkəsi" sayanlar artır"

Əslən Güney Azərbaycandan olan və hazırda Kanadada yaşayan Azərbaycan Strateji Araşdırmalar Mərkəzinin (AzSAM) rəhbəri Aslan Xalidi bir neçə gündür Bakıya gəlib. Qeyd edək ki, A.Xalidi 12 ilə yaxın Azərbaycanda yaşayıb və 2004-cü ildən Kanadaya mühacirət edib. Onunla görüşümüzdə ilk sualımız hazırda Kanadadakı fəaliyyəti ilə bağlı oldu:

- Mən Bakıdan gedəndən sonra orada ingilis dilini öyrənməyə başladım. Həmin vaxt ingilis dili müəlliminin vasitəsilə bir millət vəkili ilə tanış oldum. O deputat Yeni Demokratlar Partiyasının (NDP) Kanada parlamentindəki təmsilçilərindən idi. Məni partiyanın sədri ilə görüşə dəvət etdi. Bu partiyanın sədri ilə geniş müzakirələrimizdən sonra onlar məni partiyaya cəlb etdilər. Və məni partiyanın Britş Kolumbiyadakı Yaxın Şərq və Qafqaz üzrə masanın başçısı təyin etdilər.

- O zaman Kanada vətəndaşlığını qəbul etmişdinizmi?

- Partiyaya üzv olarkən Kanada vətəndaşlığı üçün müraciət etmişdim. Kanadada mühacirin vətəndaşlıq alması üçün 3 il tamam olmalıdır. Amma mən 2 ildən sonra müraciət etmişdim deyə, mənə daha tez verdilər. Mən düşünürəm ki, xaricdə yaşayan hər bir azərbaycanlı öz milli kimliyini və dövlətini tanıtmaq, təmsil etmək üçün yaşadığı ölkələrdə ictimai-siyasi proseslərə nüfuz etməlidir. Bu halda, həmin insanların təsir imkanları hər hansı səfirin imkanlarından daha geniş olur. Ona görə mən sevinirəm ki, bir azərbaycanlı olaraq Kanadanın əsas partiyalarından birinin rəhbərliyində təmsil olunuram. Bizlər xarici ölkələrdə siyasi partiyalara qoşulmaqla, gələcəkdə həmin ölkələrin parlamentlərinə düşmək imkanı əldə edə bilərik. Bu gün mənim üzvü olduğum NDP-nin parlamentdə 28 deputatı var. Gələcəkdə bu 28 deputat vasitəsilə biz bir çox işlər görə bilərik.

- Məsələn, nə edə bilərsiniz?

- Yəqin ki, xəbəriniz var, ermənilər Kanadada "soyqırım" məsələsini parlamentin aşağı palatasında qəbul etdirdilər. Əgər məndən öncə də Kanadada yaşayan azərbaycanlılar, türklər bu işlərə qarşı fəaliyyət göstərsəydilər, düşünürəm ki, biz daha böyük uğurlar əldə edə bilərdik. Və bu uğuru biz özümüzə körpü sayardıq. Amma düşünürəm ki, hələ yenə də gec deyil. Biz bu işi başlamışıq. İnanıram ki, bu şansdan istifadə edəcəyik.

- Kanada okeanın o tayında olduğuna görə, həm quzey, həm də güney Azərbaycandan mühacirətə gedənlər əsasən Avropaya üz tuturlar. Və hazırda bu məkanlarda çoxsaylı soydaşlarımız yaşayır. Bəs, Kanadada nə qədər soydaşımız var?

- Bildiyimə görə, hazırda Kanadada 15 min Güney Azərbaycandan olan soydaşımız var. Amma Quzey Azərbaycandan çox deyil. Bəlkə də, minə çıxmaz, haradasa bir neçə yüz ola bilər. Birincisi, okeanın o tayına gedib çıxmaq çox çətindir. Amma belə böyük dövlətlərə gedib çıxanlar da böyük şanslara malikdirlər. Burada Azərbaycanın tanınması ilə bağlı problem ondan ibarət idi ki, bizdən əvvəl Kanadaya gedənlərin 99 faizi İranda Xomeyni hakimiyyətə gələndən sonra milli mənsubiyyətə görə yox, "şahçı" damğası ilə ölkəni tərk ediblər. Onların özü və övladları Azərbaycan haqda çox az informasiyaya malikdirlər. Amma Azərbaycan öz müstəqilliyini əldə edəndən sonra görünür ki, onların da düşüncəsində müəyyən dəyişikliklər olub. Xüsusilə o dövlətlərdə elektron media, internet çox güclü inkişaf etdiyindən, bütün evlərdə internet var. Ona görə indi Azərbaycan haqda daha çox informasiya almaq imkanları var. Bu insanlar milli məsələyə üzdə o qədər fəal qoşulmasalar da, özlərindən asılı olmayaraq, onlarda azərbaycançılıq şüuraltı təzahür etməyə başlayır. Bilirsiniz, onilliklərlə bizim müstəqil dövlətimizin olmasına imkan verməyiblər. Ona görə də, bu insanlar Azərbaycanı tanımayıblar. Biz orada görüşdüyümüz bütün soydaşlarımıza xahiş edirik ki, Kanadanın ictimai-siyasi həyatında yaxından iştirak edin, gəlin partiyalara üzv olun. Biz də dəstək verək, səviyyəli soydaşlarımızdan biri Kanada parlamentində Azərbaycanı təmsil etsin. Mən hətta deyərdim ki, xaricdəki soydaşlarımız diaspor təşkilatları yaratmaqdan daha çox, yaşadıqları ölkələrin siyasi partiyalarında fəal üzvlərə çevrilməklə Azərbaycan üçün daha çox işlər görə bilərlər. Çünki, bu partiyaların vasitəsilə problemlərimizin dünya parlamentlərində qaldırılmasına nail ola bilərik.

- Kanadada digər türkdilli diaspor təşkilatları ilə azərbaycanlıların əlaqələr hansı səviyyədədir?

- Mən düşünürəm ki, əlaqələr çox yaxşıdır. Məsələn, oradakı Türkiyə Diaspor Mərkəzinin televiziyasında Azərbaycan haqda gözəl verilişlər verirlər. Məsələn, mən Kanadada kilsədə Xocalı soyqırımının ildönümü ilə bağlı tədbir keçirmişdim, onu işıqlandırmışdılar. Bu anım mərasimini kilsədə keçirməkdə məqsədim bu idi ki, ingilislər başa düşsünlər ki, sizin dindaşlarınız olan ermənilər xristianlıqdan sui-istifadə edirlər. Siz onlara inanmayın, azərbaycanlılar xristianlara qarşı heç zaman mənfi mövqedə olmayıblar. Azərbaycanda xristianlar yaşayır, onların kilsələri var. Ermənilərsə müsəlman dövləti olan İranın və Rusiyanın himayəsi altındadırlar.

Hansısa Kanada deputatı Ermənistanın müdafiəsinə qalxırsa, demək İranın və Rusiyanın kəşfiyyatına işləmiş olurlar. Çünki İran istəyir ki, Ermənistan hər zaman ayaq üstə dayansın və Azərbaycana qarşı güc göstərsin. Apardığımız belə təbliğatı işlər bəzən nəticəsini verir və müəyyən Kanada siyasətçiləri ermənilərə göstərdikləri xoş münasibətdən geri çəkilirlər. Kilsədə biz Xocalını anım mərasimi keçirəndə orada bir şüara xüsusi yer ayrılmışdı: "Ermənilər xristianlığın qara ləkəsidir". Xristianlar da deyirdilər ki, biz bu qara ləkədən xilas olmalıyıq.

Aqil CAMAL

"Ekspress".-2009.-16 yanvar.-N.7.-S.4

Xocalı soyqırımı - erməni vəhşiliyinin bariz nümunəsi

O vaxtkı Azərbaycan hakimiyyətinin də bu qanlı aksiyada dolayısı ilə rolu az olmayıb

Xocalı soyqırımını dünya ölkələri ermənilərin Azərbaycan xalqına qarşı soyqırımı kimi tanımalıdır. Ermənilər tarixən öz havadarlarının köməyi ilə Azərbaycan xalqına qarşı ərazi iddiasında olub, tarixi torpaqlarımıza qəddarcasına basqın edərək işğal ediblər, xalqımıza qarşı soyqırımı həyata keçiriblər. Ermənilərin həyata keçirdiyi soyqırımı siyasətinin ən dəhşətlisi, insanlığa sığmayan, tarixdə görünməmiş terror aksiyası - Xocalı soyqırımıdır. Xocalı faciəsi XX əsrin ən dəhşətli soyqırımıdır. Lakin gəlin görək, bu misli görünməmiş erməni vəhşiliklərinə Azərbaycanın o zamankı iqtidarı Ayaz Mütəllibov, hakimiyyətə can atan və sonradan hakimiyyətdə olan "demokrat bəylər", eyni zamanda dünya ölkələri nə cür münasibət bəslədilər və niyə susdular?!

Əvvəla, ona görə ki, ölkə rəhbəri olan A.Mütəllibov bu qanlı terroru, vəhşi soyqırımı öz xalqından və dünya ölkələrindən, beynəlxalq təşkilatlardan gizlətdi. Fevralın 27-də rəsmi qəzetlər və dövlət televiziyası prezidentin mətbuat xidmətinin məlumatında bildirdilər ki, Xocalı şəhərinə hücum olub, 2 nəfər ölüb. Axı Azərbaycan öz müstəqilliyini 1991-ci ilin 18 oktyabrında elan etmişdi. Sovetlər İttifaqı yox idi. Faciə baş verən zaman Azərbaycan artıq 4 ay idi ki, müstəqil dövlət idi.

Tutaq ki, 1990-cı il yanvarın 20-də törədilən terror aksiyası zamanı Azərbaycan SSRİ-nin tərkibində idi və ona görə də heç bir dövlət bu soyqırımına münasibət bildirmədi. Yalnız Moskvada həyatı təhlükə qarşısında olan, təcrid olunmuş şəraitində yaşayan Heydər Əliyevin səsi bütün dünyaya yayıldı. Xocalı faciəsi baş verən zaman artıq Azərbaycanı müstəqil dövlət kimi bir sıra ölkələr tanımışdı. Azərbaycan BMT-nin üzvü idi. 1991-ci ildə Türkiyə, 1991-ci il dekabrın 25-də ABŞ Azərbaycanı rəsmən tanıdı.

Bəs onda sual olunur, bu qanlı terror aksiyasından sonra, yəni Xocalı şəhərində 613 nəfərin vəhşicəsinə öldürüldüyü, 487 nəfərin şikəst edildiyi, 1275 nəfərin əsir alınaraq zülmə, işgəncəyə məruz qalanları, 6 min əhalisi olan Xocalı şəhərinin tamamilə yandırılması, öldürülmüş meyitlərin üzərində ermənilərin sərxoşluq edərək toy-bayram etmələri və s. törədildiyi halda, A.Mütəllibov "iqtidarı" nə üçün Xocalıda bas verənləri gizlədərək orada 2 nəfərin öldürüldüyünü bayan etmişdi? Mütəllibov öz vəzifəsini qorumaq üçün bu soyqırımı barədə yanlış məlumat verdi. O, hakimiyyətə can atan cəbhəçilərdən, müsavatçılardan ehtiyat edirdi. Bu, Mütəllibovun öz xalqına xəyanəti idi. Əksinə, faciə ilə əlaqədar olaraq Mütəllibov, Ali Soveti soyqırımı barədə öz xalqına, dünya ölkələrinə BMT-ya bəyanatla müraciət etməli idi. Dünya ölkələrinin diqqətini bu qanlı soyqırımın diqqətini bu qanlı soyqırımına yönəltməli idi.

Sonra isə bunu bacarmadığı halda, özünü xalqı qarşısında günahkar bilərək istefa verməli və el ağsaqqalı Heydər Əliyevi Bakıya dəvət edib ondan xalqa rəhbərlik etməyi xahiş etməli idi. Çox təəssüf ki, Xocalı faciəsinə gedən yolu günü-gündən yaxınlaşdıran Mütəllibov bunu etmədi. Hakimiyyətə can atan İsa Qəmbər, Ə.Elçibəy, Y.Məmmədov və başqaları Mütəllibovdan tələb etmirdilər ki, nə üçün bu soyqırımı xalqdan və dünya ictimaiyyətindən gizlədirsiniz? Çünki İsa Qəmbərin, Ə.Elçibəyin və başqalarının şəxsi maraqları - İsa Qəmbər də, Ə.Elçibəy də və onlara xidmət edən "bəylər"də bu faciədən bəhrələnərək hakimiyyətə can atırdılar. Xocalı faciəsinə, soyqırımına dünya bax bu səbəblərdən susdu, özü də bərk susdu. Atalar yaxşı deyib: ***"Həmişə yatan, sakit duran, ağlamayan uşağa öz anası da süd verməz".*** A.Mütəllibova, ondan sonrakı rəhbərlər - Y.Məmmədov, İsa Qəmbər, Ə.Elçibəy də qəflət yuxusunda yatdılar, dünya da susdu. Azərbaycanın səsinə səs vermədi. Soyqırıma, terrora məruz qalan Azərbaycan İsa Qəmbərin, Ə.Elçibəyin hakimiyyətləri dövründə daha da təkləndi. Xocalı faciəsindən təxminən 2 ay sonra hakimiyyətə gələn İsa Qəmbər heç soyqırımı barədə fikirləşmədi də. Ə.Elçibəy də öz hakimiyyəti dövründə Azərbaycanın başına gətirilən terrordan, soyqırımından, əsasən Xocalı soyqırımı barədə heç bir yerdə söhbət açmadı. Fakt üçün göstərə bilərəm. 1992-ci ilin iyulunda Finlandiyanın paytaxtı Helsinkidə ATƏT-in sammiti keçirilmişdir. 1992-ci ildə ABŞ prezidenti olmuş Corc Buş Ə.Elçibəyə məktubla müraciət edərək, ABŞ-ın bütün sahələrdə Azərbaycanla sıx əməkdaşlığa və qarşılıqlı münasibətlərin inkişafına hazır olduğunu bildirmişdi. Həmin vaxt hesab etmək olardı ki, ***"demokrat bəylər" bu şəraitdən istifadə edərək, Azərbaycanın başına gətirilən dəhşətli Xocalı soyqırımı, terror əməllərindən, torpaqlarımızın işğala məruz qalmasından, bütövlükdə erməni vəhşiliklərindən, ölkənin üzləşdiyi Qarabağ problemindən ABŞ prezidentinə rəsmən müraciət edərək məlumat verəcəklər. Lakin Ə.Elçibəyin təcrübəsizliyi, qlobal siyasət məsələsindən baş çıxarmaması Helsinki sammitində ABŞ - Azərbaycan dialoqunun başlanmasına imkan vermədi. Helsinki sammitindən Azərbaycanın xeyrinə istifadə etmək imkanı əldən verildi. Azərbaycan xalqının başına ermənilər tərəfindən gətirilən faciələr - Xocalı soyqırımı, torpaqlarımızın ermənilər tərəfindən işğal edilməsi və s. məsələlər barədə həmin sammitdə prezident kimi iştirak edən Ə.Elçibəy bir kəlmə də danışmadı. Nəticədə "demokratların" hakimiyyəti dövründə Azərbaycan***

dünya miqyasında görünməmiş təcavüzə, soyqırımına, Xocalı müsibətləri görmüş, ərazisi işğal olunmuş, bir milyondan artıq qaçqın, köçkünü olan Azərbaycan dünya ölkələrindən yardım kömək almaq əvəzinə təkləndi. Azərbaycan Xocalı soyqırımından doqquz, on ay sonra 1992-ci ilin dekabrında ABŞ Konqresi tərəfindən Azərbaycana hər cür yardım göstərilməsini qadağan edən "907-ci düzəliş" deyilən sənədlə "mükafatlandırıldı".

Əksinə, Xocalı soyqırımını həyata keçirən ermənilər və Ermənistan təcavüzkar kimi dünyada tanınmaq əvəzinə, erməni millətçilərinin apardığı siyasət nəticəsində dünyada "əzilən xalq", "soyqırıma" məruz qalan xalq kimi tanındı. Erməni lobbisinin təsiri ilə dünya ölkələrindən dəstək aldı. ABŞ dövləti 1992-ci ildən Ermənistana 600 milyon dollar yardım göstərmişdir. Bizim "demokrat bəylər" isə xalqı, dünya ölkələrinin diqqətini Xocalı faciəsinə yönəltmək əvəzinə bu hadisədən hakimiyyətə gəlmək üçün məqam kimi istifadə etdilər.

11 sentyabrda ABŞ-da baş verən terror aksiyasına dünya ölkələri tərəfindən tez bir zamanda münasibət bildirildi. O cümlədən terrorizmi beynəlxalq cinayət hesab edən və ona qarşı bütün dünya ölkələrini birgə mübarizəyə səsləyən Azərbaycan prezidenti Heydər Əliyev bu terror aksiyasına kəskin etirazını bildirdi. Amerika prezidenti və xalqı ilə həmrəy olduğunu bəyan etdi. ABŞ-da baş verən terror bütün dünyaya olduğu kimi, çatdırıldı. ABŞ prezidenti bəyanat verərək dünya ölkələrini terrorizmə qarşı mübarizəyə səslədi. Xocalı soyqırımı baş verən zaman isə ölkə prezidenti faciəni bütün təfsilatı ilə dünyaya bəyan etmək əvəzinə, ermənipərəst mövqe tutaraq bu qanlı terror əməliyyatını gizlətdi.

"Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" BMT-nin 1948-ci il 9 dekabr tarixli konvensiyası ilə soyqırımı beynəlxalq hüquq normalarını pozan cinayət elan olunmuş və həmin cinayətin törədilməsi üçün bu və ya digər dövlətin məsuliyyətinin müəyyənləşdirilməsinə dair iddiaların təmin edilməsi beynəlxalq məhkəmənin səlahiyyətinə aid edilmişdir. Ona görə də bir ziyalı vətəndaş kimi təklif edirəm. BMT-yə, Beynəlxalq Məhkəməyə respublika ictimaiyyəti və xalqı adından Xocalı soyqırımı günahkarlarının - soyqırımı təşkil və həyata keçirən Ermənistanın o zamankı rəhbərləri və millətçi dairələri, soyqırımı tapşırıqlarını həyata keçirən hərbi hissə komandirləri, qanlı faciəni, dəhşətli soyqırımı öz xalqından və dünya ölkələrindən gizlədən o zamankı Azərbaycan prezidenti A.Mütəllibov, faciədən hakimiyyətə gəlmək üçün istifadə edən və hakimiyyətdə olduğu müddətdə Xocalı soyqırımı barədə dünya ölkələrinə məlumat verməkdən çəkinən İsa Qəmbər və b. cəzalandırılmaq üçün müraciət olunsun. Bu müraciət bütün dünya ölkələrinin parlamentlərinə göndərilsin.

Bundan başqa Azərbaycanın bütün şəhər və rayonlarında Xocalı soyqırımını əks etdirən abidələr ucaldılmalıdır. Xocalı qurbanlarına hər bir rayonda, kənddə matəm mərasimləri keçirilməli və ehsan verilməlidir.

Mətbuatda ayrı-ayrı rayonlardan olan ziyalılarımızın Xocalı soyqırımı ilə bağlı məqalələri dərc olunsa, yaxşı olar. Mən də soykökü Qarabağdan olan, Tovuzda doğulub boya-başa çatan bir ziyalı kimi həmişə olduğu kimi, Xocalı ilə bağlı fikir və təkliflərimi mətbuat vasitəsi ilə çatdırmağa çalışıram.

Dəmir QURBANLI

“Azad Azərbaycan”.-2009.-10 fevral.-№20.-S.4

Qafa tasına qan möhürü vurulmuş cani

O, azərbaycanlıların əbədi düşməni olan ermənisevər Mixail Qorbaçovdur. Daim torpaq aclığı çəkən eqoist ermənləri Azərbaycanın üstünə qısqırdan, yüz minlərlə azərbaycanlının öz əzəli torpaqlarından - Qərbi Azərbaycandan qovulmasına fitva verən, özünün sərsəm "perestroykası" ilə Rusiyanı pis günə qoyan, qan tökülməsinə daxili ehtiyac duyan və buna görə də adı lənətlə çəkilən bu subyektin qafa tasındakı qan ləkəsi möhürü onun dünyaya səfalətlər törətmək üçün gəldiyinin əyani sübutudur. Qorbaçovun təhriki ilə Azərbaycana təpədən dırnağadək silahlanmış qoşun hissələrinin göndərilməsi 20 Yanvar hadisələrinin törədilməsi ilə nəticələndi. Əsasən ermənilərin kompakt yaşadığı Krasnodar bölgəsindən çağırılmış erməni əsilli əsgərlərin Bakıda törətdikləri vəhşiliklər heç vaxt yaddaşlardan silinməyəcəkdir. Azərbaycanlıların əzəli Qərbi Azərbaycan torpaqlarından qovulması və Ermənistanın monodövlətə çevrilməsi də məhz Qorbaçovun bəd əməllərinin nəticəsidir. Bu şeytan xislətli partiya funksioneri azərbaycanlılara qarşı düşmənçilik əməllərini asanlıqla reallaşdırmaq üçün ilk növbədə, Sov.İKP Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin istefaya çıxmasına nail oldu. Bu, rəhbərsiz və arxasız qalmış millətin başına oyunlar açmaq üçün yaxşı fürsət idi.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 1988-ci ilin avqust ayında keçirilmiş iclasında Qorbaçovun Ermənistanın Elmlər Akademiyasının prezidenti akademik Ambarsumyanla dialoqu siyasi baxımdan çox diqqət çəkəndir. Qorbaçov soruşmuşdu: "Əsrin əvvəlində İrəvanda Azərbaycan əhalisinin sayı nə qədər idi?" Ambarsumyan sualı bir qədər çaşqınlıqla qarşıladığından, suala sualla cavab vermişdi: "Əsrin əvvəlində İrəvanda?" Qorbaçov: "Hə, İrəvanda" - demişdi. Ambarsumyan erməni bicliyi işlədərək demişdi: "Doğrusu, bilmirəm". Qorbaçov: "Siz bunu bilməliydiniz. Əgər bilmirsinizsə, mən xatırladaram" - deyə sözünü davam etdirmişdi. "Əsrin əvvəlində İrəvan əhalisinin 44 faizi azərbaycanlılar idi. Bəs indi nə qədər azərbaycanlı qalmışdır?" Ambarsumyan bu sualı belə cavablandırmışdı: "İndi çox azdır, yəqin ki, bir faiz ola-olmaya". Qorbaçov öz məkrini belə açıqlamışdı: "Mən ermənləri azərbaycanlıları oradan qovub çıxardıqlarına görə günahlandırmaq istəmirəm. Ona görə ki..."

Ona görə ki, Qorbaçov da "Ermənistan" adlandırılan ərazinin vaxtilə azərbaycanlılara məxsus olduğunu bilməmiş deyildi. Onu da bilirdi ki, indiki Ermənistan Qərbi Azərbaycan ərazisi olmuşdur və onu XIV əsrin sonundan XIX əsrin 20-ci illərinədək, yəni, Azərbaycan ərazilərinin Rusiya tərəfindən istilasınadək azərbaycanlı xanlar idarə etmişlər. Onların siyahısını oxuculara təqdim etməyi lazım bilirik: Əmir Sada (XIV əsrin sonu - 1410-cu il); Pirhüseyn (Əmir Sadın oğlu, 1410-cu ildən); Piryaqub (Pirhüseynin oğlu, 1420-ci il); Əbdül (Pirhüseynin oğlu-1430-cu il); Uzun Həsən (1447-ci il); Cahan şahın hökmü ilə Yaqub bəy (1440-cı il); Həsənəli Qaraqoyunlu (1460-cı ildən); Div Sultan Rumlu (1515-ci ildən); Hüseyn xan Sultan (1550-ci ilədək); Şahqulu Sultan Ustacalı (1550-1575-ci illər); Qara Mustafa (1577-ci il); Mahmud xan Toxmaq (1576-1583); Fərhad paşa (1580); Məhəmməd Şərif paşa (1604-cü ilədək); Əmirqun Xan Qacar (Şah Abbas dövründə - 1605-1621); Təhməzqulu (1635); Murtuza paşa (1635-ci il); Kəlbəli xan (1636-1639); Məhəmməd xan Çaqatay Kötük (1639-1648); Xosrov xan (1648-1652); Məhəmmədqulu xan (1652-1656-cı il); Nəcəfqulu xan (1656-1663-cü il); Abbasqulu xan (1663-1666-cı illər); Səfiqulu xan (1666-1674-cü illər); Sarıxan bəy (1674-1675-ci illər); Səfiqulu xan (Təbrizli Rüstəm xanın oğlu - 1675-1679-cu illər); Zal xan (1679-1688-ci illər); Murtuzaqulu xan (Naxçıvanlı Məmmədrza xanın oğlu- 1688-1692-ci illər); Məhəmmədqulu xan(1691- 1694-cü illər); Zöhrab xan (1691-ci il); Fərzəli xan (1694-1700-cü illər); Zöhrab xan (1700-1705-ci illər) Əbdülməhəmməd xan (1705-1709-cu illər); Mehralı xan (1709-1719-cu illər); Allahqulu xan (1719-1725-ci illər); Rəcəb paşa (1725-1728-ci illər) İbrahim paşa və Mustafa paşa (1728-1734-cü illər); Əli paşa (1734-cü il); Hacı Hüseyn paşa (1734-cü il); Məhəmmədqulu xan (1735-1736-cı illər); Pirməhəmməd xan (1736-cı il) ; Xəlil xan (1752-1755); Həsənəli xan Qacar(1755-1762-ci illər); Hüseynəli xan(Həsənəli xanın qardaşı 1762-1783-cü illər); Qulaməli xan (Hüseynəli xanın oğlu - 1783-1784-cü illər); Məhəmməd xan(Qulaməli xanın qardaşı - 1784-1805-ci illər); Mehdiqulu xan (1805-1806-cı illər); Marağalı Məhəmməd xan (1806-1807-ci illər); Hüseyn xan Qacar qardaşı Həsən xan ilə birlikdə (1807-1827-ci illər). Xatırladaq ki, İrəvanın azərbaycanlı xanlarının adları Ermənistan Sovet Ensiklopediyasının 3-cü cildindən iqtibas edilmişdir!

Məlum olduğu kimi, erməni-rus münasibətlərinin özülü hələ çar Birinci Pyotrun dövründə qoyulmuşdu. Bu münasibətlərin əsasını Rusiyanın Şərqin müsəlman ölkələrinə, xüsusilə, Osmanlı Türkiyəsinə qarşı düşmənçilik siyasəti təşkil edirdi. Ona görə də Birinci Pyotr 1724-cü ilin oktyabr ayında ermənilər barədə fərman imzalamışdı. Həmin fərmanda ermənilərə Rusiyanın istila etdiyi ərazilərdə münbit torpaq ayırmaq, başqa yerlərdən köçürülmüş hayların, yəni, ermənilərin məskunlaşması üçün hər cür şərait yaratmaq göstərişi verilmişdi.

1826-1828-ci illərdə Rusiya-İran müharibəsi zamanı İrəvan xanlığı istila olunduqdan sonra (1 oktyabr 1827-ci ildə) erməni katalikosu Aştaraklı Nerses ermənilərin zəbt olunmuş qədim Azərbaycan torpaqlarına mərhələlərlə köçürülməsi planını hazırlamışdı. Həmin planın ərsəyə gətirilməsində və həyata keçirilməsində Rusiyanın İrandakı səfiri şair A.S.Qriboyedov yaxından iştirak etmişdi. Keşiş Nerses 1827-ci ilin noyabr ayında Lazarev (Lazaryan) adlı bir imkanlı məmuru (Lazarevlər dvoryan ailəsi idi və 1727-ci ildə İrandan Rusiyaya köçmüşdü) Peterburqdan Təbrizə çağırıb onun ermənileri Azərbaycan torpaqlarında məskunlaşdırılmasına yardım göstərməsini xahiş etmişdi. Keşiş Nerses sülh müqaviləsi bağlanan zaman İranın kəndlərində və şəhərlərində yaşayan ermənilərin böyük Rusiya imperiyasının himayəçiliyi ilə öz vətənləri (?) Ermənistana (yəni, Qərbi Azərbaycana) qaytarılması barədə maddə salınmasını istəmiş və A.S.Qriboyedov da erməni katalikosunun bu xahişinə əməl etməyi unutmamışdı. Türkmənçay müqaviləsinin 15-ci maddəsi bütünlüklə ermənilərin xeyrinə yazılmışdı. Ermənilərin İrandan bizim yerlərə köçürülmələri üçün çox münbit şərait yaradılmışdı. Əvvəlcə 40-50 min , 1828-1829-cu illərdə Rusiya-Türkiyə müharibəsi dövründə və ondan sonra Türkiyədən də 90 min erməni Cənubi Qafqaza, xüsusilə də, Şimali Azərbaycana köçürülmüşdü. İrandan, Türkiyədən və Şərq ölkələrindən ermənilərin köçürülməsi prosesi sonrakı vaxtlarda da davam etdirilmişdi. Rus publisisti və məmuru N.Şavrov hələ 1911-ci ildə yazmışdı ki, "...hazırda cənubi Qafqazda yaşayan 1 milyon 300 min ermənin 1 milyondan çoxu yerli deyil, kənardan gəlmədir. Onlara 200 min desyatin dövlət torpağı paylanmışdı. Ermənilər Yelizavetpol quberniyasının dağlıq ərazilərində və Göyçə gölünün sahillərində məskunlaşdırılmışdılar. Onu da deyək ki, Pyotrun bu siyasətini ondan sonrakı xələfləri yüz illər ərzində dəstəkləməkdə davam etmişlər. Onların arasında Qorbaçovun da adı çəkilməlidir. O, ermənilərin Cənubi Qafqaz bölgəsinə İrandan və Türkiyədən köçürüldüyünü yaxşı bilsə də, azərbaycanlılara və bütün türk aləminə nifrət hissi bəsləməsi səbəbindən ədalət naminə nəsə yaxşı bir hərəkət etməsi mümkünsüz idi. Çünki əsil-nəcabətsiz bu subyektin əti-qanı ədalətsizlik hüceyrələrindən yapılmışdı.

Qorbaçov tutduğu kürsünü itirmək xofu yaşadığından özündən güclü dövlət xadimlərindən canını qurtarmaq istəyir, ona görə də ətrafına Stavropoldan gətirdiyi özükimilərindən zəif fon yaratmağa çalışırdı. O, yaxşı bilirdi ki, Siyasi Büro üzvlərinin demək olar ki, hamısı baş katib postuna Heydər Əliyevin layiq olması fikrindədir. Ancaq buna onun slavyan mənşəli olmaması imkan vermir. Başı anadangəlmə qan ləkəli Qorbaçov ulu öndər Heydər Əliyevin Sİyasi Bürodan uzaqlaşdırılması üçün tədbirlər tökməyə başlamışdı. Siyasi Büro üzvlərinin iclasını keçirmədən və onların fikrini öyrənmədən özbaşına hərəkətlər edirdi. Bütün bunların nəticəsində ulu öndərimiz Siyasi Bürodan və tutduğu vəzifədən - SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verməli olmuşdu. Beləliklə də, hələ Stavropol diyarı Kommunist Partiyasının birinci katibi olan vaxtdan erməni lobbisinin qulluğunda duran bu subyektin Azərbaycana və azərbaycanlılara qəsd etmək imkanları genişlənmişdi. Azərbaycanda əsasən Krasnodar erməni quldurlarından təşkil olunmuş rus qoşun hissələrinin Bakıda törətdiyi 20 Yanvar cinayətləri barbarlara xas olan cinayət əməlləri idi. Ermənilər açıq-aydın baş qaldırdılar və Azərbaycana qarşı torpaq iddialarını getdikcə genişləndirdilər. Bunun sonrasının nə ilə nəticələndiyini bütün dünya bilir: öz vətəninin bölünməzliyi naminə ayağa qalxmış azərbaycanlılara, əsasən Krasnodardan orduya çağırılmış erməni quldurlarının Bakıda və Azərbaycanın digər bölgələrində 20 Yanvarda tutduğu divan yaddaşlarda silinməz izlər buraxmışdır. Lakin dünya ictimaiyyəti işğalçıların vəhşiliklərinə obyektiv qiymət vermir. Əgər ulu öndərimiz hakimiyyətdə qalsaydı, bu olaylar baş verməyəcəkdi. Atasız və arxasız qalmış millətimizi hətta dünya ictimaiyyəti də müdafiəyə qalxmırdı. Ən böyük ədalətsizlik hücumlara məruz qalmış azərbaycanlılar ilə erməni qəsbkarlar arasında heç bir fərq qoyulmamasında idi.

Hətta bəzi millət nümayəndələrimiz də sovet xofu qarşısında qorxaqlıq göstərirdilər və erməni təbliğatının yalanlarına uyurdular. Bildiyimiz kimi, ermənilərin azərbaycanlılara qarşı ərazi iddialarının başlanğıcını qoyan akademik Aqanbekyan idi. O, erməni lobbisinin mərkəzi sayılan Parisdə çıxışı zamanı Qarabağın ermənilərə verilməsinin (Ermənistana birləşdirilməsinin) vacibliyini xüsusi vurğulamışdı. Azərbaycanda bundan xəbər tutandan sonra akademikə qarşı nifrət dalğası ucalmışdı.

Ermənilərin Qarabağ torpaqlarını özününküləşdirmək iddiaları ilə çıxışları dövrünün başlanğıcında Ermənistandan hərbi sursatla yüklənmiş vertolyotların Xankəndinə uçuşları adi hal almışdı. Günlərin birində yüksək vəzifəli bir dövlət məmurundan soruşdum ki, nə üçün həmin vertolyotların vurulub salınmasına təşəbbüs göstərmirsiniz? O, mənə sadəlövh adam olduğumu qandırmaq üçün belə dedi: "Əşşi, nə danışırsan, erməni vertolyotlarını vursaq, dünya ictimaiyyəti bizi cinayətkarlıqda suçlayar. Yox-yox, bu, mümkün olan şey deyil". Dünya ictimaiyyəti isə erməni vəhşiliklərini suçlamadı, beləliklə də, ərazimizin 20 faizi zəbt olundu, yerli əhaliyə olmazın divan tutuldu. Hətta dünya ictimaiyyəti erməni faşistlərinin rus alaylarının köməyi ilə törətdiyi Xocalı soyqırımı dünya ictimaiyyəti tərəfindən pislənmədi. "Böyük Ermənistan" istəyinin reallaşmasının əsas ideoloqlarından biri olan Zori Balayan adlı caninin Xocalı soyqırımında bilavasitə iştirakını sübuta yetirən faktlar var. 1935-ci ildə Xankəndidə doğulmuş bu monqolsifət erməni azərbaycanlılara nifrət hissi ilə yazıb 1996-cı ildə nəşr etdirdiyi "Ruhumuzun canlanması" kitabında Xocalı faciəsinə haqq qazandırır, Xocalı şəhərində azərbaycanlılara qarşı törədilmiş soyqırımında iştirakını qürur hissi ilə boynuna alır.

Həmin kitabda yazılmışdır: "Biz Xaçaturla birlikdə bir azərbaycanlı evinə girəndə gördük ki, bizim əsgərlər 13 yaşlı türkü qollarından pəncərə çərçivəsinə mismarlamışlar. Həmin yeniyetmənin qışqırığının eşidilməməsi üçün Xaçatur onun anasının kəsilmiş döşünü uşağın ağzına dürtdü.

Mən də həmin uşağın qarnının, başının və köksünün dərisini soydum. Sonra da saata baxmağa başladım. Yeniyetmə 7 dəqiqədən sonra çoxlu qan itirməsi səbəbindən öldü. Mən həkim olduğum üçün bu hərəkətimə görə bir o qədər də sevinmədim. Məni sevindirən o oldu ki, mən xalqımın qisasını ala bildim. Sonra Xaçatur uşağın cəsədini parçalayıb azərbaycanlılarla bir kökdən hesab etdiyi itlərə atdı. Axşam çağı daha üç türk (azərbaycanlı) yeniyetməsini bu yol ilə qətlə yetirdik. Mən bununla da ermənilər sevən bir adam kimi öz borcumu yerinə yetirdim. Xaçaturun və erməni əsgərlərin gözlərində qisas qığılcımları parladığını gördüm. Sonra mənim uşaqlıq dostum mayor Suren dedi: "Biz yırtıcı deyilik, ona görə də ürəyimizi soyuq saxlamalıyıq. Türk cəlladlarının qətlə yetirdikləri ermənilərin ruhları bizim bu qisas əməllərimizdən sakitləşməlidir.

Səhərisi gün kilsəyə gedib ruhumuzu və 1915-ci ildə həlak olanların ruhlarını dünən gördüyümüz natəmizlikdən təmizləmək üçün dualar etdik. Hər halda, Xocalını vətənimizin bir hissəsini zəbt etmiş 30 min azərbaycanlıdan təmizləyə bildik". Biz Surenin qonağı olanda Xaçatur yorğun səslə dedi: "Ermənilər doğma torpaqlarını azad edərək Ermənistan əzəmətini özünə qaytarmalıdır".

Qarabağda vuruşmağa gəlmiş Livan ermənisi Davud Xeyriyanın Xocalı qırğınından bəhs edən "Xaç naminə" kitabındakı (Beyrut-2000) bəzi yazılanlarla tanış olaq. "Bir şaxtalı qış günündə erməni işğalında olan ərazidəki Daşbulaq yaxınlığından bir kilometrlik bataqlığı keçmək üçün meyitlərdən körpü salmalı olduq. Mənim ölülərin üstündən keçib getmək istəmədiyimi görən polkovnik Ohanyan mənə işarə etdi ki, qorxmaq lazım deyil. Guya ki, bu, müharibə qanunlarından biridir. Mən qana bulaşmış 9-11 yaşlı qız uşağının meyitinin və başqa meyitlərin üstündən keçib getdim. Çəkmələrim, şalvarım qana bulaşmışdı" Xeyriyan daha sonra yazır: "Martın 2-də ermənilərin meyitləri yığıb yandırmaq tapşırıqlarını yerinə yetirən Qaflan qrupu Xocalının qərbindən bir kilometr aralıda cəsəd qalaqlarına od vurub yandırırdılar. Cəsədləri daşıyan avtomobillərdən birinin banında təqribən 10 yaşlı bir qız uşağı gördüm. O, boynundan və qollarından yara almışdı. Əyilib diqqətlə baxanda gördüm ki, qız ağır-ağır nəfəs alır. Güclü şaxtaya, aclığa baxmayaraq o, hələ sağ idi. Mən ölümlə mübarizə aparan bu körpə qızın gözlərinin ifadəsini heç bir vaxt unutmayacağam. Bİr qədər sonra Tiqran adlı bir əsgər qızın saçından tutub onu alovlanmaqda olan meyit tonqalına atdı. Ölməyən adamlar insanları köməyə çağırırdılar. Ətrafda ancaq vəhşiləşmiş ermənilər dayanmışdı və törətdikləri cinayət əməlindən qürur hissləri keçirirdilər. Onlar öz işlərini "xaç naminə" görürdülər".

366-cı motoatıcı polkun komandiri polkovnik Y.Zarviqarov və digər məsul şəxslər ordu dairə komandanlığının icazəsinə əsasən ermənilərin quldur dəstələrinin dinc azərbaycanlılara divan tutmalarına yardımçı olmuşdular. Onlar azərbaycanlıları meydana yığıb güllələyirdilər. Hətta köməksiz uşaqlara da aman vermirdilər. Erməni separatçılara silah-sursat verilməsində general-polkovnik Qromovun (hazırda Moskva vilayətinin qubernatorudur), general-leytenant Qrekov, general-leytenant Oqanyan, polkovnik Zarviqarov, polkovnik Kraule xüsusi canfəşanlıq göstərmişdilər. Dördüncü ordu 23-cü motoatıcı diviziyanın döyüşçülərinə qanlı Xocalı əməliyyatının keçirilməsində hər cür şərait yaratmışdılar. Azərbaycanlılara qarşı törədilən ağılasığmaz vəhşilikləri Fransadan gəlmiş operatorlar - Jül Barelyan, Şerik Sitaryan güllələnmiş xocalılıların cəsədlərini 02-19 MM nömrə nişanlı

KamAZ avtomaşınında gətirib qaladıqları böyük tonqalda yandırma səhnələrini soyuqqanlıqla lentə alırdılar. Ona görə ki, azərbaycanlılara ölçüyəgəlməz dərəcədə kin-küdurət hissi ermənilərin qanında-canındadır.

Ermənilərlə birləşib əsir azərbaycanlıları böyük məmnunluqla qətlə yetirənlər arasında polk komandirinin müavini polkovnik Baylukov, birinci batalyonun komandiri polkovnik İ.Moiseyev, ikinci batalyonun komandiri mayor S.Ohanyan, üçüncü batalyonun komandiri mayor Nabokix, birinci batalyonun qərargah rəisi mayor V.Çigiçyan, polkun kəşfiyyat rəisi mayor V.Ayriyan, rota komandiri baş leytenant O.Mirzoxalzarov, kəşfiyyat vzvodunun rəisi baş leytenant S.Xrinxua, tank rotasının komandiri baş leytenant V.Qarmaş, rota komandiri baş leytenant N.Akopyan, rota komandiri baş leytenant V.Vavilovski, vzvod komandiri baş leytenant A. Lısenko, batareya komandiri baş leytenant V.Azarov, tank əleyhinə batareyanın komandiri baş leytenant İ.Abramov, üçüncu tank rotasının komandiri leytenant O.Balezniy, tank vzvodunun komandiri leytenant A.Smakin, istehkamçılar rotasının komandiri leytenant S.Raçkovski, kəşfiyyat rəisinin müavini leytenant L.Bondaryov, radio-kimyəvi vzvodun rəisi leytenant A.Kulov, habelə kiçik zabit heyətindən 41 erməni hərbi qulluqçu da var idi.

Azərbaycanlılara qarşı bu kütləvi qırğında Sxinvalidə və Telavidəki hərbi bazalardan qalxan sovet vertolyotlarının da iştirakına dair dəqiq faktlar var. 1992-ci ilin 12 və 16 fevralında Rusiya prezidenti Boris Yeltsin 7-ci ordunun baş komandanı general-mayor Reuta tapşırmışdı ki, Telavidə uçuş kursunu bitirmiş erməni pilotlara Mİ-24R markalı yeni vertolyotlar versin. Erməni pilotların 19 fevralda aldıqları vertolyotlardan ibarət eskadrilya 22 fevralda 366-cı motoatıcı polkun tərkibinə qatılmışdı. Xocalını bombalayan vertolyotların və

onların şəxsi heyətlərinin siyahısı aşağıda verilir: 39[1]-li vertolyot və pilotu Livan ermənisi Romb Qalakçiyan; 40[1]-li vertolyot və pilotu suriyalı erməni Razdan Minoyan; 29[1]-li vertolyot və pilotu HAMAS təşkilatının üzvü Livan vətəndaşı Zahid əl- Məhəmməd; 17[1]-li vertolyot və pilotu İrəvandan olan hərbi qulluqçu Ararat Saracyan; 45[1]-li vertolyot və pilotu İrəvan milisinin əməkdaşı Suren Pirimyan.

Həmin vertolyotlar fevral ayının 26-da saat 16-dan 24-dək Xocalını bombalamaq üçün 89 ədəd raket buraxmışdılar. Fevralın 26-da Zahid əl-Məhəmməd və Suren Pirimyan döyüşdə fəallıq göstərdiklərinə görə "Qızıl Xaç" ordeni ilə təltif olunmuşdular.

General-leytenant Yuri Qrekovun verdiyi məlumatda deyilirdi ki, "Xocalı ərazisini azərbaycanlı yaraqlılarından təmizləmək üçün "Qrad" və "Uraqan" tipli artilleriya qurğularından istifadə olunmuşdur.

Fransa jurnalisti Jan-İv-Yunet gördüklərindən dəhşətə gəlib yazmışdı: "Biz Xocalı faciəsinin şahidləriyik. Qətlə yetirilmiş yüzlərlə dinc əhalinin - qadınların, uşaqların, qocaların və Xocalını müdafiəyə qalxanların cəsədlərinin səpələndiyi yerləri görmüşük. Mən müharibə və alman faşistlərinin vəhşilikləri barədə çox eşitmişəm, bütün bunlar ermənilərin törətdiyi vəhşiliklərlə müqayisədə heç nədir. Onlar 5-6 yaşlı uşaqları da güllələyir və tonqalda yandırırdılar".

"İzvestiya" qəzetinin müxbiri Belıx gördüklərini belə qələmə almışdı: "Ermənilər öldürdükləri adamların gözlərini çıxarmış, qulaqlarını kəsmiş, baş dərilərini soymuşdular. Bəzi meyitlərin boyunlarını da vurmuşdular. Bir neçə meyiti toplayaraq bronetransportyorun dalınca sürükləyirdilər".

"Sandi Tayms"da dərc olunan məqalədə yazılmışdı ki, "...ermənilər şəhərdən baş götürüb qaçan ailələrə də aman vermir, onları avtomatlardan və pulemyotlardan açılan atəşlə kütləvi şəkildə qırırdılar".

Parisdə çıxan "Valer aktyuel" jurnalının 14 mart 1992-ci il tarixli nömrəsində yazılmışdı: "Bu muxtar regionda erməni hərbi birləşmələrinin və onlara Yaxın Şərq ölkələrindən köməyə gəlmiş erməni hərbçilərinin müasir hərbi texnikası, o cümlədən "ASALA" vertolyotları, Suriya və Livanda hərbi düşərgələri, silah anbarları var idi. Ermənilər Qarabağın yüzdən artıq müsəlman kəndində dinc azərbaycanlı əhalini amansızlıqla qırırdılar".

"Faynenşl tayms" qəzeti 14 may 1992-ci ildə yazmışdı: "General Pyankovun dediyinə görə, 366-cı batalyonun 103 erməni hərbi qulluqçusu vuruşmaq üçün Dağlıq Qarabağda qalmışdır".

"Moskovski komsomolets" belə bir xəbər yaymışdı: "Xocalıda ancaq ölülər qalmışdır". Həmin qəzetin müxbiri V.İvleva yazmışdı: "Hücum başlayanda mən hərbi dəstənin ikinci eşelonunda irəliləyirdim. Xocalıya yaxınlaşanda buluda oxşar nəyinsə bizə tərəf gəldiyini gördüm. Bu, yarıçılpaq, çılğın adamlardan ibarət izdiham idi. Ən arxada qarın üstü ilə güclə yeriyən ayaqyalın bir qadın, üç uşağını arxasınca bir təhər sürükləyirdi. Ən kiçik uşaq ikigünlük idi. Bu adamlar canlarını qurtarmaq üçün dağlara və meşələrə çəkilmək istəyirdilər. Amma yolda erməni silahlıları onları amansızlıqla güllələyirdilər. Erməni quldurlardan yaxa qurtaranlar isə soyuqdan və şaxtadan qırılırdılar".

Qarabağın ən qədim məskənlərindən biri olan Xocalıda törədilən erməni cinayətkarlığı dünya tarixində vəhşilik baxımından analoqu çox az olan ən dəhşətli genosid idi. Xocalı faciəsi XX əsrdə xüsusi qəddarlıqla törədilmiş Xatın, Xirosima fəlakətləri ilə bir sırada durur. Xocalıda erməni vəhşilikləri nəticəsində şəhərin 7 min əhalisindən 613 nəfəri amansızlıqla qətlə yetirilmiş, 487 nəfəri şikəst edilmişdir. Əsir alınmış 1275 nəfər qoca, uşaq və qadınlar ağıla sığmayan fəlakətlərə düçar edilmiş, təhqirlərə məruz qoyulmuşdu. Bu genosid zamanı öldürülmüş 613 nəfərin 106-sı qadın, 63-ü uşaq və ahıllar idi. Xocalı fəlakəti nəticəsində 8 ailə bütünlüklə məhv edilmiş, 24 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdi. 56 nəfər diri-diri yandırılmış, qalanlarının üzlərinin dərisi soyulmuş, başları kəsilmiş, körpələrin gözləri çıxarılmış, hamilə qadınların qarınları süngü ilə yarılmışdı. Ermənilər hətta ölüləri də təhqir etməkdən çəkinmirdilər.

Azərbaycan dövləti və xalqı erməni qaniçənlərinin törətdiyi bu müsibətləri heç vaxt unutmayacaq.

Ümummilli lider Heydər Əliyev bu barədə xüsusi fərman imzalamışdı. Milli Məclisin qərarı ilə 26 fevral "Xocalı soyqırımı və milli matəm günü" elan edilmişdi. Bu barədə bütün beynəlxalq təşkilatlara məlumat verilmişdir.

İndiananın ABŞ Konqresindəki nümayəndəsi, beynəlxalq münasibətlər üzrə komitənin üzvü konqressmen Den Barton nümayəndələr palatasında çıxış edərək Konqresi Xocalı faciəsini rəsmi olaraq genosid kimi tanımağa çağırmışdır.

Bu konqresmen "Hyuman Rayts Votç", "Memorial", "Nyu-York tayms" və digər nüfuzlu mənbələrə istinad edərək bildirmişdir ki, Xocalıda vəhşicəsinə etnik təmizləmə aparılmış, günahsız qadınlara, uşaqlara və qocalara qarşı ağla gəlməyən vəhşiliklər törədilmişdir. Ermənilər öz qarşılarına Azərbaycan ərazisində zəbt edilmiş hər bir kəndi dağıtmaq məqsədi qoymuşdular. "Bu, barbarlıqdır" - demişdir konqressmen Den Barton. O, eyni zamanda, həmkarlarının diqqətini belə bir fakta çəkmişdir ki, Azərbaycandakı xristian, yəhudi və müsəlman icmaları rəhbərləri hər il Xocalı soyqırımı ərəfəsində beynəlxalq ictimaiyyəti 26 fevral 1992-ci ildə ermənilər tərəfindən törədilmiş vəhşilikləri pisləməyə, işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsinə , məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qaytarılmasına səylərini əsirgəməməyə çağırır, Ermənistanın cinayətlər törədilməsinə rəvac verən bir dövlət kimi məsuliyyətə cəlb olunmasını tələb edirlər. Lakin Mixail

Qorbaçovun bilavasitə göstərişi ilə 1990-cı ilin "qara" yanvarında tutulmuş divanın və siyasət səhnəsindən gedəndən sonra onun sirdaşlarının davam etdirdiyi genosid yolunun nəticəsi olaraq 1992-ci ildə Xocalıda həyata keçirilmiş qırğınların iştirakçıları barədə heç bir cəza tədbirinin görülməməsi millətimizə qarşı aparılmış ədalətsizlik əməllərinin bariz nümunəsidir. Dünya ictimaiyyəti isə hələ də susmaqdadır. Əsrlərin sınaqlarından həmişə ağ üzlə çıxmış vətənsevər xalqımız calayivətən ermənilərin Azərbaycan torpaqlarından bir hissə qoparmaq arzusunu ürəyində qoymağa qadir xalqdır!

Arif HÜSEYNOV.

"**Azərbaycan**".-2009.-12 fevral.-N 33.-6.

Xocalı soyqırımının növbəti ildönümü ilə əlaqədar etiraz aksiyası keçiriləcək ...BMT-nin Nyu Yorkdakı mənzil qərargahı qarşısında

Amerika Birləşmiş Ştatlarında (ABŞ) fəaliyyət göstərən Amerika-Azərbaycan Cəmiyyəti Xocalı soyqırımının 17-ci ildönümü ilə əlaqədar bir sıra anım tədbirləri keçirəcək.

"Fevralın 27-də BMT-nin Nyu Yorkdakı mənzil qərargahı qarşısında etiraz aksiyası keçiriləcək. Etiraz aksiyasında BMT ölkələrinə və baş katibinə müraciət ünvanlanacaq", - ABŞ-da fəaliyyət göstərən Amerika-Azərbaycan Cəmiyyətinin sədri Tomris Azəri məlumat verib.

T. Azəri bildirib ki, fevralın 28-də Xocalı faciəsi ilə bağlı Nyu-Yorkda "Türk evi"ndə təqdimat keçiriləcək. "Mərasimə amerikalı jurnalist Tomas Qolts, millət vəkilləri Qənirə Paşayeva, Həvva Məmmədova qatılacaq. Türk, yəhudi icmalarının da iştirak edəcəyi tədbirdə Heydər Əliyev Fondunun təqdim etdiyi Xocalı soyqırımım əks etdirən fotoşəkillər və film nümayiş etdiriləcək", - o deyib.

Azərbaycan hökuməti Xocalı soyqırımı ilə bağlı Ermənistan dövlətinin Beynəlxalq Cinayət Məhkəməsinə (Haaqa məhkəməsi) verilməsini araşdırır, Prezidentin İcra Aparatının ictimai-siyasi əlaqələr şöbəsinin müdiri Əli Həsənov öncə bildirib.

“Azad Azərbaycan”.-2009.-15 fevral.-N.23.-S.2

Xocalı faciəsi yad ediləcək.

Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev Xocalı soyqırımının on yeddinci ildönümünün keçirilməsinə dair tədbirlər planını təsdiq edib

Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə Xocalı soyqırımının on yeddinci ildönümünün keçirilməsinə dair tədbirlər planı təsdiq edilmişdir.

Tədbirlər planına əsasən fevralın 26-da Bakı şəhərinin Xətai rayonunda Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidə və Şəhidlər Xiyabanı ziyarət ediləcək. Həmçinin, ölkənin bütün ərazisində saat 17:00-da Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunacaqdır.

Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması məqsədi ilə xarici kütləvi informasiya vasitələri, teleradio kanalları və internet şəbəkəsi ilə bu qanlı qırğına həsr olunmuş materialların yayılması, Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərində, nümayəndəliklərində və diaspor təşkilatlarında anma mərasimlərinin keçirilməsi nəzərdə tutulmuşdur.

Tədbirlər planına uyğun olaraq, ölkəmizin televiziya və radiolarında, kütləvi informasiya vasitələrində Xocalı soyqırımı ilə bağlı materiallar veriləcək, idarə və təşkilatlarda, teatr-konsert müəssisələrində, sərgi salonlarında, ali və orta məktəblərdə tədbirlər keçiriləcək, milli azadlıq uğrunda mübarizədən söhbət açan sənədli və bədii filmlər nümayiş olunacaqdır.

Həmçinin, xocalılıların müvəqqəti məskunlaşdıqları şəhər və rayonlarda şəhid ailələrinə yardımlar göstəriləcəkdir.

“Səs”.-2009.-17 fevral.-N.30.-S.3

Meksikada Xocalı soyqırımı anılıb

Latın Amerikasının ən böyük ali təhsil ocağı sayılan Meksika Milli Muxtar Universitetində Xocalı qırğınına həsr olunmuş "Onların yeganə günahı azərbaycanlı olmaq idi" mövzusunda konfrans keçirilib. Universitetin Siyasi və sosial elmlər fakültəsində təşkil edilən tədbirə professor və tələbə heyəti üzvləri, Meksika Xarici İşlər Nazirliyi və Senatının nümayəndələri qatılıblar. Tədbiri ali təhsil müəssisəsinin Beynəlxalq Münasibətlər Mərkəzinin elmi katibi Marko Lopategi açaraq, Azərbaycan xalqı və hökumətinə Xocalı faciəsinin ildönümüylə bağlı başsağlığı verib. O bildirib ki, bütün beynəlxalq ictimaiyyət kimi, Meksika da Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll edilməsini arzulayır. Geniş məruzə edən Azərbaycanın Meksikadakı diplomatik nümayəndəliyinin müvəqqəti işlər vəkili İlqar Muxtarov isə deyib ki, Azərbaycan xalqı 200 ildən bəri terror, məcburi köçürülmə və etnik təmizləmə kimi hadisələrlə üzləşir.

19-cu əsrin əvvəllərində çar Rusiyasının erməni mənşəli əhalini Türkiyə və İrandan Azərbaycana köçürdüyünü vurğulayan İlqar Muxtarov etnik təmizləmə siyasətini əsas götürən erməni terrorçuların 20-ci əsrdə Azərbaycanın müxtəlif bölgələrində yerli əhalini qırdığını, azərbaycanlılar yaşayan kəndləri yerlə yeksan etdiyini söyləyib. İlqar Muxtarov 1992-ci il fevralın 25-26-da Xocalı şəhərində baş verən faciənin ermənilərin işğalçı və cinayətkar siyasətinin bir hissəsi olduğunu xatırladıb: "Xocalıda həyata keçirilənlər qəddarlıq erməni terrorunun əsas xüsusiyyətinə uyğun idi. Ermənilər adətən qurbanlarına həddindən-artıq əzab vermək məqsədilə onları müxtəlif işgəncələrlə öldürürlər. Erməni rəsmiləri Xocalı faciəsi də daxil olmaqla münaqişə zamanı etdiyi cinayətlərə görə məsuliyyəti danır və beynəlxalq ictimaiyyətə hadisələri öz yozumlarında çatdırmağa çalışırlar. Lakin heç bir uydurma təbliğat faktlar qarşısında dayana bilməz. Ermənilərin azərbaycanlılara qarşı törətdiyi vəhşiliklərin hər biri xalqımızın ürəyinə sancılan bir tikandır. Bu hadisələr heç zaman unudulmayacaq. Azərbaycan münaqişənin sülh yolu ilə həllini axtarsa da, Xocalıdakı dəhşətli cinayətləri həyata keçirənləri ədalət mühakiməsi qarşısına gətirməkdə qətiyyətlidir". Toplantı zamanı Xocalı faciəsi haqda Heydər Əliyev Fondunun hazırladığı sənədli film və Xocalı qurbanlarını əks etdirən fotosərgi nümayiş etdirilib.

Turqut

“Xalq Cəbhəsi”. -2009. – 17 fevral. - № 30. - S. 8.

“Xocalı soyqırımı” kitabı ingilis dilində nəşr olunmuşdur

Bakı, 17 fevral (AzərTAc). Milli Məclisin deputatı Havva Məmmədovanın ingilis dilində nəşr edilmiş “Xocalı soyqırımı” kitabının təqdimat mərasimi keçirilmişdir.

Kitab erməni əsirliyində olmuş və dəhşətli işgəncələrə məruz qalmış qadınların söylədikləri tükürpədici səhnələr əsasında qələmə alınmışdır. Bildirilmişdir ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalının işğalı zamanı qaniçən erməni quldurları 613 nəfərin, o cümlədən 106 qadının və 63 uşağın həyatına son qoymuş, 8 ailəni tamamilə məhv etmişlər. Xocalı şəhərinin heç bir təqsiri olmayan 1275 sakini – qocalar, uşaqlar və qadınlar girov götürülmüş, bu insanlar ağlasığmaz işgəncələrə və təhqirlərə məruz qalmışlar. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi hələ də məlum deyildir. “Nurlan” nəşriyyatında çapdan çıxmış kitabda qətlə yetirilən 509 Xocalı sakininin, 224 nəfər valideynlərindən birini, 25 nəfər hər iki valideynini itirmiş uşağın, 29 ailədən 155 nəfər itkin düşmüş insanların adı, təvəllüdləri verilmişdir.

Tədbirdə çıxış edən Milli Məclisin deputatları Qənirə Paşayeva, Lalə Abbasova, Baba Tağıyev, Aydınxan Həsənov “Xocalı soyqırımı” kitabında adları çəkilən canlı şahidlərin başlarına gətirilən bu faciələri dünya ictimaiyyətinə çatdırmağın vacibliyini söyləmişlər.

Bildirilmişdir ki, kitabın fevralın 18-dən 28-dək “Xocalı həftəsi” çərçivəsində ABŞ-da təqdimatı keçiriləcəkdir.

AzərTAc
17 fevral 2009-cu il

"Xocalının 15 kəndində bir-birinə oxşar faciələr törədilib". Həvva Məmmədova: "Erməni vandalizmi ilə əlaqədar olaraq hər kənd üçün ayrı kitab yazmalıyıq"

Millət vəkili Həvva Məmmədovanın Xocalı soyqırımı ilə bağlı "The Khodjaly Genocide" adlı kitabı nəşr olunub. İngilis dilində çap olunan adıçəkilən kitabın elmi redaktoru deputat Qənirə Paşayevadır. Kitab "Nurlan" nəşriyyatında çap olunub.

Ötən gün "Trend" xəbərlər şirkətinin ofisində bu kitabın təqdimat mərasimi keçirilib. Vəsaitin müəllifi H.Məmmədova bildirib ki, Xocalı mənfur ermənilər tərəfindən 3 dəfə yerlə-yeksan edilib. Onun sözlərinə görə, Xocalı faciəsi XX-ci əsrin ən dəhşətli faciələrindən biridir: "Bu faciəni 38 ölkənin 47 jurnalisti gözüylə görüb. Onlar öz yazılarında bunu ictimaiyyətə bəyan etsələr də, dünya dövlətləri yetərincə məlumata malik deyillər". Xocalı qırğınından 17 il keçməsinə baxmayaraq bunun hələ də soyqırım kimi tanınmamasını bildirən H.Məmmədovanın sözlərinə görə, ölkənin başlıca problemlərindən biri də məhz budur: "Hesab edirəm ki, bunu dünya ictimaiyyətinə çatdırmalıyıq. Dünya xalqları məlumatlı olmalıdırlar ki, erməni terroristləri Azərbaycan insanının başına nələr gətiriblər. Tək millət vəkilləri deyil, sadə vətəndaşlar, gənclər də Xocalı faciəsinin təbliği ilə bağlı səfərbər olunmalıdırlar". Kitabın müəllifi qeyd edib ki, vəsaitdəki materiallar tarixi xronikaya, hadisələrin ardıcıllığına əsaslanmaqla yanaşı, Xocalıda yaxınlarını itirmiş insanların, faciə zamanı erməni əsirliyinə düşmüş qadın və uşaqların, qocaların danışdıqlarını da özündə cəmləşdirib: "Xocalı faciəsi zamanı ermənilərə əsir düşmüş və sonradan Azərbaycana verilmiş insanlarla, yaxınlarını itirmiş vətəndaşlarla müsahibələr apardıq. Onların nə əziyyətlərə qatlaşdıqlarını, nə zülmlər gördüklərini özlərinin dili ilə kitabda dərc etdirmişik". H.Məmmədova vurğulayıb ki, Xocalının 15 kəndində də bir-birinə oxşar faciələr törədilib: "Biz həmin kəndlərdə baş vermiş qırğınlarla bağlı, erməni vandalizmi ilə əlaqədar olaraq hər kənd üçün ayrı kitab yazmalıyıq. Bir daha deyirəm ki, dünya xalqlarını, xarici ölkə vətəndaşlarını məlumatlandırmalıyıq. Təbliğat işlərini gücləndirmək borcumuzdur, missiyamızdır".

Nəşrin elmi redaktoru, millət vəkili Qənirə Paşayeva isə deyib ki, vəsait Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün çox əhəmiyyətlidir. Onun sözlərinə görə, belə kitabların sayı çox olmalıdır: "Mən bu cür faciələrimizi əks etdirən nəşrlərin ərsəyə gəlməsinin tərəfdarıyam. Amma bu faciələr çox dəqiqliklə işlənib hazırlanmalıdır ki, sonra o vəsait bizim əleyhimizə yönəldilməsin. Həvva xanımın bu kitabında ən üstün məqamlardan biri ondan ibarətdir ki, burada Xocalı faciəsinin şahidlərinin, əsirlikdə olan insanların dilindən materiallar verilib. Min bir əzab-əziyyət görmüş insanların xatirələri burada özünə yer alıb. Eyni zamanda kitabın ingilis dilində nəşr olunmasının da özəl cəhəti var. İnanıram ki, Avropa ölkələrində yaşayan insanlar bu kitabı oxuduqdan sonra Xocalı faciəsi ilə, erməni vəhşiliyi, terroru ilə bağlı dolğun informasiyaya malik olacaqlar". Bundan sonra millət vəkili Aydın Həsənov, tarixçi alim Kərim Şükürov, millət vəkili Lalə Abbasova, deputat Baba Tağıyev kitab haqqında fikirlərini səsləndiriblər.

Anar

"Şərq".-2009.-18 fevral.-N.31.-S.4

Xocalı soyqırımı və həqiqətlər.
Tənzilə Rüstəmxanlı: "Artıq avropalı millət vəkilləri soyqırımlarla maraqlanır"

Xocalı soyqırımının növbəti ildönümü ilə bağlı Azəri-Türk Qadınlar Birliyi bir neçə ölkədə tədbirlər həyata keçirəcək. Bu barədə "OLAYLAR"a açıqlama verən birliyin rəhbəri Tənzilə Rüstəmxanlı bildirib ki, Brüsseldə Belçikadakı Türk Federasiyaları, QHT-lərin, səfirin dəstəyi ilə yürüş-mitinq keçiriləcək. Yürüş-mitinqə rəhbərliyi isə birliyin Avropa təmsilçisi həyata keçirəcək: "İki saat davam edən yürüş-mitinq Avropa Parlamentinin önündə başa çatacaq. Biz ora materiallar aparırıq. Xocalını əks etdirən kitablar, CD-lər paylanılacaq. Avropa Parlamentinə isə Xocalı ilə bağlı bəyanat təqdim olunacaq". Türkiyədə də tədbir keçirəcəklərini bildirən T.Rüstəmxanlı Avropaya həqiqətlərin çatdırılmasının əhəmiyyəti baxımından əsas önəmi Brüsseldə keçirilən tədbirə verdiklərini deyib. Artıq bir neçə ildir ki, keçirilən tədbirlərin nəticəsinə gəlincə isə, T.Rüstəmxanlı Xocalı soyqırımı ilə əlaqədar imza kampaniyası başladacaqlarını bildirib. Belə ki, artıq bununla bağlı saytlarda məlumat da yerləşdirilib: "Avropanın diqqətini bu soyqırıma çəkmək istəyirik. Artıq Avropa Parlamentinin bir neçə millət vəkili bu məsələ ilə, Qubadakı kütləvi məzarlıqla da çox maraqlanıb və mart ayında həmin millət vəkillərinin ölkəyə səfəri gözlənilir". ("OLAYLAR"İA)

"Olaylar".-2009.-18 fevral.-N.31.-S.2

Xocalı soyqırımını törədənlər cəzasını almalıdırlar

Bakı, 19 fevral (AzərTAc). Azərbaycanda Miqrant və Məcburi Köçkünlərin Hüquqlarının Müdafiəsi» İctimai Birliyi (AMMKHM İB) Xocalı soyqırımının 17-ci ildönümü ilə əlaqədar bəyanat yaymışdır. Bəyanatda deyilir ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistanın silahlı dəstələri keçmiş SSRİ-nin Xankəndidə yerləşmiş 366-cı motoatıcı alayının köməyi ilə Xocalı şəhərində misli görünməmiş soyqırımı törətmişlər. Bu vəhşi cinayət aktı nəticəsində Xocalı şəhəri yerlə yeksan edilmiş, 613 nəfər dinc sakin, o cümlədən 63 uşaq, onlarla qadın və ahıl insan, o cümlədən 8 ailə bütövlükdə, qətlə yetirilmiş, 487 nəfər yaralanmış, 1.275 nəfər əsir götürülmüş, 150 nəfər itkin düşmüşdür. 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir.

AMMKHM İB mütəmadi olaraq Xocalı soyqırımı ilə bağlı "Dəyirmi masa"lar və s. tədbirlər keçirmiş, "Mən 1992-ci il fevralın 26-da Xocalıda erməni işğalçılarının törətdikləri qırğının soyqırımı kimi tanınmasını dünya ictimaiyyətindən tələb edirəm!" devizi altında imzatoplama kampaniyasında, "Xocalı soyqırımı (sənədlərdə, faktlarda və xarici mətbuatda)", "Xocalı soyqırımı: milyon imza – bir tələb" kitablarının hazırlanmasında fəal iştirak etmişdir. Birliyin "Qolos Karabaxa" – "Voice of Karabakh" qəzetində müntəzəm olaraq Xocalı mövzusunda materiallar dərc olunmuşdur.

Xocalı qətliamını törədənlərin indiyədək cəzasız qalması birliyin kollektivini həmişə narahat edir. Təşkilatın bütün tədbirlərində Xocalı soyqırımını törədənlərin məsuliyyətə cəlb edilməsi tələbi irəli sürülmüş, bu istiqamətdə konkret işlər görülməsi üçün müvafiq beynəlxalq təşkilatlara müraciətlər qəbul olunmuşdur. Prezidentin İcra Aparatının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun Azərbaycan hökumətinin Xocalı faciəsinin ildönümü ərəfəsində Ermənistanı Haaqa Məhkəməsinə vermək istəyi ilə bağlı səsləndirdiyi fakir İctimai Birlik tərəfindən reazılıqla qarşılanmışdır.

AMMKHM İB hesab edir ki, bu məsələnin gerçəkləşdirilməsi olduqca vacibdir və bununla bağlı Azərbaycan tərəfinin kifayət qədər sübut və dəlilləri vardır. İctimai təşkilat olaraq Birlik bu sahədə üzərinə düşəcək bütün vəzifələri yerinə yetirməyə, dövlət və qeyri-hökumət təşkilatları ilə birgə işləməyə hazırdır. XX əsrin ən qanlı faciələrindən olan Xocalı soyqırımını törədənlər layiq olduqları cəzanı almalıdırlar.

AzərTAc
19 fevral 2009-cu il

Xocalı soyqırımının ildönümü ilə bağlı xarici ölkələrdə keçiriləcək silsilə tədbirlərdə Heydər Əliyev fondunun hazırladığı təbliğat materiallarından geniş istifadə olunacaqdır

Bakı, 19 fevral (AzərTAc). Heydər Əliyev Fondunun dəstəyi ilə bu il Xocalı faciəsinin ildönümü Azərbaycanın xarici ölkələrdəki 50-yə yaxın səfirlik, konsulluq və nümayəndəliklərinin xətti ilə qeyd olunacaqdır.

Ötən illərdə olduğu kimi, Xocalı soyqırımının 17-ci ildönümü ilə bağlı anma mərasimləri Vaşinqton, Nyu-York, Varşava, London, Haaqa, Dubay, Kiyev, Moskva, Berlin, Strasburq, Brüssel, Buxarest, Cenevrə, Ankara, İstanbul, Praqa, Paris, Tbilisi və digər şəhərlərdə silsilə tədbirlərlə qeyd olunacaqdır. Anma mərasimlərində Heydər Əliyev Fondunun hazırladığı "Xocalı soyqırımı" filmi, ermənilərin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən fotoşəkillər və müxtəlif illərdə xarici ölkələrin nüfuzlu nəşrlərində Xocalı faciəsi haqqında dərc edilmiş materiallar, Heydər Əliyev Fondunun ümumtəhsil məktəbləri və uşaq evlərində keçirdiyi "Xocalı uşaqların gözü ilə" mövzusunda rəsm müsabiqəsinin seçmələrindən ibarət ekspozisiyalar nümayiş olunacaqdır.

Anma mərasimlərində Fondun hazırladığı "Qarabağ həqiqətləri" toplusunun və "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" kitabının nümayişi də nəzərdə tutulmuşdur.

Qeyd edək ki, "Qarabağ həqiqətləri" bukletlər toplusu Qarabağın tarixi, münaqişənin başlanması, Xocalı soyqırımı, erməni təcavüzünün nəticələri, erməni terror təşkilatlarının Azərbaycana qarşı fəaliyyəti haqqında ətraflı informasiya almağa imkan verir. Toplu ingilis, fransız, rus, alman və macar dillərində çap olunaraq indiyədək bir çox xarici ölkələrdə yayılmışdır. İngilis dilində hazırlanmış "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" kitabı isə oxuculara milli-tarixi abidələrimizə qarşı ermənilərin törətdiyi vandalizm aktları barədə ətraflı məlumat verir.

Dünya ictimaiyyətinə Xocalı soyqırımı haqqında obyektiv və dürüst informasiya çatdırmağa, ictimai rəyi formalaşdırmağa yönələn belə tədbirlərə müxtəlif qurumların, diplomatik missiyaların nümayəndələri, şəhər sakinləri, eləcə də xarici kütləvi informasiya vasitələrinin əməkdaşları dəvət olunurlar. Ötən illərdə olduğu kimi, bu ildə də Xocalı soyqırımı ilə bağlı dünyanın bir sıra ölkələrində Heydər Əliyev Fondunun təbliğat materialları paylanacaqdır.

AzərTAc
19 fevral 2009-cu il

İndoneziyada Xocalı faciəsi qurbanlarının xatirəsi anılmışdır

Bakı, 19 fevral (AzərTAc). Azərbaycanın İndoneziya və eyni zamanda Filippindəki səfirliyi tərəfindən Cakartanın "Mənhəttən" hotelində Xocalı faciəsinin 17-ci ildönümü ilə əlaqədar tədbir keçirilmişdir. Tədbirdə səfir İbrahim Hacıyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat vermiş, hərbi təcavüz nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunduğunu, 1 milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyini, Azərbaycan rəhbərliyinin sülh səylərini, Ermənistan tərəfinin destruktiv mövqeyini diqqətə çatdırmışdır.

Diplomat 17 il əvvəl - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri tərəfindən azərbaycanlılara qarşı Xocalı şəhərində törədilmiş misli görünməmiş soyqırımının bəşəriyyət tarixində ağır cinayətlərdən biri olduğunu vurğulamışdır.

İ.Hacıyev həmin hadisələr zamanı erməni millətçilərinin vəhşiliyinin qurbanı olmuş günahsız insanların əziz xatirəsinin hər il Azərbaycanda və digər ölkələrdə ehtiramla yad edildiyini diqqətə çatdırmışdır. Səfir tədbir iştirakçılarına Azərbaycanın müasir həyatı, inkişafı, dünyada artan nüfuzu, regionda, Avropada, beynəlxalq və regional layihələrdə aparıcı rolu barədə məlumat vermişdir.

Heydər Əliyev Fondunun Xocalı faciəsi ilə bağlı nəşr etdirdiyi materiallar tədbir iştirakçılarına paylanmışdır.

Tədbirdə Pakistanın, Səudiyyə Ərəbistanının, Somalinin, Türkiyənin, Birləşmiş Ərəb Əmirliklərinin səfirləri, İndoneziyanın Nümayəndələr Palatasının üzvü Musa İxvanşah, işgüzar dairələrin, KİV-in nümayəndələri iştirak etmişlər.

AzərTAc
19 fevral 2009-cu il

Strasburqda Xocalı həqiqətləri.

Faciənin ildönümü ilə bağlı silsilə tədbirlər keçiriləcək

Strasburqda Xocalı faciəsinin 17-ci ildönümü ilə bağlı silsilə tədbirlər keçiriləcək. Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəliyi Azərbaycan və türk diaspor təşkilatlarının, Strasburqda təhsil alan azərbaycanlı tələbələrin, yerli və xarici qurumların nümayəndələrinin iştirakı ilə fevralın 26-da AŞPA binasında XX əsrin ən qanlı və dəhşətli faciələrindən biri olan Xocalı soyqırımı ilə bağlı anma mərasimi keçirəcək. Mərasim iştirakçılarına Xocalı soyqırımı, erməni vəhşilikləri, habelə Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi barədə Heydər Əliyev Fondu tərəfindən müxtəlif dillərdə nəşr olunmuş materiallar təqdim ediləcək, ermənilərin xalqımıza qarşı törətdiyi terror və soyqırım aktlarına dair geniş məlumat veriləcək, faciədən bəhs edən film və fotostend nümayiş etdiriləcək.

Bundan əlavə, elektron KİV-lərdə faciəyə dair məlumatların yerləşdirilməsi, dəyirmi masa keçirilməsi də nəzərdə tutulub.

Nümayəndəlik faciə barədə tutarlı faktları əks etdirən mətbuat bülletenləri hazırlayaraq AŞPA katibliyində, üzv ölkələrin daimi nümayəndəliklərində, habelə Strasburqda fəaliyyət göstərən konsulluqlarda yayacaq.

Strasburqdakı "Azərbaycan evi" Azərbaycan Mədəni Əlaqələr və Azərbaycan Kültür Cəmiyyətləri, Azərbaycanlı Tələbələr Assosiasiyası isə Miluzdakı Fransa-Azərbaycan Mədəniyyət Assosiasiyası ilə birlikdə ermənilərin 17 il əvvəl törətdikləri Xocalı soyqırımı barədə həqiqətləri fransız xalqına çatdırmaq məqsədi ilə proqram hazırlayıb.

"Azərbaycan evi" fevralın 28-də Strasburqun mərkəzindəki meydanda izdihamlı nümayiş keçirəcək. Nümayişdə bölgədə yaşayan azərbaycanlılar və bütün məsələlərdə ölkəmizi dəstəkləyən türk dərnəklərinin nümayəndələri iştirak edəcək. Nümayişin keçirilməsi barədə Strasburq bələdiyyəsindən razılıq alınıb.

AYXAN

“Ekspress”.-2009.-19 fevral.-N.31.-S.10

Xocalı və Xocavənd faciələri

1992-ci ilin fevralında ermənilərin azərbaycanlılara qarşı törətdikləri ən qanlı soyqırım aktları

1992-ci il fevralın 17-də Dağlıq Qarabağda yerləşən Ermənistan hərbi birləşmələri, eləcə də Rusiya Silahlı Qüvvələrinin Xankəndidə dislokasiya olunan 366-cı motoatıcı alayının hərbi texnikasının və canlı qüvvəsinin dəstəyi ilə Xocavənd rayonu işğal olundu. Bu işğaldan artıq 17 il keçir. Xocavəndin işğalına nail olan erməni və rus hərbi birləşmələri növbəti işğalı, həm də soyqırımı Xocalıda həyata keçirdilər. Şahidlərin dediyinə görə, ermənilər Xocavəndin işğalı zamanı soyqırım törədiblər. Sadəcə bu faktları zamanında bütün dünyaya çatdıra bilməmişik. Nə yazıqlar ki, bu və digər faciələrimizi yalnız ildönümlərdə xatırlayırıq, bundan artığını hələlik bacarmırıq. Uzaqbaşı ildönümləri yaxınlaşanda bir neçə kitablar nəşr etdirməklə işimizi yekunlaşdırırıq. Yəni ermənilərin bu günə kimi başımıza gətirdikləri müsibətləri olduğu kimi dünya ictimaiyyətinə çatdıra, bu yöndə əməli iş görə bilmirik.

(Başımıza gətirilən müsibətlərin müqabilində gördüyümüz işlər isə dəryadan bir damcıdır-red.) Biz yalnız Azərbaycanda özümüz deyib, özümüz də eşitməklə məşğuluq, bundan o yana gedə bilmirik. Ermənilər isə baş verməyən qondarma soyqırımlarını hər gün, hər saat yalan və şişirdilmiş informasiyalarla dünya ictimaiyyətinin beyninə yeridirlər. Çünki onlar qondarma soyqırımlarını təkcə uydurduqları tarixi gündə yad etmirlər, eyni zamanda hər gün olmayan tarixlərini bu və digər formada yada salırlar. Məsələn, Ermənistana gələn rəsmi və qeyri-rəsmi qonaqları İrəvanın mərkəzində ucaltdıqları qondarma soyqırım abidəsini ziyarət etmək üçün aparırlar. Qonaqları özlərinin guya ki, faciəylə üzləşdiklərini həm "soyqırım" abidəsi, həm də uydurduqları tarixdən hazırladıqları kitablar vasitəsilə inandırırlar. Məhz elə bunun nəticəsidir ki, ötən il Azərbaycanda səfərdə olan Beynəlxalq Avropa Hərəkatının baş katibi Henrik Kröner hansı ölkənin - Azərbaycanın, yoxsa Ermənistanın işğalçı ölkə olduğunu hələ də bilmədiyini söyləyirdi. Bu faktla birinci dəfə deyil ki, qarşılaşırıq. Vasitəçilik missiyasını üzərinə götürən ATƏT-in Minsk Qrupu həmsədrləri belə, Ermənistanı işğalçı dövlət kimi tanıdıqlarını bildirmirlər. Və hər dəfə Dağlıq Qarabağ probleminin həlliylə bağlı keçirilən danışıqlar zamanı işğalçı Ermənistanla işğala məruz qalan Azərbaycanı eyniləşdirirlər. Və hər ikisinin güzəştə getməsini məqbul sayırlar.

İstər Xocalı, istər Xocavənd, istərsə də digər faciələrimiz tarixi və bədii kitablarda, rəsm əsərlərində öz əksini layiqincə tapmayıb. Düzdür bəzi istisnaları çıxmaq şərtilə, hələ də bu istiqamətdə nə tutarlı tarixi və bədii kitablara, nə də incəsənət nümunələrinə rast gəlməmişik.

Xocavənd soyqırımı

Ərazisi alçaq dağlıq və düzənlikdən ibarət olan Xocavənd rayonunun ümumi sahəsi 145647 hektardır. Rayon 2 şəhər tipli qəsəbə və 38 kənddən ibarətdir: Qaradağlı, Xocavənd, Ömrallar, Muğanlı, Kuropatkin, Tuğ, Naxulu, Salaketin, Günəşli, Xətai, Dağ yamaclarına səpələnmiş beş-on Qarabağ obası, Tuğ kəndi və s. Qədim yaşayış məskənlərindən sayılan Xocavəndin ərazisi təbii sərvətlərlə - tikinti materialları və faydalı qazıntılarla, meşə zolaqları və şirin su ehtiyatları ilə zəngindir. Dəniz səviyyəsindən 900 metr hündürlükdə yerləşən, uzunluğu 190 metr olan Azıx mağarası Xocavəndin Füzuli rayonuna yaxın, Azıx kəndinin 1 kilometr cənub-şərqində yerləşir. İşğal altında olan Xocavəndin ərazisi bütövlükdə ekoloji terrora məruz qalıb. Azıx mağarasını ermənilər silah anbarına çeviriblər. Rayonun ərazisində yerləşən və ümumi sahəsi 25,5 min hektar olan meşədəki palıd ağacları qırılaraq daşınıb, Xonaşen çayının kənarlarında bitən təbii meşə isə tamamilə məhv edilib. Xocavəndin Yelli Gədik sahəsində Füzuliyə gedən yolun sağ və sol tərəflərində avtomobil yollarının mühafizəsi məqsədilə əkilən ağaclar da kəsilib.

Yuxarıda qeyd etdiyimiz kimi Dağlıq Qarabağda yerləşən Ermənistan hərbi birləşmələri, Rusiya Silahlı Qüvvələrinin Xankəndidə dislokasiya olunan 366-cı motoatıcı alayının hərbi texnikasının və canlı qüvvəsinin dəstəyi ilə 1992-ci il fevral ayının 15-dən başlayaraq, rayonunun azərbaycanlılar yaşayan Qaradağlı kəndinə hücuma keçirlər. İki gün çəkən döyüşdən sonra mühasirəni qıran ermənilər fevralın 17-də kəndi işğal edirlər. İşğal zamanı Qaradağlı kəndi tamamilə dağıdılır, dinc, əliyalın, günahsız əhaliyə, uşaqlara, qadınlara və qocalara amansızcasına divan tutulur. Qaradağlıdan girov götürülən 117 nəfər kənd sakinindən 80-ə yaxını xüsusi amansızlıqla qətlə yetirilib, 6 nəfər itkin düşüb, 9 nəfərin isə şahid ifadələrinə əsasən, əsir götürüldüyü sübut olunub. Şahidlərin sözlərinə görə, əsir götürülən azərbaycanlıların 43 nəfəri Xankəndinin 2 kilometrliyində güllələnib. Sonra isə onların bəzilərinin başları kəsilib.

Xocalı soyqırımı

Erməni və rus hərbi birləşmələri Xocavəndin işğalından sonra Xocalıda soyqırım planını həyata keçirməyə qərar verirlər. Eyni zamanda erməni cəlladları Sumqayıtda törətdikləri qətllərin dördüncü ildönümündə Xocalı soyqırımını törədirlər. Hələ 1991-ci ilin oktyabrından etibarən Xocalı ilə avtomobil əlaqəsi demək olar ki, kəsilib. Həmin vaxtdan etibarən şəhərlə əlaqə, ancaq vertolyotların köməyi ilə saxlanılıb. 1992-ci il yanvarın 2-də isə

şəhərdə elektrik xətti də kəsilib. Qeyd edək ki, son dəfə Xocalıya 1992-ci il fevralın 13-də ərzaq və yanacaqla yüklənmiş hərbi vertolyot gedib. Elə həmin gündən şəhər erməni hücumu təhlükəsi ilə üz-üzə qalıb. Xocalılar da artıq başa düşürlər ki, yaxın günlərdə ermənilər şəhərə hücum edə bilərlər. Fevralın 24-də əsir götürülmüş erməni döyüşçüsü xocalıların gümanlarını təsdiqləyir. Bundan sonra şəhər rəhbərliyi kömək üçün Bakıya, Ağdama müraciət edir. Ancaq olunan müraciətlər cavabsız qalır. 1992-ci il fevralın 25-də axşama yaxın Xocalıdan çıxan bütün yollar ermənilər tərəfindən nəzarətə götürülür. Gecə saat 23:00-da 366-cı motoatıcı alayın zirehli texnikaları, onların arxasınca isə erməni piyadaları 3 tərəfdən böyük qüvvə ilə Xocalı şəhərinə hücuma keçirlər. Bu hücumun qarşısını almaq 160 nəfər döyüşçü üçün (özünümüdafiə qüvvələriylə, xüsusi təyinatlı milis dəstələri - red.) çətin olsa da, onlar həyatları bahasına şəhər əhalisinin Xocalını tərk etməsinə imkan yaradıblar. Xatırladaq ki, bu qüvvələrin böyük əksəriyyəti şəhid olub. Həmin gecə Qarqarın buz kimi suyundan keçib Kətik və Naxçıvanikə yol alan xocalıları deməyəsən qarşıda faciə gözləyirmiş. Beləliklə, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə XX əsrin ən böyük faciəsi - Xocalı qırğını baş verib. Yüzlərlə günahsız insanlar qanlarına qəltan edilib. Körpəyə, qocaya, qadına aman vermədən qəddarlıqla öldürüblər. Həmin gecə erməni cəlladları Xankəndində

yerləşən 366-cı alayın köməkliyilə Xocalıya soxulub, şəhəri yandırıblar. Kərkicahanın, Malıbəylinin, Meşbəylinin, Xocavəndin ardınca tarixdə Xocalı soyqırımını yaşadıq. Ancaq həmin vaxt hakimiyyət başında olanlar guya ki, Xocalıda 2-3 nəfərin öldüyü haqqında məlumatın getməsi üçün tapşırıq verdilər. Halbuki, Xocalı faciəsi XX əsrin ən böyük faciəsi idi. Bunu bütün dünyadan gizlətmək ermənilərə xidmət göstərməkdir. Fevralın 26-da qocaların, qadınların, körpə uşaqların meyitləri dərələrdə, meşələrdə, dağlarda qalıb. Girov götürülənlərin başına iyrənc oyunlar açılıb, onların başları erməni qəbirləri üzərində qurbanlıq qoyun kimi kəsilib. Ölənlərin başlarının dərisi soyulub, gözləri, ürəyi çıxarılıb, bədənləri deşik-deşik olunub. Bütün bunlardan ürəyi soyumayan ermənilər ən alçaq hərəkətlərə belə əl ataraq vəhşicəsinə öldürdükləri körpənin, qocanın meyitlərini insanlığa yaraşmayan surətdə təhqir ediblər. Şahidlərin söylədikləri faktlara əsasən, qətlə yetirilən azərbaycanlılar çox da dərin olmayan xəndəklərə atılıb, onların üstü torpaqlanıb. Gecələr bu xəndəklərin həndəvərində itlərin hürüşməsindən, çaqqalların ulaşmasından az qala qulaq tutulub. Hər yerdən insan cəsədlərinin kəsif iyi gəlib.

Xocalı soyqırımı nəticəsində 623 nəfər şəhid olub, 1725 nəfər əsir götürülüb, 8 ailə tamamilə məhv edilib, 215 uşaq bir valideynini, 25 uşaq isə hər iki valideynini itirib. 1000 nəfər xocalı sakini əlil və şikəst olub, 150 nəfərin taleyi hələ də məlum deyil.

Məlumat üçün bildirək ki, Xocalının işğalı planı bir həftə öncə, fevralın 20-də hazırlanıb. Belə ki, hadisədən bir müddət əvvəl Paris yaxınlığında gizli təlim düşərgəsi yaratmış "Asala" erməni terrorçu təşkilatının 26 nəfərlik dəstəsi mayor Aşin Simonyanın başçılığı ilə Xankəndinə gəlib. Onlar və yerli ermənilər özünümüdafiə adı altında vuruşan, əslində isə "Asala" terror təşkilatının Xankəndində İllarion Allahverdiyanın başçılığı ilə yaradılan dəstənin üzvləri 366-cı alayın içərisində öz dayaqlarını yaradaraq polkovnik Y.Zarviqarova 36 min dollar rüşvət veriblər. Bu xəbər 23-cü diviziyanın komandiri Boris Budeykinə çatdıqda o, Zarviqarovun hərəkətinə görə - zabit şərəfinə xəyanəti üstündə qovulmasını tələb edib.

366-cı alayın hərbi əməliyyatlar zamanı ermənilərin tərəfinə keçib azərbaycanlıları qətlə yetirməsi, hərbi texnika və sursatı ermənilərə verməsi, əslində siyasi bir məsələdir. Xocalı hadisəsiylə bağlı ermənilərin ruslarla əlaqələrinə aid sənədlərin bir qismi 1992-ci il martın 1-də Zaqafqaziya Hərbi Dairəsinin aviasiya komandiri, general-mayor S.Lukaşovun əmri ilə yandırılıb.

Yuxarıda qeyd etdiyim fikirlərə yenidən qayıtmaq istəyirəm. Biz bir millət olaraq Xocalı və digər faciələrimizi dünyaya yaxşı çatdıra bilməməyimizin nəticəsidir ki, bu gün ermənilər Azərbaycanla şərtlər irəli sürməklə danışırlar. Ancaq vaxtında Xocalı soyqırımının dünya dövlətlərinin parlamentlərində müzakirəsinə nail olsaydıq təbii ki, hadisələr başqa istiqamətdə cərəyan edəcəkdi.

Xatırladaq ki, qardaş Türkiyənin millət vəkilləri Xocalı faciəsinin ildönümü ərəfəsində TBMM-də dinləmələr keçirəcəklər.

Arzu Şirinova

"Xalq Cəbhəsi". -2009. – 19 fevral. - № 32. - S. 9.

Xocalı soyqırımı - bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayət. "Səs" qəzeti Xocalı faciəsinin 17-ci ildönümü ilə bağlı dəyirmi masa keçirib

XX əsrin ən qanlı hadisələrdən biri olan Xocalı soyqırımı fevralın 25-dən 26-na keçən gecə baş verdi. XX əsrin ən ağır və dəhşətli soyqırımı nəticəsində ermənilər 613 nəfərin qəddarcasına qətlə yetirilməsinə səbəb oldular. Eyni zamanda, 1275 nəfər əsir götürüldü. Həlak olanların 1165 nəfərini geri qaytarmaq mümkün olmuşdur. 8 ailə büsbütün məhv edilib. 27 ailənin hərəsindən yalnız bir nəfər sağ qalıb. 230 ailə öz başçısını itirib. 200 nəfər müxtəlif dərəcədə şikəstlik almışdır. Xocalı hadisəsi təkcə bir şəhərin faciəsi deyil, bu, xalqımızın tarixində qanla yazılmış ən müdhiş səhifələrdən biridir.

"Səs" qəzeti ölkəmizin həyatında mühüm əhəmiyyət kəsb edən, günün aktual və prioritet mövzuları ətrafında silsilə xarakterli dəyirmi masalar təşkil edir. Növbəti dəyirmi masanın mövzusu da Xocalı soyqırımının 17-ci ildönümünə həsr olunmuşdu. Dəyirmi masada Xocalı şəhər icra hakimiyyəti başçısının müavini, Yeni Azərbaycan Partiyası Xocalı şəhər təşkilatının sədri Vahid Əliyev, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri, Diaspora ilə İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Ramil Həsənov, "Xocalı Şəhidlərini Tanıtma" ictimai birliyinin sədri, tədqiqatçı-jurnalist Səriyyə Müslümqızı, Xocalı şəhərinin keçmiş baş memarı Şahlar Zülfüqarov, Xocalı şəhər icra hakimiyyətinin ictimai-siyasi şöbəsinin baş referenti Nadir Rəşidov, Qaçqın və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsinin Xocalı şəhəri üzrə məsləhətçisi Surxay Quliyev, Xocalı şəhər icra hakimiyyətinin nümayəndəsi Yavər Əzimov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin əməkdaşı, tarix elmləri doktoru Əli Məmmədov, ADPU-nun Azərbaycan tarixi kafedrasının dosenti Nazir Əsədov, "Türkiyə Universitetləri Məzunları" ictimai birliyinin sədri Çingiz Bayramov və "Azərbaycan Gənclərinin Avropaya İnteqrasiyası" təşkilatının sədri Gülsel Səfərova iştirak edirdilər.

"Səs" qəzetinin əməkdaşı:

- Azərbaycanın işğal edilən hər bir ərazisi bizim üçün əziz və müqəddəsdir. O cümlədən, Xocalı şəhəri də Dağlıq Qarabağın qala qapısı adlandırılırdı. Necə düşünürsünüz, Xocalı soyqırımının baş verməsində daha çox daxili, yoxsa xarici amillərin rolunu qeyd etmək olar? Ümumiyyətlə, o dövrdəki ictimai-siyasi vəziyyət necə idi?

O ZAMANKI AZƏRBAYCAN RƏHBƏRLİYİ HADİSƏNİN QARŞISININ ALINMASI YÖNÜNDƏ HEÇ BİR TƏDBİR GÖRMƏDİ

Vahid Əliyev:

- Xocalı faciəsi Ermənistanın Dağlıq Qarabağı Azərbaycandan qoparması istiqamətində yeritdiyi siyasətin tərkib hissəsidir. 1988-ci ilin sonundan 1992-ci ilin fevral ayına qədər Dağlıq Qarabağda, eləcə də bütün respublikada baş verən hadisələrə ekskurs etmək daha məqsədəuyğun olar. 1987-ci ilin sonundan Dağlıq Qarabağda müəyyən separatçılıq fəaliyyəti ilə məşğul olmaq üçün imzatoplama kampaniyası aparıldı. Bu, ayrı-ayrı qüvvələr tərəfindən buraya göndərilmiş missionerlər vasitəsilə həyata keçirilməyə başlanıldı. Əfsuslar olsun ki, o dövrkü respublika rəhbərliyi vəziyyəti yerində müəyyənləşdirib, onun qarşısının alınması istiqamətində mühüm addımlar atmadı.

1990-cu ildə o vaxtkı Dövlət Təhlükəsizlik Komitəsinin Dağlıq Qarabağ üzrə idarənin rəis müavini Salmasyan familiyalı bir nəfər ermənininin söylədiyi fikirləri diqqətinizə çatdırmaq istəyirəm. Xocalı aeroportunda gözlədiyim vaxt bir erməni öz maşını ilə buraya gəldi. O vaxt mən təşkilat komitəsində işləyirdim. Hava çox yağışlı idi. O, mənə bildirdi ki, "Vahid, yağış yağır, islanacaqsan. Gəl otur maşına". Amma o şəxsin kimliyi haqda heç bir məlumatım yox idi. Mən gedib maşında əyləşəndə soruşdu ki, məni tanıyırsan? Mən cavab verdim ki, xeyr. Dedi ki, mən Salmasyanam - vilayət DTK-sinin müavini. O, mənə baş verən hadisələri təfərrüatları ilə danışmağa başladı. Qeyd etdi ki, baş verənlər artıq idarəolunmaz vəziyyətə gətirib çıxarıb. O, 1987-ci ildə vilayətdə bu istiqamətdə işin aparıldığından xəbər tutduqları an dərhal Azərbaycan Milli Təhlükəsizlik Komitəsinə müraciət etdiklərini bildirdi. Konkret olaraq 8 nəfər adam burada milli münaqişənin qızışdırılması yönündə xüsusi işlər aparırdılar. Xahiş etdik ki, bunların ya həbs, ya da fiziki məhv olunması ilə bağlı rəsmi tapşırıq verilsin. Bildirdi ki, bir ay gözləsək də, Azərbaycan Milli Təhlükəsizlik Komitəsindən heç bir cavab gəlmədi. Sonra məcburiyyət qarşısında qalaraq Azərbaycan Mərkəzi Komitəsinə müraciət etdik. O orqan da susdu və məsələyə heç bir reaksiya vermədi. Sonda özümüzü sığorta etmək üçün SSRİ-nin Dövlət Təhlükəsizlik Komitəsinə müraciət etdik. Müraciətdən bir ay sonra bizə rəsmi cavab gəldi ki, artıq SSRİ-də

piket azadlığıdır. Söz, münasibət azadlığına görə heç kəsə qarşı təzyiq göstərilə və cəza tətbiq oluna bilməz. Yəni, o zamankı Azərbaycan rəhbərliyi hadisənin qarşısının alınması yönündə heç bir tədbir görmədi. Ermənilər hərəkətlərinə respublika, eləcə də, SSRİ miqyasında xüsusi dəstəyin verildiyini görüb, daha da ürəkləndilər. Hətta ehtiyat edən adamlar da prosesə cəlb olundu. Beləliklə, tədricən hadisələrin miqyası genişlənməyə başladı. O zaman Salmasyan deyirdi ki, hadisəni 8 nəfər başlamışdısa, indi artıq bu rəqəm 8 mindən çoxdur.

Digər tərəfdən, məsələnin 1988-ci ilin fevral ayının 13-də Stepanaketdə mitinqlərə çıxarılması, Dağlıq Qarabağın içərisindən gələn bir hərəkat deyildi. Açığı, orada yaşayan ermənilərin özləri də deyir ki, "bizi zorla həmin kütləvi tədbirlərə təhrik edirdilər". Yəni, yerli əhali istər maddi, istərsə də mənəvi təzyiqlərə məruz qalırdı. Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ideyası dünənin və bugünün hadisəsi deyil. Bu, ermənilərin 1575-ci ildə 12 erməni keşişinin eşq məclisində ortaya atdıqları "böyük Ermənistan" yaratmaq xülyasının reallaşması istiqamətində atılan bir addımdır. Bunun üçün Ermənistan uzun bir proses keçib və bu yöndə kifayət qədər işlər görüblər. Hətta ermənilər SSRİ daxilində baş verən ekstremal vəziyyətlərdən öz maraqlarını təmin etmək üçün həmişə istifadə ediblər. 1985-ci ildə SSRİ-də Mixail Qorbaçovun hakimiyyətə' gəlməsi, həm onlara dəstək oldu və həm də bu ideyanı reallaşdırmaq üçün münbit şərait yaratdı.

XOCALININ QƏBİRİSTANLIĞI DAĞIDILIR, TORPAQLARIMIZ ALINIB ERMƏNİLƏRƏ VERİLİRDİ

Səriyyə Müslümqızı:

- Əvvəla, belə bir kədərli-hüznlü gündə tədbirin təşkilatçılarına təşəkkürümü bildirirəm. Xocalı faciəsi bizim elə bir kədərli yerimizdir ki, onun haqqında həyəcanlanmadan və kədərlənmədən danışmaq olmur. Bu yolda heç nədən çəkinmədən, irəliyə doğru hərəkət etməliyik.

Xocalı haradır? Xocalı, qədim türk torpağıdır. 1886-cı ildə Zaqafqaziya dairəsinin statistikasının verdiyi məlumata görə, Xocalıda cəmi 111 nəfər adam olub. Sonradan, 1921-ci ildə bunların sayı 313 nəfərə çatdırılıb. Xocalıda 9 bəy ailəsi, ümumilikdə isə 46 bəy olubdur. Mən əslən Xocalıdanam və onların hamısını yaxından tanıyıram. Həmin 9 bəy ailəsinin 24-ü kişi, 22-si isə qadındır. O qadınlara bəyim deyirdilər. Şura hökuməti gələndə, o torpaqlardakı bəylər "kulak" adı ilə sürgün edildilər. Həmin torpaqlar zəbt olunaraq oradakı bəy torpaqlarının hesabına Yenikənd deyilən Noragurd və bir sıra başqa erməni yaşayış məntəqələri tikildi.

Xocalı soyqırımına qədər ermənilər zaman-zaman Ballıca, Qaragav, Meşəlik və s. kəndlərdəki azərbaycanlıları sıxışdırırdılar. Oradakı erməni məktəbləri yaraşıqlı, səliqəli olduqları halda, bizim məktəblər çox baxımsız və acınacaqlı vəziyyətdə idi. Beləliklə, həmin adamlar tədricən oranı tərk etməli olurdular. Ermənilər onların buradan getməsini başqa cür qələmə verirdilər. Mən o zaman müəllim işləyirdim, məktəbin direktoru və bir sıra müəllim kollektivi ilə birlikdə Mərkəzi Komitənin məsul işçilərinə şikayət ərizələri ilə müraciət edirdik. Onlara bildirirdik ki, Xocalının qəbiristanlığı dağıdılır, torpaqlarımız alınıb ermənilərə verilir. Yəni, soyqırıma doğru gedən proseslər artıq başlanmışdı.

"Səs" qəzetinin əməkdaşı:

- Bildiyimizə görə, bu yaxınlarda Türkiyədə konfransda iştirak etmisiniz. Hakim partiya Gənclər Birliyinin sədri olaraq xarici ölkələrdə Xocalı soyqırımının tanıdılması istiqamətində hansı təbliğat işləri aparırdınız? Sizcə, əlavə hansı tədbirlərin görülməsinə ehtiyac vardı?

XOCALIDA "SİL, TƏMİZLƏ VƏ HAKİMİYYƏT QUR" SİYASƏTİ HƏYATA KEÇİRİLİRDİ

Ramil Həsənov:

- Bu, bir tarixdir. Xocalı soyqırımını bizdən sonra gələn nəsillərə də tanıtmaq lazımdır ki, tarixdə nələrin baş verdiyini, eləcə də Azərbaycan xalqının və türk millətinin başına ermənilər tərəfindən hansı faciələrin gətirildiyini bilsinlər. Ona görə bu hadisələri təkcə ölkə daxilində qeyd etmək kifayət deyil. Ölkə xaricində də təbliğat istiqamətli, Azərbaycanın haqq səsinin oradakı gənclərə çatdırılması üçün konkret fəaliyyət göstəririk. Bu işdə, xüsusilə, xarici ölkələrin hakim siyasi partiyalarının gənclər birlikləri ilə əlaqələr qururuq.

Bu yaxınlarda Ankara şəhərində keçirilən beynəlxalq konfransda iştirak edirdim. Tədbirin təşkilatçısı Türkiyənin hakim siyasi partiyasının gənclər birliyi idi. Konfransda təxminən 20 ölkədən gənc liderlər iştirak edirdi. Xocalı faciəsi haqqında qarşılıqlı fikir mübadiləsi kifayət deyil, bu haqda əyani vəsaitin paylanılmasına, böyük ehtiyac var. Hansısa xarici dövlətin məsul şəxsi bizim söylədiyimiz tarixi faktlara qulaq asdıqdan və ölkəsinə qayıtdıqdan sonra bunları unudur. Bu haqda Azərbaycan dövlətində yetərincə sənədli filmlər, DV-lər

və s. əyani materiallar mövcuddur. Getdiyimiz xarici ölkələrə bu əyani vəsaitləri aparırıq. Bu, yalnız Xocalı soyqırımının növbəti ildönümləri ərəfəsində deyil, bütün səfərlərimiz zamanı müxtəlif təbliğat materiallarını götürüb orada paylayırıq. Xocalı faciəsi bizim üçün çox anlamlı bir gündür. Çünki buna yalnız faciə kimi deyil, həm də tarixin qaranlıq səhifəsi kimi baxmalıyıq. Bu soyqırımı ilə bağlı hələ açılmamış məqamlar mövcuddur. Lakin bu hadisə ilə azərbaycanlılara qarşı soyqırımı aktının törədildiyini hər kəs bilir.

Türkiyədə, Rusiya Federasiyasında, Bolqarıstanda, Qazaxıstanda, Almaniyada, İtaliyada və Kanadada hakim partiyaların gənclər birlikləri ilə çoxsaylı görüşlər keçiririk. Onlarla görüşümüz zamanı faciənin mahiyyəti barədə geniş fikir mübadiləsi aparmışıq, həm də onlara əyani materiallar təqdim etmişik. Xocalı soyqırımı haqqında danışarkən 1992-ci ilə qədərki tarixi hadisələri də qeyd etmək lazımdır. Çünki bu soyqırım birdən-birə baş vermədi. Yəni, bu hadisəni əsaslandıran bir sıra tarixi faktlar var. Az öncə qeyd olunduğu kimi, böyük bir hazırlıq prosesi gedib və bu, "sil, təmizlə və hakimiyyət qur" prinsipi ilə həyata keçirilirdi. Bunları effektiv bir şəkildə qarşımızdakı insanlara çatdırmalıyıq.

XOCALI DAĞLIQ QARABAĞ BÖLGƏSİNDƏ BÖYÜK STRATEJİ ƏHƏMİYYƏTƏ MALİK MƏNTƏQƏ İDİ

Əli Məmmədov:

- Xisləti murdar ermənilər tərəfindən Azərbaycana qarşı başlanmış ərazi iddiaları xalqımızın başına çox böyük qanlı faciələr gətirib. Moskvanın köməyi ilə ermənilərin Xocalı soyqırımı təkcə Azərbaycan üçün deyil, eləcə də bəşəriyyət üçün iyrənc və son dərəcə misli görünməmiş cinayət aktı idi. Xocalının faciəli günləri hələ başlamamış, yəni 1989-1991-ci illərdə Xocalı şəhəri get-gedə genişlənir, yeni-yeni sənaye obyektləri, yaşayış məhəllələri meydana gəlir, əhalinin sayı sürətlə artırdı. 1988-ci ildə Xocalıda 3 minə yaxın sakin var idi. 1992-ci ilin əvvəlində bu rəqəm 7 mini ötmüşdü. Qədim yaşayış məskənlərimiz durmadan böyüyür və abadlaşırdı. Taleyin hökmü ilə Azərbaycana pənah gətirmiş təkcə Ermənistan adlanan dədə-baba torpaqlarımızdan zorla çıxarılan bacı-qardaşlarımız deyil, həmçinin, Özbəkistandan zorla qovulmuş məhsəti türklərinin də bir qismi üçün bu şəhərdə evlər inşa edilirdi. Bu, düşmənlərimizin heç də ürəyincə deyildi. Ona görə də mərkəz Ermənistan mətbuatı vasitəsilə Xocalı şəhərinin genişlənməsi və rəsmi şəhər statusunu alması məsələsinə qarşı barışmazlıq əhval-ruhiyyəsində bir-birinin ardınca yazılar verməyə başladılar.

Əlbəttə, göstərilən mövzunun qaniçən, quduz erməni faşizmi tərəfindən dövri mətbuat səhifələrində belə haray-həşirlə müzakirə obyektinə çevrilməsinin səbəbləri məlum idi. Əvvəla, əsrimizin əvvəllərində Dağlıq Qarabağa və digər ərazilərimizə qarşı əsassız iddialar irəli sürərək, bu torpaqların onlara aid olduğunu sübut etmək üçün dəridən-qabıqdan çıxmışdılar. Əgər doğrudan da, bu torpaqlar onlarındırsa, bəs Azərbaycan bu yerlərdə nə üçün tikinti aparmalıdır? İkincisi, faciəyəqədərki üç il ərzində əhalisi 3,5 dəfə artaraq Xocalı Şuşa şəhərindən sonra, vilayətdə azərbaycanlılar yaşayan ikinci böyük bir şəhər kimi meydana gəlirdi. Bu, ermənilər bərk narahat edirdi.

Üçüncüsü, Xocalı Dağlıq Qarabağ bölgəsində böyük strateji əhəmiyyətə malik bir məntəqə idi. Əvvəla, o, Dağlıq Qarabağın yeganə hava limanı olan şəhər idi. Başqa bir cəhət isə onun əlverişli mövqeyi, orada Azərbaycan Respublikasının get-gedə artan və quruculuq işləri düşməni çox ciddi təşviş qarşısında qoymuşdur. Amma o zamankı respublika başçılarının xalqın ərazi bütövlüyü və ümummilli mənafeyinə zidd olaraq min illərlə yaşadığı doğma Qərbi Azərbaycan torpaqlarından zorla çıxarılmış soydaşlarımızın orada yerləşməsinə mane olmaları Qarabağın işğalını sürətləndirirdi.

"ERMƏNİLƏR HƏMİŞƏ TÜRKLƏRƏ QARŞI TƏBLİĞAT APARIBLAR"

Surxay Quliyev:

- Burada Xocalı faciəsinin başvermə səbəbləri və əhaliyə divan tutulması barədə müxtəlif fikirlər səsləndi. Amma bir şeyi təklif edərdim ki, bu faciənin baş verdiyi gün qeyri-iş günü kimi qeyd olunsun. Yəni, adi məktəbli də dərsə getməyəndə bilsin ki, niyə bu gün Xocalıda azərbaycanlılara qarşı amansız qətliamlar törədilib. Uzun müddət ermənilərin arasında yaşamış bir şəxs kimi, onu deyə bilərəm ki, onlar həmişə türklərə qarşı anti-təbliğat aparıblar. Hələ 1970-ci illərdə biz orada yaşadığımız üçün erməni toylarında iştirak edirdik. Həmin erməni toylarında onlar öz dillərində bir mahnı oxuyurdular. O, mahnının nəqarət hissəsi "it türklər sənin səsin gələndə, ilan kimi dil çalan Andranik" kəlmələri ilə bitirdi. Bu mahnını hələ 1970-1975-ci illərdə biz erməni toylarında eşidəndə, oranı tərk edirdik. Amma toyun səhərisi günü soruşanda ki, "siz niyə belə edirsiniz?" Bu məsələni ümumiyyətlə danırdılar.

Vahid Əliyev:

- Bu məsələ ilə bağlı bir təklif də, mən vermək istəyirəm. Çünki əksəriyyət xarici dövlətlərə turistlər gələndə onlar marşrutun istiqamətini elə seçirlər ki, ölkəyə təşrif buyurmuş qonaqlar həmin xalqın tarixi ilə bağlı abidə və yaxud memorial bir kompleksi görə bilsin. Ona görə də, çox yaxşı olar ki, turist kimi Azərbaycana dəvət olunan qonaqlar və digər şəxslərin marşrut istiqaməti 1990-cı ilin 20 yanvarında şəhid olmuş oğul və qızlarımızı anmaq üçün Şəhidlər Xiyabanını, eyni zamanda, Xocalı faciəsi ilə bağlı qoyulmuş abidənin önündən keçsin. Məhz bu halda, hər ölkəmizə gələn qonaq Azərbaycan həqiqətini anlaya bilər.

"XOCALI HƏQİQƏTLƏRİ BEYNƏLXALQ İCTİMAİYYƏTƏ DAHA DÜRÜST FORMADA TƏQDİM OLUNMALIDIR"

Səriyyə Müslümqızı:

- Bir məsələni qeyd edim ki, Azərbaycanda üç minə qədər ədliyyə nazirliyində qeydiyyatdan keçmiş ictimai birlik, təşkilat, cəmiyyət var. Bu gün bir kiçik monitorinq aparsaq, görərik ki, həmin təşkilatların heç birinin tərkibində bir nəfər də olsun Xocalı sakini yoxdur. Həmin təşkilatların nümayəndələri mütəmadi olaraq xarici dövlətlərə gedir və orada müəyyən işlərlə məşğul olur. Əgər onların xaricə gedən nümayəndə heyətinin tərkibində bir Xocalı sakini olsa, bu faciənin də əsil həqiqətləri beynəlxalq ictimaiyyətə intensiv və dürüst formada çatdırıla bilər. Çünki həmin təşkilatların nümayəndələri səfərlərdə olarkən, onlar Xocalı soyqırımı ilə bağlı doğru-dürüst informasiya çatdıra bilmirlər. Bir məqamı da vurğulayım ki, bizim xarici ölkələrdə yaşayan xeyli sayda ziyalılarımız var. Məhz onların malik olduğu imkanlardan yararlanaraq, əsil Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdıra bilərik. Amma çox təəssüflər olsun ki, bu, belə deyil. Eyni zamanda, həmin faciədə həlak olmuş şəxslərin ölü şəkillərini xarici ölkələrə aparırlar. İlk növbədə, onların normal şəkillərini həmin ölkələrin ictimaiyyətinə çatdırmaq lazımdır. Çünki beynəlxalq ictimaiyyət məhz bu cür prinsipləri qəbul edir. Bizim əlimizdə olan kitab da, sənəd, əslində, yazılı faktdır. Məhz bu kitabda Xocalı soyqırımında qadın və uşaq faciəsi məsələsi öz əksini tapıb. Dünyada ilk dəfə uşaq faciəsini məhz burada daha qabarıq şəkildə əks etdirmişik.

Qəzetin əməkdaşı:

- Bilmək istərdik ki, Xocalıya ermənilər hansı istiqamətdən hücuma keçmişdilər və onun qarşısını almaq üçün müdafiə tədbirləri necə həyata keçirilirdi?

"O VAXT DÖVLƏT ÖZ ƏRAZİSİNİ VƏ VƏTƏNDAŞINI QORUMAQDA ÇOX ACİZ İDİ"

Yavər Əzimov:

- Həmin vaxtlar Xocalıda rəhbər vəzifədə işləmiş bir şəxs kimi, onu deyə bilərəm ki, bu gün bizə Xocalı sakinləri daha çox müəyyən dairələrdən şikayətçi kimi müraciət edirlər. Amma bizimlə müqayisədə ermənilər heç vaxt şikayət etmirlər. Burada iştirak edən şəxslərin əksəriyyəti bilir ki, ermənilər ambulator xəstəxananın qarşısında üç nazik qüllə ucaldıb, hər il özlərinin qondarma soyqırımı günü işləmirlər və gedib orada səcdə edirdilər. Eyni zamanda, onlar bu məsələni nəinki, təkcə həmin gün, digər vaxtlarda da yaddan çıxarmır və öz uşaqlarına da bu məsələ ilə bağlı geniş məlumatlar verirlər. Onlar lap kiçik yaşlarında olan uşaqlarına diqtə edirdilər ki, türk gəlib səni öldürəcəkdir. Ona görə də, "həmişə hücuma hazır olmalısan". Buradan da tamam aydın olur ki, məhz biz türk olduğumuz üçün bizə qarşı bu qədər amansız və qəddar olublar. Onlar həmişə türkün qanına susayıblar.

"XOCALININ İŞĞAL PLANINI ƏVVƏLCƏDƏN HAMI BİLİRDİ"

Eyni zamanda, 1992-ci ilin fevral ayının 25-dən, 26-a keçən gecə Xocalıda baş vermiş hadisələrə nəzər saldıqda, məlum olur ki, o vaxt dövlət öz ərazisini və vətəndaşını qorumaqda çox aciz idi. Tarixə nəzər saldıqda, 1988-ci ildə Xocalıya şəhər statusunun verilməsi və bundan sonra onun rayon kimi regionda mühüm əhəmiyyətə malik olması bir çox mətləblərə indi də işıq salmış olur. O, vaxtlar burada əyləşən şəxslərin əksəriyyəti Xocalıda mühüm vəzifələrdə işləməklə yanaşı, orada böyük quruculuq-abadlıq işləri ilə məşğul idi. Çünki biz əmin idik ki, bizim arxamızda dövlət daima möhkəm dayanacaq. Ancaq 1992-ci il fevralın 25-dən 26-na keçən gecə bunu görmədik. Həmin gecə ermənilər rus "qardaş"ları ilə birlikdə Xocalıda olan dinc

sakinlərə divan tutdu. Bundan əvvəlki proseslərə nəzər salsaq, görərik ki, ermənilər Xocalını işğal etmək və oradakı dinc əhaliyə qarşı amansızcasına divan tutmaq üçün uzun illər plan hazırlayıb. Çünki 1988-ci ildə ermənilər Xocalıya hücum etmiş və böyük itkilər verərək, geri çəkilməli olmuşdu. Məhz bu prinsipə görə də, onlar 1992-ci ildən qəti şəkildə Xocalıya hücum etmək barədə qərara gəldilər. Çünki onlar Xocalıda özləri üçün yaranacaq təhlükədən ehtiyatlanırdılar. 1992-ci ilin fevralına qədər Xocalının böyük sürətlə güclənməsi və inkişaf etməsi onların məhz bu cür addım atmasına təkan vermiş oldu. Ona görə də ermənilər Xankəndində olan rusların 366-cı motoatıcı diviziyasının köməkliyi ilə 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə hücuma keçdilər. Həmin vaxt ermənilər hətta ruslara məxsus 366-cı alayı tamamilə əllərinə almış, diviziya komandiri Zuri Zabiqarov və orada olan erməni komandirləri Aqanesyanla birlikdə bu hücumun təşkilində müstəsna xidmətlər göstərmişdilər. Bununla yanaşı, hər kəs bilir ki, ermənilərin üzdəniraq yazarı olan Zori Balayan açıq şəkildə öz uydurma yazılarında bildirirdi ki, Xocalı "boğazda olan xərçəng xəstəliyidir". Yəni, Dağlıq Qarabağın bütünlüklə ermənilləşməsində Xocalını ermənilər başlıca maneə kimi görürdülər. Məhz Z.Balayan öz yazılarında da bildirirdi ki, "tanka-tank, atoma-atom, nəyə qarşı olursa-olsun, biz Xocalını ermənilərə qaytarmalıyıq". Çünki biz Xocalı hadisəsindən öncə əsir tutulmuş ermənidən alınmış planda təsvir olunmuşdu ki, Xocalı necə alınacaq və bura hansı istiqamətdən hücumlar ediləcək. Bütün bunlar bizə məlum idi. Eyni zamanda, bu hadisədən bir müddət öncə Xankəndində yerləşən rus "KQB"-sinin işçisi ayaqyalın bizim yanımıza qaçıb gələndə bildirirdi ki, planda nəzərdə tutulub ki, birinci Meşəli, sonra Kərgicahan, bundan sonra Malıbəyli və Quşçular ermənilər tərəfindən işğal olunacaq. Məhz sonradan da ermənilər tərəfindən hazırlanmış məlum plan əsasında adlarını qeyd etdiyimiz ərazilər işğal olundu. Onu da qeyd edim ki, ermənilər cüzi qüvvə ilə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə saat 11-də Xocalını dörd tərəfdən ağır hərbi texnika ilə mühasirəyə aldılar. Həmin vaxt onlar birinci Xocalıda olan aeroportu atəşə tutdular və Novagurd kəndi istiqamətində şəhərə hücum etməyə başladılar. Hücum əməliyyatlarında daha çox rus əsgərləri iştirak edirdi. Onlar qarşılarına çıxan bütün maneələri təmizlədikdən sonra Xocalı igidlərinin müqavimətini qıraraq şəhərə daxil ola bildilər. Bundan sonra isə azğınlaşmış düşmən Xocalıda olan dinc əhaliyə xüsusi amansızlıqla divan tutdu. Burada əsas məqam ondan ibarətdir ki, ermənilər bildirirlər ki, azərbaycanlılardan ötəri çıxış dəhlizi qoymuşduq. Bunu o vaxtkı ölkə prezidenti Ayaz Mütəllibov da yüksək tribunadan qışqıra-qışqıra bildirirdi. Ermənilərin hücumu vaxtı Xocalıda daha çox dinc sakin Qara qaya deyilən istiqamətdə öldürülmüşdü. Çünki, həmin ərazi Xocalının Əsgəran istiqamətində olan ərazisi idi ki, məhz qaçmaq istəyən dinc əhali də buraya cəmləşmişdi.

"XOCALININ VERİLMƏSİNDƏ XALQ CƏBHƏSİNİN MARAĞI VARDI"

Nazir Əsədov:

- O dövr Azərbaycanda yüksək vəzifə tutan şəxslər, bu məsələyə ciddi yanaşardılar və onlarda bir türkçülük qanı, bir azərbaycançılıq qanı olardı. Onlar Xocalı faciəsinin baş verəcəyini görürdülər. Çünki burada səsləndiyi kimi, Xocalının rəhbərləri, yerli insanlar orada Rəşidə Behbudqızının şeyxülislama göndərdiyi teleqramını, danışığını oxuyanda adamın başının tükləri qabarır. Yəni, bütün bu dediklərimiz və ortada olan mövcud faktlar onu deməyə əsas verir ki, Xocalı soyqırımının qarşısını almaq olardı. Amma nəyə görə belə bir addım atılmadı? Təkcə sərişdəsiz ölkə rəhbərlərinin ucbatındanmı bu hadisə baş verdi? Tutaq ki, o vaxt müdafiə nazirimiz hərbçi deyildi. Bundan əlavə Fəhmin Hacıyev kimi şəxslər vardı. Bir məqam isə ondan ibarətdir ki, Xocalının məhv olmasında Fəhmin Hacıyevin böyük rolu var. Maraqlı bir fakt isə ondan ibarətdir ki, son məqamda Xocalıya hücum əməliyyatı hazırlanmışdı. Nəyə görə bu, baş tutmadı? Məhz bu məsələlərin də tam təfsilatı Bakıda o dövr siyasi hakimiyyət uğurunda mübarizəyə gəlib çıxır. Çünki həmin vaxt bir tərəfdə müxalifətdə olan Xalq Cəbhəsi qüvvələri mövcud idi. Digər tərəfdə isə ölkədə o dövrkü iqtidar mövcudluğunu saxlamağa çalışırdı. Həmin iqtidarın arxasında isə Moskva dayanırdı. Moskvanın isə bu məsələlərdə böyük marağı var idi. O zaman hamıya məlum idi ki, Mixail Qorbaçov Qarabağı satıb. Müəyyən məclislərdə söz vermişdir ki, Dağlıq Qarabağ Ermənistana veriləcəkdir. Məhz belə bir planı qura bilmədikdən sonra isə Dağlıq Qarabağda xüsusi idarə yaradıldı və təşkilat komitəsi təsis edildi. Bunlar isə özlüyündə formal olan bir məsələ idi. Əslində, bunlar bir növ ermənilərin silahlanması və müəyyən boş nöqtələri tutması üçün vaxt qazanmaqdan başqa bir şey deyildi. Nəticədə isə baş verənlər o dövr hakimiyyət uğrunda mübarizə ilə əlaqələndirilirdi. O dövrün qəzetlərində də belə bir məlumat yayılmışdı ki, Xocalının verilməsində Xalq Cəbhəsinin marağı vardı. Çünki onlar A.Mütəllibov hakimiyyətini sıradan çıxarmaq istəyirdilər. Eyni zamanda, burada Moskvanın böyük maraqları da özünü göstərirdi ki, Xocalıda belə bir qırğın baş versin və Azərbaycan xalqının gözü qorxsun. Yəni, onlar bu addımları ilə demək istəyirdilər ki, "Xocalını bu cür etdik, Azərbaycanı da belə edərik". A.Mütəllibov isə Moskvanın diqtəsi ilə oyun oynayırdı. Bununla yanaşı, onu demək istəyirəm ki, təkcə A.Mütəllibovun dövründə deyil, hətta, Kamran Bağırovun vaxtında da bu cür hadisələrin baş verməsi üçün

planlar hazırlanırdı. Ona görə də bu gün biz obyektiv tədqiqat aparıb, xalqa obyektiv məlumat verməyəndə, fikirlər haçalanır. Bir qədər tarixə nəzər saldıqda, ölkəmizin ərazisində mövcud olmuş qədim türk dövləti Albaniyanın mərkəzi Xocalı şəhəri olmuşdur. Amma çox təəssüflər olsun ki, Xocalı soyqırımının və ümumilikdə həmin vaxt orada baş verən hadisələrin tədqiqi üçün bir mərkəz mövcud deyil.

Çingiz Bayramov:

- Xocalı faciəsinin baş verməsinə və ümumilikdə həmin ərəfədə ölkədə baş verən vəziyyətə nəzər saldıqda, aydın olur ki, Azərbaycan xalqına qarşı belə bir qırğının törədilməsi artıq qaçılmaz bir faktora çevrilmişdi. Ona görə də xalqımızın başına gətirilən bütün müsibətləri, bu gün malik olduğumuz imkanlardan istifadə edərək, beynəlxalq ictimaiyyətə çatdırmalıyıq. Eyni zamanda, tarixə nəzər saldıqda, aydın olur ki, vaxtaşırı olaraq Azərbaycan xalqına amansızcasına divan tutan erməni daşnakları Osmanlı imperiyasının dövründə sakit bir millət idi. Amma sonradan bu imperiya dağıldıqdan sonra ermənilərin Qafqazda nüfuz savaşına çıxması onların arxasında dayanan qüvvələrin gücünə bağlı olan məsələ idi. Çünki Qafqazlarda öz maraqlarını reallaşdırmaq niyyətində olan Rusiya ermənilərin əli ilə burada daim münaqişə yaradırdı. Bütün bunlar isə, birmənalı olaraq, Azərbaycan xalqına qarşı yönələn addımlar sırasındandır.

Tapdıq QURBANLI,
Kübra ƏLİYARLI

“Səs”.-2009.-19 fevral.-N32.-S.8-9

Xocalı faciəsi bəşəriyyətə qarşı cinayətdir

"Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırım, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir."

Ümummilli lider Heydər Əliyev

Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırım siyasətinə məruz qalmışdır. Xalqımız tarixi torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmiş və bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla müşayiət olunmuşdur. Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından qovulması sovet dövründə də davam etmişdir. Hadisələrin xronoloji ardıcıllığına diqqət yetirsək, Ermənistan tərəfindən bu siyasətin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirildiyinin şahidi olarıq. Əvvəlcə, 1948-1953-cü illərdə Ermənistandan 150 min azərbaycanlı deportasiya olunaraq Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilmiş, 1988-ci ildə isə öz tarixi torpaqlarında yaşayan sonuncu 250 min azərbaycanlı bu ərazidən qovulmuş, bununla da Ermənistan monoetnik dövlətə çevrilmişdir.

1988-ci ildən Dağlıq Qarabağ ətrafında başlayan hadisələr, erməni ideoloqlarının "dənizdən dənizə Ermənistan" adlı sərsəm bir ideyasını reallaşdırmaq cəhdi kəndlərin, şəhərlərin dağılması, on minlərə günahsız insanın ölümü, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələndi. Bütün beynəlxalq hüquq normalarına zidd olaraq Ermənistan dövləti bu gün də Dağlıq Qarabağı özünə birləşdirmək istəyir, bu yolda bütün cinayət və vəhşiliyə hazır olduqlarını nümayiş etdirirlər. XX əsrin faciəsi olan Xocalı soyqırımı aqressiv, cinayətkar və terrorçuluğu dövlət səviyyəsinə qaldırmış Ermənistan dövlətinin rəsmi siyasətinin nəticəsidir. XX əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Xocalı soyqırımı əsrin Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələri ilə bir sırada dayanır.

Azərbaycan tarixinin ən dəhşətli və qanlı səhifələrindən olan Xocalı soyqırımı eyni zamanda bəşər tarixinin ən geniş miqyaslı və xüsusi amansızlıqla törədilmiş hərbi cinayətlərindəndir. 16 il əvvəl 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri Xankəndində yerləşdirilən keçmiş sovetlər birliyinə məxsus 366-cı alayın köməyi ilə Xocalı şəhərinin dinc mülki əhalisinə təcavüz edərək, Xocalı şəhərini yerlə-yeksan etdilər.

Xocalı soyqırımı zamanı 613 nəfər dinc azərbaycanlı vəhşicəsinə qətlə yetirilmiş, 1275 nəfər dinc sakin əsir götürülmüşdür. Təəssüf hissi ilə qeyd edilməlidir ki, onlardan 700 nəfəri hələ də erməni əsirliyindədir. Qanlı faciə nəticəsində 1000 nəfər dinc sakin müxtəlif dərəcədə xəsarət almış, bir çoxları şikəst olmuşlar. Bu cür tale ilə üzləşənlərin 106 nəfəri qadın, 83 nəfəri isə az yaşlı uşaqlardır. Həlak olanların 56 nəfəri xüsusi qəddarlıq və amansızlıqla qətlə yetirilmişdir. Dinc əhaliyə qarşı bu cür qeyri-insani əməllər özlərini dünya ictimaiyyətinə "mədəni" və "məzlum" xalq kimi tanıtmağa çalışan ermənilərin və erməni millətçiliyinin əsl mahiyyətini dünyaya nümayiş etdirmişdir. Qanlı hadisələr zamanı vəhşi təcavüzün əsas obyekti kimi köməksiz qadın və uşaqların xüsusi qəddarlıqla qətlə yetirilməsi faktı bəşəriyyət tarixində qanlı ləkə kimi qalacaqdır.

Bu gün dünya dövlətləri ərazi bütövlüyü və dinc yanaşı yaşaması prinsiplərini rəhbər tutaraq beynəlxalq terrorizmə və təcavüzkarlığa qarşı vahid cəbhədə birləşməlidir. Ermənistan Respublikası tərəfindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və bütövlükdə 20 faiz ərazisinin işğal edilməsi, 20 mindən artıq Azərbaycan vətəndaşını dəhşətli terrora və kütləvi qırğınlara məruz qalması, ermənilərin sırf etnik təmizləmə siyasəti aparmalarından xəbər verir. Beynəlxalq təşkilatların və dünya birliyinin terrorçuluğu və irqçi ideologiyanı dövlət siyasəti səviyyəsinə qaldırmış təcavüzkar Ermənistanın əsl simasının tanınmasının vaxtı çoxdan çatmışdır. Əks halda, bəşəriyyət yeni Xocalı faciələri ilə üz-üzə qala bilər.

Bu gün beynəlxalq təcrübədə bəşəriyyətə qarşı cinayət törətmiş şəxslərin tələb olunması və mühakimə olunması üçün kifayət qədər hüquqi baza və mexanizmlər mövcuddur. Təəssüflər olsun ki, indiyədək beynəlxalq ictimaiyyət Xocalı faciəsindən 17 il keçməsinə baxmayaraq, bu soyqırım hadisəsinə hüquqi qiymət verməmiş, cinayətkarlar lazımı cəzalarını almamışlar. Halbuki, cinayət baş verdiyi tarixdə Xocalı hadisələri ABŞ - da "İlin ən böyük faciəsi " adlandırılmış, dünyanın aparıcı KİV-ləri onu geniş və obyektiv şəkildə işıqlandırmışlar.

1993-cü ildən Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan hökuməti və parlamenti erməni millətçilərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırmaq, bunların soyqırım siyasəti kimi tanınmasına nail olmaq üçün inadlı və ardıcıl fəaliyyət göstərir. Məhz Onun təşəbbüsü ilə 1994-cü ildə Azərbaycan Respublikasının Milli Məclisi Xocalı faciəsini soyqırım kimi qiymətləndirmiş və beynəlxalq ictimaiyyətə,

dünya dövlətlərinə müraciət qəbul etmişdir. Ümummilli liderimiz Heydər Əliyevin Xocalı faciəsinin onuncu ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində deyilir: "Bu qəddar və amansız soyqırım aktı insanlığın tarixinə ən dəhşətli kütləvi terror hadisələrindən biri kimi daxil olmuşdur. Bu gün Azərbaycan hökuməti və xalqı qarşısında Xocalı soyqırımı və bütövlükdə ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi, bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların əsl soyqırımı aktı kimi tanınmasına nail olmaq vəzifəsi durur. Bu, Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur. Digər tərəfdən, faciənin əsl beynəlxalq hüquqi - siyasi qiymət alması, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılması bütövlükdə insanlığa qarşı yönəlmiş belə qəddar aktların gələcəkdə təkrarlanmaması üçün mühüm şərtdir."

Xocalı faciəsini beynəlxalq aləmdə tanıtdırmaq istiqamətində Yeni Azərbaycan Partiyası ötən dövr ərzində geniş miqyaslı fəaliyyət göstərmişdir. Belə ki, Yeni Azərbaycan Partiyası ötən illərdə ATƏT, AŞ, BMT kimi beynəlxalq qurumlara ünvanladığı müraciət, məktub və sənədlərdə Xocalı faciəsinə birmənalı yanaşmamağı və məsələyə "soyqırım" adı verilməsini tələb etmiş, dünya ölkələrini faciəyə münasibət bildirməyə çağırmışdır. Bu fəaliyyəti bu gün də davam etdirən partiya rəhbərliyi ölkə başçısı Prezident cənab İlham Əliyevin siyasi kursuna dəstək olaraq, hər il faciənin il dönümü ərəfəsində müxtəlif istiqamətli konfranslar, dəyirmi masalar, Xocalı şəhidlərinin anma mərasimlərini keçirir, o gecənin şahidləri ilə görüşərək onlara maddi və mənəvi yardım göstərir.

Bu günkü Azərbaycan artıq 1988 - 1993-cü illərin böhranlı, məğlub, qətiyyətsiz Azərbaycanı deyil. Bu günkü Azərbaycan iqtisadi, siyasi, ideoloji və xarici siyasət sahələrində güc, qüdrət sahibidir. Çünki Azərbaycan öz haqqını diplomatik yönümdən əlavə, hərbi cəbhədə də tam təmin etmək iqtidarındadır. Hazırda möhtərəm Prezidentimiz cənab İlham Əliyev başda olmaqla Azərbaycan rəhbərliyi Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll olunması üçün ardıcıl fəaliyyət göstərir. Aparıcı dünya dövlətləri, nüfuzlu beynəlxalq təşkilatlar getdikcə daha artıq dərəcədə Azərbaycanın ədalətli mövqeyini qəbul edir, ərazilərimizin işğalı faktını etiraf edir, Ermənistandan Azərbaycan torpaqlarını azad etməyi tələb edirlər. Xalqımız inanır ki, Azərbaycan iqtidarı bundan sonra da dövlətimizin iqtisadi, siyasi qüdrətinə və qazanılmış təcrübəyə arxalanaraq problemin ədalətli həlli istiqamətində səylərini inadla davam etdirəcəkdir. Əminliklə demək olar ki, bütün bunlar sonda Xocalı faciəsini törədənlərin gec - tez beynəlxalq məhkəmə qarşısında cavab verəcəyinə və layiqli cəza alacaqlarına gətirib çıxaracaqdır.

Bəhruz Babayev,
"İki sahil".-2009.-20 fevral.-N.33.-S.7.

Azərbaycan Xocalı faciəsiylə bağlı Haaqa Məhkəməsinə müraciət edir

ƏLİ HƏSƏNOV: "HAZIRDA SOYQIRIM AKTININ DETALLARI, HADİSƏNİ ƏKS ETDİRƏN SƏNƏDLƏR, ŞƏKİLLƏR, ŞAHİDLƏRİN RƏYLƏRİ SİSTEMLƏŞDİRİLİR"

"Xocalı faciəsinin ildönümü ilə bağlı tədbirlər planına uyğun olaraq, həm Azərbaycanın daxilində, həm də xarici ölkələrdə aksiyalar keçiriləcək". APA-nın məlumatına görə, bu sözləri Prezidentin İcra Aparatı İctimai-siyasi şöbəsinin müdiri Əli Həsənov deyib. Şöbə müdirinin sözlərinə görə, aksiyalar Xocalı qurbanlarının ruhunu yad etmək, dünya ictimaiyyətinə Xocalıda ermənilərin törətdikləri cinayətlərin bütün detallarını çatdırmaq, işğal faktının beynəlxalq aləmdə qiymətləndirilməsinə nail olması məqsədi ilə keçiriləcək. Ə. Həsənov qeyd edib ki, bu istiqamətdə Azərbaycanın səfirlikləri, diaspor təşkilatları və hökumət strukturları bir neçə ildir, iş aparır: "Haaqa İnsan Hüquqları Məhkəməsinə müraciət də gündəmdədir. Bizim hüquqşünaslar və bəzi qeyri-hökumət təşkilatları bütün imkanları öyrənir, faktlar toplanılır, törədilmiş soyqırımı aktının detalları, hadisəni əks etdirən sənədlər, şəkillər, şahidlərin rəyləri sistemləşdirilir. Bundan sonra Haaqa İnsan Hüquqları Məhkəməsinə müraciət olunacaq".

Diaspor ilə İş üzrə Dövlət Komitəsi Xocalı soyqırımının 17-ci ildönümü ilə bağlı müxtəlif ölkələrdə anım tədbirləri keçiriləcəyi barədə məlumat yayıb. Dövlət Komitəsində bununla bağlı tədbirlər planı təsdiqlənib. Komitənin mətbuat xidmətindən verilən məlumata görə, faciənin ildönümü ərəfəsində etiraz aksiyaları, konfranslar, sərgilərin təşkili nəzərdə tutulub.

Fransanın Strasburq şəhərində Azərbaycanın Avropa Şurası yanındakı daimi nümayəndəliyinin, Azərbaycan və türk təşkilatlarının, orada təhsil alan gənclərin, yerli və xarici qurumların nümayəndələrinin iştirakı ilə fevralın 26-da Avropa Parlamentlər Assosiasiyasının binasında XX əsrin bu dəhşətli faciələrindən birinə həsr olunmuş anma mərasimi ilə başlanacaq. Mərasim iştirakçılarına Xocalı soyqırımı, erməni vəhşilikləri, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə Heydər Əliyev Fondunun müxtəlif dillərdə nəşr etdiyi materiallar təqdim olunacaq, ermənilərin xalqımıza qarşı törətdiyi terror və soyqırımı aktlarına dair geniş məlumat veriləcək, faciədən bəhs edən film və fotostend nümayiş etdiriləcək.

Bundan əlavə, elektron KİV-lərdə faciəyə dair məlumatların yerləşdirilməsi, dəyirmi masa keçirilməsi də nəzərdə tutulub. Strasburqdakı "Azərbaycan evi" isə fevralın 28-də nümayiş keçirəcək. Bir gün sonra yerli radioda Xocalı soyqırımına həsr olunmuş xüsusi veriliş səslənəcək.

Almaniyada isə fevralın 26-da Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev Alman-Azərbaycan Forumunun prezidenti Otto Hauzerlə birlikdə Frankfurtdakı "FOX" televiziya-sının canlı efirində yarım saat Xocalı soyqırımı barədə çıxış edəcəklər. "Kanal Avropa"nın və TQRT-nin Almaniya nümayəndəliyinin canlı efirində də soyqırımla bağlı çıxışlar nəzərdə tutulub. Daha bir etiraz aksiyası isə Hollandiyanın Haaqa şəhərində baş tutacaq.

"Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Cəmiyyətinin fevralın 22-də piket keçirəcək, sonra isə məşəllərlə etiraz yürüşü olacaq, soyqırımı qurbanlarının xatirəsinə Haaqada ucaldılmış abidə ziyarət olunacaq. Brüsseldə, İsveçdə, Danimarkada, Baltikyanı ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlan da Xocalı faciəsinin ildönümü münasibətilə birgə tədbirlər keçirəcək. ABŞ-da isə "Xocalı həftəsi" keçiriləcək. "Xocalı ədalət kampaniyası" adı altında baş tutacaq tədbirlər çərçivəsində soyqırımı ilə bağlı konfrans da keçiriləcək. BMT-nin Nyu-Yorkdakı mənzil qərargahı qarşısında etiraz aksiyası təşkil olunacaq.

Türkiyədə, Şimali Kiprdə, Birləşmiş Ərəb Əmirliklərinin Dubay Əmirliyində, Misir Yeni Zellandiya, Gürcüstan, Qazaxıstan, Qırğızıstan Ukrayna və digər ölkələrdə də soyqırım qurbanları yad ediləcək, faciəyə həsr olunan sənədli film nümayiş etdiriləcək.

P. SULTANOVA

“525-ci qəzet”.- 2009. 20 fevral №33 (2866) S. 1,3.

Xocalı soyqırımı - bəşəriyyətə qarşı tarixi cinayət

"Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri - insani cəza üsulları ilə bəşər tarixində tayı - bərabəri olmayan bir vəhşilik aktıdır"

Heydər Əliyev

1988-ci ildən başlamış Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dövründə ən müdhiş hadisə, tarixdə analoqu çox az olan dəhşətli faciə Qarabağın qədim insan məskənlərindən olan Xocalıda erməni silahlı dəstələri tərəfindən azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırım olmuşdur. Xocalı soyqırımı XX əsrin ən dəhşətli və çox qəddarcasına törədilmiş Xatın, Xirosima faciələri ilə eyni səviyyədə durur.

Xocalı Xankəndi şəhərindən 14 km şimal-şərqdə yerləşir.

1992-ci ilin qanlı faciəsinə kimi Xocalıda 7 min əhali yaşayırdı. Məlum hadisələr dövründə Ermənistandan, qonşu Xankəndindən ermənilər tərəfindən didərgin salınmış xeyli azərbaycanlı və 1989-cu ildə Fərqanədən qovulmuş məhsəti türkləri də bu şəhərdə məskunlaşmışdılar.

1992-ci il fevralın 25-dən 26-sına keçən gecə erməni silahlı dəstələri Xankəndi şəhərində yerləşdirilmiş keçmiş SSRİ-nin 366-cı motoatıcı hərbi alayının köməyi ilə silahsız və köməksiz Xocalı şəhərinə hücum etmişlər. Əvvəlcə şəhər dörd tərəfdən erməni qoşunları tərəfindən əhatə olunmuş, sonra isə Xocalıya artilleriya və ağır hərbi texnikadan güclü və amansız atəş açılmış, az bir vaxt ərzində şəhərdə yanğın baş vermiş, şəhər tamamilə alova bürünmüşdür. Şəhərin müdafiəçiləri və yerli əhali buranı tərk etməyə məcbur olmuşlar. Fevralın 26-sı səhər saat 5-ə kimi şəhər erməni işğalçıları tərəfindən zəbt olunmuş, bir gecənin içərisində qədim Xocalı yerlə yeksan edilmişdir.

Şəhəri tərk etməyə məcbur olan əhali dağlara, meşələrə qaçmışdır. Pusquda durmuş silahlı ermənilər hər tərəfdə dinc əhalini güllələmiş, soyğunçuluq etmiş, onlara amansız divan tutmuşlar. Beləliklə, soyuq, qarlı fevral gecəsində yüzlərlə azərbaycanlı məhv edilmiş, qocalara, xəstələrə, uşaqlara, qadınlara rəhm edilmədən əzab verilmiş, əsir götürülmüşdür. Bəzi dəstələr isə erməni silahından yayınıb meşələrə, dağlara qaçsalar da onların çoxu soyuqdan, şaxtadan məhv olmuşlar… Bu, əsil soyqırım idi.

Cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində Xocalı əhalisindən 613 nəfər öldürülmüş, 487 nəfər şikəst olmuş, 1275 nəfər dinc sakin - qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqir və həqarətlərinə məruz qalmışlar. 150 nəfərin taleyi hələ də məlum deyildir. Xocalıda öldürülmüş 613 nəfərdən 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri qoca insanlar olmuşdur.

Xocalı faciəsində 8 ailə bütövlükdə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir.

Bu cinayətdə 56 nəfər xüsusi qəddarlıqla və amansızlıqla qətlə yetirilmişdir. Onlar diri-diri yandırılmış, başları kəsilmiş, üzlərinin dərisi soyulmuş, körpə uşaqların gözləri çıxarılmış, süngü ilə hamilə qadınların qarınları yarılmışdır. Ermənilər hətta meyitləri də təhqir etmişlər…

Azərbaycan xalqı və onun dövləti Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaqdır.

Azərbaycan xalqının ümummilli lideri, Ulu öndər Heydər Əliyev 1 mart 1994-cü ildə bu haqda xüsusi Fərman vermişdir. Azərbaycan Respublikasının Milli Məclisinin Qərarı ilə 26 fevral "Xocalı soyqırımı və milli matəm günü" elan olunmuş, bu barədə bütün beynəlxalq təşkilatlara məlumat verilmişdir.

Hər ilin fevralında ölkə başçısı "Xocalı Soyqırımı" ilə əlaqədar xalqa müraciət edir.

25 fevral 1997-ci ildə "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti tərəfindən Fərman imzalanmış və fevralın 26-da saat 17.00-da soyqırım qurbanları bir dəqiqəlik sükutla yad edilirlər.

Xalqımız bu dəhşətli soyqırım hadisəsinin günahkarlarının layiq olduqları cəzaya çatacaqları günü səbirsizliklə gözləyir. Azərbaycan gəncləri Xocalı soyqırımının anım günləri zamanı ermənilərin və dünya ictimaiyyətinin tanınmış simalarının elektron poçtuna etiraz məktubları, faciə qurbanlarının dəhşətlərini əks etdirən fotolar, sənədlərin surətləri və informasiyalarla virtual hücumlar təşkil edir, soyqırımın dünya miqyasında tanınmasına çalışırlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının tapşırığı ilə son illər bu soyqırım hadisəsi bütün dünyada tanınması istiqamətində geniş ideoloji-intellektual işlər görülür.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun səfiri, millət vəkili Mehriban xanım Əliyevanın xüsusi səyi nəticəsində Azərbaycan həqiqətləri, Xocalı faciəsi haqqında kitablar, filmlər, stendlər dünyanın hər yerində nümayiş etdirilir.

İnanırıq ki, Xocalı soyqırımı qurbanlarının qanı yerdə qalmayacaq.

Camaləddin Dostəli

"Rabitə dünyası".-2009.-20 fevral.-N.6.-S.15

Dünya Xocalı faciəsini anır

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, Xocalı soyqırımının 17-ci ildönümünü anmaq məqsədilə bu il də etiraz aksiyaları, konfransların keçirilməsi, sərgilərin təşkili nəzərdə tutulub. Belə ki, fevralın 26-da komitə sədrinin birinci müavini Valeh Hacıyev Alman-Azərbaycan Forumunun prezidenti Otto Hauzerlə birlikdə Frankfurtdakı "FOX" televiziyasında yarım saat Xocalı soyqırımı barədə çıxış edəcəklər. Daha sonra Valeh Hacıyevin Mayns Azərbaycan Cəmiyyətinin sədri Başar Kömür və Frankfurt Azərbaycan Cəmiyyətinin sədri Kəmalə İsgəndərovayla birlikdə "Kanal Avropa"nın və TQRT-nin Almaniya nümayəndəliyində də soyqırımla bağlı çıxışları nəzərdə tutulub.

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, Xocalı soyqırımının 17-ci ildönümünü anmaq məqsədilə bu il də etiraz aksiyaları, konfransların keçirilməsi, sərgilərin təşkili nəzərdə tutulub. Belə ki, fevralın 26-da komitə sədrinin birinci müavini Valeh Berlin şəhərində isə Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi Alman Bundestaqının üzvlərinin də dəvət olunacağı anım tədbirində soyqırımla bağlı sənədli film nümayiş etdiriləcək və uşaq rəsmlərindən ibarət sərgi düzənlənəcək. Hacıyev Alman-Azərbaycan Forumunun prezidenti Otto Hauzerlə birlikdə Frankfurtdakı "FOX" televiziyasında yarım saat Xocalı soyqırımı barədə çıxış edəcəklər. Daha sonra Valeh Hacıyevin Mayns Azərbaycan Cəmiyyətinin sədri Başar Kömür və Frankfurt Azərbaycan Cəmiyyətinin sədri Kəmalə İsgəndərovayla birlikdə "Kanal Avropa"nın və TQRT-nin Almaniya nümayəndəliyində də soyqırımla bağlı çıxışları nəzərdə tutulub. Berlin şəhərində isə Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi Alman Bundestaqının üzvlərinin də dəvət olunacağı anım tədbirində soyqırımla bağlı sənədli film nümayiş etdiriləcək və uşaq rəsmlərindən ibarət sərgi düzənlənəcək. Bundan başqa, Berlinin mərkəzi meydanlarından birində "Azərbaycan Evi" və Alman Azərbaycan Həmrəylik Cəmiyyəti birlikdə Xocalı faciəsi həqiqətlərinə alman ictimaiyyətinin diqqətini çəkmək məqsədilə mitinq keçirəcək. Daha bir etiraz aksiyası isə Hollandiyanın Haaqa şəhərində baş tutacaq. Fevralın 22-də "Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Cəmiyyəti Sülh Sarayının qarşısında piket keçirəcək, sonra isə məşəllərlə etiraz yürüşü olacaq, həmçinin Xocalı soyqırımı qurbanlarının xatirəsinə Haaqada ucaldılmış abidə ziyarət olunacaq. Hollandiya Azərbaycan Türk-Kültür Dərnəyi isə martın 1-də Haaqadakı Xocalı abidəsinin önündə soyqırım qurbanlarını anma mərasimi keçirəcək. Tədbirdə Azərbaycan və Türkiyənin Niderland Krallığındakı səfirləri, Azərbaycan və türk diaspor təşkilatlarının fəalları iştirak edəcəklər. Brüsseldə isə fevralın 26-da Belçika-Azərbaycan Evinin təşəbbüsüylə şəhərin Place du Schuman mərkəzi meydanında soyqırımın 17-ci ildönümüylə əlaqədar çadır qurulacaq. Çadırda faciəni əks etdirən foto və rəsm sərgisi nümayiş etdiriləcək, yerli televiziyalardan birində Xocalı qırğını barədə filmin göstərilməsi təşkil olunacaq. Həmin gün Almaniyanın Köln şəhərindəki Vahid Azərbaycan Cəmiyyətinin üzvləri də Brüsselə gələrək buradakı Azərbaycan və türk diaspor təşkilatlarının iştirakıyla Avropa Parlamentinin binası qarşısında tədbir keçirəcəklər. Soyqırım qurbanlarının anım günündə "Azər-Türk" Qadınlar Birliyi də Brüsseldəki Square de Meeuse meydanında mitinq keçirəcək və buradan isə Avropa Parlamenti binasının yerləşdiyi Place Schuman meydanına yürüş olacaq. Bundan başqa, fevralın 22-də İsveçin Stokholm şəhərindəki Sergelstorg meydanında bu ölkədəki Azərbaycan diaspor təşkilatları Xocalı qətliamına etiraz əlaməti olaraq mitinq keçirəcəklər. Bir gün əvvəl isə İsveçin Linşöpinq şəhərində fəaliyyət göstərən "Babək" dərnəyi şəhərin Tradgardstorget meydanında manifest təşkil edəcək. Fevralın 25-də İsveçrədə fəaliyyət göstərən Azərbaycanlıların İsveçrədəki Mədəniyyət Mərkəzi Berndə bu ölkənin parlament üzvlərinin, tanınmış siyasətçilərin və KİV nümayəndələrin iştirakı ilə konfrans keçirərək Xocalı soyqırımına, tarixi gerçəkliklərə bir daha diqqət yönəldəcək. Danimarkadakı "Vətən" cəmiyyəti Xocalı faciəsinin ildönümünü soyqırım haqqında sənədli filmin nümayişi, broşurlar və kitabların təqdimatı ilə qeyd edəcək. Faciənin 17-cı ildönümü günü Moldova Azərbaycanlıları Konqresi Azərbaycanın Moldovadakı səfirliyilə birlikdə Kişineu şəhərində soyqırım qurbanlarını anım məqsədilə mərasim təşkil edəcək. Tədbirdə Xocalı soyqırımına həsr olunmuş CD-lər, kitablar, broşurlar paylanacaq. Fevralın 26-da Estoniyadakı "Aydan" Estoniya-Azərbaycan Mədəniyyət Mərkəzinin keçirəcəyi anım tədbirində faciəylə bağlı film göstəriləcək və fotosərgi təşkil olunacaq. Latviyada "Ocaq" Mədəniyyət Mərkəzinin Latviya Akademiyasının Kitabxanasında təşkil edəcəyi "dəyirmi masa"da ölkə Seyminin deputatları, Latviya Xarici İşlər Nazirliyinin nümayəndələri, mədəniyyət və elm xadimləri iştirak edəcəklər. Litva Azərbaycanlıları Cəmiyyəti də faciənin 17-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirəcək. Praqada Azəri-Çex Cəmiyyəti, Budapeştdə Macarıstan-Azərbaycan Dostluq Cəmiyyəti, Buxarestdə isə Rumıniya Azərbaycan Mədəniyyət və Gənclər Assosiasiyası, Heydər Əliyev Fondunun Rumıniya nümayəndəliyi ölkəmizin bu dövlətlərdəki səfirlikləri ilə birlikdə Xocalı soyqırımına həsr olunmuş tədbirlər keçirəcəklər. Xocalı faciəsinin 17-cı ildönümünü fevralın 27-da Kanadanın Ottava şəhərindəki Kanada-Azərbaycan Təşkilatlar Assambleyası Azərbaycanın bu ölkədəki səfirliyi ilə birlikdə fevralın 28-də isə Edmontonda "Alberta-Azərbaycan" Mədəniyyət Mərkəzi qeyd edəcəklər. Amerika-

Azərbaycan Şurasının və Amerika-Azərbaycan Cəmiyyətinin təşkilatçılığıyla ABŞ-da "Xocalı həftəsi" keçiriləcək. Tədbirlərin Nyu-York, Vaşinqton, San-Fransisko, Kaliforniya, Çikaqoda təşkili nəzərdə tutulub. "Xocalı ədalət kampaniyası" adı altında baş tutacaq tədbirlər çərçivəsində soyqırımı ilə bağlı konfrans da keçiriləcək. Konfransda Heydər Əliyev Fondunun hazırladığı Xocalı filmi nümayiş olunacaq, millət vəkili Həvva Məmmədovanın ingilis dilində işıq üzü görən Xocalı soyqırımı ilə bağlı kitabı iştirakçılara təqdim olunacaq. Bundan başqa, tədbirlər çərçivəsində BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahı qarşısında etiraz aksiyası keçiriləcək. Etiraz aksiyasında BMT ölkələrinə və baş katibinə müraciət ünvanlanacaq. Nyu-Yorkdakı "Türk evi"ndə isə təqdimat keçiriləcək. Slaydlar vasitəsilə aparılacaq bu təqdimat və panel-disskussiya Kaliforniyadakı Berkli Universitetində də təşkil olunacaq. Silsilə tədbirlər fevralın 28-dək davam edəcək. Tədbirlərdə Milli Məclisin deputatları Həvva Məmmədova, Qənirə Paşayeva və Asim Mollazadə, amerikalı jurnalist Tomas Qolts və başqaları iştirak edəcəklər. Soyqırımın 17-ci ildönümünün qeyd olunduğu daha bir mərasimi Nyu-Yorkda Azərbaycan Nyu-York Assosiasiyası ölkəmizin BMT-dəki Daimi Nümayəndəliyi ilə birgə keçirəcək. Fevralın 26-də Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası soyqırımın 17-ci ildönümünə həsr olunmuş anım tədbiri və fotosərgi keçirməyi nəzərdə tutub. Manisada Azərbaycan Kültür və Dayanışma Dərnəyi anım mərasimi, İzmirdə təhsil alan azərbaycanlı tələbələr isə Azərbaycan Kültür Evi və Dayanışma Dərnəyi ilə birgə konfrans keçirəcək. Türkiyədəki anım tədbirləri sırasına İzmirdəki Kocaeli Azərbaycan Evi Dərnəyinin təşkil edəcəyi konfrans və bir həftəlik sərgi də daxildir. Şimali Kipr Türk Respublikasının Doğu Akdeniz Universitetində burada fəaliyyət göstərən İqtisadi, Mədəni Əməkdaşlıq Mərkəzinin keçirəcəyi anım tədbirində rəsmi qonaqlar, Doğu Akdeniz Universitetinin tələbə və müəllim kollektivi iştirak edəcək. Birləşmiş Ərəb Əmirliklərinin Dubay Əmirliyindəki Azərbaycan Cəmiyyəti, Misir Ərəb Respublikasında fəaliyyət göstərən Vətən Tələbə Cəmiyyəti, Sidneydəki Avstraliya-Azərbaycan Türk Dostluq Birliyi də Xocalı faciəsinin 17-ci ildönümü münasibətilə anım tədbirləri keçirəcəklər. Tailand Krallığındakı Azərbaycan Mədəniyyət Evi Xocalı soyqırımıyla bağlı Bankoq şəhərində yerləşən Assumtion Universitetində konfrans keçirəcək. Tədbirdə faciəni əks etdirən fotoşəkillər də sərgilənəcək. Yeni Zellandiyanın Okland şəhərində fəaliyyət göstərən "Azəri" Yeni Zellandiya-Azərbaycan Dostluq Cəmiyyəti Xocalı soyqırımının ildönümüylə bağlı bu şəhərdə çıxan iki qəzetdə məqalələrin yer almasını razılaşdırıb. Yazılar artıq qəzetlərin redaksiyalarına təqdim olunub. Təşkilat həm də bir neçə ali təhsil ocağında soyqırımla bağlı məlumat xarakterli tanıtım aksiyaları keçirəcək. Gürcüstanın Marneuli şəhərində Azərbaycan Mədəniyyət Mərkəzi Azərbaycanın Gürcüstandakı səfirliyilə birlikdə Xocalı soyqırımı ilə bağlı "dəyirmi masa" keçirəcək. Fevralın 26-da həmçinin Tiflis şəhərində Gürcüstan Azərbaycanlıları Konqresi səfirliklə birgə Xocalı soyqırımı ilə bağlı elmi-praktik konfrans təşkil edəcək. Özbəkistanın paytaxtı Daşkənd şəhərində Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyası faciə qurbanlarının xatirəsini yad edəcək. Qazaxıstanın Astana şəhərində "Xəzər" İctimai Birliyi, Aktau şəhərində isə "Dostluq" Azərbaycan Mədəniyyət Mərkəzilə "Turan" Konqresi Xocalı soyqırımı ilə bağlı tədbirlər keçirəcəklər. Hər iki tədbir fevralın 26-na təyin edilib. Qırğızıstanda fəaliyyət göstərən "Azəri" İctimai Birliyi və Türk Dünyasının Siyasətinə Dəstək İctimai Fondu birlikdə anım tədbiri keçirəcəklər. Rusiya Federasiyası üzrə fevralın 26-da Ümumrusiya Azərbaycan Konqresi Moskva şəhərindəki "Bakı" kinoteatrında Xocalı soyqırımına həsr edilmiş toplantı keçirməyi və sənədli film nümayişini nəzərdə tutur. Həmin gün Sankt-Peterburq, Yekaterinburq, Samara, Tula, Ufa, Novosibirsk, Ulan-Ude, Xabarovsk və Rusiyanın digər şəhərlərində də Ümumrusiya Azərbaycan Konqresinin regional nümayəndəlikləri Xocalı soyqırımının ildönümünü qeyd edəcəklər. Fevralın 25-də Kiyevdə Ukrayna Azərbaycan Konqresinin təşkilatçılığı ilə azərbaycanlı rəssam Rasim Səydiyevin Xocalı soyqırımına həsr olunmuş sərgisi nümayiş etdiriləcək. Bu sərgi Xarkov, Dnepropetrovsk şəhərlərində də ictimaiyyətə təqdim olunacaq. Fevralın 26-da isə Kiyevdə və Ukraynanın digər bir neçə şəhərində yaşayan azərbaycanlılar Ermənistanın bu ölkədəki səfirliyinin binası qarşısında piket keçirəcəklər. Eyni zamanda ATƏT-in Ukraynadakı nümayəndəliyinin binası önündə də piket keçirilməsi və Xocalı soyqırımı ilə bağlı qətnamə qəbul edilməsi nəzərdə tutulub. Həmin sənəd BMT-nin Ukraynadakı nümayəndəliyinin ofisinə də təqdim olunacaq. Həmçinin Ukraynanın Kiyev, Xarkov, Donetsk, Dnepropetrovsk və digər şəhərlərində faciənin ildönümü ilə əlaqədar "dəyirmi masa"lar və digər anım mərasimləri keçiriləcək. Fevralın 26-da Xocalı soyqırımının 17-cı ildönümü Azərbaycanın Belarusdakı səfirliyinin və Belarus Azərbaycan İcmaları Konqresinin təşkilatçılığıyla Minsk şəhərində də anılacaq, "dəyirmi masa" keçiriləcək, Xocalı soyqırımına həsr olunmuş sənədli film nümayiş etdiriləcək.

Turqut

"Xalq Cəbhəsi". -2009. – 20 fevral. - № 33. - S. 4.

Xocalı faciəsinin 17-ci ildönümü ilə bağlı xarici ölkələrdə silsilə tədbirlər keçiriləcək

Diaspor ilə İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən verilən məlumata görə, xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının Xocalı soyqırımının 17-ci ildönümünü qeyd etməsi ilə əlaqədar tədbirlər planı təsdiqlənib. Xocalı faciəsini anmaq məqsədilə bu il də etiraz aksiyaları, konfransların keçirilməsi, sərgilərin təşkili nəzərdə tutulub.

TÜRKİYƏ

Fevralın 26-da Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyası soyqırımın 17-ci ildönümünə həsr olunmuş anım tədbiri və fotosərgi keçirməyi nəzərdə tutub. Manisada Azərbaycan Kültür və Dayanışma Dərnəyi anım mərasimi, İzmirdə təhsil alan azərbaycanlı tələbələr isə Azərbaycan Kültür Evi və Dayanışma Dərnəyi ilə birgə konfrans keçirəcək. Türkiyədəki anım tədbirləri sırasına İzmitdəki Kocaeli Azərbaycan Evi Dərnəyinin təşkil edəcəyi konfrans və bir həftəlik sərgi də daxildir.

Şimali Kipr Türk Respublikasının Doğu Akdeniz Universitetində burada fəaliyyət göstərən iqtisadi və Mədəni Əməkdaşlıq Mərkəzinin keçirəcəyi anım tədbirində rəsmi qonaqlar, Doğu Akdeniz Universitetinin tələbə və müəllim kollektivi iştirak edəcək.

Birləşmiş Ərəb Əmirliklərinin Dubay Əmirliyindəki Azərbaycan Cəmiyyəti, Misir Ərəb Respublikasıda fəaliyyət göstərən Vətən Tələbə Cəmiyyəti, Sidneydəki Avstraliya-Azərbaycan Türk Dostluq Birliyi də Xocalı faciəsinin 17-ci ildönümü münasibətilə anım tədbirləri keçirəcəkdir.

FRANSA

Fransanın Strasburq şəhərində Xocalı soyqırımının 17-ci ildönümü ilə bağlı silsilə tədbirlər Azərbaycanın Avropa Şurası yanındakı daimi nümayəndəliyinin, Azərbaycan və türk təşkilatlarının, Strasburqda təhsil alan gənclərimizin, yerli və xarici qurumların nümayəndələrinin iştirakı ilə fevralın 26-da Avropa Parlamentlər Assosiasiyasının binasında anma mərasimi ilə başlanacaq. Mərasim iştirakçılarına Xocalı soyqırımı, erməni vəhşilikləri, habelə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə Heydər Əliyev Fondunun müxtəlif dillərdə nəşr etdirdiyi materiallar təqdim olunacaq. Ermənilərin xalqımıza qarşı törətdiyi terror və soyqırımı aktlarına dair geniş məlumat veriləcək, faciədən bəhs edən film və fotostend nümayiş etdiriləcək. Bundan əlavə, elektron KİV-lərdə faciəyə dair məlumatların yerləşdirilməsi, dəyirmi masa keçirilməsi də nəzərdə tutulub. Nümayəndəlik faciə barədə faktları əks etdirən mətbuat bülletenləri hazırlayaraq, Avropa Şurasının katibliyində, üzv ölkələrin daimi nümayəndəliklərində, habelə, Strasburqda fəaliyyət göstərən konsulluqlarda yayacaq. Strasburqdakı "Azərbaycan evi" də Azərbaycan Mədəni Əlaqələr və Azərbaycan Kültür Cəmiyyətləri, Azərbaycanlı Tələbələr Assosiasiyası, Miluzdakı Fransa-Azərbaycan Mədəniyyət Assosiasiyası ilə birlikdə ermənilərin 17 il əvvəl törətdikləri vəhşiliklər və Xocalı soyqırımı barədə həqiqətləri fransız xalqına çatdırmaq məqsədi ilə proqram hazırlayıb. "Azərbaycan evi" fevralın 28-də Strasburqun mərkəzindəki meydanda nümayiş keçirəcək. Nümayişdə bu bölgədə yaşayan azərbaycanlılar və türk diasporunun nümayəndələri iştirak edəcəklər. Nümayişin keçirilməsi barədə Strasburq bələdiyyəsindən razılıq alınıb. Nümayiş vaxtı yerli sakinlərə Xocalı faciəsindən bəhs edən, ingilis və fransız dillərində çap olunmuş ədəbiyyat, qəzetlər və vərəqələr paylanacaq. Fevralın 29-da yerli radioda Xocalı soyqırımına həsr olunmuş xüsusi veriliş səslənəcək.

ALMANİYA

Almaniyada da soyqırımın 17-ci ildönümünün qeyd edilməsi ilə bağlı geniş tədbirlər nəzərdə tutulub. Fevralın 26-da Diaspor ilə İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev Alman-Azərbaycan Forumunun prezidenti Otto Hauzerlə birlikdə Frankfurtdakı "FOX" televiziyasının canlı efirində yarım saat Xocalı soyqırımı barədə çıxış edəcəklər. Daha sonra V. Hacıyevin Mayns Azərbaycan Cəmiyyətinin sədri Başar Kömür və Frankfurt Azərbaycan Cəmiyyətinin sədri Kəmalə İsgəndərova ilə birlikdə "Kanal Avropa"nın və TQRT-nin Almaniya nümayəndəliyinin canlı efirində soyqırımla bağlı çıxışları nəzərdə tutulub. Berlin şəhərində isə Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi Alman Bundestaqının üzvlərinin də dəvət olunacağı anım tədbirində soyqırımla bağlı sənədli film nümayiş etdiriləcək. Uşaq rəsmlərindən ibarət sərgi təşkil olunacaq. Bundan başqa Berlinin mərkəzi meydanlarından birində "Azərbaycan Evi" və "Alman

Azərbaycan Həmrəylik Cəmiyyəti" birlikdə Xocalı faciəsi həqiqətlərinə alman ictimaiyyətinin diqqətini çəkmək məqsədilə mitinq keçirəcək.

HOLLANDİYA

Daha bir etiraz aksiyası isə Hollandiyanın Haaqa şəhərində baş tutacaq. "Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Cəmiyyəti fevralın 22-də Xocalı soyqırımı ilə bağlı hazırlanmış şüarlarla Sülh Sarayının qarşısında piket keçirəcək. Sonra isə məşəllərlə etiraz yürüşü olacaq, həmçinin, Xocalı soyqırımı qurbanlarının xatirəsinə Haaqada ucaldılmış abidə ziyarət olunacaq. "Hollandiya Azərbaycan Türk-Kültür Dəməyi" isə martın 1-də Haaqadakı Xocalı abidəsinin önündə soyqırım qurbanlarının xatirələrinin yad edilməsi üçün anım tədbiri keçirəcək. Tədbirdə Azərbaycan və Türkiyənin Niderland Krallığındakı səfirləri, Azərbaycan və türk diaspor təşkilatlarının fəalları iştirak edəcəklər.

BELÇİKA

Brüsseldə isə fevralın 26-da Belçika-Azərbaycan Evinin təşəbbüsü ilə şəhərin Place du Schuman mərkəzi meydanında soyqırımın 17-ci il-dönümü ilə əlaqədar çadır quracaq. Çadırda faciəni əks etdirən foto və rəsm sərgisi nümayiş etdiriləcək, yerli televiziyalardan birində Xocalı qırğını barədə filmin göstərilməsi təşkil olunacaq. Həmin gün Almaniyanın Köln şəhərindəki "Vahid Azərbaycan Cəmiyyəti"nin üzvləri də Brüsselə gələrək buradakı Azərbay-can və türk diaspor təşkilatlarının iştirakı ilə Avropa Parlamentinin binası qarşısında tədbir keçirəcəklər. Soyqırım qurbanlarının anım günündə "Azəri Türk Qadınlar Birliyi" də Brüsseldəki Square de Meeuse meydanında mitinq keçirəcək və buradan Avropa Parlamenti binasının yerləşdiyi Place Schuman meydanına yürüş olacaq.

İSVEÇ

Fevralın 22-də İsveçin Stokholm şəhərindəki Sergelstorg meydanında bu ölkədəki Azərbaycan diaspor təşkilatları Xocalı qətliamına etiraz əlaməti olaraq mitinq keçirəcəklər. Bir gün əvvəl isə İsveçin Linköpinq şəhərində fəaliyyət göstərən "Babək" dərnəyi şəhərin Tradgardstorget meydanında manifest təşkil edəcək.

Fevralın 25-də İsveçrədə fəaliyyət göstərən Azərbaycanlıların isveçrədəki Mədəniyyət Mərkəzi Berndə bu ölkənin parlament üzvlərinin, tanınmış siyasətçilərin və KİV nümayəndələrinin iştirakı ilə konfrans keçirərək diqqəti bir daha Xocalı soyqırımına, tarixi gerçəkliklərə yönəldəcək.

Danimarkadakı "Vətən" cəmiyyəti Xocalı faciəsinin ildönümünü soy-qırım haqqında sənədli filmin nümayişi, broşurlar və kitabların təqdimatı ilə qeyd edəcək.

Faciənin 17-ci ildönümü günü Moldova Azərbaycanlıları Konqresi Azərbaycan Respublikasının Moldovadakı Səfirliyi ilə birlikdə Kişinyev şəhərində soyqırım qurbanlarını anım məqsədi ilə mərasim təşkil edəcək. Tədbirdə Xocalı soyqırımına həsr olunmuş SD-lər, kitablar, broşurlar paylanacaq.

BALTİKYANI ÖLKƏLƏR

Baltikyanı ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları da Xocalı faciəsinin ildönümü münasibətilə birgə tədbirlər planı hazırlayıblar. Fevralın 26-da Estoniyadakı "Aydan" Estoniya-Azərbaycan Mədəniyyət Mərkəzinin keçirəcəyi anım tədbirində faciə ilə bağlı film göstəriləcək və fotosərgi təşkil olunacaq. Latviyada "Ocaq" Mədəniyyət Mərkəzinin Latviya Akademiyasının Kitabxanasında təşkil edəcəyi dəyirmi masada ölkə seyminin deputatları, Latviya Xarici işlər Nazirliyinin nümayəndələri, mədəniyyət və elm xadimləri iştirak edəcəklər. "Litva Azərbaycanlıları Cəmiyyəti" də faciənin 17-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirəcək. Praqada Azəri-Çex Cəmiyyəti, Budapeştdə Macarıstan-Azərbaycan Dostluq Cəmiyyəti, Buxarestdə isə Rumıniya Azərbaycan Mədəniyyət və Gənclər Assosiasiyası, Heydər Əliyev Fondunun Rumınıya nümayəndəliyi ölkəmizin bu dövlətlərdəki səfirlikləri ilə birlikdə Xocalı soyqırımına həsr olunmuş tədbirlər keçirəcəklər.

KANADA

Xocalı faciəsinin 17-ci ildönümünü fevralın 27-də Kanadanın Ottava şəhərindəki Kanada-Azərbaycan Təşkilatlar Assambleyası Azərbaycanın bu ölkədəki səfirliyi ilə birlikdə, fevralın 28-də isə Edmontonda "Alberta-Azərbaycan" Mədəniyyət Mərkəzi qeyd edəcəkdir.

ABŞ

ABŞ-da da soyqırım qurbanlarının xatirəsi müxtəlif tədbirlərlə anılacaq. Belə ki, Amerika-Azərbaycan Şurasının və Amerika-Azərbaycan Cəmiyyətinin təşkilatçılığı ilə ABŞ-da "Xocalı həftəsi" keçiriləcək. Tədbirlərin Nyu-York, Vaşinqton, San-Fransisko, Kaliforniya, Çikaqoda təşkili nəzərdə tutulub. "Xocalı ədalət kampaniyası" adı altında baş tutacaq tədbirlər çərçivəsində soyqırımı ilə bağlı konfrans da keçiriləcək. Konfransda Heydər Əliyev Fondu tərəfindən hazırlanan Xocalı filmi nümayiş olunacaq. Millət vəkili Həvva Məmmədovanın ingilis dilində işıq üzü görən Xocalı soyqırımı ilə bağlı kitab iştirakçılara təqdim olunacaq. Bundan başqa, tədbirlər çərçivəsində BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahı qarşısında etiraz aksiyası keçiriləcək. Etiraz aksiyasında BMT ölkələrinə və baş katibinə müraciət ünvanlanacaq. Nyu-Yorkdakı "Türk evi" ndə isə təqdimat keçiriləcək. Slaydlar vasitəsilə aparılacaq bu təqdimat və panel-diskussiya Kaliforniyadakı Berkli Universitetində də təşkil olunacaq. Silsilə tədbirlər fevralın 28-dək davam edəcək. Tədbirlərdə Azərbaycan Milli Məclisinin deputatları Həvva Məmmədova, Qənirə Paşayeva və Asim Mollazadə, amerikalı jurnalist Tomas Qolts və başqaları iştirak edəcəklər. Soyqırımın 17-ci il-dönümünün qeyd olunduğu daha bir mərasimi Nyu-Yorkda "Azərbaycan Nyu-York Assosiasiyası" ölkəmizin BMT-dəki Daimi Nümayəndəliyi ilə birgə keçirəcək.

TAYLAND

Tayland Krallığındakı Azərbaycan Mədəniyyət Evi Xocalı soyqırımı ilə bağlı Banqok şəhərində yerləşən Assumtion Universitetində konfrans keçirəcək. Tədbirdə faciəni əks etdirən fotoşəkillər də sərgilənəcək.

Yeni Zelandiyanın Okland şəhərində fəaliyyət göstərən "Azəri" Yeni Zelandiya - Azərbaycan Dostluq Cəmiyyəti Xocalı soyqırımının ildönümü münasibəti ilə bu şəhərdə çıxan iki qəzetdə məqalələrin yer almasını razılaşdırıb. Yazılar artıq qəzetlərin redaksiyalarına təqdim olunub. Təşkilat həm də bir neçə ali təhsil ocağında soyqırımla bağlı məlumat xarakterli tanıtım aksiyaları keçirəcək.

GÜRCÜSTAN

Gürcüstan Respublikasının Marneuli şəhərində "Azərbaycan Mədəniyyət Mərkəzi" Azərbaycanın Gürcüstandakı Səfirliyi ilə birlikdə Xocalı soyqırımı ilə bağlı dəyirmi masa keçirəcək. Fevralın 26-da, həmçinin, Tbilisi şəhərində "Gürcüstan Azərbaycanlıları Konqresi" səfirliklə birgə Xocalı soyqırımı ilə bağlı elmi-praktik konfrans təşkil edəcək.

ÖZBƏKİSTAN

Özbəkistan Respublikasının Daşkənd şəhərində "Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyası" faciə qurbanlarının xatirəsini yad edəcək.

Qazaxıstanın Astana şəhərində "Xəzər" ictimai Birliyi, Aktau şəhərində isə "Dostluq" Azərbaycan Mədəniyyət Mərkəzi ilə "Turan" Konqresi Xocalı soyqırımı ilə bağlı tədbirlər keçirəcəklər. Hər iki tədbir fevralın 26-na təyin edilib.

Qırğızıstanda fəaliyyət göstərən "Azəri" ictimai Birliyi və "Türk Dünyasının Siyasətinə Dəstək" ictimai Fondu birlikdə anım tədbiri keçirəcəklər.

RUSİYA

Rusiya Federasiyası üzrə fevralın 26-da Ümumrusiya Azərbaycan Konqresi Moskva şəhərindəki "Bakı" kinoteatrında Xocalı soyqırımına həsr edilmiş toplantı keçirməyi və sənədli film nümayişini nəzərdə tutur. Həmin gün Sankt-Peterburq, Yekaterinburq, Samara. Tula. Ufa, Novosibirsk, Ulan-Ude, Xabarovsk və Rusiyanın digər şəhərlərində də Ümum-rusiya Azərbaycan Konqresinin regional nümayəndəlikləri Xocalı soyqırımının ildönümünü qeyd edəcəklər.

UKRAYNA

Ukraynada, Kiyevdə fevralın 25-də Ukrayna Azərbaycan Konqresinin təşkilatçılığı ilə azərbaycanlı rəssam Rasim Səydiyevin Xocalı soyqırımına həsr edilmiş sərgisi nümayiş etdiriləcək. Bu sərgi Xarkov, Dnepropetrovsk şəhərlərində də ictimaiyyətə təqdim olunacaq. Fevralın 26-da isə Kiyevdə və Ukraynanın digər

bir neçə şəhərində yaşayan azərbaycanlılar Ermənistanın bu ölkədəki səfirliyinin binası qarşısında piket keçirəcəklər. Eyni zamanda, ATƏT-in Ukraynadakı Nümayəndəliyinin binası önündə də piket keçirilməsi və Xocalı soyqırımı ilə bağlı qətnamə qəbul edilməsi nəzərdə tutulub. Həmin sənəd BMT-nin Ukraynadakı nümayəndəliyinin ofisinə də təqdim olunacaq. Həmçinin, Ukraynanın Kiyev. Xarkov, Donetsk, Dnepropetrovsk və digər şəhərlərində faciənin ildönümü ilə əlaqədar dəyirmi masalar və digər anım mərasimləri keçiriləcək.

BELORUS

Fevralın 26-da Xocalı soyqırımının 17-ci ildönümü Azərbaycanın Belorusdakı Səfirliyinin və Belorus Azərbaycan icmaları Konqresinin təşkilatçılığı ilə Minsk şəhərində də anılacaq, dəyirmi masa keçiriləcək. Xocalı soyqırımına həsr olunmuş sənədli film nümayiş etdiriləcək.

Kübra ƏLİYARLI

“Səs”.- 2009.-20 fevral.- №33 (3318).- S. 7.

Xocalı soyqırımı

Azərbaycan xalqına qarşı düşünülmüş şəkildə Ermənistanın hakim dairələri tərəfindən ən dəhşətli və ağlasığmaz üsullarla həyata keçirilmiş Xocalı soyqırımı bəşər tarixinə ən ağır cinayətlərdən biri kimi daxil olmuşdur. Ermənilərin törətdiyi bu soyqırımı Xatun, Xirosima, Naqasaki cinayətləri ilə bir sırada durur. Bütün beynəlxalq hüquq normalarını tapdalamaqla həyata keçirilmiş bu vandalizm aktı təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş cinayət əməlidir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi: "Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırım, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir".

7 min əhalisi olan Xocalı şəhərində erməni vandalları tərəfindən 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilmiş cinayətlər nəinki burada baş verənləri görənləri sarsıtmışdı, eləcə də bu əməllər barədə eşidənləri belə dəhşətə gətirir. Həmin cinayət əməlləri haqqında toplanmış çoxsaylı faktlar və şahid ifadələri baş verən kütləvi qırğının miqyasını qismən də olsa təsəvvürə gətirməyə imkan verir. Şahidlərdən birinin dediyinə görə, Xocalı sakini Əntiqəni erməni hərbçiləri yalnız ona görə diri-diri yandırmışdılar ki, o, "bu yerlər böyük Ermənistanın bir hissəsidir" sözlərini deməkdən imtina etmişdi. Digər Xocalı sakini Səriyyə Talıbova gördüyü dəhşətlərdən, keçirdiyi sarsıntılardan uzun müddət özünə gələ bilməmişdir. Ermənilər onun gözləri qarşısında erməni qəbrinin üstündə 4 mesxeti türkünün və 3 azərbaycanlının başını kəsmiş, daha 2 azərbaycanlının gözlərini çıxarmışdılar.

Bütövlükdə həmin gün Xocalı əhalisindən 613 nəfər erməni vəhşiliyinin qurbanı olmuş, 487 nəfər şikəst, olmuş, 1275 nəfər dinc sakin-qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni təhqirlərinə və zülmünə məruz qalmış, 150 nəfər itkin düşmüş, 8 ailə bütövlüklə məhv edilmiş, 24 ailədən hər iki valideyn, 130 ailədə valideynlərdən biri öldürülmüşdür. Öldürülənlərin 106-sı qadın, 83-ü uşaq olmuşdur. 56 nəfər erməni cinayətkarları tərəfindən xüsusi qəddarlıq və amansızlıqla qətlə yetirilmişdir, onlar diri-diri yandırılmış, başları kəsilmiş, üzlərinin dərisi soyulmuş, körpə uşaqların gözləri çıxarılmış, hamilə qadınların qarınları yarılmış, meyitləri təhqir olunmuşdur. Bu cinayət əməllərinin törədilməsində Rusiyanın 366-cı motoatıcı hərbi alayı böyük əksəriyyəti ermənilərdən ibarət olan şəxsi heyətilə birlikdə fəal iştirak etmiş, hərbi hissənin bütün növlərdən olan hərbi texnikası və silah sursatı döyüş əməliyyatlarına cəlb olunmuşdur.

Öldürülmüş, şikəst edilmiş, əsir götürülmüş və itkin düşmüş insanların tərkibinin öyrənilməsi göstərmişdir ki, cinayət düşünülmüş şəkildə, özü də daha çox dinc mülki əhaliyə qarşı törədilmişdir. Mütəxəssislərin araşdırmaları göstərmişdir ki, Xocalının məhv edilməsi üzrə əməliyyatda erməni hərbi birləşmələri beynəlxalq sənədlərlə istifadəsi qadağan edilmiş, 5,45 kalibrli güllələrdən və kimyəvi silahlardan da istifadə etmişlər. Xocalı soyqırımının dəhşətli nəticələri rus, ingilis, fransız, alman, amerikalı və s. ölkələrdən olan jurnalistləri və ekspertləri də dəhşətə gətirmişdi. Rusiyanın "Memorial" Hüquq Müdafiə Mərkəzi digər cinayətlərlə yanaşı, ermənilər tərəfindən diri adamın baş dərisinin soyulması faktının olduğunu da qeyd etmişdir. Bir sıra başqa qeyri-hökumət təşkilatları və müstəqil ekspertlər tərəfindən də çoxlu belə faktların olduğu təsdiq edilmişdir.

Bütün bunlar göstərir ki, ermənilərin törətdiyi Xocalı soyqırımı bir tərəfdən hərbi cinayətdirsə, digər tərəfdən dinc əhaliyə qarşı törədilmiş kütləvi terror aktıdır. Xocalı Ağdam yolunda pusquda durmuş erməni hərbçiləri tərəfindən dinc mülki əhalinin kütləvi şəkildə gülləbaran edilməsi və qətlə yetirilməsi faktı da belə nəticəyə gəlməyə əsas verir. Rusiyanın qeyd olunan hüquq-müdafiə mərkəzinin verdiyi məlumatda göstərilirdi ki, yalnız 4 gün müddətində Ağdama Xocalıda qətlə yetirilmiş 200 azərbaycanlının meyiti gətirilmiş, onlarca meyidin təhqirə məruz qalması faktı aşkar edilmişdir. Ağdamda 181 meyit (130 kişi və 51 qadın, o cümlədən 13 uşaq) məhkəmə tibbi ekspertizadan keçirilmiş və müəyyən edilmişdir ki, 151 nəfər güllə yaralarından, 20 nəfər qəlpə yaralarından, 10 nəfər küt alətlə endirilmiş zərbədən aldığı xəsarətlərdən ölmüşdür. Bununla bağlı Xocalı soyqırımının on illiyi ilə əlaqədar Azərbaycan xalqına müraciətində ulu öndərimiz Heydər Əliyev dünya xalqlarının diqqətini məsələnin məhz bu tərəfinə yönəldərək demişdi: "Bu amansız və qəddar soyqırım aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu".

Ermənilərin cinayət əməlləri haqqında əldə olunmuş çoxsaylı faktlar göstərir ki, Ermənistan Respublikası BMT-nin Baş Assambleyasının 1948-ci ildə qəbul etdiyi Ümumdünya insan Haqları Bəyannaməsinin 2, 3, 5, 9, 17-ci maddələrini, BMT-nin Baş Assambleyasının 1948-ci ildə qəbul etdiyi "Fövqəladə hallar zamanı və silahlı münaqişələr dövründə qadın və uşaqların müdafiəsi haqqında Bəyannamə"ni, 1948-ci il 9 dekabr tarixli "Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəza verilməsi" haqqında Konvensiyanın müvafiq maddələrini kobud şəkildə pozmuşdur. Sonuncu sənədlə müəyyən olunmuş anlayışa əsasən: Hər hansı milli, etnik, irqi və ya dini qrupu tam, yaxud qismən məhv etmək məqsədi ilə törədilən aşağıdakı hərəkətlər soyqırım cinayəti kimi başa düşülür:

a) Belə qrupun üzvlərinin öldürülməsi;

b) Belə qrupun üzvlərinə ciddi bədən xəsarətləri və əqli pozğunluq yetirilməsi;

c) Qəsdən əvvəlcədən hər hansı qrup üçün onun tam, yaxud qismən fiziki məhvinə aparan həyat şəraitinin yaradılması;

d) Belə qrupun daxilində uşaq doğumunun qarşısının alınmasına yönəldilmiş tədbirlərin tətbiq olunması;

e) Uşaqların zorla bir qrupdan digər qrupa verilməsi.

Soyqırım cinayəti hesab edilən əməllərlə ermənilərin Xocalıda törətdikləri kütləvi qırğın faktlarının müqayisəsi göstərir ki, ermənilərin hərəkətləri əsl soyqırımıdır və bu barədə toplanmış çoxsaylı faktlar Ermənistan Respublikasını beynəlxalq hüquq normalarına uyğun olaraq Beynəlxalq Məhkəməyə vermək üçün bütün hüquqi əsaslar verir və həmin gün uzaqda deyil.

Qeyd etmək lazımdır ki, Xocalıda törədilmiş vandalizm aktının unudulmaması üçün hər il xüsusi anım tədbirlərinin keçirilməsi, bu kütləvi qırğının soyqırım kimi tanıdılması istiqamətində son vaxtlar bir sıra vacib addımlar atılır. İlk növbədə Xocalı soyqırımı ilə əlaqədar zəruri işlərin görülməsi üçün hüquqi əsasların yaradılması məqsədi ilə verilmiş Azərbaycan Respublikası Prezidentinin 1 mart 1994-cü il tarixli və 25 fevral 1997-ci il tarixli fərmanlarının və Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmiş müvafiq qərarların böyük əhəmiyyətini qeyd etmək lazımdır.

Bu istiqamətdə müvafiq dövlət qurumları tərəfindən aparılan genişmiqyaslı işlərlə yanaşı, Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və tanıdılması istiqamətlərində qeyri-hökümət təşkilatlarının, ümumiyyətlə geniş ictimaiyyətin bu işlərə cəlb olunması çox vacibdir.

Son illər Heydər Əliyev Fondunun və onun Moskvadakı nümayəndəliyinin Xocalı soyqırımının tanıdılması istiqamətində apardığı genişmiqyaslı işləri xüsusi qeyd etmək lazımdır. Fondun saytında faciənin dəhşətlərini əks etdirən çoxlu yazı və şəkillər yerləşdirilmişdir və həmin materiallar geniş ictimaiyyət arasında böyük əks-səda doğurur. Azərbaycanlıların diaspor təşkilatlarının müxtəlif ölkələrdə gördüyü işlər də təqdirəlayiqdir. Məsələn, Xocalı şəhərində ermənilərin Azərbaycanlılara qarşı törətdikləri soyqırım hadisəsinin tanınması ilə bağlı Ukrayna, Azərbaycanlıları Konqresinin Ukrayna parlamentinə müraciətini qeyd etmək lazımdır. Analoji addımlar Azərbaycanlıların geniş təmsil olunduğu digər MDB ölkələrində də atılmalıdır.

Bununla yanaşı, ənənəvi siyasi və güc mərkəzləri olan qərb ölkələrinin ictimaiyyətinin də Xocalıda ermənilər tərəfindən Azərbaycanlıları qarşı törədilmiş cinayətlər haqqında məlumatlandırılması vacibdir və bu istiqamətdə hələ çox iş görülməlidir. Ötən illərin təcrübəsi göstərmişdir ki, Qərbi Avropa ölkələrində Azərbaycan diasporu təşkilatlarının Xocalı soyqırımı ilə əlaqədar təşkil etdikləri tədbirlərə hər il daha çox yerli əhali qatılır və iştirak edir.

Xocalı soyqırımı qurbanlarının xatirə muzeyinin yaradılması da çox vacibdir. Bu muzeyin hazırda harada yerləşməsindən asılı olmayaraq, Xocalı və işğal altında olan digər torpaqlarımız azad olunandan sonra Xocalının ən görkəmli yerinə köçürülə bilər. Burada eyni zamanda soyqırım qurbanlarının xatirəsinə böyük abidə ucaldılması və erməni vəhşiliklərindən zərər çəkmiş bütün şəxslərin adlarının orada qeyd olunması da nəzərdə tutulmalıdır.

Digər vacib məsələ Xocalı cinayətlərinin şahidi olmuş şəxslərin xatirələrinin sənədləşdirilməsi, bunların əsasında sənədli və bədii filmlərin çəkilməsi, BMT-nin işçi dillərinə tərcümə edilməsi və geniş yayılması üçün lazımi işlərin təşkilidir. Bundan başqa internetdə Xocalı soyqırımına həsr olunmuş çox saylı veb. saytlar yaradılmalı və burada ermənilərin Xocalıda azərbaycanlılara qarşı törətdikləri cinayət əməllərini ifşa edən çoxsaylı yazılı sənədli materiallar və sənədlər yerləşdirilməlidir. Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında bunların böyük əhəmiyyəti ola bilər.

Xocalıda ermənilərin törətdiyi cinayət əməllərinin bir xüsusiyyətinə də xüsusi diqqət yetirmək lazımdır. Bu cinayət eyni zamanda Azərbaycan mədəniyyətinin bütövlükdə ümumbəşəri mədəniyyətin məhv edilməsinə yönəldilmiş bir hərəkətdir. Bəllidir ki, Xocalı ən qədim insan məskənlərindən biridir. Dünya mədəniyyətində xüsusi yeri olan Xocalı-Gədəbəy mədəniyyəti məhz burada formalaşmışdır. Bu ərazi Azərbaycanın ən qədim tarixinə aid çox saylı tarix-memarlıq və mədəniyyət abidələri ilə zəngindir. Xocalı işğal olunana qədər burada çoxlu sayda qoç və yəhər şəkilləri olan qəbirlər, son tunc və ilk dəmir dövrünə aid nekropol, kurqanlar, türbələr, qalalar, müqəddəs ziyarətgahlar, alban kilsələri və s. abidələr olmuşdur. İndi onların çoxu ermənilər tərəfindən məhv edilmiş, bir qisminin görkəmi dəyişdirilərək saxtalaşdırılmışdır. Mədəniyyət və Turizm Nazirliyi bu barədə çoxlu sayda faktlara malikdir. Bununla əlaqədar, ermənilərin Xocalıdakı ümumdünya məhv etmələri ilə bağlı məsələ daha dərindən öyrənilməli, araşdırılmalı, irsinin məhv faktlarla sənədləşdirilməli və YUNESKO-nun Ümumdünya Mədəni İrs Komitəsində müzakirəyə çıxarılmalıdır.

Bu gün həyat öz axarı ilə davam etməkdədir. Xocalının sağ qalmış sakinləri respublikamızın 51 rayon və şəhərində məskunlaşmışlar. Onlar hər cür diqqət və qayğı ilə əhatə olunmuşlar. Dövlət başçısının tapşırığı ilə müvafiq dövlət qurumları, qaçqınların və məcburi köçkünlərin işləri üzrə Dövlət Komitəsi, Xocalı Rayon İcra

Hakimiyyəti, onun yerli nümayəndəlikləri Xocalı sakinlərinin normal həyat ritminə qaytarılması və dinc quruculuq işlərinə cəlb edilməsi, keçirdikləri sarsıntıların unudulmaması və mövcud problemlərin həlli üçün bütün vasitələrdən istifadə edirlər. Artıq xocalılılar da respublikamızın sürətli iqtisadi yüksəlişində fəal iştirak etməyə çalışırlar. Xocalılar böyük əminlik hissi ilə inanırlar ki, erməni işğalı altında olan bütün torpaqlarımız yaxın vaxtlarda möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında azad olunacaq və Xocalı soyqırımını törətmiş erməni cinayətkarları öz layiqli cəzalarını alacaqlar.

Eyni zamanda dünya ictimaiyyəti də Xocalı soyqırımı və erməni vəhşilikləri haqqında əsl həqiqətləri biləcək və bununla bağlı öz kəskin mövqelərini bildirəcəklər. Elə Xocalı qaçqınlarının BMT, Avropa İttifaqı və Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına müraciətində də bu inam hissləri öz əksini tapmışdır: "Biz inanırıq ki, dünyanın BMT, Aİ və ATƏT kimi kifayət qədər nüfuzlu beynəlxalq təşkilatları, sülhsevər ölkələri Ermənistan dövlətinin belə təcavüzkarlığına və özbaşınalığına qarşı tədbir görəcəklər".

R. AĞADƏDƏBƏYOV,
N. ƏLİOĞLU.

“Respublika”. - 2009. 21 fevral - №41.-S. 3.

Qəddarlığın son həddi

Tarix boyu qanlı hadisələr, döyüşlər, qırğınlar çox olub. Amma Xocalı dəhşətinə, müsibətinə bənzəri olmayıb. Heç vaxt qarşıdurmalarda, müharibələrdə körpə uşaqlara atəş açmayıblar. Hamilə qadının sinəsinə süngü sancmayıblar. Ayağı güclə yer tutan ahıllara zor tətbiq etməyiblər. Gənclərin əl-ayaqlarını bağlayıb diri-diri yandırmayıblar. Bütün bu vəhşilikləri ermənilər 1992-ci il fevralın 25-dən 26-na keçən gecə etdilər. Qəddarlıqlarını, amansızlıqlarını tarixə qanla yazdılar.

Həmin müdhiş, ölümlü-itimli gecədə erməni qəsbkarlarının qənim kəsildikləri insanların ruhuna daim dualar oxunur. Kimdir onlar?

Məhbubə Qurban qızı Abışova: 1960-cı ildə Xocalıda anadan olmuşdu. Şəhər 1 nömrəli məktəbi bitirmişdi. Sonra Şuşa texniki peşə məktəbində dərzilik peşəsini öyrənmişdi. Gün-güzəranları, dolanışıqları pis deyildi. Nazim Əziz oğlu Abışovla ailə qurmuşdu. Bir qız, bir oğul anası idi. 17 ildir ki, onlardan - anadan, övladlarından xəbər yoxdur. Tanıyanlar gecə-gündüz həsrət çəkirlər.

Nuranə Qaryağdı qızı Quliyeva: Ruhu dinclik tapsın. Şəklindəki ifadəli baxışlarını görəndə kövrəldim, qələm əlimdən düşdü. Xəyal məni uzaqlara apardı. Handan-hana özüm-özümdən soruşdum: "Nə idi 11 yaşında uşağın günahı, qəbahəti ki, onun sinəsini ermənilər dəlmə-deşik etdilər?" Ay Nuranə, ruhun şad olsun. Nahaq qan yerdə qalmayıb, qalmayacaq da.

Firuzə Musa qızı Hümbətova: 1934-cü ildə Kosalar kəndində anadan olmuşdu. Çətin, keşməkeşli həyat yaşamışdı. Ömründə bəlkə bircə dəfə toy günü üzü gülmüş, eyni açılmışdı. Yaradanımız ona dörd qız, iki oğul qismət etmişdi. Balalarının gələcəyinə inamla baxar, onların təlim-tərbiyəsinə qayğı göstərərdi. Alnının təri, əlinin qabarı ilə övladlarına çörək qazanırdı. Heyf, niyyətləri, arzuları ürəyində qaldı. Təkcə onun yox, övladlarının, gəlininin, nəvələrinin də. Ermənilər onları da qətlə yetirdi.

İqbal Qulu oğlu Aslanov: 1970-ci ildə Xocalıda anadan olmuşdu. 1 nömrəli orta məktəbi bitirmiş, sürücü peşəsinə yiyələnmişdi. İki il Amur vilayətində hərbi xidmətdə olmuşdu. Baş serjant idi. Vətənə qayıdan günün səhəri özünümüdafiə batalyonuna yazılmışdı. Ön cəbhədə həftələrlə səngərlərdə qaldı. Adı, hünəri dillər əzbəri idi. O dəhşətli, müsibətli gecədən sonra ondan da səs-soraq çıxmadı. 22 gündən sonra cəsədini tapıb Bakıdakı Şəhidlər xiyabanında dəfn etdilər.

Bir gecədə itkin düşənlərdən, əsir götürülənlərdən əlavə 600 nəfərdən artıq Xocalı sakini amansızlıqla məhv edildi. İnsan qiyafəli vəhşilər bu qanlı hadisəni törətdilər. Millətimizə qənim kəsildilər. Dilindən, dinindən asılı olmayaraq, dünyanın bütün insanları bilməlidir ki, ermənilər vəhşi xislətlidirlər. O millət xəyanətkar, arxadan zərbə vurandır. Gec-tez törətdikləri qanlı əməllərə görə haqq-ədalət qarşısında cavab verəcəklər.

Telman AĞAOĞLU.

"**Azərbaycan**".-2009.-21 fevral.-N 41.-S.6.

Müqəssir nə birdir, nə iki

XX əsrin misli görünməmiş dəhşətli faciəsindən biri Xocalı soyqırımıdır. Bu faciəyə gedən yol 1988-ci ilin fevral ayından, 200 min nəfərdən çox soydaşımızın öz doğma dədə-baba yurdu olan Qərbi Azərbaycandan qovulduğu günlərdən başlamışdır. Soyuq qış günlərində minlərlə azərbaycanlı zorla, döyülərək, ağır işgəncələrə məruz qalaraq öz torpaqlarından çıxarıldılar, evləri oda qalandı, var-dövlətləri ermənilər tərəfindən talan edildi.

Mənfur qonşularımız getdikcə azğınlaşırdı. Azərbaycanı qaçqın dalğası bürüdüyü bir zamanda Xankəndidə keçirilən mitinqlərdə Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılaraq Ermənistana birləşdirilməsi ilə bağlı tələblər irəli sürülürdü. Ermənilər Azərbaycan xalqına və onun ərazilərinə qarşı bəd niyyətlərini məqsədli və planlı şəkildə həyata keçirməyə başlamışdılar. Xalqın, millətin taleyinə biganə, səriştəsiz Azərbaycan hökuməti bunlara qarşı heç bir tədbir görmür, Vedidən, Zəngibasardan, Göyçədən xüsusi qəddarlıqla qovulan soydaşlarımızın taleyinə görünməmiş biganəlik göstərir, səlahiyyət sahibləri əhaliyə öyüd-nəsihət dərsi keçir, onları səbrli, dözümlü olmağa çağırırdı.

Daim haqq-ədalətdən, insan hüquqlarının qorunmasından dəm vuran dünya ölkələri, AŞ, BMT və digər mötəbər qurumlar erməni vəhşiliyini, erməni şovinizmini görməzliyə, eşitməzliyə vurur, azərbaycanlıların başına gətirilən müsibətlərin üstündən sükutla keçirdilər. Qəti addımlar atmaq və azğınlaşmış erməni daşnaklarının qarşısını kəsmək öz ümidimizə qalmışdı. Həmin dövrdə Azərbaycana rəhbərlik edənlərin ən böyük səhvi Ermənistandan qovulmuş soydaşlarımızın Dağlıq Qarabağ ərazisində deyil, ayrı-ayrı rayonlarda, Bakıda və onun ətraf kəndlərində yerləşdirilmələri oldu. Onları Dağlıq Qarabağ ərazisində yerləşdirilməklə erməni-daşnak hiyləsinə və onların qara niyyətlərinə tutarlı cavab vermiş olardıq.

Həmin vaxtlar Dağlıq Qarabağ Azərbaycanın nəzarətindən çıxmaq üzrə idi. Qarabağda ilk ölüm faciəsi iki nəfərin - Bəxtiyarla Əlinin qətlindən başlandı. Bu hadisədən dərhal sonra Qarabağda yaşayan azərbaycanlılardan bütün ov tüfəngləri yığışdırıldı, qarşı tərəfi təpədən-dırnağadək silahlandırdı. Beləliklə, 1991-ci il oktyabrın 30-da Tuğ və Səlakətin kəndləri, noyabrın 19-da Xocavənd kəndi işğal edildi. Ermənilər Azərbaycan hökumətinin səriştəsizliyindən, xalqının taleyinə biganəliyindən yararlanaraq ərazilərimizi kənd-kənd, şəhər-şəhər işğal edirdilər. 1992-ci il yanvarın 10-da Axullu kəndi də düşmən əlinə keçdi. Havadarlarının köməyi ilə həmin il Dağlıq Qarabağdakı Kərkicahan, Umudlu, İmarət-Qərvənd, Cəmilli, Tuğ Meşəli, Malıbəyli və Quşçular kəndləri də eyni taleyi yaşadılar.

Düşmən əhatəsində olan Xocalıdan canlarını qurtarıb Ağdama gələnlərin, "Xocalı ya bu gün işğal olunar, ya sabah" harayına Azərbaycan hakimiyyəti heç bir reaksiya vermirdi. Belə çətin günlərdə respublika Nazirlər Soveti Dağlıq Qarabağın sosial-iqtisadi inkişafına dair 125 saylı qərar qəbul etdi. Halbuki həmin vaxt orada barmaqla sayılacaq qədər azərbaycanlı qalmışdı. Xocalıya gedən quru, son aylarda isə hava yolları da bağlanmışdı. Əhali nə edəcəyini bilmirdi. Ərzaq, dava-dərman, hətta son günlər ərzaq belə tükənmişdi.

1992-ci il fevralın 17-dən 18-nə keçən gecə erməni silahlı dəstələri Xocavənd rayonunun Qaradağlı kəndini də işğal edərək yandırdılar, əhalisinə divan tutdular. 50 nəfər kənd sakini qətlə yetirildi, 84 nəfər əsir götürüldü. Erməni cəlladları mənfur planlarını həyata keçirərkən uşağa, qocaya, xəstəyə və qadına aman vermirdilər. Qarabağ qana və göz yaşlarına bələnmiş, odlara qalanmışdı. Övladının gözləri qarşısında qətlə yetirilən ata-anaların, valideynlərinin gözləri qarşısında süngüyə keçirilən günahsız körpələrin fəryadı, ah-naləsi ərşə qalxmışdı.

Fevralın 18-də artıq Xocalı yolu açılmış, həmin istiqamətdə olan yaşayış məntəqələri azərbaycanlılardan tamamilə təmizlənmiş, yüksəklikdəki mövqelər ermənilər tərəfindən tutulmuşdu. Onlar silah-sursat və güclü texnika ilə təchiz olunmuşdular. Rəsmi Moskva bu hadisələrə göz yumaraq Ermənistanı müdafiə edir, onların xeyrinə qərarlar çıxarır, kütləvi informasiya vasitələrində, xüsusilə televiziya verilişlərində ermənilər bütün dünyaya "yazıq", "məzlum" xalq kimi tanıdılırdı. Həmin günlərdə Qaradağlını yerlə-yeksan edən düşmənin növbəti hədəfi Xocalı oldu.

Adilə QOCAYEVA.

"Azərbaycan".-2009.-21 fevral.-N 41.-S.6.

Xocalı soyqırımı - əsrin faciəsi
Bir gecənin qanla yazılmış tarixi

Hərdən adama elə gəlir ki, vaxt ləng ötüb keçir. Bəzən də əksinə, elə bil zamanı külək qovub aparır. O müdhiş gecənin - Xocalı faciəsinin 17-ci ildönümü tamam olur. Amma illər keçməsinə baxmayaraq, həmişə bu hadisələr xatirələrdə, xəyallarda yaşayır, ürəkləri göynədir. Bu mənzərələr göz önündə, xəyallarda canlandıqca istər-istəməz düşünürsən: İlahi, nə idi o insanların günahı?!

Bir gecədə baş verən hadisələri, qan yaddaşımıza əbədi həkk olan qəddarlıq faktlarını həyəcansız, göynərtisiz, ürək ağrısız xatırlamaq mümkün deyil. Erməni basqınçıları bu hadisədə 613 nəfəri qətlə yetiriblər. Onlardan 106 nəfəri qadın, 59 nəfəri uşaq və yeniyetmə, 70 nəfəri ahıl idi. Səkkiz ailə bütövlükdə məhv edilib. 26 uşaq hər iki valideynini, 230 nəfər isə birini itirib. 487 nəfər əlil olub. 150 nəfərdən hələ də soraq yoxdur, onların qayıdacağına inananlar var. 1.275 nəfər soydaşımızı qan düşmənlərimiz əsir götürüblər...

Bu müsibət necə, kimlərin səriştəsizliyi ucbatından baş verdi? Nə üçün vaxtında tədbir görüb xocalıluları soyqırımından xilas etmədilər? Niyə şəxsi mənafelərini düşünənlər, millətin qanı üstə vəzifələrini qorumaq arzusunda olanlar hələ də layiqli cəzalarını almayıblar? Tez-tez eşidirik: Xocalı laqeydliyin, biganəliyin qurbanı oldu! Məlumdur, qarşı tərəf qəddar, amansız, vəhşi xislətliydi. Bəs respublika rəhbərləri niyə, nə üçün susublar? Ön cəbhədə səfərbərlik etməyiblər, xocalılılara kömək göstərməyiblər? Nə üçün onlar indiyə qədər haqq, ədalət məhkəməsi qarşısında dayanmayıblar? Bu suallara Xocalı Rayon İcra Hakimiyyətinin sabiq başçısı, Milli Məclisin deputatı Elman Məmmədov belə cavab vermişdi:

- Dağlıq Qarabağda mitinqlər, qanlı hadisələr 1988-ci il fevralın 12-də Əsgəranda başlayıb. O vaxt bizi Əsgəran Rayon Partiya Komitəsi fəallarının yığıncağına dəvət etmişdilər. Həmin tədbirdə respublika Mərkəzi Komitəsinin ikinci katibi Konovalov, Dağlıq Qarabağ Muxtar Vilayəti Partiya Komitəsinin birinci katibi Gevorkov da iştirak edirdilər. İclas başlanan kimi ermənilər onları fitə basıb zaldan qovdular. 7 gündən sonra, fevralın 20-də vilayətin icraiyyə komitəsi azərbaycanlı deputatların iştirakı olmadan özünün qeyri-qanuni sessiyasını çağırdı və Dağlıq Qarabağın Azərbaycandan ayrılaraq Ermənistanın tabeliyinə keçməsi barədə qərar qəbul etdi. Bunun ardınca Ermənistan Ali Soveti "hökm verdi" - Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılaraq Ermənistana birləşdirilməsi barədə qərar çıxardı.

Təəssüf, o dövrdə Azərbaycan Respublikasına rəhbərlik edən, milli ruhdan uzaq olan, qətiyyətsiz, səriştəsiz şəxslər bu taleyüklü məsələyə əhəmiyyət vermədilər. Qarabağda erməni-rus dilində çıxan "Sovetski Qarabağ" qəzetində ermənilər bəyanat yaydılar ki, Əbdürrəhman Vəzirov yalançıdır. O dövrdə Əbdürrəhman Vəzirov söz vermişdi ki, 1988-ci il avqustun 25-nə qədər Dağlıq Qarabağ ərazisində Ermənistandan gələn bir nəfər də olsun, azərbaycanlı qalmayacaq, onlar ərazidən çıxarılacaq. Həmin vaxt onun qəbuluna gələrək diqqətinə çatdırdıq ki, Ermənistandan gələn azərbaycanlılar Dağlıq Qarabağda yerləşdirilməlidir. Belə olarsa, ya onların Ermənistandan köçü dayanar, ya da ermənilər Dağlıq Qarabağdan çıxarılıb Ermənistana köçürülər. Bunu eşidən Əbdürrəhman Vəzirov məni və mənimlə birgə olan şəxsləri cinayətkar adlandırdı, hətta bizi həbs etdirməklə hədələdi. Xocalıda və ətraf kəndlərdə 4 il dinc əhali, sakinlər mühasirədə yaşadılar. 1991-ci il noyabrın 1-dən erməni amansızlığı daha da gücləndi, ətraf rayonlarla əlaqəmiz yalnız vertolyotlar və telefonla oldu. Vaxtaşırı 3 tərəfdən raket atəşinə tutulduq. Ermənilərin bu zərbələrinə cavab verməyə isə silah-sursatımız yox idi...

Xocalı faciəsindən bir neçə ay sonra respublika Ali Sovetinin deputat-istintaq komissiyası yaradıldı. Çoxları elə bildi ki, dövlət qurumları bu ağır faciəyə aydınlıq gətirəcək. Yenə təəssüf, komissiyanın gəldiyi nəticə kağız üzərində qaldı. Həmin sənəddən oxuyuruq: "Ə.Vəzirov Xocalı soyqırımına birbaşa cavabdehdir. Onun səriştəsizliyi, manqurtluğu, millətin taleyinə biganəliyi Qarabağ faciəsini daha da genişləndirdi və sürətləndirdi. Ermənistandan işgəncələrlə qovulmuş soydaşlarımızın Dağlıq Qarabağda yerləşməsinə Vəzirov razılıq vermədi. Əgər o, İrəvandan qovulmuş məcburi köçkünlərə orada məskunlaşmağa şərait yaratsaydı, ermənilərin işğalçılıq, qəddarlıq niyyətləri baş tutmazdı. Faciənin törənməsinə səbəbkarlardan biri də respublikanın başçısı Ayaz Mütəllibovun siyasi, rəhbərlik səriştəsi olmamasıdır... Komissiya Xocalı soyqırımının əsas səbəblərini onun rəhbərliyi dövründə ölkədə yaranan ictimai-siyasi, hərbi, iqtisadi, mənəvi və hakimiyyət böhranında görür".

Xocalı faciəsindən əvvəl Qarabağ od tutub yanır, atəş səsləri səngimirdi. Torpaq, vətən uğrunda şəhid olanların sayı artırdı. Xarici qüvvələrə, konkret sovet ordusuna arxalanan ermənilər işğalçılıq niyyətiylə irəliləyirdilər. Həsənli, Kərkicahan, Malıbəyli, Cəmilli kəndlərində, Xocalıda, Şuşada ah-nalə ərşə çıxırdı. A.Mütəllibov isə vəzifəsini əldən verməməyə çalışırdı. Ərazilərimiz kəndbəkənd işğala məruz qalırdı. Doğrudur, Xocalıda, ətrafda baş verən hadisələr barədə rəsmi Bakı məlumatlıydı. Amma başda Ayaz

Mütəllibov olmaqla, əlaqədar dövlət qurumlarının rəhbərləri susurdular. Kimi, nəyi, hansı məqamı gözləyirdilər, heç özləri də bilmirdilər.

1991-ci il dekabrın 17-də Xocalı RİH-in başçısı vəzifəsində işləyən E.Məmmədov prezident A.Mütəllibova ünvanladığı teleqramda yazmışdı: "Sizə məlumat verirəm ki, Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndləri ermənilərlə sovet hərbi kontingentinin birgə hücumları nəticəsində işğal olunur. Xocalının üstünə güclü hücum əməliyyatı hazırlanır. Erməni-sovet vertolyotlarının aramsız, çoxsaylı uçuşları da bunu sübut edir. Sizdən xahiş edirik ki, Xocalının müdafiəsi üçün təcili tədbirlər görülsün. Unutmayın, Xocalı DQ-də Azərbaycanın müdafiə mövqeyində əsas strateji ünvanlarından ən vacibidir". Həmin gündən iki ay keçdi, amma E.Məmmədovun teleqramı sanki daş parçası kimi qırx arşın quyunun dibinə düşdü. Bu da Xocalıya respublika rəhbərinin daha bir laqeydliyinin sübutudur.

Ermənilərin gücü çatmazdı ki, torpaqlarımıza, konkret olaraq Xocalının üstünə basqın etsinlər. Onlar 1985-ci ildə Xankəndiyə köçürülən sovet ordusunun 366-cı alayının texnikasına, silah-sursatına güvənirdilər. Alayın ikinci taborunun komandiri Seyran Ohanyan idi. Taborun 40 nəfər erməni millətindən üzvü, 24 tankı, 16 topu, nəqliyyat vasitələri, çoxlu silahları vardı. Onlar digər millətlərdən olan əsgər və zabitləri pulla ələ almışdılar. Alayın hərbi qulluqçusu Zinayev qanlı faciənin səhəri Tbilisidəki hərbi hissəyə gedərkən ondan 2 milyon rubl aşkarlanmışdı. Fevral ayının 27-də isə Bakıda, Binə aeroportunda polkovnik Oleq Deyçikov faciənin iştirakçısı kimi saxlanılmış, üstündə yarım milyon rubl olduğu aşkar edilmişdi. Bir sözlə, 366-cı alayın başqa millətdən olan hərbiçiləri ermənilərə satılmışdılar.

Fevralın 25-dən 26-na keçən gecə artıq heç bir müqavimət görməyən, quduzlaşmış düşmən tarixdə oxşarı olmayan vəhşiliklə Xocalıya doğru irəlilədi. Tankların nəriltisi, topların gurultusu yeri-göyü titrədirdi. Sakinlər şaxtalı havada, qaranlıqda güllə, mərmi atəşi altında ayaqyalın, başıaçıq üz tutdular dağlara, meşələrə. Şəhər alovlanır, evlər yanırdı. Xocalılılar hələ bilmirdilər ki, onların əsl faciəsi qabaqdadır. Var-dövlətlərini, olan-qalanlarını qoyub baş götürüb qaçırdılar. Bu qaçhaqaçda ana baladan, qardaş bacıdan ayrı düşürdü. Ahıllar işgəncəyə, zülmə dözmür, yerə yıxılırdılar. Əvvəlcədən düşünülmüş plan əsasında gavurlar el-obalarından baş götürüb qaçanları dağ cığırlarında, meşələrdə öldürürdülər. Üzüyü olanın barmağını, sırğası olanın qulağını kəsirdilər. Hamilə gəlinin sinəsinə süngü sancırdılar... Ağbirçəyi, ağsaqqalı diri-diri yandırırdılar... Bakıda isə vəzifə uğrunda çəkişmələr, didişmələr səngimək bilmirdi. Ermənilərin törətdikləri qanlı olaylara etinasızlıq o həddə çatmışdı ki, dövlət televiziyası da uydurma bəyanat yaydı: "Dünən axşam ermənilər Xocalı şəhərinə hücum etmiş, iki nəfər yaralanmış, dörd ev yandırılmışdır".

Ali Sovetin deputat-istintaq komissiyasının məlumatında oxuyuruq: "Qarabağ zonası üzrə Prezident nümayəndəsi Musa Məmmədov Ayaz Mütəllibova teleqram göndərmişdi: "Son vaxtlar bölgədə vəziyyət həddən artıq ağırlaşıb. Hərbi dəstələrin sayına, silahlanmaya, texnikaya görə ermənilər bizdən xeyli üstündürlər. Xarici qüvvələrə arxalanan düşmən aramsız hücum edir, yaşayış məntəqələrimizi yandırır, sakinləri qətlə yetirirlər. 4 aydan artıqdır ki, Xocalı ətraf mühitdən tamamilə təcrid olunub. Ərazini erməni hücumlarından yalnız bir neçə nəfər milis işçisi, yerli sakinlər qoruyur. Bu qüvvə hərbi-texniki baxımdan tam təchiz olunmuş erməni yaraqlıları ilə müqayisədə olduqca aşağı səviyyədədir..." Respublikanın başçısı bu vacib xəbərdarlığa, nümayəndəsinin məlumatına yenə də etinasız qaldı...

Ali Sovetin iclasında deputatlardan biri A.Mütəllibovdan soruşmuşdu: "Qarabağın, Şuşanın, Xocalının toxunulmazlığına, ərazi bütövlüyünə təminat varmı?!" O, soyuqqanlılıqla, biganəliklə cavab vermişdi: "Sualınızın cavabını bilsəydim, özümü dünyanın ən xoşbəxt adamı hesab edərdim". Bunu dövlət başçısı kreslosunda əyləşən şəxs deyirdi:

...Əsrin soyqırımından iki gün sonra Ağdamın mərkəzində iynə atsan, yerə düşməzdi. Vaxtilə xoş mahnılar, muğam sədaları eşidilən şəhərdə ah-nalələr, ağı fəryadlar ərşə ucalırdı. Canlarını amansızlıqdan, qəddarlıqdan qurtaranlar, doğmalarını itirənlər susmaq bilmirdilər. Qadınlar sinələrinə döyür, saçlarını yolur, kişilər haray-həşir qoparırdılar... Yaxınlarının cəsədləri çöllərdə, düzlərdə, meşələrdə qalıb. Nə etməli? Bu sualı kimə versinlər bilmirdilər. Ölkə rəhbərləri yenə də susur, mövqeyi bilinmir, qayğısı yoxdur. Meyitlər yollarda, dağlarda qalıb..." Hünərli, qeyrətli gənclərin bir çoxu irəli çıxıb Xankəndiyə qədər yürüş etmək istədiklərini bildirdilər. Qərara gəlindi ki, "özünümüdafiə" üçün hərbi hissədən vertolyot istəsinlər. İlk dəfə onda gördük ki, laqeydlik haqlı tələb qarşısında acizdir. Vertolyotla teleoperatorlar Seyidağa Mövsümov və Tahir Qarayev də getdilər...

Dəqiqələr ötüb keçirdi. İntizarlı baxışlar səmaya - vertolyotun qayıdacağı səmtə zillənmişdi. Axır ki, gözlənilən an gəlib çatdı. İki gün əvvəl evlərində, həyətlərində yaşayan, bu müsibəti, qəddarlığı ağıllarına gətirməyən uşaqların qanlarına boyanmış, dəhşətdən gözləri böyüyüb donmuş cəsədlərini gördük. İlahi, o nə fəryad, ah-şivən idi?!

Meşələrdən, yollardan, düzlərdən cənazəsi gətirilən kimlərdir? Allahverdi Səttar oğlu Ağayev. On il əvvəl Xocalıda anadan olmuşdu. Altı yaşından yuxusu ərşə çəkilmiş, səksəkəli günlər yaşamışdı. "Qrad", "Alazan"ların gurultusu, nəriltisi altında üçüncü sinifdə oxuyurdu. Gələcəyə ümidlə baxırdı, arzuları sonsuz idi.

O müdhiş, şaxtalı-boranlı gecədə atası ilə birgə baş götürüb qaçmışdı ki, canını ölümdən qurtarsın. Heyif... Sevinc Əkbər qızı Quliyeva birinci sinfə gedirdi. "Əlifba"nı vərəqləyəndə top-tüfəng səsi eşitməsin deyə, qulaqlarına pambıq basardı. Fevralın 25-də ad günüydü. Sevinmək, fərəhlənmək əvəzinə, valideynləri ilə birgə üz tutublar qaçmağa. Qara Qaya səmtdən keçəndə düşmən gülləsi onu da əbədi susdurdu. Əntiqə İsfəndiyar qızı Şükürova 1934-cü ildə Şuşanın Xəlfəli kəndində dünyaya göz açmışdı. Sonra ailələri ilə birlikdə Xocalıya köçmüşdülər. Uzun müddət kənd təsərrüfatı sahəsində çalışmış, qabaqcıl əməkçi kimi tanınmışdı. Onun, iki oğlunun - Vaqifin, Akifin də cəsədlərini gətirdilər...

Bir gecədə erməni zülmündən can qurtara bilməyənlərin, amansızlıqla öldürülənlərin hamısının adını sadalamaq bu kiçik yazıda mümkün deyil. Sağlıq olsun, nahaq qan yerdə qalmaz. Bəşər boyu haqq namərdliyə, ədalət nadanlığa qalib gəlib. Hələlik isə xalq şairi Zəlimxan Yaqubun misraları az da olsa çoxlarına təskinlik verir:

Kədər düşdü payına,
Səndən çətin yayına.
Hay vermədik hayına,
Layla, Xocalım, layla...

Bu torpağın canısan,
Selə dönmüş qanısan.
Sən kimin qurbanısan?
Layla, Xocalım, layla...

Tarixə qanla yazılmış faciənin növbəti ildönümündə gördüyü müsibətləri canında, göz yaddaşında yaşadan, Xocalıda tanış olduğumuz Əbülfət kişiylə görüşdük. O, həmin müsibətləri dünən olubmuş kimi xatırladı, sarsıldı, kövrəldi, handan-hana dilləndi:

- Dərdimiz ağır, yaddan çıxan deyil. Amma ümidlə yaşayırıq. Xoşbəxt gələcəyimizə, doğma yurd yerlərimizə qayıdacağımıza inanırıq. Dövlətimizin başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətlə dediyi fikir bütün məcburi köçkünlər kimi, biz xocalılılara da böyük ümid verir: "Qarabağ torpağının, ermənilər tərəfindən zəbt edilmiş ərazilərimizin bir qarışını da güzəştə getməyəcəyik. Çalışırıq ki, məsələni sülh, danışıq yolu ilə həll edək. Əgər qarşı tərəf xoş niyyətimizi qəbul etməsə, daha sərt mövqe tutmağa da hazırıq". Biz dövlətimizin gücünə, qüdrətinə inanırıq. Ölkəmizdə sosial-iqtisadi vəziyyət yüksəlib, güzəranımız yaxşılaşıb. Ən əsası, güclü, qüdrətli ordumuz var. İnanırıq ki, qanımız yerdə qalmayacaq. Tezliklə el-obalarımıza qayıdacağıq.

...Sənə qarşı biganə, etinasız münasibət göstərənlər, qədir-qiymətini bilməyənlər, sakinlərinə laqeyd olanlar niyə, nə üçün unutdular ki, Azərbaycanımızın ayrılmaz hissəsisən, Xocalı?! Sənin uğrunda döyüşlərdə qəhrəmanlıqla həlak olanların, günahsız qurbanların, 17 il əvvəl qış gecəsində soyuq-sazaqdan donanların müqəddəs ruhları bizləri qoynuna qayıtmağa, səni düşmən tapdağından azad etməyə çağırır, Xocalı! Sən yaddaşımızda yaşayan dərdimiz, bir gecənin qanla yazılmış faciəsisən, Xocalı!

Telman AĞAOĞLU

"**Azərbaycan**".-2009.-22 fevral.-N 42.-S.3.

Türkiyənin Adana şəhərində Xocalı soyqırımı qurbanlarının xatirəsini anma mərasimi keçirilmişdir. Mərasimdə Heydər Əliyev fondunun təbliğat materiallarından geniş istifadə olunmuşdur

Ankara, 22 fevral (AzərTAc). Fevralın 22-də Azərbaycanın Türkiyədəki səfirliyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə Türkiyənin Adana şəhərində Xocalı soyqırımı qurbanlarının xatirəsini anma mərasimi keçirmişdir.

Mərasimdə Diaspor ilə İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev, ölkəmizin Türkiyədəki səfiri Zakir Həşimov, tarixçilər və tələbələr 17 il əvvəl - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri tərəfindən azərbaycanlılara qarşı Xocalı şəhərində törədilmiş misli görünməmiş qətliamdan bəhs etmiş, dünya ictimaiyyətinin bu soyqırımına siyasi və hüquqi qiymət verməsinin zəruriliyini vurğulamışlar. Qeyd olunmuşdur ki, son illər Türkiyə və Azərbaycan dövlətləri başçılarının möhkəm iradəsi və əzmi nəticəsində diaspor təşkilatlarının qardaş xalqlarımızın haqq səsini dünyaya yaymaq sahəsində geniş əməkdaşlıq etməsi təqdirəlayiqdir.

Tədbirdə Heydər Əliyev Fondunun hazırladığı "Xocalı soyqırımı" filmi və ermənilərin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən kitabları, xarici ölkələrin nüfuzlu nəşrlərində Xocalı faciəsi ilə bağlı dərc edilmiş materiallar, Heydər Əliyev Fondunun ümumtəhsil məktəbləri və uşaq evlərində keçirdiyi "Xocalı uşaqların gözü ilə" mövzusunda rəsm müsabiqəsinin nümunələrindən ibarət ekspozisiyalar nümayiş olunmuşdur.

Azərbaycanın Türkiyədəki səfirliyinin hazırladığı "Xocalı və onun dəhşətləri" bukletləri də mərasim iştirakçılarına paylanmışdır.

Oqtay Bayramov
AzərTAc-ın xüsusi müxbiri
Ankara
22 fevral 2009-cu il

Utanmasan oynamağa nə var və yaxud Fransadakı ermənilərin Xocalı faciəsi qorxusu

Paris, 23 fevral (AzərTAc). XX əsr tarixinin ən ağrılı və ən qanlı səhifəsini təşkil etmiş Xocalı faciəsinin 17-ci ildönümünün Azərbaycanda və onun hüdudlarından kənarda geniş şəkildə anılması nəniki Ermənistanda, habelə xarici ölkələrdə, o cümlədən Fransada yaşayan ermənləri qorxuya salmışdır. Bunu Fransanın erməni mətbu orqanlarında faciə ilə əlaqədar dərc edilmiş yazıların ruhundan aydınca duymaq mümkündür.

Dünya ictimaiyyətinə özlərini bəşəriyyətin "sülhsevər və ən hümanist xalqı" kimi qələmə vermək üçün dəridən-qabıqdan çıxan ermənilər Fransada nəşr etdirdikləri mətbu orqanlarında Xocalı hadisələrindən söhbət açarkən "faciə" sözünü işlətməkdən çəkinmiş, 1992-ci il fevralın 25-dən 26-na keçən dəhşətli gecədə baş vermiş vəhşiliyi beynəlxalq aləmə "Xocalı uğrunda gedən döyüşlər" kimi çatdırmağa səy göstərirlər. Fransada məskunlaşmış ermənilər 1855-ci ildən başlayaraq güclü erməni lobbisinin vəsaiti hesabına onlarla adda qəzet, jurnal və bülletenlər buraxmağa başlamışlar. Onların bir çoxu sonralar öz nəşrini dayandırmışdır. Hazırda işıq üzü görən "ACAM", "Frans-Armeni", "Hayistan", "Armenizer", "UMAF", "Azadmaqazin", "Ermənistan xəbərləri", "Parev" və digər mətbu orqanları illər boyu Türkiyəyə və Azərbaycana qara yaxmaqla məşğul olmuş və bu gün də onu davam etdirirlər.

Fransa ermənilərinin Əlaqələndirmə Şurasının və əsası XlX əsrin sonlarında Fransada qoyulmuş "Daşnakstyun" partiyasının ideyalarına xidmət edən bu mətbu orqanlarının əksəriyyəti müasir silahlarla silahlanmış erməni hərbi birləşmələrinin rus alayının köməyi sayəsində Xocalıda törətdikləri faciəyə başqa don geydirərək fransız ictimaiyyətini aldatmağa səy göstərir.

Parisdə nəşr edilən "Ermənistan xəbərləri" ("Les Nouvelles d'Armenie" qəzetinin son nömrələrində Xocalı faciəsi ilə bağlı dərc olunmuş yazıların müəllifi hadisələri başqa səmtə yönəltməyə səy edərək, azərbaycanlılarda ermənilərə qarşı nifrət hissini gücləndirmək üçün Azərbaycan dövlətinin bundan ermənləri dünya ictimaiyyətinin gözündən salmaq vasitəsi kimi istifadə etmələri kimi gülüş doğuran ideya ortalığa atmışlar. Başqa bir yazıda isə 7 minlik əhalisi olan Xocalıda törədilmiş qırğının qəsdən ermənilərin üzərinə yıxıldığı kimi uydurma fikir söyləyərək fransız oxucularını çaşdırmağa səy göstərirlər.

"Frans-Armeni" mətbu orqanını isə bir qədər irəli gedərək, "Sumqayıt hadisələrini" yada salmış, azərbaycanlılar tərəfindən onlarla ermənin qətlə yetirilməsinin Ermənistan-Azərbaycan münaqişəsinin yaranmasına səbəb kimi göstərmişdir. Daha bir tarixi saxtakarlığa yol verilmiş, hadisənin əsl mahiyyəti olduğu kimi oxucuya çatdırılmamışdır. Yazının müəllifi tarixə müraciət edib araşdırmalar aparmaq əvəzinə hadisə barədə ermənilərin uydurduğu faktlara əsaslanmaqla özünə asan yol seçmişdir. O, nədənsə ermənilərin bu hadisəyə illər boyu hazırlaşdıqlarını, 1905-1907 və 1918-ci illərdə ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı, 1948, 1953 və 1988-ci illərdə tarixən Azərbaycanın ərazisinin bir hissəsi olmuş indiki Ermənistandan ermənilərin apardığı etnik təmizləmə siyasəti nəticəsində yüz minlərlə azərbaycanlının öz ata-baba yurdlarından deportasiya edilməsi faktlarının üzərindən sükutla keçmişdir. "Sumqayıt hadisələrinin ermənilərin Azərbaycana qarşı düşünülmüş şəkildə apardıqları məhfur siyasətin təzahürü olmasını, hadisə zamanı bir neçə ermənin öldürülməsində məhz öz həmvətənlərinin əli olmasına dair təkzibolunmaz faktların artıq üzə çıxmasını bu jurnalistə xatırlatmağa ehtiyac yoxdur. Belə yerdə xalqımızn bir atalar sözü yada düşür: Utanmasan oynamağa nə var.

Başqa bir erməni mətbu orqanında dərc olunmuş yazıda Xocalı faciəsi ilə bağlı faktlar gizlədilmiş, "Xocalı uğrunda getmiş döyüşlərdə" hərbçilərlə birlikdə 200 nəfərin həlak olduğu qeyd edilmişdir. Doğrunu yalan, yalanı isə doğru kimi qələmə verməklə dünya ictimaiyyətini aldatmağa vərdiş etmiş ata-babalarının yolu ilə gedən erməni mənşəli fransız jurnalisti Xocalı faciəsi ilə bağlı Azərbaycan mətbuatına deyil, elə yaşadıqları ölkənin həmin dövrdə faciədən bəhs etmiş qəzetlərinə nəzər yetirsəydi, yaxşı olardı. "Le Monde", "Le Fiqaro", "Valver aktual" və digər fransız qəzetlərində XlX əsrdən indiyə qədər ölkəmizin fasiləsiz olaraq erməni vəhşiliklərinə məruz qaldığı diqqətə çatdırılmış, faciə zamanı 613 nəfər günahsız xocalının, o cümlədən 106 qadının və 54 uşağın qətlə yetirildiyi, mindən artıq adamın əsir və 150 nəfərin itkin düşdüyü qeyd edlmişdir. İftira və böhtana əl atmış bu jurnalist ASALA erməni terrorçu təşkilatının fəal üzvlərindən Vazgen Sisyanın onlarla azərbaycanlını vəhşicəsinə qətlə yetirdiyini öyünərək fəxr etməsini, əli günahsız insanların qanına batmış bu caninin Xocalı faciəsində həmvətənindən heç də geri qalmamış Ermənistanın keçmiş prezidenti Pobert Koçaryan tərəfindən "milli qəhrəman" adı verilməsini, törətdikləri cinayətlərin izini itirmək üçün öldürülmüş azərbaycanlıların meyitlərini bir yerə toplayaraq yandımalarını, gözlərini qan tutmuş, vəhşiliyə həris ermənilərin hətta meytilər arasında sağ qalmış uşaqlara belə aman verməyədən, həmin tonqala atıb həyatlarına son qoymalarını nə üçün xatırlatmır.

Xocalı faciəsinin ermənləri qorxuya salması əbəs deyildir. Bir tərəfdən taixi faktlara əsaslanan Azərbaycan diplomatiyasının Ermənistan diplomatiyasını üstələməsi, digər tərəfdən isə Xocalı faciəsinin olduğu kimi dünya ictimaiyyətinə çatdırılması sahəsində ölkəmizin apardığı siyasətdir.

Əslində ermənilərdə Xocalı faciəsinin qorxusu bir neçə il bundan əvvəl Heydər Əliyev Fondu tərəfindən Azərbaycan həqiqətlərini, Xocalı faciəsini bütün dünya ictimaiyyətinə çatdırmaq məqsədilə müxtəlif dillərdə çap olunmuş kitab, broşür və digər vəsaitlərin müxtəlif ölkələrdə yayılması, məşhur dünya kitabxanalarında yerləşdirilməsi, ölkəmizin hüdudlarından kənarda keçirilmiş tədbirlərlə başlamışdır. Parisdəki mitinqlərdə Azərbaycan təbliğatının getdikcə güclənməsindən, Xocalı faciəsini fransızlara dolğun və düzgün şəkildə çatdırılmasında tələbələrimizin geniş fəaliyyətindən, onların bu barədə vərəqələr yaymasından ermənilərin narahat olmaları onların kürkünə əmælli- başlı birə düşməsindən xəbər verir. Hətta, onlar açıq-açığına Azərbaycan təbliğatına qarşı mübarizə etmək barədə çağrışlar səsləndirməkdən belə çəkinmirlər. Nəhayət faciəyə siyasi qiymət verilməsi və soyqırımı kimi tanınması üçün Azərbaycan dövlətinin beynəlxalq məhkəməyə müraciət etməyə hazırlaşması ermənilərin qorxusunu bir qədər də artırmışdır.

Xalqımız əmindir ki, beynəlxalq ictimaiyyət arasında Xocalı faciəsi ilə bağlı haqq-ədalət öz yerini tapacaq, onun səbəbkarları isə layiqli cəzalarını alacaqlar.

Əsgər Əliyev
AzərTAc-ın xüsusi müxbiri
Paris
23 fevral 2009-cu il

Xocalı faciəsinin 17-ci ildönümü Latviyada qeyd olunmuşdur

Bakı, 23 fevral (AzərTAc). Heydər Əliyev Fondunun dəstəyi, Azərbaycanın Latviyadakı səfirliyinin təşəbbüsü, Latviya azərbaycanlılarının "Ocaq" Mədəniyyət Mərkəzinin və Latviyanın Milli Akademik Kitabxanasının iştirakı ilə fevralın 20-də Latviya ilə Azərbaycan arasında diplomatik əlaqələrin 15 illiyinə və Xocalı faciəsinin 17-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir.

Tədbirdə Latviya-Azərbaycan əlaqələrini əks etdirən sərgi, Xocalı soyqırımına həsr olunmuş xüsusi fotostend, faciədən bəhs edən kitablardan və "www.justiceforkhojaly.org" saytının təbliğat masası təşkil edilmişdir.

Tədbirin qonaqları Seymin deputatları O.Denisov, O.Kastens, XİN nümayəndələri, səfirlər və diplomatik nümayəndəliklərin təmsilçiləri, elm və iş adamları olmuşlar.

Səfir Tofiq Zülfüqarov tədbirin məqsədi barədə məlumat vermiş, Latviya-Azərbaycan diplomatik əlaqələrinin tarixindən danışmış, Xocalı soyqırımına həsr olunmuş xüsusi materiallara, stendlərə diqqəti cəlb etmişdir. Sonra Xocalı qırğınının anma günü kimi tanınması məqsədi ilə yaradılmış "Justforkhocali" adlı sayt nümayiş olunmuşdur. Azərbaycanda baş vermiş faciələrlə bağlı Heydər Əliyev Fondu tərəfindən nəşr edilmiş məlumat toplusu və "Justice for Khodjaly-Freedom for Karabakh" deklarasiyası iştirakçılara paylanmışdır. Latviyanın Milli Akademik Kitabxanasının rəhbəri V.Kotsere ölkəsi ilə Azərbaycan arasındakı dostluq əlaqələrinin inkişafından söz açmış, sərgi barədə məlumat vermişdir.

Eyni zamanda, tədbir zamanı Latviya azərbaycanlılarının "Ocaq" Mədəniyyət Mərkəzinin nümayəndəsi, Riqa gimnaziyasının direktoru R.Əliyevin latış dilinə tərcümə etdiyi "Azərbaycan tarixi" kitabı da dinləyicilərə paylanmışdır.

Tanınmış rəssam A.Berzinas, tarixçi Dzintars Erqlis, deputat O.Kastens tədbirdə çıxış etmişlər. Səfirlikdən bildirmişlər ki, Latviyanın LTV kanalının axşam xəbərlərində tədbirə həsr olunmuş reportaj göstərilmiş, "Domska plohad" radiosunda səfir T.Zülfüqarovun müsahibəsi səsləndirilmiş, "Ças", "Vesti Seqodniya", "Biznes Balti", "Obrazovanie i karyera" qəzetlərində məqalə və məlumatlar dərc edilmişdir.

AzərTAc
23 fevral 2009-cu il

Azərbaycan ombudsmanı, Xocalı soyqırımının 17-ci ildönümü ilə əlaqədar beynəlxalq təşkilatlara bəyanat göndərmişdir

Bakı, 23 fevral (AzərTAc). Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilli Elmira Süleymanova Xocalı soyqırımının 17-cı ildönümü ilə əlaqədar beynəlxalq təşkilatlara bəyanat ünvanlamışdır. Fevralın 23-də bu münasibətlə keçirilən tədbirdə E.Süleymanova Xocalı faciəsinin dəhşətlərindən danışaraq bildirmişdir ki, yol verilmiş zorakılıq əməllərinin qabaqcadan düşünülmüş qaydada, milli əlamətə görə insanların məhv edilməsi niyyətilə törədilməsi beynəlxalq və dövlətdaxili hüquqa əsasən məhz soyqırımı aktıdır. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayətlərdən biri hesab olunur.

Qadınlar, qocalar, əlillər, uşaqlar xüsusi amansızlıqla öldürülmüş, soyqırımı törədənlər Xocalı sakinlərini misli görünməmiş qəddarlıqla diri-diri yandırmış, başlarının dərisini soymuş, gözlərini çıxarmışlar. Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdikləri Xocalı soyqırımı adları bəlli olan 613 nəfərin, o cümlədən 106 qadının, 63 uşağın, 70 qocanın həyatına son qoymuş, 487 nəfər şikəst olmuş, 1275 dinc sakin əsir götürülmüş, 155 nəfər itkin düşmüşdür.

Bu soyqırımı aktı nəticəsində 8 ailə bütünlüklə məhv edilmiş, mülki əhali vəhşiliklə qətlə yetirilmiş, əsir götürülənlərə amansız işgəncələr verilmişdir. Bu zaman soydaşlarımızın əsas insan hüquqları, ən başlıcası isə yaşamaq hüququ kütləvi şəkildə, kobudcasına pozulmuşdur.

Hazırda Xocalı soyqırımı ilə bağlı məsələ dünyanın bir sıra dövlətlərinin parlamentlərində müzakirəyə çıxarılır, nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən Ermənistan təcavüzkar dövlət kimi tanınır, işğal edilmiş Azərbaycan ərazilərinin geri qaytarılması, ərazi bütövlüyünün bərpa olunması tələb edilir. Bəyanatda insan hüquqlarının kütləvi və kobud şəkildə pozulması ilə nəticələnmiş Xocalı soyqırımına hələ də beynəlxalq miqyasda hüquqi qiymət verilmədiyi, terrorçu əməllərə qarşı qəti tədbirlər görülmədiyi təəssüflə qeyd olunmuşdur.

Bəyanat BMT-nin baş katibinə, bu qurumun İnsan Hüquqları üzrə Ali Komissarlığına, Avropa Şurasına, ATƏT-ə, beynəlxalq və Avropa ombudsmanlar qurumlarına, Asiya Ombudsmanlar Assosiasiyasına və xarici ölkələrin Azərbaycandakı səfirliklərinə göndərilmişdir.

AzərTAc
23 fevral 2009-cu il

Xocalı qırğınının iştirakçılarından birinin məzunu olduğu Berkli Universitetində faciənin ildönümü ilə bağlı tədbir keçirilmişdir

Bakı, 23 fevral (AzərTAc). ABŞ azərbaycanlılarının Xocalı faciəsinin ildönümü ilə bağlı başladığı ictimai kampaniya çərçivəsində Kaliforniyanın Berkli Universitetində tədbir keçirilmişdir.

Azərbaycan-Amerika Şurası, Berkli Universitetinin türkdilli tələbələr təşkilatı və Şimali Kaliforniya Mədəniyyət Mərkəzi tərəfindən təşkil olunmuş tədbirdə universitetin tələbə və müəllimləri, Azərbaycan diasporunun fəalları iştirak etmişlər. Xocalıda dinc əhaliyə qarşı vəhşilikləri törədənlərdən birinin, terrorçu Monte Melkoniyanın məzunu olduğu Berkli Universitetində belə tədbir ikinci ildir keçirilir.

Toplantını giriş nitqi ilə açan Azərbaycan-Amerika Şurasının prezidenti Cavid Hüseynov və Türkdilli Tələbələr Assosiasiyasının rəhbəri Ulduz Berencfuruş bildirmişlər ki, ABŞ azərbaycanlılarının başlatdığı ictimai kampaniyanın məqsədi amerikalıların bu faciə barədə məlumatını artırmaq, ölkə ictimaiyyətini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərlə yaxından tanış etməkdir. Xocalı qırğınının 17-ci ildönümünə həsr edilmiş tədbirlər ABŞ-ın digər böyük şəhərlərində, o cümlədən Hyuston, Nyu-York, Vaşinqton və Los-Ancelesdə də keçiriləcəkdir.

Cavid Hüseynov demişdir ki, İslam Konfransı Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə fevralın 26-da dünya ictimaiyyətinin Xocalı soyqırmı ilə bağlı məlumatlandırılması kampaniyasının açılışı olacaqdır.

AzərTAc-ın ABŞ-dakı xüsusi müxbiri Şəfəq Akifqızı, Azərbaycan Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin əməkdaşı Rəşad Kərimov, Montana Dövlət Universitetinin professoru, tanınmış jurnalist Tomas Qolts, Milli Məclisin deputatları Asim Mollazadə və Həvva Məmmədova çıxış etmişlər. Şəfəq Akifqızı demişdir ki, faciə törədildiyi vaxt beynəlxalq ictimaiyyətin Azərbaycan barədə məlumatı olduqca az idi. Lakin erməni terrorçularının Xocalıda törətdikləri qırğın o qədər amansız və inanılmaz idi ki, dünyanın ən aparıcı KİV-ləri, o cümlədən "Vaşinqton post", "Vaşinqton tayms", "İndependet" qəzetləri, "Nyusuik" jurnalı, BBC telekanalı faciəni xəbər başlıqları arasına çıxararaq, mövzunu bir aydan çox yaxından izləmişdir. Ermənilər Xocalıda törədilənləri inkar etsələr də, xarici jurnalistlər Ağdam şəhərinə üzərində işgəncə izləri olan yüzlərlə meyitin gətirildiyini, Azərbaycan tərəfinin cəsədləri toplamağa çalışan qırmızı xaç işarəli vertolyotlarına ermənilərin atəş açdığı barədə yazırdı.

Xocalı faciəsi ətraflı araşdırılmalı, onun insan hüquqları, beynəlxalq hüquq baxımından nə qədər amansız olmasına düzgün qiymət verilməlidir.

Azərbaycan Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin əməkdaşı Rəşad Kərimov Xocalı faciəsinin müharibə cinayəti olduğunu vurğulamışdır. Bildirmişdir ki, dünyada baş verən bütün etnik təmizləmə əməliyyatları sübut edir ki, silahlı münaqişələr zamanı mülki vətəndaşların hədəf seçilməsi hərbi strategiya baxımından qələbə gətirmir. Bu cür müharibə cinayətlərinin, o cümlədən Xocalı qırğının günahkarları ədalət məhkəməsi qarşısında cavab verməlidirlər.

Xocalı qırğını haqqında həqiqətləri dünyaya çatdıran ilk xarici jurnalist Tomas Qolts demişdir ki, hər ildönümü ərəfəsində faciənin qurbanlarının xatirəsinə ehtiram, habelə məsuliyyət hissi onu müxtəlif auditoriyalarda çıxış edərək Xocalı həqiqətlərini bir daha söyləməyə məcbur edir. T.Qolts hesab edir ki, illər ötdükcə ermənilərin baş verənlərə münasibətində də dəyişiklik hiss olunur. Əgər ilk mərhələdə onlar hər şeyi danırdılarsa, son vaxtlar bəziləri Xocalıda törədilənlərdə erməni hərbi qüvvələrinin rolu olduğunu etiraf edir və bunu münaqişə həqiqətlərindən irəli gələn zərurət kimi izah edirlər.

Tomas Qolts da bildirmişdir ki, Xocalı faciəsi hərtərəfli araşdırılmalı və dünya ictimayyətinə daha geniş şəkildə çatdırılmalıdır.

Milli Məclisin deputatı Asim Mollazadə vurğulamışdır ki, Xocalı faciəsi təkcə azərbaycanlılara yox, bəşəriyyətə qarşı törədilmiş cinayət kimi qəbul edilməlidir. Azərbaycan xalqının günahkarların ədalət məhkəməsi qarşısında durmasını tələb etməsi qisas deyil, bu, beynəlxalq hüququn bərqərar olması baxımından vacibdir. Ermənilər də başa düşməlidirlər ki, 1992-ci ildə günahsız azərbaycanlılara qarşı tuşlanan silah, sabah erməni xalqına da tuşlana bilər. Bəlkə 2008-ci ilin martında Yerevanda dinc əhaliyə atəş açanlar arasında Xocalı soyqırımını törədənlər də var idi?..

Sonra deputat Həvva Məmmədovanın müəllifi olduğu və Xocalı soyqırımının qurbanları haqqında ingilis dilində çap olunmuş kitabın təqdimatı keçirilmişdir. Kitab 1992-ci ildən bəri aparılan tədqiqatlar, hadisələrin canlı şahidi olmuş və əsirlikdən azad edilmiş xocalılılarla müsahibələr əsasında yazılmışdır. Həvva xanım vurğulamışdır ki, Xocalı ermənilər tərəfindən üç dəfə - 1905-07-ci, 1918-20-ci və 1992-ci ildə yerlə-yeksan edilmişdir. Lakin əvvəllər olduğu kimi, bu dəfə də xocalılılar evlərinə dönəcək, yurd-yuvalarını

bərpa edəcəklər. Milli Məclisin deputatı Azərbaycana dost olan ölkə kimi ABŞ-ı bu tarixi vəhşiliyə göz yummamağa, soyqırıma düzgün siyasi qiymət verməyə çağırmışdır.

Daha sonra tədbir iştirakçılarına Heydər Əliyev Fondunun Xocalı soyqırımı ilə bağlı hazırladığı sənədli film və Şəfəq Akifqızının 1999-cu ildə CNN ilə yayımlanmış telereportajı nümayiş etdirilmişdir. Xocalı faciəsi qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunmuş, sonda tələbələri maraqlandıran suallara cavab verilmişdir.

AzərTAc
23 fevral 2009-cu il

Türkiyədə Azərbaycan həqiqətlərini əks etdirən sənədli filmin çəkilişlərinə başlanmışdır

Ankara, 24 fevral (AzərTAc). Türkiyədə dünya ictimaiyyətinə Azərbaycan həqiqətləri və Xocalı soyqırımının dəhşətli nəticələri ilə bağlı obyektiv məlumatlar çatdırmaq, erməni vandalizminin mahiyyətini açmaq məqsədilə sənədli filmin çəkilişlərinə başlanmışdır.

Ankara Qazi Universiteti beynəlxalq münasibətlər fakültəsinin aspirantı, soydaşımız Elnur Paşanın müəllifi olduğu film "ATA" TV-nin texniki dəstəyi ilə reallaşdırılır. Bu ekran əsəri yalnız Xocalı soyqırımından deyil, ümumilikdə ermənilərin əsrlər boyu azərbaycanlıların başına gətirdikləri faciələrdən, Qarabağ münaqişəsinin başlanmasından və erməni terror təşkilatlarının Azərbaycanda törətdikləri qanlı aksiyalardan bəhs edir.

Sənədli filmdə Türkiyənin tanınmış tarixçiləri – "Turksam" Araşdırmalar Mərkəzinin rəhbəri Sinan Ogan, Türk Tarix Qurumunun keçmiş başqanı Yusif Hallaçoglu, Maras ermənileri üzrə araşdırmaçı Nejla Gunay və digərlərinin fikirləri yer alır.

Xocalı soyqırımının 17-ci ildönümü ərəfəsində çəkilişləri tamamlanacaq sənədli filmin artıq Türkiyənin bir neçə nüfuzlu telekanalında yayımlanması ilə bağlı razılıq əldə olunmuşdur. Bundan əlavə, filmin SD formatında Türkiyədə və əksər Avropa ölkələrində yayılması da nəzərdə tutulur.

AzərTAc
24 fevral 2009-cu il

Xocalı faciəsi

Bir gecədə 613 nəfər soydaşımızın qətlə yetirilməsi əsil soyqırımıdır

Xocalı faciəsi tarixi taleyimizdə baş vermiş çoxsaylı fəlakətlərin hələlik sonuncusudur. Bundan sonra başımıza daha hansı fəlakətlər gələcək, bilmirik. Nə qədər ki, azğın ruhsuz, soysuz erməni dünyanın halına çox gözəl uyuşa bilir, türkü sevməyənlər bunlardan bizə qarşı bir alət kimi məharətlə istifadə edəcəklər, erməni, eləcə də başqa yağılarımız Azərbaycanı parçalamaq və qəsb etmək iddialarından əl çəkməyəcəklər.

Son dövrlər Xocalı fəlakətinin dünya ictimaiyyətinə çatdırılması yönündə ardıcıl olaraq göstərilən cəhdlərin sayı artır. Bəziləri fəlakətlərimizdən məhz ildönümü zamanı danışıldığını bildirsələr də, hər halda təqvimdə demək olar, ayın neçə günü tarixi fəlakətlə bol olan Azərbaycanın başına gətirilən barəsində daim dünyaya səs salmaq gərəkdir. Amma görəsən, biz bunu necə edirik? Dünya bizim harayımıza necə reaksiya verir? Faktdır ki, ermənilər xüsusən son onillər ərzində dünya ictimaiyyətinin yaddaşında ardıcıl olaraq "vəhşi türk" obrazı yaradıblar. Tarixçi-alim Azad Rzayev Xocalı faciəsinin yaranma səbəbləri, eləcə də dünyanın başımıza gələn fəlakətlərə münasibəti mövzusunda danışır: "Əvvəla, bir məsələyə diqqəti çəkmək istərdim ki, hər bir xalqın tarixində faciəli hadisələr olub. Bu cür hadisələr müxtəlif obyektiv və subyektiv səbəblərdən baş verir. Xalqımızın tarixində son dövrlər baş vermiş ən dəhşətli hadisələrdən biri olan Xocalı faciəsi Azərbaycanın tarixinə dəhşətli bir soyqırımı hadisəsi kimi daxil olub. Bəli, zaman keçdikcə yazıçılar, şairlər, tarixçilər, siyasətçilər bu mövzuya qayıdacaqlar. Bu faciəyə münasibətimiz daha da aydınlaşmalı və qətiləşməlidir. Xocalı faciəsi heç zaman yaddaşımızdan silinməməlidir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilər dinc əhalini - uşaqları, qocaları, qadınları qanlarına qəltan etdilər. Tarixdə heç zaman belə kütləvi qırğınlar dəstəklənməyib. Belə qətlləri törədənlər həmişə lənətlənib. Demək olmaz ki, dünya Xocalı fəlakətindən bixəbərdir. Mərhum Çingiz Mustafayevin çəkdiyi kadrları kim görməyib ki? Erməni xislətinə artıq hər birimizin bələdliyimiz var. Düşünürəm ki, belə bir xislətə malik olan erməni Xocalı faciəsini fürsət tapan kimi mütləq törədəcəkdi və törətdi də. Ermənilər bu yolla xalqımızın gözünü qorxudaraq daha böyük iddialarına nail olmaq istəyirdilər. Xocalıda bu faciə baş verməsəydi, başqa yerdə gerçəkləşə bilərdi. Bir gecənin içərisində 613 nəfər soydaşımızın qətlə yetirilməsi əsil soyqırımıdır. Bu faciə zamanı 1375 nəfər əsir düşüb, hələ də onlardan xəbər-ətər yoxdur. 7 ailə bütünlüklə məhv edilib. Soyqırımına bundan bariz və dəhşətli misalı necə gətirmək olar? Soyqırım dinc, silahsız xalqın məhv edilməsidir. Xocalı faciəsi ermənilərin nə dərəcədə vəhşi, qaniçən olmasını dünyaya əyani şəkildə sübut etdi. Günahsız insanları qıranlara "insan" deməyə adamın dili gəlmir. Ermənilər zaman-zaman xalqımızın başına çox fəlakətlər gətiriblər. Daim türklərin qanını içən, xeyirxahlıq gördükləri dərəcədə xəyanətkarcasına arxadan zərbələr endirən ermənilər dünyanı azdırmaq üçün artıq 100 ildir ki, qondarma "soyqırım" cəfəngiyatını dünyanın beyninə yeridir, təəssüf ki, müəyyən məqamlarda bəzi ölkələri bu iddiaya inandırır".

Halbuki 1915-ci ildə Türkiyədə "erməni genosidi" deyilən bir soyqırım olmayıb. Ermənilər özləri türkləri qırmışdılar: "Ermənilərin iddia etdikləri "soyqırım"la bağlı heç bir sübut-dəlilləri yoxdur. Yəhudi tarixçiləri deyirlər: "Dünya ancaq alman faşistlərinin yəhudilərə qarşı soyqırımını tanıyır. Amma biz elə xalqıq ki, bundan şou düzəltmirik". Hər halda bu qənaət insanı düşünməyə vadar edir. Ermənilər isə heç nədən "soyqırım" şousu yaradır, dünya ölkələrini buna inandırmaq istəyirlər. Hər halda dünya ölkələrinin "erməni soyqırımı" cəfəngiyatına uyması olduqca təəssüfedici bir haldır".

Alimin fikrincə, 20 Yanvarda, həmçinin 1918-ci il martın 31-də ermənilərin Bakıda 10 mindən artıq soydaşımızı qətlə yetirməsi əsl soyqırımıdır: "Ermənilərin daim türklərə qarşı soyqırımı həyata keçirməsinə dair əlimizdə çoxlu faktlar var. Xocalı faciəsi ilə bağlı çəkilmiş videolentlər, fotoşəkillər, şahid ifadələri və s. bu qəbildəndir. Biz əlimizdə olan faktları indi daha ciddi-cəhdlə dünyaya təqdim etməliyik. Hər halda vaxtımızı itirməməliyik. Müəyyən dövrdən sonra Xocalının canlı şahidləri həyatda olmayacaq. Bu faciənin baş verməsində günahkar olanlar dəqiq bilinməlidir. Faciənin baş verməsinin obyektiv və subyektiv səbəblərini aşkarlamalıyıq. O dövrkü Azərbaycan iqtidarı faciənin baş verməsinin qarşısını almaq üçün tədbirlər görməliydi. 20 Yanvar, Xocalı, eləcə də bu ərəfədə baş vermiş başqa faciəli hadisələri bir zəncirin həlqələri kimi qəbul etməliyik".

Bu gün dünyanın siyasi düzənində türkün parçalanması, daim türk xalqlarının arasında ayrılıqlar salınması üçün bizi sevməyənlər əllərindən gələni edirlər. Həmsöhbətim vurğulayır ki, Xocalı faciəsinin baş verməsində ermənilərin havadarlarının olması gün kimi aydındır: "Bu gün dünyada xalqlararası münasibətlərin yaxşılaşdırılmasından, qloballaşmanın zəruriliyindən çox danışılır. Hər halda dövlətlərarası münasibətlər yaxşı olmadığı dərəcədə bəşərin sabahkı "xoşbəxt həyat" xəyalı reallığını tapmayacaq. Erməni fitri kinini, nifrətini öldürmək istəmir, əksinə, gündən-günə onu alışdırır. Məlumdur ki, Hitler Almaniyası dövründə ruslar bir millət

olaraq çox əzab çəkdilər. Hazırda Almaniya ilə Rusiya arasında münasibətlər normaldır. Bu, o deməkdir ki, xalqlar arasında müəyyən dövrdən sonra qarşılıqlı anlaşma yarana bilər. Əsas odur ki, işğalçılıq etmiş xalq öz günahlarını etiraf etməyi bacarsın. Bu gün alman diplomatları Hitler Almaniyası dövründə faşist zülmündən əzab çəkmiş xalqlardan və dövlətlərdən üzr istəyirlər. Amma ermənilər alman deyillər. Ermənilər "böyük Ermənistan" xülyasından ayılmaq və ayrılmaq istəmirlər. Onlar öz cəfəng, amansız və qəddar istəklərini nəsildən-nəsilə ötürürlər".

Amma görəsən, bir millət olaraq bizim başqa xalqlara, konkret olaraq ermənilərə münasibətimiz necə olmalıdır? Tarixən başqa xalqların üzünə qapımızı çox açmışıq: "Biz həmişə başqalarını üzünə xoş baxmışıq. Bir millət üçün bu, mənfi xüsusiyyət hesab olunmasa da, hər halda dostumuzla düşmənimizi yaxşı tanımalıyıq. Bilməliyik ki, ermənilər düzələn deyillər. Ruslar demişkən, onlar həmişə əllərində daş tutublar. Ermənilər fürsət tapan kimi həmin daşı bizim başımıza çırpırlar. Nə qədər bu hadisələr yaddaşımızda qalacaq, başımıza gələnlər bizi məcbur edəcək ki, bir də belə hadisələrin baş verməsinə imkan verməyək. 20 Yanvar, ümumiyyətlə, Qarabağ hadisələri nədən baş verdi? Ona görə ki, biz tariximizi yaddan çıxardıq. 1918-ci il martın 31-də ermənilər tərəfindən qırğına məruz qalan minlərlə soydaşımızın qətl edildiyi indiki Şəhidlər Xiyabanında vaxtilə Kirov adına park salınmışdı. Amma ermənilər özlərində belə şeyə qətiyyən imkan verməzdilər. Belə hadisələr daim yaddaşımızda kök salmalıdır. Əgər unutsaq, o zaman yeni-yeni faciələrə tuş gələ bilərik. Yeni nəslə tariximizi olduğu kimi başa salmalıyıq, öyrətməliyik. Qoy bizdən sonra gələn yeni-yeni nəsillər bilsinlər ki, ermənilər kimdirlər. Başımıza gələn çoxsaylı fəlakətlərdən təəssüf ki, bir millət olaraq dərs almamışıq. Əlbəttə, fəlakətdən heç bir xalq sığortalanmayıb."

Təəssüf ki, bu gün türk dünyası ölkələri arasında birlik yoxdur. Əslində dünyada Xocalı fəlakətinin mahiyyətcə tanınmamasının əsas səbəblərindən biri türk ölkələri arasında birliyin olmamasından qaynaqlanır.

Elçin Qaliboğlu

“Xalq Cəbhəsi”. -2009. – 24 fevral. - № 35. - S. 14.

Xocalı soyqırımı qurbanlarının xatirəsi Qarsda da anılmışdır

Ankara, 24 fevral (AzərTAc). Azərbaycanın Qarsdakı Baş konsulluğu Xocalı soyqırımının 17-ci ildönümü ilə bağlı anma mərasimi keçirmişdir.

Mərasimdə Qars və İğdır vilayətlərinin rəhbərliyi, burada yaşayan azərbaycanlılar, alimlər iştirak etmişlər.

Ölkəmizin Qarsdakı baş konsulu Həsən Zeynalov Xocalı soyqırımı haqqında məlumat vermişdir. Bildirmişdir ki, erməni quldurları Azərbaycanın Xocalı şəhərində 106 qadın, 63 uşaq və 70 yaşlı insan da daxil olmaqa 613 dinc sakini qətlə yetirmişlər. Mindən çox insan yaralanmışdır. Azərbaycan xalqı son 200 ildə erməni millətçilərinin etnik təmizləmə siyasətinə məruz qalmışdır. Bütün beynəlxalq hüquq normalarına zidd olaraq, Ermənistan əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağın işğalını davam etdirir. Xocalı qətliamı XX əsrin faciəsidir və təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı törədilmiş ən ağır cinayətlərdəndir. Həsən Zeynalov əlavə etmişdir ki, bu soyqırımının təşkilatçıları və günahkarları layiqli cəzalarını almalı, Ermənistanın hərbi və siyasi təcavüzünə dünya ictimaiyyəti tərəfindən qiymət verilməlidir. Mərasim iştirakçıları baş konsulluqda Heydər Əliyev Fondunun təbliğat materialları əsasında hazırlanmış və Xocalıda ermənilərin törətdikləri vəhşilikləri əks etdirən fotosərgi ilə də tanış olmuşlar.

Oqtay Bayramov
AzərTAc-ın xüsusi müxbiri
Ankara
24 fevral 2009-cu il

Xocalı soyqırımı

Əgər Xocalı faciəsi bir tərəfdən erməni işğalçılarının vəhşiliyinin nəticəsi olubsa, ikinci tərəfdən də bizim dövlət orqanlarının, o vaxt respublikaya rəhbərlik edən səlahiyyətli şəxslərin cinayətkarlığı, etdiyi cinayətlər nəticəsində və hətta deyə bilərəm, xəyanətlər nəticəsində olubdur. Ona görə də biz bu soyqırımını pisləmək, ermənilərin bu vəhşiliyini dünyaya göstərmək, yaymaq, onları bir vəhşi kimi ifşa etməklə yanaşı, eyni zamanda, özümüzün özümüzə etdiyimiz cinayəti, xəyanəti aşkar etməliyik.

Heydər ƏLİYEV

Səyyad Ağbabalı,
"Arena" qəzetinin baş redaktoru

Hər il Xocalı soyqırımı ərəfəsində müəyyən kütləvi tədbirlər keçirir, erməni faşizmin bu şəhərin timsalında törətdiyi ağlasığmaz dəhşətləri yada salır, dünyanın kar olmuş qulaqlarını və kor olmuş gözlərini açmaq üçün müxtəlif səviyyələrdə cəhdlər də göstəririk. Sonra isə yenə ara səngiyir və biz faciənin növbəti ildönümünü gözləyirik. Bu məsələdə Heydər Əliyev Fondunun fəaliyyəti bir ayrıcalıq təşkil edir və böyük diqqətə, təqdirəlayiqdir. Əslində isə biz hamımız yaramızın qaysaqlanmasına qətiyyən yol verməməli, həmin qaysaqlan daha dərindən qoparmalıyıq. Qoparmalıyıq ki, yaramız daha bərk sızlasın. Bu sızıltı damarlarında azərbaycanlı qanı axan hər kəsi Xocalı intiqamına, düşmən tapdağında olan hər qarşı vətən torpağının azad edilməsinə haraylasın. Bu vətən bizimdirsə, ona sahib durmalı, izzət və şərəfini də özümüz qorumalıyıq. Əcdadlarımızın bizə qoyub getdikləri miras da bunu tələb edir. Dünya da elə ancaq bu dili başa düşür.

Torbadan boylanan erməni cini

SSRİ prezidenti Qorbaçovun yenidənqurması, demokratiya və aşkarlığı erməni separatizmi üçün göydəndüşmə idi. Onlar məhz bu imkandan bəhrələnərək on illərlə qəlblərində gəzdirdikləri düşmən niyyətlərini - Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi planlarını açıq-aşkar formada ortaya qoymağa başladılar. Qondarma səbəb də tapdılar: Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafı Azərbaycan tərəfindən təmin olunmur. Vilayət sosial problemlər məngənəsində əzilir. Təbii ki, İrəvanda, Moskvada, Avropada və okeanın o tayında olan ideoloqlar Dağlıq Qarabağ problemini necə yaratmağı və onu hədəfə doğru necə aparmağı hələ illər öncə çox yaxşı işləyib hazırlamışdılar. Artıq hərəkət vaxtı idi.

1986-cı ilin yazında Sov. İKP MK-dan Azərbaycan KP MK-ya 216 ermənin imzası ilə bir məktub daxil olub. Məktub müəllifləri DQMV-nin sosial-iqtisadi inkişafının acınacaqlı vəziyyətindən şikayətlən b və SSRİ rəhbərliyindən təcili tədbirlər görməyi tələb ediblər. Onlar günahkar qismində Azərbaycan hökumətini və respublikanın ayrı-ayrı nazirlik, komitə rəhbərlərini göstəriblər. O vaxt Azərbaycan KP MK-nın iqtisadiyyat şöbəsinin müdiri vəzifəsində çalışan akademik Ziyad Səmədzadə müavini Əhməd Vəliyevlə həmin məktubda göstərilən faktları araşdırıb. Aydın olub ki, sən demə, 216 imzadan yalnız 21 DQMV-də qeydiyyatda olan ermənilərə məxsus olub. Onlar da Dağlıq Qarabağda yox, Moskvada yaşayıblar.

Azərbaycan KP MK-nın birinci katibi Kamran Bağırovun göstərişi ilə qondarma şikayət məktubunda göstərilən bütün faktlar araşdırıldıqdan sonra Moskvaya cavab məktubu hazırlanıb. Faktlarla sübut olunub ki, Dağlıq Qarabağın sosial-iqtisadi inkişafı Azərbaycanın digər bölgələrinə nisbətən daha yaxşı və daha sürətlidir. Lakin Azərbaycan KP MK-nın göndərdiyi cavab məktubu Moskvada bir kənara tullanıb, əvəzində ermənilərin uydurma şikayət məktubları Kremldə ara vermədən müzakirələrə çıxarılıb. SSRİ rəhbərliyi separatçı ermənilərin mövqeyini qətiyyətlə dəstəkləməkdə davam edib. Az sonra Qorbaçovun iqtisadi məsələlər üzrə köməkçisi Şahnazaryan Fransada səfərdə olarkən "Humanite" qəzetinə verdiyi müsahibəsində bildirib ki, DQMV-nın sosial-iqtisadi inkişafının təmin edilməsi və vilayətdə yığılıb qalmış problemlərin həlli üçün bu bölgənin Ermənistana birləşdirilməsi məqsədəuyğundur. Şahnazaryanın bu bəyanatı kifayət edib ki, erməni diasporu Dağlıq Qarabağ məsələsini beynəlxalq arenaya çıxarsın.

1986-cı ildən başlayaraq separatçı "Krunk" cəmiyyəti Dağlıq Qarabağda açıq-aşkar fəaliyyət göstərdiyi halda, Azərbaycanın o vaxtkı rəhbərliyi onların cinayətkar əməllərinin qarşısını kəsmək məqsədilə heç bir təsirli tədbir həyata keçirməyib. Əksinə, seyrçi mövqe sərgiləməklə hadisələrin yedəyində sürünüb. "Krunk"çular vilayətin o vaxtkı rəhbəri Gevorkovla birgə fəaliyyət göstəriblər. Separatçı daşnaqların Dağlıq Qarabağ ərazisində geniş əl-qol açaraq fəaliyyət göstərmələrinə, Ermənistan rəhbərliyi və erməni diasporunun birbaşa göstərişi ilə məhz Gevorkov şərait yaradıb. Azərbaycanın rəhbərliyi isə Gevorkovun burnunu əzmək əvəzinə onun qarşısında tamamilə təslimçi mövqe nümayiş etdirib. 1985-87-ci illərdə Azərbaycan KP MK-nın

plenumlarında və büro iclaslarında Gevorkov bitib-tükənmək bilməyən hədyan dolu iddialarla dəfələrlə çıxış edib, DQMV-nın sosial-iqtisadi inkişafının təmin edilmədiyi məsələsini gündəliyə gətirib. Bunun müqabilində hətta o, özünə nüfuzlu partiya rəhbəri kimi qondarma ad da qazanıb. Azərbaycan rəhbərliyi isə susqunluq nümayiş etdirərək hər dəfə onun qarşısından geri çəkilib. Məhz ona görə də Gevorkov başda olmaqla DQMV-nin rəhbərliyinin görünməmiş sosial ədalətsizliyi, açıq-aşkar millətçilik təmayülləri azərbaycanlıları öz dədə-baba yurdlarında "artıq adamlar"a çevirmişdi. Gevorkovların yürütdüyü siyasətin nəticəsi idi ki, Dağlıq Qarabağ ərazisində azərbaycanlılar yaşayan hər üç kənddən birinin sakinlərinin uşaqları başqa kənddə təhsil almağa məcbur idi. Hər iki kənddən birində isə heç bir sağlamlıq ocağı yox idi. Ermənilər belə fəaliyyətlərini "azərbaycanlılara qarşı keçirilən total əzişdirmə siyasəti" kimi qiymətləndiriblər.

1988-ci ilin fevralına qədər Ermənistan və erməni diasporu birbaşa Moskvanın razılığı və köməyi ilə DQMV-da ideoloji təxribat işini son nöqtəsinə qədər tamamlayıb. 1987-ci ilin noyabrında Heydər Əliyevin Siyasi Büro üzvlüyündən və SSRİ Nazirlər Kabineti sədrinin birinci müavini vəzifəsindən azad edilməsi isə ermənilərə "Başla!" əmrinin verilməsi demək idi. 1988-ci il fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayəti Soveti Muxtar Vilayətin Azərbaycanın tərkibindən çıxması haqqında qərar qəbul etdi. Beləliklə, illərlə torbadan boylanan erməni cini artıq Dağlıq Qarabağ Muxtar Vilayəti Partiya Komitəsinin qarşısında keçirilən erməni mitinqlərinin təşkilatçısı və aparıcısı idi.

Xocalı faciəsinə necə yaxınlaşırdıq?

Cəzasızlıq şəraitindən istifadə edən ermənilər 1988-ci il fevralın 20-dən başlayaraq Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə xidmət edən kütləvi aksiyalara bir gün belə ara verməmişlər. Ermənistan hökuməti Moskvanın dəstəyi ilə "türksüz Ermənistan" planını da Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi strategiyası ilə bərabər həyata keçirmişdir. Xankəndindəki mitinqlərdən dərhal sonra İrəvan başda olmaqla Ermənistanın bütün şəhər və rayonlarını anti-Azərbaycan və antitürk mitinqləri bürümüşdü. Bir qayda olaraq həmin mitinqlər azərbaycanlı yaşayış məntəqələrinə saqqallıların hücumlan ilə yekunlaşırdı. Köməksiz və arxasız azərbaycanlıların isə canlarını qurtarmaq üçün dədə-baba yurdlarından qaçmaqdan başqa çarələri qalmırdı. Bütün bunlar Ermənistanda hüquq-mühafizə orqanlarının birbaşa iştirakı ilə həyata keçirilirdi. Moskva DQMV ərazisində xüsusi idarəetmə forması tətbiq edərək Arkadi Volskini Xankəndinə canişin təyin etməklə separatizmə xüsusi dəstək vermişdi. Arkadi Volski Dağlıq Qarabağı Azərbaycandan tamamilə qoparıb ayırmış, onun Ermənistana birləşdirilməsini faktiki təmin etmişdi. Daha sonra onun bu xəyanətkar fəaliyyətini Polyaniçko açıq-aşkar davam etdirdi.

1988-ci ilin martından başlayaraq Ermənistandan qovulan azərbaycanlı qaçqınlar əsasən Şuşa və Qarabağın azərbaycanlılar yaşayan yaşayış məntəqələrində məskunlaşdılar. Gələcək demokratik vəziyyətin ermənilərin əleyhinə işləyə biləcəyini nəzərə alan Ermənistan rəhbərliyi dərhal nazir müavini Aslanyan familiyalı şəxsin rəhbərliyi ilə öz emissarlarını Dağlıq Qarabağa göndərdi. Eyni zamanda, muxtar vilayətin rəhbərliyi Ermənistandan gələn qaçqınların vəziyyəti gərginləşdirəcəklərini bildirərək onların Dağlıq Qarabağ ərazisindən çıxarılmasını tələb etdilər. Vəzirov kimi qətiyyətsiz və səbatsız Azərbaycan rəhbəri ermənilərin tələbləri qarşısında duruş gətirə bilmədi və belə bir göstəriş verdi: Ermənistan qaçqınları təcili surətdə Dağlıq Qarabağ ərazisindən çıxarılsın. Yumşaq formada onun bu qərarı prinsipsizlik, əslində isə xəyanətkarlıq idi. Vəzirovun göstərişi qısa vaxtda həyata keçirildi və Dağlıq Qarabağda məskunlaşan ermənistanlı qaçqınlar Azərbaycanın müxtəlif bölgələrinə məcburən köçürüldülər. Ermənistandan - dədə-baba yurdlarından qovulmuş azərbaycanlılar Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisindən tamamilə çıxarıldıqdan sonra keçmiş SSRİ prezidenti Qorbaçov tərəfindən Dağlıq Qarabağ ərazisində fövqəladə vəziyyət elan olundu, bununla da həmin ərazidə azərbaycanlı qaçqınların məskunlaşmasının qarşısı birdəfəlik alındı.

1989-1990-cı illərdə Ermənistan Respublikası Dağlıq Qarabağ Muxtar Vilayətini öz ərazisinə birləşdirmək məqsədi ilə Azərbaycana qarşı açıq silahlı təcavüzə başladı. Erməni silahlı birləşmələrinin azərbaycanlılar yaşayan kəndləri davamlı hücumlara məruz qaldı, yollar minalandı, yerli əhaliyə qarşı açıq terror həyata keçirildi.

Belə bir vəziyyətdə respublikanın Ermənistanla sərhədlərini möhkəmlətmək zərurəti meydana çıxdı. Lakin bu məsələnin həlli Azərbaycan KP MK-nın ikinci katibi Polyaniçkoya həvalə edildiyindən heç bir tədbir görülmədi. Görülə də bilməzdi. Çünki Polyaniçko Moskvanın Azərbaycandakı baş xəfiyyəsi idi və o, Moskva ilə İrəvan razılaşmasını həyata keçirmək üçün burada idi. O vaxt Azərbaycanı xilas edə biləcək yeganə qüvvə qətiyyətli rəhbər idi. Lakin nə yazıq ki, məmləkətinə sahib dura biləcək rəhbər - Heydər Əliyev hakimiyyətdə deyildi. Onun özünü fiziki cəhətdən məhv etmək üçün planlar işlənib hazırlanır, təxribatlar törədilirdi.

Ermənistan münaqişənin ilk günlərindən silah-sursät, hərbi texnika ələ keçirərək mütəşəkkil silahlı birləşmələr yaradılması istiqamətində geniş fəaliyyət göstərdiyi halda, Azərbaycan rəhbərliyi tamamilə gözləmə mövqeyi tutmuşdu. SSRİ müdafiə naziri Şapoşnikov 1991-ci il avqustun 31-də Ayaz Mütəllibova məktubla

müraciət etmiş, müttəfiq respublikalarda milli qvardiya və ya Müdafiə Nazirliyi yaratmaq təklifini irəli sürmüşdü. Bu təklifdən sonra Mütəllibov respublika Müdafiə Nazirliyinin yaradılması haqqında 5 sentyabr 1991-ci il tarixli 334 saylı fərman imzalamışdı. Müdafiə naziri vəzifəsinə isə general Valeh Bərşadlı təyin edilmişdi. Lakin bu fərmanın icrası uzun müddət kağız üzərində qalmışdı. Respublika ərazisində yerləşən SSRİ Silahlı Qüvvələrinin 4-cü ordu hissələri Azərbaycan Respublikası AH Sovetinin 1991-ci il 9 oktyabr tarixli qərarı ilə milliləşdirilib respublika prezidentinin sərəncamına verilməsinə baxmayaraq, ordu komandanlığı həmin hissələrin inventarlaşdırılıb respublika tabeçiliyinə verilməsinə imkan verməmişdi. Prezident Mütəllibov isə belə vəziyyətlə barışmış, Moskvanın göstərişi ilə bu məsələnin həllinə girişməmişdi.

Azərbaycanda Müdafiə Nazirliyinin yaranmasına və bu nazirliyə kimin rəhbərlik etməsinə Azərbaycan Xalq Cəbhəsi də maneçilik törətmişdi. AXC keçirdiyi mitinq və piketlər vasitəsi ilə əvvəlcə Valeh Bərşadlının, sonra isə Tacəddin Mehdiyevin istefasına nail olmuşdu. Beləliklə, Bərşadlı 1991-ci il sentyabrın 5-dən 1991-ci il dekabrın 11-dək, Tacəddin Mehdiyev 1991-ci il dekabrın 12-dən 1992-ci il fevralın 11-dək müdafiə naziri vəzifəsini tutmuşlar. AXC-nin təşkil etdiyi mitinq və pi-ketlərdə Fəhmin Hacıyevin aparıcı rol oynadığını nəzərə alan Tacəddin Mehdiyev səlahiyyət həddini aşmış və 1992-ci il yanvarın 3-də onu tərbiyə işləri üzrə nazir müavini təyin etmişdi. Lakin az keçməmiş həmin əmr ləğv olunmuşdu. Sonra isə Şahin Musayev 1992-ci il fevralın 11-dən fevralın 24-dək, Tahir Əliyev isə 1992-ci il fevralın 24-dən martın 7-dək müdafiə naziri vəzifələrini tutmuşlar.

1991-ci ilin noyabrında keçmiş SSRİ DİN qoşunları Dağlıq Qarabağdan çıxarıldıqdan sonra Xocalıya quru yolla gediş-gəliş tamamilə kəsilmiş, əlaqə ancaq "Azalaero"nun vertolyotları vasitəsi ilə həyata keçirilmişdir. 1992-ci il yanvarın 28-də Ağdam-Şuşa marşrutu ilə uçan vertolyot ermənilər tərəfindən vurulduqdan sonra Xocalı ilə bu əlaqə də kəsilmişdi.

Azərbaycan Respublikası Ali Soveti Milli Şura-sının Azərbaycanın MDB-yə daxil olmasının məq-sədəuyğun olmadığı barədə qərarından istifadə edən ermənilər Xankəndində yerləşən 366-cı alayın hərbi texnikasını bütünlüklə elə keçirmişdilər. Əgər nəzərə alsaq ki, həmin alaydakı hərbi qulluqçuların mütləq əksəriyyəti ermənilər olub, onda vəziyyətin hansı istiqamətdə hərəkət edəcəyini əvvəlcədən görməmək mümkün deyildi. 100 ədəddən çox hərbi texnikası olan bu alayın 49 nəfər zabit və praporşiki milliyyətcə erməni olub. Polkun ikinci motoatıcı batalyonunun komandiri Seyran Ohanyan bütün silahlan və hərbi texnikam götürərək erməni hərbi birləşmələrin tərəfinə keçib. (O vaxtkı mayor Seyran Ohanyan - Xocalı qətliamının baş qəhrəmanı indi Ermənistan Respublikasının müdafiə naziridir - S.A.).

Qarabağ zonasında vəziyyətin ağırlaşması ilə əlaqədar Ayaz Mütəllibov 1992-ci il yanvarın 2-də Xankəndi, Şuşa, Ağdərə, Xocavənd, Xocalı, Ağ-dam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər, Xanlar, Goranboy və Tərtər rayonlarını əhatə edən ərazilərdə prezident idarə üsulu tətbiq etmək haqqında fərman verib. Bu vəzifənin icrasını isə öz müvəkkili Musa Məmmədova tapşırıb. Müvəkkillik konkret heç bir iş görə bilmədiyindən ancaq qaçqınların problemləri il məşğul olub. Vəziyyətin getdikcə ağırlaşdığını görən Musa Məmmədov 1992-ci il yanvarın 21-də "Qarabağ zonasında vəziyyət və onun sabitləşdirilməsi üçün lazımi tədbirlər haqqında" Mütəllibova arayış təqdim edib. Təkliflərdən biri Qarabağda olan pərakəndə silahlı qüvvələrin vahid komandanlıq altında birləşdirilməsinin vacibliyi olub. Mütəllibov həmin arayışa uyğun olaraq 1992-ci il fevralın 10-da 2 və 3 saylı əmrlər imzalayıb. 2 saylı əmrlə vahid komandanlıq Azərbaycan Respublikası daxili işlər nazirinin müavini, Qarabağ zonası üzrə daxili işlər idarəsinin rəisi Tahir Əliyevə tapşırılıb. Elə həmin əmrlə də Goranboy ərazisində müdafiənin təşkili respublika müdafiə nazirinin müavini Dadaş Rzayevə, Şuşa şəhərinin müdafiəsi isə Rəhim Qazıyevə həvalə edilib. Bununla da Qarabağ zonasındakı qüvvələr üzərində nəinki vahid komandanlıq yaradılıb, əksinə qüvvələrin parçalanması rəsmiləşdirilib.

Bir neçə gün sonra - 1992-ci il fevralın 18-də Mütəllibov 577 saylı fərmanla Tahir Əliyevi üzərində üç vəzifə saxlanılmaqla Ağdam şəhərinin komendantı da təyin edib. 1992-ci il fevralın 21-də isə onu Bakıya çağırıb və ayın 24-də müdafiə naziri vəzifəsinə təyin edib.

1992-ci il fevralın 1-də müdafiə naziri vəzifəsini icra edən Şahin Musayevin əmri ilə Fəhmin Hacıyev leytenant rütbəsində hərbi qulluğa qəbul olunaraq əməliyyat idarəsində işə qəbul olunub. Fevralın 15-də isə Şahin Musayev Fəhmin Hacıyevə müdafiə naziri əvəzi və baş qərargah rəisinin səlahiyyətli nümayəndəsi olması barədə sənəd verərək Ağdama göndərib. Xocalı faciəsinin araşdıran istintaq qrupunun tərtib etdiyi sənədlərdən aydın olub ki, o vaxt Fəhmin Hacıyevə qarşıya çıxan bütün məsələləri yerindəcə həll etmək səlahiyyətləri verilib.

Ağdamda hakimiyyətin mənimsənilməsi və hakimiyyətsizlik

1992-ci il fevralın 17-i idi. Televiziya və Radio Verilişləri Komitəsi sədrinin müavini Rəhim Əliyev yenidən yanma çağırıb dedi:

- Gedərsən Ağdama, Allahverdi Əsədovu taparsan. Ona mənim göstərişimi çatdırarsan. Deyərsən ki, kameranı sənə versin və operatorla birlikdə çəkiliş apararsınız. Kasetləri bura göndərərsən.

- Niyə Allahverdi Əsədovun özü çəkiliş aparmır ki? - deyə sual edərkən o, stolun üstündə adıma yazılmış ezamiyyə vərəqəsini mənə uzatdı. Fikir məni götürmüşdü. Ağdamda, Dağlıq Qarabağla həmsərhəd rayonlarda necə dəhşətli hadisələrin baş verdiyindən az-çox məlumatlı idim. Az.TV-nin Ağdamda və bütövlükdə cəbhə bölgələrindən həqiqəti əks etdirməyən informasiyalar verməsini yaxşı bilirdim. Əlbəttə, bunların günahkarı jurnalistlər yox, şirkətin o vaxtkı sədri idi. O, yuxarıların göstərişini qeyd-şərtsiz həyata keçirirdi. Ona görə də bilirdim ki, Ağdamda məni yaxşı heç nə gözləmir. Bütün hallarda mən Ağdama getməli idim.

Ertəsi gün təxminən saat 14 radələrində Ağdamda idim. Allahverdi Əsədovu soraqlayıb tapdım. Rəhim Əliyevin göstərişini ona çatdırdım. Allahverdi Əsədov:

- Deyəsən, Səyyad, səni də tora salıblar, - deyə gülümsəyərək, - istəyirsən al bu kamera, bu da Tahir Qarayev, - deyib operatoru göstərdi. Mən çıxılmaz duruma düşdüyümü anlamışdım. Allahverdi Əsədov yerli adam idi. Bölgə müxbiri olaraq ərazini və adamları yaxşı tanıyır, mövcud durumu məndən min dəfə yaxşı bilirdi. Teleradio şirkətinə də Dağlıq Qarabağda və cəbhə bölgələrində baş verən hadisələrlə bağlı obyektiv informasiyalar, süjetlər, informasiyalar göndərsə də, onlar bir qayda olaraq efirə verilmirdi. Ona görə də çəkiliş aparmaq fikrindən tamamilə vaz keçdim.

Mən Allahverdi Əsədovla birlikdə şəhəri gəzib qaçqınların məskunlaşdığı yerlərə baş çəkdim. Dəhşətli bir mənzərə idi. Ağdam sanki boğulur və əzəmətini qoruyub saxlamaqda zorlanırdı. Şəhərdə bir xaosun olduğu açıq-aydın hiss olunurdu. Yaxınlaşan təhlükə Ağdamın havasına qatı bir duman kimi çökmüşdü. Çalışırdım ki, prezidentin Qarabağ üzrə müvəkkili, iqamətgahı Ağdamda olan Musa Məmmədovla əlaqə qurum. Lakin onu tapmaq bir müşkülə çevrilmişdi.

Mövcud durumu öyrənib şifahi informasiya vermək üçün Allahverdi Əsədovdan məni Ağdam rayon icra hakimiyyətinin başçısı Səyyaf Verdiyevlə görüşdürməyi xahiş etdim. Görüş baş tutdu. Mən Səyyaf Verdiyevin vəziyyətlə bağlı dediklərini televiziyanın "24 saat" xəbərlər proqramına ötürdüm. Lakin informasiya "qayçılanaraq" oxundu. Ağdamda bir həftə qaldım. Belə vəziyyət hər gün təkrarlandı: sən hansı informasiyanı verirsən ver, efirdə yuxarılara sərf edən məlumat oxunacaq.

Dağlıq Qarabağın qapısı olan Ağdam əslində erməni daşnakların "Miatsum" planlarının həyata keçirilməsinə təkcə mane olan, döyüşən, düşməni həmişə qorxu altında saxlayan şəhər yox, həm də yuxarı Qarabağ qaçqınlarının pənah gətirdiyi əyilməz qala idi. Amma Xocalı faciəsi ərəfəsində Ağdamın özünün də məngənədə sıxıldığı açıq-aydın hiss olunurdu. Həmin günlər Ağdamda vəziyyət partlayış həddinə çatmışdı. Azərbaycan hakimiyyəti əhalinin təhlükəsizliyini təmin edə bilmədiyinə görə erməni soyqırımı daha geniş ərazilərimizi əhatə edir, kütləvi qətllərin dəhşəti xalqı sarsıtdıqca sarsıdırdı.

Erməni silahlı birləşmələri fevralın 12-dən 18-dək Həsənabad, Aşağı Quşçular, Yuxarı Quşçular, Malıbəyli və Qaradağlı kəndlərini oda qalamış, sakinlərini qana çalxamışdılar. Qaçıb canlarını birtəhər qurtaranlar fevralın 18-də Ağdamın mərkəzinə toplaşdılar. Camaatın qıy-qışqırığı və dəhşətindən şəhər çalxalanır, hökumətin, Mütəllibovun ünvanına layiq olduqları sözlər yağdırılırdı. Beləcə mitinq başladı. Əvvəlcə mitinqə Qarabağa Xalq Yardımı Komitəsinin bölgə rəhbəri Yelmar Qarayev rəhbərlik edirdi. Təxminən yarım saat sonra tanımadığım hərbi geyimli şəxs mikrofonu götürdü, ermənilərin xalqın başına açdığı faciələrdən danışdı və Mütəllibov başda olmaqla hakimiyyətdə olanlardan heç bir kömək gözləmək lazım gəlmədiyini bildirdi. Elə bu vaxt mitinqə daha bir dəstə daxil oldu və onların rəhbəri - Ağdamda karyer Qasım kimi tanınan (rayon daş karxanasının müdiri, Azərbaycan Respublikasının Ali Sovetinin deputatı Qasım Kərimov - S.A.) şəxs çıxış etdi. O, rəhbərliyi ittiham edərək bildirdi ki, hakimiyyəti öz üzərinə götürür. Əgər vəziyyəti düzəldə bilməsə, onu topun ağzına qoyub Xocalıya atsınlar. Bu çıxışdan sonra mitinq yavaş-yavaş dağılırdı ki, qəflətən icraiyyə komitəsinin binası tərəfdən atəş səsləri eşidildi. Dedilər ki, cəbhəçilər binanı tutdular. Mən də kütlə ilə birlikdə Ağdam rayon soveti icraiyyə komitəsinin binasına tərəf qaçdım. Gördüm ki, avtomat atəşlərindən binanın divarları deşik-deşik edilib, qapı-pəncərələrin çoxu sındırılıb. Məlum oldu ki, ispalkomun binasında Tahir Əliyev və Fəhmin Hacıyev əyləşiblər.

Kütlə başıpozuq şəkildə hərəkət edirdi. Onlar Mütəllibovun müvəkkili Musa Məmmədovun iqamətgahına doğru irəliləməyə başladılar. İmdad diləyən və həyəcanlanmış kütlə içəridə heç kəsi tapmayıb (müvəkkil və komandası qaçmışdılar) pəncərələri və qapıları sındırdı. Onlar heç olmasa Bakıdan gələn bir nəfər tapmaq istəyirdilər. Aralarında məni görüb "haqq-hesabı çürütmək" istəyirdilər ki, hərbi geyimli bir adamın qəzəbli səsi - "ondan nə istəyirsiniz, o, jurnalistdir!", - deyərək irəli durması məni ölümün pəncəsindən xilas etdi.

Respublika daxili işlər nazirinin 18 fevral 1992-ci il tarixli əmri ilə Ağdam DİŞ-in rəisi İslah Paşayev, prezidentin 21 fevral tarixli fərmanı ilə isə Səyyaf Verdiyev icra hakimiyyətinin başçısı vəzifələrindən azad edildilər. Bununla da rayon əslində qanuni rəhbərlikdən məhrum edildi. Bir tərəfdən də təxribatlar baş alıb gedirdi.

Xocalını xilas etmək olardımı?

İstintaqla müəyyən edilmişdir ki, ölkəmizin Ermənistanla sərhəd və Dağlıq Qarabağın azərbaycanlılar yaşayan ərazilərində özünümüdafiə batalyonlarının yaradılması haqqında müdafiə naziri Valeh Bərşadlı əmr verib. Xocalı şəhər orta məktəbinin hərbi təlim üzrə müəllimi, ehtiyatda olan baş leytenant Tofiq Hüseynovun tabeliyində olan Xocalı özünümüdafiə batalyonunun şəxsi heyəti 237 nəfər zabit və əsgərdən ibarət olub.

Müdafiə Nazirliyi tərəfindən Xocalı batalyonuna 96 ədəd AKM silahı, 4 ədəd əl pulemyotu, 2 ədəd qumbaraatan, 3 ədəd tapança, 10 ədəd TOZ-8 markalı tüfəng və az miqdarda döyüş sursatı verilib. Batalyonun sərəncamında SSRİ daxili qoşunlarından qalmış bir ədəd BRDM, 2 edəd "Alazan" qurğu-su da olub.

Xocalı batalyonuna kömək məqsədilə 1991-ci il dekabrın 21-də 33 nəfərdən ibarət minaatan batareyası göndərilib, lakin Ağ-damda onlardan 13 nəfəri Umudlu kəndinə aparılıb.

Bundan başqa Əlif Hacıyevin (ölümündən sonra ona Azərbaycanın Milli Qəhrəmanı adı verilib - S A.) tabeçiliyindəki şəxsi heyəti 29 nəfər olan Xocalı aeroportunu mühafizə edən xətt milis bölməsi, həmçinin şəxsi heyəti 87 nəfərdən ibarət Xocalı milis bölməsinin əməkdaşları da şəhərin müdafiəçiləri sırasında olublar.

Lakin o vaxt Xocalı Müdafiəsi Komitəsinin rəhbəri və şəhər icra hakimiyyətinin başçısı olan Elman Məmmədov bildirib ki, faciə ərəfəsində şəhərin 150 nəfərdən ibarət özünümüdafiə batalyonunun 120 ədəd silahı olub. Xocalı milis bölməsinin 50 nəfər əməkdaşının isə 25 ədəd avtomatı var imiş.

İstintaq materiallarına görə, 1992-ci il fevralın 17-də Ağdam rayon daxili işlər şöbəsində bu rayonun ərazisində yerləşən bütün silahlı birləşmələrin komandirlərinin iştirak etdiyi müşavirədə Qarabağ zonası üzrə Daxili İşlər İdarəsi rəisinin müavini polkovnik Ş. Cahangirov Xocalı əhalisini mühasirədən çıxarmaq üçün Dadaş Rzayev tərəfindən hazırlanmış əməliyyat planını təqdim edərkən Fəhmin Hacıyev özünü komandan kimi apararaq əməliyyatın həmin plan əsasında keçirilməsini qadağan etmiş və Xocalını mühasirədən çıxarmaq üçün əməliyyatın aparılmasına rəhbərliyi öz üzərinə götürdüyünü söyləmişdi. 21-25 fevral ərzində Fəhmin Hacıyev hər gün Xocalını mühasirədən çıxarmaq üçün əməliyyatın başlama vaxtını təyin etmiş və hər dəfə də müxtəlif bəhanələr gətirərək onun icrasına başlamamışdı.

Fəhmin Hacıyevin özü isə müsahibələrinin birində həmin məsələyə belə münasibət bildirib:

- Qəti addım atmağın bircə yolu vardı - əməliyyat həyata keçirilsin. Bunun üçün o dövrdə Ağdamdakı hərbi birləşmələr iştirak etməli idilər. Bu barədə danışıq aparıb razılığa da gəlmişdik. Ancaq fevralın 23-də vəziyyət tamamilə dəyişdi. Yəni razılığa gəlinmiş hissələrin heç biri - mərhum Şirin Mirzəyevin və Ağdam Xalq Cəbhəsinin sədri Allahverdi Bağırovun taborlarından başqa hərbi birləşmələrin komandirləri XTMD komandiri Şahin Cahangirovun əmri ilə Uzundərə hərbi anbarının mühafizəsinə göndərildilər. Ağdam milli polkunun döyüşən qrupu da həmin anbarın müdafiəsinə cəlb olundu... Ona görə də fevralın 23-25-də əməliyyat baş tutmadı. O ki qaldı mənim ümumi komandanlığı üzərimə götürməyimə, bu, doğru deyil. Mən Ağdama Şahin Musayevin əmrinə əsasən getmişdim. Məqsəd Tahir Əliyevin komandanlığı altında işləmək və Ağdamda olan hərbi qrupların silahlı birləşmələrində Tahir Əliyevə köməklik etmək idi.

Xocalını xilas etmək üçün əslində nə Azərbaycan hakimiyyəti, nə də Ağdamda cəmləşən hərbi qüvvələr real addım atmadılar. Əksinə təxribatlar daha da şiddətləndi. 1992-ci il fevralın 24-də Ağdam-Əsgəran yolu ilə Xramor kəndinə kəşfiyyata gedən 18 nəfər döyüşçü müəmmalı şəkildə ZİL - 131 markalı maşında qəzaya uğradı. Fevralın 23-26-da isə Ağdam rayonu ərazisində yerləşən Uzundərə hərbi-sursat anbarı talan edildi, həmin çətin məqamda istifadə olunmadı. Müdafiə naziri vəzifəsini icra edən Şahin Musayevin şəxsi sərəncamında olan 8 ədəd Mİ-24 markalı hərbi vertolyotlar da Xocalının köməyinə göndərilmədi. SSRİ Müdafiə Nazirliyinə məxsus hərbi vertolyot eskadriyasının komandiri Zolotuxin də xocalıların evakuasiyası üçün vertolyot göndərilməsindən imtina edib. Belə icazəni yalnız Zaqafqaziya Qoşunları Hərbi Dairəsi komandanının müavini Qrekovun verə biləcəyini söyləyib. Bu məsələnin həlli üçün isə Azərbaycanın MDB-yə daxil olmasının vacibliyinə işarə edilib. Beləliklə, erməni hərbi birləşmələri 366-cı alayın birbaşa iştirakı ilə Xocalı soyqırımını törədiblər.

Xalqın harayı

Dağlıq Qarabağda yaşayan azərbaycanlıların kütləvi sürətdə soyqırıma məruz qalmaları, şəhər və kəndlərimizin viran edilməsi, hakimiyyət kürsüsündə əyləşənlərin kar qu-laqlarım və kor gözlərini açmırdı. Hörmətli oxucular, mən Respublika Prokurorluğu istintaq İdarəsində vaxtilə tanış olduğum teleqramların bir neçəsini olduğu kimi diqqətə çatdırıram. Həmin teleqramlar Azərbaycanın taleyi ilə kimlərin necə oynadığım çox aydın göstərir.

Aslanov Müzəffər, Ağdam rayonu Ətyeməzli kəndi.

29.01.92, 13.02.92. Prezident Ayaz Mütəllibova, Milli Şuraya

Millət qırılır, kəskin tədbir nə vaxt görüləcək? Malıbəyli kəndi də dağıdıldı, camaat qırıldı, növbəti qurban Xocalı və Ağdamdır.

Ağdam rayonu Şıxlar kənd orta məktəbinin pedaqoji kollektivi

30.01.92 Azərbaycan Respublikasının prezidentinə

Qarabağda hər gün ermənilərin törətdikləri qanlı cinayətlərə son qoyulması üçün təcili tədbirlər görün! Sizin gözləmə mövqeyiniz bizi son dərəcədə hiddətləndirir.

Quliyev Amil Ağalar oğlu, Əliyev Ayaz Qardaşxan oğlu,

Ağdam rayonunun Əhmədavar kəndi. 13.02.92. Milli Şuraya

Malıbəyli köçürüldü. Xocalı və Şuşaya hücumun başlanmasına bir neçə gün qalan ərəfədə təcili səfərbərlik keçirib tədbir görülməsə, xalq məhv olacaq.

Quliyev Məmməd, Ağdam şəhəri, Vidadi küçəsi

814.02.92. Prezident A. Mütəllibova.

Ermənilər Azərbaycan kəndlərini dağıdır, əhalini qırır, yandırır, onlara qarşı tədbir görülmür, sahibsizlik baş alıb gedir.

Qasımova Aidə, Ağdam şəhəri,

H. Hacıyev küçəsi 24 18.02.92. AXC sədri Ə. Əliyevə,

Milli Şuranın üzvləri T. Qasımova və S. Rüstəmxanlıya

Xocalı alınmaq üzrədir. Aeroportun alınması Əsgəran və Xocalı ermənilərinin birləşməsi deməkdir. Şuşa son günlərini yaşayır, təcili tədbirlər görülməlidir.

Ağdam rayonunun Salahlı kənd orta məktəbinin

10-cu sinif şagirdləri. 18.02.92. "24 saat" xəbərlər proqramına

Dağlıq Qarabağın Azərbaycan kəndləri erməni terrorçuları tərəfindən vəhşicəsinə boşaldılır, respublika rəhbərliyinin ləng hərəkəti bizi həddindən artıq qəzəbləndirir.

Xocalı rayon icra hakimiyyətinin başçısı E. Məmmədov,

rayon prokuroru A. Atakişiyev 25.02.92. Prezident Mütəllibova,

Baş Prokuror M. Babayevə, "24 saat" proqramına, "Xəbərçi" proqramına.

Əziz rəhbərlərimiz! Xocalı rayonu artıq əldən gedir. 25 gündür ki, Xocalıya vertolyot işləmir. Hazırda şəhərdə 7000 nəfər yaşayır. Biz sizdən təxirə salınmaz köməklik gözləyirik. Xocalı şəhərini tərk edən qoltuğu papkalı idarə müdirlərini görsəniz, bizə xəbər verin. Qoy həmin şəxslər öz vicdanları qarşısında cavab versinlər.

Ağayev Yusif, Ağdam şəhəri Nizami küçəsi,

1017.02.92. Moskva Y. Şapoşnikova

366-cı polk azərbaycanlı kəndlərini dağıdır, yandırılmasında iştirak edir. Bu polkun Xankəndindən çıxarılmasını xahiş edirəm.

Belə teleqramların sayı çoxdur. Mütəllibov başda olmaqla Azərbaycan hökuməti xalqın harayını qulaqardına vurur, heç bir tədbir görmürdü. Odur ki, hakimiyyətə inamını tamamilə itirən xalq yeganə və sonuncu ümid yerinə - özünün xilaskar oğluna, o vaxt Naxçıvanda blokadaya alınan, həyatı hər an təhlükəyə məruz qalan Heydər Əliyevə üz tutub kömək diləyirdi. Budur həmin müraciətlərdən bir neçəsi:

İbrahimov Novruz, Mustafayev Tapdıq, Kərimov İlham,

Məmmədov Rais, Ağdam şəhəri Axundov küçəsi ev 1/314.02.92.

Naxçıvan şəhəri, Ali Məclisinin sədri H. Əliyevə

Qarabağ torpağı əldən getmək vəziyyətindədir. Xahiş edirik xalqa təcili kömək edəsiniz.

Mehdiyeva Sevil. 16.02.92. Heydər Əliyevə

Xocalı, Malıbəyli, Meşəli, Quşçular, Kərkicahan qadınları sizdən xahiş edir: Qarabağa gəlin. Yuxarıda göstərdiyimiz kəndlərdən bircə Xocalının nişanəsi qalıb. Hal-hazırda 2500 nəfər qadın, uşaq qalıb Xocalıda. Onların taleyi naməlumdur, necə olacaq?

Baxşəliyev Fazil, Ağdam şəhəri Gözəlov küçəsi 62 18.02.92.

Naxçıvan şəhəri, AH Məclisin sədri H. Əliyevə

Qarabağın kəndlərini bir-birinin ardınca ermənilərə verirlər. İmkan və qüvvəniz çatana qədər Sizin köməyiniz lazımdır.

Babayev Nurəddin, Ağdam şəhəri 20 Yanvar küçəsi 7726.02.92. H. Əliyevə

Rus ordusu ermənilərlə birləşib Qarabağda kəndlərimizi yandırır. Bu gecə Xocalını da qırdılar, şəhəri boşaltdılar. Bizə kömək edin.

Hamıya yaxşı bəllidir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hələ çox-çox əvvəllər Qarabağın müdafiəsi üçün təcili tədbirlərin görülməsini tələb edir, lakin onun haqq səsi hakimiyyət hərislərinin

və onların "dəm tutanlarının" qaraqışqırığı arasında eşidilmirdi. Azərbaycan prezidenti Heydər Əliyev Xocalı faciəsinin 4-cü ildönümü ilə əlaqədar Xocalı sakinlərinin bir qrupu ilə görüşündə demişdir: "Xatirinizdədirsə, o vaxt - 1991-ci ilin fevral ayının əvvəllərində Azərbaycan Respublikası Ali Sovetinin ilk sessiyası başlandı. Mən də Naxçıvandan Ali Sovetə deputat seçilmişdim. Həmin sessiyada mən çıxış etdim və dedim ki, Qarabağ əlimizdən gedibdir. Gəlin yığışaq, danışaq, oturaq məsləhətləşək. Nə etmək lazımdır ki, Qarabağı əlimizdə saxlayaq və əldən getmiş Qarabağı qaytaraq. O vaxt mənim əleyhimə cürbəcür böhtançı çıxışlar başlandı - bunlar xatirinizdədir? - mənim sözümü kəsdilər, yerdən cürbəcür ədəbsiz hərəkətlər etdilər, hətta belə nitqlər də oldu ki, "Siz burada yalan danışırsınız, Azərbaycan rəhbərliyinin əleyhinə iş aparırsınız, siz düz demirsiniz, Azərbaycan rəhbərliyini yıxmaq istəyirsiniz, Qarabağ heç vaxt indiki kimi bizim olmayıbdır".

“525-ci qəzet”.- 2009. 24 fevral №35 (2868) S. 4.

Xocalı faciəsi insanlıq əleyhinə törədilmiş ən ağır cinayətdir. Milli Məclisin deputatı, YAP Laçın rayon təşkilatının sədri Sevindik Hətəmovun www.yap.org.az saytına müsahibəsi

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda 613 azərbaycanlı Ermənistan silahlı qüvvələri tərəfindən qətlə yetirilib.

Öldürülənlərdən 106 nəfəri qadın, 83-ü uşaqdır.
21 uşaq hər iki valideynini itirib.
10 ailə tamamilə məhv edilib.
1275 şəhər sakini girov götürülüb.
150 nəfərin taleyi bu günə qədər məlum deyil.
1000 nəfərdən artıq şəhər sakini əlil olub.
Xocalı ermənilər tərəfindən Yer üzündən silinib.
Xocalılılar respublikanın 53 rayonunda məskunlaşıb.

- Sevindik müəllim, Xocalı soyqırımının 17-ci ildönümü yaxınlaşır. Tariximizin ən qanlı səhifələrindən olan bu hadisə zamanı yüzlərlə insan-qocalar, qadınlar, uşaqlar erməni-rus hərbi birləşmələri tərəfindən qətlə yetirilib. İstərdik ilk olaraq bu sualla başlayaq. Həmin dövrdə Xocalıda nələr baş verirdi?

- Mən Xocalı hadisələrindən danışarkən hesab edirəm ki, bu hadisələri konkret 26 fevralla məhdudlaşdırmaq olmaz. Bu proses hələ ötən əsrin əvvəllərindən başlamış böyük bir erməni "hərəkatının" sadəcə bir həlqəsi idi. Ötən əsrin sonlarında Azərbaycan torpaqları hesabına Ermənistan adlı dövlət yaradan ermənilər əsrin sonlarında əvvəlcə Qorbaçov yenidənqurmasının, sonra isə Sovet imperiyasının dağılması prosesinin onlara verdiyi tarixi şəraitdən məharətlə istifadə edərək, bütün Qafqaz regionu, xüsusən də Azərbaycan üçün ciddi təhlükə mənbəyi olan dənizdən-dənizə "böyük Ermənistan" ideyasının reallaşması yönündə fəaliyyətə başlayıblar. Son deportasiyadan sonra Ermənistanda yaşayan 250 mindən çox azərbaycanlını öz doğma yurdlarından qovan erməni millətçiləri həyata keçirdikləri türksüz Ermənistan siyasəti nəticəsində ümumilikdə milyon yarım azərbaycanlını didərgin salıblar. Bu gün monoetnik dövlətə çevrilən Ermənistan bütün qüvvələrini Dağlıq Qarabağda cəmləşdirərək, terrorçuluq fəaliyyətləri üçün Azərbaycan ərazisini əsas hədəfə çeviriblər. Məhz belə təxribatçı və terror əməllərinin məntiqi nəticəsi olaraq, 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə Sovet ordusu Bakıya yeridilib və erməni daşnaklarının planlaşdırdıqları faciələr zəncirinin ilk halqası olan Azərbaycan tarixinə qanlı Yanvar kimi düşmüş dəhşətli qətliam baş verib. Xarici havadarlarının köməyi ilə silahlanmaqda davam edən erməni quldur dəstələrinin Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərinə hücumları daha intensiv xarakter alıb. Xalqımız 1992-ci ilin fevral ayının 26-da XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımını yaşayıb. Şübhəsiz ki, Xocalı soyqırımı XX əsrin sonlarının ən dəhşətli faciələrindən biridir. Fevral ayının 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri Xankəndində yerləşdirilən keçmiş Sovet İttifaqına məxsus 366-cı alayın köməyi ilə Xocalı şəhərinə hücum edərək dinc əhaliyə amansız divan tutmuşdur. Yerlə yeksan edilən Xocalı şəhərinin 613 nəfəri qətlə yetirilmişdir. Qətlə yetirilənlərin 106 nəfəri qadın, 83 nəfəri isə azyaşlı uşaqdır. 56 nəfər xüsusi amansızlıq və qəddarlıqla qətlə yetirilmişdir. Qanlı faciə zamanı 1000 nəfərdən çox şəhər sakini yaralanmış, şikəst edilmiş, 1275 nəfər isə girov götürülmüşdür. Onların 700 nəfəri hələ də erməni əsirliyindədir. Xocalıda dinc əhaliyə qarşı həyata keçirilən vandalizm və qətllər erməni aqressivliyinin və millətçiliyinin əsl mahiyyətini və iç üzünü bir daha bütün dünyaya nümayiş etdirdi. Bu faciə insanlıq əleyhinə törədilmiş ən ağır cinayətlər sırasındadır.

- Dağlıq Qarabağ döyüşləri zamanı digər rayonlarda da böyük itkilər vermişdik. Amma ən dəhşətlisi Xocalıda olmuşdu...

- Bilirsiniz ki, Xocalı çox strateji bir ərazidə yerləşirdi. Çünki Bakıdan Xankəndinə, həmçinin, Ermənistana gedən magistral yollar Xocalıdan keçirdi. Bundan əlavə, Qarabağda yeganə aeroport da bu şəhərdə idi. Təbii ki, belə bir strateji məkanı ələ keçirmək ermənilər üçün olduqca vacib idi. Ona görə də hələ Xocalı hadisələrinə qədər aeroportdan ermənilər gizlincə silah-sursat aparıb-gətirirdilər. Təbii ki, bu işdə də onlara rus hərbçiləri kömək edirdi. Eyni zamanda, Xocalı dörd tərəfdən erməni kəndlərinin əhatəsində idi. Ağdamla yol əlaqəsi olsa da, sonradan bu yol da ermənilər tərəfindən bağlandı. Son dörd ayda isə yalnız vertolyotla gediş-gəliş oldu, amma bu əlaqə də çox çətin idi. Respublika rəhbərliyi isə mühasirədə olan şəhərə yetərincə kömək etmirdi.

- Xocalıda yerli camaat döyüşürdümü, yoxsa şəhərin müdafiəsi yalnız müəyyən hərbi qruplaşmaların öhdəsinə düşmüşdü?

- Xocalı camaatı haqqında da həmişə yüksək fikirdə olmuşuq. Bu camaat çox döyüşkən idi. Bəzən hücumlar, atışma olanda kimdəsə ov tüfəngi olsaydı ordumuza kömək edərdilər. Ancaq Xocalı sakinləri çox zaman silahlarını gizlətməyə məcbur olurdular. Çünki ruslar xəbər tutan kimi həmin silahları onlardan alırdılar.

- Xocalının işğal edilməsində, insanların qırğına məruz qalmasında ermənilərə havadarlıq edən xarici hərbi birləşmələrin nə qədər rolu olub? Belə bir şəraitdə şəhərin qorunması vəziyyəti necə idi?

- Həmin vaxtlar Dağlıq Qarabağda rus hərbi birləşmələri var idi. Onların sırasında xocalılıların qətliamında iştirak edən 366-cı motoatıcı alayın adını çəkmək olar. Azərbaycanda isə silahlı qüvvələr 1991-ci ildən formalaşmağa başlayırdı. Özünümüdafiə dəstələri adlandırılan bu hərbi qüvvələr pərakəndə şəkildə hərəkət edirdi. Ağdam ərazisində Uzundərə deyilən hərbi hissə var idi. Həmin ərazidə 20-yə yaxın döyüş batalyonu yerləşirdi. Ancaq onlar Müdafiə Nazirliyinin batalyonu kimi yox, konkret şəxslərin, məsələn, Yaqubun, Asifin və digərlərinin batalyonu kimi tanınırdılar. Açığını deyim ki, onların arasında da bir-birilərinə qarşı münasibət kəskin idi. Yəni bir-biriləri ilə yola getmirdilər. Bu da ermənilər üçün geniş imkanlar açırdı. Hərbi dəstələrin silahı da az idi. Müəyyən vaxtlarda OMON-çular da olub, lakin onlar sonradan Xocalıdan çıxarıldı. Sona qədər isə Milli Qəhrəman Adil Quliyevin 20 nəfərə yaxın dəstəsi qaldı. Onların da böyük hissəsi Xocalıda şəhid oldu. Vahid komandanlıq olmadığı üçün Xocalıda baş verən faciənin qarşısını almaq üçün lazımi tədbirlər görülmədi. Hərbi dəstələr kor-koranə döyüşlərə gedirdi. Bir dəstə deyirdi ki, üç gündən sonra döyüşə gedəcəm, o biri isə iki gün sonra döyüşə gedəcəyini açıq-aşkar bildirirdi. Təbii ki, bütün bunlardan ermənilərin xəbəri olurdu və hücumların qarşısını alırdılar. Nəticədə, hərbi dəstələrimiz ağır itkilər verirdi. Hətta yadımdadır ki, Xocalıda qırğından canını qurtarmış insanların soyuq havada yuxarıda dediyim hərbi hissənin ərazisində müvəqqəti sığınmasına imkan verilmədi.

- Artıq Xocalı faciəsindən 17 il ötür. Erməni vəhşiliyinin dünya ictimaiyyətinə çatdırılması üçün görülən işləri necə qiymətləndirirsiniz?

- Əgər ötən illərdə Xocalı soyqırımı yalnız KİV-lər vasitəsilə işıqlandırılırdısa, hazırda dünya ölkələrində soyqırımı ilə əlaqədar aksiyalar keçirilir. Bu da Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında mühüm rol oynayır. Xocalı soyqırımı ilə bağlı hazırda bir çox dünya ölkələrində tədbirlər keçirilir. ABŞ kimi dünyanın nəhəng dövlətində artıq "Xocalı həftəsi" başlayıb və Milli Məclisin üzvləri tədbirlərdə iştirak edirlər. Bu prosesdə hökumət nümayəndələri ilə yanaşı, diaspor təşkilatlarımız xüsusi fəallıq göstərir. Dövlətimizin onlara dəstəyi və birgə fəaliyyət öz səmərəsini verməkdədir. Mütəşəkkil şəkildə təşkil olunan tədbirlər artıq dünya xalqlarına ermənilərin nə kimi qətliam törətdiklərini göstərir. Təbii ki, bütün bunlar dünya ictimaiyyətinin rəyinə müəyyən təsir göstərməkdədir. Ancaq qarşıda hələ böyük vəzifələr durur. Xocalı soyqırımını törədənlər məhkəmə qarşısında cavab verməlidirlər. Bunun üçün Respublika Prokurorluğu tərəfindən istintaq aparılıb, cinayətkarlar da məlumdur. Əsirlikdə olmuş Xocalı sakinləri öz ifadələrində bildiriblər ki, onlara qarşı işgəncələrdə bu gün Ermənistanda hakimiyyət başında olan qüvvələr iştirak ediblər. Eyni zamanda, Xocalı hadisəsinin soyqırımı kimi tanınması istiqamətində də işlər davam etdirilməlidir. Sizin də bildiyiniz kimi, bu günlərdə hökumət təmsilçiləri Xocalıda baş verənlərlə bağlı Haaqa tribunalına müraciət olunacağını deyib. Təbii ki, bu böyük bir addım ola bilər.

"İki sahil".-2009.-24 fevral.-N.36.-S.10

İzmirdə "Qafqazda aktual mövzular" konfransında Xocalı soyqırımı qurbanlarının xatirəsi anılmışdır

Ankara, 24 fevral (AzərTAc). Türkiyənin İzmir şəhərindəki Doqquz Sentyabr Universitetində Azərbaycanın baş konsulluğu, Dünya Azərbaycanlıları Konqresi (DAK) və universitetin təşkil etdiyi "Qafqazda aktual mövzular" konfransında əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla anılmışdır. Baş konsul Səyyad Aran konfransdakı çıxışında bildirmişdir ki, əsrlər boyu xaricdəki havadarlarının dəstəyi ilə Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasəti aparan və dəhşətli qətliamlar törətmiş ermənilər Xocalı şəhərində XX əsrin ən böyük faciələrindən birini törətmişlər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə bir neçə istiqamətdən Xocalı şəhərinə girmiş erməni vəhşiləri dinc sakinlərə qanlı divan tutublar. 613 nəfər dinc azərbaycanlı, o cümlədən uşaqlar, qadınlar, qocalar işgəncə ilə öldürülmüşdür. 8 ailə bütünlüklə məhv edilmiş, 1275 sakin - qocalar, uşaqlar, qadınlar girov götürülərək ağlasığmaz təhqirlərə, zülmə və həqarətə məruz qalmışlar. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyildir. Azğınlaşmış cəlladlar öldürülmüş insanların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, adamları diri-diri torpağa basdırmış və ya yandırmış, cəsədlərin bir qismini minalamışlar. Xocalı faciəsi son yüz ildən artıq dövrdə ifrat erməni millətçilərinin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı və etnik təmizləmə siyasətinin yeni bir qanlı səhifəsi olmuşdur.

Türkiyə Beynəlxalq Əlaqələr və Strateji Araşdırmalar Mərkəzinin (TÜRKSAM) sədri Sinan Oğan bildirmişdir ki, ermənilər 17 il əvvəl Xocalıda vəhşi qətliam törətmişlər, lakin Türkiyə parlamenti bu günədək bununla bağlı heç bir qərar qəbul etməmişdir. Sinan Oğan daha sonra demişdir ki, Türkiyənin Ermənistanla əlaqələrini normallaşdırmaq cəhdləri də heç bir nəticə verməyəcəkdir. Ən qəribəsi budur ki, Ermənistan bu səylərin qarşılığında heş bir addım atmır. Əksinə, ermənilər qondarma "soyqırımı" iddialarından vaz keçməyəcəklərini bəyan edirlər.

Doqquz Sentyabr Universitetinin kafedra müdiri dosent Kamal Arı, Avrasiya Strateji Araşdırmalar Mərkəzinin eksperti Arif Kəskin də Xocalı soyqırımının insanlığa qarşı ən ağır cinayət olduğunu, ermənilərin bu vəhşiliyinin bütün dünyada pislənilməsinin zəruriliyini söyləmişlər.

Konfrans iştirakçılarına Heydər Əliyev Fondunun soyqırımı ilə bağlı hazırladığı CD-lər, fotolar, ədəbiyyat, bröşürlər, "Xocalı və onun dəhşətləri" bukletləri paylanmışdır.

Oqtay Bayramov
AzərTAc-ın xüsusi müxbiri
Ankara
24 fevral 2009-cu il

Xocalı soyqırımı ermənilərin türk dünyasına qarşı törətdikləri cinayətlərin ən dəhşətlisidir

Bakı, 25 fevral (AzərTAc). Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, İstanbul Beynəlxalq Qardaşlıq və Yardımlaşma Dərnəyi beynəlxalq humanitar təşkilatının Azərbaycandakı Nümayəndəliyi və Azərbaycan Qızıl Aypara Cəmiyyəti Xocalı soyqırımının ildönümü ilə əlaqədar anma mərasimi keçirmişlər.

"Xocalı qan yaddaşımızdır" devizi altında təşkil olunmuş tədbirdə Xocalıdan olan şəhid ailələri, Milli Məclisin deputatları, müxtəlif dövlət qurumlarının nümayəndələri, Azərbaycanda və Türkiyədə fəaliyyət göstərən bir sıra ictimai təşkilatların təmsilçiləri, jurnalistlər iştirak etmişlər.

Əvvəlcə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, Azərbaycan və Türkiyənin himnləri səsləndirilmişdir.

Baş nazirin müavini, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının, Dövlətqaçqınkomun sədri Əli Həsənov, Türkiyənin Bakıdakı səfirinin birinci müavini Erkan Özoral, Milli Məclisin deputatları - Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruz Aslanov və Elman Məmmədov, Xocalı Rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov, Nümayəndəliyin baş məsləhətçisi Ahmet Tecim, gənclər və idman nazirinin müavini İntiqam Babayev, Prezidentin İcra Aparatının məsul əməkdaşı Rasim Mirzəyev çıxış etmişlər.

Natiqlər Xocalı faciəsini ermənilərin son iki yüz il ərzində azərbaycanlılara qarşı törətdikləri cinayətlərin ən dəhşətlisi, bütün türk dünyasına qarşı terror aktı adlandırmışlar. Xatırlatmışlar ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının köməyi ilə bu qədim Azərbaycan şəhərində 613 nəfər dinc sakini qətlə yetirmişlər. 487 nəfər yaralanmış, 1275 xocalılı əsir, 155 nəfər isə itkin düşmüşdür. Xocalıda ermənilər faşistlərdən də qəddar hərəkət etmiş, bir gecədə bütöv bir şəhəri yer üzündən silmişlər.

Xüsusi vurğulanmışdır ki, ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Xocalı soyqırımı barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün çox iş görülmüşdür. Hazırda bu iş prezident İlham Əliyev tərəfindən davam etdirilir. 2009-cu il Azərbaycanda və Türkiyədə Xocalı ili elan olunmuşdur. Bu çərçivədə tədbirlərin keçirilməsində və ümumiyyətlə, faciə ilə bağlı fotoşəkillərin, sənədlərin, kitab və albomların hazırlanması və dünyada yayılmasında Heydər Əliyev Fondunun müstəsna rolu vardır. Çıxış edənlər bildirmişlər ki, Xocalı soyqırımı qurbanlarının xatirəsi heç vaxt unudulmayacaq, XX əsrin bu dəhşətli faciəsi barədə həqiqətlər gələcək nəsillərə çatdırılmalı, dünyada daha geniş yayılmalıdır. Mərasimin sonunda 150 şəhid ailəsinə ərzaq bağlamaları verilmişdir.

AzərTAc
25 fevral 2009-cu il

Xocalı soyqırımı insanlığa qarşı cinayətdir

Azərbaycan xalqının ümummilli lideri, dahi öndər Heydər Əliyevin dediyi kimi, dünya xalqlarının tarixinə, insanlığın tarixinə kütləvi terror aktı kimi daxil olan Xocalı soyqırımı "təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı cinayətdir və bəşərtarixində qara ləkə kimi qalacaqdır". Faciənin onuncu ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində respublika Prezidenti Heydər Əliyev demişdi: "Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırım siyasətinin davamıdır və ən qanlı səhifəsidir". Xocalı soyqırımı təcavüzkar erməni başkəsənlərinin və erməni millətçi şovinistlərinin Azərbaycan xalqına qarşı həyata keçirdikləri növbəti qanlı aksiyası olmaqla, etnik təmizləmə siyasətinin növbəti cinayəti idi.

İyirminci yüzilliyin ən qəddar və amansız cinayətlərindən biri olan Xocalı faciəsi bəşər tarixində analoqu olmayan dəhşətli soyqırımı idi. Erməni cəlladları tərəfindən törədilən Xocalı soyqırımı bəşər övladına qarşı, azəri türklərinə qarşı ağla gətiriləsi mümkün olmayan ən qanlı cinayət aksiyası idi. XX əsrin ən dəhşətli faciələrindən hesab olunan Xatın, Xirosima, Naqasaki, Sonqmi kimi insan fəlakətləri və kütləvi insan qırğınları sırasına 1992-ci il fevralın 26-da törədilmiş Xocalı soyqırımı da əlavə edildi. 26 fevral günü XX əsrin ən böyük insan faciələrindən biri oldu. Azərbaycanın Milli Məclisinin qərarı ilə 26 fevral "Xocalı soyqırımı (genosidi) və "Milli Matəm günü" elan olunmuşdur. Respublika Prezidenti Heydər Əliyevin sərəncamına əsasən hər il fevralın 26-da saat 17:00-da Xocalı qurbanlarının əbədi xatirəsi ölkəmizin ərazisində dərin üzüntü və sükut dəqiqəsi ilə qeyd edilir. Azərbaycan xalqı hər ilin bu gününü dərin hüzn və kədər içində keçirir, günahsız şəhidlərimizin ruhu və xatirəsi hörmət və ehtiramla yad edilir.

Xocalı soyqırımına doğru gedən yolun mürəkkəb siyasi, hərbi və sosial-iqtisadi kökləri və səbəbləri vardır. Aparılan tədqiqatların və mövcud tarixi ədəbiyyatın araşdırılması nəticəsində məlum olmuş-dur ki, erməni hərbçiləri müxtəlif yollarla keçmiş sovet ordusunun hərbi texnikasını və silahını ələ keçirmiş və Xocalı qətliamı ərəfəsində xeyli hərbi sursata sahib ola bilmişdi. Məlumdur ki, SSRİ-nin süqutundan sonra Xankəndidə yerləşən 366-cı motoatıcı alayın hərbi texnikası hələ də qalırdı. Bunu da ermənilər bilirdilər. Erməni siyasətçiləri əvvəlcədən silah-sursatı və həm də həmin silahların "dilini" bilən rus hərbçilərini gah pulla, gah rüşvətlə, gah oğurlamaq yolu ilə və gah da müxtəlif hiylələrlə ələ alırdılar. 366-cı alayın 13-cü və 53-cü hərbi qulluqçularının ermənilərlə bir milyon manatlıq alver etmələri barədə faktlar vardır. Bundan başqa, ermənilər 1990-1992-ci illərdə Zaqafqaziya Hərbi Dairəsinin silah anbarına bir neçə dəfə hücum etmiş və çoxlu silahlar ələ keçirmişdilər. Deyilənlərdən əlavə erməni hərbçiləri ilə sovet-rus hərbçiləri arasında silah alveri ilə razılaşmalar da olmuşdur. Bu barədə xeyli faktlar vardır.

Beləliklə, qısa müddətdə Xankəndidə və Dağlıq Qarabağ ərazisində olan erməni hərbçiləri ən müasir silahlarla silahlanmış, güclü hərbi texnikaya sahib ola bilmişdilər. Baş verən bütün bu hadisələrdən isə o zamankı Azərbaycan rəhbərliyinin məlumatı olsa da ancaq heç bir operativ tədbir görmürdü. Belə bir vaxtda isə Azərbaycanda siyasi, iqtisadi və hərbi böhran xeyli dərinləşmişdi. Azərbaycan rəhbərliyi ermənilərin güclü hərbi hazırlığına qarşı vahid və qüdrətli milli ordu yaratmaq əvəzinə loyal və riyakar mövqe nümayiş etdirir, xalqı fitnələrə uymamağa sövq edir, yalançı informasiya ilə diqqəti əsas məsələlərdən yayındırırdı.

Xocalı soyqırımı ilə əlaqədar Heydər Əliyevin Azərbaycan xalqına müraciətində deyilir: "... o zaman respublikaya rəhbərlik edən şəxslər şəhərin müdafiəsinə təcili kömək göstərmək, faciə barədə dünya ictimaiyyətinə geniş məlumat vermək əvəzinə, Xocalı dəhşətlərinin həqiqi miqyasını xalqdan gizlətməyə cəhd etmiş, tam fəaliyyətsizlik və xalqın taleyinə biganəlik nümayiş etdirmişlər".

1991-ci ilin axırlarında Ermənistan ilə Rusiya Federasiyası arasında "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə" imzalandı. Müqavilədən sonra ermənilərə çoxlu silahın ötürülməsinə beynəlxalq ictimaiyyət göz yumdu və bundan istifadə edən erməni millətçi-şovinistləri daha da azğınlaşdılar və intensiv hücumlarını gücləndirdilər. Ermənilərin müasir silahlarla silahlandırılması bölgədə qüvvələr nisbətini kəskin şəkildə dəyişdirdi və erməni-rus hərbçilərinin güc potensialını xeyli artırdı. 1991-ci ilin sonu 1992-ci ilin əvvəllərində isə Azərbaycanın ayrı-ayrı bölgələrində özünümüdafiə taburları yaranırdı. Belə taburların isə lazımi döyüş qabiliyyəti, təcrübəsi yox idi. Yaxşı təlim görmüş düşmənlə lazımi səviyyədə vuruşa bilmirdi və buna görə də çox vaxt məğlubiyyətə uğrayırdı. Azərbaycanda güclü ordu və vahid komandanlığın olmaması ağır və faciəli nəticələrə səbəb oldu. Ayrı-ayrı könüllü hərbi birləşmələrimiz isə düşmənin hərbi texnika ilə güclü hücumlarına duruş gətirə bilmir, cəbhə bölgələrində ağır məğlubiyyətlərə uğrayır və bir-birinin ardınca kəndlərimiz və strateji məntəqələrimiz ermənilər tərəfindən işğal olunurdu. 1991-ci ilin oktyabrından 1992-ci ilin yanvarınadək Xocalı rayonunun Cəmilli, Meşəli kəndləri, Xankəndi şəhərinin Kərkicahan qəsəbəsi, Ağdam rayonunun Qərvənd kəndi, Xocavənd rayonunun Xocavənd və Tuğ kəndləri, keçmiş Hadrut rayonunun Axullu,

Salakətin kəndləri, Goranboy rayonunun Ballıqaya və Başqışlaq kəndləri ermənilər tərəfindən işğal edilmiş, yandırılmış və məhv edilmişdi.

1992-ci il yanvarın 25-26-da uğursuz Daşaltı əməliyyatı göstərdi ki, Azərbaycan ordusunda vahid komandanlıq yoxdur, hətta xainlər də vardır, bəzi daxili satqınlar düşmən tərəfə informasiyalar ötürür.

Erməni silahlı qüvvələri Azərbaycanda düşmənə qarşı müqavimət göstərə bilən güclü ordunun olmadığını bilərək çox böyük sürətlə torpaqlarımızı, kəndlərimizi və strateji əhəmiyyətli məntəqələri işğal edir, Xocalıya doğru lap yaxınlaşmışdılar. Xocalı faciəsi ərəfəsində ermənilər Qaradağlı, Əmirallar, Umudlu, Malıbəyli və Quşçular kəndlərini mühasirəyə almışdılar. Ermənilər hərbi üstünlüklərindən istifadə edərək Xocalıya doğru sürətlə irəliləyirdilər.

Xocalı şəhəri Dağlıq Qarabağın böyük şəhərlərindən biri, Şuşa şəhərinin strateji məntəqəsi, Xankəndinə gedən yolun açarı idi. Hərbi və mülki aeroport, Dağlıq Qarabağın hava limanı burada yerləşirdi. Xankəndinə təyyarə ilə gələnlər Xocalı aeroportunda enməli idi. Xocalı Azərbaycan xalqının qədim yaşayış mərkəzlərindəndir. Xocalı çox böyük strateji əhəmiyyətə malik yaşayış məntəqəsi idi və 1991-ci ildə şəhər statusu almışdı. Son vaxtlarda şəhərdə böyük tikinti-quraşdırma və abadlaşdırma işləri gedirdi. 7 min əhalisi (digər faktlara görə 9 min əhalisi), 3 min hektardan çox əkin sahəsi, çoxlu məktəbi və mədəniyyət evləri vardı.

Ermənilərin Xocalı istiqamətində hücumları intensiv xarakter almasına baxmayaraq, o zamankı Azərbaycan rəhbərliyi heç bir müdafiə və ya hazırlıq tədbirləri görmürdü. Ancaq Xocalı əhalisi özləri üçün müəyyən müdafiə tədbirləri görürdülər. Belə ki, yerli əhalidən ibarət könüllü və özünümüdafiə dəstələr yaradılırdı. Tofiq Hüseynovun komandanlığı ilə 100 nəfərdən ibarət qeyrətli gənclər müxtəlif yerlərdə müdafiə istehkamlarında qərar tutmuşdular. Bundan başqa, 60 nəfərdən ibarət polis bölməsi yaradıldı. Xalqımızın qeyrətli oğlu, polis mayoru Əlif Hacıyevin rəhbərliyi ilə yaradılan 29 nəfərdən ibarət kiçik bir dəstə erməni hərbçilərinə lazımi və tutarlı zərbələr endirirdi. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Əlif Hacıyev Xocalı hava limanının komendantı təyin ediləndən sonra (1990-noyabr) ermənilərə hava yolu ilə silah daşınması qeyri-mümkün oldu. Əlif Hacıyev erməni quldurlarının hücumlarına da əsas hədəf idi. Ancaq Əlif Hacıyev sözün əsl mənasında xalqımızın vicdanlı və qəhrəman övladı idi, son nəfəsinə qədər yağı düşmənlə igid və cəsur bir insan kimi döyüşdü və qəhrəmancasına həlak oldu. Allah rəhmət eləsin!

Erməni hərbçiləri və erməni işbazları Xocalıya qarşı hücuma hazırlaşarkən özlərindən əlavə beynəlxalq aləmdə tanı-nan quldur terrorçu dəstələrdən də geniş istifadə etmişdilər. Belə ki, ermənilər Fransada, Vyanada, Suriyada, Livanda, Rusiyada və başqa yerlərdə fəaliyyət göstərən terrorçu daşnakları və muzdlu qatilləri döyüşlərə cəlb etmişdilər ki, onlar da qanlı əməlləri ilə xocalılılara qarşı qanlı cinayətlər törətmişlər.

Xocalıya hücum ərəfəsində ermənilər ordu, texnika, müasir silah və canlı qüvvə cəhətdən xeyli üstünlüyə malik idilər. Eyni zamanda erməni hərbçiləri çox yaxşı bilirdilər ki, ayrı-ayrı könüllü özünümüdafiə Azərbaycan hərbi birləşmələri düşmənə müqavimət göstərmək zorunda deyil. Hərbi-texniki üstünlüklərinə arxayın olan ermənilər 1992-ci il fevralın 12-də, 13-də və 19-da Xocalıya hücumlar etdilər. Kim bilir, bəlkə də bu hücumlar kəşfiyyat xarakterli idi. Çünki bəşər tarixində çox vaxt böyük və güclü hücumlar ərəfəsində ilk kəşfiyyat xarakterli hücumlar olmuşdu. Qarşı tərəfin hərbi cəhətdən zəif olduğunu bilən düşmən 1992-ci il fevralın 25-dən 26-na keçən gecə çox böyük hərbi qüvvə ilə, müasir silahlarla, güclü döyüş texnikası ilə bütün istiqamətlərdə Xocalı şəhərinə hücum etdi. Bu hücumda erməni hərbçilərilə yanaşı 366-cı rus hərbi alayının qüvvələri, muzdlu qatillər, mindən artıq silahlı quldurlar, Ermənistan silahlı qüvvələri, Dağlıq Qarabağın erməni bölmələri, xaricdən gətirilən və pulla ələ alınan muzdlu qatillər və terrorçu dəstələr iştirak edirdi. Göründüyü kimi, təpədən-dırnağa qədər silahlanmış erməni hərbçiləri hər cəhətdən çox böyük üstünlüyə malik idilər.

Yeri gəlmişkən bir mühüm məsələni qeyd etmək lazımdır: tarixçi alimlərin son tədqiqatlarından aydın olmuşdur ki, ermənilərlə əlbirolan, düşmən hərbçilərinə hər vasitə ilə kömək edən, Xocalı faciəsinin ən fəal və əsas icraçısı olan, 366-cı motoatıcı alayın komandiri polkovnik Zaviqarova 1992-ci il fevralın 24-də general rütbəsi verilmişdi. Zaviqarov əslində rus zabitinin şərəf və ləyaqətini tapdalamış, ermənilərə silahla təmin və təchiz etmiş, digər tərəfdən isə alayın əsgərləri qarşısında antiazərbaycan ruhlu çıxışlar edərək erməni hərbçilərini milli, dini hücumlara təhrik etmişdir. Bu baxımdan Zaviqarovun günahları daha böyükdür. 366-cı alayın əks-kəşfiyyat şöbəsinin rəisi Rusiya Federasiyası Baş Kəşfiyyat İdarəsinin polkovniki Vladimir Savelyev Kremlə və Baş Kəşfiyyat İdarəsinə yazdığı məktubda soyqırımda iştirak edən 19 nəfər yük-sək rütbəli zabitin və 41 nəfər milliyyətcə erməni olan kiçik rütbəli şəxslərin adlarını göstərmişdir. Ermənilər hətta Zaviqarova 36 min ABŞ dolları "hədiyyə" vermişdilər. Bunu bilən ordu komandanlığı Zaviqarovu "zabit şərəfinə xəyanət" üstündə ordudan qovulmasını tələb etmişdir.

Tarixi cinayətləri açmağa vicdanı məcbur edən V.Savelyev sonradan mərkəzə verdiyi gizli sənəddə yazırdı: "...Mən bütün bunları yazmaya bilmərəm... Hər şey gözlərim önündə baş verib. İnsanların, uşaqların, hamilə qadınların kəsilmiş bədənlərini unuda bilmirəm... Biz rusların zabit şərəfi görün necə ləkələndi...". Bəli, bu soyqırımda iştirak edən komandirlər-dən birinin acı etirafı idi.

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə azğınlaşmış erməni silahlı cəlladları keçmiş SSRİ-yə məxsus olan, o dövrdə Xankəndidə yerləşən və tərkibi erməni zabitlərindən və praporşiklərin-dən ibarət olan 366-cı motoatıcı alayının iştirakı ilə 7 min nəfər əhalisi olan Xocalı şəhərinə 3 istiqamətdən güclü hücum etdilər və dəhşətli cinayət aktı törətdilər. Vəhşiləşmiş erməni cinayətkarları Xocalı şəhərini yerlə-yeksan etdilər, yüzlərlə köməksiz və günahsız insanları amansızcasına qətlə yetirdilər, uşaqlara, qocalara, hamilə qadınlara belə aman vermədilər, dinc mülki əhalini ucdantutma qırdılar, şəhəri yandırdılar.

Ermənilər öz alçaq və yaramaz hərəkətləri və qanlı cinayətləri ilə bəşər tarixində növbəti cinayət aksiyasını—Xocalı soyqırımını törətdilər. Xocalı müsibəti ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi genosiddir—soyqırımıdır. Cinayətkar erməni hərbi quldurlarının vəhşiliyi nəticəsində 613 nəfər Xocalı sakini şəhid oldu, 1275 nəfər dinc sakin əsir götürüldü, 487 nəfər şikəst oldu. Şəhid olanların 106 nəfəri qadın, 83 nəfəri isə azyaşlı uşaqlar idi. Şikəst olanların 76 nəfəri yetkinlik yaşına çatmamış oğlanlar və qızlar idi.

Ermənilərin törətdiyi bu cinayətdə 56 nəfər xüsusi qəddarlıqla və amansızlıqla diri-diri yandırılmış, başlarının dərisi soyulmuş, başları kəsilmiş, gözləri çıxarılmış, hamilə qadınların qarnı süngü ilə deşik-deşik edilmişdir. Meyitlər üzərində dilə gətiriləsi mümkün olmayan təhqiramiz həqarətlər edilmişdir. Bu qeyri-insani əməllər XX əsrin sonunda dünyanın gözü qarşısında özünü dünyaya "mədəni" və "məzlum" xalq kimi tanıtmağa çalışan erməni quldurları tərəfindən törədilmişdir.

Ermənilər özlərinin məkrli və cinayət-kar planlarını həyata keçirmək üçün əvvəlcədən ciddi hazırlıq işləri görmüşdülər. Daşnakların bu avantürist planı "böyük Ermənistan" yaratmağın tərkib hissəsi idi. Bu məqsədlə ermənilər müasir silahlarla təmin olunmuş 366-cı alayın hərbi texnikasından və canlı qüvvəsindən istifadə etmək üçün lazımi hazırlıq işlərini görmüşdülər. Bundan əlavə, 366-cı alayın nəzdində "klukin erməni cəbhəsi" deyilən "rota" yaradılmışdı. Bu "rota"nın özəyini Livan, Amerika, Kanada, İran, İsveç və Hollandiyadakı erməni icmalarını təmsil edən, beyinlərinə zəhərli təbliğat yeridilən, "böyük Ermənistan" xəritəsini başı üstündə saxlayan manqurt erməni quldur birləşmələri təşkil edirdi. 1988-ci il fevralın 17-də qızlar-dan ibarət "Şuşanik" adlı erməni snayperçilər dəstəsi həmin birləşməyə qoşuldu. Düşüncələrinə türk düşmənçiliyi hopdurulan, insan idrakından uzaq olan "Şuşanik" snayperçiləri Livandan gətirilmiş muzdlu qatillər idi. "Klukin erməni cəbhəsi"nə quldur, cani Xaçik Vartanyan rəhbərlik edirdi.

Xocalı soyqırımını ilk dəfə lentə alan cəsur və igid jurnalist Çingiz Mustafayev olmuşdur. Acı göz yaşları ilə faciəli olayı kameraya çəkərkən kamerası da ermənilər tərəfindən "yaralanmışdı". Çingiz Mustafayev bu qanlı olayı belə xatırlayırdı: "İlk dəfə fevralın 28-də iki hərbi vertolyotun müşayiəti ilə hadisə yerinə gəl-dik. Havadan gördük ki, bütün bir sahə insan meyitləri ilə doludur. Təyyarəçilər vertolyotu yerə endirməyə qorxurdular. Çünki həmin ərazi artıq ermənilərin nəzarəti altında idi. Buna baxmayaraq, biz vertolyotdan çıxdıq və bu zaman güclü atəşə məruz qaldıq. Bizimlə olan milis əməkdaşları meyitləri vertolyota götürməli idilər ki, onların qohumlarına veril-sin. Gördüyümüz vəziyyətdən şoka düşdük. İki nəfər isə huşunu itirmişdi. Martın 2-də xarici jurnalistlərlə hadisə yerinə gəlmişdik. O zaman meyitlər dəhşətli hala salınmışdı. Bir neçə sutka ərzində onların üzərində təhqiredici hərəkətlər edilmişdi".

İnsanı dəhşətə gətirən bu açıqlama, soyqırımı ilk dəfə lentə alan Çingiz Mustafayevin fikirləridir. Erməni dəhşətlərindən, vandalizmdən yaxa qurtarmaq üçün üzü Ağdama tərəf qaçan, əliyalın əhali vəhşicəsinə güllələrə tuş gəlmişdi. Ahıllara, körpələrə belə aman verilməyib. İnsanları bir-birlərinə bağlayaraq, üzərilərinə neft tökərək yandırıb, uşaqları diri-diri süngüyə keçirən qaniçən erməni quldurları faşistlərin törətdiklərin-dən betər faciəni bəşəriyyətə "bəxş etdilər". Qətlə yetirilənlərin cəsədləri üzərində vəhşicəsinə davranaraq dilə gətiriləsi mümkün olmayan əməliyyatlar aparmışlar.

XX yüzilliyin əvvəllərində olduğu kimi, əsrin sonunda da Azərbaycan xalqının başına gətirilən belə qanlı faciələr bir da-ha onu göstərir ki, erməni cəlladları özlərinin avantürist planlarını həyata keçirmək üçün cinayət aksiyasını həyata keçirməyə əlverişli bir məqam axtarır və dərhal onu həyata keçirir.

Bütünlükdə Azərbaycan xalqının məhvinə yönəldilmiş Xocalı müsibəti erməni millətçilərinin məqsədyönlü soyqırımı siyasətinin davamıdır. Etnik təmizləmə siyasəti aparan erməni millətçi-şovinistləri zaman-zaman azəri türklərinə qarşı amansız olmuş, dəhşətli qırğınlar törədərək bu torpaqları ələ keçirməyə çalışmış, "böyük Ermənistan" yaratmağa cəhdlər etmişlər. Ermənistanda yaşayan azərbaycanlıları tamamilə və zorakılıqla didərgin salandan sonra Azərbaycan torpaqlarının işğalına başlayan ermənilər ərazimizin 20 faizini zəbt etdilər, 1 milyon 200 mindən çox həmyerlilərimizi məcburi qaçqına, köçkünə və didərginə çevirdilər.

Xocalı faciəsi Azərbaycan xalqının qan yaddaşına həkk olan acı bir kədər, dərin bir üzüntüdür. Xocalı faciəsini Azərbaycan xalqının qan yaddaşı olduğunu dəfələrlə bəyan edən ümummilli lider Heydər Əliyev hadisələrə beynəlxalq aləmdə əsl hüquqi-siyasi qiymət verilməsinin zəruriliyini vurğulamış, Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılmasına xüsusi səy göstərmişdir. Xocalı faciəsinin xalqımız üçün dərin kədər və böyük dərd olmasını deməklə ya-naşı, eyni zamanda xalqımızın bu kədər içərisində özünün azadlıq və müstəqillik uğrunda qətiyyətli mübarizə yolunun möhkəm və uğurlu sonluğunu da göstərmişdir. Hər il Xocalı soyqırımının ildönümü ilə bağlı keçirilən tədbirlərdə çıxışlar etmiş və bu çıxışlarında hər hansı bir faciənin

Azərbaycan xalqının iradəsini qıra bilmədiklərini bildirmişdir. Hələ 1995-ci ildə Xocalı soyqırımının 3-cü il-dönümü zamanı Heydər Əliyev demişdir: "...Biz kədər içindəyik, qəm içindəyik, üç ildir ki, qəm-dərd çəkirik. Xocalı faciəsinin nə qədər dəhşətli faciə olduğunu və Azərbaycan xalqına nə qədər böyük zərbə vurduğunu bir daha dərk edirik... Xalqımız çoxəsrlik tarixində belə bəlalardan çox keçibdir. Ancaq heç vaxt başımızı aşağı salmamalıyıq., gücümüzü toplamalıyıq. Azərbaycan xalqının haqq işi qələbə çalacaq. Azərbaycan xalqı bütün ərazisinin sahibi olacaq, müstəqilliyini bərqərar edəcək..."

Xocalıda baş verən qanlı hadisələri təhqiq etmək üçün yaradılmış istintaq qrupu 181 nəfərin cəsədini məhkəmə-tibbi ekspertiza etmişdir. Məlum olmuş-dur ki, ölənlərin əksəriyyəti yaxın məsafədən güllələnmiş, əsasən baş nahiyə-sindən vurulmuş, 2 yaşından 15 yaşınadək uşaqları, qadınları güllələmişlər. Meyitlərin başı, qulaqları kəsilmiş, gözləri çıxarılmış, kəllələri dağıdılmış, başlarının dərisi soyulmuş, qadınlara təcavüz edilmiş, bir çox meyitlər eybəcər və tanınmaz hala salınmışdır. Erməni vəhşilərinin belə vandalizm hərəkətləri bəşər övladına qarşı qanlı cinayət aksiyası idi. Erməni qəsbkarlarının Xocalı şəhərini və Xocalı əhalisini ucdantutma məhv etməsi ABŞ administrasiyası tərəfindən "İlin böyük faciəsi" kimi qiymətləndirilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Xocalı faciəsinin kədərli ildönümü münasibətilə müraciətində deyilir: "...Bu qəddar soyqırım aktı bəşəriyyət tarixinə ən qorxulu kütləvi terror aktı kimi daxil olub". Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Xocalı faciəsi təsadüfi hadisə deyildi. Bu, iki yüz ildən artıq müddətdə davakar erməni millətçilərinin Azərbaycan xalqına qarşı yürütdüyü soyqırımı və etnik təmizləmə siyasətinin tərkib hissəsi idi".

Xocalı soyqırımına ümummilli lider Heydər Əliyevin fəal təşəbbüsü və diqqəti sayəsində hüquqi-siyasi qiymət verildi və 1994-cü il fevralın 24-də Milli Məclisdə Xocalı soyqırımı ilə bağlı qərar və bəyanat qəbul edildi və dünya parlamentlərinə, beynəlxalq təşkilatlara göndərildi. Ulu öndərin apardığı uğurlu xarici siyasət diplomatiyası cənab İlham Əliyev tərəfindən çox böyük müvəffəqiyyətlə davam və inkişaf etdirilir və Azərbaycanın xeyrinə bir çox beynəlxalq əhəmiyyətli sənədlərin qəbul edilməsinə nail olundu. Məhz bu uğurlu siyasətin məntiqi davamı kimi 2005-ci il yanvarın 25-də Avropa Şurasının Parlament Assambleyasının qış sessiyasında Dağlıq Qarabağ üzrə xüsusi məruzəçisi Devid Atkinsonun hazırladığı məruzə əsasında qətnamə qəbul edildi. Həmin qətnamə-də Azərbaycan ərazisinin erməni silahlı qüvvələri tərəfindən işğal edilməsi Dağlıq Qarabağ bölgəsinin separatçı qüvvələrin nəzarəti altında olması və bu ərazi-də etnik təmizləmələrin aparılması faktları öz əksini tapmışdır. Sənəddə deyilir ki, SSRİ-nin süqutundan sonra Dağlıq Qarabağ ermənilər Azərbaycan ərazisində "dövlət" yaratmaq ideyasına düşmüş, 7 Azərbaycan rayonunu işğal etmişdir. Bu sənəddə Azərbaycanın ərazi bütövlüyü birmənalı şəkildə müdafiə edildi.

Xocalı faciəsi iyirminci əsrin ən dəhşətli soyqırımı kimi dünya tərəfindən qeyd edilir. Xocalı soyqırımının 14-cü, 15-ci və 16-cı ildönümü Moskvada, Al-maniyada, ABŞ-da, Türkiyədə, Ukrayna. Qazaxıstan. Gürcüstan. Küveyt və dünyanın bir çox ölkələrində qeyd olunmuşdur. 2005-ci ilin fevralında və 2006-cı il fevralın 23-də və 2007-ci ilin fevralında Türkiyə Böyük Millət Məclisinin xüsusi iclaslarında Xocalı soyqırımı ilə bağlı məsələ geniş müzakirə olunmuşdur. Qardaş Türkiyə parlamentinin üzvləri erməni silahlı dəstələrinin Xocalıda mülki əhaliyə qarşı törətdikləri cinayətləri görünməmiş vəhşilik kimi qiymətləndirmiş, erməni cəlladlarının qanlı əməlləri pislənmişdir. Bunun Azərbaycan xalqına qarşı soyqırım olduğu vurğulanmışdır. 2006-cı il fevralın 24-də Ankarada Türkiyənin ictimai-siyasi xadimlərinin bu ölkə-də akkreditə olunmuş diplomatik korpusunun nümayəndələrinin iştirakı ilə Hey-dər Əliyev Fondunun təşkil etdiyi "Xocalı soyqırımı" sənədli filmi göstərilib. Tədbirdə Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın soyqırım ilə bağlı dünya ictimaiyyətinə müraciəti səsləndirilib.

Belə ki, erməni quldur dəstələrinin Xocalıda törətdikləri qanlı cinayət bütün beynəlxalq hüquq sənədlərinə görə, miqyasına və mahiyyətinə görə soyqırım və bəşəriyyətə qarşı cinayət kimi qeyd olunmalıdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bəyan etdiyi kimi, son illərdə artıq bütün dünya etiraf edib ki, bizim torpaqlarımız işğalçı Ermənistan tərəfindən zəbt edilib, azərbaycanlılar etnik təmizləməyə məruz qalmışlar.

Xocalı soyqırımı ermənilər tərəfindən törədilən bəşəri cinayətdir və Ermənistan tərəfi beynəlxalq insan hüquqlarına ciddi təhlükə yaradır. BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli Soyqırım Cinayətinin Qarşısının alınması və Cəzalandırılması haqqında konvensiyasının, 1949-cu il Cenevrə konvensiyasının, 1954-cü il Cenevrə konvensiyasının müddəalarını kobud şəkildə pozan erməni quldurlarının qanlı cinayətləri və əməlləri nəticəsində Xocalı şəhəri yerlə-yeksan edildi, əhalisi amansızcasına öldürüldü və məhv edildi, sözün əsl mənasında azərbaycanlılara qarşı soyqırım siyasəti həyata keçirildi. Beynəlxalq hüquq normalarını kobudcasına pozan erməni quldurlarının cinayətkar əməllərinə hesab edirik ki, beynəlxalq məhkəmə baxmalıdır. Bu məhkəmədə sübut olunar ki, etnik təmizləmə siyasətinə və soyqırımına məruz qalan azərbaycanlılardır. Özü də bu soyqırımını ermənilər törədiblər. Bunun üçün faktlar, rəqəmlər və tarixi həqiqətlər çoxdur. inanırıq ki,

zəka, ağıl və müdriklik qalib gələcək, haqq, ədalət qələbə çalacaq. Ata-babalarımız demişkən: haqq nazilər, ancaq üzülməz.

Xəqani MƏMMƏDOV,
Azərbaycan Müəllimlər İnstitutunun Ağcabədi filialının direktoru, professor.

Nuru MƏMMƏDOV,
professor.

"Respublika".-2009.-25 fevral.-N 44.-S. 4,7.

Türkiyənin iqtidar partiyası Xocalı soyqırımı ilə bağlı bəyanat yaymışdır

Ankara, 25 fevral (AzərTAc). Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AKP) Xocalı soyqırımının 17-ci ildönümü ilə bağlı bəyanat yaymışdır.

Bəyanatda bildirilir ki, ermənilərin heç bir əsası olmayan uydurma "soyqırımı" iddiaları haqqında təbliğatı gücləndirdikləri bir şəraitdə beynəlxalq ictimaiyyət təəssüf ki, yaxın tariximizdə baş vermiş, şahidləri və fotoşəkilləri mövcud olan Xocalı qətliamı ilə maraqlanmır. Biz bu məsələdə bütün ölkələri obyektiv və vicdanlı olmağa çağırırıq.

AKP-nin bəyanatında daha sonra deyilir: "Xocalı qətliamı Azərbaycan və bütün türk dünyası üçün ağır bir faciədir. 17 il əvvəl Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki Xocalı şəhərində əksəriyyəti qadınlar və uşaqlar olmaqla yüzlərlə dinc sakin vəhşicəsinə qətlə yetirilmişdir. Rəsmi mənbələr, şahidlərin ifadəsi və sənədlər Xocalını işğal edən erməni silahlı qüvvələrinin ələ keçirdiyi insanların vəhşi işgəncələrə məruz qaldığını sübut edir. Beynəlxalq insan haqları təşkilatları Xocalıda baş verənləri Dağlıq Qarabağın işğalı zamanı ən böyük qətliam kimi dəyərləndirmişlər. Türkiyənin xarici siyasətinin əsas məqsədi bütün bölgədə sülhə və sabitliyə, əməkdaşlıq zəminində tərəqqiyə nail olmaqdır. Qətliamların, kin və nifrət mühitinin heç kimə faydası yoxdur. Baş nazirimiz Rəcəb Tayyib Ərdoğanın bildirdiyi kimi, biz düşmən deyil, dost qazanmaq istəyirik. Amma, bir millətin yaraları hələ də sağalmamış, acıları da davam edirsə, insanlığa zidd faciələrə də biganəlik göstərilirsə, belə bir şəraitdə biz millətimizə qara yaxılmasına izn verə bilmərik.

Xocalı qətliamı bizim hamımızın acısıdır. Biz nə tarixi unuduruq, nə də gələcəyi keçmişin qaranlığı üzərində qurmaq istəyirik. Bu qətliamı törədənləri millət olaraq lənətləyir, şəhid olan qardaşlarımıza Uca Allahdan rəhmət diləyirik".

Oqtay Bayramov
AzərTAc-ın xüsusi müxbiri
Ankara
25 fevral 2009-cu il

Gürcüstanda Xocalı soyqırımı qurbanlarının xatirəsi yad edilmişdir

Tbilisi, 25 fevral (AzərTAc). Tbilisidə Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş tədbir keçirilmişdir.

Azərbaycanın Gürcüstandakı səfirliyinin təşəbbüsü ilə keçirilən mərasim ulu öndər Heydər Əliyevin Tbilisidəki abidəsi önünə əklillər qoyulması ilə başlanmışdır.

Mərasim Heydər Əliyev Fondunun Tbilisidəki sərgi salonunda davam etdirilmişdir.

Səfir Namiq Əliyev mərasim iştirakçılarına Xocalı soyqırımı barədə ətraflı məlumat vermişdir. Bildirmişdir ki, hadisənin soyqırımı olması, ermənilərin Xocalı şəhəri sakinlərini tamamilə məhv etmək məqsədləri sənədlərlə təsdiqlənmişdir. Azərbaycan xalqı bu tarixi heç vaxt yaddan çıxarmayacaq və onun bir daha təkrarlanmasına yol verilməməsinə çalışacaqdır.

Diplomat demişdir ki, Azərbaycan Prezidenti İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənəcəyini vurğulamaqla yanaşı, ölkəmizin öz ərazi bütövlüyünü təmin etmək üçün beynəlxalq normalarda nəzərdə tutulan digər vasitələrə əl atmaq hüququnu da dəfələrlə bəyan etmişdir. Ötən əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımı haqqında həqiqətlər yalnız ümummilli liderimiz Heydər Əliyevin cəsarəti, prinsipiallığı sayəsində dünyaya çatdırılmışdır. Bu gün Prezident İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Azərbaycan həqiqətlərinin dünyaya yayılmasında varisliyə əsl sədaqət nümunəsi göstərirlər.

Səfir bu tədbirin təşkilinə, belə bir gözəl salonda keçirilməsinə, Xocalı həqiqətləri barədə kitablarla, fotoşəkillər və sənədlərlə təmin olunmasına göstərdiyi dəstəyə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya minnətdarlığını bildirmişdir.

Mərasimdə iştirak edən diplomatik korpusun nümayəndələri üçün səfirin çıxışı ingilis dilinə tərcümə olunmuşdur. İştirakçılar Heydər Əliyev Fondunun dəstəyi ilə nəşr olunmuş kitablar və 50-dək fotoşəkillə, Xocalı soyqırımı barədə xarici mətbuat səhifələrində nəşr edilmiş məqalələrdən parçalarla tanış olmuşlar. Gürcüstanın Azərbaycanlı Gənclər Təşəbbüs Qrupunun Xocalı soyqırımı ilə əlaqədar tarixi faktlar əsasında çəkdiyi qısametrajlı film nümayiş etdirilmişdir.

Mərasimdə Azərbaycan-Gürcüstan parlamentlərarası dostluq qrupunun rəhbəri Qənirə Paşayeva, Gürcüstanın reinteqrasiya məsələləri üzrə dövlət naziri Temur Yakobaşvili, ölkə parlamentinin vitse-spikeri Paata Davitaya, deputatlar, Tbilisidə akkreditə olunmuş diplomatik korpusun, Gürcüstan azərbaycanlılarının, gürcü ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Tədbirin sonunda Qənirə Paşayeva AzərTAc-ın xüsusi müxbiri ilə söhbətində demişdir: "Xocalı faciəsi öz parametrləri və beynəlxalq qiymətləndirmə ilə soyqırımıdır, insanların milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilməsidir. Ermənistan rəhbərliyi, düşmən ölkənin ziyalıları da etiraf edirlər ki, bu qətl hadisəsi əvvəlcədən planlaşdırılmış, düşünülmüş şəkildə həyata keçirilmişdir. Hətta, ermənilər ən yüksək tribunalardan bununla fəxr etdiklərini bildirmişlər.

Azərbaycan rəhbərliyi Xocalı soyqırımı həqiqətlərinin dünyanın bütün ölkələrində təbliğinə çalışır və beynəlxalq ictimaiyyət tərəfindən bu faktın soyqırımı kimi tanınması istiqamətində fəal iş aparır. Bu işdə xaricdə yaşayan soydaşlarımızın fəaliyyətinin gücləndirilməsi də mühüm rol oynayır. Son vaxtlar onlar yaşadıqları ölkələrdə Xocalı soyqırımı faktının təbliği sahəsində işi gücləndirmiş, müxtəlif dövlət və qeyri-hökumət strukturları ilə əlaqələr yaratmışlar.

Azərbaycan Prezidenti İlham Əliyev Xocalı soyqırımının təbliği, xaricdə tanınması ilə bağlı aidiyyəti təşkilatlara konkret tapşırıqlar vermişdir. Yeri gəlmişkən, Heydər Əliyev Fondunun, onun prezidenti Mehriban xanım Əliyevanın bu istiqamətdə gördüyü işlər getdikcə daha çox səmərə verir. Bu il Fondun təşəbbüs və dəstəyi ilə dünyanın 50-dən artıq ölkəsində Xocalı soyqırımının tanınması üçün ciddi tədbirlər həyata keçirilmişdir. Xarici ölkələrdəki Azərbaycan diasporu lazımi vəsaitlərlə təmin olunmuşdur. Biz yalnız birliyimizlə həqiqətlərimizi dünyaya çatdıra, Xocalıda törədilən qətliamın soyqırımı kimi tanınmasına nail olub, erməni qəddarlığını, saxtakarlığını ifşa edə bilərik".

Gürcüstanlı reinteqrasiya məsələləri üzrə dövlət naziri Temur Yakobaşvilinin dediklərindən: "Sərgi ilə tanışlıq göstərir ki, bizim Cənubi Osetiyada olduğu kimi, Dağlıq Qarabağda, o cümlədən Xocalıda da etnik təmizləmə aparılmışdır. Biz birləşib özgələrin işimizə qarışmasına yol verməməliyik".

İslam Əliyev
AzərTAc-ın xüsusi müxbiri
Tbilisi
25 fevral 2009-cu il

Xocalı faciəsi bəşəriyyətə qarşı yönələn soyqırımdır

Xocalı soyqırımı nəticəsində 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürülmüş, 487 nəfər şikəst olmuş, 1275 dinc sakin əsir götürülmüş, 150 nəfər itkin düşmüşdür

Dünən İnsan Hüquqları üzrə Müvəkkil (ombudsman) Aparatında keçirilən tədbirdə məhz 26 Fevral Xocalı faciəsinin 17-ci ildönümünə həsr olunmuşdur. Tədbiri giriş sözü ilə açan ombudsman Elmira Süleymanova Xocalı faciəsinin xalqımızın başına gətirilən ən ağır faciələrdən biri olduğunu bildirdi.

O, qeyd etdi ki, Xocalı soyqırımından 17 il keçməsinə baxmayaraq, biz bu tarixi faciəni dünya ictimaiyyətinə lazımi səviyyədə tanıda bilməmişik: ”Bunun azərbaycanlılara qarşı planlı olaraq əvvəlcədən düşünülmüş şəkildə həyata keçirilmiş soyqırım olması heç kimdə şübhə oyatmır. Lakin biz heç bir beynəlxalq təşkilat və dövlət səviyyəsində Xocalı faciəsinə soyqırım statusu qazandıra bilməmişik.”

1988-ci ilin fevralından işğalçı Ermənistanın ölkəmizə qarşı növbəti təcavüzü, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi çağırışları nümayişlərə keçmiş, SSRİ rəhbərliyinin heç bir siyasi qiymət verməməsi nəticəsində Dağlıq Qarabağ və ətraf yeddi rayon da daxil olmaqla Azərbaycanın əzəli torpaqlarının 20 faizi zəbt edilmişdir. 20 mindən çox soydaşımız həlak olmuş, 50 mindən artıq adam yaralanmış, əlil və şikəst olmuş, bir çox Azərbaycan hərbçisi əsir düşmüş, dinc əhali girov götürülmüş, bir milyon həmvətənimiz öz yurdunda ağır qaçqın və məcburi köçkün həyatı yaşamaqdadır. Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdikləri Xocalı soyqırımı adları bəlli olan 613 nəfərin, o cümlədən, 106 qadın, 63 azyaşlı uşağın, 70 qocanın həyatına son qoymuş, 487 nəfər şikəst olmuş, 1275 dinc sakin əsir götürülmüş, 150 nəfər itkin düşmüşdür.

E. Süleymanova onu da bildirdi ki, bütün bunlara baxmayaraq, təbliğatın genişləndirilməsində diasporamızın son zamanlarda rolu artmışdır: “Artıq ikinci ildir ki, Ukraynadakı Azərbaycan səfirinin təşəbbüsü ilə Ukrayna televiziyalarından birində Xocalı faciəsi haqqında film istehsal olunaraq tamaşaçılara təqdim edilib. Xocalı faciəsinin lazımi səviyyədə təbliğ olunmaması bizdə təəssüf hissi oyadır. Xarici dövlətlərdə biz bu faciəni tanıtmalı və bu işğalın məğzini açıb göstərməliyik. Bu ildən etibarən uşaqların imza toplaması layihəsi həyata keçirilir. Bu aksiyada nəinki paytaxt məktəbliləri, eyni zamanda, bütün Azərbaycan məktəbliləri fəal iştirak edir.”

E. Süleymanova “Xocalı faciəsinin tarixini yaşadıqca, onun xalqımıza qarşı yönəldilən bir siyasət olduğunu bəyan etməli və dünya ictimaiyyətinə çatdırmalıyıq” deyə bildirdi. Erməni təcavüzü bütövlükdə Cənubi Qafqazda sülhyaratma, sabitlik və inkişaf proseslərinə mənfi təsir göstərir. Azərbaycanda tolerantlıq, milli, dini dözümlülük prinsiplərinə hörmət mühitində on minlərlə erməni yaşadığı halda, beynəlxalq hüquq normalarını pozan Ermənistan monomilli dövlət yaratmış və orada yaşayan 200 mindən çox azərbaycanlı dinc əhali, o cümlədən, ahıllar, qadınlar, uşaqlar, əlillər işgəncələrə, insan ləyaqətini alçaldan rəftar və cəzalara məruz qoyularaq, vətəndaşı olduqları bu dövlətin ərazisindən etnik təmizləmə nəticəsində kütləvi surətdə zorla qovulmuşlar.

Tədbirin sonunda ombudsman tərəfindən hazırlanmış bəyanat tədbir iştirakçılarının nəzərinə çatdırıldı.

Bəyanatda deyilirdi ki, bəşər tarixinin ən qanlı səhifələrindən olan Xocalı soyqırımından 17 il ötür. Bu dəhşətli hadisənin növbəti ildönümü günlərində faciəni törədənlərin məkrli xislətini bir daha açıb göstərmək, erməni vandalizmini, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq böyük aktuallıq və önəm kəsb edir.

Beynəlxalq hüquqa görə, genosid sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayətlərdən biri hesab olunur.

Xocalı soyqırımı zamanı yol verilmiş cinayət əməllərinin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq və dövlətdaxili hüquqa əsasən, məhz genosid olduğunu sübut edir. Bu vəhşilik və vandalizm aktı Xatın və Sonqmi faciələri kimi qiymətləndirilməli, insanlığa qarşı törədilən qanlı cinayət öz layiqli qiymətini almalıdır.

Bəyanatda daha sonra deyilir: ”Dünya birliyinə, aidiyyəti beynəlxalq təşkilatlara müraciət edərək Azərbaycana qarşı aparılan uzunmüddətli erməni təcavüzünə, terror siyasətinə, kütləvi şəkildə insan hüquqlarının pozulmasına son qoyulacağına, bu münaqişənin sülh və danışıqlar yolu ilə aradan qaldırılmasına dəstək veriləcəyinə, zəbt olunmuş torpaqların qaytarılacağına, yüz minlərlə qaçqın və məcburi köçkünlərin öz yurdlarına dönəcəyinə, onların konstitusion hüquqlarının bərpa ediləcəyinə inanırıq”.

Murad İSMAYILZDADƏ

“Səs”.-2009.-24 fevral.-N.36.-S.8.

Xocalı: Bir gecədə yandırılan, əhalisi qətlə yetirilən şəhər.

Dünya ermənilərin törətdikləri bu soyqırımını tanımalıdır

1992-ci il fevralın 26-na keçən gecə azərbaycanlılara qarşı törədilmiş soyqırımı, azğınlaşmış erməni millətçilərinin terror, şovinist siyasətinin nəticəsi olan bu qətliam əsrlər boyu yaddaşlarda yaşayacaq. Sumqayıt hadisələrindən, 20 Yanvar faciəsindən başlayan erməni vəhşiliyi Xocalı soyqırımında da özünü büruzə verdi. Rus ordusunun tərkibində olan erməni hərbçilərinin, daşnakların törətdikləri qətliamlar insanların qanlarını damarlarında donduracaq qədər dəhşətlidir.

Ötən əsrdə Hitler faşizminin törətdiyi faciələrin ən acınacaqlısı olan Xatın, eyni zamanda ona bənzər Sonqmi qətliamının təkrarı olan Xocalı faciəsindən 17 il ötsə də soyqırımının yaraları sağalmır. Bir gecədə dağıdılan, yandırılan, silahsız, günahsız əhalisi qətlə yetirilən Xocalı faciəsi əsil soyqırımı idi. Həmin gecə bütöv bir şəhər yerlə-yeksan edildi. 613 nəfər dinc əhali, o cümlədən 63 uşaq, 106 qadın diri-diri yandırıldı, vəhşicəsinə öldürüldü. 487 sakin əlil oldu, 1257 Xocalı sakini ermənilər tərəfindən əsir alındı, tarixdə misli görünməmiş təhqirlərə, əzab-əziyyətlərə məruz qaldı. Ancaq erməni vəhşiliklərinin qurbanlarını təkcə Xocalı faciəsi ilə hesablasaq tarix bizi qınayar, şəhid olan soydaşlarımızın ruhları sızlayar.

Daşnaklar tərəfindən öldürülən azərbaycanlıların sayı bütünlükdə Ermənistanın əhalisi qədər, bəlkə də qat-qat artıqdır.

1992-ci ildə hakimiyyətdə olan iqtidarın xəyanətləri, mənfur ermənilərin qəddarlığı nəticəsində törədilən və 17 ili tamam olan Xocalı faciəsi tariximizə qanla yazılan səhifə oldu. Həmin dövrdə qətliamın tam mənada açıqlanmasına mane olanların günahı üzündən ağrı-acısı bu gün də bütün soydaşlarımızın qəlbini ağrıdan əsil dərdimizi dünya ictimaiyyətinə yetərincə, tam mənası ilə açıqlaya bilmədik. O dövrdə tək Xocalıda deyil, bütünlükdə Dağlıq Qarabağda baş verənlər, günahsız yerə öldürülənlər barədə məlumatların yayılmasını özlərinin süqutu kimi dərk edən kreslo hərisləri xalqa düzgün məlumat verməkdən çəkindilər. Milli heysiyyatı olmayan Kreml nökərlərinin yaratdıqları maneələr üzündən qətliam ölkə ictimaiyyətindən belə gizlədildi. Xocalı qırğınının səbəbkarlarının aşkara çıxarılması üçün yaradılan, araşdırmalara başlamamış fəaliyyətinə xitam verilən formal komissiyanın işi dondurulduq.

Xocalı hadisələrinin soyqırımı kimi tanıdılması istiqamətində geniş təbliğat xarakterli aksiyalar başlandı. 26 fevral 1992-ci ildə törədilən qətliam zamanı vəhşiliklə öldürülən, yandırılan 600-dən artıq insanın qanına bais olan, heç kimə aman vermədən qətlə yetirən ermənilərə hər cür yardım göstərən 366-cı alayın keçmiş zabitləri, xarici ölkələrdən gəlmiş jurnalistlər etiraf etdilər ki, o gecə törədilənlər insan ağlına sığışmayan dəhşətlər idi.

Artıq formalaşmış və təşkilatlanmış diasporumuz Xocalıda baş verənlərin ermənilər tərəfindən törədilən əsil soyqırımı olduğunu dünya xalqlarına çatdırır. Ermənistanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri önündə qara çadırlar qurulur, etiraz mitinqləri keçirilir, Xocalı soyqırımının tanıdılması ilə əlaqədar beynəlxalq təşkilatlar qarşısında məsələ qaldırılır. Müxtəlif illərdə ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri vəhşiliklər barədə həqiqətlər sənədlərin dili ilə dünya xalqlarına çatdırılır.

Hələ 1905-1907, 1918-ci il qətliamlarında ermənilər 2 milyondan artıq azərbaycanlını amansızcasına qətlə yetirdilər. Ötən iki əsrdə bir neçə dəfə qırğınlar törədərək azərbaycanlıları kütləvi surətdə öldürən ermənilərin tör-töküntüləri Dağlıq Qarabağ münaqişəsi zamanı mənfur, lənətlənmiş babalarından qalmış murdar ənənələrini bir daha təkrarladılar.

Soydaşlarımızın ata-baba yurdu sayılan Qərbi Azərbaycandan bir neçə dəfə təkrarlanan deportasiyalar zamanı əzab-əziyyətlərə, vətən həsrətinə dözməyərək dünyadan köçən insanlar da bu siyahılara daxil edilsə, onda ermənilərin törətdikləri soyqırımı qurbanlarının sayı deyilənlərdən qat-qat çox olar. Ona görə də təkcə Xocalıda yox, ötən əsrdə öldürülən bütün soydaşlarımız soyqırımı qurbanları kimi dünya ictimaiyyətinə tanıdılır. Ancaq zaman gələcək arxalı köpək olan ermənilər Türkiyədə, Azərbaycanda törətdikləri soyqırımlarına görə cavab verməli olacaq.

Prezident İlham Əliyevin türk dünyası xalqlarının birlik rəmzi olan qurultay və konfranslarda bəyan etdiyi kimi ümumi düşmənimiz olan erməni terrorçularına qarşı mübarizədə eyni mövqedən çıxış etməliyik. Artıq birgə fəaliyyət göstərən türk- Azərbaycan diasporu birləşərək ermənilər tərəfindən türk xalqlarına qarşı törədilmiş soyqırımlarının səbəbləri, tarixi barədə dünya xalqlarına məlumatlar çatdırırlar. İndi dünyanın bütün qitələrində formalaşan bu qüvvə erməni lobbisini susdurmağa qadir olduğunu sübut edir. Bu işdə daha fəal olan Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə aparılan təbliğatın davamçıları artmaqdadır. Soydaşlarımız Xocalı faciəsini əks etdirən sənədli filmlər, foto-albomlar vasitəsi ilə erməni yalanlarını ifşa edir, qırğınların əsil səbəblərini beynəlxalq ictimaiyyətə açıqlayır.

Ermənilər Xocalıda tökdükləri nahaq qanlar üçün cavab verməli olacaqlar.

Xuraman İsmayılqızı,

"İki sahil".-2009.-25 fevral.-N.37.-S.7.

Dünyanın məşhur jurnalistləri Xocalı soyqırımı haqqında yazırdı...

Müqəddimə: 26 fevral 1992-ci il. Tarix səhifəsindən silinən Xocalı şəhərinin işğal günü. Qaçqına, məcburi köçkünə çevrilmiş Xocalı sakinləri ermənilər tərəfindən kütləvi qırğına məruz qalmışdır. Ermənilərin törətdikləri bu vəhşiliyi dünya ictimaiyyətinə çatdırmalıyıq. Zamanında Xocalı sakinləri ilə görüşən əcnəbi jurnalistlər bunları bütünlüklə öz yazılarında qeyd ediblər. "Xocalı soyqırımı dünyada necə qarşılanır?" sualına məncə dünyanın qabaqcıl mətbuat orqanları və agentliklərinin məlumatlarından aşağıda gətirilən sitatlar əyani şəkildə cavab verə bilər.

Tomas QOLTS, Ağdam, Azərbaycan, 27 Fevral:

"Stepanakertin şimal-qərbində yerləşən və 6.000 nəfər əhalisi olan Xocalı şəhərindən olan qaçqınlar hücum zamanı qadın və uşaqlar daxil olmaqla 500 nəfərin öldürüldüyünü dedilər. Ağdam məscidinin direktoru Səid Sadıqov bildirdi ki, Xocalı şəhərindən olan qaçqınlar çərşənbə günündən bəri onun məscidinə 477 meyit gətiriblər.

Bakı rəsmiləri Xocalıda 100 nəfərin öldürüldüyünü iddia edir, erməni rəsmiləri isə öz paytaxtları İrəvandan bildirirlər ki, cəmi 2 azərbaycanlı qətlə yetirilib. Bakı rəsmisi bildirdi ki, onun hökuməti ölülərin dəqiq sayını bilən zaman azərbaycanlıların qəzəblənəcəyindən narahatdır.

Bu gün burada gördüyümüz 7 cənazədən ikisi uşaq, üçü qadın idi. Ağdam xəstəxanasında müalicə olunan digər 120 qaçqın ağır yaralardan əziyyət çəkir.

Raziyə Aslanova Ağdama çərşənbə günü gecə çatıb. O, dedi ki, çərşənbə axşamı gecə Xocalıya hücuma keçən ermənilər dayanmadan atırdılar. Onun əri və kürəkəni öldürülmüş, qızı itkin düşmüşdür..."

"İndependent", 29 Fevral 1992 Elen Vomak:

"Ağdamdakı "Röyter"in müxbiri Elif Kaban məlumat vermişdir ki, çərşənbə qırğınından sonra azərilər onlarla insan dəfn edirdilər, hansılar ki, bu bölgənin ikinci böyük yaşayış mərkəzi olan Xocalı şəhərinin ermənilər tərəfindən işğalı zamanı öldürülmüşdü. Dəfndə iştirak edənlərdən biri jurnalistlərin üstünə qışqıraraq demişdir: "Dünya burada baş verənlərə göz yumur. Biz ölürük, siz isə baxırsız."

Tomas QOLTS, Ağdam, Azərbaycan:

"Sağ qalanların sözlərinə görə, erməni əsgərləri 450-dən çox azərbaycanlıya atəş açmış və süngüdən keçirmişlər. Onların çoxu uşaq və qadınlar idi. Yüzlərlə, bəlkə də minlərlə insan itkin düşmüş və ölmüşdür.

İşğalçılar qadın və uşaqları müdafiə edən əsgərləri və könüllüləri öldürmüşlər. Sonra onlar qorxudan əsən qaçqınlara atəş açmağa başlayıblar. Sağ qalanlardan bir neçəsi baş verənləri belə təsvir etdi: "Elə əsl qırğın belə başladı. Ermənilər dayanmadan atırdılar. Sonra onlar içəri daxil oldu, bıçaq və süngü ilə adamları doğramağa başladılar". Bu, sağ qalan üç əsgərdən biri olan Azər Hacıyevin dedikləri idi..."

"Tayms", 2 mart 1992. "Qarabağda cənazə təpələri"

"Biz Dağlıq Qarabağın qarla örtülmüş dağlarından aşağı düşərkən səpələnmiş meyitləri gördük. Görünür, qaçqınlar qaçarkən onlara atəş açmışdılar. Bu hadisədən sonra jurnalistlər azərbaycanlı operator tərəfindən çəkilmiş kadrlara baxdılar. Kadrlarda bizim keçdiyimiz həmin dağların müxtəlif hissələrində onlarla insan cənazələri əks etdirilirdi.

Azərbaycanlılar iddia edir ki, keçən həftə ermənilər tərəfindən işğal olunan Xocalı şəhərindən qaçan azərbaycanlıların kütləvi qırğını zamanı ən azı 1000 nəfər öldürülüb. Daha 4000-nəfər yaralanmış, donub ölmüş, yaxud itkin düşmüşdür..."

"Vaşinqton Post", 2 Mart 1992

"Erməni basqınları azərilərin ölümü və qaçqın düşməsi ilə nəticələnir.

Xocalının 10.000 əhalisindən təxminən 1000 nəfəri erməni ordusunun çərşənbə axşamı həyata keçirdiyi hücum zamanı qətlə yetirilmişdir. Azərbaycan Televiziyası Xocalı ərazisindən cənazələrin yük maşınları ilə evakuasiyasını göstərmişdir."

“Nyu-York Tayms”, 3 Mart 1992

Ermənilərin törətdiyi qırğın

Ağdam, Azərbaycan, 2 Mart (“Röyter”) - Azərbaycanın ermənilərin üstünlük təşkil etdiyi Dağlıq Qarabağ bölgəsində erməni hərbçilərinin mülki vətəndaşlara qarşı törətdiyi soyqırım haqqında bu gün yeni bir sübut əldə olunmuşdur...”

“**Vaşinqton Tayms”, 3 Mart 1992**

“Vəhşiliklər Azərbaycanı dəhşətə gətirir”

Brayn KİLLEN, Ağdam, Azərbaycan

“Dağlıq Qarabağda onlarla insan meyitləri səpələnmişdir və bu, bu mübahisəli ərazi uğrunda 4 ildən bəri döyüşlərdə törədilmiş ən dəhşətli soyqırımın sübutudur.

Bu şəhərdən yenicə qayıdan Azərbaycan rəsmiləri özləri ilə 3 uşaq meyiti gətiriblər və onların başlarının arxa hissəsi tamamilə dağıdılıb.“

“Boston Qlob”, 3 Mart 1992

Pol Kuin - Cac, Bakı, Azərbaycan

“Dünən Azərbaycan erməni hərbçilərini keçən həftə kişi, qadın və uşaqları Dağlıq Qarabağdakı bir şəhərdən çıxarmaqda və onları qətlə yetirməkdə ittiham etdi.

Azərbaycan rəsmiləri Xocalı şəhərində 1000 nəfər azərbaycanlı öldürüldüyünü və qarla örtülmüş dağlardan qaçan kişi, qadın və uşaqların erməni hərbçiləri tərəfindən öldürüldüyünü deyir...”

Eyc, Melburn, 6 Mart 1992

Elen VOMAK, Ağdam, Azərbaycan, çərşənbə axşamı

“Şəhidlərin dəqiq sayı hələ də məlum olmasa da ötən həftə Ermənistan ordusunun Dağlıq Qarabağın qarlı dağlarında dinc azərbaycanlılara qarşı soyqırım törətdiyi ehtimal olunur.

Ağdamla sərhəddə yerləşən Xocalı şəhərindən olan qaçqınlar fevralın 25-i gecə ermənilər tərəfindən onların evlərinə edilən hücumu təsdiq edən küllü miqdarda faktlar söyləyir. Onlar bildirir ki, ermənilər onları qaçmağa məcbur etmiş və ətrafdakı meşələrdə güllələmişdir. Dünən mən qəbiristanlıqların birində təzə qazılmış 75 qəbir gördüm. Ondan bir gün əvvəl isə Ağdam məscidində deşik-deşik olunmuş 4 meyit görmüşdük. Biz həmçinin vaqonlardan ibarət olan müvəqqəti xəstəxanalarda güllə yaraları almış qadın və uşaqları gördük…

“Nyu-York Tayms”, 6 mart 1992

Azərbaycanda vida mərasimi

"Azərbaycanın Ağdam şəhərindəki qəbiristanlıqda ermənilərin Dağlıq Qarabağda törətdiyi soyqırım qurbanları dəfn olunan zaman onların ailə üzvləri və dostları matəm içindədir.

Çingiz İsgəndərov qardaşının cənazəsi olan tabutu qucaqlamışdı. Cənazənin üstündə isə Quranın surəti var idi...”

ELMİN

“Mədəniyyət”.-2009.-25 fevral.-N.13.-S.5.

Xocalı soyqırımı yaddan çıxmamalıdır

Onilliklər dövründə erməni-daşnak millətçiləri və onlara havadar olan ideoloqları hər vaxt erməni millətinə qarşı genosid hadisələrini yad edir. Bu yaxın vaxtlarda ABŞ-da Amerika yazıçısı Samuel Vilsiismin "Ermənistan terrorçu xristian dövlətinin sirləri" kitabı işıq üzü görmüşdü. Uzun illərin zəhmətinin Londonda, Parisdə, Romada, İstanbulda və Vaşinqtonda aparılan tədqiqatların nəticəsi olan və sənədlərə istinad edilən bu kitab 400 səhifədən ibarətdir. Müəllif kitabında qeyd edir ki, mən erməni mənşəli amerikalıların 150 yaşlı "qədim" vətənlərini mükafatlandırmaq üçün türklərdən, eləcə də, Amerika xristianlarından böyük məbləğdə pul vəsaiti qoparmaq məqsədilə soyqırım və qətllərlə bağlı uydurma və yalanlar yaydığını sübut edən faktlar aşkar etmişəm.

Dindar xristian olan Samuel Vilsiismin kitabında yazır ki, 1918-ci ildə kiçik bir ərazidə erməni dövlətinin yarandığı vaxtdan o, qonşuları Gürcüstana, Osmanlı imperiyasına və Azərbaycana qarşı torpaq iddiaları irəli sürməyə başlamışdır.

Kitabda eləcə də, tanınmış tarixçi alim Oğust Karyerin fikri verilir. O, ermənilərin yalnız Nuh peyğəmbərin gəmisinin qalıqlarının Ararat dağında tapıldığına görə, guya ermənilər Nuh peyğəmbərin nəslindən olan Haykın törəmələri, Şərqi Anadolunun isə başdan-başa erməni torpaqları olması barədə iddialarını rədd edir. Beləliklə, ermənilərin mənşəyi barədə məlumatları uydurmalara, daha dəqiq desək, ağ yalana əsaslanır.

Qarabağa gəldikdə isə Amerika alimi kitabında qeyd edir ki, həqiqət bundan ibarətdir ki, 1800-cü ildə Qafqaz regionunda çox az sayda erməni tapmaq olardı. Rusiya mənbələrinə istinad edilərsə, Qafqaz bölgəsinin Rusiyaya birləşdirildiyi dövrdə Qarabağda 90 min nəfər yaşayırdı. O dövr üçün böyük şəhər və 600 kənd var idi. Onların 150-də ermənilər yaşayırdı.

Ancaq dağlı azərbaycanlılar zorla köçürüldükdən sonra ermənilər burada üstünlük təşkil etdilər. 1907-1912-ci illərdə Rusiya çarizmi yarım milyondan çox ermənini İrandan və Osmanlı dövlətindən, əsasən, müsəlman azərbaycanlılarının yaşadığı Qars, İrəvan və Yelizavetpola (Gəncə) köçməsinə kömək etdi. Başqa sözlə, geosiyasi mənafelər naminə Qafqazda demokratik dəyişikliklər edildi.

XX əsrin əvvəllərində Qarabağdan çıxan bircə yol var idi, o da, Bakıya gedirdi. Ermənistana isə bir yol da getmirdi. Təkcə bu fakt çox şeydən xəbər verirdi. Bəlkə, elə buna görə, hətta bolşeviklər də etiraf etmişdilər ki, Qarabağ həmişə Azərbaycan torpağı olmuşdur.

1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin ilk addımlarından biri İrəvanın (Yerevan) siyasi mərkəzi olmayan Ermənistan Respublikasına verilməsi idi. O zaman yalnız İrəvan və Eçmiədzin (üç kilsə) rayonlarından ibarət Ermənistanda cəmi 400000 əhali yaşayırdı. Zaman göstərir ki, İrəvanın verilməsi gənc Azərbaycan Cümhuriyyətinin bağışlanılmaz səhvi idi və onun nəticələri hələ də özünü göstərməkdədir.

Hazırda "soyqırımı" haqqında car çəkən ermənilər de-fakto vətəndaşı olmadıqları və de-yure özlərini vətəndaşı hesab etdikləri Osmanlı imperiyasına qarşı qeyri-loyal və xəyanətkar münasibətləri barədə bir kəlmə də danışmırlar. Halbuki o vaxt Osmanlı imperiyasının özünü müdafiə etmək məqsədilə ermənilər cəbhə xəttindən uzağa köçürməyə qanuni haqqı var idi. Onlar aydın şəkildə hərbi əməliyyatlarda rus ordusu tərəfində döyüşürdülər.

ABŞ-da bu hüquqa əsaslanaraq İkinci Dünya müharibəsi illərində ölkənin yapon mənşəli bütün vətəndaşlarını qərb sahillərindən köçürmüşdü. Stalin bu hüquqdan istifadə edərək sovet dövlətinin təhlükəsizliyini qorumaq üçün Volqaboyunda yaşayan almanları Qazaxıstana və Orta Asiyaya köçürmüşdü.

Tarixdə belə nümunələr çox olmuşdur. Böyük Britaniyanın 1916-1922-ci illərdə baş nazir işləmiş Lloyd Corcun qeyd etdiyinə görə, 1915-ci ildə Osmanlı imperiyasında baş verən faciəli hadisələrin təqsirkarları Türkiyədə beşinci dəstəni maliyyələşdirən Rusiya, eləcə də, rusları Osmanlı torpaqlarını tərk etməyə məcbur edən Britaniya imperiyasıdır. Həmin dövrdə sayca qat-qat çox türk, azərbaycanlı, yəhudi və Qafqazın digər xalqlarının nümayəndələrini qətlə yetirmiş erməni quldur dəstələrinin əməllərini də nəzərdən qaçırmaq olmaz.

Kiçik Ermənistan dünyanın hər yerinə səpələnmiş həmtayfalarından istifadə edərək, uzun illər xristian aləmini islama və müsəlmanlara qarşı qaldırmağa çalışmışdır. Samuel Vümsin fikrincə, müsəlman aləmində Amerikaya "nifrətin" səbəblərindən biri də budur.

"Ermənistan: terrorçu xristian dövlətin sirləri" sənədli tədqiqat əsərinin üz qabığında oxuculara belə tövsiyə verilir: "Bu kitabı hər bir xristian və Amerikada hər bir vergi ödəyicisi oxumalıdır."

Biz isə deyə bilərik ki, dünyanın həqiqəti əziz tutan hər bir vətəndaşı oxumalıdır. Erməni millətçiləri tarix boyu xalqımıza qarşı görünməmiş qətllər və vəhşiliklər törətmişlər.

Tarixi Azərbaycan torpağı olan Zəngəzur, Göyçə və digər ərazilər sovet rəhbərliyinin əli ilə Ermənistana verildi. Dağlıq Qarabağ ermənilər muxtariyyət qazandı və gələcəkdə qanunsuz ərazi iddiaları üçün zəmin hazırlandı.

Erməni daşnakları təkcə XX əsrdə dörd dəfə (1905-1906,1918-1920,1948-1953,1988-1991) azərbaycanlılar indiki ermənilərin məskən saldığı Ermənistan ərazisindən tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuşlar. "Türksüz Ermənistan" adı altında mübarizəyə qalxan erməni millətçiləri və onların havadarları, eləcə də, yaxın və uzaq xaricdə yaşayan əl tutanları etnik təmizləmə işini 1991-ci il avqustun 8-də başa çatdırdılar. Mehri rayonunun son məntəqəsi Nüvədi azərbaycanlı kəndi soyqırıma düçar olaraq tarixi-etnik torpaqlarından deportasiya olundu. Belə demək olar ki, indi Ermənistan adlanan Qərbi Azərbaycanda bir nəfər də olsun azərbaycanlı qalmamışdır.

1988-1991-ci illərdə sovet dövlət başçılarının köməyi sayəsində Ermənistan hökuməti Qərbi Azərbaycan-indiki Ermənistan torpaqlarından 250 mindən artıq azərbaycanlı ata-baba yurdlarından deportasiya edildi. XX əsrdə 2 milyondan çox azərbaycanlı indiki bu ərazidə soyqırıma, deportasiyaya düçar oldular.

1935-1991-ci illərdə Ermənistanda Azərbaycan yer adlarına qarşı qərəzli siyasət nəticəsində minlərlə toponimlər xəritədən silinib ermənilləşdirildi. Azərbaycanın tərkib hissəsi olan Qarabağın Ermənistana birləşdirilməsi məqsədilə 1988-ci ildən başlanan separatçılıq hərəkatı işğalçılıq müharibəsi, etnik təmizləmə Azərbaycana qarşı cinayətkar siyasətin yeni mərhələsidir.

Hazırda Azərbaycanın 20%-i erməni işğalı altındadır. 1 milyondan çox insan öz yurdundan didərgin salınıb. 18 min azərbaycanlı qətlə yetirilib, 20 mindən çox dinc sakin yaralanıb, 5 mindən çox adam əlil olub, 4 mindən çox insan əsir olub və itkin düşüb, 877 şəhər, kənd qarət edilib, dağıdılıb.

Erməni birləşmiş dəstələri Rusiyanın Xankəndindəki 366-cı mexanikləşdirilmiş atıcı alayı ilə birlikdə XX əsrin Xatun soyqırımı faciələrini arxada qoyan Xocalı soyqırımını təşkil etdilər. O vaxtkı respublika rəhbərlərinin cinayətkar əməlləri nəticəsində şəhərin müdafiə işləri pis təşkil olunmuşdur. 80 nəfərlik Xocalı özünü müdafiə taboru heç bir zirehli texnika ilə təchiz olunmamışdır. Onlara əsas briqadanın 11-ci taboru isə 20 nəfərdən ibarət minaatanlar batalyonu kömək edirdi. 60 nəfərlik milis dəstələri isə təyyarə meydanını müdafiə edirdi.

1992-ci il fevralın 25-də erməni daşnak hərbi birləşmələri, 366-cı alay (üç batalyondan ikisi tam tərkibdə, biri isə qismən) eləcə də, xarici dövlətlərdən gətirilmiş muzdur quldur dəstələri Xocalıya hücum etdilər. Onlar ilk həmləni hava limanına endirdilər. Şəhərin müdafiə qalxan əhalisi azsaylı və pis silahlanmış olsalar da, qəhrəmanlıqla döyüşmüşdülər.

Xüsusi təyinatlı milis dəstəsinin komandiri, milis mayoru Əlif Hacıyev döyüş meydançasında qəhrəmanlıq göstərirdi. Onun başçılığı altında olan 22 nəfərlik dəstə erməni-daşnak birləşmələrinin hücumlarını üç dəfə uğurla dəf etdi. Döyüşdə qüvvələr bərabər deyildi. Mayor Əlif Hacıyev vəziyyətin mürəkkəb olduğunu görəndə limanın dispetçer məntəqəsini partladaraq erməni birləşmiş qüvvələrin əlinə düşməsinə imkan vermədi. Döyüşlərdə qorxmaz komandir ağır yaralandı və qəhrəmancasına həlak oldu. Ölümündən sonra Ə.Hacıyevə Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Düşmən tankları, zirehli maşınlarının artilleriya hazırlığından sonra Mehdi kənd, Daşbulaq istiqamətində Xocalıya daxil oldu və şəhər içərisində döyüşlər başlandı. 366-cı alayın mayor Ohanyanın komandası altında ikinci, mayor Nabogixin komandası altında üçüncü motoatıcı taborları, eləcə də, topçu diviziyası, Lixodeyanın başçılığı altında D-3 top taboru öz qəddarlığı, vəhşiliyi ilə fərqlənirdi.

Tofiq Hüseynovun başçılıq etdiyi ərazi özünü müdafiə taborunun döyüşçüləri çox qüvvətli, yırtıcı düşmənlə ləyaqətlə döyüşürdülər. Tofiq son nəfəsinədək vuruşdu, düşmən əsgərlərini azdırıb, çoxlu insanın mühasirədən çıxmasına imkan yaratdı. Son anda özü mühasirəyə düşdü. O, düşmənə təslim olmayaraq son gülləni özünə vurdu və gözlərini ana torpaqda yumdu. Ölümündən sonra Tofiq Hüseynova Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Ağdam-Əsgəran istiqamətində yığılmış hissələr arasında əlaqə və ümumi rəhbərlik olmaması üzündən onlar erməni işğalçılarına qarşı hücum qura bilmədilər.

Erməni vandalları Xocalı şəhərlərində soyqırım törətdilər. Şəhər od vurulub yandırıldı. Sağ qalanların bir hissəsi, əsasən qadınlar, qocalar uşaqlar şəhərin qərb istiqamətində iki yolla Ağdama tərəf qaçmağa başladılar. Qarlı-şaxtalı gündə ayaqyalın meşədə qalan qaçqınların çoxunu don vurdu, yaralıların bir hissəsi öldü. Səhərisi gün sağ qalanların bir hissəsi Xocalıdan 6-7 km aralı Qaraqaya adlı yerdə meşədən çıxarkən pusquda dayanmış erməni faşist dəstələri tərəfindən güllə-baran edildilər. Xilas olaraq Adbal-Gülablı kəndinə getməyə səy göstərənlər düşmən mühasirəsinə düşüb, atəşə tutuldular. Erməni daşnakları yaralılara aman vermir, meyidləri eybəcər hala salır, qadın və qızları təhqir edirdilər. Xocalı şəhərinin sahəsi 970 km, əhalisi 13000 nəfər idi. Xocalıda erməni vandalları azərbaycanlılara qarşı növbəti soyqırımı törətdilər. 613 nəfər, o, cümlədən, 106 qadın, 83 azyaşlı uşaq, 70 qoca öldürüldü. 1000 nəfərdən artıq dinc sakin müxtəlif dərəcəli güllə yarası alaraq şikəst oldu. 1275 nəfər əsir alındı və 56 nəfər amansızlıqla diri-diri yandırıldı, başlarının dərisi soyuldu, gözləri çıxarıldı, başları kəsildi, hamilə qadınların qarnı 1918-ci ildəki mart soyqırımı zamanında olduğu kimi süngüylə dəlik-deşik edildi.

Bu faciədə təkcə erməni faşistləri və rus millətçiləri deyil, həm də, uzun müddət düşmən əhatəsində qalan şəhərə lazımi kömək etməmiş düşmən hücumundan xəbər alan və əhalini təhlükəsiz yerlərə köçürmək üçün tədbirlər görməyən Azərbaycan rəhbərliyi, eləcə də, hakimiyyət uğrunda mübarizədə Qarabağ problemlərindən istifadə edib siyasi vəziyyətin gərginləşməsinə çalışan siyasətbazlar günahkar idilər.

Hələ də bir çox dünya ölkələrinin ikili standartlar prizmasından yanaşmalarının göstərmələrinin nəticəsidir ki, bu dəhşətli Xocalı soyqırımı heç bir yerdə deyilmir.

Rus ordu birləşmələri ilə erməni quldur dəstələrinin insanlığa yaraşmayan hərəkətləri cəzasız olaraq hələ də qalmaqda davam edir.

Firudin Cümşüdlü,
ADPU-nun Azərbaycan Tarixi Kafedrasının dosenti

“Səs”.-2009.-24 fevral.-N.36.-S.9.

İsveç Krallığında Xocalı soyqırımına həsr olunmuş tədbir keçirilmişdir

Linkoping, 26 fevral (AzərTAc). Fevralın 25-də Azərbaycanın İsveçdəki səfirliyi tərəfindən Linkoping Universitetində Xocalı soyqırımının 17-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir. Azərbaycanın İsveç Krallığındakı səfiri Rafael İbrahimov tələbə, aspirant, müəllim-professor heyəti qarşısında çıxış etmiş, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində ermənilərin törətdikləri qətliam barədə ətraflı danışmışdır.

Səfir həmçinin, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində aparılan danışıqların mövcud vəziyyəti haqqında məlumat verərək, münaqişənin həllinin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkünlüyünü vurğulamış, Azərbaycanın gündən-günə inkişaf etdiyini, Ermənistanın isə öz işğalçı siyasəti nəticəsində regional layihələrdən kənarda qalması və bunun da ucbatından iqtisadi tənəzzülə yuvarlanması barədə məlumat vermişdir. Rafael İbrahimov auditoriyanın bir sıra maraq göstərdiyi suallara cavab vermişdir. Xocalı soyqırımına aid materiallar yayılmışdır. Faciə ilə bağlı yayılmış materiallar Heydər Əliyev Fondu tərəfindən hazırlanmışdır.

Səfir Linkoping səhərində yaşayan Azərbaycan icması ilə də görüş keçirmişdir.

AzərTAc
26 fevral 2009-cu il

Xocalı soyqırımı bəşəriyyət əleyhinə cinayətdir

Erməni-daşnak millətçiləri və onların havadarları, az qala, bir əsrə yaxındır ki, hər il uydurma "erməni soyqırımı" gününün bütün dünyada qeyd olunması üçün dəridən-qabıqdan çıxır, öz yalanlarını bəşəriyyətə sırımağa çalışırlar. Bu yaxınlarda ABŞ-da Amerika yazıçısı Samuel Viimsin "Ermənistan: terrorçu xristian dövlətinin sirləri" kitabı işıq üzü görmüşdür. Uzun illər Londonda, Parisdə, Romada, İstanbulda, Moskvada və Vaşinqtonda aparılan tədqiqatların nəticəsi olan, faktlara və sənədlərə istinadən ərsəyə gələn bu kitab 400 səhifədən ibarətdir. Müəllif kitabında qeyd edir ki, mən erməni mənşəli amerikalıların 150 yaşlı "qədim" vətənlərini mükafatlandırmaq üçün türklərdən, eləcə də Amerika xristianlarından böyük məbləğdə pul vəsaiti qoparmaq məqsədilə soyqırımı və qətllərlə bağlı uydurma və yalanlar yaydığını sübut edən faktlar aşkar etmişəm.

Dinar xristian olan Samuel Viims kitabında yazır ki, 1918-ci ildə kiçik bir ərazidə erməni dövlətinin yarandığı vaxtdan o, qonşuları Gürcüstana, Osmanlı imperiyasına və Azərbaycana qarşı torpaq iddiaları irəli sürməyə başlamışdır. Kitabda eləcə də tanınmış tarixçi alim Oqust Karyerin fikri verilir. O, ermənilərin yalnız Nuh peyğəmbərin gəmisinin qalıqlarının Ararat dağında tapıldığına görə guya ermənilər Nuh peyğəmbərin nəslindən olan Haykın törəmələri, Şərqi Anadolunun isə başdan-başa erməni torpaqları olması barədə iddialarını rədd edir. Beləliklə, ermənilərin mənşəyi barədə məlumatlar uydurmalara, daha dəqiq desək, ağ yalana əsaslanır.

Amerika alimi kitabında Qarabağ problemi ilə bağlı qeyd edir ki, 1800-cü ildə Qafqaz regionunda çox az sayda erməni tapmaq olardı. Rusiya mənbələrinə istinad edilərsə, Qafqaz bölgəsinin Rusiyaya birləşdirildiyi dövrdə Qarabağda 90 min nəfər yaşayırdı. Orada böyük şəhər və 600 kənd var idi. Onların 150-də ermənilər yaşayırdılar. Ancaq dağlılar zorla köçürüldükdən sonra ermənilər burada üstünlük təşkil etdilər. 1907-1912-ci illərdə Rusiya çarizmi yarım milyondan çox ermənini İrandan və Osmanlı dövlətindən, əsasən müsəlman azərbaycanlılarının yaşadığı Qars, İrəvan və Yelizavetpola (Gəncə) köçməsinə kömək etdi. Başqa sözlə, geosiyasi mənafelər naminə Qafqazda demokratik dəyişikliklər edildi. XX əsrin əvvəllərində Qarabağdan çıxan bircə yol var idi. O da, Bakıya gedirdi. Ermənistana isə heç bir yol yox idi. Təkcə bu fakt çox şeydən xəbər verirdi. Bəlkə, elə buna görə hətta bolşeviklər də etiraf etmişdilər ki, Qarabağ həmişə Azərbaycan torpağı olmuşdur.

1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin ilk addımlarından biri İrəvanın, (Yerevan) siyasi mərkəzi olmayan Ermənistan Respublikasına verilməsi idi. O zaman yalnız İrəvan və Eçmiədzin (Üç kilsə) rayonlarından ibarət Ermənistanda cəmi 400 min əhali yaşayırdı. Zaman göstərir ki, İrəvanın verilməsi gənc Azərbaycan Cümhuriyyətinin bağışlanılmaz səhvi idi və onun nəticələri hələ də özünü göstərməkdədir.

Hazırda "soyqırımı" haqqında çar çəkən ermənilər de-fakto vətəndaşı olmadıqları — çünki Vətən xainləri ölkə vətəndaşları sayıla bilməzlər, — de-yure vətəndaşı hesab etdikləri Osmanlı imperiyasına qarşı öz qeyri-loyal və xəyanətkar münasibətləri barədə bir kəlmə də danışmırlar. Halbuki, o vaxt Osmanlı imperiyasının özünü müdafiə etmək məqsədilə ermənilər cəbhə xəttindən uzağa köçürməyə qanuni haqqı var idi. Onlar açıq şəkildə hərbi əməliyyatlarda rus orduları tərəfindən döyüşürdülər. ABŞ da bu hüquqa əsaslanaraq İkinci Dünya müharibəsi illərində ölkənin yapon mənşəli bütün vətəndaşlarını qərb sahillərindən köçürmüşdü. Stalin bu hüquqdan istifadə edərək Sovet dövlətinin təhlükəsizliyini qorumaq üçün Volqaboyunda yaşayan almanları Qazaxıstana və Orta Asiyaya köçürmüşdü. Tarixdə belə nümunələr çox olmuşdur. Böyük Britaniyanın 1916-1922-ci illərdə baş naziri işləmiş Devid Lloyd Corcun qeyd etdiyinə görə, 1915-ci ildə Osmanlı imperiyasında baş verən faciəli hadisələrin təqsirkarları Türkiyədə beşinci dəstəni maliyyələşdirən Rusiya, eləcə də rusları Osmanlı torpaqlarını tərk etməyə məcbur edən Britaniya imperiyasıdır. Həmin dövrdə sayca qat-qat çox türk, azərbaycanlı, yəhudi və Qafqazın digər xalqlarının nümayəndələrini qətlə yetirmiş erməni quldur dəstələrinin əməllərini də nəzərdən qaçırmaq olmaz.

Kiçik Ermənistan dünyanın hər yerinə səpələnmiş həmtayfalarından istifadə edərək, uzun illər xristian aləmini islama və müsəlmanlara qarşı qaldırmağa çalışmışdır. Samuel Viimsin fikrincə, müsəlman aləmində Amerikaya "nifrətin" səbəblərindən biri də budur.

"Ermənistan: terrorçu xristian dövlətinin sirləri" sənədli tədqiqat əsərinin üz qabığında oxuculara tövsiyə edilir. "Bu kitabı hər bir xristian və Amerikada hər bir vergi ödəyicisi oxumalıdır". Biz isə deyə bilərik ki, dünyanın həqiqəti əziz tutan hər bir vətəndaşı oxumalıdır. Erməni millətçiləri tarix boyu xalqımıza qarşı görünməmiş qətllər və vəhşiliklər etmişlər.

Tarixi Azərbaycan torpağı olan Zəngəzur, Göyçə və digər ərazilər Sovet rəhbərliyinin əli ilə Ermənistana verildi. Dağlıq Qarabağ ermənilər muxtariyyət qazandı və onların gələcəkdə qanunsuz ərazi iddiaları üçün zəmin hazırlandı. Erməni daşnakları təkcə XX əsrdə dörd dəfə (1905-1906, 1918-1920, 1948-1953, 1988-1991-ci illərdə) azərbaycanlıları indiki ermənilərin məskən saldığı Ermənistan ərazisindən, tarixi-

etnik torpaqlarından qırğınlarla deportasiya etmişlər. "Türksüz Ermənistan" adı altında mübarizəyə qalxan erməni millətçiləri, eləcə də yaxın və uzaq xaricdə yaşayan havadarları, etnik təmizləmə işini 1991-ci il avqustun 8-də başa çatdırdılar. Meğri rayonunun son məntəqəsi Nüvədidə yaşayan azərbaycanlılar soyqırıma məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olundular. Belə demək olar ki, indi Ermənistan adlanan Qərbi Azərbaycanda bir nəfər də olsun azərbaycanlı qalmamışdır.

1988-1991-ci illərdə Sovetlər Birliyi dövlətinin başçılarının köməyi sayəsində Ermənistan hökuməti Qərbi Azərbaycan — indiki Ermənistan torpaqlarından 250 mindən artıq azərbaycanlını ata-baba yurdlarından deportasiya etdi. XX əsrdə 2 milyondan çox azərbaycanlı indiki bu ərazidə soyqırıma, deportasiyaya məruz qaldılar.

1935-1991-ci illərdə Ermənistanda Azərbaycan yer adlarına qarşı qərəzli siyasət nəticəsində minlərlə toponimlər xəritədən silinib ermənilərşdirildi. Azərbaycanın tərkib hissəsi olan Qarabağın Ermənistana birləşdirilməsi məqsədilə 1988-ci ildən başlanan separatçılıq hərəkatı, işğalçılıq müharibəsi, etnik təmizləmə Azərbaycana qarşı cinayətkar siyasətin yeni mərhələsidir. Hazırda Azərbaycan torpaqlarının 20 faizi erməni işğalı altındadır. 1 milyondan çox insan öz yurdundan didərgin salınıb. 18 min azərbaycanlı qətlə yetirilib, 20 mindən çox dinc sakin yaralanıb, 5 mindən çox adam əlil olub, 4 mindən çox insan əsir və itgin düşüb, 877 şəhər, kənd qarət edilib, dağıdılıb.

Erməni birləşmiş dəstələri Rusiyanın Xankəndidəki 366-cı mexanikləşdirilmiş atıcı alayı ilə birlikdə XX əsrin Xatın faciəsini arxada qoyan Xocalı soyqırımını təşkil etdilər. O vaxtkı respublika rəhbərliyinin cinayətkar əməlləri nəticəsində şəhərin müdafiə işləri pis təşkil olunmuşdur. 80 nəfərlik Xocalı özünümüdafiə taburu heç bir zirehli texnika ilə təchiz olunmamışdı. Onlara əsas briqadanın 11-ci taburu ilə 20 nəfərdən ibarət minaatanlar batalyonu kömək edirdi. 60 nəfərlik milis dəstələri isə təyyarə meydanını müdafiə edirdi.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni daşnak hərbi birləşmələri və keçmiş SSRİ-yə məxsus 366-cı alay (üç batalyondan ikisi tam tərkibdə, biri isə qismən), eləcə də, xarici dövlətlərdən gətirilmiş muzdur quldur dəstələri Xocalıya hücum etdilər. Onlar ilk həmləni hava limanına endirdilər. Şəhərin müdafiəsinə qalxanlar azsaylı və pis silahlanmış olsalar da, qəhrəmanlıqla döyüşmüşdülər. Xüsusi təyinatlı milis dəstəsinin komandiri, milis mayoru Əlif Hacıyev döyüş meydançasında qəhrəmanlıq göstərdi. Onun başçılığı altında olan 22 nəfərlik dəstə erməni-daşnak birləşmələrinin hücumlarını üç dəfə uğurla dəf etdi. Döyüşdə qüvvələr bərabər deyildi. Mayor Əli Hacıyev vəziyyətin mürəkkəb olduğunu görəndə limanın dispetçer məntəqəsini partladaraq erməni birləşmiş qüvvələrinin əlinə düşməsinə imkan vermədi. Döyüşlərdə qorxmaz komandir ağır yaralandı və qəhrəmancasına həlak oldu. Ölümündən sonra Əlif Hacıyevə Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Düşmən tankları, zirehli maşınlarının artilleriya hazırlığından sonra Mehdikənd, Daşbulaq istiqamətində Xocalıya daxil oldu və şəhər içərisində döyüşlər başlandı. 366-cı alayın mayor Ohanyanın komandası altında ikinci, mayor Nabodxinin komandası altında üçüncü motoatıcı taburları eləcə də topçu diviziyası, öz qəddarlığı, vəhşiliyi ilə fərqlənirdi.

Tofiq Hüseynovun başçılıq etdiyi ərazi özünümüdafiə taburunun döyüşçüləri çox qüvvətli, yırtıcı düşmənlə qəhrəmancasına, ləyaqətlə döyüşürdülər. Tofiq son nəfəsinədək vuruşdu, düşmən əsgərlərini azdırıb, çoxlu insanın mühasirədən çıxmasına imkan yaratdı. Son anda özü mühasirəyə düşdü. O, düşmənə təslim olmayaraq son gülləni özünə vurdu. Ölümündən sonra Tofiq Hüseynova Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Ağdam-Əsgəran istiqamətində yığılmış hissələr arasında əlaqə və ümumi rəhbərlik olmaması üzündən onlar erməni işğalçılarına qarşı hücum qura bilmədilər.

Erməni vandalları Xocalı şəhərində soyqırım törətdilər. Şəhərə od vurub yandırdılar. Sağ qalanların bir hissəsi, əsasən qadınlar, qocalar, uşaqlar şəhərin qərb istiqamətində iki yolla Ağdama tərəf qaçmağa başladılar. Qarlı, şaxtalı gündə ayaqyalın meşədə qalan qaçqınların çoxunu şaxta vurdu, yaralıların bir hissəsi öldü. Səhərisi gün sağ qalanların bir hissəsi Xocalıdan 6-7 kilometr aralı Qaraqaya adlanan yerdə meşədən çıxarkən pusquda dayanmış erməni faşist dəstələri tərəfindən gülləbaran edildi. Xilas olaraq Abdal-Gülablı kəndinə getməyə səy göstərənlər düşmən mühasirəsinə düşüb, atəşə tutuldular. Erməni daşnakları yaralılara aman vermir, meyitləri eybəcər hala salır, qadın və qızları təhqir edirdilər.

Xocalı şəhərinin əhalisi 13 min nəfər idi. Xocalıda erməni vandalları azərbaycanlılara qarşı növbəti soyqırımı törətdilər. 613 nəfər, o cümlədən 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürüldü. Min nəfər dinc sakin müxtəlif dərəcəli güllə yarası alaraq şikəst oldu. 1275 nəfər girov götürüldü. 56 nəfər xüsusi amansızlıqla diri-diri yandırıldı, başlarının dərisi soyuldu, gözləri çıxarıldı, başları kəsildi, hamilə qadınların qarnı 1918-ci ildəki mart soyqırımı zamanı olduğu kimi süngü ilə dəlik-deşik edildi. Bu faciədə təkcə erməni faşistləri və rus millətçiləri deyil, həm də uzun müddət düşmən əhatəsində qalan şəhərə lazımi kömək etməmiş, əhalini təhlükəsiz yerlərə köçürmək üçün tədbirlər görməmiş Azərbaycan rəhbərliyi, eləcə də, hakimiyyət uğrunda mübarizədə Qarabağ problemindən istifadə edib siyasi kapital toplamaqla vəziyyətin gərginləşməsinə çalışan siyasətbazlar təqsirkar idilər.

Nüfuzlu beynəlxalq qurumların, dünya birliyi ölkələrinin ikili standartlardan yanaşmalarının nəticəsidir ki, bu dəhşətli faciə — Xocalı soyqırımı ilə əlaqədar heç kəs məsuliyyətə cəlb edilməmiş, cinayətkarlar hələ də cəzasız qalmışlar.

Firudin CÜMŞÜDLÜ,
ADPU-nun Azərbaycan tarixi kafedrasının dosenti, tarix elmləri namizədi

“Xalq qəzeti”.-2009.-26 fevral.-N 45.-S.3.

XX əsrin soyqırımı və etnik təmizləmələr tarixində müdhiş səhifə

Böyük Ermənistan yaratmaq iddiasında olan erməni millətçiləri tarix boyu Azərbaycan xalqına qarşı dəhşətli cinayətlər törətmiş, çoxlu sayda terror aktları təşkil etmiş, soyqırımı həyata keçirmişlər. Bunun nəticəsində xeyli günahsız insan vəhşicəsinə qətlə yetirilmiş, ömürlük şikəst olmuşdur. Tarixən köçəri tayfa halında yaşayan ermənilər Azərbaycan torpaqlarını işğal edərək Ermənistan dövlətini yaratmış, sonradan öz işğalçılıq, qəsbkarlıq siyasətlərini davam etdirərək ərazilərini bir qədər də genişləndirmişlər.

Tarixi sənədlər və faktlar sübut edir ki, ermənilər hələ 1905-1907-ci, 1918-1920-ci, 1948-1953-cü illərdə öz əzəli dədə-baba torpaqlarında etnik təmizləmə və soyqırımı siyasətinə məruz qalan yüz minlərlə azərbaycanlını kütləvi surətdə, amansızcasına, qəddarlıqla qətlə yetirmiş, öz doğma ocaqlarından didərgin salmışlar.

Ulu öndər Heydər Əliyev 1969-cu ildə respublika rəhbərliyinə gəldikdən sonra azərbaycanlılara qarşı münasibət kökündən dəyişdi. Ölkədə həyata keçirilən islahatlar nəticəsində Azərbaycan keçmiş SSRİ-nin inkişaf etmiş respublikalarından birinə çevrildi. Ümummilli liderin müdrikliyi, uzaqgörənliyi və düşünülmüş siyasəti nəticəsində SSRİ rəhbərliyinin respublikamıza münasibəti kökündən dəyişdi. Artıq nə Azərbaycanın ərazilərinə göz dikmək, nə də soydaşlarımızı hər hansı bir deportasiyaya məruz qoymaq mümkün deyildi. Ulu öndərin gərgin siyasəti nəticəsində on minlərlə azərbaycanlıya keçmiş ittifaqın ən nüfuzlu ali məktəblərində təhsil almaq üçün əlverişli şərait yaradılırdı. Sonradan Kremldə keçmiş SSRİ dövlətinin rəhbərlərindən biri kimi fəaliyyət göstərdiyi dövrdə də ümummilli lider Heydər Əliyev doğma Azərbaycanını və xalqını unutmamış, onun inkişafı və çiçəklənməsi, əhalisinin rifah halının daha da yüksəlməsi üçün əlindən gələni əsirgəməmişdir. Daim pusquda dayanan, qonşu dövlətlərin torpaqları hesabına ərazilərini genişləndirməyə cəhd edən nankor, xain ermənilər Heydər Əliyevin Moskvada böyük nüfuz sahibi olmasından yanıb-yaxılır, öz çirkin niyyətlərini həyata keçirməyə məqam axtarırdılar.

Türk dünyasının qüdrətli oğlu Heydər Əliyevin min hiylə, məkrlə SSRİ rəhbərliyindən uzaqlaşdırılması erməni millətçilərinin sanki əl-qolunu açdı. Onlar Azərbaycana qarşı öz ərazi iddialarını davam etdirdilər. Bu işdə onlara arxa-dayaq olan SSRİ-nin o vaxtkı rəhbəri Mixail Qorbaçov milli ədavəti daha da qızışdırırdı. Azərbaycanın tarixində növbəti dəhşət mərhələsi başlandı. Digər tərəfdən 1980-ci illərin axırlarında, 90-cı illərin əvvəllərində Azərbaycana rəhbərlik etmiş şəxslərin kölə psixologiyası, prinsipsizliyi, qətiyyətsizliyi və düşünülməmiş addımları torpaqlarımızın ermənilər tərəfindən işğalına şərait yaratmış, soydaşlarımızın vəhşicəsinə qətlinə gətirib çıxarmışdır. Bir-birinin ardınca baş verən terror aktları, ermənilərin torpaqlarımızı asanlıqla işğal etmələri, törətdikləri qanlı faciələrə görə günahsız qalmaları, ermənileri daha da azğınlaşdırdı. Onların soydaşlarımıza qarşı törətdikləri ən dəhşətli cinayətlərdən biri də XX əsrin soyqırımı və etnik təmizləmələr tarixində ən qanlı səhifə hesab edilən Xocalı soyqırımı oldu. Bu, eyni zamanda dünya ictimaiyyətinin üzləşdiyi ən dəhşətli faciələrdən biridir.

Xocalının əsas hədəf seçilməsi heç də təsadüfi deyildi. Erməni silahlı qüvvələrinin Xocalıya hücumunu şəhərin coğrafi mövqeyi şərtləndirirdi. Yeddi min əhalisi olan Xocalı Xankəndidən 10 kilometr cənub-şərqdə, Qarabağ dağının silsiləsində və Ağdam — Şuşa, Əsgəran — Xankəndi yollarının üstündə yerləşirdi. Qarabağdakı yeganə hava limanı da Xocalıda yerləşirdi. Digər Azərbaycan ərazilərini işğal etmək üçün Xocalı erməni silahlı qüvvələri üçün sanki açar idi. Ona görə də bu şəhərin işğal olunması ermənilərin qarşılarına qoyduqları zəruri məsələlərdən idi.

1991-ci ilin oktyabrından Xocalı şəhəri erməni silahlı qüvvələri tərəfindən mühasirəyə alınmışdı. Həmin vaxt ölkədə yaranmış daxili ziddiyyət, özbaşınalıq, başıpozuqluq, ordudakı intizamsızlıq, qeyri-qanuni silahlı dəstələrin cinayətkar əməlləri, habelə səriştəsiz dövlət rəhbərlərinin hakimiyyəti uzun müddət əllərində saxlamaq üçün min oyuna əl atması sərhədlərimizin qorunmasını yaddan çıxarmışdı. Başları özlərini, var-dövlətlərini qorumağa qarışanların yadına nə Xocalı, nə də digər ərazilər düşürdü. Hakimiyyətdə olanlar hər gün, hər saat Xocalıdan gələn həyəcanlı məlumatlara əhəmiyyət vermir, mühasirəyə alınmış şəhərin əhalisini xilas etmək barədə düşünmürdü. Hər dəfə "darıxmayın, tədbir görüləcək", deyərək ciddi təsir vasitələrinə əl atmırdılar. 1991-ci ilin oktyabrında Xocalı ilə avtomobil əlaqəsi də kəsildi və yeganə nəqliyyat vasitəsi vertolyot olaraq qaldı. Yanvarın 2-dən şəhərə elektrik verilişi də dayandırılmışdı. Şəhər ancaq yerli əhalinin qəhrəmanlığı və könüllü müdafiəçilərin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdu. Fevralın ikinci yarısından başlayaraq Xocalı erməni silahlı dəstələri tərəfindən mühasirəyə alındı və hər gün toplardan, ağır texnikadan atəşlərə, erməni dəstələrinin həmlələrinə məruz qaldı.

1992-ci il fevralın 15-də erməni hərbi birləşmələri keçmiş SSRİ-nin Xankəndində dislokasiya olunmuş 366-cı motoatıcı alayının ağır hərbi texnikasının dəstəyi ilə Xocalıya hücuma keçdilər. Hücumda ermənilər tərəfindən mayor Ohanyan Seyran Muşeqoviçin komandası altında 366-cı alayın 2-ci batalyonu,

Yevgeni Naboxinin komandası, qərargah rəisi Çitsyan Valeri İsayeviç və alayda xidmət edən 50-dən artıq erməni millətindən olan zabit və gizirlər, tanklar, piyadaların döyüş maşınları, topları və digər müasir hərbi texnika iştirak etmişdir. 1992-ci il fevralın 25-də gecə saat 22 radələrində 366-cı motoatıcı alayın komanda heyəti və hərbi texnikası ilə birgə Xocalı şəhərinə hücuma keçmişdilər. Şəhəri yerlə yeksan edən cinayətkar erməni hərbi birləşmələrinin vəhşiliyi nəticəsində 613 nəfər amansızcasına qətlə yetirilmiş, 487 nəfər əlil olmuş, 1275 nəfər dinc sakin — qoca, uşaq, qadın əsir götürülərək ağlasığmaz zülmə, təhqirlərə məruz qalmışdır. 150 nəfərin taleyi hələ də məlum deyil. Qətlə yetirilənlərin 106 nəfəri qadın, 63 nəfəri isə azyaşlı uşaqlar olmuş, şikəstlərin 76 nəfəri yetkinlik dövrünə çatmamış oğlan və qızlardır. 8 ailə bütövlükdə məhv edilmiş, 24 uşaq hər iki valideynini, 130 azyaşlı uşaq isə valideynlərindən birini itirmişdi. Şəhid olanlardan yalnız 355 nəfəri dəfn olunmuşdur. 200 nəfərin ayaqları soyuqdan qanqren olmuş, 1000 nəfərdən artıq şəhər sakini müxtəlif dərəcəli bədən xəsarətləri almışdı. XX əsrin ən dəhşətli və qəddar faciələrindən biri hesab edilən Xocalı faciəsi tarixdən məlum olan Babiyar, Xatın, Liditse, Sonqimi və digər faciələrlə eyni səviyyədə durur. Bu faciə erməni şovinist-millətçiləri tərəfindən iki yüz ilə yaxın bir müddətdə azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir. Bu faciə bütün Azərbaycan xalqını sarsıtsa da, Xocalı sakinlərinə sağalmaz yaralar, mənəvi zərbələr vursa da, xocalılar hətta amansız soyqırımı günündə də özlərini əsl qəhrəman kimi aparmış, erməni-sovet hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə igidliklə vuruşmuş, düşmən qarşısında əyilməmiş, xalqımızın qəhrəmanlıq tarixinə şərəfli səhifələr yazmışlar.

Xocalı faciəsi həmin dövrdə hakimiyyətdə olanlar üçün sanki adi bir hadisə idi. Faciənin baş verməsinə hüquqi-siyasi qiymət vermək fikrində olmayan o vaxtkı dövlət başçısı ümumiyyətlə, belə bir dəhşətli hadisədən danışmaq istəmir, xalqın fikrini müxtəlif istiqamətlərə yönəltməyə çalışırdı. Elə Ayaz Mütəllibovdan sonra hakimiyyəti ələ alan AXC-Müsavat cütlüyü də Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilməsi barədə düşünmürdü. Başları daha "vacib" işlərə qarışan o vaxtkı hakimiyyət rəhbərliyi Xocalı faciəsinin törədilməsinin əsl səbəbini araşdırmırdı. Ümummilli lider Heydər Əliyev Xocalı soyqırımının əsl mahiyyətini açıqlamış, 1994-cü ilin fevralında Milli Məclis bu faciəyə hüquqi-siyasi qiymət vermişdir. Ulu öndər o vaxt demişdir: "Xalqımızın qəhrəman, igid övladları torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid oldular. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdir ki, bir tərəfdən bu, hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyinin nümunəsidir. İkinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımıdır — vəhşiliyin görünməmiş bir təzahürüdür".

Ümummilli lider Heydər Əliyevin imzaladığı 25 fevral 1997-ci il tarixli "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" sərəncamına əsasən hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq, sükut dəqiqəsi keçirilir.

Xocalıda baş verən hadisələrlə azərbaycanlıların yaşamaq, azadlıq, şəxsi toxunulmazlıq, mülkiyyət hüquqları kəskin şəkildə pozulmuş və tapdalanmışdır. Ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi bu soyqırımında insan hüquq və azadlıqlarını özündə əks etdirən Cenevrə Konvensiyası, BMT-nin Baş Məclisinin 10 dekabr 1948-ci ildə elan olunan İnsan Hüquqlarının Ümumi Bəyannaməsinin, "İnsan hüquqlarının ümumi və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının, BMT-nin "Mülki və Siyasi hüquqlar haqqında Pakt"ının maddələri ermənilər tərəfindən ciddi şəkildə pozulmuşdur. Bu faktlar ikili standartlar nümayiş etdirən bəzi beynəlxalq qurumlar tərəfindən ört-basdır edilsə də, möhtərəm Prezidentimiz İlham Əliyevin dünyanın nüfuzlu tribunalarından səslənən çıxışları, erməni terror təşkilatlarının törətdikləri vandal aktları barədə söylədiyi təkzibedilməz faktlar ikili standart nümayiş etdirən beynəlxalq qurumları susdurdu. Məhz dövlət başçımızın düşünülmüş xarici siyasəti nəticəsində Avropa Şurası kimi nüfuzlu bir qurum Ermənistanı təcavüzkar dövlət kimi tanımış, BMT Baş Assambleyası Azərbaycanın mövqeyini dəstəkləmiş, digər qüdrətli dövlətlər də ölkəmizin haqlı olduğunu bildirmişdir.

Hazırda dünyanın əksər dövlətlərində Xocalı faciəsinin ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilir, foto-sərgilər təşkil olunur, ermənilərin törətdikləri qətliam haqqında sənədlər nümayiş etdirilir. Bu, Azərbaycan həqiqətlərinin dünya ölkələri tərəfindən olduğu kimi qəbul olunmasından xəbər verir.

Əliqismət BƏDƏLOV.

"Xalq qəzeti".-2009.-26 fevral.-N 45.-S.8.

Sankt-Peterburqda Xocalı soyqırımı ilə bağlı anma mərasimi keçirilmişdir

Sankt-Peterburq, 26 fevral (AzərTAc). Fevralın 26-da Sankt-Peterburq şəhərinin Lensovet adına mədəniyyət evində Xocalı soyqırımına həsr olunmuş anma mərasimi keçirilmişdir. Mədəniyyət evində "Xocalı uşaqların gözü ilə" rəsm, Xocalı soyqırımı və Ermənistanın Azərbaycana qarşı təcavüzünə həsr olunmuş kitabların sərgiləri açılmışdır.

Azərbaycanın Sankt-Peterburqdakı baş konsulluğundan bildirmişlər ki, tədbirin rəsmi hissəsində Xocalı soyqırımını əks etdirən sənədli film nümayiş etdirilmişdir. Mərasimin iştirakçıları Xocalı soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər. Sankt-Peterburqda Azərbaycanlıların Milli-Mədəni Muxtariyyətinin sədri Vaqif Məmişev, Bakı Dövlət Universitetinin hüquq fakültəsinin dekanı Məhəmməd İmanlı tədbirdə çıxış edərək, Xocalı soyqırımını XX əsrin ən dəhşətli faciəsi adlandırmışlar. Tədbirdə çıxış edən baş konsul Qudsi Osmanov Xocalı soyqırımının Azərbaycan tarixinin qanlı səhifələrindən olduğunu diqqətə çatdıraraq, Rusiya və beynəlxalq ictimaiyyətin bu barədə məlumatlandırılması üçün İslam Konfransı Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə yaradılmış www.justiceforkhojaly.orq internet səhifəsini təqdim etmişdir.

Mərasimin fəxri qonağı Rusiya Təbii Elmlər Akademiyasının akademiki məşhur "Qarabağ qan girdabında" kitabının müəllifi Yuri Pompeyev çıxış edərək Xocalı soyqırımının ermənilər tərəfindən qabaqcadan hazırlanmış, planlı təcavüz olduğunu söyləmiş və tədbir iştirakçılarının suallarına cavab vermişdir. Mərasimin ikinci hissəsində iştirakçılara Heydər Əliyev Fondu tərəfindən dərc olunmuş Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ hərbi münaqişəsi, o cümlədən Xocalı soyqırımına dair kitablar və müxtəlif çap məhsulları paylanılmışdır.

Xocalı soyqırımının 17-ci ildönümü ilə əlaqədar təbliğatın gücləndirilməsi istiqamətində Sankt-Peterburqun böyük tirajlı və geniş auditoriyanı əhatə edən "Veçerni Peterburq" qəzetinin 26 fevral tarixli buraxılışında "Azərbaycanda sükut dəqiqəsi" adlı məqalə dərc olunmuşdur. Bundan əlavə, tədbir Sankt-Peterburq şəhərinin mərkəzi kanallarından biri olan REN-TV kanalında nümayiş olunmuşdur.

AzərTAc
26 fevral 2009-cu il

Ölüm doğdu o gecə...

Qarabağ hadisələri başlanandan indiyə qədər hər dəfə əlimə qələm alanda bütün vücudum lərzəyə gəlir. İçimdəki qəzəbi və etirazı istədiyim şəkildə yazmağa çətinlik çəkirəm. Hiddətim və qəzəbim fikrimi dəqiq ifadə etməyə imkan vermir. Çünki xalqıma edilən gözgörəsi zülm o qədər böyük, haqsızlıq o qədər dəhşətlidir ki, bunları insan ağlı dərk edə bilmir. Zülmün və haqsızlığın bu dərəcədə ola biləcəyini təsəvvürümə gətirə bilməzdim.

Qəlbimə və ağlıma 20 illik zaman kəsiyində sığmayan bu dəhşətləri və üstümüzə yağış kimi yağdırılan böhtanları, çamurları hansı sözün qüdrəti ilə deyim? Hansı ifadələrlə cümlələrə düzüm? Şahidi olduğumuz bu müsibətlər heç bir dilin çərçivəsinə sığışmır.

Əcdadları bu torpağa gəlmə olan ermənilər indi Ermənistan adlandırılan dədə-baba torpaqlarımıza sahib olmaları bəs deyilmiş kimi, Azərbaycandakı torpaqlarımıza da zaman-zaman tamah salıblar. Onlar bu torpaqlara sahib çıxmaq üçün mütləq yalan danışıb, ev sahibinə böhtan atıb, doğrunu bucağa qısıblar. Bunlar azmış kimi, dünyanı da öz yalanlarına inanmağa məcbur ediblər. Çox uzağa getməyək. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda dinc yaşayan qarabağlılara qarşı törətdikləri soyqırımını sonra özlərinə sərfəli şəkildə təbliğ etdilər. Dünyaya səs saldılar ki, guya Xocalıda qırılanlar azərbaycanlılar yox, zavallı, hər yerdən, hətta Ermənistandan belə, əli üzülmüş ermənilərdir. Guya azərbaycanlılar ermənilərə qarşı barbarcasına hərəkət edərək soyqırımına yol veriblər. Onlar ənənələrinə sadiq qalaraq bu dəfə də tarixi hərtərəfli saxtalaşdıraraq həqiqətə kölgə salmağa, Avropa və Amerikada yaşayan havadarlarını da özlərinin yalanlarına məharətlə inandırmağa çalışdılar. 1988-ci ildə, ondan sonra 1990-cı il yanvarın 13-də Bakıda və Sumqayıtda özləri özlərinə qarşı mənfur siyasətlərini həyata keçirərək aləmə bəyan etdilər ki, azəri türkləri onları vəhşicəsinə qırır. Öz küdurətlərinə və başqa xalqlara atdıqları böhtana görə qonşuları tərəfindən qovulan bu millət dünyaya pərpətöyün toxumu kimi səpələnib. Əfsanəvi "dənizdən-dənizə" və "Böyük Ermənistan" xülyasına görə biz öz torpağımızın sahibi deyilik.

Qarabağ hadisələri başlayandan bugünə qədər başımıza gətirilən müsibətləri xronoloji surətdə yazmaq, bunları tarix və gələcək nəsil üçün bir ibrət dərsi qoymaq üçün əli qələm tutan hər bir azərbaycanlı bu hadisələrə biganə münasibət göstərməməlidir.

SSRİ dövründə qeyri-rus millətindən olanlara, xüsusən də, Qafqazda yaşayan müsəlmanlara qarşı ikili münasibət göstərən imperiya rəhbərləri Azərbaycanda ermənilərə elə bir meydan vermişdilər ki, ölkənin heç bir yerində onlar qədər yüksək şəraitlə təmin edilmiş başqa millət yox idi. Bütün bu azğınlıqlar, qudurğanlıqlar və xaricdən havadarlıq onları 1988-ci ildə əsası olmayan bir məsələni - "dənizdən-dənizə" və "Böyük Ermənistan" ideyasını yenidən ortaya atmağa şirnikləndirdi. 1988-ci ildən başlanan milli faciələr 1990-cı ildə ermənilərin əli ilə davam etdirildi, ardı-arası kəsilməyən qanlı qırğınlar törədildi, tarixdə analoqu olmayan soyqırımı hadisələri baş verdi. Xocalı soyqırımı da ermənilərin ruslarla birlikdə düşündükləri və vəhşicəsinə həyata keçirdikləri məkrli siyasətin nəticəsidir. Bu, erməni millətçilərinin xalqımıza zərbə vurmaq üçün əl atdıqları insana yaraşmayan mənfur və eybəcər hərəkətlərin məntiqi davamıydı.

1992-ci ilin 25 fevral gecəsi... Qarabağ hadisələri başlanan vaxtlardan üzü bu yana xalqımızın başına gətirilən müsibətlərin, demək olar, hamısı gecələr törədilib. Xocalı faciəsi də fevralın 25-dən 26-na keçən gecə baş verdi. Müasir silahlarla silahlanmış erməni və sovet hərbi birləşməsinin əsgərləri Xocalıya daxil olub yalın əllə torpağını müdafiə etmək istəyən xocalılı oğul və qızlarımızı qana bələdi. Nə idi çiçəyi burnunda ölən yeniyetmələrimizin, torpağımızın bütövlüyünü qorumaq istəyən cavanlarımızın, namuslu qız-gəlinlərimizin günahı? Vətən torpağını sevmək, onu qorumaq istəmək haçandan günah hesab olunurdu? O qanlı gecə Azərbaycan xalqı bir daha min illik qəhrəmanlıq tarixini ortaya qoydu, qəhrəmanlıq ənənələrini müdrikcəsinə sübut etdi. O sübut etdi ki, bu xalq azadlığı, torpağının müstəqilliyi yolunda ölümə hazırdır. Ölümə hazır olmayan millət isə azadlığını qazana bilməz. Yalın əllə müasir silahlara cavab verən cavanlarımız sübut etdilər ki, bu millət üçün azadlıq zəruriyyət səviyyəsinə yüksəlib. Azadlığını zəruriyyət bilən bir xalq isə artıq yetkin xalqdır. Bu cavanlar silahla deyil, ölümləriylə ölüm saçan tanklara meydan oxuyarkən artıq ölümün o tayına - yəni, ölümdən yüksək olan şəhidlik zirvəsinə yüksəldilər. Bu zirvədə olanlar Babəkin, Nəsiminin və Koroğlunun xeyir-duasını qazandılar. Onlar məlum həqiqəti bir daha təsdiq etdilər ki, vətən oğulları vətən uğrunda ölməyi bacarmasalar, vətən dirilməz. Vətən uğrunda ölməyi bacaran oğullarımızın şücaəti sayəsində biz özümüzü dünyaya tanıda bildik.

O qanlı gecə qəlbimizə elə dağ çəkildi ki, bu dağın sızıltısı torpaqlarımız azad olunmayınca davam edəcək və çəkdiyimiz bütün əzab və zilləti bizə həmişə xatırladacaq. Təqvimlərimizə 25-26 fevral qara hərflərlə yazılıb və gələcək nəsillər bu iki rəqəmi tarix kimi yadda saxlayıb, hər zaman qatilləri lənətləyəcəklər.

Bu kiçik qeydlərimi bu yaxınlarda haqq dünyasına qovuşmuş böyük şair Bəxtiyar Vahabzadədən gətirdiyim bir bənd şeirlə bitirmək istəyirəm:

Qara geydi bu Vətən,
Yox hayına bir yetən.
Həyata hamiləykən
Ölüm doğdu o gecə...

Daşdəmir ƏJDƏROĞLU.

"Azərbaycan".-2009.-26 fevral.-N 45.-S.4.

Soyqırıma gedən yol

İyirminci əsrin son on illiyinin ən dəhşətli faciəsi sayılan Xocalı soyqırımı bəşər tarixində ən qanlı olaylardan biri kimi daim xatırlanmaqla yanaşı, ermənilərin əsl mahiyyətinin, iç üzünün ifşa edilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir. Həyata keçirilmə metodu baxımından isə Xocalı faciəsinin tarixdə misli yoxdur. Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir.

Tarixin ən dəhşətli kütləvi terror aktının səhifəsi

XX əsrin Xocalı faciəsindən əvvəl dünyada iki yaşayış məntəqəsi eyni aqibətə uğramış, eyni metodla Yer üzündən silinmiş və sakinləri məhv edilmişdir. Bunlardan birincisi Belarusun Xatın kəndidir. 1941-ci ildə faşistlər Xatın kəndini tamamilə yandırmış, dinc sakinləri soyuqqanlıqla məhv etmişdilər. Buna bənzər ikinci hadisə Vyetnam müharibəsi zamanı Sonqmi kəndində baş vermişdir. Sonqmi kəndinin sakinləri partizanlara dəstək vermək bəhanəsi ilə böyükdən-kiçiyə qədər bütünlüklə məhv edilmişdir. Bu iki hadisə müharibə tarixinə dinc əhalinin soyqırımı olaraq daxil olmuş və bütün dünyada geniş əks-səda doğurmuşdur. Lakin onlar Xocalı faciəsi ilə müqayisə oluna bilməzlər. Bu iki kənddə törədilən faciələr yalnız Xocalıdan əvvəl erməni separatçıları tərəfindən qəsb edilərək yandırılıb - yaxılan, sakinləri qətl edilən altı Azərbaycan kəndi - Bağanis-Ayrım, Kərkicahan, Meşəli, Cəmilli, Malıbəyli və Quşçular ilə oxşar olar bilər. Xocalı soyqırımı miqyasına və böyüklüyünə görə, onların hamısından daha dəhşətli, daha müdhişdir. Azərbaycanın ümummilli lideri Heydər Əliyev bununla bağlı qeyd etmişdir: "Bu amansız və qəddar soyqırımı aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu".

Əslində, Xocalı faciəsi bir gecənin olayı deyildi. Ermənilər bu faciəyə Dağlıq Qarabağ münaqişəsi başlandıqdan sonra hazırlıq görmüşdü. Onlar Qarabağın digər ərazilərində də bu cür faciələr törətməyə çalışsalar da, bunun ən dəhşətlisini Xocalıda həyata keçirdilər. Xocalı faciəsinə gedən yolun başlanğıcı isə 1988-ci ilə, yəni, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin daha aydın şəkildə meydana çıxdığı dövrə təsadüf edir. Elə həmin vaxtdan Xocalı qətliamının da əsası qoyulurdu.

Faciənin başlanğıcı

"Böyük Ermənistan" yaratmaq xülyasında olan ermənilər bütün tarix boyu Azərbaycan torpaqlarına göz dikib və indi də bu məkrli niyyətlərindən əl çəkməyiblər. Ermənilərin bu niyyətinin növbəti dəfə açıq mərhələyə keçməsi 1985-ci ildə SSRİ-də ermənipərəst M.S.Qorbaçovun hakimiyyətə gəlməsi ilə özünü bir daha büruzə verdi. Lakin həmin vaxt ümummilli lider Heydər Əliyevin Siyasi Büroda olması ermənilərə və onların himayədarı olan Qorbaçova Azərbaycanla bağlı planlarının reallaşmasına, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin törədilməsinə imkan vermirdi. Elə bu səbəbdən həm ermənilər, həm də onların mərkəzi hakimiyyətdə olan himayədarları o vaxtlar Dağlıq Qarabağ Muxtar Vilayəti adlanan bu Azərbaycan bölgəsilə bağlı məkrli planlarını həyata keçirmək üçün M.S.Qorbaçovun vasitəsilə Heydər Əliyevin Siyasi Bürodan uzaqlaşdırılmasına nail ola bildilər. Təsadüfi deyil ki, ümummilli liderin Siyasi Bürodan getməsindən sonra 1987-ci ilin noyabrında erməni akademik A.Aqanbekyan Parisdə verdiyi açıqlamada Dağlıq Qarabağ Muxtar Vilayəti ilə bağlı SSRİ rəhbərliyinə təklif verdiklərini açıqladı. Elə bu vaxtlar erməni "Qarabağ Komitəsi", onun Dağlıq Qarabağ Muxtar Vilayətindəki separatçı-terrorçu təşkilatı "Krunk" gizli fəaliyyətlərinə son qoyaraq açıq şəkildə niyyətlərini bəyan etməyə, Azərbaycana qarşı ərazi iddiaları səsləndirməyə başladı. Bunun nəticəsi olaraq ermənilər tərəfindən "Miatsum" adlanan hərəkat da formalaşdırıldı. Bütün bunlar 1988-ci ilin fevralından etibarən, hadisələrin daha gərgin və aqressiv məcrada inkişafı ilə nəticələndi. Məhz həmin dövrdə həm Dağlıq Qarabağda, həm də Yerevanda Azərbaycan torpaqlarının Ermənistana birləşdirilməsi tələbilə silsilə mitinqlər başladı. SSRİ rəhbərliyi tərəfindən heç bir ciddi müqavimət görməyən və bundan daha da ruhlanan ermənilər Dağlıq Qarabağ Muxtar Vilayəti Sovetinin iclasında vilayətin statusuna baxılması haqqında Azərbaycan SSR Ali Sovetinə müraciət qəbul etdilər.

Elə həmin dövrdə ermənilərin niyyəti Dağlıq Qarabağın bir çox yaşayış məntəqələri kimi, Xocalını da özünümüdafiəsini gücləndirməyə vadar etdi. 1988-ci il fevralın 12-də Xocalı rəhbərliyi Əsgəranda keçirilən yığıncağa dəvət olundu. Yığıncaqda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ikinci katibi V.Konovalovun, şöbə müdiri M.Əsədovun iştirakına baxmayaraq, ermənilər Ermənistana birləşmək istədiklərini açıq şəkildə bəyan etdilər. Xocalının sabiq icra başçısı Elman Məmmədov xatırlayır ki, həmin yığıncaqdan çıxıb Xocalıya gəldikdən sonra ağsaqqallar və ziyalılarla təcili görüş keçirərək vəziyyəti onlarla müzakirə etdi. Elə həmin gündən Xocalının və ətraf kəndlərin müdafiəsi üçün müdafiə komitəsi yaradıldı. Xocalının müdafiəsi məqsədilə postlar təşkil olundu. Bu postlara çıxan dəstələrin isə silahları yalnız ov tüfənglərindən ibarət idi.

Ermənilərin Xocalı və bütövlükdə, Dağlıq Qarabağ üçün yaratdığı təhlükə ilə bağlı Bakıya, Moskvaya saysız-hesabsız teleqramlar vurulsa da, nəticə olmadı.

Sonrakı mərhələdə hadisələr daha gərgin məcrada inkişaf etməyə, qətllərlə müşayiət olunmağa başladı. Fevralın 24-də Əsgəran rayonunda erməni separatçıları tərəfindən iki azərbaycanlı gənc qətlə yetirildi, 19 nəfər isə müxtəlif dərəcədə yaralandı.

Azərbaycan ərazilərinin işğalının rəsmiləşdirilməsi

Ancaq bu hələ başlanğıc idi. Ermənilərin məkrli siyasətinin tərkib hissəsi olaraq Sumqayıtda əvvəlcədən hazırlanmış qəsdlər törədildi və bu işdə ermənilərin özü ilə yanaşı, SSRİ dövlət təhlükəsizlik orqanları da yaxından iştirak etdi. Əslində, burada əsas məqsəd Ermənistanda yaşayan azərbaycanlıları deportasiya etmək və Dağlıq Qarabağın Azərbaycandan qoparılmasına zəmin hazırlamaq idi. Bu siyasətin tərkib hissəsi olaraq Ermənistanda azərbaycanlıların yaşadığı şəhər və kəndlər yandırılmağa, soydaşlarımızın əmlakları yağmalanmağa, özləri buradan deportasiya olunmağa başladı. 1988-ci ildə isə öz tarixi torpaqlarında yaşayan 250 min azərbaycanlı bu ərazidən qovuldu, bununla da, Ermənistan monoetnik dövlətə çevrildi.

Ermənistandan zorla çıxarılan azərbaycanlıların bir hissəsi də Xocalıda yerləşdirildi. Onlara Xocalı rəhbərliyi tərəfindən torpaq sahəsinin ayrılmasını isə nə Əsgəran, nə də Xankəndi qəbul etmir və bu qərarı özbaşınalıq kimi qiymətləndirirdilər. Ermənistandan soydaşlarımızın deportasiyası isə hadisələrin bir qədər də gərgin məcrada inkişafına səbəb oldu. Artıq yollarda "Daş müharibəsi" gedirdi. Bu müharibə əsas etibarı ilə Xankəndi-Xocalı-Əsgəran arasında özünü göstərirdi. Bu istiqamətdə keçən yoldan azərbaycanlılara məxsus avtomobilləri ermənilər daşa tutur, onları əzir, sahiblərinə müxtəlif xəsarətlər yetirirdi. Bunun əvəzi isə daha çox Əsgərandan Xankəndiyə və ya əks istiqamətdə hərəkət edən və beləliklə, Xocalıdan keçmək məcburiyyətində qalan ermənilərə məxsus avtomobillərdən çıxılırdı. Elə bu səbəbdən ermənilər Xocalı maneəsinin mümkün qədər tez neytrallaşdırılmasına çalışır və kiçik bir həmlə ilə Xocalını məhv edəcəklərinə inanırdılar. Elə bu məqsədlə 1988-ci il sentyabrın 18-də Xankəndidə keçirilən nümayişdən sonra 12 minə qədər erməni 10 kilometrlik bir məsafəni piyada qət edərək Xocalıya tərəf üz tutdu. Ermənilərdən irəlidə isə 4 "Kraz" və "Kamaz" markalı yük avtomobilləri gəlirdi. O da məlum olmuşdu ki, ermənilərin arasında xüsusi təlim keçmiş döyüşçülər var. Ermənilər benzin doldurulmuş butulkalarla, ucu itilənmiş dəmirlərlə silahlanmışdılar. Lakin bunlar Xocalı sakinlərini qorxutmadı. Əksinə, Xocalıya iki kilometr qalmış ermənilərə qarşı az bir qüvvə ilə həmləyə keçən xocalılılar onları geri yola sala bildilər.

Hadisənin səhərisi günü Zori Balayan "YAK-140" təyyarəsi ilə 12 nəfər həkimlə birlikdə Ermənistandan Xankəndiyə gəldi. Yalnız sentyabrın 21-də Bakıdan Mərkəzi Komitə Xocalıya nümayəndə heyəti göndərdi. Lakin bu nümayəndələr ermənilər cəzalandırmağa yox, daha çox öz iradlarını bildirməyə gəlmişdilər. Hadisədən az sonra mərkəzdən gələn istintaq qrupu baş verənlərə görə, bir neçə Xocalı sakininin həbsinə dair qərar çıxardı. Bundan sonra yollarda və digər məntəqələrdə keşik çəkən sovet ordu qüvvələri ermənilərə tərəfdarlıq etməyə başladı.

SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsi vəziyyətin real qiymətləndirilməsində maraqlı deyildi. 1988-ci il martın 24-də mərkəz tərəfindən qəbul edilən "1988-1995-ci illərdə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında" tarixli qərar isə məsələnin separatçılıq aktı olmasını ört-basdır etməyə yönəlmişdi.

Belə bir dəstək erməni separatçılarının təcavüzkarlığını daha da artırdı. Nəhayət, Moskva Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycan SSR-in tərkibindən çıxartmaq istiqamətində daha bir addım atdı: SSRİ Ali Soveti Rəyasət Heyəti 1989-cu il yanvarın 12-də "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarəçilik formasının tətbiqi haqqında" qərar qəbul etdi. Burada əsas məqsəd Dağlıq Qarabağda yaradılmış Xüsusi İdarə Komitəsi vasitəsilə bu ərazilərin Azərbaycandan alınıb Ermənistana verilməsinin təminatına hesablanmışdı. Volskinin rəhbərlik etdiyi bu komitə Dağlıq Qarabağ ətrafında cərəyan edən hadisələrin daha gərgin məcrada inkişaf etməsinə səbəb oldu. Belə ki, komitənin fəaliyyətə başlamasından az sonra Xankəndidə yaşayan 14 min azərbaycanlı buradan zor gücünə çıxarıldı, geri qayıtmamaları üçün onların evləri yandırıldı. Xankəndini tərk etməyə məcbur qalan azərbaycanlıların bir qismi yenə də pənah yeri kimi Xocalıya üz tutdu. Bu dövrdə artıq odlu silahlardan daha geniş istifadə olunurdu. Həmin dövrdə Yerevandan Xocalı aeroportuna edilən gündəlik reyslərin sayı isə 30-a çatdı. Bu təyyarələr vasitəsilə ermənilər Xankəndiyə hərbi sursat daşıyırdılar. Ancaq sonradan Xocalı polisinin fədakar əməyi sayəsində Ermənistandan gələn reyslərin sayı 4-ə qədər azaldı. Hətta Moskvanın bu məsələyə qəti etirazını bildirməsinə baxmayaraq, Xocalı polisi inadından dönmədi və sərnişin reyslərindən başqa heç bir yük təyyarəsinin Xocalı aeroportuna enməsinə yol vermirdi. Buna görə ermənilər Xocalı polisini "Məhəmməd Əsədovun bandası" adlandırırdı.

Belə bir vaxtda Azərbaycan xalqının etirazı nəticəsində noyabrın 28-də Xüsusi İdarə Komitəsi ləğv edildi. Bununla belə, məkrli planın reallaşmasında maraqlı olan ermənilər və onların Moskvadakı himayədarları ləğv olunan Xüsusi İdarə Komitəsinin əvəzinə Təşkilat Komitəsi adlanan yeni bir qurumun yaradılmasına nail

oldular. Yeni komitəyə V.Polyaniçko təyin edildi. Ancaq onun fəaliyyəti dövründə vəziyyət daha da pisləşdi. Elə həmin dövrdə Ermənistan SSR Ali Soveti Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında antikonstitusion qərar qəbul etdi. Bu Ermənistan tərəfindən Azərbaycan ərazisinə qarşı açıq müdaxilənin başlandığını göstərən ilk rəsmi sənəd oldu. SSRİ rəhbərliyi isə nəinki ermənilərin bu qanunsuz əməllərinə göz yumur, əksinə, Azərbaycana qarşı daha ağır cinayətlərin törədilməsinə zəmin hazırlayır və özləri də bunda yaxından iştirak edirdi.

Bunun nəticəsində müasir hərbi texnika və silahlarla silahlanmış iri qoşun kontingenti 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə Bakıda qanlı qırğın törətdi. Bakı qırğınında erməni əsgər və zabitlərindən də istifadə olunduğu sonradan konkret faktlarla təsdiqləndi. Qanlı yanvar faciəsi SSRİ-nin süqutunun bir qədər də sürətlənməsini və istiqlaliyyət, ərazi bütövlüyü uğrunda mübarizəni daha da gücləndirdi.

Həmin dövrdə Qarabağda cərəyan edən hadisələr daha qanlı xarakter almaqda idi. Bu hadisələrin mərkəzində dayanan əsas yerlərdən biri də Xocalı idi. Qarabağın digər azərbaycanlılar yaşayan bölgəsi kimi bura da tez-tez ermənilər tərəfdən atəşə tutulurdu. Lakin bu dövrdə Azərbaycan hökuməti Xocalının müdafiəsini təşkil etmək əvəzinə, burada genişmiqyaslı tikinti işləri aparırdı. 1990-cı ilin aprelində isə Xocalıya şəhər statusu verildi. Xocalının mövqeyini və oynadığı rolu nəzərə alan təşkilat komitəsi çox zaman iclaslarını məhz Xocalıda keçirirdi. Bununla belə, ermənilər yenə Xocalını atəş altında saxlayır və bəzən buraya həmlələr etməyə cəhd göstərirdi. Ancaq hər dəfə layiqli cavablarını da alırdılar. Bu hal Xocalının işğal olunduğu günə qədər davam etdi.

1991-ci ildən etibarən isə Xocalıda vəziyyət daha da ağırlaşdı. Belə ki, Xocalıya gedən yollar ermənilər tərəfindən tez-tez bağlanırdı. Bu isə Xocalı ilə mütəmadi əlaqə saxlanmasında ciddi problemlər yaradırdı. Quru nəqliyyatından istifadə etmək olduqca təhlükəli hal alırdı. Bu səbəbdən şəhərlə əsas əlaqə vertolyot vasitəsilə saxlanırdı.

1991-ci ilin oktyabrından isə tam mühasirədə saxlanan Xocalıya gedən bütün avtomobil yolları bağlandı. Artıq şəhərlə gediş-gəliş yeganə nəqliyyat vasitəsi kimi vertolyotlarla həyata keçirilirdi. Belə vəziyyət şəhərə özünümüdafiə üçün silah, ərzaq və digər zəruri məhsulların çatdırılmasında ciddi problemlər yaradırdı. Həmin dövrdə Dağlıq Qarabağda erməni separatçıları da fəaliyyətini genişləndirirdi. Bunun nəticəsi olaraq 1991-ci ilin sentyabrında "Dağlıq Qarabağ Respublikası" adlanan oyuncaq dövlət yaradıldığı bildirildi. Həmin ilin noyabr ayının 26-da Azərbaycan Dağlıq Qarabağ Muxtar Vilayətinin statusu ləğv olunduğunu bəyan etdi.

Xocalı qətliamına hazırlıq

1991-ci ilin sonlarında SSRİ-nin dağılması ilə keçmiş sovet məkanında yeni geosiyasi şərait yarandı. Ermənistan, faktiki olaraq, Azərbaycana qarşı açıq və ədalətsiz müharibəyə başladı. Ermənistanın hərbi birləşmələri Azərbaycanın sərhədlərini pozub Qarabağa daxil oldular və Dağlıq Qarabağın erməni separatçıları - terrorçuları ilə birləşərək Azərbaycan torpaqlarının işğalına başladılar. Moskvadan və xaricdəki erməni diasporundan verilən dəstək, eləcə də o vaxtkı Azərbaycan rəhbərliyinin yarıtmaz siyasəti nəticəsində lazımi müqavimətlə üzləşməyən ermənilər 1991-ci ilin oktyabrında Tuğ və Səlakətin kəndlərini işğal etdi. Bunun ardınca Xocavənd kəndi də işğalçıların nəzarəti altına keçdi.

Bu dövrdə Xocalı yenə də döyüşür və ermənilərin işğal siyasətinin daha sürətlə genişlənməsinə mane olurdu. Belə ki, ermənilər azərbaycanlılar yaşayan kəndlərə hücum edəndə Xankəndi və erməni silahlılarının yerləşdiyi digər məntəqələr də Xocalıdan atəşə tutulur və düşmənin öz niyyətini həyata keçirməsinə maneələr yaradılırdı. Lakin Xocalıya və Qarabağın düşmən hücumuna məruz qalan digər bölgələrinə o vaxtkı Azərbaycan iqtidarı tərəfindən lazımi yardımlar edilməməsi və hakimiyyət uğrunda gedən savaşlar ermənilərin öz niyyətini daha asan reallaşdırmağa imkan verirdi. Məhz bunun nəticəsində 1992-ci il yanvarın 10-da ermənilər Axullu kəndini zəbt edə bildilər. Elə həmin ilin fevralında Malıbəyli və Quşçular kəndləri hücuma məruz qaldılar. Xankəndidə yerləşən 366-cı alayın bilavasitə iştirakı ilə bu kəndlər də ermənilər tərəfindən işğal olundu. Malıbəyli və Quşçular kəndlərinin işğalından bir neçə gün sonra Dağlıq Qarabağın ən iri yaşayış məskənlərindən olan Qaradağlı yenə də 366-cı motoatıcı alayın əsgər və zabit heyəti, eləcə də müxtəlif xarici ölkələrdən gətirilmiş muzdlu döyüşçülər hesabına ermənilərin əlinə keçdi.

Artıq 1992-ci il fevralın 18-də Xocalı istiqamətində olan yaşayış məntəqələri azərbaycanlılardan təmizlənmiş, yüksək mövqelər ermənilər tərəfindən tutulmuşdu. İndi ermənilər üçün əsas hədəf Xocalı idi.

Ermənilərin Xocalı şəhərini hədəfə almaqda əsas məqsədi bir tərəfdən Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət olan, strateji əhəmiyyətli ərazidə maneəni aradan qaldırmaq idisə, digər tərəfdən, ümumiyyətlə, Xocalını Yer üzündən birdəfəlik silmək idi. Öz miqyasına və dəhşətlərinə görə dünya tarixində analoqu az olan Xocalı soyqırımını törətməkdə erməni şovinistləri və ideoloqları həm də daha uzağa hesablanmış məqsəd güdürdülər. Onların əsas niyyəti Dağlıq Qarabağı və digər Azərbaycan torpaqlarını ələ keçirmək, xalqımızın müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizə əzmini qırmaq idi. Düzdür, buna nail ola bilməsələr də, ermənilər 366-cı alayın köməyilə tarixə ən dəhşətli qanlı səhifələrdən birini yazdılar.

7000 əhalisi olan Xocalı Xankəndidən 10 kilometr cənub-şərqdə, Qarabağın silsiləsində və Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının üstündə yerləşir. Qarabağdakı yeganə hava limanı da məhz Xocalıda idi. Ermənilərin Xocalıya əsas maraqlarından biri də onun bu cür strateji mövqedə olması və buradakı hava limanı vasitəsilə Ermənistanla daha rahat əlaqə yaratmaq məqsədinə çatmaq idi. Xocalıya sonuncu vertolyot 1992-ci il yanvar ayının 28-də endi. Şuşa səmasında mülki vertolyotun vurulmasından və içindəki 40 nəfər azərbaycanlının həlak olmasından sonra isə Xocalı ilə hava əlaqəsi də kəsildi. Yanvarın 2-dən şəhərə elektrik enerjisi də verilmirdi. Xocalılılar ancaq öz qəhrəmanlıqları və şəhər müdafiəçilərinin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdular. Şəhərin müdafiəsi qismən avtomat və ov tüfəngləri ilə silahlanmış yerli özünümüdafiə dəstəsi, yerli milis qüvvələri və könüllü döyüşçülərdən təşkil olunmuşdu.

Qeyri-bərabər döyüş

Fevralın ikinci yarısından başlayaraq Xocalı erməni silahlı dəstələri tərəfindən tam mühasirəyə alındı. Bundan sonra hər gün toplardan, ağır texnikadan atəşə tutulur, erməni dəstələrinin həmlələrinə məruz qalırdı. Belə dəstələr güclü silah-sursat və texnika ilə təchiz olunmuşdular. Xocalı əhalisinin gözlənilən təhlükədən xəbəri olsa və ölkə rəhbərliyi bu barədə məlumatlandırılsa da, yenə də heç bir tədbir görülmədi, Xocalı taleyin ümidinə buraxıldı. Xocalı şəhərinin sabiq icra başçısı, Milli Məclisin deputatı Elman Məmmədov bu məqamı belə xatırlayır: "Biz onları dəfələrlə məlumatlandırdıq. Nələrin baş verdiyini demişdik. Amma hakimiyyətin "qabiliyyəti" göz önündə idi. Bildiyiniz kimi, həmin vaxtlar iqtidara gəlmək istəyən AXC də bir tərəfdən hakimiyyəti iflic vəziyyətinə salmışdı. Başları hakimiyyət davasına qarışdığı üçün tək Xocalı yox, bütün torpaqlarımız müdafiəsiz qalmışdı. 1991-ci ilin noyabrından sonra Xocalıda hərbi qüvvə qalmamışdı. Yalnız Milli Qəhrəman Aqil Quliyevin başçılıq etdiyi 16 nəfərlik dəstə döyüşürdü. Onların da 12 nəfəri Xocalı hadisəsi zamanı döyüşlərdə şəhid oldu".

Ölkə rəhbərliyinin səriştəsizliyi və yaranmış şərait ermənilərin Xocalı ilə bağlı planlarının daha tez həyata keçirməsinə təkan verirdi. Fevralın 25-də Xocalı daha dəhşətli dərəcədə artilleriya və digər hərbi texnikadan atəşə tutulmağa başladı. Bu işdə yenə də 366-cı alayın texnikasından geniş istifadə olundu. Ümumiyyətlə, bu alay Xocalı ilə yanaşı, Azərbaycanın digər kəndlərinin də atəşə tutulmasında dəfələrlə iştirak edib. Bunun əsas səbəblərindən biri də alayda xeyli sayda ermənin olması idi. Yeri gəlmişkən qeyd edək ki, 366-cı alaydan Xocalıya edilən hücumda Ermənistanın indiki müdafiə naziri Seyran Muşeqoviç Ohanyan da yaxından iştirak edib. Xocalının işğalına dair istintaq materiallarından belə məlum olur ki, məhz onun komandanlığı altında 366-cı alayın 2-ci batalyonu, Yevgeni Nabokixinin komandası altında 3-cü batalyon, 1 saylı batalyonun qərargah rəisi Valeriy İsayeviç Çitçyan və alayda xidmət edən 50-dən artıq erməni zabit və gizir Xocalıya hücumda iştirak edib.

Hücumdan əvvəl isə şəhər aramsız şəkildə atəşə tutuldu. Xocalı sakini Şaiq Qurbanov həmin günü belə xatırlayır: "Fevral ayının 25-i axşamüstü idi. Bu ağır günlər elə bil adamları bir-birinə daha da doğmalaşdırmışdı. Hamı xoflu idi. Sakinlər dəhşət içərisində "İlahi, özün kömək ol" - deyə əllərini göyə tutaraq imdad diləyirdilər. Birdən atışma səsi gəldi. Əvvəl aeroport tərəfdən, sonra Mehdikənd sarıdan güllə səsləri çoxalmağa başladı. Güllə gələn istiqamətləri saydım: düz 9 yerdən atırdılar.

Güllələr dolu kimi yağırdı. Bir az sonra mərmilər də atmağa başladılar. Qarşımızdakı üçmərtəbəli evə düşən mərmidən toz aləmi götürdü. Sonra türklər məhəlləsindəki evlərdən biri alışdı. Bir oldu üç, üç oldu beş, beş oldu on beş. Köhnə Xocalıda, Qaladərəsində də evlər od tutub yanırdı. Artıq aləm qarışmışdı, adamlar qışqırıq içərisində ora-bura qaçır, çıxılmaz vəziyyətdə nə edəcəklərini bilmirdilər".

Xocalı özünümüdafiə batalyonunda döyüşən Rauf Qəmbərov isə o dövrü belə xatırlayır: "Fevralın 25-dən 26-na keçən gecə qərargahda növbətçi idim. Axşam saat 9 ərəfəsində Həsənabaddan ermənilərin danışığını tutduq. Eşitdik ki, bu axşam Xocalıya basqın olacaq. Tez evə gəldim. Arvad-uşağı qonşum Şiraslanın zirzəmisinə yığdıq. Qayıdanda gördüm ki, 366-cı alay ağır texnika ilə Xocalıya tərəf irəliləyir".

Həmin vaxt Xocalını qoruyanlar düşmənin qarşısını kəsməyə çalışsalar da, qeyri-bərabər şəraitdə ciddi müqavimət göstərsələr də, erməni hərbi birləşmələri 366-cı alayın köməyi ilə Xocalıya daxil oldu

Rasim BAYRAMOV.

"Azərbaycan".-2009.-26 fevral.-N 45.-S.5.

Türkiyə paytaxtının Keçiörən bələdiyyəsi Xocalı qətliamını soyqırımı kimi tanıyıb

Milli Məclisdə Xocalı soyqırımına hüquqi qiymət verilməsindən 15 il ötdüyünü deyən Vaqif Qasımov qardaş ölkə ictimaiyyətinin Azərbaycan həqiqətləri barədə yetərincə məlumatı olduğunu bildirir.

- 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda törədilən dəhşətli qətliamdan 17 il ötür. Erməni faşizminin mənfur xislətini tamamilə ifşa edən bu kütləvi soyqırımı aktı Azərbaycanın dövlət müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş mənfur siyasətin təzahürü olmaqla, təkcə azərbaycanlılara qarşı deyil, bütövlükdə bəşəriyyət əleyhinə törədilmiş qəddar cinayətdir. Beynəlxalq hüquq norma və prinsiplərinə məhəl qoymayan azğınlaşmış erməni silahlı birləşmələri Xocalıda bu soyqırımı əməlini törədərkən doğma torpağını qəsbkarlara vermək istəməyən Azərbaycan xalqını qorxutmaq, onun mübarizə əzmini qırmaq, məhv etmək niyyətini güdmüşlər.

Fevralın 26-da Ermənistan silahlı birləşmələri, Dağlıq Qarabağdakı erməni yaraqlıları, habelə uzun illər beynəlxalq ictimaiyyətə "sülhsevər" ordu kimi təqdim edilmiş keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı Xocalı şəhərini sakinləri ilə birlikdə məhv edərək, insanlığa silinməz ləkə olan soyqırımı aktını törətmişlər. Cəmi bir neçə saat ərzində 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca milli mənşəyinə görə qəddarcasına, dözülməz işgəncələr verilməklə öldürülmüş, 487 nəfərə ağır xəsarət yetirilmiş, 1275 sakin - köməksiz qocalar, uşaqlar, qadınlar girov götürülərək dəhşətli zülm, təhqir və həqarətə məruz qoyulmuşlar. Erməni qəsbkarları azərbaycanlıları qətlə yetirmək üçün hətta faşistlərin belə istifadə etmədikləri qəddar, tükürpədici üsullardan istifadə etmişlər.

Xocalı soyqırımı Azərbaycanın Qarabağ müharibəsində üzləşdiyi ən ağır itki, sonrakı məğlubiyyətləri qismən labüd edən faciə olmuşdur. Həmin dövrdə mərkəzi hakimiyyətin səriştəsizliyi, respublikada xaos və anarxiyanın baş alıb getməsi, hakimiyyət uğrunda amansız mübarizə, ordudakı başıpozuqluq, cəbhə xəttində yaşanan faciələrə göstərilən laqeydlik təkcə Xocalı faciəsinin deyil, sonrakı müsibətlərimizin də başlıca səbəblərindəndir. 1992-ci ilin mart-may aylarında Xocalı faciəsi ətrafında cərəyan edən siyasi oyunlar ümumilikdə Azərbaycanın Qarabağ itkisinin səhnəarxası gerçəkliklərini anlamaq üçün kifayət edir. Hadisəyə ilk günlərdən hüquqi və siyasi qiymətin verilməməsi 1992-ci ildə hakimiyyətdə olmuş qüvvələrin siyasi səbatsızlığından, milli faciəyə etinasızlığından irəli gəlmişdir. Xocalı faciəsinə laqeyd yanaşan Ayaz Mütəllibov iqtidarının devrilməsi yolu ilə hakimiyyətə yiyələnmiş AXC-nin bir illik fəaliyyəti dövründə də Xocalı faciəsi əsl siyasi qiymətini almamış, soyqırımı aktının dünya ictimaiyyəti tərəfindən tanınması üçün lazımi təbliğatı tədbirlər görülməmişdir.

Həmin dövrdə Milli Məclisin Qaçqınlar və xaricdə yaşayan soydaşlarla əlaqə komissiyasının sədri olmuş Vaqif Qasımov bildirdi ki, faciənin əsl səbəblərinin araşdırılması üçün hələ Mütəllibov hakimiyyəti dövründə komissiya yaradılsa da, heç bir obyektiv nəticə əldə olunmadı. Onun sözlərinə görə, AXC iqtidarı dövründə müəyyən şəxslər Xocalı faciəsinə hüquqi-siyasi qiymət verməkdə maraqlı deyildilər. "1992-ci ildə deputat Ramiz Fətəliyevin rəhbərliyi altında Milli Məclisdə yaradılmış istintaq komissiyasının hazırladığı hesabat faciə ilə bağlı gerçəkliyi tam olaraq özündə əks etdirmirdi. Sanki həmin dövrdə müəyyən qüvvələr bu faciəyə siyasi-hüquqi qiymətin verilməsində maraqlı görünmürdülər. Ayaz Mütəllibovdan sonra hakimiyyətdə olan Xalq Cəbhəsi də bu istiqamətdə heç bir real addım atmamışdı. Hətta həmin illərdə Xocalının icra hakimiyyətinin başçısı olan Elman Məmmədov Milli Məclisdə məsələ qaldırmışdı ki, faciəyə niyə obyektiv siyasi-hüquqi qiymət verilmir. Həmin vaxt mən özüm də məsələ ilə əlaqədar xarici işlər naziri vəzifəsini tutan Tofiq Qasımova və hökumət üzvlərinə müraciət etmişdim. Lakin belə görünürdü ki, müəyyən qüvvələr faciəyə siyasi-hüquqi qiymətin verilməsi məsələsinə nədənsə etinasız yanaşırlar" - deyə Vaqif Qasımov vurğuladı.

Onun sözlərinə görə, Xocalı soyqırımına obyektiv hüquqi-siyasi qiymətin verilməsi yalnız ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra mümkün olub. 1994-cü ilin əvvəlində ölkə rəhbərliyinin tövsiyəsi ilə bu istiqamətdə əməli addımlar atılıb. Milli Məclisin Qaçqınlar və xaricdə yaşayan soydaşlarla əlaqə komissiyasında "Xocalı soyqırımı haqqında" qərar layihəsi hazırlanaraq fevralın 24-də qəbul olunub. Həmin gün eyni zamanda Milli Məclisin soyqırımı ilə bağlı dünya azərbaycanlılarına rəsmi müraciəti ünvanlanıb.

- Azərbaycan Respublikası Milli Məclisinin 24 fevral 1994-cü il tarixli "Xocalı soyqırımı günü haqqında" qərarı ilə ermənilərin Xocalıda xüsusi amansızlıqla həyata keçirdikləri soyqırımı aktı əsl qiymətini alıb. Həmin qərarda fevralın 26-nın "Xocalı soyqırımı günü" kimi qeyd olunması, bu barədə beynəlxalq təşkilatlara məlumat verilməsi nəzərdə tutulmuşdur. "Milli Məclisin dünya azərbaycanlılarına müraciətində isə göstərilirdi ki, "Əcdadlarımızın və bizim müqəddəs vətənimiz olan Azərbaycan torpaqlarında, müstəqil

Azərbaycan Respublikasının ərazisində 6 ildir ki, müharibə gedir. "Böyük Ermənistan" xülyası ilə erməni xalqının başını dumanlandırmış Ermənistan Respublikasının işğalçı hərbi qüvvələri müxtəlif ölkələrin irtica qüvvələri tərəfindən aşkar və gizli şəkildə dəstəklənərək ölkəmizin 12 rayonunu zəbt etmişdir. Düşmən kənd və şəhərlərimizi viran qoyur, ulu yurdlarımızda ağlasığmaz cinayətlər, bəşər tarixində bənzəri olmayan vəhşiliklər törədir. Xocalı soyqırımı bunun təkzibolunmaz sübutudur" - deyə məlumat verən sabiq millət vəkili həmçinin vurğuladı ki, müraciətdə 1992-ci il fevralın 26-da Xocalı şəhərinin və onun sakinlərinin başına gətirilən ağır faciə XX əsrdə bəşəriyyətin şahid olduğu ən dəhşətli faciələrdən biri kimi qiymətləndirilmiş, Milli Məclis vətənə bağlı olan hər bir soydaşımızı, həmvətənimizi fevralın 26-nı "Xocalı soyqırımı kimi" tanımağa çağırmışdır.

Bir müddət Azərbaycanın Türkiyədəki səfirliyinin birinci katibi vəzifəsində çalışmış Vaqif Qasımov hesab edir ki, aparılan təbliğat işi nəticəsində qardaş ölkənin ictimaiyyətində Xocalı soyqırımı ilə bağlı obyektiv qənaət formalaşıb. Onun sözlərinə görə, ölkə rəhbərliyinin lazımi diqqət və qayğısı ilə Azərbaycanın Türkiyədəki səfirliyi faciənin tanıdılması istiqamətində ardıcıl və sistemli iş aparıb. "Xocalı faciəsi ilə bağlı ilk növbədə Türkiyə ictimaiyyəti dolğun və obyektiv məlumatlara malik olmalıdır. Yalnız bundan sonra Türkiyə hökuməti və Böyük Millət Məclisi faciənin soyqırımı kimi tanınması istiqamətində müəyyən addımlar ata bilər. Bütövlükdə, Türkiyə ilə sıx bağlı olduğum 1997-2005-ci illərdə - Türkiyə Bölgələrarası Standartlaşdırma Təşkilatının baş katibi, sonralar Mərmərə Qrupu Vəqfi İqtisadi Zirvələrinin baş katibi, eləcə də Azərbaycanın qardaş ölkədəki səfirliyində çalışdığım dövrdə dost ölkənin aparıcı kütləvi informasiya vasitələrinin diqqətini bu soyqırımına yönəltməyə çalışmışam. Qardaş ölkədə nəşr olunan onlarla qəzetdə dərc etdirdiyim məqalələrdə faciə ilə bağlı həqiqətlər geniş əksini tapmışdır. Türkiyənin digər mətbuat və televiziya kanallarında da hər il Xocalı soyqırımı haqqında çoxlu sayda materiallar yer alır. Bununla belə, hesab edirəm ki, faciənin tanıdılması istiqamətində bundan sonra da xaricdə yaşayan soydaşlarımız fəallıq nümayiş etdirməlidirlər".

Vaqif Qasımov bildirdi ki, Xocalı soyqırımını Türkiyədə ilk olaraq rəsmən tanıyan Ankaranın Keçiörən bələdiyyəsi olub. 1 milyon 300 min vətəndaşın yaşadığı bələdiyyənin 9 mart 2005-ci il tarixli qərarında göstərilir ki, ermənilər 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində yüzlərlə dinc sakinin amansızlıqla qətlə yetirilməsi ilə nəticələnən soyqırımı törədiblər. Bələdiyyə qərarında həmçinin Ermənistanın təcavüzkar dövlət olduğu, Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxladığı xüsusi vurğulanıb. Sənəddə qətliam qurbanlarının xatirəsinin əbədiləşdirilməsi üçün "Xocalı xatirə lövhəsi"nin hazırlanması məsələsi də əksini tapıb. 2005-ci il martın 9-da Keçiörən bələdiyyəsinin sədri, Azərbaycanın böyük dostu Turqut Altınokun, Türkiyə-Azərbaycan Dostluq Qrupunun sədri, millət vəkili Haluk İpək və digər rəsmi şəxslərin, habelə KİV nümayəndələrinin iştirakı ilə Keçiörəndə Xocalı soyqırımı qurbanlarının xatirəsinə qoyulmuş xüsusi lövhənin açılışı olub. "Abidənin açılış mərasimində iştirak edənlər bir daha ermənilərin tarixən azərbaycanlılara və türklərə qarşı həyata keçirdikləri soyqırımı faktlarından söz açdılar. Həmçinin bütün çıxışlarda birmənalı səsləndi ki, Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarından çıxmayınca, Türkiyə təcavüzkar dövlətlə sərhədlərini açmayacaqdır" - deyən Vaqif Qasımov sonda vurğuladı ki, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyev Azərbaycan həqiqətlərinin bütün dünya ictimaiyyətinə çatdırılması istiqamətində ardıcıl və sistemli iş aparır. Xaricdə yaşayan hər bir azərbaycanlı bu prosesdə fəal iştirak etməli, dövlət başçısının yeritdiyi siyasətə dəstəyini fəal surətdə verməlidir.

S.ELMANOĞLU.

“Azərbaycan”.-2009.-26 fevral.-N 45.-S.8.

Müdhiş gecənin şahidləri

De ki, Xocalı erməni şəhəridir.
- Xocalı Azərbaycan şəhəridir!
- Bir də deyirəm, təkrar et ki, Xocalı erməni şəhəridir.
- Xocalı Azərbaycan şəhəridir!
- Sən, deyəsən, ölməkdən qorxmursan.
- Adam ölümə görə yurdunu satmaz.
- Xocalının erməni şəhəri olduğunu söylə, səni, yoldaşını və qızını azad edək.
- Xocalının erməni şəhəri olduğunu söyləməyə vicdanım və qürurum heç vaxt yol verməz - həyat yoldaşımı və körpə övladımı öldürsəniz belə.
- Yandırın dizinə qədər! İndi yəqin biz deyəni deyərsən.
- Xocalı Azərbaycan şəhəridir və həmişə bizim olacaq...

Adam ölümə görə yurdunu satmaz

Pirşağıdakı "Qızılqum" sanatoriyasında 17 ildir, məcburi köçkünlük həyatı yaşayan Əntiqə Qəhrəmanova kürəkəni Təvəkkülün qəhrəmanlığından danışdıqca qəhərdən özünü saxlaya bilmir, ağlayırdı. Ermənilər Xocalıya hücum edəndə Təvəkküllə həyat yoldaşını və körpə qızını əsir götürürlər. Təvəkkülü ağaca bağlayıb ondan Xocalının erməni şəhəri olduğunu deməyi, əvəzində isə öldürməməyi vəd edirlər. Lakin Təvəkkül bütün işgəncələrə mətinliklə dözərək Xocalının Azərbaycan şəhəri olduğunu deyir. Ermənilər onu əvvəlcə dizinə qədər yandırırlar. İstədikləri cavabı ala bilmədikdə isə onu həyat yoldaşının və övladının gözü qarşısında diri-diri yandırırlar. Yoldaşını və qızını isə güllələyirlər.

1992-ci il fevralın 25-dən 26-na keçən qanlı gecənin şahidi olan 71 yaşlı Əntiqə nənə qızının, nəvəsinin başına gətirilən müsibətləri yada saldıqca sızlayır, kürəkəninin adının heç yerdə çəkilməməsindən giley edir. Əzizlərinin acı taleyi onu nə qədər incitsə də, kürəkəni Təvəkkülün qəhrəmanlığı ilə fəxr edir. Əntiqə nənə Xocalıdan çıxdıqları zaman yaşadıqları ağrı-acını danışanda Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevin adını dönə-dönə çəkdi. Dedi ki, Əlif olmasaydı, bəlkə mən də sağ qala bilməyəcəkdim. Xocalıdan çıxanda yanımda olanların əksəriyyətini ermənilər öldürdülər. Başımıza güllə yağa-yağa, ayağımız, başımız açıq halda qaçırdıq. Getdikcə də yolda neçə qadın-qızın döşünün kəsildiyini, neçəsinin meyitinin eybəcər hala salındığını gördük. O gecə başımıza gəlməyən müsibət qalmadı. Mən heç özüm də bilmirəm o gün necə sağ qalmışam. Meşələrlə, qayaların, tikanlı kolların arası ilə ayaqyalın, başıaçıq birtəhər gəlib özümüzünkülərin yanına çatdıq. Şaxtalı havada meşədə əlimə batmış tikanları 4 gün çıxarda bilmədim.

Əntiqə nənə Xocalıdan danışdıqca, ağlayır, yurd həsrətinə dözmədiyini deyir. "Hər gün Xocalını yuxuda görürəm, elə bilirəm ki, torpaqlarımız alınıb və Xocalıya qayıtmışıq".

Xocalını tərk edəndə Əntiqə nənənin qız nəvələrindən böyüyünə iki yerdən güllə dəyir. Uşaq iki ay Sabunçuda, xəstəxanada müalicə alır. Qızının yadigarı olan iki aylıq Vüsala isə həmin gecə möhkəm soyuq dəydiyi üçün 4 yaşına qədər qulağından müalicə edilir.

Əntiqə nənənin gileyi də vardı. Ermənilərin qızını və kürəkənini vəhşiliklə qətlə yetirdikdən sonra Əntiqə nənə qızının üç övladını saxlayıb, böyüdüb, ərsəyə çatdırıb. Amma indiyə qədər bir nəfər qapını açıb deməyib ki, Əntiqə nənə, ata-anasız qalmış üç nəfərə baxarsan, bəlkə nəyəsə ehtiyacın var?

Əntiqə nənə "Qızılqum" sanatoriyasının binasında yaşayır. Altı nəfərdən ibarət ailəsi bir otaqda qərar tutub. Onlar da məcburi köçkünlər üçün tikilən rahat şəraitli mənzildə yaşamaq istəyirlər. Əntiqə nənə deyir ki, bizə də ev versinlər, canımız bu şəraitsizlikdən qurtarsın. Sabah da torpağımız alınanda həmin evi dövlətimizə təhvil verək gedək.

Ağ qar qırmızı rəng almışdı

Hazırda Pirşağıdakı Xocalı şəhər orta məktəbində müəllimə işləyən Səidə Cəfərova da o müdhiş gecənin canlı şahididir. Onun dediklərindən:

- Fevralın 25-də axşama doğru ermənilər Xocalını atəşə tutmağa başladılar. Adəti üzrə atışma düşəndə qadınlar, yaşlılar, uşaqlar zirzəmilərə doluşurdular. Həmin günün axşamı da atışma başlayanda üz tutduq zirzəmiyə. Amma bir az keçəndən sonra, - təxminən gecə saat 11 olardı, - dedilər ki, ermənilər sovet ordusunun bölmələri ilə birləşib şəhərə hücuma keçiblər, hər tərəfdən tanklarla bizi mühasirəyə alırlar. Məsləhət görüldü ki, qadınlar, qocalar körpələri də götürüb meşə ilə Ağdama tərəf getsinlər. Zirzəmidən çıxıb yanacaqdoldurma məntəqəsinin yanına gəldik. Vəziyyət o qədər gərgin idi ki, əynimizə palto, ayaqqabı geyməyə macal tapmamışdıq. Xocalı camaatının bir hissəsi yanacaqdoldurma məntəqəsinin yanına yığılmışdı.

Ermənilərin hücumu getdikcə şiddətlənirdi, şəhəri topa tuturdular. Elə burdan meşə yolu ilə Ağdam tərəfə üz tutduq. Camaat dəstələrlə, necə gəldi, kor-koranə gedirdi. Tərslikdən həmin gün möhkəm şaxta idi. Ayağımda ayaqqabı olmadığından ayaq barmaqlarımın ucu sırsıra bağlamışdı. Əllərimi demək olar ki, hiss etmirdim. Səhərə yaxın birtəhər gəlib Xocalı ilə Ağdamın arasında yerləşən Qarakənd kəndinin yaxınlığına çatdıq. Elə burda ermənilər camaatımızın qarşısını kəsib, böyük əksəriyyətini qırdılar. Şumluq olan bu ərazidə daldalanmağa, güllədən gizlənməyə yer yox idi. Məcbur olub qarda sürünə-sürünə ərazini keçməyə başladıq. Amma hava işıqlandığı üçün ermənilər adamları görürdülər. Mənimlə bir yerdə olanların bir hissəsi həlak oldu, bir qismi isə yaralandı... Biz Xocalını nisbətən tez tərk etmişdik. Ona görə də alaqaranlıqda sağ qalanlar oldu. Amma elələri vardı ki, Xocalıdan bir qədər gec çıxmışdılar. Ermənilər onların əksəriyyətini əsir götürdülər. Əsir götürə bilmədiklərini isə öldürdülər. Mən də çiynimdən yaralandım. Al-qan içində idim. Sürünə-sürünə bir xeyli getdikdən sonra yolu tanıyanlar dedilər ki, artıq Ağdamın Şelli kəndinə çatmışıq. Ayağa qalxdıq. Bir az da gələndən sonra gördük ki, Şellidə çoxlu maşın dayanıb. Demə, ermənilərin Xocalıya hücum etdiyi, camaatı qırdığı barədə xəbər Ağdama çatıbmış. Sağ qalan xocalılıların hansı istiqamətdən gələ biləcəklərini təxmini bildikləri üçün Ağdam camaatı bura toplaşmışdı. Sağ olsunlar, bütün yaralıları öz maşınlarına mindirib Ağdam mərkəzi xəstəxanasına çatdırdılar. Səhər tezdən bütün həkimlər artıq işdə idilər. Bizi palatalara yerləşdirdilər. Kimisini əməliyyat etdilər, kimisini də təcili Bakıya yola saldılar. Gecə ikən ermənilər Ağdamı da atəşə tutdular. Mərmilərdən biri düz xəstəxanaya düşdü. Məni və bir neçə yaralını həkimlər öz maşınları ilə gətirib qatara mindirdilər. Oradan da bizi Bakıya yola saldılar. Bakıda 15 gün xəstəxanada müalicə aldıqdan sonra Pirşağıda yerləşdik.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə bütün dünya Azərbaycanın Xocalı şəhərində dəhşətli bir vəhşiliyin şahidi oldu. Erməni hərbi birləşmələri 366-cı alayın köməyi ilə Xocalını yerlə yeksan etdilər. Köməksiz mülki əhali isə yalnız azərbaycanlı olduğu üçün amansızlıqla qətlə yetirildi. Körpələrə, əlsiz-ayaqsız qocalara belə, aman verilmədi. Gecə vaxtı dinc əhaliyə hücum etmək, uşağa, qadına, qocaya, xəstə insanlara vəhşicəsinə, görünməmiş qəddarlıqla əzab-əziyyət vermək, onları öldürmək düşmənlərimizin nə qədər vandal olduğunu bir daha sübut edir. O dəhşətli gecə Azərbaycan xalqının ürəyinə bir süngü kimi vurulduğu üçün Xocalı yarası həmişə qəlbimizi ağrıdacaq. Xocalı soyqırımı tayı-bərabəri olmayan vəhşilik aktı ilə yanaşı, həm də bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir.

Rəşad CƏFƏRLİ,
A.MƏMMƏDOV

“Azərbaycan”.-2009.-26 fevral.-N 45.-S.6.

Beynəlxalq hüquq Xocalı qətliamının soyqırımı olduğunu tam təsdiqləyir

1992-ci il fevralın 25-dən 26-na keçən gecə xüsusi qəddarlıqla törədilmiş Xocalı faciəsi iki yüz ilə yaxın müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı, ən qanlı səhifəsidir. Xocalı qətliamı Ermənistanın Dağlıq Qarabağı işğal etmək məqsədi ilə apardığı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin miqyasda ən dəhşətlisidir. Tarixi abidələri ilə fərqlənən, Azərbaycan tarixinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edən qədim mədəniyyətə, strateji önəmə malik Xocalı rayonu erməni separatizminin, şovinizminin qurbanı olmuşdur.

Həmin gecə erməni cəlladları Xankəndidə yerləşən 366-cı alayın yaxından köməyilə Xocalıya soxulub onu tamamilə yandırdılar. Kərkicahanın, Malıbəylinin, Meşəlinin ardınca tarixdə misli-bərabəri olmayan Xocalı müsibəti baş verdi. Bu faciə XX əsrin Xatın, Sonqmi və Xirosima müsibətlərindən də acınacaqlı idi. Bu hərəkətləri ilə uzun illərdən gizli müharibəyə hazırlaşan torpaqlarımızda məskunlaşmış ermənilər XX əsrin sonlarına yaxın həmin əsrin əvvəllərində olduğu kimi, Azərbaycan xalqının bir daha qənimi olduqlarını sübut etmiş oldular. Əslində, ermənilər Xocalı şəhərinin mühasirəsinə hələ 1991-ci ilin oktyabrında başlamışdır. Xankəndi ilə Əsgəran arasında strateji yer olan Xocalının ələ keçirilməsi ermənilərin əsas məqsədlərindən idi. 1991-ci il oktyabrın 30-da Xocalı ilə quru əlaqəsi tamamilə kəsilmişdi və ara-sıra görünən vertolyotlar mühasirədə qalan 2500 nəfərlik Xocalını Azərbaycanla bağlayan yeganə nəqliyyat vasitəsi idi. 1992-ci il yanvarın 28-də Ağdam-Şuşa reysi ilə uçan mülki vertolyotun Xankəndidən atılan raketlə vurulmasından sonra Xocalı ilə hava əlaqəsinə də tamamilə son qoyuldu. 1992-ci il yanvarın 2-dən Xocalıya hətta elektrik enerjisi də verilmirdi, şəhər büsbütün təcrid olunaraq taleyin ümidinə buraxılmışdı. Fevralın ikinci yarısından etibarən Xocalı dörd bir yandan erməni yaşayış məntəqələrindən intensiv artilleriya atəşinə məruz qalırdı. Şəhərin mühasirədən çıxarılması üçün kağız üzərində çeşidli planlar cızılsa da, onların heç biri gerçəkləşdirilmirdi.

Həmin dövrdə hakimiyyətdə olan rejimin Qarabağı qorumaq bacarığına malik olmadığı qabarıq görünürdü. Üstəlik silahlı qüvvələr siyasi intriqaların güdazına verilmişdi. 1992-ci il yanvarın sonu - fevralın birinci yarısında Kərkicahan, Quşçular, Malıbəyli və Qaradağlı kəndlərinin işğalına ölkə rəhbərliyinin göstərdiyi biganəlik Xocalıya münasibətdə də aşkar idi. Güc nazirliklərinin tez-tez dəyişdirilməsi hərbi uğursuzluqların əsas səbəblərindən birinə çevrilmişdi. Xocalının müdafiəsi üçün mərkəzi hakimiyyət səviyyəsində planlı tədbirlərin həyata keçirilməməsi son nəticədə ermənilərin 1992-ci il fevralın 25-dən 26-na keçən gecə amansız qətliamına şərait yaratmış oldu.

Şəhəri mərdliklə qoruyan, əllərindəki yüngül silahlarla döyüşən xocalılılar təpədən-dırnağadək silahlanmış orduya qarşı uzun müddət tab gətirə bilmədilər. Şəhəri yalnız atıcı silahları olan yerli özünümüdafiə dəstələri qoruyurdu. Əlbəttə, bu qüvvələr ən müasir hərbi texnika ilə təchiz edilmiş, əvvəlcədən xüsusi hazırlıq keçmiş silahlı birləşmələrə müqavimət göstərməyə qadir deyildi. Yaşayış evləri dağıdılaraq yandırıldı, şəhəri tərk etmək məcburiyyətində qalan, Qarqar çayı boyunca Ağdam şəhərinə üz tutan dinc əhali Naxçivanik kəndi yaxınlığında erməni silahlıları ilə qarşılaşdı: uşaqlar, qadınlar, qocalar, əlillər çalın-çarpaz atəşə məruz qalaraq xüsusi amansızlıqla qətlə yetirildilər. Soyqırımı törədənlər Xocalı sakinlərini misli görünməmiş qəddarlıqla öldürmüş, diri-diri yandırmış, başlarının dərisini soymuş, gözlərini çıxarmışdılar.

Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdikləri növbəti genosid - Xocalı soyqırımı 613 nəfərin, o cümlədən 106 qadının, 63 azyaşlı uşağın, 70 qocanın həyatına son qoydu. 487 nəfər şikəst oldu, 1275 dinc sakin əsir götürüldü, 150 nəfər itkin düşdü. Bu soyqırım aktı nəticəsində bəzi ailələr bütünlüklə məhv edildi, mülki əhali görünməmiş qəddarlıqla qətlə yetirildi, əsir götürülənlərə amansız işgəncə verildi. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyətlə törədilməsi beynəlxalq və dövlətdaxili hüquqa əsasən məhz soyqırımı olduğunu sübut edir. Erməni qəsbkarlarının törətdikləri bu vəhşilik və vandalizm aktı tərəqqipərvər bəşəriyyətin genosid kimi tanıdığı Xatın və Sonqmi faciələri ilə eyni səviyyədə qiymətləndirilməlidir. Bu dəhşətli cinayət əməlinin məqsədi doğma torpağının müdafiəsinə qalxmış dinc əhalini qorxudub onun mübarizə əzmini qırmaq, eyni zamanda, ölkədə siyasi vəziyyəti qarışdıraraq Azərbaycan torpaqlarının işğalını asanlaşdırmaq olmuşdur. Bununla birlikdə, bəzi xarici dövlətlərdən böyük miqdarda hərbi yardım alan Ermənistan Respublikasının silahlı qüvvələri Xocalı faciəsindən sonra tezliklə özünə gələ bilməyən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin işğalını qısa müddətdə başa çatdırmış və ətraf rayonların zəbt edilməsi planlarının icrasına başlamışdı.

Xocalıda baş verənlər soyqırımı aktı olsa da, o zaman Azərbaycanda hakimiyyətdə olan qüvvələrin məsuliyyətsizliyi və səhlənkarlığı üzündən erməni vandalizminin gerçək mahiyyəti barədə dünya ictimaiyyəti yetərincə məlumatlandırılmamışdı. Rəsmi təbliğat Xocalıda cəmi iki nəfərin öldüyünü iddia etməklə soyqırımı

faktının miqyasını kiçiltmişdi. O zamankı ölkə rəhbərliyinin bu faciəyə olduqca laqeyd və qətiyyətsiz münasibəti nəticəsində ermənilərin işğalçılıq, etnik təmizləmə, terrorçuluq, habelə Xocalı soyqırımı kimi dəhşətli cinayət törətməsinə dünya ictimaiyyəti biganə yanaşmış, təcavüzkarın cilovlanması üçün beynəlxalq səviyyədə hansısa təsirli tədbirlər görülməmişdir.

BMT-yə yeni üzv qəbul olunmuş Azərbaycanın həmin dövrdə bu mötəbər təşkilatın prinsiplərinə əsaslanmaqla Xocalıda baş verən faciənin soyqırımı kimi tanınması istiqamətində zəruri tədbirlər həyata keçirməməsi də olduqca üzücü və təəssüfləndirici faktdır. Halbuki beynəlxalq hüquqa görə genosid sülh və bəşəriyyət əleyhinə yönələn əməl olaraq ən ağır beynəlxalq cinayətlərdən biri sayılır. BMT Baş Məclisinin 1946-cı il 11 dekabr tarixli 96 (I) saylı qətnaməsində isə qeyd olunur ki, genosid, insan qruplarının yaşamaq hüququnu tanımamaqla insan mənliyini təhqir edir, bəşəriyyəti insanlar tərəfindən yaradılan maddi və mənəvi dayaqlardan məhrum edir. Belə bədnam əməllər BMT-nin məqsəd və vəzifələrinə tam ziddir. BMT Baş Məclisinin 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanın 2-ci bəndində göstərilən şərtlər də Xocalı faciəsinin məhz soyqırımı adlandırılmasına tamamilə imkan yaradırdı. Konvensiyaya qoşulan dövlətlər sülh, yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq, genosidin beynəlxalq hüquq normalarını pozan cinayət olduğunu təsdiq edərək, onun qarşısının alınması və səbəbkarlarının cəzalandırılması üçün tədbirlər görməyi öhdələrinə götürmüşlər. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit olunmuş genosid cinayətini təşkil edən bütün əməllər tətbiq olunmuşdur. Həmin beynəlxalq sənəddə göstərilir ki, hər hansı milli, etnik, yaxud dini qrupun tam və ya qismən məhv edilməsilə törədilən bir sıra hərəkətlər genosid (soyqırımı) cinayətinin mahiyyətini təşkil edir. Bu hərəkətlər - həmin qrupun üzvlərinin öldürülməsi, ağır bədən xəsarətinin, onların fiziki məhvinə səbəb olan həyat şəraitinin yaradılması, uşaqların zorla bir insan qrupundan alınıb başqalarına verilməsi törədilmiş cinayətin soyqırım kimi tövsif edilməsinə əsas verir. Bu hüquqi meyarlardan yanaşdıqda, ermənilərin Xocalıda törətdikləri dəhşətli cinayətlərin genosid olduğuna heç bir şübhə qalmır. Həmin gün mənfur erməni silahlı birləşmələri Xocalı əhalisini məhz milli-etnik, dini səbəblərlə son nəfərinədək qətlə yetirmək, məhv etmək məqsədini qarşıya qoymuşdular.

Ermənistanın müharibə zamanı beynəlxalq hüquq normalarına məhəl qoymaması ilə bağlı faktlar yalnız bununla bitmir. Beynəlxalq humanitar hüququn tələblərinə əsasən müharibə yalnız silahlı münaqişədə olan tərəflərin silahlı qüvvələri arasında aparılmalıdır. Mülki əhali döyüşlərdə iştirak etməməli və onlarla hörmətlə davranılmalıdır. "Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair" IV Cenevrə Konvensiyasının 3-cü maddəsinə əsasən mülki əhalinin həyatına və təhlükəsizliyinə qəsd, o cümlədən onların hər cür öldürülməsi, şikəst edilməsi, onlarla qəddar davranılması, onlara əzab və işgəncə verilməsi, insan ləyaqətinə qəsd, təhqir və alçaldıcı hərəkətlər qadağan edilir. Konvensiyanın 33-cü maddəsində isə qeyd olunur ki, heç bir mülki şəxs törətmədiyi hüquq pozuntusuna görə cəzalandırıla bilməz. Mülki əhaliyə qarşı kollektiv cəza tədbirlərinin görülməsi, mülki əhalini qorxuya salmaq, onlara qarşı terror hərəkətləri, bu insanların repressiyaya məruz qoyulması birmənalı qadağan edilir. Həmin Konvensiyanın 34-cü maddəsinə görə mülki əhalinin girov götürülməsi də qadağandır. Lakin təkcə Xocalıda 1000-dən artıq insanı girov götürən ermənilər bu prinsipə də aşkar sayğısızlıq nümayiş etdirmişdilər. Ermənistan silahlı qüvvələri bu hüquq normalarına məhəl qoymamış, Xocalıda dinc əhalinin məhvi üçün ən qəddar üsullara əl atmışlar.

Xocalı soyqırımı və işğalçı Ermənistanın torpaqlarımızda törətdiyi digər faciələr nəticəsində "İnsan hüquqları haqqında Ümumi Bəyannamədə", "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasında və digər beynəlxalq aktlarda təsbit olunmuş hüquq və azadlıqlar, o cümlədən insanların yaşamaq hüququ kobud şəkildə, kütləvi surətdə pozulmuş, insanların şərəf və ləyaqəti tapdalanmışdır.

1992-1993-cü ilin yarısına qədər hakimiyyətdə olmuş səriştəsiz və yarıtmaz qüvvələr bu və digər hüquq normalarına əsaslanmaqla Xocalı faciəsinin real mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması üçün heç bir iş görmədilər. Halbuki artıq Dağlıq Qarabağ münaqişəsi beynəlxalq ictimaiyyətin diqqət mərkəzinə gətirildiyi, beynəlxalq müstəvidə danışıqların başlandığı dövr idi. Ermənilər Azərbaycanın guya təcavüzkar olduğunu sübuta yetirmək üçün təbliğat maşınını tam gücü ilə işə salaraq "Sumqayıt olaylarını" dünyaya bəyan etdilər. Biz isə yaşadığımız gerçək qətliamı dünyanın önünə çıxarmağa tələsmirdik. Hətta 1993-cü il fevralın 23-də imzalanmış "Azərbaycana qarşı edilmiş vəhşiliklərin açıqlanması haqqında" fərman da kağız üzərində qalmışdı.

Xocalı soyqırımının beynəlxalq müstəvidə tanıdılması və erməni faşizminin ifşası ilə bağlı ilk praktik təşəbbüs isə ulu öndərimiz Heydər Əliyevin xalqın təkidli tələbilə hakimiyyətə qayıdışından sonrakı mərhələyə təsadüf edir. Ümummilli liderimiz ilk gündən Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi soyqırım və terror siyasətinin mahiyyətini, habelə ərazilərimizin işğalından sonra Dağlıq Qarabağın terrorizm mənbəyinə çevrilməsi, orada narkotik maddələrin yetişdirilməsi, mədəni abidələrin məhv edilməsi faktlarının və digər faktların dünya ictimaiyyətinə çatdırılmasını xarici siyasətdə mühüm vəzifələrdən biri kimi

müəyyənləşdirdi. Bu məqsədlə atılan mühüm addımlardan biri də erməni təcavüzü nəticəsində üzləşdiyimiz milli faciələrimizə siyasi-hüquqi qiymətin verilməsi oldu.

Ulu öndərin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı soyqırımı günü haqqında" qərar qəbul etmiş, BMT-yə, dünya dövlətlərinə bu qətliamın gerçək mahiyyətini açıqlayaraq beynəlxalq ictimaiyyəti erməni terrorizminə qarşı təsirli tədbirlər görməyə çağırmışdır. Son 17 ildə Xocalı həqiqətlərinin dünyaya tanıdılması, Ermənistanın sovet hərbi dairələrinin dəstəyi ilə həyata keçirdiyi insanlıq əleyhinə cinayətin beynəlxalq miqyasda ifşası istiqamətində xeyli iş görülmüş, xarici dillərdə kitablar, sənədlər dərc olunmuş, Xocalı genosidi müxtəlif təşkilatlarda gündəmə gətirilmiş, bununla bağlı bir çox internet saytları yaradılmışdır.

Ümummilli lider hər zaman Xocalı faciəsinə xüsusi həssaslıqla yanaşmışdır. Ulu öndər Heydər Əliyev hər il faciənin ildönümündə keçirilən matəm tədbirlərində iştirak etmiş, Xocalı soyqırımını kədər hissi ilə xatırlamışdır. Xocalı faciəsinin Azərbaycan xalqının qan yaddaşı olduğunu dəfələrlə bəyan etmiş ulu öndərimiz hadisələrə beynəlxalq aləmdə əsl siyasi qiymətin verilməsinin zəruriliyini vurğulamış, bu məsələnin dünya ictimaiyyətinə çatdırılması üçün xüsusi səy göstərmişdir. Faciəni xalqımızın böyük dərdi, kədəri, qəmi adlandırmış Heydər Əliyev eyni zamanda Azərbaycanımızın əsrlər boyu keçdiyi mübarizə, milli azadlıq yolunu şanlı, uğurlu yol kimi dəyərləndirmişdir.

Ulu öndər Heydər Əliyevin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 25 fevral 1997-ci il tarixli sərəncamı ilə hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilir. Azərbaycan Respublikası Milli Məclisinin 26 fevral 2002-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Xocalı soyqırımının 10-cu ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı"nda isə bəyan edilir ki, Azərbaycan dövləti mövcud imkanların hamısından yararlanaraq ərazi bütövlüyünün bərpasını təmin edəcək, Xocalı faciəsinin əsl beynəlxalq hüquqi-siyasi qiymət almasına, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılmasına nail olacaqdır.

Yüz ildən artıq dövrdə erməni xalqının bir neçə nəslinin Azərbaycan xalqına qarşı düşmənçilik ruhunda tərbiyə edilməsi nəticə etibarı ilə XX əsrin sonlarında sivil dünyanın gözü qarşısında Xocalı soyqırımı kimi qanlı faciənin baş verməsinə gətirib çıxarmışdır. Hadisələr göstərir ki, bu gün erməni millətçiləri hələ də özlərinin bədnam və çirkin niyyətlərindən əl çəkməyiblər. Qəddar üsullarla dinc insanları kütləvi qırğına məruz qoyan erməni millətçiləri tarix qarşısındakı cinayətlərini ört-basdır etmək məqsədilə müxtəlif vasitələrə, tarixi saxtalaşdırmağa əl atır, öz xeyirlərinə yazmağa cəhd edir, bu işdə xaricdəki erməni lobbisinə arxalanırlar.

Təəssüf ki, insan hüquqlarının kütləvi və kobud şəkildə pozulması ilə nəticələnmiş Xocalı soyqırımına hələ də beynəlxalq miqyasda hüquqi qiymət verilməmiş, terrorçu, işğalçı əməllərə qarşı qəti tədbirlər görülməmişdir. Ümumbəşəri dəyərlərlə, beynəlxalq hüquqi normalara əsasən düşünmək və qərar qəbul etməyin zamanı çatmışdır. Nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanın haqq mövqeyini dəstəkləməli, işğalçı Ermənistan dövlətinə qarşı səlahiyyətli beynəlxalq qurumlar tərəfindən sanksiyalar tətbiq olunmalıdır.

S.MUSTAFAYEV.

“Azərbaycan”.-2009.-26 fevral.-N 45.-S.8.

Xocalı faciəsi yaradıcılıq əsərlərində.

Bu mövzuda daha çox publisistika öz sözünü deyib

Xocalı faciəsi bizim üçün sözün həqiqi mənasında dərsdir. Bu faciə bizim bir millət olaraq XX yüzilin sonlarında ikinci dəfə müstəqilliyimizi qazandığımız dövrə təsadüf etdi. Xocalı əhalisi əliyalın qaldı. 20 yanvar faciəsi ilə bağlı incəsənətin demək olar, bütün sahələrində soraqlar olduğu halda Xocalı mövzusunda hələ ki, daha çox publisistika sözünü deyib. Bu mövzuda radio-telekanallarda, qəzet-jurnallarda xeyli yazılar çap olunub. Lakin faciənin "mövsümilikdən çıxması", sözün əsl mənasında faciəvilikdən birdəfəlik qurtulmağımız yönündə düşünməyimiz, bu inamın incəsənətin bütün sahələrində ifadəsini tapması son dərəcə gərəkli bir məsələdir.

Xocalı Faciəsinin canlı şahidləri bildirirlər ki, Xocalıdan diri tutulanların biri olan Vidadinin erməninin qəbri üzərində başı kəsilib. 6 yaşında Xocalı faciəsini görən oğlu Taleh həmin gecəni belə xatırlayır: "Həmin gecə atam postdan yenicə qayıtmışdı. Dedi ki, vəziyyət pisdir. Anam süfrə açdı, elə süfrə başına toplaşmaq istəyirdik ki, hər tərəfdən atəş açıldı. Atəşin arası kəsilmirdi. Atam silahını götürüb getdi. O andan başlayaraq Xocalı ardıcıl atəşə tutuldu. Hər yanda qırğın, qiyamət, qan vardı. Atam çıxanda dedi ki, həyətdəki hamamda gizlənin. Mən, balaca bacım, anam, bibim və başqa qohumlarımız hamamda gizləndik. Qızları hamamdakı odun qalağının arxasında gizlətdilər. Ermənilər gəldilər. Birdən bacımı öskürək tutdu, ermənilər səsdən bildilər ki, burda adam var, hamımızı tutdular". Uşaqlar və qadınlar 4 gün hamamda qalıblarmış. Əsirləri Ağdama dəyişmək üçün gətirirlər. O zaman bunları qoymurlarmış ki, ətrafa baxmaq olmaz. Balaca Taleh isə maşındakı balaca deşikdən baxır, hər yanın meyitlərlə dolu olduğunu, hətta çəpərlərin üstündən körpə uşaqların meyitlərinin asıldığını görür...

Azərbaycan rəssamlığında Xocalı faciəsi ilə bağlı rəssamlarımız əsərlər yaradıblar. Bu mövzuda Rəssamlar İttifaqı tərəfindən sərgi də təşkil edilib. Xocalı mövzusunda ən diqqətçəkən plakat tez-tez qəzet-jurnallarda rastlaşdığımız Vaqif Ucatayın əsəridir. Əsərdə türk uşağının qarnına qılınc saplanıb, qan hər yana tökülüb...

Tanınmış rejissor, xalq artisti Mərahim Fərzəlibəyov bu mövzuda "Qırmızı qar" adlı film çəkib. Filmin ssenari müəllifi Ağarəhim Rəhimov, bəstəkarı Cavanşir Quliyevdir. Hər il müxtəlif telekanallar bu filmi nümayiş etdirirlər. Rollarda Məleykə Əsədova, İftixar Piriyev, Ələsgər Məmmədoğlu, Səmayə Sadıqova və başqaları çəkiliblər. Bu mövzuda "Azərbaycanfilm" tərəfindən Oruc Qurbanovun rejissorluğu ilə "Ağrı" filmi də çəkilib. Ümumən Qarabağ, Xocalı mövzusunda soydaşlarımızın yadında ən yaxşı qalan "Fəryad" filmidir. Bu filmdə Xocalı ilə bağlı ştrixlər xüsusi nəzərə çarpır. "Qırmızı qar" filminin rejissoru M.Fərzəlibəyov Xocalı mövzusunda rejissorların daim düşünməsinin vacibliyini deyir: "Ermənilər qaniçən olduqları dərəcədə özlərinin yazıq obrazlarını daim dünyaya təqdim ediblər. Biz isə belə bir faciə ilə üz-üzə qaldığımız dərəcədə hələ də bu barədə kifayət qədər dünyanı xəbərdar etməmişik".

M.Fərzəlibəyov 20 yanvar faciəsi ilə müqayisədə Xocalı mövzusu ilə bağlı dramaturji materialın azlığını qeyd edir: "Hər halda Xocalı mövzusunda publisistika çox iş görüb. Mən şəxsən rejissorlarımızdan bu mövzuda əsərlər gözləyirəm".

Dövlət Gənclər Teatrında Qarabağ mövzusunda əsərlər teatr tərəfindən səhnələşdirilib. Hüseynbala Mirələmovun "Vicdanın hökmü" əsəri Qarabağ hadisələri ilə bağlıdır. 20 Yanvar mövzusuna Rafiq Səməndərin həsr etdiyi "Şəhidlər" tamaşası mərhum rejissor Hüseynağa Atakişiyevin quruluşunda 1991-ci ilin 20 yanvarında səhnələşdirilib.

Mərhum bəstəkar Ramiz Mustafayev konkret Xocalı mövzusunda əsər yazmasa da, Qarabağ, milli azadlıq mövzusunda xeyli əsərlərin müəllifi idi. Bu sıradan onun mərhum Nəbi Xəzrinin sözlərinə yazdığı "Salatın" oratoriyasını, Məmməd İsmayılın sözlərinə yazdığı "Bu qan yerdə qalan deyil" vokal simfonik poemasını, Hikmət Ziyanın sözlərinə yazdığı "Haqq sənlədir, Azərbaycan" kontatasını qeyd etmək olar. Ümumiyyətlə, 90-cı illərdən üzü bəri tanınmış Azərbaycan bəstəkarları Hacı Xanməmmədov, Vasif Adıgözəlov, Sərdar Fərəcov, Xəyyam Mirzəzadə və başqaları xeyli vətənpərvərlik mahnıları yazıblar.

Tanınmış rəssam Rza Avşar bu mövzuda bütün incəsənət adamlarının daim düşünməli olduğunun vacibliyini önə çəkir: "Bu dəhşətli hadisəni eşidəndə uzun müddət şokda qaldım. Ümumiyyətlə, Xocalı mövzusu rəssamlıqda ifadəsini tapsa da, hər halda ortada olan nümunələr məni tam qane etmir. Hesab edirəm ki, rəssamlarımız bundan sonra bu mövzuda daha ciddi düşünməlidirlər". Hər halda rəssamın gördüyünü çəkməsi daha təsirli alınır. Amma rəssam bütün faciələrin, hadisələrin birbaşa şahidi olmur. Əsas məsələ rəssamın bu və ya digər mövzunu nə dərəcədə özünəməxsus ümumiləşdirməsidir. Xocalı dəhşətini heç zaman unutmaq olmaz: "Ümumiyyətlə, belə bir faciə barədə adi danışmaq olmur. Gərək daim bu faciə barədə uşaqlara, gənclərə söhbət

edək, faciəyə tuş gəldiyimizi beyinlərə və ürəklərə yeridək. Elə ki, bu mövzuda danışmaq kampaniya xarakteri alır, o zaman edilən cəhdlərin səmərəsi azalır".

Rəssam Xocalı faciəsi mövzusunda iki əsər çəkib. Faciədən az sonra yaradılmış əsərlər "Xəzər" jurnalında çap olunub. "Xocalı" adlanan əsər (90x125) yağlı boya ilə çəkilib. Əsərdə qara, bozumtul fon aparıcıdır. Xocalı şəhərinin üstünü qara buludlar alıb. Hiss olunur ki, rəssam ağrını duya, göstərə bilib. Həmin gecənin dəhşəti ayın surətini qırmızı qana boyayıb. Səma ərşə bülənd olan insan fəryadları ilə dolub. Uzaqlardan səmanın aydınlığı görünsə də, qara fon aparıcıdır. Şəhərin halında qan və alov hakimdir. Erməni ruhsuzluğu, zəbtçiliyi, qaniçənliyi, insansızlığı viran qoyduğu Xocalı səhnəsinin o gecəki real görüntüsünü bizə çatdırır. Artıq səhərdir. Bu qanlı vəhşəti təbiət dondurub, olduğu kimi dünyaya göstərir. Rəssamın həmin ildə çəkdiyi başqa bir əsəri "Ekstremist" adlanır. Təxminən "Xocalı" böyüklükdə olan əsərdə mifik obrazvari sifət insan sifətinə oxşamayan, acgöz dişləri qabaran, qara sifətli vəhşi, caynaqlı bədheybət bir obraz olaraq təsvir olunub. Hər halda bu obraz erməni xislətinin rəssamlıqda ifadəsi kimi anlaşıla, qəbul edilə bilər.

Elçin Qaliboğlu

“Xalq Cəbhəsi”. -2009. – 26 fevral. - № 37. - S. 14.

Xocalı-bəşəri faciə

Qarabağ münaqişəsi başlayandan bəri beynəlxalq təşkilatların, Cənubi Qafqazda böyük maraqların ikili standartlarını nəzərə alsaq, ötən illərdə Xocalı soyqırımının dünyaya çatdırılmasında bir sıra işlərin görüldüyünü demək mümkündür. Azərbaycanın müvafiq strukturlarının, ictimaiyyətimizin, diaspor təşkilatlarımızın, qeyri-hökumət təşkilatlarımızın, ayrı-ayrı soydaşlarımızın Xocalı soyqırımının tanıdılması istiqamətində gördükləri işləri ədalətli şəkildə qiymətləndirmək lazımdır. Amma çox təəssüf ki, bu soyqırımın başqa ölkələrin parlamentlərində tanınması kimi ciddi faktı əldə edə bilməmişik. Əgər qardaş Türkiyənin "dinçi" AKP hökumətinin rəsmi şəxsləri MHP-nin Xocalı faciəsi ilə bağlı hazırladığı qanun layihəsini və müzakirələr aparılması təşəbbüsünə əngəl olursa, onda bu faciənin tanınmasında Azərbaycanın üzləşdiyi çətinlikləri, problemləri başa düşmək olar.

Bura Fransa, Rusiya kimi birmənalı ermənipərəst mövqe tutan, qondarma soyqırımla bağlı qanunu parlamentlərində qəbul edən ölkələri əlavə etsək vəziyyətin ürəkaçan olmadığını dərk etmək mümkündür. ABŞ Konqresində çoxluğun "erməni soyqırımı" qanun layihəsini qəbul etməyə hazırlaşmasını nəzərə alsaq, konqresmenlərin Xocalı faciəsinə diqqət yetirəcəyinə inanmaq çox çətindir. Qondarma soyqırım iddiaları vasitəsiylə Türkiyəyə, Azərbaycana təzyiqlər göstərən Qərb dairələrinin (beynəlxalq təşkilatların, hökumətlərin, parlamentlərin, araşdırma mərkəzlərinin və s.) 1992-ci ildə bütün dünyanın gözü qarşısında baş verən faciəni hələ uzun müddət diqqətdən kənar qoyacağı birmənalıdır. Çünki bəzi dairələr heç bir əsası olmayan qondarma soyqırıma inandığını göstərməklə "məzlum" ermənilərin Azərbaycan torpaqlarını işğal etməsinə birbaşa və ya dolayısı ilə haqq qazandırırlar. Ürəyimizi ağrıtsa da, millətimizə düşmən dairələrin "qan pulu" (qondarma erməni soyqırımı) əvəzinə "torpaq" (Azərbaycanın işğal olunmuş əraziləri) prinsipiylə hərəkət etməsi get-gedə daha aydın şəkildə özünü büruzə verir. O qədər harınlayıblar ki, zənginliklərini xammal şəklində sorub apardıqları Azərbaycanın haqq səsini susdurmağa çalışırlar. Hətta vəziyyət o yerə gəlib çatıb ki, Azərbaycanın Silahlı Qüvvələrini gücləndirməsi, iqtisadi cəhətdən güclənməsi və s. belə xristian təəssübkeşliyindən çıxış edən, orta əsrlərin missioner prinsiplərindən uzaqlaşa bilməyən dairələrin (təəssüf ki, bu dairələr beynəlxalq düzənin müəyyənləşdirilməsində mühüm rol oynayırlar) qəzəbinə, etirazına, narazılığına səbəb olur. Elə bu günlərdə Azərbaycan əleyhinə bəyanat verən həmsədrlərin həyasızlıqları da həmin düşmənçiliyin bir nümunəsidir. Bu "vasitəçilərin" Xocalı soyqırımına ədalətli qiymət verəcəyini gözləmək də yersizdir. Əgər təriqətçi və Azərbaycana qarşı qərəzli münasibəti ilə fars şovinizmindən heç bir şeylə fərqlənməyən AKP hökumətinin oyunlarını da xatırlatsaq, Azərbaycan bu gün faktiki olaraq hələlik informasiya müharibəsində təkdir, yalqızdır. Amma bizim haqq işimiz, bu işə inamımız var. Özlərini müsəlman saya-saya İslamın qoyduğu qanunları pozan AKP hökumətinə, özlərini demokrat, insan hüquq müdafiəçisi saya-saya ən böyük haqsızlığa yol verən Qərb dairələrinə inanmaq yersizdir.

Azərbaycan dövləti, milləti hər an vətənimizi işğal etməyə hazır olan Rusiyanın, fars şovinizminin meydan suladığı "müsəlman" İranın hədələri, işğalçı Ermənistanın həyasızlığı ilə üz-üzədir. Üzdə özlərini dost göstərsələr də hər Azərbaycanı parçalamağı planlaşdıran qara qüvvələrə qarşı dayanmaq üçün Azərbaycan səbrlə inkişaf etməli, güclənməli, demokratikləşməli, nəhəng problemlərin həlli üçün millətimizin ürəyində təpər, ümid olmalıdır. Azərbaycan cəmiyyətində nəhəng problemlərin öhdəsindən gəlməyə inam yaradılmalıdır.

Ötən illər ərzində Xocalı soyqırımının tanıdılması baxımından əcnəbi vətəndaşların Azərbaycanın haqlı mövqeyini dəstəkləməsi, səsimizə səs verməsi unudulmamalıdır. Məsələn, Rusiyanın "Memorial" insan hüquq təşkilatının Xocalı faciəsi ilə bağlı hazırladığı hesabatlar nəzərdən qaçırılmamalıdır. İlk dəfə "Memorial" bir beynəlxalq təşkilat kimi Xocalı faciəsinin dünya səviyyəsində tanıdılması üçün görünməmiş iş görüb. Bu təşkilat Xocalıya hücumda Rusiya Federasiyasının 366-cı polkunun, Robert Köçəryanın, Serj Sərkisyanın, Seyran Ohanyanın, rus hərbçilərinin və s. iştirakı, 613 azərbaycanlının öldürülməsi, yüzlərlə soydaşımızın əsir götürülməsi, yaralanması və s. haqqında geniş məlumat verib. "Memorial" ermənilərin Xocalda törətdikləri qətliamı təsvir etmir, "məzlum" ermənilərin azərbaycanlıları necə qətlə yetirməsini üzə çıxarıb. Bu beynəlxalq təşkilat Xocalı sakinlərinə qarşı beynəlxalq cinayətin törədildiyini, həmin 1948-ci ildə qəbul olunmuş İnsan Haqları Bəyannaməsinin müddəalarının pozulduğunu elan edib. Qeyd edək ki, həm Rusiya, həm də Qərb mətbuatında Xocalı faciəsi ilə bağlı dəfələrlə ədalətli, qərəzsiz yazılar dərc olunub. Çox təəssüf ki, yalançı politoloq Melik Şahnazaryan kimi ermənilərlə yanaşı, Xocalı faciəsini Xalq Cəbhəsinin, azərbaycanlıların özlərinin törətdiyinə dair iddiasıyla çıxış edərək "düşmənin dəyirmanına su tökən" məxluqatlar da mövcud olub.

Amma Xocalı faciəsi, Qarabağ həqiqətləri haqqında Qərb jurnalistlərinin, araşdırmaçılarının yazıları, kitabları da az deyil. Həmin dövrdə "İzvestiya" qəzetinin müxbiri V.Belıx, fransız jurnalist Jan İv Yunet, "Sandi Tayms", Tayms" qəzetlərinin müxbirləri və s. qəzet-jurnalların təmsilçiləri baş verənlərə biganə qalmayıblar. Samuel A. Uimsin "Terrorçu-"xristian" erməni dövlətinin sirləri", Tomas de Vaalın "Qarabağ ayıbı", Tomas

Qolsun əsərləri və s. Qarabağ münaqişəsi, Xocalı faciəsi haqqında həqiqəti ortaya çıxarır. Belə faktları xaricilərin Xocalıda baş verən bəşəri faciəyə ədalətli reaksiyası kimi qiymətləndirmək mümkündür.

Bu yazını yazarkən erməni informasiya agentliklərinin, qəzetlərinin saytlarını ələk-vələk etdik. Qəribə bir mənzərə ilə qarşılaşdıq. Ötən illərdə olduğu kimi ermənilər Xocalı faciəsi ilə bağlı susurlar. Əgər melik şahnazaryanlar kimi həyasızları, Xocalıda azərbaycanlı uşağı qanına qəltan etdiyinə görə fəxr edən Zori Balayan kimi qaniçən "yazıçıları" nəzərə almasaq, ermənilərin rəsmi şəxsləri, qəzetləri Xocalı soyqırımı haqqında danışmırlar. Çünki 1992-ci ilin fevral ayının 26-da Xocalıda baş verənlər ermənilərin mahiyyətini, qaniçənliyini, qudurğanlığını, "məzlumluğunu" üzə çıxaran dəhşətli bir faktdır. Bu faktın arxasında Azərbaycanın başına gətirilən faciələrin miqyasını və onun-bunun hesabına yaşayan ermənilər Cənubi Qafqaza gətirib çıxaranların bəşəriyyətə qarşı düşmənçiliyi, qaniçənliyi, əzazilliyi görünür.

Bütün təzyiqlərə baxmayaraq, Azərbaycan cəmiyyəti, dövləti, milləti, diasporu Xocalı faciəsinin soyqırım kimi bütün dünyada tanınması istiqamətində daha ciddi işlər görməlidir. Çünki biz ermənilər kimi qondarma hadisələrdən danışmırıq, biz təkcə Azərbaycanın deyil, bütün dünyanın üzləşdiyi bir bəşəri faciəni tanıtmağa çalışırıq. Bu bəşəri faciənin tanınması dünyanın özünün yaxın keçmişinə baxıb, yeni minillikdə daha ədalətli olması üçün vacibdir.

Bayram

“Xalq Cəbhəsi”. -2009. – 26 fevral. - № 37. - S. 3.

Dərd

Xocalı. Düz 17 ildir ki, bu adın ağrısı ilə, sızıltısı ilə, göynərtisi ilə yaşayırıq. Sadəcə, yaşayırıq. Hərdən fikirləşirəm ki, biz bu 17 ildə nə etmişik? Hansı ölkənin parlamenti Xocalı faciəsini soyqırımı kimi tanıyıb? Cavabsız suallardır, elə deyilmi? Və müsbət heç nə yoxdur.

Mən kimdəsə günah axtarmıram. Günah hamımızdadır. O da faktdır ki, bəzilərimiz bütün dərdlərdən, problemlərdən, faciələrdən yalnız öz maraqlarımız naminə istifadə etməyə öyrəşmişik. Maraqlar bitəndə isə hər şey tükənir. Ən azından yeni maraq yarananadək.

Əziz oxucu, bu gün açıb vərəqlədiyin bütün qəzetlər Xocalıdan yazır. Baxdığımız televiziyalar Xocalıdan bəhs edən verilişlər hazırlayıb. Məhz bu gün. Uzağa getməyək, elə iki gün öncə televiziyalarımız efirə verdikləri musiqili proqramlarla sanki bir-birilə bəhsə girmişdilər.

17 ildir Xocalını məhv edilmiş şəhər kimi dünyada tanıda bilməməyimizin, bəlkə də, ən birinci və ən böyük səbəbi də məhz elə budur. Düz 200 ildir belədir. Hansısa faciəmizi məhz həmin günlər yaxınlaşanda xatırlayırıq. Ağlayırıq, göz yaşı tökürük, matəm qururuq. Amma bircə günlük. Sabah həyat yenidən başlayır. Heç nə olmamış kimi. Bu, normaldır? Bilmirəm, bəlkə də, belə olmalıdır. Özümüzdə təsəlli tapırıq ki, hər bir millətin tarixində bu cür faciəli günlər olub və yəqin, gələcəkdə də olacaq. Mən demirəm ki, bütün il boyu göz yaşı tökək. Göz yaşı tökməklə dərdimiz azalmır, əksinə, özümüzdə bir yazıqlıq, qorxaqlıq formalaşdırırıq. Bəs, biz nə etməliyik?

Neçə gündür ki, qəzetləri izləyirəm, televiziyalara baxıram. Dünyanın hər tərəfində Xocalı ilə bağlı tədbirlər keçirilir və ya keçiriləcək. Əcəba, biz bu tədbirləri niyə hər gün, hər həftə, hər ay keçirmirik? Mən buna da şükür edirəm. Vay o günə ki, biz Xocalı kimi faciələrimizin baş verdiyi günləri unudaq. Bu, lap dəhşət olar.

Maraqlı olan başqa bir məqam da var. Xocalıyla, işğal tarixlərimizlə bağlı keçirdiyimiz tədbirlərə yalnız türkləri və azərbaycanlıları dəvət edirik. Halbuki, bizim özümüzün yenidən bu məlumatları almağa ehtiyacımız yoxdur. Bu, bizim tarixdir və hər bir millət öz tarixini yaxşı bilməlidir. Və bilirik ki, bu faciələri başımıza kim gətirib. Görəsən, bütün bunları bildiyimiz halda, təkrara nə ehtiyac var? Bilmirəm, bəlkə də, doğru edirlər. Bizim kimi unutqan millətə "Təkrar biliyin anasıdır" deyimini təkrarlamaq həmişə yerinə düşər.

Düz 17 ildir ki, biz öz dərdimizi, Xocalı ağrımızı özümüz deyib, özümüz eşidirik. Bəlkə, elə buna görədir ki, bu gün Xocalı ağrısını bizə yaşadan sarkisyanlar, köçəryanlar hakimiyyətdədirlər.

Halbuki dərdimizi bizə ağıl öyrədən, sülhdən, demokratiyadan, insan haqlarından danışan avropalıya çatdırmalıyıq. Avropalıya çatdırmaq üçün də çalışmaq, çalışmaq və çalışmaq lazımdır. Çalışmaq və mübarizə aparmaq üçün də müəyyən maraqlardan imtina etmək gərəkdir. Yeni texnologiyadan istifadə etməliyik. O texnologiyadan ki, o Avropanı, Qərbi ayağa qaldırıb Xocalı faciəsini soyqırımı kimi tanımağa məcbur etsin.

Biz çalışmalıyıq. Bir qrup qadın müğənniciklərə maşın, mülk almaq üçün yox. Xocalını ekranlara, evlərə daşıyacaq filmlər çəkmək üçün çalışmalıyıq. Elə film çəkməliyik ki, Oskar alsın. Oskar alacaq filmə isə ən azından Məleykə Əsədovanın və digər məşhurlarımızın villalarının qiyməti qədər pul lazımdır. Məncə, lazım olsa, o pulu zorla, güc-bəla ilə imkanlılarımızın cibindən çəkib çıxartmalıyıq. Çünki bu dərd bizim ümumi dərdimizdir. Düz 17 ildir ki, biz sinəmizdə Xocalı dərdini gəzdiririk.

Dərdsiz olasınız. Dərdiniz dağlara-daşlara.

Xoşqədəm Baxşəliyeva

“Üç nöqtə”.-2009.-26 fevral.-N.36.-S.5.

Dünya, Xocalı hanı?

Ermənilər tərəfindən 1992-ci ilin fevral ayında Xocalıda vəhşicəsinə törədilmiş qanlı faciə yaddaşlarımızda əbədi silinməyəcək izlər qoyub. Hər birimizin ürəkağrısı ilə xatırladığı bu qətliamla bağlı qəzetlərdə qələmə alınan yazılarda, nəşr edilən kitablarda, ekranlaşdırılan filmlərdə və başqa mənbələrdə kifayət qədər sanballı məlumatlar yer alır. Amma bununla yanaşı, Xocalı genosidi, həmçinin o zaman adıçəkilən şəhərdə baş verən olaylarla bağlı araşdırmalara bu gün də böyük ehtiyac duyulur. Yazıçı-jumalist Ziyəddin Sultanov "Qarabağ müharibəsi: faktlar... hadisələr... düşüncələr" adlı kitabında Xocalı faciəsindən öncə orada baş verən hadisələr, həmçinin, soyqırım barədə kifayət qədər ətraflı faktlar ortaya qoyub.

Z. Sultanov hələ "Kommunist" (indiki "Xalq qəzeti") qəzetində çalışdığı dövrdə Dağlıq Qarabağa, xüsusilə Xocalı şəhərinin işğal olunmasından qabaq burada baş verən olaylarla əlaqədar müntəzəm məlumatlar verib. Buna baxmayaraq, o dövrdə hakimiyyətdə olan səriştəsiz qüvvələr jurnalistin bu həyəcan dolu çağırışlarına biganə yanaşaraq, Xocalıda cərəyan edən hadisələrə laqeyd münasibət bəsləyirdilər. Yazıçı məhz o zaman dövri mətbuatda qələmə aldığı məqalələri "Qarabağ müharibəsi: faktlar... hadisələr... düşüncələr" adlı kitabına yerləşdirərək, o vaxtki hadisələri xronoloji ardıcıllıqla, özünəməxsus şəkildə oxuculara çatdırıb.

Müəllif 1990-cı ilin iyun ayında qələmə aldığı "Xocalı ümid şəhəridir" başlıqlı məqaləsində yeni şəhər statusu almış Xocalının ətrafının erməni yaşayış məntəqələrilə əhatə olunduğunu qeyd edərək, rayonun köməyə ehtiyacı olduğunu bildirir: "... Bu gün Xocalı şəhəri Dağlıq Qarabağın azərbaycanlılar yaşayan ən iri yaşayış məntəqələrindən biridir... Xocalı təkcə coğrafi mənada şəhər deyil, Xocalı həm də ümid və dayaq şəhəridir".

Sovet İttifaqı dağılmağa başladığı bir zamanda ermənilər öz çirkin əməllərindən geri qalmayaraq, "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə Azərbaycan torpaqlarını zəbt etmək üçün Dağlıq Qarabağda, eləcə də ətraf rayonlarda yaşayan azərbaycanlılar,- hədə-qorxu gəlməklə, onları öz yurd-yuvalarından didərgin salır, avtobusları, yolları, körpüləri, evləri partladır, insanları vəhşicəsinə qətlə yetirirdilər. Z. Sultanov məsələ ilə əlaqədar kitabında yer verdiyi "Partlayış" adlı məqaləsində qeyd edir: "1991-ci il fevralın 24-də erməni quldurları növbəti cinayəti törətmişlər. Şuşa-Ağdam marşrutu üzrə işləyən "69-90 AQP" nömrəli sərnişin avtobusu Stepanakert yaxınlığında partladılmışdır... Bəli, fövqəladə vəziyyət rayonunda təxribatlar ara vermir, yollar kəsilir, günahsız adamların qanı axıdılır. Qəti tədbir görən, konkret ölçü götürən isə yoxdur".

Z. Sultanov Xocalıda vəziyyətin gün-gündən dəyişdiyini, ermənilərin şəhərə etdiyi silahlı basqınların artdığını və rus qoşunlarının buna heç bir reaksiya verməməsi ilə bağlı meşələri ölkə ictimaiyyətinə çatdırmaq məqsədilə 1991-ci ilin aprelində işıq üzü görən "Gecəyarı basqın" məqaləsində yazır: "Aprelin 2-də gecəyarı bir qrup silahlı erməni qulduru Xocalı şəhərinə basqın etmişdir. Bura pənah gətirmiş mesxeti türklərinin yaşadığı binalar partladılmış, 3 ev yanmışdır... Gündüz saat 12-də Əsgəran rayonunun komendantı polkovnik Sergey İvanov hadisə yerinə gəlmişdir. Onun dediyinə görə, quldurların atdıqları mərmilər "RPQ-7" tiplidir. Bu isə ancaq Sovet İttifaqının hərbi hissələrində olur. Polkovnikin dediklərinə sözümüz yoxdur, bizi məsələnin başqa tərəfi maraqlandırır: görəsən, ancaq hərbi hissələrə məxsus olan bu cür təhlükəli silahlar erməni "saqqallı"larının əlinə haradan və necə keçmişdir?"

Artıq ermənilər 1991-ci ilin sonlarında azərbaycanlıların məskunlaşdığı ərazilərə lokal hücumlar edirdilər. Z. Sultanov həmin ilin sentyabrında "Xocalıya hücum" adlı yazısında ölkə rəhbərliyinin diqqətini bu məsələyə cəlb edir: "Sentyabrın 10-da səhər saat 5:30-da Xocalı şəhərinin sakinləri yuxudan güclü partlayış və atəş səslərinə oyanmışlar. Erməni quldur dəstələri Daşbulaq istiqamətindən şəhərin üzərinə alov yağdırırlar. Basqınçılar avtomat və pulemyotlardan, "Alazan" tipli raketlərdən atəş açırdılar... Təkcə sentyabr ayının ötən on günü ərzində Qarabağın dağlıq hissəsində 10 nəfər azərbaycanlı ölmüş, 21 nəfəri isə yaralanmışdır".

1991-ci ilin sentyabrında məsələni sülh yolu həll etmək məqsədilə düşmən tərəfin və Azərbaycana qonşu olan dövlət başçılarının birgə görüşü silahsız azərbaycanlılara ümid verirdi. Ancaq bu görüşlərin nəticəsiz olduğunu Z. Sultanov "Avtobusa basqın" adlı materialında vurğulayır: "Dörd respublika prezidentinin görüşündən sonra adamlar Dağlıq Qarabağda, o cümlədən, sərhəd rayonlarında sakitliyə və əmin-amanlığa doğru irəliləyiş olacağını gözləyirdilər. Lakin erməni silahlı dəstələri fitnəkarlıq törətməkdə davam edirlər... İnşaatçıları Ağdamdan iş üstünə-Xocalıya aparan avtobusun qarşısını bir dəstə kəsmiş, elə bu dəm yolun hər iki tərəfindən avtobusa daş və dəmir parçalan yağdırılmışdır".

O dövrdə azğınlaşmış ermənilərin törətdiyi qanlı hadisələr barədə yazan jurnalist qeyd edir: "Sentyabrın 26-da sübh çağı erməni quldurları daha bir qanlı cinayət törətmişlər. Xocalı milis bölməsinin iki əməkdaşı - Natiq Əhmədov və Əli Vəliyev Əsgəranda qətlə yetirilmişdir".

Xocalı şəhərinə, eləcə də ermənilərin əhatə dairəsində olan Azərbaycan yaşayış məntəqələrinə günbəgün təhlükə artır. Bunu jurnalist "Yenə basqın, yenə atəş" (Dekabr, 1991) adlı yazısında açıq şəkildə bildirir:

"Qarabağda vəziyyət demək olar ki, hər gün dəyişir. Dekabrın 2-nə keçən gecə burada vəziyyət xüsusilə gərgin olmuşdur. Azərbaycanlılar yaşayan kəndlər aramsız atəşə tutulmuşdur... Çətinlik bir də orasındaydı ki, hərbi birləşmələrin nümayəndələri quldurlara açıq-aydın kömək edirdilər. Onlara məxsus hərbi texnika və silah bütünlüklə erməni saqqallılarının ixtiyarında idi... Hələ də mühasirə şəraitində yaşayan Xocalı şəhərində, Umudlu, Qaradağlı kəndlərində gərginlik son həddə çatmışdır. Həmin yaşayış məntəqələri ilə nəqliyyat əlaqəsi kəsilmişdir".

Z. Sultanov Xocalı şəhərinə nəqliyyat yolunun olmadığını və vəziyyətin daha da çətinləşdiyini göstərmək üçün "Xocalı kömək gözləyir" başlıqlı materialını nəşr etdirir: "Beş aydır ki, Xocalı şəhəri mühasirə vəziyyətindədir. Erməni quldurları Əsgəran ərazisindən keçən asfalt yolda dərin xəndəklər qazmış, bəzi ərazilərə isə minalar basdırmışlar. Xocalı-Şuşa yolu da onun kimi. Əlac qalıb vertolyota. Lakin quldurların əlindən səmada da dinclik yoxdur... Son vaxtlar vəziyyət daha da mürəkkəbləşmişdir. Bir tərəfdən erməni silahlı birləşmələrinin aramsız hücum və basqınları, digər tərəfdən isə ciddi sosial problemlər adamları yorub əldən salmışdır. Elektrik xəttinin kəsilməsi xocalıları çıxılmaz vəziyyətdə qoymuşdur. Nəticədə bir sıra xidmət təşkilatları öz fəaliyyətini dayandırmışdır. Çörək zavodu həftələrlə işləmir, qaz və su təchizatında tez-tez fasilələr yaranır... Yeganə çıxış yolu Ağdam-Şuşa magistralının açılmasıdır. Xocalı mühasirə vəziyyətindən çıxmalıdır. Özü də tezliklə".

Z. Sultanovun bir jurnalist kimi, Xocalı şəhərində vəziyyətin heç də yaxşı olmadığım paytaxt qəzetində qeyd etməsinə baxmayaraq, ölkə rəhbərliyi hakimiyyəti əlində saxlamaq naminə hadisələrə əhəmiyyət verməyib. Qaradağlı kəndinin işğal edilməsi və əhalisinin işgəncələrə məruz qalması ilə bağlı müəllifin "Qaradağlı işğal edildi" məqaləsi də, ciddi reaksiya doğura bilmədi: "Son günlər erməni quldur dəstələrinin keçmiş Martuni rayonu ərazisində cəmləşdikləri barədə məlumatlar alınırdı. Təəssüf ki, bu, müvafiq təşkilatlar tərəfindən nəzərə alınmır, gözlənilən basqının qarşısını almaq üçün təsirli tədbirlər görülmürdü. Bu da, nəticəsi. Fevralın 17-nə keçən gecə erməni silahlı dəstələri başı müsibətlər çəkmiş Qaradağlını mühasirəyə almışlar... Azğınlaşmış düşmən dinc sakinlərdən böyük bir qrupunu görünməmiş işgəncələrlə öldürmüşdür... Fevralın

17-nə keçən gecə Şuşa və Xocalı şəhərləri, Kosalar və Umudlu kəndləri, o cümlədən, Ağdam şəhəri də, "Alazan" tipli raketlərdən atəşə tutulmuşdur".

Hakimiyyət uğrunda gedən mübarizənin nəticəsi olaraq 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı ermənilər tərəfindən işğal edilir, əhalisi isə soyqırıma məruz qalır. Baş verən soyqırımla bağlı Z. Sultanov "Xocalı qan ağlayır" adlı xəbərini ölkə əhalisinə çatdırır: "Fevralın 25-dən 26-na keçən gecə silahlı erməni birləşmələri Xocalı şəhərinə hücum etmişlər...Öz torpağının müdafiəsinə qalxan şəhər sakinləri gecə saat 3-ə qədər mərdlik və qəhrəmanlıqla vuruşmuşlar... Şəhər sakinləri mühasirəni yarıb dağ yolları ilə Şelli kəndinə tərəf üz tutdular. Lakin yollar ermənilər yaşayan Naxçıvanik kəndinin böyründən keçirdi. Pusquda dayanmış erməni quldurları qaçıb canını qurtarmağa çalışan dinc sakinlərin qabağını kəsdilər. Azğınlaşmış düşmən köməksiz və müdafiəsiz adamlara rəhm etmədi... Dinc şəhər sakinlərindən, o cümlədən, milli özünümüdafiə dəstələrinin nümayəndələrindən, milis işçilərindən yüzlərlə ölənlər, yaralananlar və girov götürülənlər var... Son bir həftə ərzin-də Xocalı şəhəri erməni quldurlarının Qaradağlı, Malıbəyli və Quşçulardan sonra ələ keçirdikləri ən böyük yaşayış məntəqəsidir".

Qarabağda ermənilər dinc əhaliyə qarşı qətillər törətməyə başladığı dövrdən faciə baş verən məqama qədər Xocalıya təhlükə olduğunu bildirən Z. Sultanovun zamanında haqlı olduğu məlum olur. Amma bəlkə də yazılanlara, deyilənlərə, göstərilən epizodlara vaxtında diqqət yetirilsəydi, belə dəhşətli soyqırım olmazdı. Müəllif baş verən hadisəyə görə günahkar bilinənlərin cəzalandırılması ilə bağlı verilən vədlərin yerinə yetirilməməsini "Dünya, Xocalı hanı?" yazısında açıq şəkildə qeyd edir: "... 1992-ci ilin fevralın 26-da Qarabağın dağlıq hissəsində, azərbaycanlılar yaşayan Xocalı şəhərində qəddarlıq və yırtıcılıq baxımından ancaq məşhur Xatın, Sonqmi faciələri ilə müqayisəyə gələ bilən dəhşətli bir müsibət törədilmişdir. Erməni silahlı birləşmələrinin cinayətkar əməlləri nəticəsində şəhər yerlə-yeksan edilmiş, onun yüzlərlə sakini öldürülmüş və diri-diri yandırılmışdır, onların əksəriyyəti qadınlar, uşaqlar və qocalardır... Məlum olduğu kimi, Azərbaycan Respublikası Ali Sovetinin fövqəladə sessiyası Xocalı faciəsini tədqiq edən deputat istintaq komissiyası, həmçinin respublika prokurorluğu xüsusi qrup yaratmışdır. Bura səriştəli xalq deputatları, hüquqşünaslar daxil edilmişdir. Deputat, istintaq komissiyasının sədri Ramiz Fətəliyev bildirir: "...Hamımız həqiqəti üzə çıxaracağımıza and içmişik. Qurana əl basmışıq". Həmin komissiyanın məsul katibi Əli Ömərov isə məsələni bir qədər konkretləşdirir: "Rəy iyul ayının 25-dən tamamilə hazırdır....". İndi yüzlərlə, minlərlə Xocalı sakini gözləri yol çəkə-çəkə səbirsizliklə nüfuzlu komissiyanın rəyini gözləyir, qanlı cinayətdə bu və ya digər dərəcədə əli olanların tapılıb üzə çıxarılmasını istəyir, haqqın, ədalətin qalib gələcəyinə ümid edir.

Heyhat....Susmuş vicdan dilə gələcəkmi, kilidlənmiş dodaqlar açılacaqmı, piy basmış qeyrət oyanacaqmı?!!".

BƏXTİYAR

“525-ci qəzet”.- 2009. 26 fevral №37 (2870) S. 4.

Analoqu olmayan Xocalı soyqırımı

"Əsgərlərimiz pəncərənin çərçivəsinə tikilmiş uşağın ağzına ölmüş atasının dərisini soxmuşdular"

O vaxtdan 17 il keçir. Lakin 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Dağlıq Qarabağda baş verənləri xatırlayanda indi də dəhşətə gəlirik. Azərbaycan xalqının tarixinə qara hərflərlə yazılmış o dəhşətli gecədə Xocalı şəhəri yerlə-yeksan edilmiş, dinc əhaliyə vəhşicəsinə divan tutulmuşdu. Bütün sivilizasiya normalarına zidd olan bu qanlı aksiyanı erməni silahlı dəstələri keçmiş SSRİ-nin Xankəndində yerləşdirilən 366-cı motoatıcı alayının hərbi qulluqçularından və zirehli texnikasından istifadə etməklə törətmişlər.

Həmin alayın şəxsi heyətində milliyyətcə erməni olan 40-dan çox zabit və gizir vardı. 613 nəfərin, o cümlədən 106 qadının və 63 uşağın həyatına son qoymuş, 8 ailəni tamamilə məhv etmiş, 487 nəfərin şikəst olması, 1275 sakinin girov götürülməsi, onların 150 nəfərinin, o cümlədən 68 qadının və 26 uşağın taleyinin məlum olmaması ilə nəticələnən bu kütləvi qırğını törədənlər hələ də azadlıqdadırlar. Bəşər tarixində soyqırım aktları əvvəllər də olub: Xatın, Liditse, Oradur hadisələri bu qəbildəndir. Lakin Xocalı soyqırımının analoqu yoxdur...

Amma hər il Xocalı soyqırımının ildönümü ərəfəsində bütün erməni saytları bu faciənin azərbaycanlılar tərəfindən törədildiyini iddia edən saxta və əsassız arqumentlər gətirməklə öz cinayətlərini ört-basdır etməyə cəhd göstərirlər. Lakin özlərini çaşdıraraq bilmədən cinayəti etiraf etməyə məcbur olurlar. Məsələn, Levon Məlik-Şahnazaryan və Hayk Demonyanın "Xocalı işi: xüsusi qovluq"u (Yerevan, 2002) ilə tanış olduqda bu məqamları aşkar edə bildik.

"... Erməni hərbi birləşmələri Xocalıya artilleriyadan atəş açmağa başladılar. Fevralın 26-sı saat 4 radələrində artıq Xocalıda erməni əsgərlər görünməyə başladılar".

"... "Memorial"ın (Rusiyanın "Memorial" hüquq müdafiəsi mərkəzi - C.) hesabatında deyilir ki, Xocalıya edilən hücumdan sonra orada 200-300 insan evlərin zirzəmisində gizlənmişdilər və onlar Xankəndinə aparıldı..."

"... Xocalı əməliyyatından sonra "Arsax"ın azadlığı uğrunda döyüşən dəstələr şəhərdə 11 ölü tapıblar, o cümlədən 1 uşaq və 4 qadın meyidi..."

"... Xankəndində yerləşdirilən 366-cı motoatıcı alay Xocalı qaçqınlarının daşınması ilə məşğul idi. "Memorial"ın hesabatında deyilir ki, Xocalıya hücumda 366-cı alayın hərbi texnikası da iştirak edib..."

"... 1992-ci ilin yanvarında Şuşa, Xocalı, Kosalar və Canhəsən kəndləri istiqamətindən Xankəndinə raket-artilleriya atəşləri açıldığından MDB birləşmiş hərbi qüvvələrinin baş komandanı marşal E.Şapoşnikovun əmri ilə 366-cı alay Xankəndində yerləşdirildi ki, onun təhlükəsizliyi təmin olunsun..."

"... Vertolyot eskadriliyasının komandir müavini mayor Leonid Kraveç: "Fevralın 26-da mən Xankəndindən yaralıları aparırdım və geriyə Əsgərandan qayıtdım. Diqqətim aşağını çəkdi və əmr etdim ki, vertolyotu endirsinlər. Aşağıda 200-ə yaxın insanın öldürüldüyünün şahidi oldum..."

Bütün bunlar o demək deyilmi ki Xocalı qətliamı erməni və rus hərbçiləri, xüsusən də 366-cı motoatıcı alayın köməyi ilə törədilib? Bu faktları erməni başbilən politoloqlarından olan Levon Məlik-Şahnazaryan və Hayk Demonyan yazaraq elə öz saytlarında yerləşdiriblər.

Ermənilər meyitlərdən körpü qurublar

Erməni ziyalılar da Xocalı qətliamını erməni xalqının qəhrəmanlığı kimi qələmə veriblər. O müdhiş hadisəni öz əsərlərində dönə-dönə xatırladaraq dünya ictimaiyyətinə bir daha vəhşiliklərini sübuta yetirmiş olublar.

"... Bu şaxtalı qış şəhərində Daşbulaq yaxınlığındakı bataqlıqdan bizdən ölülərdən 1 kilometrlik körpü qurmaq tələb olundu. Körpüdən mən keçmək istəmədim. Onda polkovnik Ohanyan mənə işarə verdi ki, qorxmayıb meyitlərin üstündən keçim. Bu, müharibənin qanunlarından biridir. Mən ilk addımımı 9-11 yaşlı qız meyidinin qanlı sinəsi üstünə qoyub addımlamağa başladım. Mənim ayaqqabılarım və şalvarım bu "körpü"nü keçənə kimi tamamilə qana batdı. Beləliklə, mən 1200 meyidi belə addımladım". "... martın 2-də Qaflan erməni qrupu (meyitlərin yandırılması ilə məşğul olurdular - C.) 2000-ə yaxın monqol (türklər) rütbəlilərin meyitlərini yığıb Xocalıdan 1 kilometr uzaqda ayrı-ayrı topalarla yandırmağa başladılar. Axırıncı yük maşınında boyun nahiyəsindən yaralanmış 10 yaşında qız uşağı gördüm. Diqqətlə nəzər yetirəndə gördüm ki, hələ də yavaş-yavaş nəfəs alır. Şaxta, aclıq və aldığı yaraya baxmayaraq, uşaq hələ də yaşayırdı. Mən heç vaxt ölümdən qorxan bu uşağın gözlərini unuda bilmirəm. Sonra bir əsgər, deyəsən, onu Tiqranyan deyə çağırırdılar, onun qulağından tutub sürüyərək mazutlu gölməçədə mazuta bulaşdırdı, sonra isə yandırdı. Bu vaxt ətrafda kömək üçün qışqıran

birinin səsini eşitdim. Mən artıq qabağa gedə bilmirdim. Lənətlənmiş türklərdən Şuşanın azad edilməsinə qatılmaq istəmirdim. Buna görə mən geriyə qayıtdım. Onlar isə Xaç naminə öz yollarını davam etdilər..."

Dayd Xeriyan, "Xaç naminə" kitabından (Beyrut, 2000-ci il. Xocalıdakı döyüş haqqında səh. 26, 62, 63.)

Xocalı uşaqları doğranıb itlərə atılıb

"... ancaq ermənilər, qəlbləri dərdlə paslanmış və kədərini oda ata bilən ermənilər bu sətirlərdən qürurlana bilərlər. Mən özüm də vətəndaşlıq və müqəddəs kişilik borcuma görə bu işlə məşğul oldum ki, monqollardan qisasımı alım. Mən və Xaçatur onların saxlandığı zirzəmiyə daxil olanda artıq əsgərlərimiz bir uşağı pəncərənin çərçivəsinə tikmişdilər. Onun çox səs-küy etməməsi üçün ölmüş atasının dərisini qoparıb ağzına soxmuşdular. Sonra mən 13 yaşlı bir türkün baş, sinə və qarnından dərisini qopardım. Təxminən 7 dəqiqədən sonra uşaq qan itkisindən öldü. Mən birinci dərəcəli həkim kimi humanistəm, ona görə də uşağın başına gətirdiyim zülmlərdən xoşbəxtlik hiss eləmirdim. Lakin daxilən sevinirdim... Xaçatur uşağın cəsədini tikə-tikə doğradı və itlərə yem kimi atdı. Həmin axşam biz daha 3 türk törəməsinin başına həmin oyunu açdıq. Mən patriot, vətəndaş, erməni borcunu yerinə yetirirdim. Xaçaturun və digərlərinin gözlərində mən güclü qisas mübarizəsi görürdüm. Sonra mayor Suren (uşaqlıq dostum) mənə dedi: "Biz vəhşi deyilik, lakin soyuqqanlı olmalıyıq. Türk cəlladların əlində qətlə yetirilən ermənilərin ruhları sakitləşib, şad olmalıdı". Ertəsi gün biz kilsəyə getdik. Orada 1905-ci ildə ölən ermənilərin ruhlarına dua oxuduq və dünən gördüyümüz, törətdiyimiz vəhşiliklərə görə Allahdan bizi bağışlamasını istədik. Digər tərəfdən biz Xocalını 30 minlik pislikdən azad etməyə müvəffəq olduq. Surenin evində olarkən arvadı bizə "Cermuk" süzdü və Suren dedi: "Ermənilər doğma torpaqlarını azad edib, böyük Ermənistan yaratmağa borcludurlar. Göylər bizdən tələb edir ki, biz əcdadlarımız qarşısında öz vicdanımızı təmizləyək".

(Zori Balayan, "Ruhumuzun dirilməsi" kitabından (1996-cı il,. səh. 260-262)

Daxili orqanlar Almaniyaya aparılıb

Xocalı hadisəsindən sonra Avropaya insan orqanlarının satılması prosesinin sürətlənməsi diqqətdən yayınmadı... Aparılan araşdırmalardan məlum olub ki, bu donor orqanları Xocalı soyqırımında əsir və itkin düşən azərbaycanlılara məxsus olub...

(Almaniya, Duysburqda nəşr olunan "Blick" qəzeti (1997-ci il). "... Erməni həkimləri Qərbi Avropaya donor orqanları və qan daşınması əməliyyatında iştirakdan yazırlar. Daşınan məhsul Köln və Ştutqartdakı tibb müəssisələrinə gətirilirmiş. Təsadüfi yoxlama zamanı donor orqanlarından bəzilərinin sənədlərinin yerində olmaması polis tərəfindən araşdırma aparılmasına səbəb oldu. Yarımillik araşdırmalardan sonra polis Marvel Qalstyan adlı erməni həkimin izinə düşür. Bu həkim Tuluzdakı hərbi hospitalda işləyirmiş. Eyni zamanda bu işdə əli olan Fransaya qanunsuz miqrasiya olunmuş Sarkis Mnatskanov (o da həkimdir), Prokor Berqer kimi ermənilər müəyyənləşdirilir. Məlum olub ki, əksər hallarda donor orqanlar Ermənistandan Almaniyaya birbaşa daşınırmış. Əsas daşınan orqanlar böyrək, qız böyrəkləri, onurğa beyni, ciyər və donor qanı olmuşdu. Tam məsuliyyətlə demək olar ki, daşınan bu orqanlar erməni əsirliyində olan türklərdən götürülüb...".

Bu haqda amerikalı tədqiqatçı-jurnalist Tomas Qolts "Ötən əsrin qanlı mənzərəsi" (2001-ci il) kitabında göstərib. Kitabda Bakıda erməni əsirliyindən Qırmızı Xaç Komitəsi tərəfindən azad edilmiş Kəlbəcərdən olan mayor Səlim Həsənovun (o, 1993-cü ilin sonunda əsir düşüb, 2000-ci ildə azad olunub) müsahibəsi dərc olunub: "Bir çox mənimlə əsirlikdə olanların (əsasən də gənclərin) onurğa beyinləri götürülərək öldürülmüşlər. Bəziləri isə bir neçə gün keçəndən sonra kameraya qaytarılanda bir gözlə və ya hər iki gözü çıxarılmış formada gətirildilər. Mənimlə eyni kamerada olan 5 qoca və 18 gənc qalmışdı ki, onların da yaşı 35-i keçmişdi" (səh. 26).

Dünya mətbuatı erməni vəhşiliyindən yazıb

Fransalı jurnalist Jan-İv Yunet: "Biz Xocalı faciəsinin şahidi olduq, həlak olmuş yüzlərcə dinc sakinin, eləcə də Xocalını müdafiə edənlərin cəsədlərini gördük... Bu, dəhşətli mənzərə idi. Mən müharibələr, alman faşistləri haqqında çox eşitmişdim. Lakin 5-6 yaşlı uşaqları, dinc əhalini qətlə yetirən ermənilər faşistləri də geridə qoymuşdular..."

Rusiyanın "İzvestiya" qəzetinin müxbiri V.Belıx: "Ağdama vaxtaşırı cəsədlər gətirilir. Ermənilər həlak olmuş bu insanların cəsədlərinin müqabilində qarşı tərəfdən diri adamları girov götürürlər. Gecənin qaranlığında bu insanların çıxarılmış gözlərini, kəsilmiş qulaqlarını, dərisi soyulmuş, bədəndən ayrılmış başlarını görəndə adam dəhşətə gəlir. Bir neçə cəsədi kəndirlə bir-birinə bağlayıb zirehli transportyora qoşaraq sürümüşdülər..."

"Sandi tayms" qəzetinin müxbiri: "Erməni əsgərlər yüzlərcə azərbaycanlıya divan tutmuşlar... Ermənilər bu insanlara fasiləsiz atəş açır, sonra onları süngülərlə dəlik-deşik edir, bıçaqla doğrayırdılar. Bir oğlanın qulağı kəsilmişdi..."

"Vaşinqton post"un müxbiri: "Cəsədlər arasında 2 uşaq və 3 qadın meyidi vardı. Onlardan birinin sinəsinə yaxın məsafədən atəş açılmışdı. Ağdam hospitalına gətirilmiş 120 qadının çoxunda süngü yarası vardı..."

Parisdə çıxan "Le Monde" qəzetinin müxbiri: ".. 3 nəfərin başının dərisi soyulmuş, barmaqları kəsilmişdi..."

Londonda çıxan "Tayms" qəzetinin müxbiri: "Gördüyümüz adamların çoxu eybəcər hala salınmış, balaca qızcığazın isə yalnız başı qalmışdı..."

Rusiyanın "Memorial" hüquq müdafiə mərkəzi: "Ermənilər hətta ölüləri də təhqir edirdilər. Bir azərbaycanlının diri-diri başının dərisi soyulmuşdu..."

Cavid

“Həftə içi”.-2009.-26 fevral.-N.37.-S.1-2.

Xocalının cavabı nə vaxt veriləcək?

"Soyqırım xəstələri" və böyük dövlətlərin "toyuq korluğu"

Xalqın tarixində elə hadisələr olur ki, yaddaşa əbədi həkk olunur. Müstəqilliyini əldə edən Azərbaycan xalqına çoxlu sayda təzyiqlər oldu. Ermənilər rusların yardımı ilə torpaqlarımızın işğalına başladılar. Onlar insanlıqdankənar üsullarla faciələr törətməkdən çəkinmədilər. Xocalı tariximizə işğalçının qana və insanlığa hərisliyinin ucbatından faciə kimi düşdü.

Xocalı ilə bağlı çox yazılar yazılıb. O hadisə haqqında bundan sonra da nələr yazılsa, olayın tam məzmununu ifadə edə bilməyəcəyik. Çünki Xocalı xalqın taleyində elə faciədir ki, əvəzi verilməsə, yarası sağalan deyil. Orada şəhid olanların əksəriyyəti qoca kişilər, qadınlar, uşaqlar olublar. Bu insanların türk olmaqdan başqa "suçu" olmayıb. Rus əsgərləri ilə birgə erməni terrorçuları dünyada misli görünməmiş vəhşiliklə qətliam törədiblər. İnsanları diri-diri yandırmaq, torpağa basdırmaq kimi əcayib işlər görüblər. Xocalıda baş verənlərin analoqu hələ bəşər tarixində müşahidə edilməyib. Xocalı hələ bizim üstümüzdə qisas borcu olaraq qalmaqdadır.

Bizim üçün çox anlaşılmaz olan bir məsələ hələ də özünü insanlığın, hüququn, demokratiyanın müdafiəçisi və himayəçisi sayan dövlətlərin Xocalı hadisəsinə reaksiya verməməsidir. Qərbin, Rusiyanın Avropanın və başqa böyük dövlətlərin həmin soyqırımda baş verənləri görmək istəməməsi olduqca düşündürücüdür. Məsələ heç də orada qətlə yetirilən əli silahsız insanların milli kimliyində deyil. Məsələ odur ki, bu faciəni kimlərsə adi olay olaraq həzm edirsə, onun özü də belə bir faciəni yaşamalı olacaq. Mütləq olacaq. Bu, dünyanın qanunudur. Ruslar və ermənilər bu işin cavabını alacaqlar – kimlər tərəfindən, bu artıq önəmli deyil. Demokratiyadan dəm vuranların isə nələr düşündüklərini deyə bilmərik. Bir onu xatırlatmaq olar ki, (artıq neçənci dəfədir?) bizim parlamentdə Xocalı ilə bağlı sənədli kadrlar nümayiş etdirilində Qərb ölkələri diplomatları zalı tərk ediblər. Bu isə onların təkcə diplomat vicdanlarının yox, həm də insan olaraq insanlığa laqeydliklərinin ifadəsidir.

Bəs indi nələr baş verir? Bir-birinin ardınca soyqırımları tanıyırlar. Fransa parlamenti bu yaxınlarda Holokostda iştirakçı olduğunu rəsmən qəbul etdi. Rusların Gürcüstanda etdikləri ilə bağlı beynəlxalq məhkəmə olmalıdır. Kosovoda serblərin törətdikləri cinayətlərə görə, məhkəmə prosesləri hələ də davam edir. Bu olayların heç birinə etirazımız yoxdur. İnsanları günahsız yerə qətlə yetiriblərsə, cavabını versinlər. Lakin bütün bunlar Xocalının yanında xeyli yumşaq hadisədir. Ola bilsin ki, epizodik hallarda Xocalıda baş verənlərə oxşar nələrsə olsun. Məsələn, serblərin hərəkətləri də insanı ürpəndirir. Ancaq birini dünya qəbul edir, bir daha baş verməməsi üçün çalışır, erməni vəhşiliyinə isə heç reaksiya verilmir. Bunun ən pis cəhəti odur ki, ermənilər vəhşiliklərini davam etdirmək üçün dünya birliyindən gizli mandat almış olur. Kosovaya qədər Xocalıda faciə baş vermişdi, Avropa və Amerika kor oldu. Əgər Xocalı ilə bağlı ədalətli və prinsipial mövqe tutulsaydı, bəlkə də Balkanlarda o dərəcədə faciələr törədilməzdi, 12 sentyabr hadisəsi olmazdı, çeçenlər kütləvi və vəhşicəsinə qətlə yetirilməzdi və s. Ona görə də Xocalı demokratiya haqqında ağzı köpüklənə-köpüklənə danışanların vicdanında qara ləkədir – onun kimlərin qanı ilə yuyulacağını Allah bilir. Amma mütləq yuyulacaqdır. Bəşəriyyət öz ikili standartları, Allahın qanunlarına sayğısızlığı, insan hüquqlarının birtərəfli qorunması kimi işlərinə görə utanıb "yerə girməlidir".

Bizə qarşı əsrlərdir ki, böyük imperiyaların apardığı oyunların fərqindəyik. İndi də o proses davam edir. Türk-müsəlman ölkələrini, ümumiyyətlə, Yer üzündən silmək kimi absurd bir işə girişiblər. Məsələ heç də kimin güclü və ya gücsüz olmasında deyil. Tarix belə şeyləri çox görüb. Məsələ ondadır ki, bəşəriyyət tarixdən ibrət dərsini almağı öyrənməyib. Eyni ağılsızlıqlar təkrar-təkrar baş verir. İndi də özünü yer üzünün sahibi hesab edənlərin faciələrinin zamanı gəlib. Onlardan həm də Xocalını soruşacaqlar.

Biz dövlətimizi inkişaf etdirməli, ordumuzu gücləndirməli, savadımızı və peşəkarlığımızı artırmalıyıq. Bunun üçün gecə-gündüz çalışmalıyıq. Bütün digər işlərlə yanaşı Xocalının cavabını vermək üçün bunlar lazımdır.

Şahin Məhəmmədoğlu

"Olaylar".-2009.-26 fevral.-N.37.-S.5.

Xocalı soyqırımı bəşəriyyətə qarşı törədilmiş ən ağır cinayətdir

Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olmuşdur. Azərbaycanın ümummilli lideri Heydər Əliyev Xocalı soyqırmının on illiyi münasibətilə Azərbaycan xalqına müraciətində demişdir: "Bu amansız və qəddar soyqırım aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu". Qeyd etmək lazımdır ki, Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırım siyasətinə məruz qalmışdır. Azərbaycan xalqı tarixi torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmiş və bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla müşayiət olunmuşdur. Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından qovulması sovet dövründə də davam etmişdir. 1948-1953-cü illərdə Ermənistandan 150 min azərbaycanlı deportasiya olunmuş Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilmişdir. 1988-ci ildə isə öz tarixi torpaqlarında yaşayan 250 min azərbaycanlı bu ərazidən qovulmuşdur. 1988-ci ildən Dağlıq Qarabağ ətrafında başlayan hadisələr erməni ideoloqlarının "dənizdən dənizə Ermənistan" adlı sərsəm bir ideyasını reallaşdırmaq cəhdi kəndlərin, şəhərlərin dağılması, on minlərə günahsız insanın ölümü, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələndi. Bütün beynəlxalq hüquq normalarına zidd olaraq Ermənistan dövləti Dağlıq Qarabağı özünə birləşdirmək istəyir, bu yolda bütün cinayət və vəhşiliyə hazır olduqlarını nümayiş etdirirlər. XX əsrin faciəsi olan Xocalı soyqırımı bu aqressiv və cinayətkar erməni siyasətinin nəticəsidir. XX əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Xocalı soyqırımı əsrin Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələri ilə bir sırada dayanır. Bu faciənin şahidi olmuş Xocalı PŞ-nin sabiq rəisi, təqaüdçü, Qarabağ müharibəsi veteranı, Xocalı yaddaş diplomunun təltifçisi Sabir Məmmədovun dediklərindən: - 1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri 7 min əhalisi olan Xocalı şəhərində genosid aktı həyata keçirdi. Ermənistan hərbi birləşmələrinin şəhərə hücumu zamanı yerli əhaliyə qarşı vəhşiliklər törədildi. Bütün bunlar erməni hərbçiləri tərəfindən xüsusi amansızlıqla və ağlasığmaz vəhşiliklə həyata keçirilmişdir. Hadisələrin şahidi olaraq qeyd edim ki, Xocalı blokada şəraitində yaşayırdı. 1991-ci ilin noyabrından Ağdam-Xocalı-Şuşa yolu Əsgəran qalasının keçidi ermənilər tərəfindən betonlaşmış, maşın yolu tamamilə bağlanmışdı. Əlac ancaq hava yollarına qalmışdı. Hava yollarında vertolyotlar gah görünür, gah da olmurdu. Əhali nəinki saatlarla, həftələrlə vertolyot gözləyirdilər.

Əksər hallarda hava dumanlı olanda və açığını desək, pilotlar Əsgəran kəndlərinin üzərindən uçmağa ehtiyat edirdilər. Daha doğrusu, qorxurdular. Vertolyot gözləməkdən şuşalı və xocalıların səbr kasası dolmuşdu. İşıqsız, qazsız, çörəksiz yaşamaq camaatı təngə gətirsə də, yenə də şəhərkənarı postlarda hərbi qaydada dayanırdılar. Şəhərin taleyi Xocalı polisinin yəni mənim, könüllülər dəstəsinin 22 nəfərdən ibarət döyüşçünün komandiri mərhum, milli qəhrəman Aqil Quliyevin, özünümüdafiə dəstəsini Xocalı camaatından düzəlmiş qüvvələrinin hesabına komandir mərhum, milli qəhrəman Tofiq Hüseynovun, Xocalı hava limanı dəstəsinin üzvlərinin polis rəisi mərhum, milli qəhrəman Əlif Hacıyevin hesabına müdafiə olunmaqla yaşayırdı. Buna baxmayaraq, ara-sıra DİN-nin nümayəndələri, jurnalistlər də Xocalıya baş çəkirdilər. Onları da qınamıram. Yolun bağlı olmağı, ara-sıra vertolyotun olması hamını çaş-baş salmışdır. Bir müddət idi ki, Xocalıya jurnalist ayağı dəymirdi. Həmin vaxt 1991-ci ilin dekabr ayının 29-da, üç nəfərdən ibarət jurnalist Bakıdan Xocalıya gəlmişdilər. Bu mənə Ona görə mənə çox təəccüblü gəlirdi. Onlar Xocalıya dediklərinə görə, birinci dəfə idi ki, gəlirdilər. Xocalı icra hakimiyyətinin başçısı Elman Məmmədov yol üstündə olduğuna görə, o, Bakıya iş dalınca getməli idi. Belə ki, o vaxtlar Xocalıda hərbi-sursat, çörək, salyarka, neft olmadığına və çatmadığına görə, növbə ilə E.Məmmədov, A.Atakişiyev, Murad Şükürov və mən Bakı və rayonlara gedib kimin nəyə gücü çatsa, onu da gətirirdik. Ona görə jurnalistlərlə söhbətindən sonra E.Məmmədov Ağdama uçdu. Gələn qonaqlarla şəhərin və Xocalının sərhədlərini, camaatın güzəranı ilə tanışlığı və jurnalistlərin təhlükəsizliyini mən öz üzərimə götürmüşdüm. Yüksəkliklərdən ermənilərin istehkamlarını onlara göstərirdim. Gələnlər Xocalıda camaatın çətin vəziyyəti, çörəksiz, silahsız, işıqsız olmalarını şahidi oldular. Jurnalist Qulu Məhərrəmovun və onunla gələn yoldaşlar Xocalının bir çox yerlərini gəzərək, postları, camaatdan müsahibə götürərək lentə çəkirdilər. Bu bir həftə ərzində çox məlumat aldıqlarına görə onlar Bakıya qayıtmağa hazırlaşırdılar. Təhlükəsiz olmalarına görə biz qonaqları Xocalı maliyyə şöbəsinin rəisi etibarlı yoldaş Sahib Əliyevin evində saxlayırdıq.

İşıqsız, qazsız, çörəksiz, silahsız xocalıların yaşadığı dözülməz blokada həyatının ağrı-acısını onlar da görməli və dadmalı oldular. Nəhayət, çox çətinliklə yanvarın 5-də 1992-ci il tarixdə qonaqları Ağdama yola sala bildik. Xocalı aeroportunda Xocalı sakinləri onlara bir çox suallar verirdilər. Xocalı sakini "Zil" sürücüsü, ağsaqqal Yaqub kişi onların yanında yarıtmaz respublika rəhbərliyinin ünvanına ciddi və təhqiramiz sözlər işlətdi. Lentə çəkilən görüntülər bir-iki dəfə televiziya vasitəsilə yayımlandı. Mən 1992-ci il yanvarın 29-30-da Bakıda rəhmətlik Əlif Hacıyevlə DİN-nin qarşısında görüşdüm. Səmimi görüşdən sonra onun Gəncəyə vertolyot məsələsini həll etməyə gedəcəyini söylədi. Mən onunla Ağdam aeroportunda imkan olduqca görüşəcəyimizi

planlaşdırdıq. DİN-dən şəxsi heyət üçün götürdüyüm isti pal-paltar götürüb Ağdama gətirdim. Xocalı polis şöbəsinin əməkdaşlarını aparmaq üçün Xocalı polis əməkdaşından sürücü V.Zeynalov, V.Piriyev, Y.Hacıyev və S.Mədətovla birgə Ağdam aeroportuna apardıq. Lakin hava şəraiti pis olduğundan, vertolyot tapa bilmədik. Fevral ayının 2-si saat 14-15 arasında DİN-nin, DQMV-nin və DİN-nin rəis müavini olmuş polkovnik Sadir Məmmədovun köməkliyi sayəsində bir ədəd "Krokadil" vertolyot əldə edə bildim. Biz yenidən Ağdam aeroportuna gələrək, 500 kq çörəyi vertolyota yüklədik. Lakin pilotlar yükün ağır olacağı barədə deyinirdilər. Ona görə, işçilərimdən heç kimi götürə bilmədim. Mən vertolyota mindim, hətta vertolyotun lyukunda pilotlardan gizli əlavə bir qədər çörək də ötürdüm. Yerdə qalanlar isə, ikinci vertolyotu gözləməli oldular. Hava dumanlı olduğu üçün vertolyot göydə bir-iki dövrə vurduqdan sonra, Naxçıvanik deyilən erməni kəndi üzərindən çox çətinliklə keçib, Xocalı aeroportuna endi və 500 kq çörəyi həmin aeroportda könüllülər dəstəsinin komandiri ölümündən sonra milli qəhrəman adını almış Aqil Quliyevə verdim. Aqilin üzündən sevinc və xoş təbəssüm məni həddən artıq kövrəltdi. Elə buna görə də, məndə Yaqub kişi kimi o vaxtkı respublika rəhbərliyinə nifrətimi gizlədə bilmədim. Öz - özlüyümdə qeyrətsizlər deyərək, gileyləndim. Xocalı soyqırımının epizodları insanı dəhşətə gətirir. Ermənilər sağ qalmış insanlar üzərində tamamilə təhqiredici hərəkətlər həyata keçirmişdilər. Onların başının dərisini soymuş, başlarını və bədəninin digər orqanlarını kəsmiş, uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarnını yarmışdılar. Hücum zamanı Xocalıda istifadəsi qadağan olunmuş 5,45 kalibrli patronlardan və kimyəvi silahlardan istifadə edilmişdir. Bütün bunlar Ermənistanın Cenevrə konvensiyasının protokollarını pozaraq, müharibə qaydalarına zidd olaraq dinc sakinlərə qarşı həyata keçirilən soyqırım olduğunu təsdiqləyir. Cinayət cəzasız qalmamalıdır. Ermənistanın hərbi-siyasi təcavüzü dünya ictimaiyyəti tərəfindən ittiham edilməlidir. Beynəlxalq təşkilatlar, dünya dövlətlərinin parlamentləri Ermənistan Respublikasının Azərbaycan torpaqlarında törətdiyi hərbi cinayətə - Xocalı soyqırımına, əsil soyqırım hadisəsi kimi beynəlxalq siyasi-hüquqi qiymət verməlidirlər.

Zümrüd BAYRAMOVA

"Səs".-2009.-26 fevral.-N.38.-S.15.

Xocalı faciəsi qurbanları Kərbəla şəhidləri ilə bərabər tutulmalıdır

Xocalı soyqırımı adi cinayət deyil. Xocalı soyqırımı Ermənistan, ermənilər tərəfindən Azərbaycan xalqına qarşı edilən ən dəhşətli soyqırımıdır

Heydər ƏLİYEV

Qafar ƏLİYEV. ***Prezidentin icra Aparatının ictimai-siyasi məsələlər şöbəsinin bölmə müdiri, YAP Siyasi Şurasının üzvü***

XX əsrin ən amansız cinayətlərindən biri də Azərbaycan xalqına qarşı törədilmiş Xocalı faciəsidir. Xocalı faciəsi 1988-ci il-dən Azərbaycana torpaq iddiası ilə başlanan erməni millətçilərinin ortaya atdığı qondarma Dağlıq Qarabağ problemi ilə əlaqədar başlanan zəncirvarı proseslərin davamı və Azərbaycan xalqına qarşı törədilən çoxsaylı soyqırım və cinayətlərin bir həlqəsidir. Erməni cəlladları növbəti dəfə Azərbaycan xalqının gözünü qorxutmaq. onları ata-baba yurdlarından didərgin salıb torpaqlarını ələ keçirmək. onun müqavimətini zəiflətmək, digər yerlərdə yaşayan soydaşlarımızı da öz ata-baba yurdlarını atıb qacımağa məcbur etmək məqsədi ilə belə bir misli görünməmiş faciə törətdilər. O vaxt Xankəndində yerləşən Sovet Ordusunun 366-cı motoatıcı alayının döyüş texnikasından və köməyindən istifadə edərək azərbaycanlılara qarşı törətdikləri bu soyqırımla XX əsrin ən dəhşətli cinayətlərindən birini törədən ermənilər öz adlarını faşistlərlə bir cərgədə tarixə yazdılar.

Ermənilər Xocalı soyqırımına qədər Dağlıq Qarabağı azərbaycanlılardan təmizləmək üçün ardıcıl, məqsədyönlü siyasət aparmış, bu vilayətdə yerləşən Azərbaycan kəndlərinə hücumlar etmiş, yerli əhaliyə divan tutmuşdular. Belə ki:

- 1991-ci ilin dekabrın 23-də Meşəli kəndinə hücuma keçdilər, 34 nəfər qətlə yetirildi, yandırıldı, xeyli adam girov götürüldü, it kin düşdü.

- 1992-ci ilin yanvar ayında Kərkicahan qəsabəsində daha böyük vəhşiliklər törədildi. Qəsəbəni oda qaladılar, 80 nəfəri qətlə yetirdilər, yandırdılar.

- 1992-ci ilin fevral ayında Xocavənd rayonunun Qaradağlı kəndində eyni vəhşiliyi törətdilər, 77 nəfəri işgəncələrlə qətə yetirdilər, diri-diri yandırdılar.

- Malıbəylidə yaralıları, kəndi tərk edə bilməyənləri diri-diri yandırırdılar, 50 nəfər qətlə yetirildi.

- 1992-ci il fevralın 12-də erməni silahlıları 366-cı motoatıcı alayın iştirakı ilə Şuşanın Malıbəyli və Quşçular kəndlərini yandırdılar.

Bütün bunlara baxmayaraq, Azərbaycan rəhbərliyi hələ də fəaliyyətsizlik göstərir, heç bir tədbir görmürdü. Bakıda Ayaz Müttəlibovun komandası ilə Xalq Cəbhəsinin rəhbərləri arasında hakimiyyət davası gedirdi. Cəzasız qaldıqlarını görən ermənilər isə get-gedə daha da azğınlaşır, quduzlaşır, daha da irəliləyirdilər.

Artıq növbəti hədəf tam mühasirədə qalmış Xocalı şəhəri idi.

1991-ci ilin oktyabrın 30-da Xocalı ilə avtomobil əlaqəsi kəsildi. Yeganə əlaqə vasitəsi kimi hava yolu qalmışdı, vertolyotlar vasitəsi ilə ərzaq və s. aparılırdı.

1992-ci ilin yanvarın 28-də Şuşa şəhəri səmasında mülki vertolyot vuruldu, 44 nəfər həlak oldu və Xocalı ilə hava əlaqəsi də kəsildi. Şəhər tam blokadaya alındı. Bir qədər sonra rəsmi mənbələrin bildirdiyinə görə rabitə əlaqəsi də kəsildi. Lakin daha etibarlı məlumat mənbələri başqa şey deyirdi. DİN-in nəqliyyatda Baş Polis İdarəsinin keçmiş rəisi general Oqtay Əliyev deyir ki, bizim Xocalı aeroportunda quraşdırdığımız rabitə mükəmməl işləyirdi. Ağdamda əlaqə qüsursuz idi. Hətta Ağsu aşırımındakı DYP postunda da Xocalını aydın eşidirdilər. Digər tərəfdən Xocalı rabitəçiləri son ana kimi haray saldılar. Amma onların harayları eşidilmədi.

O vaxt bütün KİV-lər, bəzi dövlət orqanları, yerli əhalinin nümayəndələri fəryad qoparırdılar. Məsələn, "Xalq qəzeti" 9 yanvar 1992-ci ildə "Xocalı mühasirə vəziyyətindədir" sərlövhəli məqaləsində yazırdı ki, Xankəndi ilə Əsgəran yolunun üstündə tək-tənha dayanmış bu Azərbaycan şəhəri böyük təhlükə qarşısındadır. Lakin bu yazılara, çağırışlara, fəryadlara, teleqramlara heç bir reaksiya verilmədi.

Bas necə olub ki. xocalılar heç bir müqavimət göstərə bilməyiblər?

Onların sərəncamında 50-60 ədəd avtomat silah və ov tüfəngi ilə silahlanmış özünümüdafiə dəstəsi olduğu halda şəhər ətrafında ən müasir texnika ilə təpədən-dırnağa qədər silahlanmış ermənilər mühasirə həlqəsini günü-gündən sıxlaşdırırdılar.

1992-ci il fevralın 25-də saat 22:00 radələrində ermənilər 366-cı motoatıcı alayın hərbi texnikasının köməyi ilə Xocalı şəhərinə hücuma keçdilər. Həmin hücumda Yevgeni Nabokixin komandanlığı altında 366-cı alayın 3-cü batalyonu, mayor Ohanyan Seyran Muşeqoviçin komandanlığı altında 366-cı alayın 2-ci batalyonu, 1-ci batalyonun qərargah rəisi Gitçyan Valeriy İsayeviç və alayda xidmət edən 50-dən artıq erməni millətindən

olan zabit və praporşiklər, tanklar, piyadaların döyüş maşınları, toplar, D-30 qaubitsası və digər müasir hərbi texnika iştirak edirdi.

Artıq fevralın 25-də Xocalıya hücum edəcək erməni qüvvələri 11 istiqamətdən şəhəri tam mühasirəyə aldılar. Əsas dağıdıcı qüvvələr 366-cı motoatıcı alayın üç taborunda cəmləşmişdi. Alayın I taboruna S. Ohanyan, 2-ci taboruna V. Gitçiyan, 3-cü taboruna Yevgeni Nabokix komandirlik edirdi. Əvvəlcə şəhər 2 saatdan çox top, zenit qurğuları və tanklardan atəşə tutuldu. Xocalı tonqal kimi yanırdı. Bundan sonra düşmən hücuma başladı. Erməni faşistləri Qarqarçay Həsənabat, Xankəndi-Xocalı yolu, təyyarə limanının şərq tərəfi, Narguz-Xocalı istiqaməti, Daştərə, Bozdat və Əsgəran tərəfdən eyni vaxtda hücum edirdilər.

Beləliklə, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə saat 22:00-da Azərbaycan Respublikasının Xocalı şəhərinin dinc sakinləri keçmiş Sovet ordusunun 366-cı alayının bilavasitə iştirakı ilə erməni millətçiləri tərəfindən tarixdə misli görünməmiş qəddarlıqla qətlə yetirildilər. Həmin gün 613 nəfər dinc əhali öldürüldü, 150 nəfər itkin düşdü, 487 adam şikəst oldu, 1275 nəfər isə əsir alındı. Həlak olanların 181 nəfərinin cəsədi məhkəmə-tibb ekspertizasından keçirilərkən müəyyən olunmuşdu ki, onların arasında 63 azyaşlı uşaq, 106 qadın (109 qadın), 70 nəfər isə 60 yaşdan yuxarı qocalar var idi. 130 nəfər kişi, 51 nəfər qadın, 13 nəfər uşaq xüsusi qəddarlıqla, yaxın məsafədən atəş açılaraq qətlə yetirilmiş, küt alətlə və bıçaqla onların meyidi tanınmaz hala salınmışdı. O cümlədən 17 nəfərin qarın nahiyəsinə, 40 nəfərin baş nahiyəsinə, 74 nəfərin döş nahiyəsinə yaxın məsafədən atəş açılaraq öldürülmüş, başları, qulaqları, burunlan kəsilmiş, gözləri çıxarılmış, meyitləri tanınmaz hala salınmışdı.

Həm Əsgəran rayon ərazisində törədilən cinayətlərin istintaqını aparan qrupun rəhbəri, həm də sonralar Xocalı faciəsini araşdıran istintaq qrupunun tərkibində çalışmış, hazırda Respublika Prokurorluğu Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinin rəis müavini, kriminalistika şöbəsinin rəisi, baş ədliyyə müşaviri vəzifəsində işləyən Eldar Əhmədovun təqdim etdiyi Xocalı hadisələrinin istintaqına dair 64524 saylı cinayət işi üzrə arayışda bildirilir ki, bu hücum zamanı dövlətə təqribən 4,2 milyard rubl, Xocalı əhalisinin mülkiyyətinə isə 230 milyon rubl məbləğində ziyan vurulmuşdu.

Müdhiş, şaxtalı, qarlı, çovğunlu bir qış gecəsində təpədən-dırnağa qədər silahlanmış, tankların, PDM və ZM-lərin müşayiəti ilə hərəkət edən erməni cəlladlarının əliyalın, əlsiz-ayaqsız qocalara, körpələrə, qadınlara, hətta xəstələrə aman vermədən qırması insanlığa yaraşmayan, bəşəriyyətə qarşı törədilən bir cinayət idi. Mərhum telejurnalist, Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayevin lentə aldığı Xocalı hadisəsinin kadrlarına baxanlar Xocalı faciəsini törədənləri, onların havadarlarını, insanlığa yaraşmayan belə zülmə laqeyd yanaşanları tarix boyu lənətləyəcəklər.

Bu cinayət hadisəsi ilə əlaqədar 1992-ci il fevralın 27-də Azərbaycan Respublikasının Qarabağ üzrə rayonlararası prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 70-ci və 90-cı maddələrinin 4, 6-cı bəndləri, 255-ci maddəsinin 5-ci bəndi ilə cinayət işi başlanmışdı.

Heç şübhəsiz ki, bu faciənin də əsas günahkarı o vaxt son günlərini yaşayan Sovet rəhbərliyi, Rusiyanın şovinist, imperiyapərəst əhvali-ruhiyyəli hərbçiləri, bir də erməni millətçiləri idi. Lakin o zaman Azərbaycan prezidenti vəzifəsini icra edən Ayaz Mütəllibovun səhlənkar və xəyanətkar mövqe tutaraq öz xalqına qarşı biganəlik etməsi, üzərinə düşən dövlət vəzifəsini yerinə yetirməməsi, vaxtında milli ordu və ya könüllülərdən, polislərdən, digər hüquq-mühafizə orqanlarının əməkdaşlarından ibarət silahlı birləşmələr yaratmaması, bir sözlə, ölkəyə rəhbərlik edə bilməməsi və hakimiyyətsizliyin qarşısını ala bilməməsinə görə bu faciə baş vermişdi. Faciənin baş verməsində o vaxt hakimiyyətə can atan Xalq Cəbhəsi fəallarının da günahı var idi.

26 fevral 1992-ci ilə qədər Xocalı şəhəri Dağlıq Qarabağda mühüm strateji mövqeyə malik, sürətlə inkişaf edən, 11 min əhalisi olan bir yaşayış məskəni idi. Dağlıq Qarabağın yaşayış məntəqələrinə yol Xocalıdan keçir, avtomobil, dəmiryolu və hava nəqliyyatı burada birləşirdi. Laçın və Şuşa rayonlarına gedən yollar buradan keçirdi. Yəni Xocalını işğal etmədən gələcəkdə Şuşanı və digər rayonları ələ keçirmək mümkün deyildi. Ona görə ermənilər Xocalını tutmaq üçün aylarla, illərlə planlar cızmışdılar.

Xocalı faciəsinin istintaqı zamanı toplanmış sübutlarla təsdiq olunur ki, Ermənistan silahlı qüvvələri həmin dövrdə bölgədə olan 366-cı Rusiya alayının komanda heyətinin köməyi ilə Qarabağın dağlıq hissəsinin azərbaycanlı əhalisinə qarşı soyqırım cinayəti etmişdir.

Xocalı faciəsinin qurbanları Kərbəlada 680-ci ildə qırılan Kərbəla şəhidləri ilə bərabər tutulmalıdır. Məhz buna görə də Azərbaycan Respublikası tərəfindən Xocalı şəhərinin əhalisinə qarşı soyqırım cinayəti etmiş Ermənistan silahlı qüvvələri və 366-cı alayın komanda heyətinin cəzalandırılmasından ötrü Beynəlxalq Məhkəmə qarşısında məsələ qaldırılmalıdır.

Şuşa rayon prokuroru Zahid Vəliyev yazır: ***"Həmin vaxt qarşımızda 26 fevral 1992-ci il tarixdə erməni qəsbkarlarının törətdikləri qanlı cinayət hadisəsi, günahsız dinc sakinlərin meyitləri, çoxsaylı yaralılar, evsiz-eşiksiz, didərgin sakinlər və laqeyd, millətinin taleyinə biganə iqtidar var idi. O iqtidar ki, Xocalının qorunmasını, dinc sakinlərin təhlükəsizliyini təmin edə bilməmişdi. O iqtidar ki, torpaqlarımızın hissə-hissə***

zəbt edilməsini, insanlarımızın qətlə yetirilməsini müdhiş bir soyuqqanlıqla izləyirdi, fikri-zikri yalnız öz hakimiyyətini qorumaq idi".

Təəssüf ki, Ayaz Mütəllibov iqtidarı nə xocalıların qəhrəmanlığı barədə, nə də ermənilərin ağır cinayəti barədə, azərbaycanlılara qarşı törədilmiş soyqırım barədə, xalqımıza, eləcə də beynəlxalq dünya ictimaiyyətinə vaxtında doğru-dürüst məlumat vermədi.

A. Mütəllibov və onun komandası erməni vəhşiliklərinin qarşısını almaq əvəzinə başlarını daxili çəkişmələrə qatmışdılar.

Xocalı faciəsinin baş verməsində Ayaz Mütəllibovdan qabaq Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi olmuş Əbdürrəhman Vəzirovun da özünəməxsus günahları var. Belə ki, 1988-ci ildə Ermənistan ərazilərindən kütləvi şəkildə 230 mindən çox azərbaycanlı qovulan zaman Dağlıq Qarabağda da ermənilərin köçü başlamış, hətta Hadrut rayonunun 11 kəndi və Qaladərəsi, Çaylı, Şaumyankənd və s. kəndlərdə yaşayan ermənilər bu əraziləri boşaltmaqda idilər.

1988-ci ildə başlanan gərgin siyasi hadisələrin təsiri ilə DQMV-də yaşayan ermənilərin də köçü başlamışdı. Sonradan Ə. R. Vəzirovun tapşırığı ilə ermənilərin Dağlıq Qarabağdan köçürülməsi prosesi dayandırıldı və Ermənistan Respublikasından gələn azərbaycanlıların Dağlıq Qarabağa yerləşdirilməsinə imkan verilmədi. Ə. R. Vəzirovun Dağlıq Qarabağa göndərdiyi Azərbaycan KP MK-nın katibi Telman Orucov bu məsələdə prinsipsiz, milli mənafeyə zidd mövqe tutaraq Ermənistandan köç edən azərbaycanlıların qarşısını kəsdirdi və onların Dağlıq Qarabağa yerləşdirilməsinə mane oldu. Əgər o vaxt Azərbaycana rəhbərlik edən Əbdürrəhman Vəzirov və vəzifə səlahiyyəti verdiyi yaxın ətrafı Dağlıq Qarabağda yaşamağı könüllü surətdə seçən Qərbi Azərbaycandan qovulan qaçqınlara süni surətdə mane olmasaydılar, indi bütün dünyanın "Qordi düyünü" hesab etdiyi Dağlıq Qarabağ problemi birdəfəlik həll olunmuşdu. Bir sözlə, o zaman xalqla respublika rəhbərliyi arasında uçurum var idi və bu, bütün Dağlıq Qarabağ və onun ətrafında başımıza gələn faciəlilərin ən əsas səbəblərindən biri oldu.

1992-1993-cü illərdə Xocalı faciəsi ilə bağlı aparılmış cinayət işinin istintaqı zamanı respublika rəhbərliyinin, hərbi komandanlığın, silahlı dəstə komandirlərinin qulluq vəzifələrini lazımınca icra etməmələri faktları aşkar və təsdiq olunmuşdu. Bir daha aydın olmuşdu ki, Xocalı əhalisi erməni millətçiləri tərəfindən real ölüm təhlükəsi ilə üzbəüz qaldığı bir vaxtda Azərbaycan Respublikasına rəhbərlik edən Ayaz Mütəllibov və onun yaxın komandası Xocalının dinc sakinlərinin xilas edil-məsi üçün heç bir tədbir görməmiş, öz xalqına və dövlətinə qarşı xəyanət etmişdi. O, AH Baş Komandan kimi nə öz torpaqlarını qoruya bilmiş, nə də dinc sakinlərin təhlükəli zonadan çıxartması üçün bir iş görmüşdü.

Bu faciəyə də hüquqi-siyasi qiyməti məhz ulu öndərimiz Heydər Əliyev verdi. Xalqımızın ağır günlərində, dövlətçiliyimizin tarixdən silinməsi ərəfəsində xalqın tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev həm respublikamızın müstəqil, unitar dövlət kimi qorunub-saxlanmasını təmin etdi, həm də azərbaycanlılara qarşı erməni millətçilərinin törətdikləri soyqırımlara siyasi-hüquqi qiymət verilməsini təşkil etdi. 21 mart 2001-ci il tarixli fərmanla 31 mart Dünya Azərbaycanlılarının soyqırımı günü elan edildi. Heydər Əliyevin rəhbərliyi ilə bu məsələyə həsr olunmuş bir neçə müşavirə keçirildi və onun tövsiyəsi ilə Azərbaycan Respublikasının Milli Məclisi 24 fevral 1994-cü il tarixdə Xocalı soyqırımı ilə bağlı qərar və bəyanat qəbul edərək dünya parlamentlərinə və beynəlxalq təşkilatlara göndərilməsini təmin etdi. O vaxtdan etibarən hər il fevralın 26-sı Xocalı soyqırımı günü kimi qeyd olunur və respublikamızın bütün regionlarında bir dəqiqəlik sükutla yad edilir. Azərbaycan parlamenti tərəfindən hər il həmin gün dünya ölkələrinin parlamentlərinə bəyanatlar göndərilir.

İlham Əliyev isə Avropa Şurası Parlament Assambleyası nümayəndə heyətinin başçısı və AŞPA-nın sədrinin müavini olan zaman mötəbər təşkilatın tribunasından Azərbaycan həqiqətlərini cəsarətlə, diplomatik bacarıqla bütün dünyaya bəyan edirdi.

Bu diplomatik uğurun nəticəsi kimi 25 yanvar 2005-ci ildə AŞPA-nın qış sessiyasında Dağlıq Qarabağ üzrə xüsusi məruzəçi Devid Atkinsonun hazırladığı məruzə əsasında qətnamə qəbul edildi. Həmin qətnamədə Azərbaycan ərazilərinin erməni silahlı qüvvələri tərəfindən işğal edilməsi, Dağlıq Qarabağ bölgəsinin separatçı qüvvələrin nəzarəti altında olması və bu ərazidə etnik təmizləmələrin aparılması faktları öz əksini tapmışdı.

Sənəddə qeyd edilir ki, SSRİ-nin süqutundan sonra Dağlıq Qarabağ ermənilər Azərbaycan ərazilərində dövlət yaratmaq xülyasına düşmüş və bu iki dövlət arasında münaqişəyə səbəb olmuşdur.

1994-cü ildə Bakı və Yerevan arasında atəşkəs əldə olunmasına baxmayaraq Ermənistan silahlı qüvvələri nəinki Dağlıq Qarabağı, hətta onun hüdudlarından kənardakı 7 Azərbaycan rayonunu da işğalda saxlayır ki, bu da beynəlxalq normalara zidd addımdır.

Beləliklə.

- AŞPA kimi mötəbər qurum bir daha Azərbaycan Respublikasının ərazi bütövlüyünü birmənalı şəkildə dəstəklədi;

- torpaqlarımızın məhz erməni ordusu tərəfindən işğal faktını təsdiqlədi;

- erməni silahlı qüvvələrinin zəbt etdikləri Azərbaycan ərazilərindən çıxarılmasını tələb etdi, eyni zamanda bölgədə aparılan siyasi nəticəsində həyata keçirilən etnik təmizləmə monoetnik dövlət yaradılması faktım qeyd etdi.

Qətnamə onu deməyə əsas verir ki, Dağlıq Qarabağda etnik təmizləmə aparılıbdır, Ermənistan tərəfdən Azərbaycan əraziləri işğal edilibdir.

Beləliklə, Cenevrə Konvensiyasının tələbləri pozulmuş və bu cinayəti törədən şəxslərin gələcəkdə Beynəlxalq Məhkəmə qarşısında cavab verəcəkləri barədə fikirlər də qətnamədə öz əksini tapmışdı.

Sənədin tarixi əhəmiyyəti ondan ibarətdir ki, qətnamədə Avropa Şurasının üzvü olan dövlət tərəfindən xarici ərazilərin işğalı ilə həmin dövlətin təşkilat qarşısında götürdüyü öhdəlikləri ciddi şəkildə pozduğunu bəyan edir, güc vasitəsi ilə ilhaq cəhdi rədd olunur. İlhaq edilmiş ərazilərin azad edilməsini tələb edən BMT-nin Təhlükəsizlik Şurasının məlum qətnamələrindən istifadə etməklə yurdlarından didərgin düşmüş şəxslərin öz torpaqlarına qayıtmaq hüququ bir daha təsdiqlənir.

Bu gün Xocalı faciəsinin qurbanları haqqında dünya ictimaiyyətinə obyektiv informasiyanın çatdırılması üçün Azərbaycanın həm dövlət strukturları, həm qeyri-hökumət təşkilatları, həm də ayrı-ayrı vətəndaşlar tərəfindən müvafiq addımlar atılır. Belə ki, "Xocalının səsi" qəzeti çıxır. Xocalılı müəllimə, müxbir Səriyyə Müslümqızının Xocalı körpələri haqqında "Onlar heç vaxt böyüməyəcəklər" kitabı Azərbaycan, rus və ingilis dillərində çap olunub, yüzlərlə məqalə yazılıb. Xocalı sakini olmuş, Milli Məclisin üzvü Havva Məmmədovanın "Xocalı: şəhidlər və şahidlər" kitabı Azərbaycan və rus dillərində çap edilib və dünyanın bir çox ölkələrinə yayılıb. Faciənin dəhşətlərini özündə əks etdirən "Haray" filmi çəkilib. Milli Məclisin üzvü Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən Xocalı faciəsi zamanı azərbaycanlılara qarşı törədilmiş vəhşilikləri və cinayət faktlarını özündə toplamış kitab da nəşr edilib. Bütün bunlarla yanaşı, Xocalı faciəsi törədilən gün hər il dünyanın müxtəlif şəhərlərində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının xətti ilə etiraz aksiyaları, mitinqlər, sərgilər təşkil edilir və erməni separatçılarının, terrorçularının törətdiyi bu soyqırım barədə beynəlxalq ictimaiyyətə məlumatlar verilir.

Xocalı faciəsi haqda 30 dəqiqəlik sənədli film çəkilir.

Yəqin ki, Azərbaycan hökumətinin birbaşa təşkilatçılığı ilə azərbaycanlılara qarşı erməni daşnakları tərəfindən son 300 il-də törədilmiş bütün cinayətləri, o cümlədən Xocalı faciəsini əhatə edən çoxseriyalı bədii və sənədli filmlər yaxın gələcəkdə mütləq çəkiləcəkdir.

Bu il də Xocalı soyqırımının dünyaya çatdırılması istiqamətində xeyli işlər görülüb. Xocalı soyqırımının 17-ci ildönümünə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün Azərbaycan parlamentinin nümayəndələri Türkiyə paytaxtına gedərək buradakı Heydər Əliyev adına orta məktəbdə olublar. Sonra Heydər Əliyev Fondu və Azərbaycanın Türkiyədəki səfirliyi mitinq təşkil edib və orada yüzlərlə azərbaycanlı və türk iştirak edib.

Xocalı faciəsi Qazaxıstanın paytaxtı Astana şəhərində də Azərbaycan səfirliyi ilə Xəzər Mədəniyyət Mərkəzinin birgə təşkil etdiyi tədbirdə anılıb.

ABŞ-da yaşayan soydaşlarımız isə Vaşinqtonun mərkəzi küçələrindən keçərək Ermənistan səfirliyinə etdikləri yürüşlə Azərbaycan xalqının faciəli gününü anıblar. Bu yürüşdə Amerika azərbaycanlıları, türklər, tatarlar və ABŞ-da yaşayan digər etnik icmaların nümayəndələri iştirak ediblər. Amerikanın Azərbaycan icmasının prezidenti aksiya iştirakçıları adından hazırlanmış qətnaməni oxuyub, Xocalı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Faciələrimizin bütün qurbanlarının xatirəsini ümummilli liderimiz Heydər Əliyevin belə bir fikrini xatırlatmaqla bir daha anmaq istərdim: ***"20 Yanvar və Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edərkən onların qarşısında hər birimiz vicdan və vətəndaşlıq borcu haqqında düşünürük. Bu borcu ödəməyin ən yaxşı yolu 20 Yanvar və Xocalı qəhrəmanlarının uğrunda öz həyatlarını qurban verdikləri idealları yaşatmaq, müstəqil Azərbaycan dövlətini qorumaq, onun sərhədlərinin toxunulmazlığını, bütövlüyünü təmin etməkdir".***

"Azad Azərbaycan".- 2009.- 25 fevral.- №28 (1520). - S.4.

Tale bizi seçdi...

Xocalı faciəsinə aparan yollar...

XX əsrin 80-ci illərinin sonlarına yaxın iqtisadi böhran burulğanında boğulan və artıq dağılmağa başlayan müttəfiq respublikalar birliyi - SSRİ-nin ömrünün bir az da uzadılması üçün xüsusi xidmət və siyasi orqanlar yollar aramaqda idi. Yarandığı gündən milli zəmində münaqişə ocaqlarının təməlini qoymağa başlayan Sovet hakimiyyəti basdırdıqları bu "minaları" tərpətməklə qaynar ocaqlar yaratmaq və bu ocaqları söndürmək bəhanəsilə ordunun gücüylə ölkədə hərbi vəziyyət yaratmaq istəyirdilər. Lakin bu "minaların" nə dərəcədə təhlükəli olduğunu və onların partlayacağı təqdirdə quruluşun mövcudluğuna gətirəcəyi təhlükə barədə düşünmürdülər.

Eyni zamanda xərçəng xəstəliyi kimi yayılan kommunizm təhlükəsini birdəfəlik yer üzündən silib atmağa çalışan ABŞ və Qərb dövlətləri də yaranmış münbit vəziyyətdən maksimum istifadə etməyə çalışırdı. 70 ilə yaxın bir dövrdə demək olar ki, bütün dünyadan təcrid olunan bir ölkənin Qorbaçovun yenidənqurması sayəsində qapalı qalmış qapılarını açması da onların bu niyyətlərini gerçəkləşdirirdi.

Hər vəchlə SSRİ-nin dağılmasının qarşısının alınması üçün çalışan Qorbaçov hakimiyyətinin xüsusi xidmət və siyasi orqanlarının gizli planlarında dondurulmuş münaqişə ocaqlarının yenidən alovlandırılması üçün ilkin olaraq Orta Asiya ölkələri seçilmişdi. 1986-cı ildə Qazaxıstanda tələbələrin kütləvi etiraz aksiyaları ilə başlayan dondurulmuş "minaların" tərpədilməsi əməliyyatları sonradan Oş vilayəti yaxınlığında qırğızlarla özbəklərin toqquşmasına gətirib çıxardı. Yaranmış vəziyyəti qiymətləndirməyi bacaran, xaricdə güclü diaspor dayaqlarına malik olan Ermənistanın Dağlıq Qarabağı özlərinə birləşdirmək məsələsini ortaya atması xüsusi xidmət orqanlarını bu planlarında dəyişikliklər etməyə məcbur etdi. Üstəlik, dövlət başçısı Mixail Qorbaçovun və onun arvadı Raisa Qorbaçovanın yaxın ətrafının ermənilərlə əhatə olunması vəziyyəti daha da dərinləşdirirdi.

200 ildən artıq bir dövrdə Rusiyanın əsarəti altında olan Azərbaycan təzyiqlər qarşısında illər boyu əzəli - Qərbi Azərbaycan torpaqlarını artıq ermənilərin xeyirinə itirmişdi. Kifayət qədər oyanmış Azərbaycan xalqı bundan sonra heç olmasa, müttəfiq respublika kimi fəaliyyət göstərdiyi müddətdə müəyyənləşdirilmiş ərazi bütövlüyünün bir hissəsini ermənilər tərəfindən idarə olunan siyasi büronun bir qrup pensionerinin göstərişi ilə Ermənistana vermək fikrində deyildi. 1988-ci ilin fevral ayında Ağdamdan Dağlıq Qarabağa tərəf başlayan etiraz yürüşləri və etiraz dalğaları az bir zamanda bütün respublikanı ayağa qaldırdı...

Yaranmış problemi mövcud Konstitusiya çərçivəsində tezliklə həll etmək əvəzinə Sovet hökuməti vəziyyəti daha da qızışdıraraq əraziyə on minlik daxili qoşunlar ordusunu yeritdi və bölgədə fövqəladə vəziyyət elan etdi. Bununla da Qorbaçov hakimiyyəti SSRİ-nin iflasa uğramasının bünövrəsini qoydu. Yerli azərbaycanlı əhalidən adi ov tüfənglərini yığışdırmağa başlayan hərbçilər və yerli hüquq-mühafizə orqanları xalqın torpaqlarını və ərazi bütövlüklərini qorumaq iradəsini sındıra bilmədi...

Bölgədə fövqəladə vəziyyət və komendant saatı tətbiq edilməsinə baxmayaraq, xalqın iradəsi ilə yaranmış müqavimət hərəkatına qoşulanların sayı günbəgün artırdı. Bölgədə müəyyən nüfuza malik olan Ağdam rayonunda yaranmış müqavimət hərəkatına respublikamızın tanınmış vətənpərvər ziyalıları istiqamət verir, sıralarının genişləndirilməsi üçün müəyyən işlər aparırdılar.

Artıq 1988-ci ilin sonlarında Qarabağda vəziyyətin getdikcə gərginləşməsi, ara-sıra baş verən milli zəmində qarşıdurmalarda itirdiyimiz insanlarımız məcbur edirdi ki, bu hərəkatın daxilində gizli silahlı özünümüdafiə dəstələri yaradılsın. Mərhum Eldar Bağırovun rəhbərliyi ilə müqavimət hərəkatının bir qrup üzvü tezliklə özünümüdafiə dəstələrini yaratmağa müvəffəq oldu. Məlum səbəblərdən gizli saxlanılması mümkün olmayan özünümüdafiə dəstələri Dağlıq Qarabağda yaşayan azərbaycanlı gənclərin də qoşulması ilə artıq böyük gücə malik idi.

Lakin sayın və gücün çox olması hələ ordu demək deyildi. 50-60 nəfərlik qruplarla 7-8 min nəfəri özündə birləşdirən müdafiə dəstəsi çox az miqdarda silahla təchiz olunmuşdu. Bir neçə avtomat və hər qrupda 3-5 tüfəng...

Təbii ki, fövqəladə vəziyyətə "nəzarət" edən, hər növ silahla təmin olunmuş daxili qoşunların əsgərlərinə və bu əsgərlərin yaxından köməkliyi ilə bizdən dəfələrlə yaxşı silahlanmış erməni hərbi qruplarına qarşı mübarizə aparmaq çətin idi. Buna baxmayaraq, müəyyən vaxtadək Qorbaçov hakimiyyətinin Dağlıq Qarabağı asanlıqla Ermənistana birləşdirmək planlarını pozmağa nail ola bilmişdik. Bəlkə də daha çox nəyəsə nail olmaq olardı. Lakin Qarabağda müqavimət hərəkatı təkcə erməni və ruslarla mübarizə etmirdi. Eyni zamanda Moskvanın göstərişi ilə öz xalqının müqavimətini qırmağa çalışan Azərbaycan Respublikasının hakimiyyətdə əyləşənləri ilə də apardığımız mübarizə faktiki olaraq bizi iki cəbhədə döyüşməyə vadar edirdi. Razılaşın ki, hərbi və siyasi təcrübəsi olmayan cavanlar üçün bu çox çətin idi...

Vətənə, torpağa bağlı olan, ata-baba yurdlarını düşmənlərə təslim etmək istəməyən bu cavanlar bütün çətinliklərə dözürdü. Yerli hakimiyyət orqanlarında çalışan rayon rəhbərləri də real vəziyyəti başa düşərək açıqda edə bilməsələr də müəyyən vaxtadək gizli də olsa hərəkata dəstək verir, imkanları daxilində silah-sursatla təmin olunmasına da köməklik göstərirdilər. Vəzifə kəndirlərinə bağlanmalarına baxmayaraq, onlar da bir azərbaycanlı kimi ata-baba torpaqlarının itirilməsi ilə razılaşmırdılar. Yalnız o vaxtkı respublika rəhbərliyi siyasi büronun yalançı vədlərinə aldanaraq sadəlövhcəsinə problemin dövlət tərəfindən həll olunacağına inanırdı...

Moskvanın emissarı - Azərbaycan Kommunist Partiyasının ikinci katibi, faktiki olaraq respublikaya rəhbərlik edən Viktor Polyaniçkonun Stepanakertdə (Xankəndində) Qarabağ təşkilatına şəxsən rəhbərlik etməsi yalnız ermənilərin xeyrinə, azərbaycanlı əhalinin isə müqavimətinin zəiflədilməsinə yönəlmiş addım idi. Təəssüf ki, o vaxtkı rəhbərlərimiz bu siyasi addımı qiymətləndirmək bacarığında deyildi. Az-çox baş çıxaran və vəziyyəti dərk etməyə başlayan Tofiq İsmayılov, İsmət Qayıbov, Məhəmməd Əsədov kimi rəhbər vəzifədə çalışanlarımız vertolyot terrorunun qurbanına çevrildi. Yerli Azərbaycan əhalisinin asan yolla nüfuzunu qazanmaq təcrübəsi olan rusiyalı "çekist"in tezliklə özünə qarşı sui-qəsdlər hazırlamasını və həyata keçirməsini, o vaxtkı yeganə elektron vasitə sayılan Az.TV ilə guya bu sui-qəsdlərin ona qarşı ermənilər tərəfindən törədilməsini dəfələrlə nümayiş etdirməsini hamı xatırlayır. Lakin bu sui-qəsdlərin Polyaniçkonun mühafizəçiləri tərəfindən səhnələşdirilməsini çox az adam bilirdi. Bütün bu oyunlar Viktor Polyaniçkonun ermənilərə qarşı əsl mübariz kimi Azərbaycan xalqının sevimli qəhrəmanına çevrilməsi üçün hesablanmışdı.

Bu cür oyunlar Azərbaycan xalqının və onun rəhbərliyinin başının altına yastıq qoyur, əsas partlayışın hazırlanması üçün rusların və ermənilərin əl-qolunu açırdı...

...Soyuq müharibəyə davam gətirməyən SSRİ-nin iqtisadi vəziyyəti onu uçuruma aparırdı. Kütləvi narazılıqlar ölkənin bütün ərazilərini bürüyürdü. Xüsusilə müttəfiq respublikalarda etiraz dalğaları özünü daha qabarıq şəkildə göstərirdi. Ölkədə, o cümlədən Azərbaycanda xaos hökm sürür, etirazçıların yaratdıqları xalq cəbhələri sistemin özünün dəyişdirilməsinə gətirib çıxarmalı idi. Bütün bunların qarşısının alınması üçün ordu qüvvələri də kifayət etmirdi. Baş Kəşfiyyat İdarəsinin çıxış yolu kimi Mixail Qorbaçovun hakimiyyətdən uzaqlaşdırılması cəhdinin fiaskoya uğraması Sovetlər Birliyinin dağılmasına gətirib çıxardı.

Ölkədə Kommunist Partiyasının fəaliyyətinə xitam verən Rusiyanın o vaxtkı prezidenti Boris Yeltsin Belorusiya, Ukrayna respublikaları ilə birlikdə SSRİ-nin tərkibindən çıxmaları barədə bəyanat verdikdən sonra digər respublikaların da özlərini müstəqil elan etmələri vəziyyəti kökündən dəyişməli idi. Müstəqilliyini elan etmiş respublikamızda da xalqın dəstəyinə arxalanan, beynəlxalq qaydalara uyğun olaraq dövlət atributlarını yaratmağı bacaran ölkə rəhbəri, Ali Baş Komandanı olmalı idi. Təəssüf ki, belə olmadı. Rəhbərlərimiz yalnız müstəqilliyi elan etməklə öz işlərini bitmiş hesab etdilər. Bir gözləri Moskvada qalan bu rəhbərlər Polyaniçkoya "stavka" etməklə hələ də boyunduruğa qayıdacaqları günü gözləyirdilər. Viktor Petroviçin "köməkliyi" ilə isə bu arada Dağlıq Qarabağda yerləşən Azərbaycan kəndləri vəhşicəsinə boşaldılır, "təmizləmə" əməliyyatları aparılırdı. Artıq ölkəmizin daxilində çoxsaylı məcburi köçkünlər ordusu yaranmışdı...

1988-ci ildə Qərbi Azərbaycandan qovulan yüz minlərlə soydaşlarımızın taleyinə biganə qalan bu hakimiyyət Qarabağdan qovulan insanların da taleyinə biganə qalmalı idi.

İki cəbhədə mübarizə aparan müqavimət hərəkatı üçün artıq üçüncü cəbhə açılırdı. Qarabağ kəndlərindən qovulan məcburi köçkünlərin böyük əksəriyyətinin Ağdamda yerləşdirilməsi (40 min nəfərdən çox) onsuz da gərgin olan vəziyyəti daha da gərginləşdirirdi. Doğma yurd-yuvalarından qovulan soydaşlarımızın yerləşdirilməsi və cüzi təminatı Ağdam rayonunun üstünə atılmışdı. Vəhşi düşmənlə üz-üzə qalan bu rayon bir tərəfdən erməni həmlələrinin qarşısını almaq, bir tərəfdən hakimiyyətin təzyiqlərinin qarşısında dayanmaq, digər tərəfdən isə məcburi köçkün düşmüş insanların yerləşdirilməsi ilə məşğul olmaq məcburiyyətində idi. Ayaz Mütəllibov hakimiyyəti kreslolarını saxlamaq üçün yurd-yuvalarından qovulmuş bu insan axınının paytaxtda gətirilməsi ilə heç cür razılaşmırdı. Onsuz da paytaxtda hər gün on minlərlə insanın iştirak etdiyi etiraz mitinqlərinə onların da qoşulması hakimiyyət çevrilişinə gətirib çıxara bilərdi. Mütəllibovlara isə bu lazım deyildi. Ağdam və digər cəbhə xətti boyu yerləşən rayonlar isə qurban verilə bilərdi. Bu cür biganəlik məhz ermənilərə sərf edirdi.

Xalqın təzyiqi ilə Müdafiə Nazirliyi yaratmaq məcburiyyətində qalan o vaxtkı hakimiyyət onun inkişafı və gücləndirilməsi üçün maraqlı deyildi və ya buna qüdrətləri çatmırdı. Yük yenə aşağıların, xalqın çiyinləri üzərində qalmışdı. Könüllü müdafiə dəstələri cəbhə boyu yerləşən rayonlarda və Dağlıq Qarabağın ərazisində qalan Xocalıda və Şuşada düşmən həmlələrinin qarşısını almaq üçün döyüşürdü.

Müstəqil respublika kimi artıq beynəlxalq aləmdə rəsmi tanınmağımıza baxmayaraq, hələ də geriyə - boyunduruğa qayıdacaqlarına inanan Kommunist şinelli rəhbərlərimiz Moskvanın dediyi ilə oturub-dururdu. Bununla razılaşmayan milyonlarla insanın təzyiqləri qarşısında duruş gətirə bilməyən hakimiyyətdə böhran günü-gündən artırdı. Qarabağda insanlar günahsız körpələrini odun-alovun içərisindən xilas etməyə, paytaxta isə rəhbərimiz hakimiyyətini onların qanı bahasına qorumağa çalışırdı. Hakimiyyəti Qarabağ yox, torpaqlarımız

yox, yalnız tutduqları vəzifə maraqlandırırdı. Ölkə sanki iki hissəyə bölünmüşdü. Qarabağda qanlı müharibə, paytaxtda isə hakimiyyət davası gedirdi.

Bu isə düşmənlərimiz üçün geniş imkanlar yaradırdı. Artıq Dağlıq Qarabağda yerləşən keçmiş Sovet ordu birləşmələrinin də açıqdan-açığa ermənilərin tərəfinə keçməsi yeni faciələrin törədiləcəyindən xəbər verirdi. Azərbaycan əhalisi arasında qorxu və həyəcan yaratmaq üçün görünməmiş vəhşiliklər, kütləvi qırğın törədilməli idi. Bunun üçün ya Şuşa, ya da Xocalı rayonlarından birinin bu vəhşiliyin qurbanına çevrilməsi artıq planlaşdırılmışdı. Şuşanın bir tərəfə - Laçın rayonuna çıxış yolu olduğu nəzərə alınaraq törədiləcək vəhşiliyin effekti istənilən səviyyədə olmayacaqdı. Bunu nəzərə alan Rusiyanın baş qərargahı artıq dörd bir tərəfdən mühasirədə qalan Xocalını faciə qurbanına çevirməyi ermənilərə məsləhət görür.

1992-ci ilin əvvəllərində tamamilə mühasirə vəziyyətində qalan Xocalı rayonu ilə yeganə əlaqə vertolyotlarla saxlanılırdı. Yeri gəlmişkən, hər dəqiqə ölümlə üzləşə biləcəklərinə baxmayaraq, vertolyotçularımız imkanları çatdıqca uçuşlar edir, xəstə və uşaqları mümkün qədər mühasirə zonasından çıxarmağa çalışır, mühasirədə qalan əhaliyə cüzi də olsa ərzaq və hərbi sursat çatdıra bilirdilər. Uçuşlar zamanı ermənilərin atdıqları atəşlərdən vertolyotlarının korpuslarının dəlmə-deşik olmasına baxmayaraq, qəhrəman təyyarəçilərimiz uçuşlardan imtina etmirdilər...

Bakıda isə etiraz mitinqləri davam edir, hökumətin və prezidentin istefası tələb olunurdu. Artıq paytaxtdan heç bir köməklik olmayacağını anlayan vətən oğulları yanvar ayının axırlarında öz qüvvələri hesabına Xocalı yolunun açılması üçün bir neçə hərbi əməliyyat keçirsə də təcrübəsizlik və hərbi bacarığın yüksək olmaması üzündən müvəffəqiyyət qazana bilmədilər. Yerli müdafiə dəstələri əslində müdafiə olunmaq üçün az-çox hazırlığa malik olsalar da hücum əməliyyatlarının həyata keçirilməsi üçün təcrübəli hərbçilərə ehtiyacı var idi. Bu hərbçilər isə Bakıda saxlanılırdı. Yəqin ki, Ayaz Mütəllibovun komandasını hakimiyyətdə saxlamaq üçün gərək ola bilərdi.

Fevral ayının əvvəllərində tam təhlükəli şərait yarandığı üçün Xocalıya vertolyotların uçuşları da dayandırıldı. Hər yerdən əlləri üzülən Xocalının taleyi yalnız rayon icra hakimiyyətinin başçısı Elman Məmmədovun rəhbərliyi ilə yerli əhalinin və Əlif Hacıyevin (ölümündən sonra Azərbaycanın Milli Qəhərmanı adına layiq görülüb. Allah rəhmət eləsin) başçılığı ilə müdafiə qüvvələrinin ümidinə qalırdı. Dörd bir tərəfdən düşmən həmlələri qarşısında dayanan bu insanların da hər gün həlak olan və yaralanan əsgərlərinin azalması ilə sıraları seyrəlirdi.

Çoxsaylı müraciətlərdən və təzyiqlərdən sonra fevralın 16-17-də Müdafiə Nazirliyindən göndərilən iki-üç yüksək rütbəli zabit əməliyyat planı hazırlamaq üçün Ağdama gəldi. Bir neçə gün ərzində Ağdam ətrafında yerləşən qüvvələrə baxış keçirildi, onların hərbi hazırlıqları, əllərində olan mövcud silah-sursat növləri müəyyənləşdirildi və sonra guya böyük əməliyyat planı hazırlandı. Döyüşçülər arasında əhval-ruhiyyə, ruh yüksəkliyi yaranmışdı. Hamı əməliyyatın başlanacağı günü səbrsizliklə gözləyirdi. Nəhayət, fevral ayının 23-ü təxminən 15 radələrinə təyin edilmiş hücum əməliyyatı ağır artilleriya hazırlıqları ilə başlayandan dərhal sonra dayandırıldı. Bildirilənlərə görə, əməliyyat müdafiə naziri Şahin Musayevin göstərişi ilə dayandırılıb və əməliyyata başçılıq edən yüksək rütbəli zabitlər Bakıya çağırılıb. Müdafiə Nazirliyinin hərbçiləri, necə deyərlər, düşmən pətəyinə çöp salıb aradan çıxmışdılar. İndi yerdə qalanlar düşmənin pətəkdən çıxıb 366-cı rus alayının dəstəyi ilə onları sancmalarını gözləyirdilər. Çox gözləyəsi olmadılar. Fevral ayının 25-dən 26-na keçən gecə erməni-rus hərbi birləşmələri Xocalı rayonu üzərinə irimiqyaslı hərbi əməliyyata başladı.

Bu, misli görünməmiş bir faciənin - dinc əhalinin, qoca və uşaqların, qadın və kişilərin kütləvi şəkildə qətlə yetiriləcəyi, azərbaycanlıların soyqırımının baş verəcəyi gecə olacaqdı...

... Artıq fevral ayının 25-dən başlayaraq Xocalı rayon rəhbərliyi radio-telefon vasitəsi ilə əraziyə çoxsaylı hərbi texnikanın və hərbi qüvvələrin cəmləşdirildiyi barədə məlumatlar verərək həyəcanla təcili köməklik istəyirdi.

Təbii ki, alınan məlumatlar prezidentin səlahiyyətli nümayəndəsi tərəfindən yuxarıya ötürülürdü. Ali Baş Komandan isə Moskva ilə danışdığını, heç bir əməliyyatın aparılmayacağını bildirərək rayon rəhbərliyini əhali arasında panika yaratmaqda günahlandırırdı.

Fevral ayının 25-i axşam saatlarında paytaxt şirin yuxuya hazırlaşdığı bir vaxtda dörd bir tərəfdən Xocalıya qarşı hücuma keçən erməni-rus hərbi birləşmələri irimiqyaslı işğal əməliyyatına başladı. Müasir silah və hərbi texnika ilə təchiz olunmuş düşmən həmlələri qarşısında mərdliklə dayanan Xocalının müdafiəçilərinin qüvvələr nisbəti bərabər olmadığı üçün geri çəkiləcəyi artıq gerçəkləşirdi. Əslində heç geri çəkilməyə də yer yox idi.

Düşmən həmlələrini, heç olmasa, zəiflətmək üçün Şuşa və Ağdam rayonları istiqamətindən edilən cəhdlər isə hücuma keçən düşmənlər tərəfindən qiymətləndirilmədiyi üçün nəticə vermirdi. Düşmən Xocalını işğal etməkdə qətiyyətli idi. Bərabər olmayan döyüşdə çoxsaylı itkilər verən qəhrəman döyüşçülər artıq bu həmlələrə davam gətirə bilməyəcəklərini başa düşərək, heç olmasa, mülki əhalinin bu ərazilərdən çıxarılması barədə düşünməliydilər. Ona görə də rayon rəhbərliyi ermənilərin guya mülki əhalinin rayondan çıxarılması üçün

"açdıqları" dəhlizdən çıxmaq məcburiyyəti qarşısında qalmışdı. Ermənilər isə məhz bu "açdıqları" dəhlizdə pusqu quraraq əsl niyyətlərini, misli görünməmiş vəhşiliklərini - dinc əhalinin qətlə yetirilməsi planlarını həyata keçirməli idi. 26-sı gecə saat 3-4 radələrində bu qanlı döyüşlərdə ciddi müqavimət göstərərək yüzlərlə şəhid vermiş Xocalı camaatı məcburiyyət qarşısında piyada Xocalı-Ağdam istiqamətində onlar üçün açılmış 8-10 kilometrlik dəhlizlə sağ qalan camaatını çıxarmaq istəyirdi. Məkrli niyyətlərini həyata keçirən amansız düşmən onlara burada da aman vermədi...

Bütün Qarabağ bölgəsi misli görünməmiş faciəni yaşadığı bir vaxtda respublika rəhbərliyi öz xalqına qarşı etdiyi xəyanəti gizlətmək üçün guya Xocalıya qarşı heç bir hücum əməliyyatının keçirilmədiyi və orada baş verənlər barəsində danışılanların şayiə olduğu barədə dayanmadan yalan məlumatlar verirdi. Xocalının harayı paytaxtda eşidilmirdi. Sanki törədilən soyqırımı Azərbaycan torpaqlarında Azərbaycan xalqına qarşı deyil, haradasa Mozambikdə həyata keçirilirdi.

Fevralın 26-sı gecə Xocalının mülki əhalisi Ağdam rayonunun Qaraqaya adlanan istiqaməti tərəfə gəldiyi barədə məlumat alan yerli müdafiə dəstələri Allahverdi Bağırovun (Azərbaycanın Milli Qəhrəmanı) rəhbərliyi ilə onlara kömək etməyə getdi. Onlar pusquda düşmən gülləbaranına tuş gələn dinc əhalinin sağ qalanlarının çıxarılması üçün əllərindən gələni etdilər. Təəssüf ki, mülki əhalinin hamısını sağ-salamat çıxarmaq mümkün olmadı...

Səhər hava işıqlananda gördüklərimiz bizi şoka salmışdı. Bütün dərə-təpə boyu erməni quldurlarının xaincəsinə qətlə yetirdiyi dinc əhalinin-qocaların, qadınların, uşaqların cəsədlərini görəndə, hətta ən ağır döyüşlərdə həmişə kamerası ilə yanımızda olan Seyidağa Mövsümov və türkiyəli jurnalist qardaşımız da göz yaşlarını saxlaya bilmədilər. Ömrü boyu silahı videokamera olan bu insanlar gördükləri bu vəhşiliklərə dözməyərək əllərindəki kameraları bir tərəfə atdılar və rəhmətlik Allahverdi Bağırovdan silah istədilər. Allahverdi "oğraşlar silah işlətmək üçün bizə kömək etmədilər. Heç olmasa, siz burada törədilən vəhşilikləri çəkin aparıb gözlərinə soxa bilək. Bəlkə onda binamuslar buralarda nə baş verdiyinə inanalar" - dedi...

Faciənin canlı şahidləri, hadisələri gözləri ilə görən və yaxından izləyənlər, Əlif Hacıyev kimi qəhrəman oğullarımızın torpaqlarımızın müdafiəsi uğrunda son nəfəsinədək vuruşaraq həlak olmasını, Xocalının son nəfəsədək döyüşdüyünü, lakin yazıqlar olsun ki, ölkə rəhbərliyinin öz xalqına etdiyi xəyanəti yalnız müşahidə edə bildilər.

Bu xəyanətlər hələ davam edəcəkdi. Sonrakı qanlı döyüşlərdə allahverdibağırovlar, canpoladrzayevlər, ramizqənbərovlar, vəzirlər kimi minlərlə igidlərimiz də geri çəkilməyəcək, son nəfəslərinə qədər döyüşərək həlak olacaqdı. Bütün bunlar Xocalı faciəsindən, Xocalı soyqırımından sonra baş verəcəkdi...

Demək olar ki, bir-birindən xəbəri olmayan, ikiyə bölünmüş ölkəmizin hər iki hissəsində hadisələr baş verə biləcəyi şəkildə sonluğuna çatırdı. Qarabağda əhali Xocalının işğal olunması ilə məğlubiyyətini, Bakıda isə mitinqçilər Ayaz Mütəllibovu istefaya göndərməklə qələbələrini "qeyd edirdi"...

Artıq elan edilmiş atəşkəsdən istifadə edərək may ayının 8-dək "dincəlmək" olardı. Axı, paytaxt yeni prezidentini seçməyə hazırlaşırdı. Onların Qarabağ dərdi ilə, ərazi bütövlüyümüzün qorunması ilə məşğul olmağa heç vaxtları da yox idi...

Yəqin bu da bizim alın yazımız imiş. Bu faciələri biz yaşamalıydıq. Minlərlə şəhidi biz verməliydik. Doğma yurd-yuvalarımızı biz itirməliydik...

ÇÜNKİ TALE BUNUN ÜÇÜN BİZİ SEÇMİŞDİ...

Rüstəm HACIYEV

“Ədalət”.-2009.-24 fevral.-N.34.-S.2.

Xocalıda daha nələr itirdik...

Bu gün Azərbaycan tarixinin və xalqının ən faciəli günlərindən biridir. Məhz 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə mənfur erməni daşnakları Xocalıda günahsız, əliyalın dinc əhalini qanına qəltan etdi. Qana susamış quldurlar gecə ikən türkə qarsı uzun illər ərzində bəslədikləri nifrəti ifadə etmək imkanı qazandılar.

Həmin gecə 613 nəfər öldürüldü, onlardan yalnız 335 nəfərin meyitini götürüb dəfn etmək mümkün oldu. Rəsmi, lakin tam olmayan statistikaya görə, son dərəcə qəddarlıq və amansızlıqla qətlə yetirilənlərdən 63-ü azyaşlı uşaq və yeniyetmə, 106-ı qadın və qız, 70-i isə ahıl və. qoca olub. Bu qanlı olay nəticəsində 1000 nəfərdən artıq dinc şəhər sakini, o cümlədən 76 nəfər yetkinlik yaşına çatmamış oğlan, qız və azyaşlı uşaq müxtəlif dərəcədə güllə və qəlpə yarası alıb, şikəst və əlil olub. Müsibət nəticəsində 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib. Qırğın zamanı 1275 nəfər şəhər sakini əsir və ya girov götürülüb, 155 nəfərin taleyi bugünədək naməlumdur. Xocalı soyqırımının Xatın, Xolokost və Xirosima kimi dəhşətli faciə olması bu hadisə nəticəsində üzləşdiyimiz maddi itkiləri daim arxa plana keçirib. Lakin bu istiqamətdə yazı hazırlayarkən xocalılara və bütövlükdə respublikaya dəyən maddi ziyanın elə soyqırımının özü qədər böyük olduğunu gördük.

1 şəhər, 1 qəsəbə, 8 kənd...

Xocalı faciəsi baş verən zaman rayonun icra hakimiyyətinin başçısı olmuş, hazırda xocalıları parlamentdə təmsil edən El-man Məmmədov bildirdi ki, Xocalı rayonu 1991-ci il noyabr ayının 26-da Əsgəran rayonunun bazasında yaradılmışdı. Onun sözlərinə görə, həmin il ərazisi 970 kvadrat kilometr, əhalisi 25 min 332 nəfər olan Xocalı rayonunda yaşayış məntəqələrinin ümumi sayı 52 idi. Bunlardan 1-i şəhər, 2-i qəsəbə, 50-i isə kəndlərdən ibarət olub. E. Məmmədov işğal ərəfəsində rayonda 14 tibb müəssisəsi, 56 mədəniyyət ocağının fəaliyyət göstərdiyini vurğuladı. Həmsöhbətimiz qeyd etdi ki, işğal nəticəsində 1 şəhər, 1 qəsəbə, 8 kənd, 3200 fərdi yaşayış evi, 31 sənaye, 15 kənd təsərrüfatı, o cümlədən 1 sovxoz, 3 kolxoz, 1 arıçılıq birliyi, 5 rabitə obyekti, toxuculuq və iki tikiş fabriki, Bakı ağır dəzgahqayırma zavodunun filialı, 56 mədəniyyət, 20 təhsil, 14 səhiyyə müəssisəsi, 21 klub, 29 kitabxana, 3 uşaq bağçası, 3 mədəniyyət evi, 1 tarix diyarşünaslıq muzeyi, Bakı Maliyyə-Kredit Texnikumunun filialı əmlakı ilə birlikdə dağıdılıb. Onun sözlərinə görə, ümumilikdə rayonun işğalı təkcə Xocalı şəhərində 105 sosial-məişət obyektinin dağıdılmasına səbəb olub.

Abidələrin soyqırımı

Bundan əlavə millət vəkili işğal nəticəsində ermənilər tərəfindən çoxlu sayda maddi-mədəniyyət abidələrinin yerlə-yeksan edildiyini bildirdi: "Xocalı şəhər statusu alandan sonra bütün infrastruktur qurulmuşdu. Sonradan tikilənlərdən əlavə, Xocalıda Azərbaycan xalqına, bütövlükdə türk dünyasına məxsus tarixi mədəniyyət abidələri var idi. Ermənistanın işğalı nəticəsində Xocalı rayonunun tarixi, mədəni, dini abidələri darmadağın edilib. Xocalı şəhərinin ən qədim tarixi abidələri, Xocalı-Gədəbəy mədəniyyətinin nümunələri, XIV-XV əsrə aid türbələr, böyük kurqanlar, dik daşlar, cürbəcür məbədlər, kümbəzlər, Kərkicahan qəsəbəsi, Kosalar, Cəmilli və Meşəli kəndlərindəki qəbristanlıqlar, türk tarixinə məxsus 800 il əvvələ təsadüf edilən müsəlman qəbristanlığının qalıqları, habelə müxtəlif formada yonma qəbirüstü daşlar, müasir dövrdə salınan 11 qəbristanlıq, dini abidələr, məsələn, Meşəli kəndi ərazisində - Meydan yaylağı deyilən yerdə "Seyid qəbiri" ocağı viran edildi". Millət vəkili Xocalının tarixinin eramızdan əvvəl III-V minilliyə gedib çıxdığını vurğuladı: "Rayonun Kosalar kəndi ərazisində "Məhəmməd ağanın otağı", "Darılı Piri", "Ələm ağacı" ziyarətgahları, "Yeddi kilsə" (Alban kilsəsi) vardı. Bundan əlavə 4 yerdə Alban kilsəsi mövcud idi".

5 milyardlıq ziyan

E. Məmmədov Xocalı aeroportunun Dağlıq Qarabağda yeganə hava limanı olduğunu da söylədi: "1975-ci ildə yeni tipli aeroport istifadəyə verildi. Həmin vaxtdan etibarən Bakıdan v İrəvandan Xocalıya «Yak-40» təyyarələri enirdi. Sonrakı illərdə aeroport daha iri təyyarələri qəbul etməyə başladı. Elə erməni silahlı dəstələrinin ilk əsas vəzifəsi də Xocalı platsdarmının məhv edilməsi, bu məntəqədən keçən Əskəran-Xankəndi yolunun boşaldılması, azərbaycanlıların nəzarətində olan aeroportun ələ keçirilməsi idi". Millət vəkili Xocalı rayonunun işğalı nəticəsində həm dövlət, həm do özəl sektora dəyən maddi ziyanın həcminin həmin dövrdə fəaliyyət göstərən Respublika Prokurorluğunun istintaq qrupu və Ali Sovetin birgə istintaq komissiyası tərəfindən 1992-ci ilin fevral ayına olan qiymətlərə əsasən 5 milyard ABŞ dolları məbləğində qiymətləndirildiyini dedi: "Biz bunu həmin dövrdə Azərbaycanda da fəaliyyət göstərən rus rublu ilə müqayisə etsək, deyə bilərik ki, Xocalının yerlə-yeksan edildiyi gün dövlətin və əhalinin əmlakına 5 milyard rubl maddi ziyan vurulub. Təkcə şəxsi əmlaka 300 milyon rubl məbləğində maddi ziyan dəyib". Şəhəri tərk etməyə məcbur olan xocalıların hətta zəruri əşyalarını belə götürməyə macal tapmadığını bildirən E. Məmmədov işğaldan sonra Xocalıda soyğunçuluğun baş verdiyini vurğuladı: "Həmin vaxt xarici hüquq-müdafiə təşkilatlarının açıqladığı

hesabatlarda şəhərdə qalan əmlakın Xankəndi və yaxınlıqdakı erməni yaşayış məntəqələrinin əhalisi tərəfindən daşındığı bildirilirdi. Bir çox evlərin darvazalarına onların yeni sahiblərinin adları yazılıbmış".

Səxavət HƏMİD

"Mərkəz".-2009.-26 fevral.-N. 37.-S.5.

"Xocalı - adı və qisası qalmış şəhər!"

Rey Kərimoğlu deyir ki, faciədən öncə Xocalı camaatını mühasirə vəziyyətindən "Faciədən 5-6 gün öncə polkovnik-leytenant Şirin Mirzəyev mənim də bir əsgər kimi daxil olduğum qrupa xüsusi tapşırıqlarını verdi. Həmin vaxt bu əməliyyatın necə və nə cür həyata keçirilməsi haqqında çox az adamın məlumatı var idi. Fevralın 26-na qədər Xocalıdakı dinc əhalini çıxarmaq mümkün idi. Amma çıxarmadılar, guya oraya qoşunla gedəcəkdilər. O vaxt çoxları deyirdi ki, Əsgəran rayonundan Xocalıya girək və məsələ birdəfəlik həll olunsun. Bu, səhv plan idi. Şirin Mirzəyev də bu plana qarşı çıxırdı".

"Təxminən 7-8 yaşında, ayaqyalın, başıaçıq bir qız uşağını heç kim sakitləşdirə bilmirdi. Elə bil qıza ilahi bir qüvvə verilmişdi. Şaxta onun yanağını çatlatdığından gözlərindən süzülən yaş qana qarışıb çənəsindən axırdı. Əynində cırıq-cırıq olmuş nazik paltar var idi. Palçığa bulaşmış dama-dama yun şalı kimsə onun çiyinlərinə atıb, hər iki ucunu sinəsində düyünləmişdi. O, heç nə danışmırdı, əsgərlərimiz onu meşədən tapmışdılar. Həmin vaxt əli ilə Xocalı tərəfi göstərib, elə hey qışqırırmış. Onu Şelli kəndinin yaxınlığındakı ilkin tibbi yardım məntəqəsinin yanındakı ocaq başına gətirdilər, təmiz paltar, isti çay verdilər. Qızcığaz bir az özünə gələn kimi Xocalı tərəfə qaçmaq istədi. Artıq dili də açılmışdı. Qaçmaq istəyərkən var gücü ilə qışqıraraq anasını çağırırdı. Bu hal elə hey təkrar olunurdu.

Sonra bildik ki, qızın ata-anasını meşədə ermənilər güllələyib, özü isə, Allah bilir, hansısa möcüzə nəticəsində xilas olub".

Xocalı faciəsinin 17-ci ildönümü ərəfəsində həmsöhbət olduğumuz tanınmış jurnalist, sabiq kəşfiyyatçı Rey Kərimoğlunun bu soyqırımı ilə bağlı xatirələrini bizimlə bölüşərkən danışdığı bu əhvalat istər-istəməz gözümüzü yaşartdı. Qısa tanışlıq üçün bildirək ki, Rey Kərimoğlu 1991-ci ildən Qarabağ müharibəsinin fəal iştirakçılarından olub və Milli Qəhrəman, mərhum polkovnik-leytenant Şirin Mirzəyevin yaratdığı 836 saylı hərbi hissənin kəşfiyyat dəstəsində qızğın döyüşlərdə iştirak edib. 9 avqust 1992-ci ildə Xankəndi istiqamətində, Noraguh kəndi yaxınlığında növbəti kəşfiyyat əməliyyatı zamanı ağır yaralanıb. 2-ci qrup Qarabag əlilidir. Müsahibimiz o illəri belə xatırlayır: "Bu gün hamı soruşur ki, Xocalı faciəsi olmaya bilərdimi? Əlbəttə, əgər vaxtında lazımi addımlar atılmış olsaydı, bu faciə baş verməzdi. Müharibə ərəfəsində mülki əhali döyüş gedən ərazilərdən, o cümlədən Xocalıdan çıxarılmalı idi. Müharibə olan yerdə dinc əhali olmamalıdır. Belə olsa, məğlubiyyətlərin və faciələrin sayını azaltmaq olar".

"Fevralın 26-na qədər Xocalıdakı dinc əhalini çıxarmaq mümkün idi"

Rey Kərimoğlu deyir ki, faciədən öncə Xocalı camaatını mühasirə vəziyyətindən çıxarmaq üçün müxtəlif planlar işlənib - hazırlansa da, həyata keçirilə bilmədi: "Faciədən 5-6 gün öncə polkovnik-leytenant Şirin Mirzəyev mənim də bir əsgər kimi daxil olduğum qrupa xüsusi tapşırıqlarını verdi. Həmin vaxt bu əməliyyatın necə və nə cür həyata keçirilməsi haqqında çox az adamın məlumatı var idi. Fevralın 26-na qədər Xocalıdakı dinc əhalini çıxarmaq mümkün idi. Amma çıxarmadılar, guya oraya qoşunla gedəcəkdilər. O vaxt çoxları deyirdi ki, Əsgəran rayonundan Xocalıya girək və məsələ birdəfəlik həll olunsun. Bu, səhv plan idi. Şirin Mirzəyev də bu plana qarşı çıxırdı".

Rey Kərimoğlunun sözlərinə görə, birinci planda Əsgəran istiqamətində hücum nəzərdə tutulurdu: "Halbuki həmin yerdən keçmək mümkün deyildi, çünki sağ cinah, yəni Xanabad tərəf və sol - Naxçivanik tərəf ermənilərin nəzarətində idi. Şirin Mirzəyev isə sağ və sol cinahların düşməndən təmizlənərək, tam bizim nəzarətə keçməsini, sonra isə Əsgəran-Xocalı istiqamətində əməliyyat keçirilməsini təklif etmişdi. Amma naməlum səbəbdən həmin əməliyyat baş tutmadı. Digər plan isə Şirin Mirzəyevin rəhbərliyi ilə mənim də iştirakım nəzərdə tutulan ehtiyat planı idi. Həmin plana əsasən, 836 saylı hərbi hissənin döyüşlərdə fərqlənmiş əsgərləri və ərazini yaxşı tanıyan yerli Xocalı gənclərindən ibarət bir neçə qrup hazırlanmışdı. Biz hücuma keçib dinc Xocalı sakinlərini oradan çıxarmalı və şəhərin müdafiəsini təşkil etməli idik. Ancaq fevralın 25-nə kimi gözləsək də bizi heç bir əməliyyata göndərmədilər. Bir də səhərisi gün eşitdik ki, Xocalıda dəhşətli hadisə baş verib. Fevralın 26-da səhər saat 5-də bizi həyəcan siqnalı ilə hərbi hissədən Ağdamın Şelli kəndi istiqamətinə gətirdilər. Qeyd edim ki, Şelli Ağdamın Xocalıya ən yaxın kəndidir. Biz Xocalıdan qaçıb canını qurtarmış, yaralı olan insanların ermənilərin əlinə keçməməsi üçün onlara kömək göstərməli idik. Ora çatanda dəhşətli bir səhnə ilə üz-üzə gəldik. Qocalar, qadınlar, uşaqlar qarın, palçığın içində, həyəcanlı, çaşqın, gözləri yaşlı, üst-başları qan içində idilər. Xəbər gəldi ki, ermənilər Xocalıdan qaçıb canını qurtarmaq istəyən insanların qarşısını meşədə kəsiblər. Heç bir komanda verilmədən hamı döyüşə atılmışdı. Çoxlu qar yağmışdı və bu, vəziyyəti daha da ağırlaşdırırdı. Döyüşənlər kifayət qədər idi. Mən bizim bölüyün əsgəri, döyüşçü dostum Nail Nəsirovla meşədə qalmış yaralı qadınları və uşaqları xilas etməyi qərara aldıq. Yalnız 4-5 nəfəri xilas edə bildik. Yaralıları, don vurmuş insanları qarlı dağa çıxarmaq çox çətin idi".

"Ananın qucağına sıxdığı körpə artıq çoxdan ölmüşdü"

Bu yerdə müsahibimiz nə isə fikirləşir və üzləşdiyi dəhşətli hadisələrdən birini nəql edir: " Əsgər yoldaşım Nail və mən meşədən bir qadını və onun bağrına basdığı təxminən bir neçə aylıq körpəni də çıxardıq. Qadın ayağından yaralanmışdı. Onu ikimiz çətinliklə təcili yardım maşınının yanına gətirdik. Qadın ilk tibbi yardımın körpəsinə göstərilməsini istədi. Ancaq qucağına sıxdığı körpə çoxdan ölmüşdü. Güllə onun hələ bərkiməmiş boynundan dəyib, ağzından çıxmışdı. Ana körpəsinin öldüyünü biləndə var gücü ilə qışqırdı. O səs hələ də qulağımdadır. Sonra öyrəndik ki, həmin qadın əri ilə birlikdə evdən çıxanda ermənilər onları atəşə tutublar. Həmin vaxt körpə atasının qucağındaymış. Ana həyat yoldaşının öldüyünü görüb, körpəsini bağrına basaraq, bizə rast gələnə qədər qaçmışdı. Heç ayağından yaralanmasına da fikir verməmişdi".

Müsahibimiz sözünü tamamlayır və bir neçə dəqiqəlik fasilədən sonra: "Biz istəmədiyimiz halda, məkrli, arxalı və hiyləgər ermənilərlə qeyri-bərabər bir savaşa cəlb edilmişik. Bizlər nə müharibədən öncəki məqama hazır olmuşuq, nə müharibənin özünə. Buna görə də başımıza olmazın müsibətlər gəlib. Olan olub artıq. Bizim ən böyük bəlamız odur ki, başımıza gələn bəlalardan nəticə çıxara bilmirik. Ancaq Xocalı faciəsi elə bir dərddir ki, ondan nəticə çıxarmamaq olmaz. İşğal olunmuş digər rayonlarımız kimi, Xocalı da bizim adı və qisası qalmış şəhərimizdir. Ümid edək ki, Allah-Təala yaxın gələcəkdə bu qisası almağı və o doğma torpaqlara dönməyi bizə nəsib edəcək", - dedi.

Nicat İntiqam

"Zaman".-2009.-26 fevral.-N.23.-S.6.

Ermənilərin Xocalı soyqırımı barədə etirafları

Azərbaycanın qədim yaşayış məskənlərindən biri olan Xocalı şəhərinin erməni hərbi birləşmələri tərəfindən işğalından 17 il ötür. Erməni qəsbkarları tərəfindən Xocalıda törədilmiş soyqırım miqyasına və qeyri-insani cəza üsullarına görə tarixə ən dəhşətli cinayət aktı kimi daxil olmuşdur. XX əsrin sonunda dünyanın gözü qarşısında baş vermiş belə kütləvi qırğın hadisəsi öz qəddarlığına görə təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə, insanlığa qarşı törədilmiş cinayət idi.

1992-ci il fevralın 26-da qədim Azərbaycan şəhəri Xocalı erməni hərbi birləşmələri tərəfindən dağıdıldı. Ermənistan silahlı qüvvələri Xankəndidə yerləşən sovet ordusunun 366-cı motoatıcı alayının şəxsi heyətinin və ağır hərbi texnikasının bilavasitə iştirakı ilə Xankəndi ilə Əsgəran arasında yerləşən Xocalı şəhərini zəbt edərək xalqımıza qarşı soyqırımı həyata keçirmişdir. Xocalının işğalı zamanı uşaqlar, qadınlar və qocalar xüsusi amansızlıqla, işgəncələrlə öldürülmüş, insanların başları kəsilmiş, gözləri çıxarılmış, hamilə qadınların qarınları süngü ilə deşik-deşik edilmiş, meyitlər insanlığa ləkə gətirəcək bir şəkildə təhqir edilmişdir. Xocalının işğalına dair istintaq materiallarında göstərilir ki, hücumda mayor Ohanyan Seyran Muşeqoviçin komandanlığı altında 366-cı alayın 2-ci batalyonu, Yevgeni Nabokixinin komandası altında 3-cü batalyon, 1 saylı batalyonun qərargah rəisi Çitçyan Valeriysayeviç və alayda xidmət edən 50-dən artıq erməni zabit və gizir iştirak etmişdir.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra Xocalı faciəsi özünün əsl siyasi-hüquqi qiymətini aldı, soyqırımı haqqında həqiqətlərin dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görüldü. Ulu öndərimiz Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanında bu faciənin siyasi qiyməti verilir: "1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə-yeksan edilməsi ilə qurtardı". Azərbaycan hökuməti erməni şovinistlərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərir. Məqsəd tarixi ədalətin bərpasına nail olmaq, cinayətkarları ifşa etmək və onları dünya ictimaiyyətinin mühakiməsinə verməkdir. Xocalı şəhərində törədilmiş vəhşilyin dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün hər bir azərbaycanlı da üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməlidir. Xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımız da son illər bu istiqamətdə əməli addımlar atırlar. Soyqırım günü diaspor təşkilatları nüfuzlu Avropa ölkələrində mitinqlər, nümayişlər təşkil edərək, həmin ölkələrin ictimaiyyətinin diqqətini bu məsələyə cəlb edərək, faciəni törədənlər barədə geniş məlumatlar verirlər. Xocalıda törədilmiş soyqırım aktı barədə beynəlxalq ictimaiyyəti məlumatlandırarkən erməni şovinistlərinin faciə ilə bağlı müxtəlif vaxtlarda ən ali tribunalardan verdikləri açıqlamalara və qələmə aldıqları kitablara da istinad edilməlidir.

Ermənistanın sabiq prezidenti R.Köçəryan Avropa Şurasının mötəbər kürsüsündən dünya ictimaiyyətinə xitabən Dağlıq Qarabağda, xüsusən də Xocalıda keçirilən hərbi əməliyyatlarda iştirakından fəxr duyduğunu bildirmişdi. Bu hərbi cinayətdə iştirak edən R.Köçəryan əslində bununla soyqırımı aktına birbaşa rəvac verdiyini təsdiqləmiş oldu. Bu fakt Xocalıda baş verən qanlı hadisələrin Ermənistan rəhbərliyi tərəfindən əvvəlcədən planlaşdırıldığını və həyata keçirildiyini göstərir.

Erməni yazıçısı Zori Balayan Xocalıda baş verənlərlə bağlı yazdığı kitabda erməni xislətini bir daha açıb ortaya qoydu. O yazır ki, Xocalıya hücum əməliyyatından sonra yaxınları ilə həmin qanlı hadisələr törədilən yerdə olmuş və evlərdən birinin divarına 11 yaşlı bir türk qızının mismarlandığını görmüşdür. Z.Balayan yazır ki, "türklərə olan nifrətimi hələ də can verən qızın sinəsindən dərinin qopardılması ilə soyutmağa çalışdım". Bu faktı qələmə alan erməni "ziyalı"sı azərbaycanlılara qarşı necə dərin nifrət bəslədyini açıq yazmaqla, törədilən qanlı olaya haqq qazandırır. Beynəlxalq axtarışda olan bu şəxsin tapılıb ciyanət məsuliyyətinə cəlb olunması üçün ciddi addımlar atılmalıdır.

Xocalıya yaxın ərazidə yerləşən Daşbulaq kəndində ölüm düşərgələri yaradılmışdır. Bununla bağlı erməni müəlliflərinin özləri tərəfindən dünya mətbuatında çap edilmiş məqalələr diqqəti cəlb edir. Erməni müəlliflərinin Suriyada nəşr olunmuş "Xaç uğrunda", Fransada çap edilən "Qarabağ gündəliyi" adlı kitablarında insanların başına gətirilən dəhşətli işgəncələrdən bəhs olunur. Biz erməni müəlliflərinin etiraflarından da istifadə edərək, Xocalıda törədilən vəhşiliyi dünya ictimaiyyətinə çatdırmalıyıq.

Soyqırımı cinayətinin hüquqi məzmunu BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 nömrəli qətnaməsi ilə qəbul edilmiş "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya" ilə müəyyən edilmişdir. Xocalı soyqırımı xarakter etibarilə beynəlxalq cinayət kateqoriyasına aiddir. Bu kateqoriyadan olan cinayətlərin əsas tərkibləri İkinci Dünya müharibəsindən sonra yaradılmış beynəlxalq hərbi tribunalların (Nürnberq, Tokio) nizamnaməsində ifadə olunmuş, sonradan həmin cinayət tərkibləri Yuqoslaviya və Ruanda beynəlxalq cinayət tribunallarının nizamnamələrində, habelə Beynəlxalq

Cinayət Məhkəməsinin Statusunda təkmilləşdirilməklə bir daha təsdiqini tapmışdır. Qabaqcadan xüsusi düzəldilmiş pusqulardan ermənilər qaçıb canını qurtarmaq istəyən Xocalı sakinlərini avtomat, pulemyot və digər silahlardan atəşə tutaraq kütləvi şəkildə qətlə yetirməklə ermənilərin azərbaycanlılara qarşı soyqırımı aktını həyata keçirmişdilər.

Beynəlxalq hüquq normalarına görə, soyqırımı cinayəti törətmiş şəxslərin cinayət mühakiməsi və cəzalandırılması labüddür. Beynəlxalq hüquq soyqırımı cinayətinin anlayışını müəyyən etməklə yanaşı, həmin cinayəti törətmiş şəxslərin məsuliyyətini də müəyyənləşdirir. Belə ki, Soyqırımı cinayətinin qarşısının alınması və cinayətkarların cəzalandırılması haqqında Konvensiyanın 5-ci maddəsinə əsasən, iştirakçı dövlətlər soyqırımı cinayətini törətməkdə təqsirli olan şəxslərin cəzalandırılması üçün təsirli tədbirlər görməlidirlər. Konvensiyanın 6-cı maddəsinə görə həmin şəxslər dövlətin ərazisində səlahiyyətli məhkəmələrdə mühakimə olunmayıbsa, beynəlxalq məhkəmə tərəfindən mühakimə edilməlidirlər.

Azərbaycan dövləti və cəmiyyəti öz inkişafında quruculuq və yüksəliş dövrünü yaşayır. Ölkəmiz iqtisadi inkişaf templərinə görə dünyada lider mövqeyə malikdir. Azərbaycan regional və beynəlxalq enerji-kommunikasiya layihələrinin əsas iştirakçısı və təşəbbüsçüsüdür. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı uğurla həyata keçirilmiş, digər sosial və infrastruktur layihələri də reallaşdırılır. Dövlətimizin iqtisadi və hərbi qüdrəti, beynəlxalq nüfuzu günü-gündən artır. Bir sıra beynəlxalq təşkilatlar, aparıcı dövlətlər Ermənistanın işğalçı dövlət olduğunu qəbul edir, ondan işğal etdiyi Azərbaycan ərazilərini azad etməyi tələb edirlər. Bu istiqamətdə aparılan işlər müsbət nəticə əldə etməyə ümidləri artırır.

Bölgədə gerçəkləşdirilən bütün layihələrdən kənarda qalan Ermənistan iqtisadi böhran mənganəsindən çıxa bilmir. Azərbaycanın artıq iqtisadi qüdrəti qarşısında Ermənistan dövlətinin dərin tənəzzül keçirməsi işğalçı ölkə rəhbərliyinin aqressiv mövqeyindən əl çəkməsinə gətirib çıxarıb. Son vaxtlar Ermənistan rəhbərliyinin sülh danışıqları prosesinə daha çox maraq göstərməsi buna misaldır. Bütün bunlar və mövcud vəziyyət qarşıda duran vəzifələrin yerinə yetirilməsinə, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun, ədalətli həll edilməsinə imkan yaradacaq.

E.HACIALIYEV.

“Azərbaycan”.-2009.-26 fevral.-N 45.-S.7.

Xocalılıların kədəri və ümidi

Erməni terrorunun Azərbaycana gətirdiyi fəlakətlərin və faciələrin miqyası böyük və çox kədərlidir. Xalqımız 200 il-dən çoxdur ki, erməni terrorundan əziyyət çəkir. Ermənilər Azərbaycana köçürüldükdən sonra bu torpağın əmin-amanlığı və sakitliyi pozulmuşdur. Azərbaycan torpaqlarında məskunlaşmış ermənilər "Böyük Ermənistan" yaratmaq xülyasına düşərək torpaqlarımıza göz dikmişlər.

Tarix dönə-dönə sübut edib ki, ermənilər məskunlaşdıqları ərazilərdə həmişə qonşu torpaqlarına göz dikmiş, azərbaycanlılara qarşı düşmənçilikdən heç zaman əl çəkməmiş, yeri gələndə mələk donuna girmiş və girəvə düşən kimi şeytan cildində qan tökməkdən həzz almışlar. Ağaları qarşısında yazıq və məzlum görkəm almağa vərdiş edən ermənilərin əsl siması isə budur: terror, etnik təmizləmə, dinc insanları qətlə yetirmək, qeyri-insani cəza üsullarından istifadə edərək əsir və girovlara işgəncə vermək. Bu əsl erməni-daşnak xislətidir.

1988-ci ilin əvvəllərindən Qərbi Azərbaycanda (indiki Ermənistan ərazisi) yaşayan soydaşlarımıza qarşı qanlı terror törədən ermənilər bir məqsəd güdürdülər. Bu insanları qorxudaraq öz ata-baba yurdlarından qovmaq, torpaqlara sahib çıxmaq. Faktlara nəzər salaq.

Həmin ilin mart ayında Yerevan ətrafında erməni terrorçuları 10 nəfər azərbaycanlını qətlə yetirdilər. Elə həmin gün Zəngibasarın Mehmandar kəndində 5 nəfər azərbaycanlı qəddarlıqla öldürüldü. Quqarkda isə 70 nəfər azərbaycanlı erməni-daşnak terrorçuları tərəfindən kütləvi şəkildə qətlə yetirildi... Belə faktları istənilən qədər sadalamaq mümkündür. Təkcə 1988-ci ilin on ayı ərzində Ermənistanda 186 nəfər azərbaycanlı ermənilər tərəfindən görünməmiş vəhşilik, qəddarlıq və amansızlıqla qətlə yetirilmişdir.

Müxtəlif xalqları zorla bir bayraq altına yığmış keçmiş sovet imperiyası dövründə belə erməni terroru öz çirkin simasını göstərmişdir. 1967-ci ildə Xankəndidə dustaq maşınını aşıraraq üç azərbaycanlı dustağın diri-diri yandırılması erməni terrorunun daha bir qanlı izindən xəbər verir. Sovet imperiyasının kölgəsinə sığınmış ermənilər azərbaycanlılara qarşı həm də mənəvi terror törətmişlər. Qədim yurd yerlərimizin, kəndlərimizin, çaylarımızın, dağlarımızın adını dəyişmişlər.

Dəftərçəmdə erməni terrorunun qurbanına çevrilmiş soydaşlarımın bədbəxt taleyi haqqında çoxlu qeydlər var. Hərdən mənə elə gəlir ki, bu insanların faciəsi bu solğun vərəqlərdən acı bir hönkürtü ilə qışqıracaq.

Erməni terror təşkilatının mənim yurdumda törətdiyi faciələri göz önünə gətirəndə adamı dəhşət bürüyür. Həmişə haqq və ədalətdən, insani münasibətdən dəm vuran bəzi ölkələr erməni terror təşkilatlarına öz qoynunda yer verir. Beləliklə, dolayısı ilə terrorçulara yardım göstərirlər. Bu mənim iyirmi ilə yaxın müşahidə etdiyim hadisələrdən sonra gəldiyim son qənaətdir.

Erməni terror təşkilatının qanlı izlərini zamanın sel-suları belə örtə bilməmişdir. Biri elə mənim doğulduğum ev. Onu ermənilər yandıraraq külə döndərdilər. Hansı ki o doğma evlə mənim kövrək xatirələrim bağlı idi. İndi mən öz yurduma, ata ocağıma, doğulduğum evə gedə bilmirəm.

Görəsən bu dəhşətli faciələrə insan haqlarından, demokratiyadan, humanizmdən danışan beynəlxalq təşkilatlar niyə göz yumurlar?! Niyə milyonlarla insanın dərd və kədərini görməzliyə vururlar?! Milyondan çox insan öz ata-baba yurdlarına qayıtmaq istəyir. Niyə bu insanların haqq səsi eşidilmir?! Axı bu heç bir vicdana və əxlaqa sığmır.

1988-ci ilin qışında Ermənistan vaxtilə işğal etdiyi Qərbi Azərbaycan torpaqlarında etnik təmizləmə əməliyyatına başladı. Qısa müddət ərzində əzəli və əbədi yurd yerlərimizdən 200 min nəfərdən çox azərbaycanlı deportasiya edildi. Soyuq qış günlərində minlərlə azərbaycanlı evləri oda qalandı, onların var-dövləti ermənilər tərəfindən talan olundu.

Ermənilər isə getdikcə quduzlaşırdı. Azərbaycanı qaçqın dalğası bürüdüyü bir zamanda Xankəndidə keçirilən mitinqlərdə belə bir tələb irəli sürüldü ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibindən çıxarılaraq Ermənistana birləşdirilsin. Ermənilər çox məqsədli şəkildə bəd niyyətlərini həyata keçirməyə başlamışdılar. Azərbaycanın o vaxtkı hökuməti isə ağzına su alaraq susurdu. Vedidən, Zəngibasardan, Göyçədən xüsusi qəddarlıqla qovulan azərbaycanlıların faciəsinə görünməmiş biganəlik vardı. Qarabağın işğalı, Xocalı soyqırımına gedən yol Ermənistan ərazisində ilk azərbaycanlı kəndi boşaldılanda başlanmışdır. Azərbaycanın o vaxtkı rəhbərləri isə xalqımıza öyüd-nəsihət dərsi keçir, səbirli, dözümlü olmağa səsləyirdilər.

Yüz minlərlə soydaşlarımızın haqqı, hüququ tapdalanmışdır. Haqq-ədalətdən, insan hüquq-larından ağızdolusu danışan dünya ölkələri erməni vəhşiliyini, erməni şovinizmini görməməzliyə vurur, başımıza gətirilmiş müsibətlərin üstündən sükutla keçirdilər.

Ermənistandan didərgin salınan əhalini Dağlıq Qarabağ ərazisində yerləşdirməklə erməni-daşnak hiyləsinə, onların qara niyyətinə cavab verilmiş olardı. Amma xəyanətkar Ə. Vəzirov buna mane oldu. Dağlıq Qarabağda məskunlaşmaq istəyən soydaşlarımız oradan çıxarıldı. Moskvanın kölə, qul xislətli nökərləri Azərbaycanı fəlakətlərə sürükləyir, buna yardımçı olurdular.

Həmin vaxtlar Dağlıq Qarabağ Azərbaycanın nəzarətindən çıxmaq üzrə idi. Ermənilər 1988-ci ildən 1992-ci il fevralın 25-nə qədər olan müddətdə Dağlıq Qarabağdakı bütün Azərbaycan kəndlərini boşaldaraq işğal etmişdilər. Buna qədər isə erməni terrorunun ardı-arası kəsilmir, dinc insanlar qətlə yetirilir, yaşayış məntəqələri dağılırdı.

Kərkicahan, Umudlu, İmarət-Qərvənd, Qaradağlı, Tuğ və başqa yurd yerlərimiz ermənilərin silahlı hücumları qarşısında tab gətirə bilmir, insanlar öz ev-eşiklərindən didərgin salınırdı. Bu biçarə insanlara isə sahib çıxan, arxa duran yox idi.

Sentyabrın 2-də (1991-ci il) gecə saat 3-də Xocalı Əsgəran rayonunun ermənilər yaşayan Mehdikənd, Noraguh, Həsənabad kəndlərindən raket atəşinə tutulmuşdur. Sentyabrın ilk günləri ərzində Xocalı dördüncü dəfə raket zərbələrinə məruz qalmışdır. Ölənlər və yaralananlar vardır. Elə həmin ilin sentyabr ayında Azərbaycanda prezident seçkiləri keçirildi. Dağlıq Qarabağda yaşayan azərbaycanlılar top və raket atəşləri altında seçkilərə qatıldılar. Qarabağ isə qarış-qarış ermənilərin əlinə keçirdi.

Erməni işğalının xronoloji ardıcıllığına nəzər salaq: İmarət-Qərvənd (1991-ci ildə oktyabr), Tuğ (1991-ci il oktyabrın 31-i), Xocavənd (1991-ci il noyabrın 18-i), Kərkicahan (1991-ci il dekabrın 2-si), Cəmilli (1991-ci il dekabrın 17-si), Meşəli (1991-ci il dekabrın 23-ü) Qaradağlı (1992-ci il fevralın 17-si) bir-birinin ardınca erməni silahlı dəstələri tərəfindən işğal edildi, yüz minlərlə əhali məcburi köçkünə çevrildi. Belə çətin ölüm-dirim savaşı gedən günlərdə respublika Nazirlər Soveti Dağlıq Qarabağın sosial-iqtisadi inkişafına dair 125 saylı qərar qəbul etdi. Halbuki həmin vaxt Dağlıq Qarabağda barmaqla sayılacaq qədər azərbaycanlı qalmışdı.

Xocalı dörd bir tərəfdən mühasirəyə düşmüşdü. 1991-ci ilin ortalarında Xocalıya gedən quru, son aylarda isə hava yolları bağlanmışdı. Əhali nə edəcəyini, kimdən kömək umacağını bilmirdi. Ərzaq, dava-dərman tükənmişdi. Ayaz Mütəllibov başda olmaqla o vaxtkı ölkə rəhbərliyi insanların taleyinə dəhşətli dərəcədə biganəlik göstərirdi. Müxalifətin başı isə hakimiyyət davasına qarışmışdı. Arxasız-köməksiz qalan Xocalının harayını kimsə eşitmirdi. 1992-ci il fevralın 17-dən 18-nə keçən gecə erməni silahlı dəstələri Xocavənd rayonunun Qaradağlı kəndini işğal edərək yandırdılar. 77 nəfər kənd sakini qətlə yetirilmiş, 84 nəfər isə əsir götürülmüşdü. Qarabağ qana və göz yaşlarına bələnmiş, odlara qalanmışdı.

Övladının gözləri qarşısında qətlə yetirilən ata-anaların, valideynlərin gözü qarşısında süngüdən keçirilən uşaqların, günahsız körpələrin, qız-gəlinlərin ruhu qarşısında söz demək çox çətindir.

Xocalı mühasirədə qalmışdı. Bu qədim yaşayış məskənini ermənilər dörd bir tərəfdən atəşə tuturdu. Vəziyyət olduqca ağır və mürəkkəb idi. Əhalinin taleyi sual altında qalmışdı. Faciə isə lap yaxında idi.

1991-ci il. Aprelin 1-dən 2-nə keçən gecə saat 3 radələrində Əsgəran rayonunun ermənilər tərəfindən işğal edilmiş Daşbulaq kəndindən Xocalıya basqın olmuşdur. Basqın zamanı ermənilər raket qurğularından və qumbaraatanlardan istifadə etmişlər. Nəticədə xeyli ev dağılmış, bir neçə evə isə od vurulmuşdur.

Aprelin 22-də isə ermənilər Harov kəndi istiqamətindən Xocalını intensiv surətdə atəşə tutdular. Atəş bir neçə saat davam etmişdir.

İyun ayının 2-də Əsgəran rayonun ermənilər yaşayan Harov və Kətik kəndləri arasındakı meşədə ermənilərin raket bazası tapılmışdır. Xocalı və ətraf yaşayış məntəqələri məhz həmin nöqtədən raket atəşinə tutulmuşdur. Burada çoxlu sayda "Alazan" tipli raket qurğuları və başlıqları müsadirə olunmuşdur. Belə bir sual hamını düşündürür: ermənilər bu qədər silah-sursatı haradan əldə ediblər? Cavab çox sadədir: Xankəndidəki rus əsgərlərindən.

Avqustun 22-dən 23-nə keçən gecə saat 2:15 dəqiqədə Xocalı yenidən raket atəşinə tutulmuşdu. Bir yaşayış evi dağılmış, başqa bir bina isə yanmışdı. Həmin vaxt ermənilər Xocalıya 24 raket atmışdılar.

Oktyabrın 8-də saat 22:30 dəqiqədə Xocalı ermənilər yaşayan Noraguh kəndi tərəfdən atəşə tutuldu. Şəhər milis bölməsinin əməkdaşı Vaqif Behbudov həlak olmuş, bir neçə nəfər isə yaralanmışdır.

Oktyabrın 29-da saat 15 radələrində Yevlaxdan Xocalıya uçan "AN-2" təyyarəsi Əsgəran rayonu ərazisində ermənilər tərəfindən vurulmuşdur. Erməni terrorçuları 7 nəfər azərbaycanlını qətlə yetirmişlər.

Zənnimizcə, bu kiçik qeydlər Xocalı əhalisinin necə ağır və dözülməz bir şəraitdə, ermənilərin aramsız hücumlarını yalnız öz gücü hesabına dəf edərək yaşadığını aydın əks etdirir. Xocalılılar öz dədə-baba yurdlarını qeyrətlə, hünərlə qoruyurdular. Onlar düşmən mühasirəsinin yaratdığı bütün çətinliklərə dözürdülər. Günlərlə ac qalsalar da, doğma yurd yerini tərk etmirdilər. Xocalılar dövlətdən kömək gözləyirdilər. Onlara hər dəfə vəd verilirdi ki, yaxın günlərdə Əsgərandan keçərək Xocalıya gələcəyik. Yeri gəlmişkən, qeyd edək ki, Xocalını mühasirədən xilas etmək üçün bir neçə dəfə əməliyyat hazırlansa da, bu nədənsə baş tutmamışdır. Bundan başqa, həmin ərəfədə Milli Təhlükəsizlik Nazirliyinə daxil olmuş bütün məlumatlarda göstərilib ki, ermənilər fevral ayının axırlarında Xocalıya hücum edəcəklər. Həmin məlumatlar Prezident Aparatına, DİN, Nazirlər Kabinetinə daxil olmuş və çox təəssüf ki, heç bir tədbir görülməmişdir.

Ermənilər Xocalını XX əsrin Xatınına çevirdilər. Ermənistandan gətirilmiş və Dağlıq Qarabağ ermənilərindən təşkil olunmuş ordu hissələri ağır hərbi texnikanın köməyi ilə Xocalını yerlə-yeksan etdilər.

Azərbaycanlılara qarşı soyqırımı törədildi. Soyqırımı törədən ermənilərə keçmiş 366-cı motoatıcı alayının əsgərləri və bu hərbi hissənin döyüş maşınları da yaxından kömək etmişdir. Bu danılmaz faktları Xocalı faciəsini araşdıran Rusiyanın "Memorial" Hüquq-Müdafiə Mərkəzi də təsdiq etmişdir.

Qeyri-bərabər döyüşdə Xocalının igid müdafiəçiləri son nəfəsədək qəhrəmanlıq və şücaət göstərdilər. Öz həmyerlilərini ölümün pəncəsindən xilas edən igidlər şəhid oldular. Onlar Vətənin ən yüksək adına -Milli Qəhrəman adına layiq görüldülər. Əlif Hacıyev, Tofiq Hüseynov, Aqil Quliyev, İnqilab İsmayılov, Hikmət Nəzərli... Qəhrəmanların həyat yolu, vətənpərvərliyi və igidliyi gənc nəsil üçün əsl örnəkdir, həyat məktəbidir. Haqlı olaraq qəhrəmanları səmənd ərlərə bənzədirlər və onlarla fəxr edirlər.

İndi biz bir həqiqəti yaxşı bilirik, qolları dirsəklərinə qədər azərbaycanlı qanına bulaşmış erməniləri bağışlamaq və onlara nəyisə güzəştə getmək heç vaxt mümkün olmayacaqdır. Bu tarixi heç zaman unutmaq olmaz.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə isə erməni-daşnak silahlı qüvvələri və keçmiş sovet 366-cı motoatıcı alayı Xocalıya divan tutdu, ən dəhşətli soyqırımı törədildi. Çünki Xocalı həqiqətən də taleyin ümidinə buraxılmışdı. Halbuki xocalılılar erməni-daşnak hərbi qüvvələrinə mərdliklə müqavimət göstərir, şəhəri çətinliklə də olsa, qoruyub saxlayırdılar. Kömək olmadığından düşmən Xocalı sakinlərini vəhşiliklə, qəddarlıqla və kütləvi surətdə qətlə yetirdi.

Faciənin miqyası son dərəcə böyük və dəhşətli idi. Ağdam istiqamətində düzlər, dərələr, dağlar günahsız insanların cəsədləri ilə dolmuşdu. Yer-göy qan ağlayırdı. Ermənilər qadınlara və uşaqlara, qocalara və xəstələrə rəhm etmədən hamını güllələyərək süngüdən keçirmişdilər.

Heç yadımdan çıxmır. Fevralın 26-da Ağdam matəmə bürünmüşdü. Küçələrdən qara bayraqlar asılmışdı. Məscidin həyəti insanlarla dolub-boşalırdı. Qadınlar, uşaqlar ağlaşırdılar. Qaraqaya və Şelli kəndləri istiqamətində dağlardan, dərələrdən, meşələrdən ermənilər tərəfindən xüsusi qəddarlıqla qətlə yetirilmiş xocalılıların cəsədləri məscidə gətirilirdi. Ağdam camaatı bu ağır faciədən sarsılsa da ən ağır dəqiqələrdə xocalılılarla bir yerdə oldular. Hazırda Bərdə şəhərində məskunlaşmış və qanlı hadisələrin şəhidlərini dinləyək.

Xocalı sakini Kamil Hüseynov o dəhşətli günləri belə xatırlayır:

—Ermənilər Xocalıya girəndən sonra hər tərəfi oda qalayır, qarşılarına çıxan azərbaycanlıları sorğu-sualsız güllələyirdilər. Fevralın 26-da gecə saat 10-11 radələrində meşə ilə Abdal-Gülablı tərəfə yol aldıq. Qocalarda, qadınlarda, uşaqlarda taqət qalmamışdı. Vahimə, soyuq və aclıq bizi heydən salmışdı. Şərqiyyə adlı qadın və bir yaralı əsgər gözlərimizin qarşısında keçindi. Ermənilər yaşayan Dəhraz kəndi yaxınlığında mühasirəyə düşdük. Və 5-6 nəfər həlak oldu. İki gün bizi Dəhrazda saxladılar. Girov götürülən 12 nəfər cavanı bir qədər aralıda güllələdilər. 35 gün erməni əsirliyində ən dəhşətli, işgəncəli anlar yaşadıqdan sonra Qırmızı Xaç Cəmiyyəti tərəfindən əsirlikdən azad oldum.

Həmin vaxt 15 yaşı olan Salman Qasımov anası, qardaşı və qohumları ilə birlikdə 12 gün ac-susuz meşələrdə qalmış, dəhşətli anlar yaşamışlar.

Xocalı soyqırımında Ədalət başlarına gətirilənləri belə nəql edir:

—Fevralın 25-i idi. Gecə ermənilər Xocalıya hücum etdilər. Hərə bir tərəfə qaçırdı. Atam, anam və qardaşımla birlikdə meşəyə tərəf qaçdıq. 3 gün meşədə ac-susuz qaldıq. Yanımızda bir neçə nəfər soyuqdan donaraq öldü. Qəflətən ermənilər bizi atəşə tutdu. Atam və anam həlak oldu. Hər ikisinin meyiti qarın üstündə qalmışdı. Gücümüz çatmırdı ki, onların cəsədini kənara aparaq. Sonra bizi xilas etdilər. Atam və anamı Bərdə rayonunda dəfn etdik.

Erməni vəhşiliyinin iç üzü budur! Türk qanına susayan erməni daşnaklarının törətdikləri soyqırımı, bu dəhşətli faciə Xocalının salamat qalan sakinlərinin gözləri qarşısında baş verib.

Vəliyyədin Quliyevin yaşı 60-ı keçib. 1989-cu ildə ermənilər onları Daşbulaqdan qovduqdan sonra Xocalıda yaşayıblar. **Vəliyyədin kişinin dediklərindən:**

—Bizi çox aldatdılar: guya kömək gəlir, yol açılacaq. Amma nə kömək gəldi, nə də yol açıldı. Hamı ümidini yeganə əlaqə vasitəsi olan telefona bağlamışdı. Axşamdan bir az keçmiş atışma başlandı. Oğlum Natiqin arxasınca gedəndə Xankəndi tərəfdən tankların gəldiyini gördüm. Oğlumu tapa bilmədim. Atışma isə şiddətlənirdi, aeroport alova bürünmüşdü. Geriyə qayıtmağa məcbur oldum. 1988-ci ildə Xocalıya Ermənistandan pənah gətirmiş bir ailəni ermənilər diri-diri yandırdılar. Əlimdə çomaqdan baş-qa heç nə yox idi. Onlara kömək edə bilmədim.

Kövrəlir, göz yaşlarını əllərinin arxası ilə silib köksünü ötürür:

—İstədim evimizə tərəf gedim, mümkün olmadı. Kənd alova bürünmüşdü. Mərmi, güllə səsindən qulaq tutulurdu. Fevralın 26-da gecə saat 3-də kənddən çıxdım.

Tahir Bəxtiyarov da öz gördüklərini danışır:

—Gördüm ki, Boz dağın yamacı tanklarla, BTR-lərlə doludur. Oradan poçta gəldim. Ratsiyada ermənilər deyirdi ki, axırınız çatıb, sizi qıracağıq. Axşam kəndimiz bir neçə istiqamətdən güclü atəşə tutuldu. Kəndin kənarına yığışdıq. Təxminən 350 nəfərə yaxın adam vardı. Qadınları, qocaları, uşaqları dövrəyə alaraq

çayı keçdik. Bu vaxt ermənilər bizi atəşə tutdular. Hərə bir tərəfə qaçmağa başladı. Ara sakitləşən kimi yenə bir yerə toplaşdıq. Ancaq adamların sayı xeyli azalmışdı. Meyitləri götürməyə heç bir imkan tapmadıq. Qadınların ayaqlarını şaxta vurmuşdu, yeriyə bilmirdilər. Qar-çovğun getdikcə güclənirdi. Azıb başqa istiqamətə gəlmişdik. Ermənilər bizi görmüşdülər. Atəş açıb bir neçə nəfəri də burada öldürdülər. Fevralın 26-da yenidən pusquya düşdük və böyük bir xəndəyə doluşduq. 350 adam-dan 27-si qalmışdı. 2 gün meşə ilə gələndən sonra gecə Abdal-Gülablı kəndinə çatdıq. Bizi qarşılayıb kəndə apardılar, çay-çörək verdilər. Bu, yalnız xocalıluların yox, bütün Azərbaycanın ürəyinə vurulmuş bir dağdır, onun intiqamını qisasını ermənilərdən almasaq yaşamaq bizə haram olar.

Xocalı soyqırımına siyasi qiymət verən və bu barədə həqiqətləri bütün dünyaya çatdıran xalqımızın dahi oğlu, ümummilli liderimiz Heydər Əliyev demişdir: "Biz toplaşıb Xocalı faciəsinin cavabını verək, şəhidlərin qanının yerdə qalmaması gününü görək. Azərbaycanın ərazi bütövlüyünü təmin edək. Müstəqil Azərbaycanın hüdudlarını bərpa edək. İnanıram ki, Azərbaycan xalqı belə qüdrətə malikdir".

Xocalı soyqırımının on yeddi ili tamam oldu. Bir daha xatırladaq ki, bu faciə zamanı böyük bir yaşayış məntəqəsi Yer üzündən silinib, azərbaycanlılara və mesxeti türklərinə qarşı amansız soyqırımı törədilib: 613 nəfər qətlə yetirilib, 8 ailə büsbütün məhv edilib, 1275 nəfər əsir götürülüb, 487 nəfər müxtəlif dərəcəli əlilə çevrilib.

Sonralar əsir düşmüş 1125 nəfər çox ağır bir vəziyyətdə, ölümcül halda geri qaytarılmışdır. Qalan insanların taleyindən isə bu günə kimi heç bir xəbər yoxdur. Erməni vəhşiliyinin iç üzünü ifşa edən bu adi rəqəmlərin arxasında minlərlə insanın faciəli taleyi dayanır. Bu amansız genosidə dünyada heç kəs haqq qazandıra bilməz.

Ermənilərin törətdikləri soyqırımı sağ qalmış xocalıluların qəddini əysə də, onları sındıra bilmədi. Həmişə dinc quruculuq işləri ilə məşğul olmuş xocalılılar doğmalarını, əzizlərini itirsələr də, ağır məşəqqətlərə ürcah olsalar da, doğma yurd yerlərindən didərgin düşsələr də gələcəyə ümid və nikbinliklə baxırlar. Qəmin, kədərin, dərdin qabağında aciz qalmayıblar. Bir-birinə arxa, dayaq olublar, necə deyərlər, son tikələrini yarı bölürlər. Xocalılılar respublikamızın 49 şəhər və rayonunda məskunlaşıblar.

Hazırda Xocalı rayonundan 419 ailə (1895 nəfər) Bərdədə məskunlaşıb. Yerli icra hakimiyyəti öz yurdlarından didərgin düşmüş əhaliyə hərtərəfli diqqət və qayğı göstərir, onlardan öz köməyini əsirgəmir. **Xocalı Rayon İcra Hakimiyyətinin rayondakı nümayəndəsi Ramiz Qəhrəmanov** bu barə-də məlumat verərək deyir:

—Qaçqın və məcburi köçkünlərin üzləşdiyi problemlərin həll edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Peşə liseyində məskunlaşmış məcburi köçkünlərin elektrik enerjisinə olan tələbatını ödəmək məqsədilə bura əlavə xətt çəkilib, içməli su problemi həll edilib. Pensiya və müavinətlər, yemək xərcləri vaxtlı-vaxtında ödənilir. Məcburi köçkünlərin işlə təmin edilməsi ön plana çəkilib. Onlarla ailəyə torpaq sahələri ayrılıb. Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olanlara güzəştli şərtlərlə kredit verilib. Burada orta məktəb, klub, kitabxana, tibb məntəqəsi də fəaliyyət göstərir.

Xocalılılar sabaha ümidlə baxır və inanırlar ki, dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi altında işğal olunmuş torpaqlar geri qaytarılacaq, müstəqil Azərbaycanın ərazi bütövlüyü tam təmin ediləcəkdir.

Bu insanlar belə müqəddəs bir arzu və inamla yaşayırlar. Haqq və ədalətin bərqərar olacağına, Azərbaycan xalqının haqq işinin qələbə çalacağına inanan insanların birliyi, əqidə bütövlüyü sarsılmazdır.

Salman ALIOĞLU.

“Respublika”.-2009.-26 fevral.-N 45.-S.3.

Strasburqda Xocalı soyqırımına həsr olunmuş anma mərasimi keçirilmişdir

Paris, 27 fevral (AzərTAc). Heydər Əliyev Fondunun dəstəyi və Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəliyinin təşkilatçılığı ilə fevralın 26-da Strasburqdakı Avropa Parlamentlər Assosasiyasının binasında ölkəmizin və türk diaspor təşkilatlarının, Türkiyə Baş Konsulluğu əməkdaşlarının, tələbələrimizin, yerli və xarici qurumların nümayəndələrinin iştirakı ilə XX əsrin ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımının 17-ci ildönümünə həsr olunmuş anma mərasimi keçirilmişdir.

Mərasim iştirakçıları erməni vəhşiliyinin qurbanı olmuş xocalıların xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər. Mərasimə toplaşanlara Xocalı soyqırımını, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Xocalı faciəsinin tarixinə dair Heydər Əliyev Fondu tərəfindən müxtəlif dillərdə nəşr edilmiş əyani və video materiallar təqdim olunmuş, ermənilərin xalqımıza qarşı törətdikləri cinayətlər haqqında ətraflı məlumat verilmişdir.

Tədbir boyu Xocalı soyqırımına dair fotostend və film nümayiş edirilmişdir.

Mərasimdə nümayəndəliyin rəhbəri səfir Arif Məmmədov ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımı, insanlıq tarixinin ən dəhşətli cinayətlərindən biri olan Xocalı faciəsinin əsi mahiyyəti barədə danışmış, Heydər Əliyev Fondunun Azərbaycan həqiqətləri , o cümlədən Xocalı faciəsi barədə dünya və Avropa ictimaiyyətinə ətraflı və düzgün məlumat vermək sahəsində apardığı işləri diqqətə çatdırmışdır.

Eyni zamanda, bu sahədə Azərbaycan diasporunun xüsusi rolunu qeyd etmiş səfir, bundan sonra da təbliğat prosesində həmrəylik göstərməyin vacibliyini vurğulamışdır. A. Məmmədov Xocalı soyqırımı ilə bağlı geniş məlumatların yerli və elektron KİV-lərdə yerləşdirilməsinin təcavüzkar ermənilərin əsl simaları barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılması baxımından mühüm əhəmiyyət daşıdığını bildirmiş, Xocalı faciəsinin dünya ölkələri tərəfindən soyqırımı kimi tanınması istiqamətində işlərin görülməsinin vacibliyini qeyd etmişdir.

Sonda səfir Xocalı faciəsini törədənlərin tezliklə layiqli cəzalarını alacaqlarına və haqq-ədalətin öz yerini tutacağına ümidvar olduğunu bəyan etmişdir.

Strasburqdakı "Azərbaycan evi"nin sədri Mustafa Alınca Xocalı soyqırımında əli olanların indiyə qədər cəzasız qaldıqlarına toxunmuş və faciə günahkarlarının məsuliyyətə cəlb edilməsi istiqamətində konkret addımların atılması vaxtının çatdığını bildirmişdir. O, faciəni törədənlərin beynəlxalq ədliyyə məhkəməsinə verilməsinin həlak olmuş xocalıların ruhuna böyük ehtiram olacağını qeyd etmiş, fevralın 28-də Strasburqun mərkəzindəki Kleber meydanında faciə ilə bağlı izdihamlı mitinq keçiriləcəyini xatırlatmışdır. Mərasimdə qeyd olunmuşdur ki, Xocalı faciəsi haqqında ətraflı məlumat vermək məqsədilə 25-27 fevral tarixlərində "Vikipediya" internet ensikolopediyasının səhifələrində tələbələrimizin iştirakı ilə nümayəndəlik tərəfindən soyqırıma dair ingilis dilində tərtib edilmiş mətn yerləşdirilmişdir. Qanlı faciə ilə bağlı nümayandəliyin hazırladığı mətbuat açıqlamaları Avropa Şurası Katibliyi, üzv ölkələrin nümayəndəlikləri və Strasburqda fəaliyyət göstərən konsulluqlar arasında paylanmışdır.

Mərasimin sonunda faciə qurbanlarının ruhuna ehsan süfrəsi açılmışdır.

Əsgər Əliyev
AzərTAc-ın xüsusi müxbiri
Paris
27 fevral 2009-cu il

Xocalı faciəsi - vəhşiliyin, qəddarlığın son həddi

17 il bundan əvvəl yer üzərindən bir şəhər silinmişdir. Hər il xalqımız Xocalı faciəsini anma mərasimi keçirir. Şəhid olmuş soydaşlarımızın xatirələri yad edilir və düşmənə qarşı nifrət hissi aşılanır. Respublikamızın hər yerində olduğu kimi, Azərbaycan Texniki Universitetində də "Xocalı soyqırımı"nın 17-ci ildönümünə həsr olunmuş tədbir keçirildi.

Tədbir iştirakçıları, əvvəlcə AzTU-nun həyətində şəhidlərin xatirəsinə ucaldılmış "Ana" abidəsinin önünə əklil və gül-çiçək dəstələri qoydular.

Giriş sözü ilə tədbiri universitetin rektoru, texnika elmləri doktoru, professor Havar Məmmədov açdı. Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Rektor Azərbaycan tarixinin ən dəhşətli faciəsi olan Xocalı soyqırımı, ermənilərin azərbaycanlılara qarşı etdikləri vəhşiliklərdən ürək ağrısı ilə danışdı, bu qanlı faciəyə öz münasibətini bildirdi. 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni quldurları sovet ordusunun Xankəndindəki 366-cı motoatıcı alayının tabor və bölmələrinin hərbi yardımı, 100-ə yaxın zirehli texnikasının və şəxsi heyətlərinin bilavasitə iştirakı ilə Əskəran və Xankəndi arasında mühüm yaşayış məntəqələrindən biri olan Xocalı şəhərini – qədim türk yurdunu və mədəniyyət mərkəzini yerlə-yeksan etdilər Bu soyqırım nəticəsində 613 nəfər Xocalı sakini öldürülmüş, 487 nəfər əlil olmuş, 1275 nəfərədək adam girov götürülmüşdür. Ölənlər arasında 63 uşaq (onlardan 33 nəfəri 2-5 yaş arasında olmuşdur), 106 qadın, 70 nəfər qoca var idi. 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə 1 valideynini itirmişdir. 150 nəfərin taleyi bu gün də məlum deyil.

Köməksiz qalan xocalılar faciə ilə üzləşsələr də öz qəhrəmanlıqlarını göstərdilər. Öldülər, ancaq əyilmədilər. Neçə-neçə erməni məhv etdilər. Əlif Hacıyev, Aqil Quliyev, Tofiq Hüseynov, Hikmət Nəzərli və İnqilab İsmayılov Xocalının müdafiəsində göstərdikləri igidliyə görə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüblər.

Xocalı aeroportunun müdafiəsində həlak olanlardan Milli Qəhrəman Hikmət Nəzərli və Elçin Quluyev universitetimizin məzunlarıdır.

Xocalı soyqırımının xronologiyasına nəzər saldıqda, istər-istəməz respublikanın o vaxtkı ictimai-siyasi durumu yada düşür. Düşmənin dəyirmanına su tökməyə adət etmiş kölələrin, manqurtların rəhbərlik etdiyi məmləkətdə ərazi bütövlüyü, vətəndaş təhlükəsizliyinin təminatı arxa plana keçmişdi. Xocalı faciəsi bir gecədən doğan müsibət deyildi. Bu faciədən danışarkən 1990-1992-ci illərdə Azərbaycana rəhbərlik edən bacarıqsız, səriştəsiz və maymaq dövlət rəhbərlərinin və xalqa rəhbərliyə iddialı olan siyasi qüvvələrin, milli mənliyi olmayan "liderlər"inin siyasi və mənəvi mənsubiyyətini ayrıca qeyd etmək lazımdır. Belə ki, həmin dövrdə öz vəzifə borcuna görə asayişi və təhlükəsizliyi qorumalı olan dövlət orqanları Xocalının etibarlı müdafiəsini təşkil etmək üçün heç bir əməli tədbir görməmiş, şəhərin sakinlərini taleyin ümidinə buraxmışdılar. Uzun müddət mühasirə şəraitində vuruşan Xocalı şəhərinin müdafiəçilərinə heç bir hərbi, maddi və mənəvi köməklik göstərilməmişdir.

Acınacaqlı haldır ki, həmin dövrdə respublika rəhbərliyi xalqımıza qarşı baş vermiş ağır cinayət və soyqırım hadisəsinin miqyası və ağırlığı barədə dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə ətraflı məlumat vermək, həqiqəti dünyaya car çəkmək əvəzinə, tam fəaliyyətsizlik və xalqın taleyinə qarşı biganəlik nümayiş etdirmiş, Xocalı soyqırımının mahiyyətini açmaq, onun təşkliatçılarını və iştirakçılarını ifşa etmək üçün heç bir iş görməmişlər.

Əksinə, belə bir vaxtda Ayaz Mütəllibov iqtidarı faciənin miqyasını xalqdan gizlətməklə öz hakimiyyətinin ömrünü uzatmağa çalışmışdır. AXC isə bu faciədən məharətlə istifadə edərək Mütəllibovun istefasına nail olmuş və hakimiyyəti zorla ələ keçirmişdir. Lakin Mütəllibov kimi AXC-Müsavat hakimiyyəti də Xocalı soyqırımına heç bir siyasi qiymət verməmişdir.

Natiq daha sonra bildirdi ki, Xocalı faciəsinin siyasi qiyməti ancaq xalqımızın dahi oğlu, xilaskarı, ümummilli liderimiz Heydər Əliyevin 1993-cü il iyun ayının 15-də hakimiyyətə qayıdışından sonra verildi. Azərbaycan xalqının təkidi ilə hakimiyyətə qayıdan ümummilli liderimiz Heydər Əliyevin fərmanı ilə hər il fevral ayının 26-da Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edilir.

İnanırıq ki, o faciəli gecədə düşmən tanklarının, PDM-lərin tırtılları altında qalaraq xıncım-xıncım olan əlacsız qocaların, erməni süngüsünə keçirilən südəmər körpələrin, əsirlikdə döyülən, söyülən, təhqir olunan azərbaycanlıların fəryadı cavabsız qalmayacaqdır. Müqəddəs Azərbaycan torpaqları tezliklə düşməndən təmizlənəcəkdir.

Xalqımızdakı bu inamın kökü dövlətimizin günbəgün artan hərbi, siyasi, iqtisadi qüdrəti və Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin qətiyyətindədir.

Sonra tədbirdə iştirak edən AzTU-nun professoru, Milli Məclisin deputatı Astan Şahverdiyev, AzTU-nun tarix kafedrasının müdiri Şikar Qasımov, AzTU-nun "Nəqliyyat" fakültəsinin 198a-1 qrup tələbəsi, əslən

Şuşadan olan Orxan Məhərrəmli çıxış etdilər, qəsbkar ermənilərin zaman-zaman işğalçılıq siyasəti aparmasını, torpaqlarımızda günahsız qanlar axıtdıqlarını bildirdilər.

Tədbiri AzTU-nun rektoru, professor Havar Məmmədov yekunlaşdırdı. Erməni terrorizminin bəşəriyyət üçün təhlükəli bəla olduğunu qeyd edən rektor fevralın 26-da AzTU-da bütün fakültələrdə ilk dərslərin Xocalı soyqırımına həsr edildiyini nəzərə çatdırdı. Sonra tədbir iştirakçıları AzTU-nun foyesində təşkil olunmuş fotosərgiyə və Xocalı faciəsini əks etdirən sənədli filmə tamaşa etdilər.

* * *

Fevralın 26-da AzTU-nun muzeyində Xocalı soyqırımının 17-ci ildönümünə həsr olunmuş daha bir tədbir keçirildi. Tədbiri giriş sözü ilə AzTU-nun təlim-tərbiyə işləri üzrə prorektoru İsa Xəlilov açdı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda erməni cəlladlarının törətdikləri qanlı hadisələrdən bəhs edən natiq, nəzərə çatdırdı ki, riyakar ermənilər bu informasiyaları dünya ictimaiyyətinə tərsinə - öz xeyirləri naminə çatdırırlar. Hətta utanmadan həmin vəhşilikləri əks etdirən şəkilləri yayır və həmin şəxslərin erməni olduqlarını bildirirlər. Elə buna görə də AzTU Gənclər Təşkilatının "Azəri Yurdu" təşkilatı ilə birgə keçirdikləri bugünkü elektron aksiyanı təqdirəlayiq hesab etmək olar.

Sonra AzTU Gənclər Təşkilatının sədri Xaqani Fərəcov və "Azəri Yurdu" Gənclər Təşkilatının sədri Rizvan Mehdizadə çıxış etdilər, Xocalı qırğınının qan yaddaşımıza əbədi həkk olunduğunu, tökülən günahsız qanların yerdə qalmayacağını bildirdilər. Onlar qeyd etdilər ki, Xocalı soyqırımı ilə bağlı həqiqətlər bu gün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində 10.000 elektron poçtuna - xarici ölkələrin ölkəmizdəki diplomatik nümayəndəliklərinə, xarici şirkətlərin ofislərinə, eləcə də xarici ölkələrin saytlarına göndəriləcək.

Sonra AzTU Azad Tələbə Həmkarlar Komitəsinin sədri Samirə Quliyeva tədbirin təşkilatçılarına təşəkkür etdi, onlara işlərində uğurlar arzuladı.

Tədbir Xocalı soyqırımında həlak olanların xatirələrinə Xətai rayonu ərazisində ucaldılmış abidənin önünə gül-çiçək dəstələri qoymaları ilə sona çatdı.

Mehdi MÜKƏRRƏMOĞLU.

"Xalq qəzeti".-2009.-27 fevral.-N 46.-S.6.

Bu qan yerdə qalmaz

Goranboy rayonunun Aşağı Ağcakənd bölgəsində hər şəraiti olan Xocalı rayonunun inzibati mərkəzi formalaşır. "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq bu yerlərdə 500 ailəlik qəsəbələr salınır. Aşağı Ağcakənddə, Meşəli və Börü kəndlərində yüzlərlə yaşayış evi tikilib. Məktəblər, uşaq bağçaları, feldşer-mama məntəqələri, inzibati binalar inşa edilib. İşıq, su çəkilib, yollar sahmana salınıb.

Ötən ilin yekunlarına həsr olunmuş toplantıda xocalılara dövlət qayğısından geniş söhbət getdi. Görülən işlərdən minnətdarlıqla danışıldı. Bununla yanaşı ürək ağrısıyla qeyd olundu ki, xocalılılar gecə-gündüz öz doğma torpaqlarına qayıtmaq həsrət ilə yaşayırlar.

Xocalı faciəsindən on yeddi il keçir.

Aylar, illər ötdükcə əsrin bu böyük faciəsinə, ermənilərin misli görünməmiş vəhşiliyinə dünya dövlətlərinin laqeydliyi daha kəskinliklə qəlbimizi göynədir. Uzun illər Xocalıda işləmişəm. İyirmi ilə yaxın Cəmilli kənd məktəbinə rəhbərlik etmişəm. Sonra təhsil şöbəsinin inspektoru, Kərkicahan qəsəbə sovetinin sədri işləmişəm. Neçə ildir ki, "Xocalının səsi" qəzetinin redaktoruyam. Hər gün məcburi köçkünlərlə görüşürəm. Onların həyat şəraiti, arzu və istəklərinə yaxından bələdəm.

Ulu öndər Heydər Əliyevin ənənəsinə uyğun olaraq ölkə başçısı İlham Əliyev tərəfindən məcburi köçkünlərin həyat şəraitinin daha da yaxşılaşdırılması üçün hər cür qayğı və kömək göstərilməsinə baxmayaraq, Xocalı faciəsinin ağrı-acısı ürəkləri göynədir. Bu qeydləri yazdıqca ötən günlər yenidən yada düşür. Xocalı faciəsi olmaya bilərdimi? Bəli, bu müdhiş qırğının qarşısını almaq mümkün idi. Əgər o dövrdə respublika rəhbərliyinin laqeydliyi olmasaydı, Xocalı salamat qala bilərdi. Rəngi saralmış gündəliyimi vərəqləyirəm.

1992-ci il 12 fevral: Prezidentə, Ali Sovetə, Nazirlər Sovetinə, AXC-yə vurulan saysız-hesabsız teleqramlar cavabsız qalır.

Mətbuat, televiziya susur. Qarabağın, əsasən Xocalının ağrılı günləri barədə ictimaiyyətə məlumat verilmir.

Xocalı vuruşur, özünü, torpağını müdafiə edir, ölkə rəhbərliyindən isə bir haray yoxdur.

13 fevral: Rus-erməni hərbçiləri silahsız dinc əhalini gülləbaran edir. Televiziya MK-nın mənasız, məzmunsuz qərarlarını, Prezidentin təmtəraqlı görüşlərini göstərir, Xocalıda isə mühasirə halqası get-gedə daralır.

15 fevral: Stepanakertdə (Xankəndidə) yerləşən rus alayı hərbi sursatı ermənilərə verib getmək istəyir. Daxili qoşun - Don diviziyası asayişi qoruyur, rus alayı isə azərbaycanlılar yaşayan kəndləri talan edib yandırır. Bu sahədə əsas rolu dördüncü ordu oynayır. Bu quduz dəstəyə kapitan Arutyunyan və Oqanyan başçılıq edirlər.

19 fevral: Rusiya Prezidenti Boris Yeltsinin rus qoşunlarının komandanı Şapoşnikov və Ermənistan prezidenti Levon Ter-Petrosyanla Moskvada məxfi görüşü keçirilir. Elə həmin görüşdə görünür, "Xocalı soyqırımı"nın ssenarisi hazırlanır. Bundan sonra Stepanakertdə 366-cı alayın zabitlərinə ABŞ dolları paylanır. Deyilənlərə görə, Xocalının işğalı üçün 10 milyon, Ağdamın zəbtinə isə 15 milyon rus pulu ayrılıb.

21 fevral: Mühasirə halqası daraldıqca Xocalıdan hər yana, "14", "90" gizli çağırışlarla həyəcan dolu xəbərlər göndərilir: "Bizi qırırlar, kömək edin!". O gərgin günlərdə Xocalı Rayon İcra Hakimiyyətinin başçısı olmuş Elman Məmmədov xatırlayır ki, "1992-ci il fevralın ikinci ongünlüyündə Bakıya gəldim. Üç gün çalışdım, bütün imkanlardan istifadə etdim, amma dövlət başçısı Ayaz Mütəllibovun qəbuluna düşə bilmədim. Onun köməkçisi Gürşad Zərbəliyevə dəfələrlə zəng vururdum, xahiş edirdim ki, kömək elə, yoxsa camaatımız qırılacaq. Gəlim vəziyyət barədə A.Mütəllibova xəbər verim. Gürşad isə mənə deyirdi ki, A.Mütəllibovun başı qarışıqdır, yanında adamlar var. Bir sözlə, məni qəbul etmədi, üzümü görmək istəmədi. Çarəsiz qalıb yenidən Xocalıya qayıtdım".

Ölkənin başsız başçıları sanki bilə-bilə hər şeyə göz yumurdular. Bütün ağırlığın ağrı-acısı isə o zaman yerlərdə fəaliyyət göstərən vəzifə sahiblərinin üzərinə düşürdü. Qeyrətli, cəsur insanların cəhdlərinə baxmayaraq, müharibə alovu hər yanı bürüyürdü. 1991-ci ilin dekabrında Cəmilli və Meşəli kəndləri əldən getdi. Başda oturanlar ayılmadılar. Ayın sonunda Kərkicahan qəsəbəsi işğal olundu, bizimkilər yenə də susurdular. 1992-ci il fevralın 26-da erməni-rus qoşunları tərəfindən Xocalı darmadağın edildi. Bu vəhşilikdən havalanan ermənilər toy-bayram edirdilər.

Təkcə Kosalar sovetliyinin 6 kəndi qalırdı. Həmin kəndlər Yuxarı Qarabağın şah yüksəkliklərində yerləşirdi. O illərin canlı şahidi, hazırda Kosalar kənd icra nümayəndəsi işləyən Kərəm Əsgərov xatırlayır ki, Xocalının necə yandırıldığına ürək ağrısı ilə baxırdıq. Bizim döyüşçülər çalışırdılar ki, Çayqovuşan istiqamətindən Ballıca kəndinə, oradan isə Xocalıya köməyə getsinlər. Əfsuslar olsun ki, təpədən dırnağacan

silahlanmış rus əsgərləri erməni cəlladlarını öz qanadları altına alıb bütün ərazini nəzarətdə saxlayırdılar. Həmin gecə qrad qurğusundan bir neçə dəfə atəş açsaq da Xocalıya kömək etmək istəyimiz ürəyimizdə qaldı.

1992-ci il mayın 8-də erməni-rus hərbi birləşmələri dörd istiqamətdən Kosalara hücuma keçdi. Canhəsən kəndindəki postlarımız mühasirəyə alınmışdı. Səhər saat 6-da əli silah tutanların hamısı qəfil hücuma keçərək mühasirə halqasını yardı və düşməni geri oturtdu. Səkkiz saat davam edən amansız döyüşdə altı nəfər həlak oldu, 23 nəfər yaralandı. Ölən ermənilərin meyitlərini topladıq ki, girov düşən xocalılarla dəyişək.

Bilavasitə ürəyin hökmü ilə meydana atılan qeyrətli oğullarımızın rəşadətini unutmaq olmur. Tabil Həsənov hər hücuma keçəndə Koroğlu kimi elə nərə çəkirdi ki, düşmən özünü itirirdi. Rasim Ağayev ağır yaralanmasına baxmayaraq, "Qarabağ şikəstəsi"ni oxuya-oxuya ön mövqeyə atıldı. Silahlı ordunun qarşısında tək-tük fədakar oğul nə edə bilərdi?

Şəhid atası Kərəm Əsgərov deyir ki, mayın 9-da döyüşə-döyüşə dağlara çəkildik. Azı 70 kilometrlik cəbhə xəttini göz bəbəyi kimi qoruyurduq. Gecə-gündüz çəkilən bütün əzab-əziyyət yiyəsizlik ucbatından uğursuz sonluqla başa çatırdı. Şuşa ilə əlaqəmiz tamamilə kəsildi. Böyük ümidlə biz oradan kömək gözləyirdik, gəlmədi. Sonradan məlum oldu ki, Şuşa da işğal edilib. Bizim kənddə qalmağımız daha mümkün deyildi. Əlsiz-ayaqsız qocaları, körpələri çıxarmağa başladıq. Yuxarı Qarabağı axırıncı tərk edən Kosalar kəndi oldu.

Xocalı soyqırımı XX əsrin ən böyük faciələrindən biridir. Bir gecənin içində 613 nəfər məhv edildi, 1275 nəfər dinc sakin girov götürüldü. Onlardan 150 nəfərinin taleyi hələ də bəlli deyil. Bu amansız faciə nəticəsində min nəfərdən artıq dinc sakin müxtəlif dərəcəli güllə yarası aldı. Qətlə yetirilənlərin 106 nəfəri qadın, 83 nəfəri azyaşlı uşaq, 70 nəfəri ahıl qocalar idi. Şikəst olanların 76 nəfəri yetkinlik yaşına çatmamış oğlan və qızlardır.

Vəhşi quldurların qansız əməllərinə baxın! Səkkiz ailə tamamilə məhv edilib. 25 uşaq hər iki valideynini, 130 nəfər isə valideynlərindən birini itirdi. Aparılan araşdırmalar göstərdi ki, şəhid olanlardan 56 nəfəri xüsusi qəddarlıqla öldürülmüş, diri-diri yandırılmış, başlarının dərisi soyulmuş, bədən əzaları kəsilmiş, gözləri çıxarılmış, hamilə qadınların qarnı süngü ilə deşik-deşik edilmişdir.

İnsanlıqda haqqı, payı olmayan erməni quldurlarının iç üzü bax belədir!

Bizi ən çox ağrıdan odur ki, o dövrdə kreslolarından möhkəm yapışaraq başda oturanlar, nəyin bahasına olursa-olsun, hakimiyyətə can atanlar xalqa vaxtında, düzgün məlumat vermədilər. Yalnız ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdandan sonra Xocalı faciəsi özünün əsil siyasi, hüquqi qiymətini aldı.

1994-cü il fevralın 24-də ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclisdə Xocalı məsələsi müzakirə olundu. Ulu öndərin sərəncamı ilə "Xocalı faciəsi günü" elan edildi. 1995-ci ildə soyqırımın ildönümü ərəfəsində Heydər Əliyev xocalılıları qəbul edərək onları diqqətlə dinlədi, bir çox müəmmalı məsələlərə aydınlıq gətirdi. Elə həmin vaxtdan da Azərbaycan hökuməti Xocalı soyqırımı haqqında həqiqətlərin olduğu kimi dünya dövlətlərinə, geniş ictimaiyyətə çatdırılması, bütün bunların əsl soyqırım kimi tanınması və işğal olunmuş torpaqların tezliklə azad edilməsi xəttini yeridir. Ulu öndər Heydər Əliyevin yolunu uğurla davam etdirən İlham Əliyevin müdrik siyasəti sayəsində son vaxtlarda bu sahədə xeyli irəliləyiş duyulur. Xocalı soyqırımı haqqında dünyanın ayrı-ayrı ölkələrində müəyyən tədbirlər görülür. Ermənilərin xalqımıza qarşı olan bu qanlı cinayətini əsil soyqırımı faktı kimi etiraf edənlərin miqyası genişlənir.

Nahaq qan yerdə qalmaz, gec-tez həqiqət öz yerini tutacaq. Biz buna əminik.

Qasım QIRXQIZLI,
"Xocalının səsi" qəzetinin redaktoru

"Azərbaycan".-2009.-27 fevral.-N 46.-S.4.

Qaysaq bağlamayan yara

Yetmiş illik sovet dönəmində yaşayan yaşlı və orta nəslə məxsus insanlara sirr deyil ki, həmin illərdə Azərbaycanın tarixi dəfələrlə saxtalaşdırılmış, dinimiz yasaqlanmış, dilimiz rəsmən qadağan edilməsə də, heç vaxt dövlət dili səviyyəsində olmamış və bunlar azmış kimi düşmənlərimiz də hər zaman bizə "dost" kimi təqdim edilmişdir. Bu "dostluq", "qardaşlıq" anlayışları sovet təhsili almış hər bir kəsə elə təlqin edilmişdir ki, yaxın qonşularımızın əsl simasını görmüş yaşlı nəsil nümayəndələrinin danışdıqları əhvalatlar da bizə qəribə görünmüşdü. İndi xalqımızın yaşadığı faciələr məhz keçmiş dövrün məntiqi nəticəsidir. Yeri gəlmişkən gəlin düşünək: "dost " bildiklərimiz də bizləri dost olaraq qəbul etmişdilərmi? Elə həmin an birmənalı şəkildə demək olar. - Xeyr! Nəinki "dost", hətta "türk bizim düşmənimizdir " sözünü hələ kiçik yaşlarından bütün uşaqlarının beyninə yeridərək gələcək nəsillərin də şüurunu zəhərləmişlər. Rus " qardaşlarımız " isə hər zaman "böyük Pyotrun" vəsiyyətlərinə əməl edərək "Parçala, hökm et" siyasətinə uyğun hərəkət etmişlər.

Bütün bunların məntiqi davamı kimi, 1988-ci il hadisələri baş verdi. İlk əvvəl 1988-ci il fevralın 19-dan etibarən İrəvanda kütləvi mitinqlər başladı. Fevralın 20-də isə Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin yalnız erməni deputatlarının iştirakı ilə keçirilən növbədənkənar sessiyası vilayətin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın inzibati ərazi bölgəsinə daxil edilməsi haqqında qərar qəbul etdi və bundan sonra Ermənistanın millətçi rəhbərləri "Daşnaksütyun" partiyasının " Türksüz Ermənistan " proqramını həyata keçirərək etnik təmizləmə əməliyyatına başladılar. İrəvanda və digər ərazilərdəki azərbaycanlılara məxsus bütün mədəni-dini abidələr, şəxsi evlər yandırıldı. Ermənistan adlanan, tarixən Azərbaycanın ata - baba yurdu olan torpaqlardan 250 mindən artıq insan zorla çıxarıldı. Bu yaxın illərin hadisələridir. Gəlin bir qədər keçmişə baş vuraq.

Hələ 1858 - 1859-cu illərdə böyük fransız yazıçısı Aleksandr Düma Qafqaza səyahət etmiş və gördüklərini " Qafqaz səfəri " kitabında qələmə almışdır. Həmin kitabda yazıçı Qafqaz xalqlarını xarakterizə edərkən ermənilər haqqında belə söyləmişdir: " Ermənilər güman edirlər ki, guya Yer üzərində cənnət Ermənistanda olmuşdur. Yer kürəsini suvaran ilk dörd çay da öz başlanğıcını orada tapmışdır. Nuhun gəmisi də Ermənistanda ən uca dağın başında dayanmışdı. Məhv olmuş dünyamız guya orada canlanmağa başlanmışdır" və s.

Elə buradan görünür ki, ermənilərin sərsəm fikirləri hələ XIX əsrdə Fransadan Qafqaza gəlmiş bir yazıçının da diqqətini cəlb etmişdir.

Tarixi faktlardan bizə məlumdur ki, tarixən Rusiyanın iştirakı ilə İrandan, Türkiyədən köçürülən ermənilər Azərbaycanda - Dağlıq Qarabağda, həmçinin qədim Azərbaycan torpaqları olan indiki Ermənistan ərazisində yerləşdirilmişlər. Bunu ermənilər özləri də təsdiq etmişlər. Belə ki, 1828-ci ildə ilk dəfə İran Marağasından köçürülərək Tərtər şəhərinin 2 kilometrliyində Marağa adlı kənd salmış əcdadlarının şərəfinə 1978-ci ildə abidə ucaltmışlar. Lakin tarixi saxtalaşdırmaqda peşəkar olan, yerdə də, göydə də " erməni tarixi " axtaran ermənilər üzərinə " Marağa - 150 " yazılmış, onların bu torpaqlarda gəlmə, yad olduqlarını sübut edən həmin abidəni 1991-ci ildə elə özləri də dağıdaraq məhv etdilər.

Ermənilərin zaman-zaman Azərbaycan torpaqlarına köçürülməsi bizim bir millət kimi faciələrimizin bünövrəsini qoydu. 1828 - 1832, 1877 - 1878, 1905 - 1907, 1918 - 1920, 1948 - 1953 və nəhayət, 1988-ci illərdə Cənubi Qafqaz və Ön Asiya yaylasında çoxluq təşkil edən azərbaycanlılar kütləvi şəkildə köçürülməyə və qovulmağa məruz qaldılar. Bu faciəli hadisələr həm də xüsusi bir amansızlıqla, vəhşiliklə, qəddarlıqla həyata keçirilirdi. Elə buradaca Xocalı faciəsinin şahidi olmuş bir əcnəbi jurnalistin yazdıqlarını misal gətirmək yerinə düşər : "Biz Xocalı faciəsinin şahidiyik... Bu tükürpədici mənzərə idi. 5-6 yaşlı uşaqları, qundaqdakı körpələri, hamilə qadınları vəhşiliklə öldürən ermənilər cəlladlıqda heç kəslə müqayisəyə gəlmirlər".(Jan İv Yunet, fransız jurnalisti). "Armenakan" (1885), "Hnçaq" (1887), "Daşnaksütyun" (1890) kimi erməni terror təşkilatları tərəfindən XIX əsrin sonlarında və XX əsrin əvvəllərində Türkiyədə və Azərbaycanda on minlərlə günahsız insan qətlə yetirilmişdir. Amerika erməni yazıçısı N.Sürməliyan yazmışdır:

"Türklərlə ermənilər arasındakı ziddiyyətlərin biri də türk və Azərbaycan xalqlarının humanizminə, qayğıkeşliyinə, vətənpərvərliyinə qarşı erməni millətçilərinin amansız qəddarlığıdır".

"Daşnaksütyun" partiyasının işindən, qarşıya qoyduğu vəzifələrdən ətraflı danışmamaq mümkün deyil.

1890-cı ildə yaranmış bu partiya artıq 1908-ci ildə Rusiyada, Türkiyədə və dünyanın bir sıra başqa dövlətlərində öz sıralarında 3093 qrupu təşkil edən 165 min üzvü birləşdirirdi. Ermənilərin həyatında böyük rol oynayan, mövcud olduğu gündən bəri daim onları bəlalara sürükləyən partiya birmənalı olaraq erməni vətəndaşlarının qarşısında vəzifələr qoyurdu.

Ermənilər ağlasığmayan böyük bir ərazini özününkü sayır. Guya bütün Şimali Qafqaz onlara aiddir. Hətta Moldovada, Polşada belə erməni torpaqları axtarırlar. Ermənilərin Türkiyə və Azərbaycan torpaqlarında törətmədikləri vəhşiliklər qalmayıb.

1828-ci ildən bu yana Türkiyənin Anadolu bölgəsində, bu bölgənin Ərzincan, İzmir vilayətlərində, Van, Trabzon, Ərzurum, Bitlis, Qars vilayətlərində və başqa yaşayış məntəqələrində, Azərbaycanın bütün bölgələrində erməni cəlladları dinc sakinləri ağlasığmaz vəhşiliklə, min bir əzabla qətlə yetirmiş, şəhər və kəndləri talan edərək dağıtmış, yandırmış, viranəyə çevirmişlər.

Ermənilər təkcə kütləvi qırğınlarla kifayətlənməmişlər. Belə ki, 1919-cu ildə "Daşnaksütyun" partiyası İrəvanda keçirdiyi IX qurultayında "Nemezis" terror fəaliyyətə başlamaq haqqında göstəriş verdi. Armen Qaronun rəhbərlik etdiyi "Nemezis" siyahısına 650 nəfər Türkiyə və Azərbaycanın dövlət xadimlərinin, ziyalılarının adları salınmışdı. Ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən 3 - 5 nəfərlik terrorçu qruplar adları siyahıda olan şəxsləri axtarıb tapır və qətlə yetirirdilər. Terrorçular müxtəlif dövrlərdə Türkiyə və azərbaycanlı diplomatları qətlə yetiriblər. Bu siyahıya 1992-ci il noyabrın 20-də Qarakənd yaxınlığında baş verən "vertolyot qəzasını" da əlavə etmək olar. Azərbaycanın vətənpərvər, seçmə oğulları - dövlət xadimləri, ziyalıları həmin qəzada ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirildilər.

Hamıya məlumdur ki, ermənilər sovet hökumətinin sonlarına yaxın, dövlətin zəifləməsindən, M.Qorbaçovun "yenidənqurma" siyasətinin fəsadlarından istifadə edərək 1988-ci il hadisələrini törətdilər. 1988-90-cı illərdə Azərbaycana rəhbərlik edən, başqalarının "çaldığına" oynayan dövlət xadimlərimizin laqeydliyi hadisələrin böyüməsinə və miqyasının genişlənməsinə gətirib çıxardı. Halbuki, 1988-ci ilin fevralında, hadisələrin başlanğıcında Xankəndidə bu hadisələrə çox asanlıqla son qoymaq olardı. Bu gün nə qədər təəssüflənsək də, bu tarixi gerçəklikdir.

1988-ci ildən 1994-cu ilə qədər isə bütövlükdə Dağlıq Qarabağ, Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonları, yəni torpaqlarımızın 20 faiz ərazisi də ermənilər tərəfindən işğal olundu. Körpəsindən tutmuş qocasınadək minlərlə insan erməni cəlladlarına əsir düşdü, min bir əzabla qətlə yetirildi, bir milyonadək soydaşımız evini, doğmalarının qəbrini qoyub qaçqın-köçkün düşdü.

Bütün bunlar barədə çox yazılıb, çox deyilib. Amma Xocalı qətliamı bir ayrı dərddir. Bu faciə bəşər tarixində vəhşiliyinə və amansızlığına görə analoqu olmayan hadisədir.

"Moskovski komsomolets" qəzetinin 29 yanvar 1994-cü il tarixli sayında bir rus jurnalisti erməni vəhşiliyini belə qələmə almışdır:

"...Əsirlər var, lakin artıq yaşamağa heyləri qalmayıb. Qışda onları səhərlər ayaqyalın qarın-buzun üzərinə çıxarırlar. Təpələrindən soyuq su tökür, başlarında şüşə sındırır, sonra təzədən kameraya salırlar. Əsl işgəncələr isə bundan sonra başlanır. Barmaqlarını qapının arasında qoyub qırır, çığırdıqda rezin dəyənəklə döyürlər. Çoxu əzablara tab gətirməyərək dəli olur.

Bir növbəti kəndi zəbt edəndə bir ermənin diri körpəni götürüb iki böldüyünü görmüşəm. Sonra bədəninin bir hissəsi ilə anasının sifətinə, başına o qədər döydü ki, övladının al-qanına bulaşmış qadın dəli olub gülməyə başladı"...

Budur erməni xisləti.

Solmaz KAZIMOVA.

"Azərbaycan".-2009.-27 fevral.-N 46.-S.4.

Türk mətbuatında Xocalı soyqırımı

"AKP hökumətinin Qarabağ məsələsində susqunluğu azərbaycanlıları çox üzür"

Dünən Xocalı soyqırımı ilə bağlı Türkiyədəki bir sıra media qurumlarında xəbərlər və yazılar yer alıb. Bu sırada "Cihan", "Anadolu" agentliklərini, "Star", "Yeni çağ", "Ayqazete", "Ortadoğu" və digər qəzetləri yad etmək olar. Məsələn, "Ayqazete" dünən "Azərbaycan Xocalı şəhidlərinə ağlayır" başlıqlı xəbər verib. Yazıda qeyd olunur ki, Qarabağın Xocalı şəhərində 17 il əvvəl qətliama məruz qalan yüzlərlə azərbaycanlı bütün ölkədə keçirilən müxtəlif səviyyəli tədbirlərdə anılıb.

"Dağlıq Qarabağda yerləşdirilən SSRİ-nin 366-cı motaatıcı alayının dəstəyi ilə 26 fevral 1992-ci ildə strateji önəmə malik Xocalıya hücum edən Ermənistan əsgərləri 106 qadın, 63 uşaq, içərilərində 70 yaşlılar da olmaqla, 613 kişini qətlə yetiriblər. 487 nəfər əlil olub, əsir alınan 1.275 nəfərdən 150-nin aqibəti hələ də bəlli deyil".

"Bu gün" qəzetinin köşə yazarı Huh Gönültaş isə yazısında Xocalı faciəsi və AKP hökumətinin Qarabağ məsələsində son dövrlər sərgilədiyi susqunluqdan bəhs edib. Məqalədə yazılır ki, Xocalı Azərbaycanın Dağlıq Qarabağ bölgəsində bir şəhərdir. Azərbaycan müstəqilliyini elan etdikdən sonra Rusiyanın 366-cı motaatıcı alayının dəstəyilə Ermənistan silahlı qüvvələri Xocalıya hücum edib. Qadın, uşaq, yaşlı demədən insanlar qətlə yetiriliblər. Bu gün Azərbaycan torpaqlarının 20 faizi Rusiyanın dəstəklədiyi Ermənistanın işğalı altındadır. Ermənilər işğalın sərhədlərini genişləndirmək üçün əllərindən gələn hər şeyi edirlər. Huh Könültaş yazır ki, sərhəddə yerləşən Azərbaycan kəndləri, qəsəbələri təhdid altındadır. Snayperlərdən açılan atəş nəticəsində 150 azərbaycanlı öldürülüb: "Bizim burada olduğumuz son iki gün ərzində iki Azərbaycan əsgərini erməni snayperləri vurdu və onlar şəhid oldu. Ortada rəsmi bir atəşkəs var, amma faktiki çatışmalar davam edir". Daha sonra müəllif sadə azərbaycanlıların AKP hökumətinin yürütdüyü siyasətdən narahatlığını nəzərə çatdırır: "Azərbaycan rəhbərliyində və küçələrdəki vətəndaşda Türkiyənin Ermənistanla apardığı müzakirələr üzündən ciddi bir əndişə var. Qaba desək, "Əcabə Türkiyə bizi satarmı?" əndişəsi içindədirlər. Hər kəs Türkiyə Ermənistan sərhədlərini açarsa, Azərbaycanın Qarabağ bölgəsini əsla geri ala bilməyəcəyinə inanır. Çünki bu məsələdə Azərbaycanın arxasında sadəcə, Türkiyə var. Rusiya, Amerika və hətta Avropa ölkələri təəssüf ki, ermənilər dəstəkləyirlər. AKP hökumətinin Qarabağ məsələsində susqunluğu azərbaycanlıları çox üzür və burada da bəzi kəsimlər durumdan Türkiyə əleyhinə istifadə edirlər".

Huh Gönültaş azərbaycanlıların türk mətbuatından ciddi şikayətləndiklərini bildirir: "Türk mətbuatının Hrant Dinkin ölüm ildönümünə ayrılan yer və zamanı Qarabağa münasibətdə ayırmadığını, Xocalı soyqırımına yer vermədiyini söyləyirlər. Azərbaycanlı qardaşlarımız "Könül umduğundan küsər" deyirlər".

Jurnalist Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşovun onunla görüşdə söylədiklərinə də yer ayırır: "Əflatun Amaşov Türkiyəyə çox böyük sevgiləri olduqlarını söylədi. Bizə bir xatirəsini də danışdı. Dedi ki, "Qalatasaray" Avropa çempionu olanda İranda olublar. Bunu eşidəndə küçəyə çıxdıqlarını və sevinclərini sərgilədiklərini bildirdi. İran polisi də nə baş verdiyini araşdırmaq üçün onları tutub. "Qalatasaray"a görə sevindiklərini eşidəndə polis "Sizə nə?" deyib. Cavabında Əflatun Amaşov "biz də türkük" söyləyib. İranlı polislər çaşıblar". Huh Görültaş yazır ki, azərbaycanlılar "bir millət, iki dövlət" sözlərini tez-tez dilə gətirirlər: "Bəxtiyar Vahabzadə də "Dil yoxsa, millət də yox" deyib". Jurnalist Azərbaycan muğamına vurğunluğunu etiraf edib.

"Xalq Cəbhəsi". - 2009. – 27 fevral. - № 38. - S. 6.

Elmira Süleymanova: Beynəlxalq ictimaiyyətdən Xocalı hadisələrini soyqırımı kimi tanımağı və günahkarların cəzalandırılmasını gözləyirik

İnsan Haqları üzrə Müvəkkil Elmira Süleymanovanın APA-ya müsahibəsi

- Azərbaycan xalqı Xocalıda baş verən faciəvi hadisələrin 17-ci ildönümünü qeyd edir...

- Təəssüflər olsun ki, hər bir xalqın tarixində təkcə müsbət deyil, faciəvi hadisələr də baş verir və bu hadisələr dünya tarixində öz əksini tapır. 1992-ci ildə baş verən Xocalı faciəsi də belə hadisələrdən biridir. O vaxtdan 17 il keçsə də, həmin dəhşətli anları əks etdirən şəkillər, sənədli kadrlar hələ də gözlərimiz önündədir. Bu faciənin canlı şahidləri olan bu insanlar bütün dünyaya həqiqəti açıqlamalıdır.

- Xocalıda baş verən hadisələr birmənalı olaraq soyqırımıdır...

- Sözsüz. Xocalıda fevralın 25-dən 26-na keçən gecə sözün əsl mənasında soyqırımı aktı törədilib. Erməni hərbi birləşmələri 366-cı motoatıcı alayın köməyi ilə müxtəlif tərəflərdən şəhərə daxil olublar. Çoxlu sayda insan öldürülüb və yaralanıb. Rəsmi məlumatlara görə, Xocalıda 613 dinc sakin öldürülüb, lakin bunlar yalnız şəxsiyyətini müəyyənləşdirmək mümkün olmuş insanlardır. Əslində isə Xocalıda soyqırımına məruz qalan insanların sayı rəsmi rəqəmlərdən xeyli çoxdur. Dəhşət içində olan dinc sakinlər uşaqları, ahılları və əlilləri atəş altından çıxararaq meşəyə doğru hərəkət ediblər, lakin Naxçıvanik kəndində onları qarşılayan erməni silahlıları soydaşlarımızı xüsusi amansızlıqla qətlə yetirib. Bu faktlar dəhşət filmlərin xatırladır, yəqin ki, bu, insanlıq tarixində analoqu olmayan hadisədir. Bu cinayəti təsdiqləyən çoxlu sayda sənədlər, filmlər var. Lakin qeyd etdiyim kimi, biz Xocalıda baş verənlərin canlı şahidləri vasitəsilə orada əsir götürülmüş, işgəncələrə məruz qalmış insanlar barədə yeni məlumatlar toplamağa çalışırıq.

Hər il Xocalı faciəsinin ildönümü ərəfəsində Ombudsman Aparatında tədbirlər keçirir. Xocalı sakinlərinin səsini dünyaya çatdırmaq, həqiqətləri beynəlxalq ictimaiyyətə açıqlamaq üçün bütün xalqlara mesaj göndəririk. Həmçinin hər il Xocalıda baş verənlərlə bağlı yeni-yeni məlumatlar toplayırıq. Hər şeydən əvvəl əlimizdə olan sənədlər əsasında toplanmış dəlillər göstərir ki, bu, soyqırımıdır. Bu hadisələr insanların milli zəmində əvvəlcədən planlaşdırılmış şəkildə qismən və tam məhv edilməsini soyqırımı kimi qəbul edən beynəlxalq hüquq normalarına uyğundur. Xocalıda məqsədyönlü şəkildə dinc əhalinin milli, etnik zəmində məhv edilməsi prosesi baş verib. Ümumiyyətlə, işğal prosesi zamanı çoxmillətli və müxtəlif dinlərə tapınan Azərbaycan əhalisinin bütün nümayəndələri öldürülüb və təqiblərə məruz qalıb. Azərbaycanda 80 millət və 80-dən artıq etnik qrup yaşayır. Erməni təcavüzünün qurbanlarının dəfn olunduğu Şəhidlər Xiyabanına gedən zaman orada müxtəlif millətlərin nümayəndələrinin - rusların, yəhudilərin, ləzgilərin və başqa xalqların təmsilçiləri olan gənc, qadın, uşaq və qocaların məzarları diqqəti cəlb edir. Etdiyimiz müraciətdə beynəlxalq birliyin diqqətinə çatdırılır ki, ölkədə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Xocalı hadisələrinə soyqırımı aktı kimi qiymət verilib və biz beynəlxalq birliyin də bu soyqırımı aktını tanımasını, təkcə müəyyən qrup şəxslərin deyil, insanlığa qarşı cinayət törətmiş bütün məlum olan simaların cəzalandırılmasını istəyirik. Bu il qeyd etdiyimiz tədbirlərə daha bir böyük aksiyanı daxil etmişik. Təhsil Nazirliyinin dəstəyi ilə bütün məktəblərdə uşaqlar arasında imza toplama kampaniyası keçirilir. İmza atan uşaqlar öz səsləri ilə beynəlxalq ictimaiyyətə müraciət edərək səlahiyyətə malik olan insanları sülh prosesini bərqərar etməyə və regionda sülhün bərqərar olmasına yardım göstərməyə çağırırlar.

- Beynəlxalq ictimaiyyəti Xocalıda baş verən hadisələrlə bağlı daha geniş məlumatlandırmaq istiqamətində daha hansı addımlar atılır? Xarici ölkələrdə bu məsələyə maraq varmı?

- Bəli. Pirşağı qəsəbəsində Xocalıdan olan məcburi köçkünlər yaşayır. İki il əvvəl Ukraynanın Azərbaycandakı səfiri oraya çəkiliş qrupu göndərmişdi. Mən onlarla birgə çalışmışam. Sənədli kadrlardan istifadə olunaraq real çəkiliş apardılar. İndi həmin film hər il Xocalı hadisələrinin ildönümü ərəfəsində Ukrayna telekanallarında nümayiş olunur. Analoji işlər dünyanın müxtəlif ölkələrində də həyata keçirilir, bəzi ölkələrdə filmlər nümayiş olunur, digərlərində kütləvi aksiyalar keçirilir. Biz beynəlxalq ictimaiyyəti həmin kütləvi qırğınlar zamanı bir çox ailələrin tam və ya qismən məhv edildiyi, çoxlu sayda insanın əsir götürüldüyü barədə məlumatlandırırıq. Bu ailələrin ağrı-acısını təbii ki, bütün Azərbaycan xalqı bölüşür. Bundan başqa yuxarıda qeyd etdiyim kimi biz böyük beynəlxalq konfrans keçirməyə hazırlaşırıq. Bu tədbir təqribən mayın sonlarında baş tutacaq. Artıq konfransa hazırlıq işləri gedir, biz buraya beynəlxalq ekspertləri, beynəlxalq təşkilatların nümayəndələrini dəvət edəcəyik. Bu tədbir keçirmək naminə tədbir olmayacaq. Dünya ictimaiyyəti həqiqəti bilməyənə qədər təbliğatımızı davam etdirəcəyik. Buna görə də biz Xocalı faciəsini əks etdirən bütün filmləri, sənədləri, faciənin qurbanlarının şəkillərinin əks olunduğu kitabları yaymağa çalışırıq.

İnanıram ki, ədalət zəfər çalacaq və Azərbaycan xalqı bu təcavüz nəticəsində pozulmuş hüquqlarını tam şəkildə reallaşdırmaq imkanı qazanacaq.

“İki sahil”.-2009.-27 fevral.-N.39.-S.7

Daha bir millət vəkili Xocalıdan danışdı. Canan Arıtman: "Türkiyədəki heç bir hökumətin azərbaycanlı qardaşlarımızı incitməyə haqqı və səlahiyyəti yoxdur"

Dünən Türkiyə Millət Məclisində Xocalı faciəsinin ildönümü ilə bağlı daha bir millət vəkilinin çıxışı olub. APA-nın məlumatına görə, Cümhuriyyət Xalq Partiyasının (CHP) İzmir millət vəkili Canan Arıtman Xocalıdakı vəhşətin Azərbaycanın, türk dünyasının və bütün insanlığın ən qara günü olduğunu bəyan edib.

O, Dağlıq Qarabağın türklərdən təmizlənməsi və "Böyük Ermənistan" qurulması planı çərçivəsində Xocalıda minlərlə insanın vəhşicəsinə öldürüldüyünü, işgəncələrə məruz qaldığını bildirib: "İnsanların gözləri oyulub, dəriləri soyulub, hamilə qadınların qarınları yarılıb, körpələr yandırılıb. Bunu edən ermənilər hansı üzlə saxta soyqırımın tanınmasını tələb edirlər?!"

C. Arıtman erməni yazıçısı Zori Balayanın "Ruhumuzun canlanması" adlı kitabında yazılanlardan sitat da gətirərək Qarabağda azərbaycanlı uşaqlara qarşı törədilmiş ağlasığmaz vəhşilikləri millət vəkillərinin diqqətinə çatdırıb. Xanım Arıtman Türkiyədə ermənilərdən üzr istəməklə bağlı kampaniya aparan şəxsləri də kəskin şəkildə pisləyib: "Bu insanlar Xocalıya görə ermənilərdən də üzr tələb edəcəkmi? İnanmıram. Onlar bu ayıb içində yaşamağa məhkumdur və bu ayıb içində də boğulacaqlar".

C. Arıtman bildirib ki, ermənilərin işğalçılıq siyasəti Azərbaycan torpaqlarının 20 faizinin itirilməsi və 1 milyon insanın qaçqın və məcburi köçkünə çevrilməsi ilə nəticələnib: "Xocalıdakı insanların yeganə günahı türk olmaları idi. Son bir əsrdə həm Azərbaycanda, həm də Anadoluda yüz minlərlə türk ermənileri tərəfindən qətlə yetirilib. Bu gün Ermənistanda və işğal altındakı torpaqlarda bir nəfər də türk yaşamır. Azərbaycanda isə hələ də minlərlə erməni rahat şəkildə yaşamaqdadır".

Müxalifətçi millət vəkili Ermənistanın saxta "soyqırım"ı tanıtmaq niyyəti və Türkiyədən torpaq tələbindən vaz keçmədiyinə diqqət çəkərək bu istiqamətdə lobbi çalışmalarının davam etdiyini söyləyib: "Onlar Barak Obamanın vədinə ümid edərək bu il Amerikada soyqırımla bağlı rəsmi qərar qəbul etdirməyə çalışırlar. Təəssüf ki, baş nazirin Davosdakı hərəkətindən sonra yəhudi lobbisinin dəstəyini itirmişik. Dövlət adamı bu cür olmalı deyil. Dövlət adamlığı partiyamızın hörmətli lideri Dəniz Baykalın da dediyi kimi, Ermənistan işğal etdiyi torpaqlardan çəkilməmiş İrəvana getməmək, sərhədləri açmamaq, işğal altındakı ərazilərin geri qaytarılmasını təmin etməkdir".

C. Arıtman çıxışını Mustafa Kamal Atatürkdən sitat gətirərək tamamlayıb: "Böyük Atatürk "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" demişdi. Türkiyənin Azərbaycanla bağlı siyasəti hər zaman belə olub və belə də qalacaq. Türkiyədəki heç bir hökumətin azərbaycanlı qardaşlarımızı üzməyə haqqı və səlahiyyəti yoxdur".

Qeyd edək ki, Canan Arıtman çıxışı zamanı tribunadan Xocalıdakı dəhşətləri əks etdirən iri fotoşəkillər də nümayiş etdirib.

“Şərq”.-2009.-27 fevral.-N.38.-S.3

İnsanlık ayıbı: Hocalı katliamı

Yukarı Karabağ savaşı başladığından itibaren bu bölgenin en önemli tepelerinden birisinde olan Hocalı şehri stratejik olarak Ermenistan Silahlı Kuvvetleri için askeri bir hedef niteliğinde idi. Hocalı stratejik olarak Karabağ dağ silsilesinde Ağdam-Şuşa, Eskeran-Hankendi yollarının üzerinde yerleşmektedir. Hocalı 'nın coğrafi-stratejik конum u Ermeni silahlı birliklerinin buraya saldırmasına müsaitti. Hocalı Hankendi'nden 10 km uzaklıkta giineydoğusundadır. Karabağ'daki tek havaalanı Hocalı'dadır.

Hocalı 1991 yılının Ekim ayından itibaren ablukadaydı. Ekim'in 30'unda kara yoluyla ulaşım kapanmış ve tek ulaşım vasıtası olarak helikopter kalmıştı. Hocalı'ya son helikopter 1992 yılı Ocak ayının 28'inde gitmişti. Şuşa şehrinin semalarında sivil helikopterin vurulması ve bunun sonucunda 40 kişinin ölümünden sonra bu ulaşım da kesilmişti. Ocak ayının 2'sinden itibaren şehre elektrik verilmemişti. Şubatın ikinci yarısından itibaren Hocalı, Ermeni silahlı birliklerinin ablukasına alınmış ve her gün toplardan, ağır makineli silahlarla bombalanmıştır.

1992 yılının Şubat ayının 25-ini 26-sına bağlayan gece Azerbaycan'ın Dağlık Karabağ bölgesindeki Hocalı kentinde çok sayıda azerbaycanlı sivil, Ermeniler tarafından soykırıma maruz kalmıştır. Azeri kaynaklarna ve Memorial Human Rights Center, Human Rights Watch ve diğer bazı uluslararası insan hakları kuruluşlarının bildirdiklerine gore katliam, Rus 366. Motorize Alayı'ın desteğindeki Ermeni Silahh Kuvvetleri tarafından gerçekleştirilmiştir.

Human Rights Watch, Hocali Katliamını Dağlık Karabağ'ın işgalinden bu yana cereyan eden en kapsamlı sivil kırımı olarak nitelendirmiştir. Azeri kayiplarının sayısı üzerinde tartışmalar devam etmekteyse de, 400 ila 1000 arasında oldukları genel kabul görmektedir. Azerbaycan resmi kaynaklarının bildirdiği resmi rakam 613 sivil olup, bunların 106'sı kadin ve 83'ü çocuk, 7'ten fazlası ise yaşlıydı.

936 km2'lik alana sahip ve 2.605 aileden ibaret 11.356 kişinin yaşadığı Hocali kenti 26 Şubat 1992 tarihinde yüzyılın en acımasız soykiırımına maruz kalmış ve kasaba tamamiyla yok edilmiştir. Hocali bu katliamın yaşandığı sırada Azerbaycan Silahlı Kuvvetlerinin koruması altında değildi ve tamamen savunmasiz bir duramdaydi. Kentte da dağınık halde elinde hafif silahlar bulunan 150 kişi bulunmaktaydı. Azerbaycan Silahlı Kuvvetleri Hocali halkına yardim edemedi, hatta uzun sure cesetlerin alınması bile mümkün olmadı..

Ermenistan Silahlı Kuvvetleri bölgedeki 366. Alayin da desteği ile önce giriş ve çıkışını kapadığı köyü üç yönden kuşatmış, helikopter ve ağır silahların yardımı ile önce köyü bombalamış ve ardından da köye girerek sivil, kadın, çocuk, yaşlı ayırımı yapmadan katliam yapmıştır. Ermeniler bu köyü işgal ederek bütün bölge halkına bir mesaj vermek istemekteydiler. Nitekim Azerbaycan Türkleri için ağır bir mesaj vermis oldular. Hocalı işgal edilerek ve neredeyse tamamen yok edilerek bölgedeki çözülme hızlandırılmış oldu. Ermeniler bu hamleyle aynı zamanda önemli bir stratejik mekanı da işgal ederek askeri açıdan önemli bir başarı elde etmiştir. Ancak insanlık adına tarihin en acımasız soykırımı gerçekleştirilmiştir. Diğer taraftan ermeniler için bu soykırım kendilerinin iddia ettiği 1915 yılında yaşananların bir öcü niteliği de taşımaktaydı.

Normalde en şiddetli savaşlarda dahi savaş dışında tutulan, dokunulmayan bu kesime ermeniler yaşlı, kadın ve çocuk demeden acımasız işkenceler yaparak katletmiştir. Bu katliamdan toplam 487 kişi ağır yaralı olarak kurtulmuştur. 1275 kişi ise rehin alınmış ve 150 kişi ise kaybolmuştur. Cesetler üzerinde yapılan incelemelerde cesetlerin birçoğunun yakıldığı, gözlerinin oyulduğu, kulakları, burunları ve kafaları ile vücutlarının çeşitli uzuvlarının kesildiği görülmüştür. Aynı vahşetten hamile kadınlar ve çocuklar bile nasibini almıştır.

Dr. Eldeniz ABBASLI.
Avrasya Yazarlar Birliği üyesi, Bağımsız Araştırmacı, Gazeteci, Karabağ Savaşı Muharip Gazisi

La honte humaine- Génocide de Khodjaly

La nuit du 25 au 26 fevrier 1992 un des crimes les plus sanglants et atroces contre le peu-ple Azerbaïdjanais - le massacre des centaines d'habitants innocents de la ville azerbaïdjanaise de Khodjali dans la région de Haut Karabakh de l'Azerbaïdjan - a ete commise par des troupes arméniennes. L'occupation de Khodjali a été réalisée avec une cruauté sans précédente contre la population civile. En quelques heures les agresseurs ont tué 613 personnes innocentes et sans armes, parmi eux 106 femmes, 83 enfants. Des dizaines d'enfants avaient entre 2 et 15 ans, les femmes et les hommes âgés ont été tués ä l'appui dans plupart des cas. 56 personnes ont été tuées avec une cruaute particuliére. 8 families ont été entiérement exterminées. 25 enfants sont devenus orphelins totalement et 130 enfants - partiellement. 476 personnes sont devenues invalides, y compris 76 mineurs. 1275 personnes ont été prises en otage, plus tard la majorite des prisonniers a été libérée, mais les

sorts de 150 d'eux sont toujours inconnus. Les positions des cadavres indiquent que les habitants ont **été** tu**é**s impitoyablement, certains ont **été** fusill**é**s separement, les autres ont **été** assassin**é**s avec toute la famille. Les corps ont des traces de tortures, certaines tetes sont scalp**é**es, les cadavres sont profan**é**es. Puis Khodjali a **été** pill**é** et brûle.

"Euro Xəbər".-2009.-27 fevral.-13 mart.-N.4.-S.2

"Ölən uşaqları meşədə qoydular"

HƏSƏNOV RAMİN QARYAĞDI OĞLU
Təvəllüdü: 25 iyul 1981-ci il
Doğulduğu yer: Xocalı

"Anamın dayısı Kazımgilin evinin zirzəmisində idik. Dayılarım Natiq, Yamən, Firdovsi, xalam qızı Nəzakət və başqa qohumlarımız da orada idi. Ana babam İsa gəldi ki, bəs ermənilər Xocalıya giriblər. Təxminən 11-i keçmiş olardı. Evdən çıxıb üzüaşağı yürüdük. Millət bir-birinə qarışmışdı. Anamı, məni, dayım uşaqları Elçin, Elgiz, Mehdini dayım kürəyində çaydan keçirdi. Firdovsi dayım yaralı idi. O, fevralın 21-də Xocalını müdafiə edərkən Noraguh istiqamətindəki postda yaralanmışdı. Ona görə də bizimlə gedə bilmirdi. Dedi: "Siz qabaqda gedin. Mən gələcəm". O biri dayılarım da bizdən ayrı düşmüşdü. Hey gedirdik. Bələdçimiz yox idi. Xocalıdan 12 gün əvvəl işğal edilmiş Quşçular kəndinə gedib çıxdıq. Meşədə azmış Quşçular camaatı da bizə qoşuldu. 4-5 gün eləcə meşədə fırlandıq. 5-ci və ya 6-cı gün Şelliyə yaxınlaşdıq. Bizim dəstədə olan uşaqlardan çoxu acından, soyuqdan öldü. ölən uşaqları meşədə qoydular. Onların üstünə ya ağac şaxları örtürdülər, ya da qarı aralayıb altına soxurdular. Yanımda bir qadına güllə dəydi. Kürəyinə uşağını şəlləmişdi. O qadının yoldaşı onun kürəyindən uşağı açıb götürdü. O qadın da orada qaldı... Bir oğlana güllə ağzından dəydi. Qan fışqırırdı. O da meşədə qaldı. Biz gedirdik. Şelli kəndinə sarı. Orada şumluq deyilən yer vardı. çoxlu meyitlər, qarın üstündə topa-topa qırmızı ləkələr vardı. Yamən dayım artıq bizimlə idi. Burada qırğın olduğunu söylədi. Gecə idi. Şelliyə lap yaxınlaşanda, Yamən dayım atəş açdı ki, Şelli camaatı duyuq düşüb, köməyə gəlsin. Elə də oldu. Elə bil camaat bizi gözləyirmiş. Artıq tam taqətsiz idik. Şelli postuna çatanda bəlkə yarım vedrə su içdim. Beş-altı gün meşədə bir damcı da qar yeyə bilməmişdim. İstəyirdim yeyəm, boğulurdum. Şellidə bir cavan oğlan bizi evinə apardı. Orada da xeyli çay içdim. Ancaq bir tikə yemək yeyə bilmədim. İndi də inana bilmirəm sağam. Bunu möcüzə hesab edirəm. Xocalıda - evdən çıxanda sanki güllədən yağış yağırdı. O güllələrdən biri məni tutmadı. Güllələr qulağımın dibindən, başımın üstən vıyıldayırdı. İndi də o vıyıltı məni rahat buraxmır. Xocalı dəhşətini unutmaq mümkün deyil. Dayım Firdovsi, yoldaşı Heyran, uşaqları Elçin, Eldəgizdən hələ də xəbər yoxdu... Ailənin yeganə sağ qalan üzvü Mehdidir. Bizdə yaşayır. Hər dəfə Mehdiyə baxanda anam ölüb dirilir.

Şellidən bizi səhər açılanda Ağdama gətirdilər. Vaqon "xəstəxanaların" birində yerləşdirdilər. Oranı da ermənilər atəşə tutdu. Sonra Bakıya - Semaşko xəstəxanasına gətirildik. Ayaqlarımı don vurmuşdu. Anam Rəhilənin ayaq barmaqlarını kəsdilər".

Atamı gözlərimin qarşısında yandırdılar"

ƏMİROVA XƏZANGÜLTƏVƏKKÜL QIZI
Təvəllüdü: 25 sentyabr 1983-cü
Doğulduğu yer: Xocalı

"Fevralın 25-i gecə saat təxminən on birə qalmış evdən çıxdıq. Hər yandan partlayış səsi gəlirdi. Gurultudan qulaq tutulurdu. Qorxurdum. Anam balaca qardaşım Vüqarı qucağına almışdı. Atam bacım Nigarı. Mən və dörd yaşlı bacım Yeganə özümüz gedirdik. Xocalıdan çıxanda ana nənəm Əntiqə gəlib bizi tapdı. O, anamdan qardaşım Vüqarı aldı. Atam bizi çaydan keçirdi. Meşəyə girdik. Hər yan qar idi. üşüyürdüm. Gecə meşədə qaldıq. Səhər açıldı. Ermənilər camaatımızı qırdı. Hər tərəf meyit idi. Atam ayağından yaralandı, sonra da çiynindən. Atam meşədən qırdığı yoğun ağac budağına söykənə-söykənə gedirdi. Anam Nigarı atamdan almışdı. Dərəyə enmişdik. Oturmuşduq. Bizi ermənilər gülləyə tutdular. Anam başını əyib bacım Nigarı qucaqladı ki, güllə ona dəyməsin. Güllə anamın başından dəydi... Anam yerindəcə keçindi. Nənəm haray çəkirdi, qışqırırdı, ağlayırdı. Balaca bacılarım Yeganə, Nigar donuq-donuq baxırdılar. Anamı qucaqlayıb ağlayırdım. İstəmirdim anam orada qalsın. Atam qolumdan tutub dartdı. Anamın üstünü başına bağladığı şalla örtdü... Biz gedirdik. Hey dönüb anama baxırdım. İstəyirdim anam da gəlsin... Bir az getmişdik ki, altı yaşlı bacım Yeganəni vurdular, o da yerindəcə keçindi. O da meşədə qaldı. Sonra bilmirəm, ermənilər bizi tutdu. Bir kəndə gətirdilər. Atamı tüfəngə tuşlayıb öldürmək istəyirdilər. Erməni yaraqlısının ayağını qucaqlayıb yalvarırdım ki, anam ölüb, bacım ölüb, atamı öldürməyin. Məni itələdilər. Atamı güllə ilə vurmadılar. Sonra onu simlə ağaca sarıdılar. Dedilər: "De ki, Qarabağ Ermənistan torpağıdır!". Atam demədi. Ayaqlarına benzin töküb yandırdılar. Atamın ayaqları yananda mən də, nənəm də qışqırırdıq. Bir də dedilər: "De ki, Qarabağ Ermənistan

torpağıdır! Buraxaq get, balalarını saxla". Atam yenə demədi. Bu dəfə onun boğazından aşağı benzin tökdülər. Yandırdılar atamı..."

Qışqırırdım... Atama kömək etmək istəyirdim. Hər qolumdan bir erməni saqqallısı tutmuşdu. Onlar gülürdülər! "Türk köpək oğluna göz dağı olsunlar!" deyirdilər. Orada çoxlu meyit vardı...Boyunlarına məftil bağlayıb sürüyürdülər. İnsan əzabından zövq alıb gülürdülər! Bilmirəm biz oradan necə qurtardıq. Artıq heç nə hiss etmirdim. Heç nə xatırlaya bilmirəm. Nənəm deyir ki, Milli Ordunun əsgərləri bizi qurtardı. Ağdama gəlmişdik".

“Azərbaycan müəllimi”.-2009.-27 fevral.-N.8.-S.5.

BMT-nin binası qarşısında piket keçirilmişdir

Nyu-York, 28 fevral (AzərTAc). Erməni millətçi separatçılarının Dağlıq Qarabağın Xocalı şəhərinin dinc sakinlərinə tutduqları amansız divanın növbəti ildönümü ilə əlaqədar fevralın 27-də Birləşmiş Millətlər Təşkilatının binası qarşısında etiraz piketi keçirilmişdir.

Aksiyanın iştirakçısı, Azərbaycanın əməkdar rəssamı İsmayıl Məmmədov AzərTAc-ın müxbirinə demişdir: "Məşhur 4-cü strit və 1-ci avenyu küçələrinin kəsişdiyi yerə gələnlər arasında təkcə həmvətənlərimizi deyil, həm də Nyu-Yorkun digər milli icmalarının nümayəndələrini gördüm. Onların bir çoxu dərdimizə şərik olan, Azərbaycan xalqı ilə həmrəylik nümayiş etdirən amerikalı dostları ilə gəlmişdilər. Piket iştirakçıları əllərində 1992-ci ilin fevralında törədilmiş amansız qətliamın təşkilatçılarının və icraçılarının cəzalandırılması tələb edən transparantlar tutmuşdular. Yoldan keçənlərə illüstrasiyalı vərəqələr paylanırdı. Ətrafa səsucaldanlar vasitəsilə səsləndirilən "Ermənistana ar olsun!", "Qarabağa ədalət!", "Ermənistan Qarabağdan rədd ol" və başqa şüarlar yayılırdı. Əminəm ki, Nyu-Yorkun mərkəzində keçirilən iki saata yaxın piket müsbət rol oynadı. Bir çox insanlar bizə yaxınlaşıb vəziyyətlə maraqlanır, başsağlığı verirdilər. Bir sözlə, faciəmiz haqqında həqiqəti elə özümüzdən öyrənirdilər".

Tomris Azəri başda olmaqla, Amerika Azərbaycanlıları Cəmiyyətinin təşkil etdiyi etiraz aksiyasında Milli Məclisin deputatları Qənirə Paşayeva, Həvva Məmmədova, ABŞ-dakı dağ yəhudiləri diasporunun mədəniyyət mərkəzinin prezidenti Yakov Abramov, diplomatik nümayəndəliklərimizin əməkdaşları, buradakı ali məktəblərdə təhsil alan azərbaycanlı tələbələr iştirak edirdilər.

Sonda tədbir iştirakçıları qətnamə qəbul etmişlər. Sənəd BMT-nin baş katibinə təqdim ediləcəkdir.

AzərTAc
28 fevral 2009-cu il

Parisdə Xocalı faciəsi ilə bağlı tədbir keçirilmişdir

Paris, 28 fevral (AzərTAc). Fevralın 27-də Parisin ən möhtəşəm otellərindən biri olan "Westin"in "Napoleon" zalında Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycanın YUNESKO yanındakı daimi nümayəndəliyi və Fransa-Azərbaycan Dostluq Assosasiyası Xocalı faciəsinin 17-ci ildönümünə həsr olunmuş tədbir keçirmişlər.

Tədbirdən əvvəl iştirakçılar Azərbaycan həqiqətlərini və Xocalı soyqırımını dünya ictimaiyyətinə çatdırmaq məqsədilə Heydər Əliyev Fondu tərəfindən fransız və ingilis dillərində nəşr olunmuş kitab və bröşürlərdən, faciə ilə bağlı balaca rəssamların çəkdikləri rəsm əsərlərindən, xarici mətbu orqanlarında dərc edilmiş məqalələrdən ibarət sərgi ilə tanış olmuşlar.

Sonra tədbiri açmış ölkəmizin YUNESKO yanındakı daimi nümayəndəliyinin rəhbəri səfir Eleonora Hüseynova tarixən musiqini, mədəniyyəti, incəsənəti sevən xalqımızın son illər başına gətirilmiş bəlalardan, ərazilərimizin 20 faizinin mənfur qonşumuz tərəfindən işğal etməsindən, Azərbaycanın kiçik yaşayış qəsəbəsində dünyada görünməmiş vəhşiliklər törətməsindən, dinc sakinlərin amansızlıqla qətlə yetirməsindən, hər il fevral ayının sonlarında bu böyük faciənin xalqımız tərəfindən ürək ağrısı ilə anılmasından söhbət açmışdır.

Səfir İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə ölkəmizin hüdudlarından kənarda "Xocalıya ədalət" beynəlxalq kampaniyasının keçirildiyini xatırlatmış, tədbir iştirakçılarını bu kampaniyaya qoşulmağa çağırmışdır.

Mərasimdə fevralın 25-dən 26-na keçən gecə qana susamış erməni hərbi birləşmələrinin Xocalıda törətdikləri soyqırımından bəhs edən sənədli film nümayiş etdirilmişdir. Filmdə erməni amansızlığının qurbanı olmuş günahsız insanların təsvir edilməsi tamaşaçılarda dərin kədər hissi oyatmışdır.

Sonda Xocalı şəhidlərinin xatirəsinə həsr olunmuş musiqi nömrələri səsləndirilmişdir. Həmyerlimiz Sorbonn Universitetinin musiqişünaslıq fakültəsinin tələbəsi Səidə Zülfüqarova (fortopiano) və Şartr Konservatoriyasının müəllimi Prisil Laşa-Sarretin (skripka) ifasında səslənmiş Azərbaycan bəstəkarlarından Qara Qarayevin və Cövdət Hacıyevin, dünya korifeylərindən Fredrix Şopen və Moris Ravelin əsərlərindən ibarət həzin musiqi tamaşaçılar, o cümlədən tədbirin qonağı Türkiyə Böyük Millət Məclisinin sədri Köksal Toptan tərəfindən hərarətlə qarşılanmışdır.

Azərbaycanın Fransadakı səfiri Tarik Əliyev, Maltanın YUNESKO və Avropa Şurası yanındakı daimi nümayəndəsi səfir Jozef Likari, Türkiyə, Yaponiya, Seneqal və digər ölkələrin YUNESKO yanındakı missiyalarının və fransız ictimaiyyətinin nümayəndələri, səfirliyimizin əməkdaşları, Azərbaycan və türk icmasının təmsilçiləri iştirak etmişlər.

Tədbir çərçivəsində Köksal Toptan AzərTAc-ın xüsusi müxbirinə verdiyi müsahibəsində demişdir: Xocalıda törədilmiş qətliam çox uzaq olmayan və çox yaxın bir tarixdə bütün dünyanın gözü önündə baş vermiş faciədir. Xocalı qətliamı zamanı uşaqlara, qadınlara, ixtiyar qocalara aman verilmədən qətlə yetirilmişdir. Bu faciəni bütün dünyaya çatdırmaqda Türkiyə həmişə Azərbaycana yardımçı olmuşdur.

Amerika Konqresində soyqırımının müzakirə edilməsini öyrənmək və bu məsələni araşdırmaq məqsədilə bu ölkədə səfərdə olan Türkiyə nümayəndə heyətinə Xocalı qətliamından bəhs edən kitablar göndərmişəm.

Heç nədən çəkinmədən və yorulmadan dünya ictimaiyyətinin diqqətini daim Xocalı faciəsinə yönəltmək, bu istiqamətdə gənclərlə də iş aparmaq lazımdır.

Avropa İttifaqının toplantısında iştirak etmək üçün Parisə gəlmişəm. Burada Xocalı soyqırımı ilə bağlı tədbirin keçirilməsi xəbərini aldım və bu tədbirdə iştirak etməyə qərar verdim. Xocalı qətliamı barədə tədbirin Paris kimi şəhərdə keçirilməsindən çox məmnun oldum.

Əsgər Əliyev
AzərTAc-ın xüsusi müxbiri
Paris
28 fevral 2009-cu il

AFR Bundestaqının deputatı Xocalı soyqırımına görə Ermənistanı qınamışdır

Berlin, 28 fevral (AzərTAc). Xəbər verdiyimiz kimi, fevralın 26-da Berlində Almaniya Azərbaycanlıları Əlaqələndirmə Şurasında erməni hərbi birləşmələrinin Dağlıq Qarabağdakı Xocalı şəhərində törətdikləri qətliamın qurbanlarının xatirəsinə həsr olunmuş gecə keçirilmişdir. Amansızlığına görə misli-bərabəri olmayan bu dəhşətli cinayətin 17-ci ildönümü tamam olsa da, onu törədənlər hələ də cəzasız qalmaqdadır və dünya birliyi tərəfindən kifayət qədər pislənməmişdir.

Tədbirdə Almaniya Bundestaqının deputatı Eduard Lintner çox təsirli çıxış etmişdir. Deputat demişdir:

- Əslində 1992-ci ilin fevralında Azərbaycan şəhəri Xocalıda baş verənləri təsvir etmək üçün söz tapmaq çətindir. Dünya mətbuatı bunu böyük qırğın adlandırır. Bəzən də buna soyqırımı deyirlər. Onun qurbanları isə günahsız insanlar - kişilər, qadınlar, uşaqlar, körpələr, yaşlı və qocalardır. Bu adamlar görünməmiş vəhşiliklə öldürülmüşlər.

Hətta bu sözlər belə o qırğından əziyyət çəkmiş insanların əzablarının təsviri üçün kifayət deyildir. Kədər və əzab o qədər böyükdür ki, belə hadisələr haqqında susmaq və ya onarı unutmaq olmaz. Xocalı faciəsini yada salmaqla yanaşı, insanların üzərinə böyük məsuliyyət də düşür və bundan nəticə çıxarılmalıdır. Almaniya da İkinci Dünya müharibəsindən sonra özünü belə bir ağrılı prosesə təslim etmişdi. Amma ölkə özünün parlaq gələcəyini təmin etməkdə maraqlıdırsa, məsuliyyətini dərk etməli, ondan qaçmamalıdır. İmtina yalnız nifrətin yaranmasına gətirib çıxarır. Bu, qisas hissi yaradır. Bunun qarşısını almaq üçün məsuliyyətini anlama siyasəti həyata keçirilməlidir. Özünü uydurma "soyqırımı"nın qurbanı hesab edən Ermənistan, tarixdə baş verənlər görə vicdanla tam məsuliyyət daşımaq üçün hazır olmalıdır. Ermənistan ədalətsizliyin aradan qaldırılmasında maraqlı olmalıdır. Ermənistanın Azərbaycana qarşı apardığı müharibə Cənubi Qafqaz ölkələri üçün davamlı inkişafa ən böyük maneədir. Münaqişənin yaratdığı şəraitin elə Ermənistanın özü üçün də əlverişli olmaması bu dövlətin siyahısı qüvvələrini hərəkətə gətirməlidir. Problemlərin beynəlxalq hüquq çərçivəsində həlli ən yaxşı çıxış yoludur.

Beynəlxalq hüququn təcrübəsi göstərmişdir ki, sülhə nail olmağın və mehriban qonşuluğun əsas şərti problemlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həlli yoludur. Beynəlxalq hüququn pozulduğu yerlərdə həmişə müharibə təhlükəsi, ədalətsizilik, yoxsulluq, qaçqın problemi olur. Dövlətlərin ərazi bütövlüyü prinsipinə necə hörmət etməsini bu yaxınlarda Rusiyanın Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanımasından sonra yalnız Nikaraquanın ona qoşulması faktı açıq göstərir. Rusiya ilə Şanxay qrupuna daxil olan ölkələr onun yolu ilə getmədilər. Ermənistan münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində həllini rədd etməklə təkcə BMT, Avropa Şurası və Avropa İttifaqının tələblərinə və Azərbaycana qarşı deyil, həm də regionda maraqları olan bütün dövlətlərə qarşı çıxmış olur. Geriyə qayıdaq. Qurbanlar və onların ailə üzvləri üçün görülməli olan minimum iş onların taleyinin dünya birliyinin diqqətinə çatdırılmasıdır. Azərbaycan xalqı bu yolda tək deyildir. O, beynəlxalq hüquqa və təcrübəyə söykənə bilər. Bu hadisələri törətmiş dövlətlərin də borcudur ki, problemin ədalətlə və sülh yolu ilə həllinin vacibliyini anlasınlar.

Vüqar Seyidov
AzərTAc-ın xüsusi müxbiri
Berlin
28 fevral 2009-cu il

Xocalıda tökülən qan yerdə qalmayacaq

Bu həqiqəti dünya KİV-i də qeyd etməyə başlayıb

On yeddi il əvvəl, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda bəşəriyyət tarixində ən dəhşətli qətliamlardan biri törədilib. Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecə erməni silahlı dəstələri hələ SSRİ dövründə Xankəndi şəhərində yerləşmiş, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbçilərinin köməyi ilə qədim şəhəri yerlə-yeksan ediblər. "Böyük Ermənistan" yaratmaq kimi xəstə xülyanın əsiri olmuş erməni millətçilərinin xalqımıza qarşı törətdikləri bu növbəti kütləvi qırğın 613 nəfərin, o cümlədən 106 qadının, 63 uşağın, 70 qocanın həyatına son qoydu. Bu faciə zamanı 1275 dinc sakin əsir götürüldü, onlardan 155 nəfərinin taleyi hələ də məlum deyil.

Bu günə qədər bəşəriyyətin ən faciəli hadisəsi ilə bağlı dünya mətbuatında dəfələrlə müxtəlif məqalələr dərc edilib. Elə faciənin 17-ci ilində Rusiyanın "Nezavisimaya qazeta" qəzetində dərc edilən "Xocalı faciəsinin Moskvaya da dəxli var" başlıqlı məqalə də bu qəbildəndir. Məqalədə qətliamla bağlı müəyyən obyektiv məqamlar çoxdur. Qeyd edilir ki, baş verən faciə Qarabağ müharibəsi tarixində ən çoxsaylı insan ölümü ilə nəticələnən hadisədir. Erməni quldur dəstələrinin Rusiyaya məxsus 366-cı motoatıcı alayın yaxından iştirakı ilə faciəni törətdikləri vurğulanır. "Hər şey bir günün içində baş verib. Burada biz konkret olaraq hərbi cinayət və etnik təmizləmənin şahidi oluruq. Bu qətliam SSRİ-nin o vaxtkı rəhbərliyinin yarıtmaz siyasəti nəticəsində baş verib" - deyə məqalədə vurğulanıb. Müəllifin qənaətincə, hakimiyyət boşluğu nəticəsində meydana gələn münaqişələr SSRİ-nin dağılmasına gətirib çıxardı: "Xocalı o vaxtkı SSRİ ərazisində baş verən əksər faciələr kimi Rusiyanın da faciəsidir. İmperiyanın süqutu çox baha başa gəldi". Məqalədə 20 ilə yaxındır ki, Azərbaycan ərazisinin 20 faizi, o cümlədən Dağlıq Qarabağ inzibati-ərazi bölgüsünə daxil olmayan və 1990-cı illərin əvvəllərinədək bütünlüklə azərbaycanlıların yaşadığı 7 rayonun Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğu göstərilib. İşğal zonasında yüzlərlə şəhər və kənd, minlərlə ictimai-mədəni tikili, təhsil və səhiyyə müəssisələri, tarix-mədəniyyət abidələri, muzeylər, məscidlər, müqəddəs sitayiş yerləri, qəbiristanlıqlar yerlə-yeksan edildiyi göstərilib: "O vaxt Xankəndində yerləşən 366-cı alay ermənilərə kömək etməyə başladı. Nəticədə yüzlərlə insanın ölümü ilə nəticələnən qətliam baş verdi. Həmin vaxta qədər Xocalı şəhəri artıq dörd aydan çox idi ki, erməni silahlı birləşmələri tərəfindən tam mühasirə vəziyyətində saxlanılır, əhali tibbi xidmət və ərzaq sarıdan ciddi əziyyət çəkirdi. Şəhərdə çox sayda xəstələr, yaralılar, qocalar, qadınlar və uşaqlar var idi. Həmin gecə Xocalı şəhəri yerlə-yeksan olundu. Əliyalın dinc mülki əhali kütləvi qırğına məruz qaldı - uşaqlar, qadınlar, qocalar, xəstələr ağlasığmaz vəhşiliklə məhv edildi". Ancaq sırf təsadüflər nəticəsində xocalılıların bir hissəsinin sanki tarixə şahidlik etmək üçün sağ qaldıqları vurğulanıb. Məqalədə xüsusi olaraq qeyd edilir ki, Azərbaycan heç vaxt Xocalını yaddan çıxarmayacaq: "Baş verənlər yaddaşlardan silinə bilməz. Azərbaycanın ictimai-siyasi təşkilatlarının faciənin soyqırımı kimi tanınması istiqamətində fəaliyyəti güclənib. Hər il Xocalıdan qovulan sakinlər BMT və digər beynəlxalq təşkilatlara müraciət edərək qətliamın soyqırımı kimi tanınmasını tələb edirlər. İslam Konfransı Təşkilatında isə "Xocalı üçün ədalət" başlığı altında tədbirlər başlayıb".

Azərbaycanın rəsmi şəxsləri Xocalı soyqırımının beynəlxalq məhkəmələrdə araşdırılacağına nail olacaqlarını bəyan ediblər. Bu istiqamətdə Moskvanın əllərini yanına salıb oturması da ciddi tənqid olunub. Məqalədə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində ATƏT-in Minsk qrupunun fəaliyyətinə də toxunulub. Qrupun münaqişənin həlli ilə bağlı müxtəlif təkliflər irəli sürdüyü göstərilib. Lakin münaqişənin siyasi yolla həlli mümkün olmur ki, olmur: "Azərbaycan ailələrinin Qarabağa qaytarılmasına şərait yaradılmalıdır. Onun ərazi bütövlüyü qorunmalıdır. Ola bilsin ki, bundan sonra iki xalq arasında barışıq əldə oluna bilər. Xocalı isə Azərbaycan-Ermənistan faciəsinin abidəsinə çevrilə bilər. Tarixdə belə hallara rast gəlinib. Məsələn, almanlarla fransızlar kimi". O da vurğulanıb ki, Rusiya tərəfdən Xocalıya ən yaxşı abidə - danışıqlar prosesi və münaqişənin həllinə nail olmaqdır. Məqalə müəllifi daha sonra Ermənistanın Rusiyadan tam asılı olduğuna işarə edib.

Onu da qeyd edək ki, dünya ictimaiyyətinə özlərini bəşəriyyətin "sülhsevər və ən humanist xalqı" kimi qələmə vermək üçün dəridən-qabıqdan çıxan ermənilər Fransada nəşr etdirdikləri mətbu orqanlarında Xocalı hadisələrindən söhbət açarkən "faciə" sözünü işlətməkdən çəkinir, 1992-ci il fevralın 25-dən 26-na keçən dəhşətli gecədə baş vermiş vəhşiliyi beynəlxalq aləmə "Xocalı uğrunda gedən döyüşlər" kimi çatdırmağa səy göstərirlər. Fransada məskunlaşmış ermənilər 1855-ci ildən başlayaraq güclü erməni lobbisinin vəsaiti hesabına onlarla adda qəzet, jurnal və bülletenlər buraxmağa başlayıblar. Onların bir çoxu sonralar öz nəşrini dayandırıb. Hazırda fəaliyyətini davam etdirən "ACAM", "Frans-Armeni", "Hayistan", "Armenizer", "UMAF",

"Azadmaqazin", "Ermənistan xəbərləri", "Parev" və digər mətbu orqanlar illər boyu Türkiyəyə və Azərbaycana qara yaxmaqla məşğul olmuş və bu gün də bu işlə məşğuldurlar.

Son olaraq onu qeyd edək ki, Xocalı faciəsinin ermənləri qorxuya salması əbəs deyil. Bunun səbəbi bir tərəfdən tarixi faktlara əsaslanan Azərbaycan diplomatiyasının Ermənistan diplomatiyasını üstələməsi, digər tərəfdən isə Xocalı faciəsinin olduğu kimi dünya ictimaiyyətinə çatdırılması sahəsində ölkəmizin apardığı siyasətdir. Nəhayət, Xocalı faciəsinə siyasi qiymət verilməsi və soyqırımı kimi tanınması üçün Azərbaycan dövlətinin beynəlxalq məhkəməyə müraciət etməyə hazırlaşması ermənilərin qorxusunu bir qədər də artırıb.

Azər NURİYEV

“Kaspi”.-2009.-28 fevral-2 mart.-N.39.-S.3

Britaniya Parlamenti Xocalı qətliamını tanıyacaq

Avropa Azərbaycan Cəmiyyətinin (TEAS) təşəbbüsü ilə fevralın Xocalı faciəsinin 17-ci ildönümü ilə əlaqədar Böyük Britaniya Parlamentinin İcmalar Palatasına Palatanın deputatı Mayk Henkok tərəfindən "Xocalı qətliamının ildönümü" adlı 893 saylı EDM təqdim edilib.

Cəmiyyətdən APA-ya verilən məlumata görə, sənəddə Ermənistan tərəfindən Azərbaycana qarşı həyata keçirilən işğalçılıq siyasəti pislənilib, Palata Britaniya hökumətini Xocalı qətliamını tanımağa, bununla Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində yeni beynəlxalq təşəbbüs göstərməyə çağırıb. Sənəddə qeyd olunur ki, konfliktin öz həllini tapmaması bütün Qafqaz regionu üçün təhlükədir. Bu, Birləşmiş Krallığın Azərbaycana yatırdığı sərmayələri də təhlükə altına qoyur. Sənəddə o da bildirilir ki, münaqişənin dinc üsullarla həllinə nail oluna bilinməməsinin səbəbi BMT Təhlükəsizlik Şurasında Ermənistan hərbi qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması və 1 milyona qədər qaçqın və köçkünün öz torpaqlarına qayıtması haqqında qəbul olunmuş qətnamələrin Ermənistan tərəfindən yerinə yetirilməməsidir. Sənəd konfliktin Azərbaycanın ərazi bütövlüyü və Dağlıq Qarabağ əhalisinə ən yüksək muxtariyyətin verilməsi prinsipləri əsasında həllini dəstəklədiyini bəyan edir, onu da nəzərə almağı vacib sayır ki, Birləşmiş Krallıq Azərbaycanda ən böyük xarici sərmayədar ölkədir. Bu ölkədə 5000 Britaniya vətəndaşı yaşayır, Britaniya Azərbaycanın neft sənayesində 20 faiz paya malikdir.

Sənədin tammətni ilə **http://edmi.parliament.uk/EDMi/EDMDetails.aspx?EDMID=37972&SESSION=899** internet ünvanında tanış olmaq mümkündür.

Məlumat üçün qeyd edək ki, EDM (Early Day Motion) Böyük Britaniya Parlamentində İcmalar Palatası üzvlərinin hər hansı məsələyə Palatanın diqqətini cəlb etmək üçün tərtib etdikləri və deputatların imzasına təqdim etdikləri sənəddir. Deputatlar sənədə imza atmaqla qaldırılan məsələyə dəstəklərini göstərə bilərlər. EDM sessiyanın sonuna qədər imzalanmaq üçün açıq olur. EDM-də qaldırılmış problem bütün hallarda Palatada müzakirə olunmasa da, belə sənədlərlə məsələyə geniş dairələrin diqqətini cəlb etmək mümkündür.

Xocalı qətliamının növbəti ildönümü ilə əlaqədar daxil olmuş EDM artıq Palatanın 10 deputatı tərəfindən imzalanın və cari sessiyanın sonuna - 2009-cu ilin axırınadək imzalanmaq üçün açıqdır.

Qeyd edək ki, Avropa Azərbaycan Cəmiyyəti 2004-cü ildə Böyük Britaniyada Tale Heydərov tərəfindən təsis edilib. Cəmiyyət Azərbaycanın dünyada tanıdılması məqsədi ilə nəşr olunan ingilisdilli "Visions of Azerbaijan" jurnalının və Qarabağ həqiqətlərindən bəhs edən www.karabakh.co.uk internet portalının təsisçisidir. Cəmiyyət, həmçinin "Khojaly Tragedy - an International View" ("Xocalı faciəsi - beynəlxalq baxış"), "International Visions: Armenia-Azerbaijan conflict over Karabakh" ("Ermənistan-Azərbaycan Qarabağ münaqişəsinə beynəlxalq baxışlar"), ingilis və rus dillərində "Azərbaycan: 100 sual-cavab" kitablarının müəllifidir. Cəmiyyətin təşəbbüsü ilə Britaniyalı rejissor Nik Tayron tərəfindən Azərbaycan qaçqınlarının həyatından bəhs edən "Mənim Sürreal Vəzifəm" ("My Surreal Duty") adlı sənədli film çəkilib. Cəmiyyət və onun fəaliyyəti haqqında daha ətraflı məlumatı www.t-e-a-s.eu saytından almaq olar.

"Təzadlar".-2009.-28 fevral.-N.39/40.-S.1, 3.

İstanbulda "Xocalı və insan haqları" mövzusunda konfrans keçirilmişdir

Ankara, 1 mart (AzərTAc). Azərbaycanın İstanbuldakı baş konsulluğu və Türk Dünyası İnsan Haqları Dərnəyi (TDİHD) İstanbulda "Xocalı və insan haqları" mövzusunda konfrans keçirmişlər. Konfrans iştirakçıları Xocalı soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla anmışlar. Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndirilmişdir.

Heydər Əliyev Fondunun hazırladığı Xocalı soyqırımından bəhs edən filmin nümayişindən sonra TDİHD-in İstanbul təmsilçisi Erol Şahingil bu konfransın BMT-nin İnsan Haqları Bəyannaməsinin qəbul edilməsinin 60-cı ildönümü ilə bağlı keçirildiyini, əsas məqsədin isə ermənilər və onların havadarları tərəfindən Xocalıda törədilən qətliamın - bəşəriyyətin tarixində ən qanlı səhifələrdən biri olan qırğının təkrarlanmaması üçün əsl həqiqətlərin dünyaya çatdırılmasıdır.

Ölkəmizin İstanbuldakı baş konsulu Səyyad Salahlı Xocalı qətliamından, ermənilərin törətdikləri digər vəhşiliklərdən ətraflı bəhs edərək vurğulamışdır ki, Türkiyədə ermənidən "üzr istəmə" kampaniyasına qoşulanlar düşmənin dəyirmanına su tökənlərdir. Əksinə olaraq, onlar Xocalı soyqırmı ilə bağlı ermənilərin üzr istəməsini tələb etməlidirlər.

Konfransda çıxış edən İstanbul Universitetinin professoru Mustafa Erkal, Yıldız Texniki Universitetinin professoru Adil Allahverdiyev, Türkiyə Həmkarlar Konfederasiyasının xarici əlaqələr şöbəsinin müdürü Əhməd Dəmirçi "bir millət, iki dövlət" olan Azərbaycan və Türkiyənin məkrli erməni təbliğat maşınına qarşı birgə fəaliyyətinin gücləndirilməsinin zəruriliyini vurğulamış, bunun Xocalı soyqırımının bütün dünyada tanınmasında böyük rol oynayacağını bildirmişlər.

TDİHD-nin sədri Abdullah Buksur və dərnək üzvləri Ankarada Xocalı soyqırımının 17-ci ildönümü münasibətilə BMT-nin Türkiyə nümayəndəliyinin qarşısına qara çələng qoymuşlar. Abdullah Buksur qəbul etdikləri müraciəti oxumuş və nümayəndəliyə təqdim etmişdir. Müraciətdə uşaq qatilləri olan erməni quldurlarının beynəlxalq məhkəmədə cəzalandırılması tələb olunur.

Oqtay Bayramov,
AzərTAc-ın xüsusi müxbiri,
Ankara
1 mart 2009-cu il

Xocalının qədim tarixi

Tarixi Azərbaycan torpaqları müasir sivilizasiyanın inkişafa başladığı ən qədim yaşayış məskənidir. Azərbaycan xalqı zəngin və özünəməxsus mədəniyyət, o cümlədən dövlətçilik ənənələri yaratmışdır. Yerli və xarici alimlər, etnoqraflar tədqiqatlarında bildirmişlər ki, Azərbaycan tarixinin öyrənilməsində Xocalı mədəniyyətinin tədqiqi mühüm əhəmiyyətə malikdir. Xocalı başdan-başa tarixi-memarlıq abidələri diyarıdır. Buna misal olaraq miladdan əvvəl XIII-VII əsrlərə aid Xocalı-Gədəbəy mədəniyyət abidələrini, son Tunc və ilk Dəmir dövrlərinə aid Nekropolu, Kurqan çölünü, eramızın IV-VII əsrlərinə aid kilsələri, XIV əsrə aid Xocalıda Hacı Əli günbəzini, 1356-cı ildə inşa olunmuş dairəvi türbəni, XVIII əsrdə tikilmiş Əsgəran qalasını və onlarca başqalarını göstərmək olar.

Azərbaycanda Kiçik Qafqaz dağ və dağətəyi rayonlarında, Kür-Araz çayları arasında son Tunc və ilk Dəmir dövrlərinə aid arxeoloji mədəniyyət Xocalı-Gədəbəy mədəniyyəti abidələri adlandırılır. Xocalı-Gədəbəy mədəniyyət abidələri emalatxanalar, qəbirlər və ibadətgahlardan ibarətdir. Mədəniyyətin yayıldığı ərazidə misəritmə kürələri, mis və tunc məmulatları hazırlayan emalatxanaların qalıqları, çaxmaq daşından alət və silahların istehsal tullantıları aşkar edilmişdir. Buradan Neolit dövründə yaşayan insanlara aid əmək alətləri də tapılmışdır. Torpaq, daş qutu qəbirlər və kurqanlarda ölülər bükülü, uzadılmış, oturdulmuş vəziyyətdə dəfn olunmuşdur. Qəbirlərin keramikası demək olar ki, eynidir. Qəbirlərdən tunc, qılınc, təbərzin, toppuz, ox, yaba, xəncər, nizə ucluğu, bardak, qazan, cilov, bilərzik, üzük, sümükdən hazırlanmış bəzək əşyaları, gildən və daşdan hazırlanmış müxtəlif məmulatlar aşkar edilmişdir.

Bu faktlar sübut edir ki, Xocalı Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir. Keçmiş SSRİ-nin tanınmış etnoqraf alimləri və yerli etnoqraflar qədim dövrə aid abidələri daha çox Xocalı və Xankəndi yaxınlığında apardıqları tədqiqatlar zamanı tapmışlar. Onlar arxeoloji qazıntılar zamanı kurqanlara, qəbir daşlarına və müxtəlif yaşayış məskənlərinə rast gəliblər. Qədim Xocalı qəbiristanlığındakı 11 saylı kurqandan tapılan muncuqlar, üzərində eramızdan əvvəl 1307-1275-ci illərdə Assuriya çarı Adadnirariyə aid mixi yazılar, eləcə də müxtəlif çeşidli bəzək əşyaları, saxsı qablar, şüşə muncuqlar yerli sakinlərin Şərq ölkələri ilə geniş iqtisadi-mədəni əlaqələrindən xəbər verir. Azərbaycanın Kiçik Qafqaz dağ və dağətəyi ərazilərində eramızdan əvvəl XIII-VII əsrlərdə yayılmış arxeoloji mədəniyyət ilk dəfə Xocalı yaşayış məskənində və Gədəbəy rayonunda tətbiq olunduğundan bu abidələr Xocalı-Gədəbəy mədəniyyəti nümunələri adlandırılır. Alimlər sübut ediblər ki, Xocalı-Gədəbəy mədəniyyəti son Tunc və erkən Dəmir dövrlərinin xarakterik xüsusiyyətlərini özündə cəmləşdirir. Qəbirlərdən tunc, qılınc, nizə ucluğu, silahlar, ox, yaba, təbərzin, toppuz, bilərzik, sümükdən hazırlanmış bəzək əşyaları, gildən və daşdan hazırlanmış müxtəlif əşyalar aşkar edilmişdir. Aparılan toponomik araşdırmalar göstərir ki, xalqımızın uzaq keçmişindən tutmuş bu gününədək olan məşğuliyyəti Xocalı toponomiyasında da öz əksini tapmışdır.

İ.M.Dyakonov, M.Kalankatlı və M.Xorenli öz əsərlərində Qafqaz Albaniyasının Xocalı rayonu ərazisinə aid Qarqar düzünü Qafqaz tayfalarından olan Qarqarların adı ilə bağlayırlar. Onlar alban əlifbasının qarqarların dili əsasında tərtib olunduğu ehtimalını da irəli sürüblər. Hazırda Qarqar Xocalıda yerləşən dağ silsiləsidir. Qafqaz Albaniyası dövrünü tədqiq edən alimlərdən K.V.Trever III əsrdə Albaniyada Qarqar düzü adlı yerin olduğunu söyləyib. Adı Qafqaz Albaniyasının Qarqar tayfasından götürülmüş Qarqar çayı Şuşa, Xocalı, Ağdam, Ağcabədi rayonları ərazisində, Kür çayının hövzəsindədir. Ətraf rayonlar bu çaydan suvarmada geniş istifadə edirdi. Qarqar düzü və Qarqar dağ silsiləsi adlanan ərazi də Xocalı rayonunun ərazisində yerləşən dağ silsiləsidir və Qafqaz tayfalarından olan qarqarların adı ilə bağlıdır. Qarqarlar, utilər, albanlar və digər türkdilli xalqlarla birgə Qarabağın qədim sakinləri hesab olunurlar. Yunan coğrafiyaşünas alimi Strabon qarqarların Şimali Qafqazda yaşadıqlarını göstərmişdir. Heç bir alim və tədqiqatçı, hətta tarixin atası hesab olunan Heredot, coğrafiyaşünas Strabon, M.Kalankatlı belə Qarabağ ərazisində erməni toponimini, mədəniyyətini, yaşayış tərzini xatırladan mənbə göstərməyiblər. M.Xorenli və M.Kalankatlı alban əlifbasının qarqarların dili əsasında tərtib olunduğunu etiraf etmişlər. Hətta şərqşünas V.V.Bartold XVIII-XIX əsrə aid mənbələrdə Orta Qazaxıstanda və Tyan-Şanda Qarqar adlı toponimlərin olduğunu deyib. Tarix boyu Azərbaycan xalqının yaratdığı Manna, Midiya, Albaniya və Atropatena dövlətlərinin formalaşmasında və inkişafında Qarqar boylarının böyük rolu olmuşdur.

Xocalı rayonu ərazisindəki Əsgəran qalası XVIII əsrdə Qarqar çayının sağ və sol sahillərində Qarabağ xanı Pənahəli xan tərəfindən tikilib. İki istehkamdan ibarət qala çay daşından inşa olunmuşdur. Yeri gəlmişkən, 1810-cu ildə Rusiya ilə İran arasında sülh danışıqları Əsgəran qalasında aparılmışdır. Əsgəran sözünün mənası "Qədim Aran" deməkdir. Tarixi faktlar sübut edir ki, Xocalı rayonu ərazisi Azərbaycanın ən qədim, qocaman diyarlarından biridir. Aparılan araşdırmalar göstərir ki, xalqımızın uzaq keçmişindən tutmuş bu gününədək olan məşğuliyyəti, sənətkarlığı, dini baxışları, mədəniyyəti Xocalı toponimiyasında öz əksini tapmışdır.

Çox təəssüf ki, Xocalı-Gədəbəy mədəniyyət abidələrinin əksəriyyəti Sankt-Peterburq Antropologiya və Etnoqrafiya Muzeyinə, Moskvanın Tarix Muzeyinə və başqa muzeylərə daşınıb aparılmışdır.

Xocalı rayonu şimaldan və şimal-şərqdən Kəlbəcər və Ağdam rayonları, cənubdan və cənub-şərqdən Şuşa və Xocavənd, qərbdən isə Laçın rayonu ilə həmsərhəddir. Səthi əsasən dağlıq zonadan ibarət, ərazisi 926 kvadrat kilometrdir. Əvvəlki adı Xocalı olmuş, 1930-1978-ci illərdə Stepanakert (Xankəndi), 1978-1991-ci illərdə Əsgəran inzibati ərazisinə aid edilmiş, 1991-ci ildən isə yenidən Xocalı adlandırılmışdır. Rayonun qərb sərhədi boyunca Qarabağ silsiləsi uzanır. Silsilənin şərq yamacları Xocalı ərazisindən Qarabağ və Mil düzlərinə tərəf çay dərələri boyunca uzanır. Bu qədim yaşayış məskəninin ən yüksək zirvəsi 2843 metr hündürlükdə olan Qızqala və 2827 metr hündürlükdə olan Qırxqız dağlarıdır. Ərazidə yura, tabaşir və antropogen çöküntüləri geniş yayılmış, gil, qum, çaqıl və gillicə kimi faydalı qazıntılarla zəngindir. İqlimi əsasən mülayimdir. Əsas su ehtiyatı Qarqarçay olan Xocalının 40 faizi palıd, fısdıq və tut ağaclarından ibarət meşələrdir. Etnoqraf alimlər söyləyirlər ki, Xocalı meşələrində əsasən dağ keçisinə, cüyürə, vaşaqa, meşə pişiyinə, süleysinə, tülküyə, canavara, hərdən ayıya, quşlardan isə kəkliyə, sığırçına, turaca, qırqovula rast gəlmək olurdu. Dağlıq sahələri alp və subalp çəmənləri ilə örtülmüşdür. Alçaq dağətəyi sahələrdə kserofit kolluqlar və çəmənlər vardır. Rayonun kənd təsərrüfatında heyvandarlıq, taxılçılıq və üzümçülük əsas yer tuturdu. Xocalıda bir-birindən gözəl şəffaf sulu soyuq Qarağac bulağı, Ataş bulağı, Əhməd bulağı, Rəhim bulağı, Museyib bulağı, Nəriman bulağı, Üçbulaq və başqa bulaqlar var. Xocalının ərazisində 86 kənd yerləşirdi. Məşhur Ağa körpüsü Xocalıda, Xankəndi şəhərindən 1 km cənubda Qarqar çayı üzərində tikilmişdi. Vaxtilə Qarabağın varlı adamlarından olmuş Məhəmməd ağanın adını daşıyan və Şuşa ilə əlaqə yaradan Ağa körpüsü 1988-1990-cı illərdə dəfələrlə azğınlaşmış erməni quldurlarının təcavüzünə məruz qalmış, sonda tamamilə dağıdılmışdır.

Xocalı şəhəri Qarabağ silsiləsinin ətəyində Qarqar, İlis və Xocalı çaylarının qovuşduğu ərazidə, Ağbulaq, Haraguh, Badara, Daşbulaq, Ballıca, Mehdikənd, Naxçıvanik kəndləri əhatəsində, Dağlıq Qarabağın mərkəzi Xankəndi şəhərindən 11 km şimal-şərqdə yerləşir. 1930-cu ildə rayon statusu almışdır. Sonralar Daşbulaq, Meşəli, Yaloba, Cəmilli, Kosalar, Kərkicahan, Başkənd, Pirəməki, Həsənabad, Cavadlar, Qaragav və Canhəsən kimi iri kəndlər də Xocalı rayonunun tərkibinə verilmişdir. Xocalı qəsəbəsi üç hissəyə bölünürdü. Birinci Xocalı çayının sol sahilində, İlis çayının Xocalı çayına qovuşduğu sahənin əmələ gətirdiyi üçbucaqda yerləşən köhnə Xocalı, ikinci Xocalı çayının sağ sahilində köhnə Xocalıdan cənubda XX əsrin əvvəllərində müxtəlif ərazilərdən gələnlər tərəfindən salınmış Qaladərəsi Xocalısı, üçüncüsü Xocalı və Qarqar çayları arasındakı köhnə poçt stansiyası ərazisində 1918-1920-ci illərdə Ermənistandan qovulmuş qaçqınlar tərəfindən salınmış Xocalıdır. Bu şəhər 1905-1906-cı illərdə, 1917-1918-ci illərdə dəfələrlə xəyanətkar ermənilər tərəfindən yandırılıb dağıdılmışdı. 1992-ci ildə işğaldan əvvəl Ermənistandan, Xankəndidən didərgin salınmış soydaşlarımız, Özbəkistanın Fərqanə vilayətindən qaçqın düşən Ahıska türkləri və yüzlərlə məhsəti türkü də Xocalıda məskunlaşmışdı.

1991-ci ildə rayonun əhalisi 7000 nəfərə yaxın idi. İşğaldan bir az öncə şəhər statusu almış Xocalının yeni tikilmiş geniş yaşayış massivləri, şərab və pivə zavodları, məişət xidməti kombinatı, tikinti müəssisəsi, 100 çarpayılıq xəstəxana, 30 məktəb, 36 kitabxana, 13 mədəniyyət evi, 31 klub və başqa məişət obyektləri var idi. Şəhər statusu alandan sonra Xocalı xeyli böyümüş, orada iri yaşayış massivləri tikilmişdi.

1991-ci ilin oktyabrında Xocalı ilə avtomobil əlaqəsi demək olar ki, kəsilmişdi. Həmin vaxtdan etibarən şəhərlə əlaqə ancaq vertolyotların köməyi ilə saxlanılırdı. 1992-ci il yanvarın 2-də elektrik xətti də kəsildi. Xocalıya sonuncu dəfə ərzaq yardımı hərbi vertolyotla fevralın 13-də aparılmışdı. Bununla da Xocalı ilə bütün əlaqələr kəsildi. Gözlənilən təhlükəni xocalılılar hiss edirdilər. Fevralın 24-də əsir götürülən erməni də yaxın günlərdə Xocalıya hücum planının hazırlandığını deyib. Kömək üçün edilən bütün müraciətlər cavabsız qalıb. Fevralın 25-də axşamüstü Xocalıya gəlib-gedən bütün yollar erməni vəhşiləri tərəfindən nəzarətə götürülüb. Axşam saat 21. 00-dan şəhər aramsız artilleriya atəşinə tutulub. Gecə saat 23. 00-dan başlayaraq 366-cı motoatıcı alayın zirehli texnikaları, onların arxasınca da erməni piyadaları üç tərəfdən böyük qüvvə ilə Xocalıya hücum ediblər. Həmin gecə - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə XX əsrin ən böyük faciəsi - Xocalı soyqırımı baş verdi.

R.RZALI.

“Azərbaycan”.-2009.-1 mart.-N 48.-S.8.

Xocalı şagirdləri

Onlar Xocalını görməsələr də, doğma yurd həsrətiylə yaşayırlar

Doğma yurd-yuvalarından məcburi köçkün düşmüş Xocalı şəhər sakinlərinin bir hissəsi kompakt halda Pirşağı qəsəbəsindəki istirahət bazasının və Qızılqum sanatoriyasının binalarında məskunlaşıblar. Elə bu binaların yaxınlığında, dənizdən bir qədər aralıda Xocalı şəhər 2 saylı orta məktəb yerləşir. Bu günlərdə həm məktəbdə təhsilin səviyyəsini öyrənmək, həm də Xocalını görməmiş məktəblilərin doğma şəhərləri ilə bağlı təəssüratlarını bölüşmək məqsədilə yolumuzu Pirşağıdan saldıq.

Məktəbin şəraiti ölkəmizin inkişaf reallıqlarına uyğun deyildi

Çətinliklə də olsa, məktəbi axtarıb tapdıq. Ona görə çətinliklə tapdıq ki, gözdən uzaq bu məktəbin yerini təxmini müəyyən etsək də, onun istismar müddəti başa çatmış, taxtaları çürümüş fin evlərində yerləşməsi ağlımıza gəlməmişdi. Ərazidə vaxtilə istirahət kotteci olmuş bir neçə bu tip ev var ki, onların da əksəriyyətində məcburi köçkünlər məskunlaşıblar. 2 fin evində və hamısı bir yerdə cəmi 7 otaqda isə Xocalı şəhər 2 saylı orta məktəb yerləşir.

Bu binaların məktəb üçün minimum standartlara cavab vermədiyi ilk baxışdan görünürdü. Müəllimlərlə söhbətimiz də bundan başladı. Məlum oldu ki, 2 saylı Xocalı şəhər orta məktəbi 1993-cü il oktyabrın 20-dən burada yerləşir. İndiyə qədər məktəbin müəllimləri Təhsil Nazirliyinə aidiyyəti orqanlara məktəb üçün münasib binanın ayrılması, heç olmasa, əlavə sinif otaqlarının tikilməsi üçün dəfələrlə müraciət ediblər. Amma faydası olmayıb. Aidiyyəti qurumlar nəinki sinif otaqlarının tikilməsinə təşəbbüs göstəriblər, heç məktəbin maddi-texniki təminatı ilə də maraqlanmayıblar. Biri məktəbin yerləşdiyi binanın onların balansında olmadığını, digəri hesabında pul vəsaitinin yoxluğunu bəhanə edib. Cavabdeh təşkilatlardan kiminsə bu məktəbə nə vaxtsa gəldiyini gördüm deyən də yoxdur. Bəlkə də 7 otaq iki növbədə dərslərin keçirilməsinə imkan verə bilər. Nəzəri cəhətdən uşaqlar bütün fənləri mənimsəyə bilərlər. Amma bu otaqlarda kimya, fizika təcrübələrinin aparılması, minimal tələblərə uyğun biologiya və zoologiya dərslərinin keçirilməsi mümkün deyil. Hazırda ölkənin hər yerində orta məktəblər müasir informasiya texnologiyaları ilə təmin edildikləri, internetə qoşulduqları halda, Xocalı şəhər 2 saylı orta məktəbdə bundan söhbət açmağa dəyməz. Məktəbdə cəmi 2 kompüter var. Artıq ömrünü başa vurmuş bu kompüterləri nə vaxtsa bir humanitar təşkilat bağışlayıb. Onların da üstünə yağış damdığından sadəcə maketləri qalıb.

Həmin gün hava yağmurlu olduğu üçün bütün sinif otaqlarına su damırdı. Nəmişlikdən otaqların tavanı çox pis vəziyyətə düşdüyündən, adama elə gəlirdi ki, indicə qopub yerə düşəcək. Bayır tərəfdən binaların taxtaları çürüdüyü üçün divarlar da nəm idi. Otaqların qızdırılmasından isə söhbət belə gedə bilməz. Elə buna görə, şagirdlər soyuq və nəm otaqlarda palto və gödəkçələrini çıxarmadan əyləşmişdilər. Eşitdik ki, nəmişlik ucbatından müəllimlərin və şagirdlərin arasında yel xəstəliyinə tutulanlar var. Bu ərazidə təbii qaz, ümumiyyətlə, yoxdur. Elektrik enerjisi isə hava bir az yağışlı və küləkli olan kimi kəsilir. Bir də elektrik ustası nə vaxt gəlib qırılan kabelləri təmir etsə, onda verilir. Bu da ən azı, iki gün çəkir.

İqtisadi inkişafın dinamik vüsət aldığı, təhsil sahəsində müxtəlif dövlət proqramlarının həyata keçirildiyi, yeni məktəb binalarının tikintisinin artdığı, "qara qızıl"ın insan kapitalına çevrildiyi bir zamanda Xocalı şagirdləri ötən əsrin 20-30-cu illərinin kənd məktəbini xatırladan bir binada dərs keçirlər. Nə qədər acı olsa da, çox təəssüf ki, bu, reallıqdır.

Məzunların səsi nüfuzlu ali məktəblərdən gəlir

Məktəb başdan-ayağa problemlər məngənəsində sıxılsa da, bu, müəllim-şagird kollektivinin əzmini qıra bilməmişdi. Havanın soyuq, yağışlı olmasına baxmayaraq bütün siniflərdə dərslər öz qaydasında keçirilirdi. Dərs hissə müdiri İmani Məhbubun sözlərinə görə, hazırda məktəbdə iki növbədə 130 şagird təhsil alır. Müəllim kollektivi əksəriyyəti cavan kadrlar olmaqla 27 nəfərdən ibarətdir. Məktəbdə əsasən Xocalıdan olan uşaqlar oxusalar da, müəllimlər arasında işğal altında qalan digər rayonlardan olanlar da var. Burda da bəzi fənlərdən müəllim çatışmır. Şəraitsizliyə baxmayaraq məzunları Xocalı şəhər 2 saylı orta məktəbin adını uca tutmağı bacarırlar. Ötən il Elçin Quliyevin Milli Aviasiya Akademiyasına daxil olması buna sübutdur.

Ən böyük arzuları Xocalıya qayıtmaqdır

Məktəbdə maddi-texniki şərait acınacaqlı vəziyyətdə olsa da, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi məsələsində gördüklərimiz ürəkaçan idi. Azərbaycanın dövlət atributlarının, qan yaddaşımızın əks olunduğu plakatlar, milli qəhrəmanlarımızın, Xocalı şəhidlərinin, torpaqlarımızın bütövlüyü uğrunda müharibədə həlak olmuş oğul və qızlarımızın şəkilləri məktəbin divarlarını bəzəyir.

Bu məktəbin şagirdləri Xocalını görməyiblər, aralarında bəziləri Xocalı işğal ediləndə bələkdə olub. Amma Xocalıya qayıtmaq onlar üçün ən böyük arzudur. Onlar Xocalını görməsələr də, şəhər barədə elə danışırdılar, sanki onun hər küçəsinə, evlərinin yerləşdiyi məhəlləyə yaxından bələd idilər. Hər gün o ümidlə yaşayırlar və inanırlar ki, gün gələcək, görmədikləri doğma Xocalıya qayıdacaqlar.

Xocalı şagirdləri vətənpərvərlik məsələlərində daha duyğusal və həssas idilər. Təsadüfi deyil ki, onların arasında Xocalıdan olan milli qəhrəmanları - Əlif Hacıyevi, Tofiq Hüseynovu, Ələsgər Novruzovu, Füzuli Rüstəmovu, İnqilab İsmayılovu, Araz Səlimovu tanımayan yox idi. Məktəblilər Xocalı uğrunda şəhid olmuş bu qəhrəmanlardan elə danışırdılar ki, sanki onların şücaətlərini öz gözləri ilə görüblər. Xocalıda mərdliklə döyüşmüş və Milli Qəhrəman adına layiq görülmüş Möhsün Məmmədovun, amansız müharibədə bu şəhər uğrunda canını fəda etmiş milli qəhrəmanlar Aqil Quliyevin və Hikmət Nəzərlinin adları bu uşaqlar üçün daim əzizdir. Çünki özlərinin dedikləri kimi, bu qəhrəmanlar olmasaydılar, bəlkə onlar indi həyatda yox idilər.

Bu şagirdlər həm də kövrək idilər. Çünki bəzilərinin valideynləri, əksəriyyətinin isə yaxın-uzaq qohumları Xocalı işğal ediləndə amansızlıqla qətlə yetirilib, itkin düşüb. 11-ci sinif şagirdi İntizar Abışovanın atası və əmisi ermənilər Xocalını işğal etdikləri zaman döyüşərək həlak olublar. Onunla söhbət etmək istədik. Danışmaq istəsə də, bacarmadı, qəhərləndi, üzünü görə bilmədiyi atasına həsr etdiyi "Ata" şeirini göz yaşları içində bizə uzatmaqla kifayətləndi.

9-cu sinif şagirdi Sevinc Fərəcovanın sözlərinə görə, aradan 17 il ötməsinə baxmayaraq ailələrində elə bir gün olmayıb ki, Xocalıdan söz düşməsin. Onun da qohumları arasında Xocalıda şəhid olanlar, itkin düşənlər var. "Bizim hamımızın bir istəyimiz var, o da tezliklə yurdumuza dönməkdir. İnanırıq ki, torpaqlarımız tezliklə işğaldan azad olunacaq və Azərbaycan bayrağı Qarabağda dalğalanacaq" - deyə Sevinc bildirir.

İntizarın sinif yoldaşı Vüsal Əmirovun isə hər iki valideyni Xocalının işğalı zamanı erməni cəlladları tərəfindən amansızlıqla qətlə yetiriliblər. O zaman iki aylıq Vüsal nənəsinin sayəsində sağ qala bilir. Xocalı işğal olunduqdan sonra Əntiqə nənə Pirşağıda məskunlaşır. Hələ onda çoxları qundaqda olan Vüsalı övladlığa götürmək istəyir. Amma Əntiqə nənə qızının oğul yadigarı olan iki aylıq körpəni heç kimə vermir, çətinliklə də olsa, Vüsalı və yaşda ondan böyük iki bacısını boya-başa çatdırır.

Ailəsinin başına gətirilən faciəni danışdıqca həm də atasının qəhrəmanlığı ilə fəxr edən Vüsal qisas hissi ilə alışıb-yanır. Valideynlərinin, bacısının, amansızlıqla qətlə yetirilmiş yaxın-uzaq qohumlarının, bütün xocalılıların qanının yerdə qalmayacağına əmindir. Vüsal nə valideynlərini görüb, nə də Xocalını. Amma ən ən böyük arzusu köçkünlük həyatından birdəfəlik qurtulub Xocalıya qayıtmaq, istisinə qızına bilmədiyi ata ocağında olmaq, ömrünün sonuna kimi doğma yurdunda yaşamaqdır.

Ermənilərin həyata keçirdiyi soyqırımı cinayətinin qurbanı olmuş həmyerlilərinin üzünü görməsələr də, hamısının adını əzbər bilən Xocalı şəhər 2 saylı orta məktəbini şagirdlərinin deməyə sözü çox idi: Məktəbdəki, məskunlaşdıqları evlərdəki şəraitsizlikdən tutmuş, Xocalı soyqırımını beynəlxalq miqyasda tanınmamasına qədər...

Hər gün Xocalıya dönmək arzusu ilə yaşayan şagirdlər buna ümid edirlər. İnanırlar ki, gün gələcək Xocalıya qayıdacaq, doğma yurdlarında firavan həyat sürəcəklər. Yəqin ki, o zaman onlara da rahat məktəb şəraitində təhsil almaq nəsib olacaq.

Rəşad CƏFƏRLİ.

"**Azərbaycan**".-2009.-3 mart.-N 49.-S.10.

Azərbaycan Diasporu Nyu-Yorkda Ermənistanın BMT yanında daimi nümayəndəliyi qarşısında etiraz aksiyası keçirmişdir

Bakı, 3 mart (AzərTAc). Xocalı soyqırımının 17-ci ildönümü ilə əlaqədar ABŞ-ın Nyu-York şəhərində silsilə tədbirlər keçirilmişdir.

Azərbaycan diasporunun təşkilatçılığı ilə fevralın 26-da Ermənistanın BMT yanında daimi nümayəndəliyi qarşısında keçirilən etiraz nümayişi zamanı Xocalı soyqırımına dair məlumatlar və şəkillər Nyu-York sakinlərinə paylanılmışdır. Nümayişin sonunda Ermənistanın işğalçı siyasətini pisləyən bəyanat qəbul edilmiş və Ermənistan nümayəndəliyinə təqdim edilmişdir.

Həmin gün bu tarixi faciə ilə əlaqədar, Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyi tərəfindən BMT-nin baş katibinə, BMT-nin Katibliyinin əsas idarələrinə və BMT-yə üzv dövlətlərin daimi nümayəndəliklərinə Xocalı soyqırımına dair mətbuat məlumatı göndərilmişdir. Nyu-York şəhərində yerləşən "Türk Mərkəzi"ndə Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr edilmiş görüş keçirilmişdir.

Tədbirdə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində erməni və rus hərbi birləşmələri tərəfindən günahsız əhaliyə qarşı törədilmiş soyqırımı aktında həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Görüşdə Azərbaycanın Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Milli Məclisin deputatları Qənirə Paşayeva və Həvva Məmmədova, ABŞ-da yaşayan Azərbaycan, türk, yəhudi diasporlarının rəhbərləri və üzvləri, Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyinin əməkdaşları iştirak etmişlər.

İştirakçılara Heydər Əliyev Fondunun nəşr etdirdiyi kitablar və bukletlər paylanılmış, Xocalı soyqırımına həsr olunmuş sənədli film göstərilmişdir.

AzərTAc
3 mart 2009-cu il

Haaqada Xocalı soyqırımı qurbanlarının xatirəsi anılmışdır

Haaqa, 3 fevral (AzərTAc). Azərbaycanın Niderland Krallığındakı səfirliyindən bildirmişlər ki, martın 1-də Haaqada Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş və Avropada ilk dəfə ucaldılmış abidənin qarşısında Niderland-Azərbaycan Türk Kültür Dərnəyi tərəfindən anma mərasimi keçirilmişdir.

Tədbirdə Niderlandda fəaliyyət göstərən bütün Azərbaycan və türk diaspor təşkilatlarının təmsilçiləri, Avropanın digər ölkələrindən gəlmiş soydaşlarımız, Azərbaycanın Niderlanddakı səfiri Fuad İsgəndərov, Haaqada akkreditə olunmuş diplomatik korpusun üzvləri, yerli holland ictimaiyyətinin nümayəndələri və xarici qonaqlar iştirak etmişlər.

Tədbirdə çıxış edən Niderland-Azərbaycan Türk Kültür Dərnəyinin rəhbəri İlhan Aşqın, Azərbaycanın Niderlanddakı səfiri Fuad İsgəndərov, Almaniyadan gəlmiş diaspor fəalı Orxan Araz, Hollandiya Millətlərarası Mədəniyyət Platforması təşkilatının təmsilçisi Janmari der Çesteyn Xocalı hadisələri haqqında danışmış, soyqırımı törədənlərin cəzalandırılmasına çağırmış, bu cür faciənin bir daha təkrarlanmaması istiqamətində addımların atılmasının vacibliyini vurğulamış, soyqırımın Avropa ictimaiyyətinə tanıdılması üçün daha fəal iş aparılmasının zəruriliyini qeyd etmiş, bu məqsədlə Azərbaycan və türk diasporlarının iş birliyi çərçivəsində görülən tədbirlər barədə mitinq iştirakçılarını məlumatlandırmışlar.

Kütləvi aksiya yerli və xarici mətbuat orqanları tərəfindən geniş işıqlandırılmışdır.

AzərTAc
3 mart 2009-cu il

Xocalı cəzası

XOCALI faciəsinə olan milli düşüncələrimiz bir neçə mərhələdən keçib. Bunlar öncə daha artıq dərəcədə faciənin ağrılarını yaşamaq, onun real miqyasını tanımaq, daha sonra günahkarların müəyyənləşdirilməsi, üçüncü mərhələdə isə real təsvirinin tapılması, dünyaya çatdırılması və real hüquqi müstəvi üzrə hərəkət marşrutlarının seçilməsindən ibarət olub.

Bəlkə də biz təsvir mərhələsinə daha çox zaman ayırmışıq. Bu da başadüşüləndir. Çünki Şərq xalqları daha həssasdır və istənilən hadisə və ya faciənin nəticələri insanların yaddaşını özünə daha çox bağlayır. Heç şübhəsiz ki, milləti əzən tarixi mərhələ sonrakı dönəmdə də mənəvi-psixoloji problemlər törətmiş olur. Yəni real soyqırımı bir tərəfdə baş verir, onun mənəvi-psixoloji təsirini isə insanlar və ya millətlər sonrakı illərdə yaşayırlar. Amma dünya tarixində öz həyatlarında soyqırımı və ayrı-ayrı konfliktlərə məruz qalmış xalqlar, məsələn, yəhudilər bu sırada nümunə ola biləcək addımlar atıblar. Bu da ondan ibarətdir ki, onlar faciəni quruculuq tarixinə çevirə biliblər. Onlar hər il bunun hesabatını aparmaqla yanaşı, həm də dövlət quruculuğunda bundan geniş istifadə ediblər. Ona görə də hesab edirəm ki, Xocalı səhifəsi nə qədər ağrılı olsa da, biz ona başqa cür yanaşmalıyıq. Çünki bunun ürəkağrıdan, bəşəriyyəti dəhşətə gətirən səhifələri həmişə olacaq. Amma bizim növbəti hərəkətimiz, daha dəqiq desək, yol xəritəmiz ondan ibarət olmalıdır ki, Xocalının bizim tariximizdə hansı yeri tutduğunu və onun Azərbaycan ərazilərinin bərpa olunmasında necə rol oynaya biləcəyini dəqiqləşdirməliyik. Çünki başqa halda dünyanın bu hadisəyə qiymət verməsi və eyni zamanda, dünya və Azərbaycan xalqı arasında bir barometr rolunda çıxış edəcəyi təqdirdə biz növbəti faciələri yaşamış olacağıq. Yəni, o faciədə də xəyal qırıqlığı səviyyəsində olacaq.

Necə ki, biz bu gün dünyanı bu cür ittiham eləməyə çalışırıq. Əslində isə dünya öz işindədir və biz, necə də olsa, Əlcəzair xalqının məruz qaldığı faciəni öz gündəlik həyatımızda yaşamırıq. Bizim hüquqi müstəvidə görəcəyimiz işlər ondan ibarət olmalıdır ki, birinci növbədə daxili normativ-hüquqi münasibətlərimizi bu prosesin tələblərinə uyğunlaşdıraq. Yəni Xocalı hadisəsi soyqırımıdır və onun qurbanlarının bu statusunu tanıyırıq, eyni zamanda, müvafiq dövlət qurumlarının real vəzifələrini müəyyənləşdirib və həmçinin bunu tanıyıb-tanımamağa görə cəzanı müəyyənləşdirən addımları atmalıyıq. Bu hüquqi mexanizm bizə imkan verəcək ki, bu hadisə, dövlət quruculuğunda müəyyən bir səviyyədə iştirak etsin. Yəni cəmiyyət özünü bu hadisəyə real hüquqi normalarla uyğunlaşdırsın və beynəlxalq aləmdə də hər kəsin bu məsələyə fəlsəfi yox, qanuni yanaşmasına dair addımlar ataq.

Düşünürəm ki, belə olacağı təqdirdə ermənilərin öz saxta soyqırımından əlavə torpaq iddiaları və dövlət quruculuğu siyasətini necə yönləndirməsi bizə nümunə olmasa da, amma bir çağırışdır. Bu da ondan ibarətdir ki, bizim real soyqırımımızı Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunması siyasətini, sonra isə daha böyük torpaqlarımızın geri qaytarılması və o cümlədən, bütöv Azərbaycan quruculuğuna yönəltməyi bacarmalıyıq. Bu təqdirdə Xocalı soyqırımı bir fenomen olaraq tariximizin bir səhifəsi kimi də gələcək tariximizin quruculuğunda rol oynamış olacaq.

Zahid Oruc
Millət vəkili

“Üç nöqtə”.-2009.-4 mart.-N.40.-S.6.

Xocalı soyqırımına hüquqi-siyasi qiymət

Ukraynadan Beynəlxalq Təşkilatlara və Dünya birliyinə bəyanat

Son illər Azərbaycanda diaspor hərəkatının inkişafına göstərilən dövlət qayğısı əsrlər boyu dünyanın müxtəlif ölkələrinə səpələnmiş 50 milyondan çox soydaşlarımızın milli məfkurə altında birləşmələri üçün tarixi zəmin yaradıb. Belə ki, 15-20 il bundan öncə tarixi vətənimizin dövlət müstəqilliyinin bərqərar olunacağına ümid bəsləməyən dünya azərbaycanlıları bu gün dahi Azərbaycan oğlu, ümummilli lider **Heydər Əliyevin** bizlərə ərməğan qoyub getdiyi müstəqil Azərbaycan dövlətinin sıravi əsgərləri kimi tarixi vətənimizin ərazi bütövlüyünün bərqərar olması üçün əllərindən gələni əsirgəmirlər. Bu baxımdan son 2 əsrdə erməni qəsbkarlarının zaman-zaman qədim Azərbaycan torpaqlarını zəbt etməklə üzərində Ermənistan dövlətini qurmaları, qərbi Azərbaycanın şəhər, vilayət və kəndlərində yaşayan azərbaycanlıları deportasiya edərək zor gücünə öz doğma yurd yerlərindən didərgin salmaları, 1905-1915-18-ci illərdə Azərbaycanın bütün şəhər və rayonlarında kütləvi qırğınlar törətməklə, azərbaycanlılara qarşı soyqırım siyasəti həyata keçir-mələri uzun illər dünya ictimaiyyətindən gizlədilməsi azğın erməni millətçilərini 1988-ci ildən başlayaraq yeni işğalçılıq və soy-qırım siyasətlərini davam etdirməyə sövq etmişdir. 1988-ci il-dən başlayaraq Azərbaycanın qədim mədəniyyət beşiyi sayılan Dağlıq Qarabağ bölgəsində keçmiş sovet ordusunun gücü ilə şəhər və kəndləri dinc əhali qarışıq xarabazara çevirən erməni şovinistlərinin 1992-ci il" fevralın 25-dən 26-na keçən gecə Xocalıda 20-ci əsrdə amansız kütləvi qırğın törətmələri bəşər tarixinin ən dəhşətli soyqırım salnaməsinə çevrilmişdir.

Ukraynada yaşayan soydaşlarımızın ilbəil bu istiqamətdə mübarizə əzmlərini artırmaları artıq ənənə halını almışdır. Ulu öndər Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə tarixi vətənimizin iqtisadi, hərbi sahədə daha da inkişaf edərək bölgədə lider, beynəlxalq arena-da nüfuz sahibinə çevrilməsi dünya Azərbaycan diaspor hərəkatına böyük ruh yüksəkliyi ver**miş,** tarixi düşmənimizə qarşı aparılan mübarizə əzmini gücləndirmişdir. Belə ki, bu il Heydər Əliyev Fondunun Rusiya üzrə nümayəndəliyinin rəhbəri Leyla xanın Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət" kampaniyasına qoşulan Azərbaycan Ukrayna Dostluq və Xeyriyyə Fondunun Ukrayna Azərbaycanlıları Konqresi ilə birgə Ukraynada fevral ayını Xocalı ayı elan etməsi beynəlxalq arenada məzlum libasına bürünən erməni daşnaklarının ifşa olunmasında müstəsna rol oynamışdır. Azərbaycan Ukrayna Dostluq və Xeyriyyə Fondunun sifarişinə əsasən Ukrayna Rəssamlar İttifaqının üzvü Rasim Seydimovun Xocalı faciəsinə həsr etdiyi "Xocalı harayı" rəsm əsərləri Ukraynanın Dnepropetrovsk, Xarkov, Donetsk və Kiyev şəhərlərində nümayiş etdirilmiş, adı çəkilən şəhərlərin ictimaiyyəti Xocalı soyqırımını özündə əks etdirən filmə baxmaqla erməni vəhşiliyinin əyani şahidinə çevrilmişlər.

DNEPROPETROVSK

... Xocalı soyqırımını törətməklə bəşər tarixinin qanlı salnamə-sinə əbədi imza atan erməni qəsbkarları öz qanlı cinayətləri qarşısında cavab verməlidirlər. Bu devizlə Dnepropetrovsk şəhərində təşkil olunmuş "Xocalı harayı" rəsm sərgisinə qatılan adı çəkilən vilayətin elm, mədə-niyyət və incəsənət adamları, müxtəlif xalqların diaspor rəhbərləri, tələbələr və media nümayəndələri Heydər Əliyev Fondunun təşəbbüsü ilə nəşr olunmuş "Qarabağ həqiqətləri" kitabları ilə tanış olmuş, Azərbaycan Televiziyasının Ukrayna nümayəndəliyinin hazırladığı "Xocalı soyqırımı" filminə baxmaqla erməni vəhşiliyinin əyani şahidi olmuşlar. Tədbirdə Ukrayna Azərbaycanlıları Konqresinin Dnepropetrovsk vilayət təşkilatının sədri Qüdrət Hacıyev çıxış edərək, ermənilərin son 2 əsrdə azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırım və işğalçılıq siyasətindən söz açaraq, beynəlxalq təşkilatların erməni cinayətlərinə hüquqi siyasi qiymət verməmələrini tarixi ədalətsizlik kimi qiymətləndirmişdir. Tədbirdə gürcü, yunan, alman, yəhudi və bir sıra digər xalqların diaspor rəhbərləri çıxış edərək 20-ci əsrin sonunda ermənilər tərəfindən Xocalıda törədilmiş faciəni bəşəri cinayət adlandırmışlar.

XARKOV

"Xocalıya ədalət" kompaniyasına qoşulan Azərbaycan Ukrayna Dostluq və Xeyriyyə Fondunun Ukrayna Azərbaycanlılar Konqresi ilə birgə Xarkov şəhərində təşkil etdiyi "Xocalı harayı" rəsm sərgisi də ermənilərin Azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırım siyasətini faktlarla Xarkov ictimaiyyətinə çatdırmışdır. Xarkov şəhərinin elm, mədəniyyət və incəsənət xadimlərinin, diaspor və media nümayəndələrinin iştirakı ilə keçirilən mərasimi Xarkov Azərbaycanlıları Konqresinin sədri Qur-ban Abbasov açaraq keçən əsrin əvvəllərindən başlayaraq ermənilərin azərbaycanlılara qarşı kütləvi qırğınlar törətmələrini, 1988-ci ildən 2003-cü ilədək yağı düş-mənin Dağlıq Qarabağ və Azərbaycanın digər rayonlarında amansız soyqırım və işğalçılıq siyasəti həyata keçirməklə 20 faiz Azərbaycan torpaqlarını zəbt etdiklərini diqqətə çatdırmışdır. Beynəlxalq təşkilatlar erməni vəhşiliyinə göz yummaqla dünyada ikili standartlar mövqeyindən çıxış edirlər. Bu baxımdan

tədbirə qatılanları erməni hiylə-gərliyinə qarşı mübarizəyə səsləyən Azərbaycan Ukrayna Dostluq və Xeyriyyə Fondunun icraçı direktoru Ceyhun Məmmədli ermənilərin Xocalı şəhərin-də törətdiyi cinayətlər qarşısında cavab verəcəyini vurğulamışdır. Sonra tədbirə qatılanlara Heydər Əliyev Fondunun dəstəyi ilə nəşr olunmuş Qarabağ həqiqətləri toplumu paylanmışdır.

DONETSK

Təqdimat. ermənilər işğal etdikləri Azərbaycan torpaqlarını tərk etməsələr cəbr kasaları tükənmiş dünya azərbaycanlılarının tapdağı altında qala bilər. Bu bəyanat Azərbaycan Ukrayna Dostluq və Xeyriyyə Fondunun Donetsk Azərbaycanlıları

Konqresi ilə birgə Donetsk şəhərində təşkil etdikləri "Xocalı harayı" rəsm sərgisində səslənmişdir. "Xocalı harayı" rəsm sərgisinə qatılan Donetsk vilayətinin rəsmi şəxsləri, ali təhsil ocaqlarında təhsil alan yerli və xarici tələbələr ilk öncə Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə dərc olunmuş Qarabağ həqiqətləri toplumunu oxumaqla erməni qəsbkarlarının Azərbaycanda törətdikləri vəhşilikləri ilə tanış oldular. Xocalı faciəsi erməni daşnaklarının 20-ci əsrin əvvəllərin-dən başlayaraq Azərbaycanda həyata keçirdikləri soyqırım siyasətinin tərkib hissəsidir. Tədbirdə çıxışına bu sözlərlə başlayan Donetsk Azərbaycanlıları Konqresinin sədri İqbal Mahmudov, böyük Ermənistan xülyası ilə yaşayan erməni şovinistlərinin Xocalıda törətdikləri kütləvi qırğınların heç zaman cavabsız qalmayacağını vurğuladı. Sonra tədbirə qatılanlar Ukraynanın 5-ci televiziya kanalının hazırladığı Xocalı soy-qırımı filminə baxmaqla özlərini beynəlxalq arenada yazıq və məzlum xalq kimi qələmə verən erməni hiyləgərliyinin vəhşilik obrazı ilə tanış oldular. Ermənilər Azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırım və işğalçılıq siyasətindən əl çəkməsələr səbr kasaları tükənmiş dünya azərbaycanlılarının tapdağı altında qala bilər. Filmə baxdıqdan sonra bu bəyanatla çıxış edən Azərbaycan Ukrayna Dostluq və Xeyriyyə fondunun prezidenti İlqar Abbasov, diaspor fəallarından Möhlət Hüseynov, Rəfael Vəliyev, gənclər təşkilatının sədri Razim Əhmədov, diaspor ağsaqqallarından Rövşən Əhmədov, Məhəmməd Əhmədov və digər soydaşlarımız aradan 17 il ötməsinə baxmayaraq Xocalı soyqırımına ikili standart prizmasından yanaşan beynəlxalq təşkilatları tarixi ədalətə səslədilər.

KİYEV

Ukraynada "Xocalıya ədalət" kompaniyasına qoşulan Azərbaycan Ukrayna Dostluq və Xeyriyyə Fondu Ukrayna Azərbaycanlıları Konqresi ilə birgə Kiyev şəhərinin mərkəzi rəsm qalereyasında dialoq və əməkdaşlıq uğrunda İslam Konfransı gənclər forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə yaradılmış Xocalı saytını Ukrayna ictimaiyyətinə təqdim etmişdir. Ukraynanın elm, mədə-niyyət və incəsənət xadimlərinin, diplomatların, xarici və yerli tələbələrin, diaspor və media nümayəndələrinin iştirakı ilə keçirilən təqdimat mərasimində Azərbaycanın Ukraynadakı səfiri Tələt Əliyev çıxış edərək, erməni silahlı qüvvələrinin 1992-ci ildə Xocalıda törətdikləri misli görünməmiş vəhşiliklərdən söz açmışdır. Aradan 17 il ötməsinə baxmayaraq, beynəlxalq təşkilatların hələ də ermənilər tərəfindən Xocalıda həyata keçirilmiş belə bir bəşəri cinayətə hüquqi-siyasi qiymət verməmələrini bildirən UAK-ın sədri Akif Gülməmmədov, Azərbaycan Ukrayna Dostluq və Xeyriyyə Fondunun sədri İlqar Abbasov, konqresin Kiyev şəhər təşkilatının sədri Oleq Krapivin və digər soydaşlarımız Xocalıya ədalət kampaniyası çərçivəsində Heydər Əliyev Fondunun Rusiya üzrə təmsilçisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə yaradılmış Xocalı saytının tarixi əhəmiyyətindən söz açaraq, tədbirə qatılanları Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında əllərindən gələni əsirgəməməyə səsləmişlər. Ermənilər gec-tez öz səflərini başa düşüb işğal etdikləri Azərbaycan torpaqlarını tərk etməlidirlər. Təqdimat mərasimində çıxışına bu sözlərlə başlayan Ukraynanın tanınmış siyasi xadimi Anatoli Raxansk Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Xocalı saytının müstəsna rol oynayacağını bildirmişdir. Sonra "Xocalıya ədalət " kompaniyası çərçivəsində erməni vəhşiliyini özündə əks etdirən film nümayiş etdirilmişdir.

UKRAYNADA YAŞAYAN
SOYDAŞLARIMIZIN ERMƏNİSTAN SƏFİRLİYİNİN VƏ ATƏT-in KİYEV NÜMAYƏNDƏLİYİNİN QARŞISINDA
ETİRAZ MİTİNQİ

Dünyanın müxtəlif ölkələrində Xocalı faciəsinin 17-ci ildönümü ilə bağlı soydaşlarımızın kütləvi etiraz aksiyaları keçirmələri çağ-daş tariximizə dünya azərbaycanlılarının yeni milli oyanış salnaməsi kimi daxil olmaqdadır. Bu baxımdan Ukraynada yaşayan soydaşlarımızın bir araya gələrək Ermənistanın Ukraynadakı səfirliyinin və ATƏT-in Kiyev şəhərindəki nümayəndəliyinin qarşısında Azərbaycan xalqına qarşı olan ədalətsizliklərə son qoyma-larını tələb etmələri milli diasporumuzun yenilməz mücadilə tarixinə çevrilməkdədir. Erməni qəsbkarları əsrlər boyu Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırım siyasətinə görə tarix qarşısında cavab verməlidir. "Vəhşilik və qəddarlıq baxımın-dan 20-ci əsrin ən amansız faciəsi olan Xocalı soyqırımı dünya ictimaiyyəti tərəfindən tanınmalıdır". "Qarabağ şəhidlərinin qanı yerdə qalmayacaq" . Əllərində

bu şüarlarla Ermənistanın Ukraynadakı səfirliyinin və ATƏT-in bu ölkədəki nümayəndəliyinin qarşısına yürüş edən Ukraynanın müxtəlif vilayət və şəhərlərində yaşa-yan soydaşlarımız və tələbələr ermənilərdən nə qədər gec deyil, işğal etdikləri Azərbaycan torpaqlarından geri çəkilməyi tələb etmişlər. Ukrayna Dostluq və Xeyriyyə Fondunun UAK ilə birgə təşkil etdiyi etiraz aksiyasına qoşulan ukraynalı, türk, tatar və bir sıra ölkələrin diaspor nümayəndələri də bəşər tarixinin qanlı səhifəsinə çevrilən Xocalı faciəsinin soyqırım aktı kimi tanınması tələbinə qoşulmuşdular. ATƏT Dağlıq Qarabağ probleminin həll olunmasında ədalətli olmalı, ikili standartlardan əl çəkməlidir. **Vaxt olacaq Xocalı soyqırımına göz yuman beynəlxalq təşkilatlar, onun iştirakçıları tarix qarşısında cavab verəcəklər.** Bu kimi tələblərlə ATƏT-in Kiyev şəhərindəki nümayəndəliyinin qarşısında etiraz səslərini ucal-dan aksiya iştirakçıları adı çəkilən beynəlxalq təşkilatı Dağlıq Qarabağ problemi ilə bağlı ədalətli qərar verməkdə cəsarətli olmağa səsləmişlər. Təxminən 2 saata yaxın davam edən hər iki etiraz aksiyası Ermənistan səfirliyinə və ATƏT-in nümayəndəliyi-nə hazırlanmış qətnamənin oxunuşu ilə başa çatmışdır.

Möhsüm QƏDİROĞLU,
Azərbaycan Televiziyasının Ukrayna və Şərqi Avropa ölkələri üzrə
nümayəndəliyinin rəhbəri.

“Respublika”.-2009.-8 mart.-N 54.-S.5.

Xocalı qırğınlarına məhkəmə qiymət verməlidir

"Bu qərar olmadan hansısa hadisənin soyqırım kimi qəbul edilməsi cəfəngiyatdır"

Dünən Milli Məclisdə "Türkiyə - Azərbaycan: ortaq maraqlar və problemlər" mövzusunda keçirilən forumda iştirak edən azərbaycanlı və türkiyəli millət vəkillərinin birgə mətbuat konfransı keçirildi.

Tədbirin təşkilatçısı, Ana Vətən Partiyasının (AVP) sədri Fəzail Ağamalı bildirdi ki, aparılan müzakirələr uğurlu keçib. Onun sözlərinə görə, tədbirdə Türkiyə - Ermənistan danışıqlarında ermənilərin qondarma "soyqırım"ı və Türkiyəyə qarşı ərazi iddiaları ilə yanaşı, Dağlıq Qarabağ münaqişəsinin də hər zaman ön sırada olmasının vacibliyi vurğulanıb.

Cümhuriyyət Xalq Partiyasının (CXP) təmsilçisi Şükrü Ələkdağ isə dedi ki, forumda ortaq problemlər müzakirə edilib: "Türkiyə ilə Azərbaycan arasında tarixi, milli, dini, mədəni bağlılıqla yanaşı, həm də strateji müttəfiqlik var. Azərbaycan torpaqları işğaldan azad olunmayınca sərhədlərin açılması Ermənistanı mükafatlandırmaq anlamına gələrdi. Ermənistanın ən qısa zamanda işğal etdiyi Azərbaycan torpaqlarından çıxmasını istəyirik. Belə görüşlər mütəmadi şəkildə keçirilməli və problemlər müzakirə olunmalıdır".

Milliyyətçi Hərəkat Partiyasının (MHP) təmsilçisi Atilla Kaya isə bildirdi ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımadan bu ölkə ilə sərhədlərin açılması mümkünsüzdür. Türkiyədə əhalinin 99 faizi belə düşünür. Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) sədri Qüdrət Həsənquliyevin fikrincə isə məhz Azərbaycan və Türkiyə ictimaiyyətinin təpkiləri nəticəsində qardaş ölkənin hökuməti sərhədləri açmaq fikrindən geri çəkildi: "Lakin bu təhlükə hələ də qalmaqdadır. Beynəlxalq təzyiqlər nəticəsində bu məsələ yenidən gündəmə gətirilə bilər".

Daha sonra hər iki dövlətin millət vəkilləri jurnalistləri maraqlandıran sualları cavablandırdılar. Ş. Ələkdağ vurğuladı ki, soyqırım iddiası irəli sürmək üçün bütün sübutları ortaya qoymaq və bunu beynəlxalq hüquqa uyğun şəkildə tələb etmək lazımdır: "Azərbaycanlılar da Xocalı soyqırımının beynəlxalq aləmdə tanınması üçün belə etməlidirlər". Keçmiş diplomat bu vaxta qədər Türkiyə parlamentində Xocalı soyqırımına hüquqi qiymət verilməməsinə də aydınlıq gətirdi. Dedi ki, məhkəmə qərarı olmadan hər hansı hadisənin soyqırım kimi qəbul edilməsi cəfəngiyatdır. Beynəlxalq təşkilatlar, o cümlədən Ermənistanın işğal olunmuş Azərbaycan torpaqlarının boşaldılması ilə bağlı qəbul etdiyi qətnamələri yüksək qiymətləndirən Ş. Ələkdağ onların yerinə yetirilməsi istiqamətində addımların atılmasının zəruriliyini diqqətə çatdırıb: "Məhz bu nöqtədən hərəkətə keçmək lazımdır. BMT Baş Assambleyası Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyətə dair qətnamələr qəbul edərkən ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri olan Rusiya, Fransa və ABŞ da bu sənədlərin əleyhinə səs verib". Bu səbəbdən də millət vəkili Qarabağ münaqişəsinin həllində Minsk Qrupundan nəticə gözləyə bilmədiklərini vurğuladı. Hazırda sərhədlərin bağlı qalması ilə Türkiyənin Ermənistana iqtisadi təzyiqi davam edir. İndiki halda sərhədlər açılsa isə bu, silahlı münaqişəyə səbəb ola bilər. O, Azərbaycanı SSRİ dağıldıqdan sonra müstəqillik qazanan ölkələr arasında ən inkişaf etmiş dövlət kimi də qiymətləndirdi.

Azad Əliyev

“Həftə içi”.-2009.-17 aprel.-N.65.-S.3.

Ankarada Xocalı soyqırımı qurbanlarına abidə ucaldılacaq

Bəypazarın ən gözəl küçələrindən biri "Azərbaycan" adını daşıyacaq

Ankaranın Bəypazarı bələdiyyəsində Xocalı soyqırımı qurbanlarının xatirəsinə abidə qoyulacaq. Türkiyədə səfərdə olan Azərbaycanın qadın millət vəkilləri ilə görüşündə deputat Qənirə Paşayevanın bununla bağlı təklifi bələdiyyə sədri tərəfindən müsbət qarşılanıb.

Ermənistanın işğal etdiyi Xocalı şəhərində azərbaycanlılara qarşı törətdiyi soyqırımı barədə ətraflı məlumat verən Qənirə Paşayeva Bəypazarı da daxil olmaqla, Türkiyə bələdiyyələrinin bu soyqırımını rəsmi tanımasının vacibliyini vurğulayıb. Bəypazar bələdiyyəsinin sədri bu fikirlə razılaşaraq deyib ki, yaxın günlərdə bələdiyyə tərəfindən Xocalı soyqırımının tanınması və soyqırımı abidəsinin qoyulması reallaşdırılacaq. O, deputatın digər təklifinə - Türkiyənin tarixi Bəypazarı bölgəsinin mərkəzi küçələrindən birinə "Azərbaycan" adının verilməsinə də müsbət münasibət bildirib. Dediyinə görə, yaxın günlərdə Bəypazarın ən gözəl küçələrindən biri "Azərbaycan" adını daşıyacaq.

Bələdiyyə sədri Azərbaycanı çox sevdiklərini, dost, qardaş Azərbaycanla münasibətlərin ən yüksək səviyyədə inkişafında maraqlı olduqlarını vurğulayıb. O, Türkiyənin müxtəlif bölgələri ilə Azərbaycanın bölgələri arasında əməkdaşlığın genişləndirilməsinin vacibliyini də qeyd edib.

Q. Paşayeva Azərbaycanın bəzi bölgələrinin Türkiyənin bəzi bölgələri ilə qardaşlaşdığını deyib, Tovuz rayon bələdiyyəsi ilə Ankaranın Keçiörən bələdiyyəsinin qardaşlaşmasını nümunə göstərib. O, Bəypazarı bələdiyyəsi ilə Tovuz rayon bələdiyyəsinin və Azərbaycanın digər bələdiyyələrinin qardaşlaşmasını da təklif edib, bunun əlaqələrin və əməkdaşlığın daha da genişlənməsinə müsbət təsir göstərəcəyini bildirib (APA). Bəypazarı bələdiyyəsinin sədri bu fikri çox müsbət qarşılayıb, təklifin reallaşması üçün tərəflərin səyləri gücləndirməsinin zəruriliyini qeyd edib.

Qeyd edək ki, Bəypazarı Türkiyənin, eləcə də Ankaranın tarixi, turistlərin və yüksək səviyyəli qonaqların ziyarət etdiyi yerlərindəndir.

“Ekspress”.-2009.-22 aprel.-N.67.-S.3.

"Xocalıda və digər yerlərdə ermənilərin törətdiyi cinayətlərin videogörüntülərini izləmişəm"

İKT baş katibinin müavini təşkilatın sülhməramlı kontingentinin yaradılmasını arzu olunan hesab edir

"Erməni işğalı zamanı törədilən Xocalı faciəsi İslam Konfransı Təşkilatı rəhbərliyinin diqqətindədir".

APA-nın məlumatına görə, bu sözləri İslam Konfransı Təşkilatı (İKT) ölkələri hüquq-mühafizə orqanları rəhbərlərinin konfransının yekunlarına həsr olunmuş mətbuat konfransında İKT baş katibinin siyasi məsələlər üzrə müavini İzzət Kamil Müfti deyib. O bildirib ki, təşkilat Ermənistan hərbi birləşmələrinin Azərbaycan ərazilərini işğal etməsi faktından xəbərdardır: "Azərbaycanın bizə əziz olan torpaqlarının işğalı İKT-nin bütün toplantılarında müzakirə mövzusudur. Mən bu barədə müəyyən əlavə məlumlara malikəm. Xocalıda və digər yerlərdə ermənilərin törətdiyi cinayətlərin videogörüntülərini də izləmişəm". İ. K. Müfti qeyd edib ki, işğal faktı da cinayətin növlərindən biridir. İKT-yə üzv olan bəzi ölkələrin işğalçı Ermənistanla isti əlaqələrinin mövcudluğuna da toxunan baş katibin müavini bu halın arzuolunan olmadığını vurğulayıb: "Bu ölkələr İKT-nin Azərbaycan torpaqlarının işğalı ilə bağlı qərarına riayət etmirlər. Hesab edirik ki, digər dövlətlərin birgə fəaliyyəti nəticəsində biz bu cür ölkələri Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşmağa çağıra bilərik. İKT-nin bu məsələdə təzyiq mexanizminə ehtiyacı var".

Onun fikrincə, qurumun sülhməramlı kontingentinin yaradılması arzuolunandır. Onun sözlərinə görə, bunun üçün imkanlar, zəruri addımlar və birgə fəaliyyətə ehtiyac duyulur. Baş katibin müavini bildirib ki, bu məqsədlə BMT-nin qərarına ehtiyac var. Mütəşəkkil cinayətkarlıqla mübarizə məqsədilə beynəlxalq mərkəzin yaradılmasına da münasibət bildirən Müfti bu təklifin dünyanın böyük dövlətləri tərəfindən dəstəklənmədiyini qeyd edib: "Mütəşəkkil cinayətkarlıqla mübarizə üzrə beynəlxalq mərkəzin fəaliyyəti bəzi böyük dövlətlərin cinayətkarlığı dəstəkləməsini üzə çıxara bilər. Hesab edirəm ki, mərkəzin fəaliyyəti yalnız müsəlman ölkələrini əhatə etməməlidir".

Qeyd edək ki, belə bir tək-liflə İKT-nin 2006-cı ildə Ər-Riyadda keçirilən konfransında Səudiyyə İzzət Kamil Müfti və Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov iki günlük konfransın yekunlarına dair qəbul olunan Bakı bəyannaməsinin əhəmiyyətindən danışıblar. X. Xələfov deyib ki, konfrans transmilli və mütəşəkkil cinayətlərə qarşı mübarizədə mövqelərin birləşdirilməsinə, əməkdaşlığın inkişaf etdirilməsinə kömək edəcək. O, qəbul olunan bəyannamədə bu məsələlərin geniş yer aldığını söyləyib. Nazir müavini bunun işin başlanğıcı olduğunu, qəbul olunan sənəd tövsiyə xarakteri daşıdığını qeyd edib: "Buna əsaslanan fəaliyyət mexanizmi yaradılarsa, nəticə əldə edilə bilər".

X. Xələfov İran nümayəndə heyətinin konfransda İKT Hüquq Mühafizə Orqanlarının Əməkdaşlıq Mərkəzinin yaradılması təklifi ilə çıxış etdiyini də deyib. XİN rəsmisi bu təklifin müsbət qarşılandığını, lakin qurumun yaradılması üçün davamlı fəaliyyətin vacibliyini vurğulayıb.

İ. K. Müfti isə konfransı İKT-yə üzv ölkələrin cinayətkarlıqla birgə mübarizə aparması üçün atdığı ilk addım hesab edib: "Toplantı ölkələrin fəaliyyətlərinin əlaqələndirməsinə xidmət edəcək. Birgə fəaliyyət olmasa, mütəşəkkil cinayətkar şəbəkələrin qarşısını almaq mümkün olmayacaq. Çünki cinayət vətəni, milliyyəti olmayan məfhumdur".

Azərbaycanın 20 faizdən çox ərazisinin Ermənistan tərəfindən işğal faktının bəyannamədə yer almamasının səbəbi barədə sualı cavablandıran X. Xələfov deyib ki, silah satışı, narkotik və psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi, mütəşəkkil cinayətkarlıqla mübarizə məsələsi qlobal xarakter daşıyır: "Ermənistanın Azərbaycan ərazilərini zəbt etməsi işğalla yanaşı, mütəşəkkil cinayətkarlığın inkişafına təkan verir. Adətən işğal altında olan ərazilər dövlət nəzarətindən kənarda qalır, burada terror şəbəkələri arasında sövdələşmə həyata keçirilir. Bu kimi halların qarşısının alınması üçün isə beynəlxalq səylərə ehtiyac duyulur. Terrorizmi yaradan amillər də buradan bəhrələnir və bu tip rejimlər tərəfindən həyata keçirilir. Toplantıda təklif olunub ki, İKT çərçivəsində bu məsələdə həmrəylik nümayiş olunsun. Çünki bəzi İKT dövlətləri işğalın qurbanına çevrilib. Onların ərazilərində separatçı qurumlar fəaliyyət göstərir". Nazir müavini işğal faktı ilə bağlı məqamın yekun sənəddə ümumi şəkildə qeyd olunduğunu vurğulayıb.

"Paritet"-2009.-23-24 aprel.-№42.-S.1,6

Tanınmış jurnalist Tatyana Çaladzenin "Qarabağ Soyqırımı: məhkum olunmuş Xocalı" kitabının təqdimatı olmuşdur

Aprelin 29-da Milli Təhlükəsizlik Nazirliyinin Mədəniyyət Mərkəzində Azərbaycanda yaxşı tanınan, xalqımızın və ölkəmizin böyük təəssübkeşi, jurnalist Tatyana Çaladzenin rus dilində yeni çapdan çıxmış "Qarabağ Soyqırımı: məhkum olunmuş Xocalı" kitabının təqdimat mərasimi keçirilmişdir.

Milli Təhlükəsizlik Nazirliyinin dəstəyi ilə nəşr olunan bu kitabda ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər barədə geniş faktlar öz əksini tapmışdır.

Təqdimat mərasimindən əvvəl müəllif Tatyana Çaladzenin Qarabağdakı jurnalistlik fəaliyyətinə həsr edilən və Türkiyənin TRT kanalında nümayiş olunan sənədli film nümayiş etdirilmişdir. Filmdə Qarabağda baş verən faciələri və döyüş səhnələrini gözləri ilə görən jurnalist Azərbaycan həqiqətlərini dünyaya necə çatdırmasından danışır.

Daha sonra kitabın müzakirəsi olmuşdur. Qeyd edilmişdir ki, kitabda təkcə Xocalı faciəsi deyil, ümumilikdə Qarabağda baş verən hadisələr barədə geniş faktlar toplanmışdır.

Milli Təhlükəsizlik Nazirliyi xidmətinin rəhbəri, general-mayor Fərhad Vahabov, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla iş üzrə Dövlət Komissiyasının katibi Şahin Sailov, BDU-nun professoru Musa Qasımlı, Azərbaycan Milli Elmlər Akademiyası İnsan Hüquqları İnstitutunun şöbə müdiri Araz Qurbanov və digər çıxış edənlər kitabın Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında əhəmiyyətindən danışmışlar. Vurğulanmışdır ki, bu kitab ermənilərin uydurma soyqırımı təbliğatlarına qarşı tutarlı cavabdır.

Kitab Milli Təhlükəsizlik və Daxili İşlər nazirlikləri, eləcə də Baş Prokurorluğun birgə istintaq-əməliyyat qrupunda, Dövlət Komissiyasında toplanılmış materiallar əsasında hazırlanmışdır. Bu nəşr Dağlıq Qarabağ, 20 Yanvar, Sumqayıt hadisələri barədə şahid ifadələrinin toplanması, Qarabağ həqiqətləri barədə araşdırma aparan gənc tədqiqatçılar, alimlər üçün əyani vəsait rolunu oynaya bilər. Tədbirdə kitabın Azərbaycan dilinə, eləcə də bir sıra əcnəbi dillərə tərcümə olunması təklif olunmuşdur. Latviya parlamentinin keçmiş deputatı Yuris Kayas kitabın latış dilinə tərcüməsinə və nəşrinə dəstək verəcəyini bildirmişdir.

Tatyana Çaladze isə Azərbaycanın Ermənistanın təcavüzünün aradan qaldırılması istiqamətində ədalətli mübarizəsində hamını bir olmağa çağırmışdır.

Kitabda ilk dəfə olaraq həm istintaq materialları, həm də son dərəcə məxfi sənədlər yer almışdır.

Kitabın baş məsləhətçisi milli təhlükəsizlik naziri, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla iş üzrə Dövlət Komissiyasının sədri Eldar Mahmudov, məsləhətçisi isə Azərbaycan Respublikası Prezidentinin müdafiə məsələləri üzrə köməkçisi Vahid Əliyevdir.

AzərTAc.

“Azərbaycan”.-2009.-30 aprel.-№92.-S.5

Müsəlman dünyasından Obamaya Xocalı çağırışı

İslam Konfransı Gənclər Forumu ABŞ prezidentini bu qətliama qiymət verməyə çağırdı

Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumu (İKGF) ABŞ prezidenti Barak Obamanın 1915-ci il aprelin 24-də baş vermiş hadisələri "böyük fəlakət" adlandırması ilə bağlı bəyanatla çıxış edib. İKGF-dən APA-ya daxil olan məlumatda bildirilir ki, ABŞ prezidentinin müsəlman xalqlarının tarixini ləkələyən, xüsusilə tarixdə böyük nailiyyətlər əldə etmiş Osmanlı sivilizasiyasını qaralayanların mövqeyinə şərik çıxması, o cümlədən İslam Konfransı Təşkilatı məkanında yaşayan müsəlmanların üzləşdiyi humanitar faciələrə etinasız münasibət göstərməsi müsəlman dünyası ilə qurulan həssas dialoqa mənfi təsir göstərə bilər.

İKGF ABŞ prezidentinə 1915-ci il hadisələrinin obyektiv araşdırılması üçün ekspertlərdən ibarət beynəlxalq komissiyanın yaradılması təklifi ilə müraciət edib. "Müsəlman gənclərinin prezident Barak Obamaya müraciəti" adlı məktubda yaradılması təklif olunan komissiyanın "İKT ölkələrində humanitar faciələrin qurbanlarının Xatirə Günü" proqramı çərçivəsində Der-Yasin (Fələstin), erməni hərbçilərinin Vanda (Türkiyə) qətlə yetirdiyi türklər və kürdlərin, Setif və Quelma (Əlcəzair), Muratağa-Sandallar və Xocalıda (Azərbaycan) dinc əhalinin öldürülməsi ilə bağlı faktları da araşdırması təklif edilir: "İKGF ABŞ prezidentinin belə bir təşəbbüslə çıxış etməsini XX əsrdə müxtəlif millətlərdən olan müsəlman xalqlarının üzləşdiyi humanitar faciələrə obyektiv yanaşmanın təzahürü kimi qiymətləndirərdi".

Müraciət İKGF-nin saytında (www.icyf-dc.org) yerləşdirilib və 2 ay müddətində bu müraciətə qoşulanların siyahısı bəyanatla birgə diplomatik kanallar vasitəsilə Ağ Evə çatdırılacaq. İmzatoplama prosesində "Xocalıya ədalət", 1915-ci il həqiqətləri" və "Bosniyadakı soyqırımı tanı" beynəlxalq kampaniyaların iştirakı gözlənilir.

Xəbər xidməti

"**Yeni Müsavat**". - 2009. – 30 aprel. - № 108. - S. 8.

"Qarabağ genosidi: məhkum Xocalı"

Kiçikdən-böyüyə bu torpaqda doğulan hər bir türk övladının qəlbində bir yara var: Xocalı yarası. Onu heç nə sağalda bilməz. Bu ağrı-acı əsrlər ötsə, nəsillər dönə-dönə dəyişsə də, azalmayacaq. Nə qədər ki sənədlər, faktlar dil açıb danışacaq, bu faciənin böyüklüyü daha qabarıq görünəcək.

"Bu gün şəhər yandırılmış və dağıdılmışdır, hələ də erməni separatizmlərinin hərbi qüvvələrinin işğalı altındadır. Əhalinin, ölümdən bir möcüzə nəticəsində xilas olmuş hissəsi öz ölkəsində qaçqın və məcburi köçkündür. Bu iki ifadə arasında fərq nədən ibarətdir? Hüquqi cəhətdən fərq olsa da, bəs yurd-yuvasından zorla qovulmuş insanlar üçün fərq nədədir? Xocalılılar hələ də kim olduqlarını bilmirlər: qaçqın, yaxud məcburi köçkün? Sadəcə, özlərini belə adlandırırlar — sağ qalmışlar..."

Jurnalist Tatyana Çaladzenin müəllifi olduğu "Qarabağ genosidi: məhkum Xocalı" kitabının "Bu genosiddir" adlı ön sözündən götürülmüş bu ifadələr verilən sual üzərində bizim hər birimizi düşündürməlidir. Düşünmək, olanlardan lazımi nəticə çıxarmaq üçün isə vərəqlədiyimiz kitabda müəllifin bütün bəşəriyyətə ünvanladığı suallar çoxdur...

Erməni vəhşiliklərinin daha bir əyani sübutu olan bu sənədli xronikanın baş məsləhətçisi Azərbaycan Respublikasının hərbi əsrlər, girov götürülmüş və itkin düşmüş vətəndaşlarla iş üzrə dövlət komissiyasının sədri, milli təhlükəsizlik naziri Eldar Mahmudov, məsləhətçisi Azərbaycan Respublikası Prezidentinin müdafiə məsələləri üzrə köməkçisi Vahid Əliyevdir.

Tatyana Çaladze kimdir? Şəhriyar adına mədəniyyət sarayında kitabın təqdimat mərasiminə toplaşanlara təqdim olunan qısa süjetli film bu suala cavab tapmağa köməkçi oldu...

Bu torpaqda doğulmasa da, özünü bu torpağın vətəndaşı, bu torpağı özünə Vətən sayan Tatyana Çaladze jurnalistdir. 17 il öncə, 1992-ci il-də onu Pribaltikadan, — Latviyadan Azərbaycana çəkib gətirən də adi jurnalist marağı olmuşdu. O vaxt çalışdığı "Baltiyskoye vremya" qəzetinin səhifələrində biri-birinin ardınca yazılar çıxırdı. Bu yazılarda Azərbaycan əleyhinə nələr yazılmırdı? Oxuyan hər kəs dünyanın "ən qəddar, amansız, xalqının" törətdiklərindən dəhşətə gəlirdi. Bu, həqiqətən belə idimi? Yazıları son dərəcə diqqətlə oxuyub özündə təhlillər aparan Tatyana Çaladze onların müəlliflərinin səmimiyyətinə inanmır, yazıların sifariş və qərəzlə hazırlandığı qənaətinə gəlirdi. Məsələnin mahiyyətində nə durur, həqiqət kimin tərəfindədir? Suala cavab tapmaq üçün Azərbaycana gəlir, döyüş bölgəsinə: çoxlarını əjdaha kimi udan Ağdərəyə gedir: "Burada gördüklərim məni dəhşətə gətirdi, damarlarımda qanım donmuşdu sanki. Belə də faciə olar? Öz doğma torpağında öldürüləsən, özü də azərbaycanlı olduğun üçün? Silahsız, günahsız... Bu, mənim üçün həqiqət anı idi..." Oradan qayıdanda ilk yazdığı, ilk söylədiyi fikirlər bu oldu. Elə o andan da həqiqət naminə mübarizəyə başladı, vicdanının səsi ilə torpaq uğrunda döyüşənlərin yanında oldu, qələmini süngü etdi, yaralandı, hədələrə, təzyiqlərə, sui-qəsdə məruz qaldı. Susmadı, o, həqiqətin səsi oldu.

Tatyana Çaladze danışır, göz yaşlarını güclə boğur, 17 il əvvəl yaşadıqlarını təkrar-təkrar xatırlamaq çox ağırdır: "O vaxtlar çətin idi, orduda heç nə tapılmırdı, ermənilərin hücumları çox güclü olurdu, "heç nəyi əsirgəmirdilər", mərmi, güllə yağış kimi yağırdı. Azərbaycan oğulları mərdliklə müdafiə olunurdular, sinələrini sipər edirdilər. Mən bir həqiqətin şahidi oldum: Allah gücün yox, həqiqətin tərəfindədir. Onlar müqəddəs Vətən torpağını, Vətən torpağı isə onları qoruyurdu..."

Filmin ürək ağrıdan, insanı dəhşətə gətirən kadrları sona çatır... Sonra kitabın geniş təqdimatı başlanır. BDU-nun professoru Musa Qasımlı Tatyana Çaladzenin xidmətlərini yüksək qiymətləndirərək deyir: "Arxiv materialları əsasında hazırlanmış bu kitab "erməni genosidi" deyib bar-bar bağıranlara tutarlı bir cavabdır.

Hüquq elmləri doktoru Kamil Səlimov kitabın əhəmiyyətindən danışdı:

"Bu kitabın dəyəri böyükdür, çünki oraya ürəklərimizin ağrısı hopub. Ağrımız isə ölçüyəgəlməzdir. Milli Təhlükəsizlik Nazirliyinin dəstəyi ilə nəşr olunmuş kitabın bir dəyəri də onun "səngərdən-arxivədək" yol keçməsidir. Tatyana Çaladze ürəyinin hərarəti, xalqımıza məhəbbəti ilə yazıb onu".

Azərbaycan MEA İnsan Hüquqları İnstitutunun şöbə müdiri Araz Qurbanov kitabın faktların zənginliyi baxımından dəyərli bir mənbə olduğunu qeyd edərək dedi: "Ermənilərin azərbaycanlılara qarşı vəhşiliyi təkcə Xocalı faciəsi ilə bitmir. Bu vəhşiliyin formaları müxtəlifdir. Buradakı faktların bolluğu ermənilərin özünə qarşı mübarizə üçün kifayət qədər zəmin yaradır. Onun müxtəlif dillərə tərcümə olunub yayılması zəruridir. Milli Təhlükəsizlik Nazirliyinin millətimizin sabahı naminə araya-ərsəyə gətirdiyi kitab bu baxımdan da dəyərlidir ".

Tatyana Çaladzenin cəbhə yoldaşı Fatimə İbrahimova onunla birgə döyüşdüyü 741 saylı döyüş briqadasının keçdiyi çətin və şərəfli yoldan danışdı, kitabın müəllifinə onları əbədiləşdirdiyi üçün minnətdarlığını bildirdi. Digər çıxış edənlər qəlbən, ruhən azərbaycanlı olan və Azərbaycan üçün təmənnasız xidmətlər edən Tatyana Çaladzeyə bu yolda uğurlar dilədilər.

Sonda Tatyana Çaladzeyə söz verildi. O, dedi: "Mən Azərbaycanın haqq işi uğrunda mübarizə apardığına inanır və bu yolda nəsə etmək istəyirdim. Döyüşlərdə insanın son ümid yeri torpaq olur, onun qoynuna uzanıb döyüşür, ondan güc alır. Bu torpaq mənim üçün Vətənə çevrildi. Hərdən qəribə hisslər keçirirəm. Qarabağı azad görmədən ölməyə haqqım yoxdur. Qələbəyə inanıram. Ölkə başçısı İlham Əliyevin bu istiqamətdəki fəaliyyəti hər kəsdə buna əminlik yaradır".

Zümrüd ABDULLAYEVA.

“Respublika”.- 2009.-1 may.- № 93.- S. 5.

Xocalı Səhər Məhkəməsi Xocalı faciəsi barədə hökm çıxara bilər

Kərim Kərimli: "Bu məhkəmə Xocalı faciəsinə hüquqi qiymət verməlidir"

Xocalı soyqırımının tanınması istiqamətində son illər həm dövlət, həm də ictimai resurslar səfərbər edilib. Xarici ölkələrdəki Azərbaycan diasporunun qarşısında duran ən mühüm vəzifələrdən biri də ermənilərin Xocalıda törətdiyi kütləvi qətliamı dünyaya tanıtmaq və qəbul etdirməkdir.

Bunu bir fakt kimi sübut etmək üçün kifayət qədər canlı şahid. o cümlədən zərərçəkmişlər, videoçəkilişlər və sairə var. Soyqırımın təşkilatçıları və icraçılarının adları da məlumdur. 600 nəfərdən artıq dinc insanın, həmçinin körpə uşaqların bir gecədə kütləvi şəkildə və xüsusi amansızlıqla qətlə yetirilməsində, 100-lərlə insanın yaralanaraq şikəst edilməsində iştirak edən Robert Köçəryan, Serj Sarkisyan sonradan Ermənistanda hakimiyyət başına gəldilər. Qətliamın birbaşa icraçısı olan Seyran Ohanyan isə hazırda Ermənistanın müdafiə naziridir. Bütün bunlar real faktlar olsa belə, hələ də öz hüquqi qiymətini almayıb. Azərbaycan Respublikası Baş Prokurorluğunda 1992-ci il fevral ayının 25-dən 26-a keçən gecə Xocalı şəhərində törədilmiş soyqırım faktı ilə bağlı cinayət işi açılıb və bu qətliamın təşkilatçılarından bir neçəsi beynəlxalq axtarışa da verilib. Amma əldə olan bütün dəlil-sübutları ilə yanaşı, həmin canilər barəsində bir məhkəmə qərarı belə yoxdur. Ötən tarix də sübut edir ki, bu sayaq hadisələrin cinayət, xüsusilə də soyqırım olduğunu hüquqi cəhətdən təsdiqləmək üçün mütləq məhkəmə qərarı olmalıdır. Yəhudilərin soyqırıma məruz qaldığını dünyaya, hətta onların düşmənlərinə də qəbul etdirməsində alman faşistlərinə qarşı Nürnberq Məhkəməsinin çıxardığı hökmün mühüm rolu oldu. Slabodan Miloşeviçin Bosniya-Hersoqovinada, Kosovoda tərətdiyi qətliamların soyqırımı olduğunu Beynəlxalq Haaqa tribunalı da təsdiqlədi. Azərbaycanda buna oxşar fakt 1990-cı il yanvar ayının 20-də dinc sakinlərin qırğınına göstəriş verdiyinə görə Sov.İKP MK-nın baş katibi Mixail Qorbaçov barəsində İsmayıllı Rayon Məhkəməsinin sədri işləyən Tahir Kərimlinin ölüm hökmü çıxarması idi. İcrası mümkün olmadığı üçün, bəzən bu hökmü şərti məhkəmə də adlandırırlar. Nə qədər qiyabi də olsa, məhz T.Kərimlinin Qorbaçov barəsində çıxartdığı məhkəmə hökmü 20 yanvar faciəsinin qanunazidd bir cinayət əməli olduğunu sübut edən hüquqi sənəd hesab oluna bilər. Azərbaycan dövləti və ya 20 yanvar qırğınından zərərçəkənlər beynəlxalq məhkəmədə M.Qorbaçova qarşı iddia qaldırsalar, İsmayıllı Rayon Məhkəməsinin qərarını hüquqi sənəd kimi təqdim etmək imkanına malikdirlər. Xocalı sakinləri və erməni işğalı nəticəsində didərgin düşmüş qaçqın və məcburi köçkünlərin də bir qismi Avropa İnsan Haqları Məhkəməsinə müraciət edib. Amma Avropa İnsan Haqları Məhkəməsinin bu şikayətə nə vaxt və necə baxacağı, hansı qərarı çıxaracağını dəqiq söyləmək çətindir. Ona görə də yerli məhkəmə instansiyası tərəfindən baş vermiş cinayət faktını təsdiqləyən xüsusi qərar çıxarılarsa, bu, beynəlxalq məhkəməyə müraciət etmək üçün güclü hüquqi sənəd olar. Gerçəklik isə belə bir məhkəmə qərarının olmamasıdır.

Azərbaycan Məcburi Köçkünlər Birliyinin sədri Kərim Kərimli hesab edir ki, Xocalı faciəsilə əlaqədar bütün işlər natamamdır: "Xocalı mövzusu ilə bağlı Azərbaycan dövlətinin nə istədiyi yaxın, orta və uzaq məqsədli plan əsasında müəyyənləşməlidir. Bir neçə il öncə Xocalı soyqırımı barədə Milli Məclis tərəfindən bir sənəd qəbul olunmuşdu ki, orada daha çox cinayətkar kimi azərbaycanlıların adları çəkilirdi. Qətliamı törədən bir çox ermənilərin adları həmin sənəddə yox idi. Halbuki, bu cinayəti törədənlərin kimliyi bəllidir. Mənim müəllifi olduğum "Xocalı: Vəhşi əsrin vəhşi əsəri" adlı kitabda erməni əsirliyində vəhşiliyə məruz qalmış adamlar konkret ad çəkərək danışırdılar. Onlar bildirirdilər ki, əllərini, ayaqlarını kimlər kəsib, sifətlərini eybəcər hala kimlər salıb. Xocalı sakini Cəmil Məmmədov bildirirdi ki, Əsgəran rayonunda Yanğından Mühafizə İdarəsinin rəisi işləyən Karo adlı erməni kəlbətinlə onun dişlərini bir-bir qoparıb, sonra onu döyərək ayaqlarını sındırıb. Bu faktların hamısı istifadə olunası şahid ifadələridir. Mənim fikrimcə, bu cinayət hadisəsi Azərbaycan Respublikasının ərazisində baş verdiyi üçün və həm zərərçəkmiş tərəfin, həm də cinayətin təşkilatçı və icraçılarının bəziləri həmin vaxt Azərbaycan vətəndaşı olduğuna görə bu işə Xocalı Səhər Məhkəməsi də baxa bilər. Hazırda Şuşa və Xocalı şəhər məhkəmələri birgə fəaliyyət göstərir. Yəni bu məhkəmə Xocalı faciəsini araşdırmalı və hüquqi qiymət verməlidir. 17 ildə Xocalı məhkəməsi bu məsələyə baxmayıbsa, bu, ən azı, cinayəti görə-görə susmaqdır. Digər problem təqsirləndirilən şəxslərin məhkəmə prosesinə gətirilməsidir. Məncə, Azərbaycan dövlətinin bunu təmin etməyə gücü çatar. Azərbaycan Respublikası hüquq-mühafizə orqanlarının ixtiyarı var ki, ölkəmizin ərazisində axtarış-əməliyyat tədbirləri həyata keçirərək cinayətdə suçlu bilinən şəxsi şahid ifadələri və yaxud məhkəmənin hökmü əsasında həbs etsin. Mən 1998-ci ildə İrəvanda olarkən Ermənistan prezidenti Robert Köçəryana dedim ki, vaxt gələcək, sizi həbs edib Bakıda dəmir barmaqlıqlar arasında Əlikram Hümbətov kimi mühakimə edəcəyik. Köçəryan da kinayə ilə soruşdu ki, niyə indi həbs etmirsiniz? Cavab verdim ki, siz BMT-nin üzvü olan müstəqil dövlətin prezidentisiniz, bu mümkün deyil. O da gülümsəyərək cavab verdi ki, yenə Ermənistan prezidenti seçilməsəm, çalışaram başqa dövlətin

prezidenti olum ki, toxunulmazlıq statusu əldə edim və məni həbs edə bilməyəsiniz. Serj Sarkiyanı, yaxud Seyran Ohanyanı həbs etmək indi çətin olsa da, konkret adamlar konkret maddələrlə mühakimə olunmalıdır. Həmin adamlar Azərbaycan ərazisində terror, qətliam törədiblər və Cinayət Məcəlləsinin ən ağır maddəsilə mühakimə oluna biləcək adamlardır. Bu məqsədlə İnterpolun da xidmətindən istifadə etmək olar. Hətta tam mümkün olmasa da, bu bir aksiyadır və onu həyata keçirmək lazımdır".

Müşfiq VAHİDLİ

"**Bakı xəbər**" -. 2009 – 7 may. - №96. - S. 10.

ABŞ Konqresmeni: Xocalı - soyqırımıdır

Ermənilərin Xocalıda törətdiyi qanlı faciənin 17-ci ildönümü bütün dünyada qeyd edilmişdir.

ABŞ Konqresində Azərbaycan üzrə işçi qrupunun fəal üzvlərindən biri Ed Uitfild fevralın 26-da Xocalı faciəsinin 17-ci ildönümü ilə bağlı bəyanat vermişdir. Nümayəndələr Palatasında çıxış edən respublikaçı konqresmen gələcəkdə belə qətliamların təkrar olunmaması üçün həmkarlarını Xocalı faciəsi barədə öyrənməyə və bu günü anan Amerika azərbaycanlılarına qoşulmağa çağırmışdır. O qeyd etmişdir ki, bu dəhşətli günü anmaq üçün Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" beynəlxalq məlumatlandırma kampaniyası başlanmışdır. Eyniadlı internet səhifəsindən çox lazımlı məlumatları öyrənmək olar.

Konqresmen Uitfild spiker Nensi Peloziyə müraciət edərək demişdir ki, 1992-ci il fevralın 26-da Azərbaycanın kiçik Xocalı şəhəri erməni silahlı qüvvələri tərəfindən təcavüzə məruz qalmışdır. Onlar şəhəri mühasirəyə alıb günahsız sakinlərə atəş açmışdılar. Bu qanlı hücum zamanı 2000 nəfərə yaxın insan - əsasən, qadın, uşaq və yaşlı - amansızcasına qətlə yetirilmiş, yaralanmış və ya erməni hərbi qüvvələri tərəfindən girov götürülmüşdür. Konqresmen bunu, Qafqaz və Xəzər hövzəsinin müasir tarixində ən böyük qırğın adlandırmışdır. O, "Hyuman Raytz Uotç" təşkilatı və digər beynəlxalq müşahidəçilərin rəyinə istinadən, qırğının 366-cı rus motoatıcı alayının köməyi ilə erməni hərbi qüvvələri tərəfindən həyata keçirildiyini bəyan etmişdir. Bu cinayət nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 yaşlı həlak olmuş, 1275 nəfər girov götürülmüş, 150 nəfərin isə taleyi naməlumdur.

Cənab Uitfild daha sonra qeyd etmişdir ki, vaxtilə "Nyusuik" jurnalı yazırdı: "Ötən həftə Azərbaycan yenə sərdabaya bənzəyirdi: matəm içində olan qaçqınlar və tanınmaz hala salınmış onlarla cəsədlər məscidin arxasında quraşdırılmış meyitxanaya gətirilmişdir. Onlar fevralın 25-26-da erməni qüvvələrinin hücumuna məruz qalmış Dağlıq Qarabağın Xocalı şəhərinin adi azərbaycanlı kişiləri, qadınları və uşaqları idi. Çoxlarına can qurtarmaq istəyərkən yaxın məsafədən atəş açılmış, bəzilərinin üzləri eybəcər hala salınmış, digərlərinin isə başlarının dərisi soyulmuşdur".

Amerikalı qanunverici təəssüflə bildirmişdir ki, Xocalı vəhşi qəddarlığın yalnız birinci nümunəsi idi. Xocalıda göstərilən görünməmiş amansızlıq və vəhşilik erməni qüvvələrinin müharibənin sonuna qədər dağıdıcı etnik təmizləmə üslubuna çevrilmişdir. 1993-cü il noyabrın 29-da "Nyusik" jurnalı yüksək səviyyəli ABŞ hökumət rəsmisinə istinad edərək yazırdı ki, "hazırda gördüklərimiz ermənilərin qarşısına çıxan hər bir kəndin sistematik dağıdılmasıdır. Bu, barbarlıqdır".

«Azərbaycan və dünya».-2009.-№2(20).-S.42-43.

Türk dünyasının ədibləri Haaqada Xocalı soyqırımı abidəsini ziyarət etmişlər

Ankara, 4 noyabr (AzərTAc). Türk dünyasının şair və yazıçılarından ibarət 13 nəfərlik heyət Hollandiyanın Haaqa şəhərində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət etmişlər. Ermənilərin törətdikləri qətliam qurbanlarının ruhuna dualar oxunmuşdur.

Sonra şair və yazıçılar bu abidənin ucaldılmasının təşəbbüskarı olan Azərbaycan Türk Mədəniyyət Dərnəyinə gəlmişlər. Almaniyada yaşayan şair Orxan Aras bildirmişdir ki, bu dərnəyin üzvlərinin bir çoxu Azərbaycanda olmasalar da, ürəkləri Azərbaycan sevgisi ilə doludur.

Azərbaycanın xalq yazıçısı Anar və türk dünyasının görkəmli ədibi Yavuz Bülənd Bakilər Avropanın mərkəzində bu vətənpərvər türk övladlarının fəaliyyətləri ilə fəxr etdiklərini söyləmişlər.

Oqtay Bayramov
AzərTAc-ın xüsusi müxbiri
Ankara
4 noyabr 2009-cu il

Xocalı soyqırımı

Ermənilər dinc əhalinin məhvi üçün ən qəddar üsullara əl atıblar

XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımından bizi 18 illik zaman kəsiyi ayırır. Ancaq bu qədər vaxtın keçməsinə baxmayaraq, faciənin ağrı-acısını yaşayan insanlarla söhbətləşəndə onların qaysaq bağlamış yaraları yenidən açılır. Erməni vəhşiliyinin şahidi olan qardaş, ana və bacılarımız bu haqda danışanda qəhərlənir, yenidən həmin günlərə qayıdırlar. Müharibənin öz qanunları var: döyüş gedən zaman dinc sakinlərə dəhliz verilməli, onların döyüş bölgəsindən təhlükəsiz çıxarılmaları təmin olunmalıdır.

Xocalı soyqırımı zamanı beynəlxalq konvensiyalara əməl olunmadı. Görən bir əsrdə üç dəfə yandırılan, yerlə yeksan edilən Xocalının, xocalıların günahı nə idi? Müsəlman, türk olduqlarına görəmi onları ağır işgəncələrə məruz qoydular? Yurd-yuvalarından didərgin saldılar?

Bizimlə söhbətində həmin günlərdən danışan "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyinin sədri Şamil Sabiroğlu tarixin qaranlıq məqamlarına bir daha nəzər saldı: - 1992-ci il fevralın 12-si və 16-da Rusiya prezidenti B.Yeltsin Gürcüstandakı Telavi vertolyot bazasında kurs bitirmiş erməni pilotlarına yeni və dəqiq uçuşa malik "Mi-24P" markalı hərbi vertoliyotların ayrılması barədə 7-ci ordunun komandanı, general-mayor Reuta göstəriş verdi (Telavi, "Eskadrilya" qəzeti, 20 fevral 1992-ci il). Dağlıq Qarabağ istiqamətində döyüşə hazır vəziyyətdə dayanmış vertolyotlar üçün Bakıdan 200 ton yanacaq da göndərilmişdi. Zaqafqaziya Hərbi Dairəsinin Baş Qərargahında işləyən polkovnik Raqib Mühəmmədcanov yanacağın bölünməsi və döyüş vertolyotlarına nəzarət etmək məqsədilə Xankənddəki 366-cı notoatıcı alaya ezam olundu. Tam əminliklə deyə bilərik ki, Dağlıq Qarabağ və Xocalının başına od ələyən, yaşayış məntəqələrimizi yerlə yeksan edən Gürcüstandakı Tsinxvali və Telavi vertolyot bazalarının əməkdaşları olub. Onların təlim keçdikləri pilotların maliyyə xərclərini isə Ermənistan Milli Azadlıq Hərəkatının Krasnodarda qeyri-leqal fəaliyyət göstərən "Sevan" şöbəsi ödəyib. Nə qədər qəribə olsa da, 16 pilotdan biri - Zahid Əl-Mühəmməd mənşəcə ərəb imiş. Xocalını 39, 40, 29, 17 və 45 nömrəli hərbi vertolyotlar bombalayıb. Hər atdığı bombaya görə Zahid Əl-Mühammada 280 dollar mükafat verilib. Livan müsəlmanı olan üzdəniraq "qardaşımızın" aylıq maaşı isə 4450 dollar imiş. Həmin il fevralın 28-də döyüşdə fəallıq göstərdiklərinə görə Livan müsəlmanı olan Zahid Əl-Mühammad və Primyan Suren Alekseyiviçə "Qızıl Xaç" ordeni verilir. Martın 3-də 29 nömrəli vertolyotun pilot salonunda yanğın baş verir. Nəticədə pilot Zahid Əl-Mühammad ölür, onun cəsədi sabiq müdafiə naziri S.Sərkisiyanın göstərişilə Yerevana gətirilir və Erablur hərbi qəbirstanlığında basdırılır. Bu, Dağlıq Qarabağ səmasında "vurnuxan", Xocalını viran qoyan bir pilotun taleyidir..."

Şamil Sabiroğlu daha bir maraqlı məqama toxundu. Onun sözlərinə görə, faciə gecəsi Xocalıda işlədilən zarin və zoman qazlarından, fosgendən istifadə nəinki insanlara, həm də faunaya da ciddi zərbə endirib. Yerevan toksikoloji mərkəzindən 1996-cı il iyulun 14-də Xankəndinə gələn qrupun başçısı Faina Melikyants ölkənin müdafiə naziri S.Sarkisyana (169/024-1002-9.İ) göndərdiyi məktubda qeyd edir (tərcümə): "...Xocalı ərazisində apardığımız elmi tədqiqatlar və araşdırmalarımızın nəticələri qənaətbəxş deyil. Xocalı ərazisindən götürülən əsir uşaqlara gəlincə, onların təqribən 9 faizinin dalaq və qaraciyərləri sıradan çıxıb... Zəhərli qazlardan istifadə isə uşaqların baş-beynini iflic edir...". Erməni həkiminin qeyd etdiyi 9 faizin içərisində 16 nəfər 9-10 yaşlı qızların taleyi artıq bəlli idi. Belə ki, ölümə məhkum olmuş qızların artıq dünyanın bir sıra elmi-tədqiqat institutlarının mikrobiologiya və virusologiya institut və yaxud şöbələrinə göndərilməsi qərara alınmışdı. Məlumata görə, sınaq və təcrübə mənbəyi kimi bu qızlardan 4-ü Fransaya, 6-sı Argentinaya, 2-si Suriyaya, 1-i Yerevana, 2 nəfəri Almaniyaya aparıldı... Həkim Faina Melikyants Ermənistan MN BQ-na, polkovnik Tiqran Lazareviç Adamyana yazır: "...Mən öhdəmə düşən məsələni həll etdim...." (Moskva toksikoloji mərkəzlə-Yerevan toksikoloji mərkəzin yazışması: "Vestnik-zdorovye"-1996).

Şamil Sabiroğlunun sözlərinə görə, artıq 4 ay idi ki, Xocalı şəhəri, Xocavənd rayonunun Qaradağlı, Əmiralılar kəndləri, Ağdərə rayonunun Umudlu, İmarət-Qərvənd kəndləri, Şuşa rayonunun Malıbəyli, Quşçular kəndləri Ermənistan silahlıları tərəfindən hərtərəfli mühasirəyə alınmışdı: "Daşnaqların bir planı vardı: nəyin bahasına olursa-olsun Azərbaycanın əzəli və əbədi torpaqlarını ələ keçirmək. Azərbaycan Ali Sovetinin iclasında deputatlardan biri keçmiş prezident A.Mütəllibovdan soruşdu: "Şuşanın, Xocalının toxunulmazlığına, təhlükəsizliyinə təminat olacaqmı, olacaqsa necə?" A.Mütəllibov belə cavab verdi: "Bu sualın cavabını bilsəydim, özümü dünyanın ən xoşbəxt adamı hesab edərdim". 1992-ci il fevralın 20-si və 21-də Azərbaycan Təhlükəsizlik Şurasının iclası keçirilmişdi. Müzakirə olunan məsələlərə qeyri-ciddi münasibət bildirilmiş, bir sutka ərzində Umudlu kənd əhalisinin köçürülməsi və Gəncə şəhərində müvəqqəti məskunlaşmaları barədə qərar qəbul olunmuş, daxili işlər naziri Tofiq Kərimov bu işə məsul şəxs qeyd edilmişdi. Şuranın iclasının protokolunda Xocalı şəhər əhalisinin qalması, köçürülməsi barədə bir kəlmə də olsa qeyd edilməyib. Erməni daşnaqları öz din qardaşlarının köməyilə Xocalını yerlə yeksan etdilər. Körpə uşaqları, hamilə qadınları ZTR-

lərin, PDM-lərin təkərləri altında qoyub əzdilər. Bir qayda olaraq qadınların sırğalarını qulaqlarından ət qarışıq qoparıblar, üzük olan barmaqlarını kəsiblər. Körpə uşaqların, hərbçilərin və şübhələndikləri kişilərin əksəriyyətinin başlarını erməni qəbiristanlığında qurbanlıq kimi kəsiblər. Xocalının sabiq icra başçısı Elman Məmmədov deyirdi ki, "Xocalı genosidində birbaşa günahkarlar onu əvvəlcədən planlaşdırıb həyata keçirən ermənilər, bu işdə onlara havadarlıq edən keçmiş SSRİ-nin prezidenti M.Qorbaçov və onun hakimiyyətidir". Ermənilər həmişə olduğu kimi bu dəfə də hər cür hiyləgərliyə əl ataraq dəhşətli soyqırım törətmişlər. Əlbəttə, Xocalı genosidində günahı olanların hər birindən danışdıqda reallığa əsaslanmaq və bütün məsələlərə elmi cəhətdən yanaşmaq lazımdır".

Təşkilat sədri qeyd etdi ki, beynəlxalq hüquq elmində "beynəlxalq cinayət" və "beynəlxalq xarakterli cinayət" kateqoriyaları fərqləndirilir. Onun dediyinə görə, soyqırım cinayəti beynəlxalq cinayət kateqoriyasına aiddir: "Həmin cinayətlərin əsas tərkibləri İkinci Dünya Müharibəsindən sonra yaradılmış beynəlxalq hərbi tribunalların (Nürnberq və Tokio) nizamnaməsində ifadə olunmuşdu. Sonra da həmin cinayət tərkibləri Yuqoslaviya və Ruanda beynəlxalq cinayət tribunallarının nizamnaməsində və Beynəlxalq Cinayət Məhkəməsinin statusunda təkmilləşdirilməklə bir daha təsdiqini tapmışdı. Xocalı genosidindən danışan hər kəs, eyni zamanda mətbuat işçiləri, siyasi icmalçılar və digərləri bu nizamnamələrin məğzi ilə yaxından tanış olmalı, onu diqqətlə öyrənməli, mənimsəməlidirlər. Ermənilər Xocalıda törətdikləri kütləvi qırğında beynəlxalq hüquqi aktlara - Cenevrə konvensiyası, Ümumdünya İnsan Haqları Bəyannaməsi, vətəndaş və siyasi hüquqlar barədə Beynəlxalq Saziş, fövqəladə vəziyyətlərdə və hərbi münaqişələr zamanı qadınların və uşaqların müdafiəsi Bəyannaməsinə məhəl qoymayıblar. BMT-nin "Genosid cinayətinin qarşısının alınması və təqsirkarların cəzalandırılması haqqında" 1948-ci il tarixli Konvensiyasında soyqırımı cinayətlərinin mahiyyəti tam olaraq əksini tapmışdır. Bu sənəddə soyqırımın 5 əsas əlaməti müəyyənləşdirilmişdir: birincisi, hər hansı milli, irqi, etnik və dini əlamətlərinə görə fərqlənən xüsusi qrupun üzvlərinin öldürülməsi. İkincisi, onların şikəst edilməsi, bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi. Üçüncüsü, onun qəsdən tam, yaxud qismən fiziki məhvini nəzərdə tutan həyat şəraitinin yaradılması. Dördüncüsü, həmin qrupda doğumun qarşısını almağa yönəlmiş tədbirlərin həyata keçirilməsi. Beşincisi, azyaşlı uşaqların bir insan qrupundan alınıb başqasına verilməsi. Bunlardan hansısa biri hadisənin soyqırımı kimi qiymətləndirilməsi üçün kifayət edir. Bu meyarlar baxımından Xocalı faciəsi soyqırımı cinayət kimi qiymətləndirilməlidir. Konvensiyanın 34-cü maddəsinə görə, mülki əhalinin girov götürülməsi qadağandır. Mülki əhaliyə qarşı kollektiv cəza tədbirlərinin görülməsi, qorxuya salınması, repressiyaya məruz qoyulmaları, onlara qarşı terror hərəkətləri birmənalı şəkildə qadağan edilir".

Ş.Sabiroğlu deyir ki, təkcə Xocalıda 1000-dən çox insanı girov götürən ermənilər bu hüquq normalarına məhəl qoymayıb, dinc əhalinin məhvi üçün ən qəddar üsullara əl atıblar:

"Xocalı soyqırımını törətməklə erməni millətçiləri xalqımızı qorxutmaq, əhali arasında vahimə yaratmaq, onun mübarizə əzmini qırmaq, torpaqlarının işğalı faktı ilə barışdırmaq kimi çirkin niyyətlər güdürdülər. Xocalıda baş verənlər insanlığa qarşı yönəlmiş irimiqyaslı cinayətdir. Xocalı Rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov o dəhşətli gecəni belə xatırlayır: "Hadisə günü yaxınlaşdıqca iş hər yerdə dayanırdı. Hamı müdafiə işinə cəlb edilmişdi. Mən özüm də Qaladərəsindəki yaşayış məntəqəsinin yaxınlığında - postda dururdum. Orada səngər qazılmışdı. Mən daim orada olan 7-8 nəfərə rəhbərlik edirdim. Bizdə bir avtomat silah və bir neçə ov tüfəngi var idi. Hər gün atışma gedirdi. Fevralın 25-də saat 20-21 radələrində tank və zirehli texnikanın ətrafımızda mövqe tutduğunu gördük. Bundan sonra məlumatı lazım olan orqanlara verib, kömək istədik. Həmin vaxt əhali hiss edirdi ki, Xocalı ağır günlərini yaşayır. Heç kim kömək etmirdi, əksinə, rəhbərlik informasiyanı gizlədirdi. Qaradağlı kəndində şəhid olan 70 nəfərin ölümü barədə heç yerə xəbər verilmədi, o cümlədən də başqa kəndlərdə qırılanlar barədə. Fevralın 25-də, axşam saat 22.15-də hücüm başladı. Birinci alışdırıcı güllələr atıldı və fin evlərini yandırdı. İrəliləyən tanklardan biri ordunun əsgəri Tahir Xəlilovu vurub öldürdü. Biz məcbur olduq ki, geri çəkilək. 20 nəfərlə əvvəlcə Qarqar çayına, oradan da Dəhraz meşəsinə girdik. Həmin müddət ərzində 4 dəfə pusquya düşdük, dördümüz sağ qaldıq".

Ş.Sabiroğlu onu da əlavə etdi ki, "hücüm zamanı Xocalıda əzablı günlər yaşayan 2800 nəfər əhalidən 613 nəfəri şəhid oldu, 1200 nəfəri girov götürüldü. Onlardan 155-i itkindir. Yalnız 335 nəfər dəfn olunub. Həmin vaxt mənim qaynım, altı əmim oğlu itkin düşüb. İki əmimin yoldaşı və əmim qızı da şəhid olub. Zaman ən doğru hakimdir, əminəm ki, xalqımızın köməyi ilə Xocalı soyqırımının beynəlxalq aləmə çıxarılmasına nail olacağıq".

Ülviyyə Şamilqızı

"**Xalq cəbhəsi**" -. 2009 – 11 noyabr. - № 206. - S. 13.

"Xocalıda soyqırım həyata keçirdik"

Arayik Harutuniyan: "Razılığımızı almayanlar Petrosyanın vəziyyətinə düşə bilərlər"

Bir müddətdir Ermənistana və oradan da Azərbaycanın razılığı olmadan işğal altında olan Dağlıq Qarabağa gedən Türkiyənin "Axşam" qəzetinin jurnalisti Nagahan Alçı, nəhayət, əlləri Azərbaycan türkünün qanına batan, Xocalıda 20-ci əsrin ən dəhşətli soyqırımını həyata keçirən separatçıların "qonaqpərvərliyindən" ağızdolusu yazmaq üçün ölkəsinə qayıdıb.

Artıq jurnalist qayıdar-qayıtmaz qondarma Dağlıq Qarabağ respublikasının baş naziri Arayik Harutuniyandan götürdüyü müsahibəni "Axşam"ın səhifələrinə yerləşdirib. Müsahibəni sizə təqdim edirik. Müsahibəni təqdim etmədən öncə qeyd edilir ki, Harutuniyan Xocalıda həyata keçirdikləri soyqırımı qəbul etdiyini, amma onun müharibə dövründə olduğunu bildirir.

- Tanınmayan bir dövlətsiniz. Nəyə görə Ermənistana birləşmək üçün deyil də müstəqil olmaq üçün mübarizə aparırsınız?

- 1988-ci ildə özgürlük hərəkatı başlayanda insanlar Ermənistana birləşmək devizi ilə küçələrə çıxdılar. Sovetlər dağılarkən o dövrdəki qanuna görə, Qarabağ muxtar bir bölgə olduğuna görə öz müqəddəratını təyinetmə haqqına sahibdir. Ona görə də müstəqillik hədəfini ortaya qoyduq. Beləliklə də biz sovet qanununu çeynəməmiş olduq.

- Sovet İttifaqı aradan qalxdıqdan sonra da hədəfinizi dəyişmədiniz. Nəyə görə?

- Hərəkat formalaşınca, hədəf öz müqəddəratını təyinetmə haqqı oldu. Müstəqillik, ya da Ermənistana birləşmək ikinci plana keçdi. Beynəlxalq aləmdə müqəddəratımızı təyinetmə haqqı əldə etdiyimiz zaman xalqımızdan soruşacağıq: müstəqillikmi istəyir, yoxsa Ermənistana birləşmək?

- İndiki məqamda Ermənistana birləşmək sizə ciddi bir güc qazandırmazmı?

- Bu çox da önəmli bir məsələ deyil. Onsuz da təhsil, müdafiə, iqtisadi sahədə əməkdaşlığımız var. Ermənistan bizim təhlükəsizlik qarantımızdır. Ona görə də birləşmək yalnız texniki bir məsələdir.

- Bu qədər yaxın olmanıza rəğmən Ermənistan sizi niyə rəsmi olaraq tanımır?

- Bu, siyasi bir məsələdir. Ermənistan tək tərəfli bir tanınma istəmir. Ona görə də öncə beynəlxalq aləmdə tanınmağımızı istəyir. Əks-təqdirdə aparılan müzakirələrin danışıqlar prosesinə zərər verə biləcəyini düşünürlər.

- Ermənistana həddindən artıq baha başa gəlirsiniz. Türkiyə və Azərbaycanla sərhədlərin bağlanmasına səbəb olmusunuz. İrəvanın sizi tanımamasının səbəbi sərmayələrin qoyulmaması qorxusu ola bilərmi? Özünüzü "böyük qardaş"ı həbs etdirmədə günahkar bilirsinizmi?

- Xeyr, ana vətən qiymətlə ölçülə bilməz. Hansı təzyiqlər, təcridlərə məruz qalırsa-qalsın, istəyir bu blokada yüz il davam etsin, Ermənistan ana vətəni iqtisadi məqsədləri üçün satmayacaq.

- Ermənistan deyirsiniz, yəni Qarabağı ana vətəni kimi görür?

- Tamamilə. Biz ana vətən deyilincə iki dövlət, bir vətən başa düşürük.

- Türkiyə və Ermənistan arasında imzalanan protokolların Qarabağ münaqişəsi həll olunmadan həyata keçməyəcəyi səsləndirilir. Əsasən ilkin mərhələdə Laçın başda olmaqla Qarabağ ətrafındakı bölgələrdən çıxmanız göstərilir. Buna hazırsınızmı?

- Bizim üçün Türkiyə - Ermənistan yaxınlaşması və Qarabağ məsələsi bir-birindən tamamilə ayrı, fərqli məsələlərdir. Əgər Türkiyə Qarabağ məsələsini sərhədlərin açılması qarşısında şərt olaraq görürsə, açıq görsənir ki, sərhədlər açılmayacaq. Qarabağ xalqı öz müqəddəratını təyinetmə haqqına sahib olmadan hər hansı bir yumşalmadan danışmaq mümkün deyil.

- Tanınmayacağınız təqdirdə danışacağınız yumşalma nə ola bilər?

- Kimsə bizdən soruşmadığına görə bunu danışmırıq. Masaya oturduğumuzda qarşılığı veriləcək və alınacaqlarımızı danışarıq. Biz sadəcə, haqlarımızın tanınması üçün mübarizə aparırıq.

- Yəni Laçın dəhlizi və digər bölgələrdən çəkilməklə bağlı müzakirə aparmırsınız?

- Xeyr. Bununla bağlı fikirləşmirik belə. Tərəf kimi qəbul edilənə kimi mövqeyimiz dəyişməyəcək.

- Belə kəskin mövqe sizə zərər vermir? Dağların arasında sıxılıb qalmısınız. Sərhədlərin açılması sizin də həyat damarlarınızın açılması demək deyilmi?

- Daha əvvəldə dediyim kimi, ana vətən qiymətlə ölçülə bilməz. Bu gün gündəlik yaşam tərzimiz bəlkə də yaxşı deyil, amma qəbul olunacaq formadadır. Maddiyyatın vətənin önünə keçməsinə əsla izin verməyəcəyik. Biz heç bir zaman işğalçı olmadıq.

- Amma bütün dünya sizi işğalçı kimi tanıyır. Xəritə üzərində də Azərbaycan torpaqlarındasınız?

- Sizinlə razılaşmıram. Biz mücadiləmizi torpaq tələbi ilə deyil, öz müqəddəratımızı təyinetmə tələbi ilə başladıq. Onsuz da üzərində yaşadığımız torpaqlarda azad şəkildə yaşamaq tələbimiz də var. Amma müharibənin öz qanunları vardır.

- Azərbaycanlılar ilk mərmini sizlərin atdığını deyirlər?

- Azərbaycan öz torpaqlarından ermənilər təmizləmə siyasətinə başlayanda ilk olaraq Naxçıvandan tamamilə yox edildik. Sumqayıt və Bakıda böyük itkilər oldu.

- Eyni şəkildə burda da azəriləri siz itkiyə məruz qoydunuz?

- Bir-iki qarşıdurma oldu. Amma bunlar əsla Bakıdakı və Sumqayıtdakı kimi planlaşdırılmış və böyük həcmli deyildi.

- Yəqin ki Xocalıda həyata keçirilən qətliamları inkar etməyəcəksiniz? Ermənilər 1300-dən artıq azərini həmin şəhərdə öldürdülər...

- Xocalı 1992-ci ildə müharibə dövründə baş verdi. Dinc sakinlər arasında itkilər oldu və bunu da qəbul edirik. Amma onların çıxması üçün dəhliz açmışdıq. Azərilər Xocalını başqa şəkildə təqdim edirlər. Özümüzü müdafiə etmək üçün Xocalını almağa məcburduq.

- Müharibə vəziyyətini bir üzr kimi səsləndirirsiniz. 1915-də Osmanlı bir müharibədəydi. Ermənilər soyqırım həyata keçirildiyini iddia edirlər. Amma "xüsusi müharibə vəziyyəti" olaraq niyə açıqlanmasın?

- 1915-ci ildə bir dövlət siyasətindən danışırıq. O isə burda müharibə dövründə çıxan atışmalardan ölənlər var. Yəni sistemli bir siyasət yoxdur.

- Xüsusilə 1915-ci ilin varlığını erməni diasporu diktə edir. Amma burada belə vəziyyətlə qarşılaşmırıq. Yoxsa siz 1915-ci illə 1992-ci ili eyniləşdirirsiniz?

- 1915-ci ilin acısını yaşayanlar indiki diaspor üzvlərinin ata-babalarıdır. Biz onların acılarını paylaşırıq. Amma o günlərə şahidlik etmədik. 1992-ci ili 1915-ci ilin davamı olaraq görürük. Azərbaycanlılar da buralardan ermənilər tamamən təmizləmək istəyirdilər. Azərbaycanlılar burada var olduqlarına dair bir məzar göstərsinlər, mücadiləmizdən imtina edək.

- Bu torpaqları bu qədər qiymətli edən nədir belə?

- Sadəcə vətən olması. Bütün soy ağacım burada. Atalarımın məzarlarını sizə göstərə bilərəm. Uşaqlarımın da burda mənim məzarımın başında dua edə bilməsini istəyirəm. Əgər azərbaycanlılar mənə bir neçə nəsil uzağa gedən məzar göstərə bilərlərsə, bütün iddialarımdan əl çəkərəm.

- Uzun illərdir ABŞ, Rusiya və Fransanın həmsədrliyi ilə Minsk Qrupu fəaliyyət göstərir. Onların bir faydası varmı?

- Mərhələli şəkildə Minsk Qrupu ilə bir araya gələ bilirik. Eyni şeyləri onlara da deyirik. 1988-ci ildən bəri aparılan bütün danışıqlar müsbət başa çatmır. Çünki bizi danışıqlar prosesinə cəlb etmirlər. Hər nə qədər Ermənistanla bir çox sahələrdə əlaqələrimiz var desəm də, bu, Ermənistanın bizim yerimizə qərar verməsi anlamına gəlmir. Buna haqqı da yox və bunu etməyə Ermənistan hakimiyyəti can atarsa, onun ortaya qoyacağı nəticəyə də razılaşmalıdır. Ona görə də Levon Ter-Petrosyan dövlət başçısı postundan istefa verməli oldu.

- Sarkisyanın da sizin razılığınız olmadan söz verə biləcəyi ilə bağlı hər hansı şübhəniz varmı?

- Xeyr yox. Bizim razılığımız olmadan Qarabağ məsələsində hər hansı bir razılaşma sözü verilməyəcək.

Nahid Canbaxışlı

“Həftə içi”.-2009.-25 noyabr.-N.211.-S. 1, 3.

Xocalıdan yazanlar mükafatlandırılacaq

Mətbuat Şurası və «Xocalı Soyqırımını Tanıtma» İctimai Birliyinin jurnalistlər üçün «Qarabağ mövzusunun və Xocalı soyqırımının mediada təbliğinə dəstək» adı altında keçirdiyi müsabiqənin müddəti uzadılıb. Qeyd edək ki, «Azərsun Holdinq»in maliyyə dəstəyi ilə keçirilən müsabiqəyə bu ilin sentyabr ayından başlanılıb. Layihə müəllifləri müsabiqəyə daha çox yazının cəlb edilməsi məqsədilə vaxtı fevralın 10-na kimi uzadıblar.

Bu qərarla bağlı məlumatı dünən Mətbuat Şurasının (MŞ) ofisində keçirilən mətbuat konfransında MŞ sədri Əflatun Amaşov verdi. Mətbuat konfransında şuranın sədri ilə bərabər «Xocalı Soyqırımını Tanıtma» İB-nin sədri Şamil Sabiroğlu və «Azərsun» şirkətinin ictimaiyyətlə əlaqələr bölməsinin rəhbəri Afiq Səfərov iştirak edirdi.

Ə.Amaşov bildirdi ki, müsabiqənin keçirilməsində məqsəd jurnalistlərin fəaliyyətini stimullaşdırmaq və onları bu mövzuda daha peşəkar məqalələr yazmağa yönəltməkdir. O, qeyd etdi ki, indiyədək Qarabağ və Xocalı mövzusunda çox məqalə yazılıb. Amma belə yazıların daha peşəkar şəkildə qurulması və təqdim olunmasına ehtiyac var.

Şuranın sədri söylədi ki, müsabiqə müddətində dərc ediləcək yazıların içindən daha yaxşısı seçiləcək və həmin yazılar rus, ingilis dillərinə tərcümə olunaraq kitabça şəklində çap etdiriləcək. Sonra bu kitabçalardan işğal faktının tanıtımında istifadə olunacaq.

Ə. Amaşov vurğuladı ki, məqalə hazırlanmasında jurnalistə istər yazının həcminə, istərsə də üslubuna görə tam sərbəstlik verilir. Yazılar fevralın 10-na qədər MŞ-yə təqdim olunmalıdır. Münsiflər 10 gün müddətinə yazıları gözdən keçirəcək. Müsabiqənin qalibi olan yazıların adları fevralın 24 və ya 25-i tarixlərində açıqlanacaq. Təqdimat «Azərsun»un mədəniyyət evində baş tutacaq.

Ə. Amaşov yazıları qiymətləndirəcək münsiflər heyətinin adının yalnız müsabiqəyə yekun vurulacağı gün elan ediləcəyini də dedi. Bununla belə o, münsiflər heyətinin tərkibinə Xarici İşlər Nazirliyinin nümayəndələrinin, Qarabağ problemini dərindən bilən şəxslərin də daxil olacağını söylədi.

Müsabiqənin qaliblərinin mükafatlandırılmasına gəldikdə isə Ə.Amaşov söylədi ki, birinci yerin qalibinə 1000 manat, ikinci yerin qalibinə 650 manat (iki yer nəzərdə tutulub), üçüncü yerin qalibinə 300 manat (üç yer) veriləcək. Bundan başqa 5 nəfərə həvəsləndirici mükafat nəzərdə tutulub.

Ə. Amaşov onu da qeyd etdi ki, müsabiqə müddətində xarici mətbuatda Qarabağ problemləri ilə bağlı yazısı dərc olunan yerli və ya xarici jurnalistlər də mükafatlandırılacaq.

«Azərsun» şirkətinin nümayəndəsi A. Səfərov da hesab edir ki, avropalıları Qarabağ problemi ilə daha yaxından tanış etmək üçün peşəkar və onların qəbul etdiyi, düşündüyü şəkildə yazıların hazırlanmasına ehtiyac var: «Azərsun şirkəti iştirak etdiyi bütün xarici sərgilərdə Qarabağla bağlı müxtəlif təbliğat vasitələrindən istifadə edir. Daha peşəkar yazıların olması təbliğat işinin daha səmərəli qurulmasına kömək edərdi. Ona görə də müsabiqə üçün yazılacaq məqalələr yerli yox, xarici auditoriya nəzərə alınaraq hazırlanmalıdır. Həmin yazılar müxtəlif dillərə tərcümə olunaraq dərc ediləcək və yayımlanacaq». A. Səfərovun sözlərinə görə təmsil etdiyi şirkətdə xüsusi işçi qrupu da yaradılıb ki, həmin qrup peşəkarlıq səviyyəsi yüksək olan yazıları tanınmış xarici veb saytlarda da yerləşdirəcək.

Vasif Cəfərov

"Mərkəz".-2009.-4 dekabr.-N.215.-S.7.

Qarabağ mövzusu və Xocalı soyqırımı mediada

Azərbaycan Mətbuat Şurası və "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyi bu ilin sentyabrından "Qarabağ mövzusunun və Xocalı soyqırımının mediada təbliğinə dəstək" layihəsinə start verib. Layihə "Azərsun Holdinq"in maliyyə dəstəyi ilə həyata keçirilir. Məlum olduğu kimi, Azərbaycan dövləti indiyədək Qarabağ mövzusunun, xüsusən də Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması, ölkəmizin ədalətli mövqeyinin təbliği istiqamətində genişmiqyaslı işlər aparır.

Dünyanın bir çox yerlərində müxtəlif anım tədbirlərinin təşkili sayəsində beynəlxalq aləm Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində xalqımızın üzləşdiyi faciəli vəziyyətlər, o cümlədən 1 milyona yaxın soydaşımızın qaçqın və məcburi köçkün həyatı yaşamağa məhkum olması haqqında məlumatlar əldə edib. Bütün bunlar konfliktin aradan qaldırılması istiqamətində ölkəmizin diplomatik fəaliyyət prioritetlərinin möhkəmlənməsində, Azərbaycanın haqq işinin daha geniş miqyasda dəstəklənməsində müstəsna rol oynayıb. Lakin əldə edilən bir çox nailiyyətlərə baxmayaraq Dağlıq Qarabağ münaqişəsi həll olunmamış qalır. 20 faizdən artıq torpağımız işğal altındadır və mövcud durum ona təsiretməni daim aktual saxlayır ki, bu işdə əlaqədar dövlət qurumları ilə yanaşı ictimai təşkilatların, həmçinin medianın da üzərinə mühüm missiya düşür.

Azərbaycan mediası Qarabağ həqiqətlərinin və Xocalı soyqırımının təbliğinə həmişə diqqət ayırıb. Amma hazırkı durumda həmin diqqəti bir qədər də artırmağa, kütləvi informasiya vasitələrinin mövzunun təqdimatındakı fəaliyyətini stimullaşdırmağa ehtiyac duyulur. Bunu nəzərə alaraq Azərbaycan Mətbuat Şurası və "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyi həyata keçirdiyi birgə layihədə jurnalistlər arasında müsabiqənin təşkilini zəruri sayıb.

Bu ilin sentyabrından elan edilən müsabiqəyə gələn ilin fevralın 5-dək qəzet, jurnal və informasiya agentliklərində gedən, Qarabağ mövzusu və Xocalı faciəsi ilə bağlı nümunələr verilə bilər. Materiallar üçün həcm və dil məhdudiyyəti nəzərdə tutulmur. Məqalələr Azərbaycan Mətbuat Şurasına çap və elektron formada təqdim olunmalıdır.

Qaliblərə mükafatlar 2010-cu il fevralın 24-də Xocalı soyqırımının ildönümü ərəfəsində təqdim olunacaq. Müsabiqənin mükafat fondu aşağıdakı kimidir: Birinci yer-1 nəfər-1000 AZN, İkinci yer-2 nəfər- 650 AZN, Üçüncü yer-3 nəfər- 300 AZN, 5 nəfərə həvəsləndirici mükafat təqdim olunacaq. Müsabiqədə Qarabağ mövzusunun və Xocalı soyqırımının təbliğində yaxından iştirak edən ən yaxşı bir xarici KİV-ə xüsusi diplom təqdim olunacaq. Bu KİV-in adı münsiflər heyətinin layihə üzrə işçi qrupunun apardığı monitorinq zamanı əldə etdiyi materialların dəyərləndirilməsindən sonra müəyyənləşəcək. Qalib yazıların ingilis dilinə tərcümə edilərək, müxtəlif KİV-lərdə dərci, informasiya portallarında yerləşdirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, Azərbaycan Mətbuat Şurasının Azərbaycan Respublikasının Prezidenti Yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə yardımı ilə gerçəkləşdirdiyi "Təlim kurslarının təşkili media peşəkarlığının artırılmasında başlıca amil kimi" layihə çərçivəsində ali məktəblərin jurnalistika fakultələrinin tələbələri üçün keçirdiyi təlim kursları da davam edir.

Kurslarda "KİV-in hüquqi tənzimlənmə mexanizmləri", "KİV və peşəkarlıq xüsusiyyətləri", "Diffamasiya: nəzəri və təcrübi amillər", "KİV menecmenti və marketinqi", "KİV-hakimiyyət münasibətləri", "KİV və müəlliflik hüququ", "KİV-ə dövlət dəstəyi: yerli və beynəlxalq təcrübə", "Media və müasir PR xüsusiyyətləri" və sair mövzularda məruzələr oxunur, diskussiyalar aparılır.

Ötən gün baş tutan növbəti kursun mövzusu jurnalistin ilk mənbə ilə iş xüsusiyyətlərinə həsr olunub. Zərdabi Mətbuat Mərkəzinin sədri Rəhim Hüseynzadə rəhbərlik etdiyi qurumun bu sahədə həyata keçirdiyi layihələr barədə məlumat verərək mövcud istiqamətdəki nəzərəçarpan tendensiyaları açıqlayıb. O, eyni zamanda jurnalist tələbələrin mövzu ətrafındakı suallarını cavablandırıb.

Qeyd edək ki, Şuranın mövcud layihəsindən məqsəd KİV təmsilçilərinin jurnalistika təhsilindəki müasir peşəkarlıq standartları barədə məlumatlandırılmasından, onların peşəkarlığın qabaqcıl beynəlxalq təcrübəyə əsaslanan forma və metodları ilə tanış edilməsindən ibarətdir. Layihədən strateji cəhətdən müəyyənləşdirilən başlıca xətt jurnalistlərin sosial-ictimai həyatda baş verən hadisə və proseslərə daha operativ, dəqiq və qərəzsiz yanaşmalarına, jurnalistlərin peşə fəaliyyətlərində yol verdikləri nöqsanların aradan qaldırılmasına, habelə KİV əməkdaşlarının ayrı-ayrı sahələr üzrə ixtisaslaşmalarına dəstək göstərməkdir.

Əlimərdan

"Palitra".-2009.-4 dekabr.-N.132.-S.4.

Əsrin faciəsi olan Xocalı soyqırımı ermənilərin azərbaycanlılara qarşı yürütdüyü etnik təmizləmə siyasətinin nəticəsidir

Həmin dəhşətli gecədən bizi ayıran hər bir gün, hər bir ay və il yeni-yeni məqamların üzə çıxmasına səbəb olur. Bu gün bəlli olur ki, əslində, 17 il əvvəl baş vermiş bu cinayət - soyqırım faktı ilə bağlı həqiqətlər nəinki dünyaya, hətta özümüzə də tam məlum deyil. Faciənin miqyasını əks etdirən rəqəmlər yalnız sənədlərlə sübuta yetirilə bilən faktlardan ibarətdir. Adı məlum olmayan onlarla, yüzlərlə insanın qətli isə sənədlərdə yoxdur. Ombudsman Elmira Süleymanovanın qeyd etdiyi kimi, bu bir faktdır ki, erməni təcavüzü, heç də ermənilərin qəbul etdirməyə çalışdığı kimi, adi münaqişə deyil, bu, uzunmüddətli, Azərbaycan torpaqlarının zəbt olunması ilə nəticələnən və beynəlxalq qanunlarla qadağan edilən planlı təcavüzdür, işğaldır. Tamamilə məhv edilən ailələrin sayını, valideynlərindən birini itirən uşaqların iztirablarını, əlil olanları, erməni vəhşiliyindən və təbiətin sərtliyindən canını qurtarmağa çalışan soydaşlarımızın və çadır şəhərciklərində məskunlaşmış vətəndaşlarımızın psixoloji-mənəvi əzablarını da buraya əlavə etsək, miqyas daha da böyüyəcək. İtkilərin arasında təkcə Xocalının payına düşənləri sadalamaqla da erməni xislətini açıq şəkildə göstərmək mümkündür. Xocalı soyqırımı adları bəlli olan 613 nəfərin ölümü ilə nəticələnib. Onların arasında 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca olub. Soyqırımın həyata keçirilməsi 487 nəfərin əlil olması, 1275 nəfərin əsir götürülməsi, 150 nəfərin itkin düşməsi ilə nəticələnib. Bəs, şahidlər nə deyir? O gecə Xocalı sakinləri hansı vəhşiliyin şahidi olub?

Şahid Şahmar Usubov: Xocalılılar müdafiəsiz qalmışdı

- Xocalıya qədər Malıbəyli, Quşçular və Qaradağlar işğal olunmuşdu. Hədəfin Xocalı olduğu açıq görünürdü. Ancaq belə bir söhbət də gəzirdi ki, Əsgəran yolu açılacaq. Bizim deyilənlərə inanaraq Ağ-dam-Xocalı yolunun açılacağını gözləməyimiz isə sonda Xocalıda baş verən genişmiqyaslı qətliamla nəticələndi. Xocalı da əldən getdi, camaat da qırıldı. Müdafiə pərakəndə olduğundan dağda baş verənlərdən xəbərimiz olmurdu. Ancaq hay-həşirə, atışma səsinə gedirdik. Dövlət səviyyəsində müdafiə təşkil edilməmişdi. Bir sözlə, xocalılılar müdafiəsiz qalmışdı.

Şahid Surxay Quliyev: Qabın içi kimi tamamilə erməni əhatəsində olan Xocalının ikinci çıxış yolu yox idi

- Dağlıq Qarabağ beş rayondan ibarətdir və bu ərazidə hərəkət edən bütün yollar Xocalıdan keçir. Ermənilər bu cür strateji əhəmiyyətli yeri nəzarət altına almaq niyyətində idi. Çünki qabın içi kimi tamamilə erməni əhatəsində olan Xocalının ikinci çıxış yolu yox idi. Hücumun olacağını və burada qırğınların törədiləcəyini bilə-bilə yaşamağa məhkum idik. Xüsusən, fevralın 20-dən sonra Quşçular və Malıbəyli kəndləri işğal olunanda növbənin bizə çatdığını artıq bilirdik. Bizi aldatdılar. "Ağdamdan bu gün-sabah kömək gələcək", "narahat olmayın, sizi tək buraxmayacağıq"- deyirdilər. Müdafiəni yalnız Ağdamdan təşkil etmək mümkün idi. Ağdam və Əsgəran postunun arası 300-500 metr idi. Ağdamdan kömək gəlsəydi, Xocalıda qırğın daha az ola bilərdi. Xocalılıların torpağından çıxmaq fikri yox idi. Planlaşdırıb müdafiəni təşkil edə bilərdilər. Elə özümüz də müdafiə oluna bilərdik. Hücum başlananda silahdaşım Firdovsi (ailəsi ilə birgə şəhid olub) ilə birlikdə postdaydım. Gördük ki, Xocalını hərbi texnika tamamilə mühasirəyə aldı. 366-cı motoatıcı diviziya da orada idi. Axşam saat 11-də hücum başladı. Gözümüzü açanda gördük ki, hərbi texnika artıq şəhərdədir. Onda başa düşdük ki, bu hücum əvvəlkilərdən deyil. Əvvəllər də atışma olurdu. Güllə dolu kimi yağırdı.

Müdafiə zamanı biz də düşməni xeyli itkiyə məruz qoymuşduq. Meşədə patronlarımız qurtardı. Ermənilər də bunu başa düşmüşdü. Elə vəziyyətə çatmışdıq ki, bir-birimizi öldürməkdən savayı çıxış yolu görmürdük. Sonradan yarğandan özümüzü atdıq. Sağ qalmağımıza qar kömək elədi. Azərbaycanlıların səsini eşidəndə elə bildik ermənilər bizi aldadır. Onlar da inanmadığımızı görüb "La ilahə illəllah" kəlməsini işlətdilər. Bu ifadədən bildik ki, azərbaycanlılardır. Çünki bu ifadəni ermənilər tələffüz edə bilmirdilər.

Mənim qardaşım oğlu musiqiçi idi. 24 gün əsirlikdə onun dırnaqlarını çıxartmışdılar, əllərini kömür sobasında yandırmışdılar. Deyirmişlər ki, "Qarabağ" mahnısını bu əllərinlə çalmısan. Digər əsirlərin də başına min oyun açmışdılar. Onları bir-biri ilə döyüşdürüb həzz alırdılar. Döyməyəni özləri döyürdülər. Ağsaqqal kişini, ağbirçək qadını ortada oynadırdılar. Hamilə qadının qarnını yarıb uşağını çıxarmışdılar, ərinin başını kəsib həmin uşağın yerinə qoymuşdular. Təvəkkül adlı həmkəndlimizi uşaqlarının gözü qarşısında ağaca bağlayıb diri-diri yandırmışdılar. Digər uşağın gözünün qabağında əvvəlcə anasını sonra da atasını öldürmüşdülər. Qardaşımın ailəsində hamını öldürüblər. Adamların başının dərisini (skalpını) çıxarırdılar. Yaxınının meyiti gələnlər sevinirdi. Bunun üçün qurban deyənlər də vardı. Vəhşi ermənilər 3-5 aylıq körpəni

öldürməklə fəxr edir və deyirdilər ki, bir türk də azaltdılar. Onlar uşaq anadan olanda ona ilk növbədə düşmənini tanıtdırırlar. Uşaq ağlayanda onu "türk gəlib səni aparar"-deyərək qorxudurlar.

Şahid Ofeliya Məmmədova: Xocalı diri-diri yanırdı

- Bizim evimiz yolun qırağında olduğu üçün baş verənlərdən tez xəbər tutduq. Həmin günün sükutu adamı vahimələndirirdi. Qarğanın səsi də tük ürpədici vahimə yaradırdı. Gündüz Xankəndinə tərəf havaya atəş açа-açа ağ "Niva" keçdi. Bəlkə də, bu, xəbərdarlıq olub. Biz də təəccübləndik ki, bunları Aqilin dəstəsi niyə postdan buraxıb. Xocalıya hücum zamanı qaçıb min bir əzab-əziyyətdən sonra salamat qalmışam. 25 nəfərlə birgə o həyəcanlı yolu keçmişik. İki yerdə bizi atəşə tutdular. Yoldaşımı da, qayınlarımı da orada itirdim. Xocalı diri-diri yanırdı. O dar məqamda heç kim bir-birinə kömək eləmirdi. Xocalıdan olan gəlin uşağını götürə bilmirdi. Yerə qoyurdu, götürürdü. Qaynı da yanında olmasına baxmayaraq, o gəlinə kömək etmirdi. Ulu öndərimiz Heydər Əliyev həmin vaxt ölkəyə rəhbərlik etsəydi, biz bu faciəyə tuş gəlməzdik. Qız-gəlinlər, ayaqyalın, başıaçıq meşələrə qaçdıq. Yaralananlarımıza kömək edən də tapılmırdı.

Xocalıda erməni vəhşiliyinin qurbanı olmuş soydaşlarımızı xilas edən Oruc Cabbarov: Körpə uşağın dizdən aşağı ayaqlarını kəsmişdilər

- Xocalıya köməyə gedən alaylardan birinə də mən rəhbərlik edirdim. Ağdamın 18-ci postunun komandiri idim. Postda eşitdik ki, Xocalıya hücum olub. Qaraqaya kəndi ermənilərin nəzarətində idi. Ancaq bu kənd olmadan Xocalıya kömək etmək mümkün olmayacaqdı. Əməliyyat keçirib Qaraqayanı aldıq. Buradan Xocalı sakinlərinə kömək etmək mümkün idi. Bu əməliyyatda silahdaşlarımızın bir çoxunu itirdik. Ancaq 100-ə qədər Xocalı sakinini əsirlikdən qurtara bildik. Yolboyu meyitlərdən də götürə bilirdik. Hətta elə oldu ki, meyitlərin arasında sağ qalan uşaq da tapdıq. Qaraqayanı alıb Əsgərana tərəf gedəndə 4-5 yaşlı uşağı tapdıq.

Canpoladı, Xosrov Məmmədovu və onlar kimi neçə-neçə qəhrəman döyüşçümüzü də məhz həmin əməliyyatda itirdik. Köməyə gedəndə gördüklərimiz isə döyüş zamanı itirdiklərimizlə müqayisə edilə bilməzdi. Körpə uşağın dizdən aşağı ayaqlarını kəsmişdilər. Uşağı qaldırarkən onun dizdən aşağı ayağı dəri üzərində qaldı. Kişi, qadın, uşaq demədən hamıya əzab-əziyyət, işgəncə vermişdilər. Meyitlərin ikisi xüsusilə diqqətimizi cəlb etdi. Belə görünürdü ki, hər ikisini işgəncə ilə öldürüblər. Ehtimal edirəm ki, onlar ər-arvad idi. Birinə o birinin gözünün qabağında işgəncə veriblər. O birisi isə dözməyib. Müqavimət göstərdiklərindən işgəncə ilə öldürmüşdülər. Onlar biləklərindən və müxtəlif yerlərdən güllələnmişdilər.

SONDA...

Sözügedən soyqırım aktı zamanı Azərbaycan vətəndaşlarının əsas insan hüquqları, ən başlıcası isə yaşamaq hüququ kütləvi şəkildə və kobudcasına pozulub. Xocalı soyqırımı zamanı yol verilmiş cinayət əməllərinin əvvəlcədən düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq və dövlətdaxili hüquqa əsasən, məhz genosid olduğunu sübut edir. Bu vəhşilik və vandalizm aktı Xatın və Sonqmi faciələri kimi qiymətləndirilməli, insanlığa qarşı törədilən qanlı cinayət öz layiqli qiymətini almalıdır. Bunu əsas gətirən ölkə Ombudsmanı nüfuzlu beynəlxalq təşkilatlara, diplomatik korpuslara müraciət ünvanlayıb.

Bununla yanaşı, Xocalı soyqırımını tükürpədici faktlarla, əyani sübutlarla dünya ictimaiyyətinin diqqətinə çatdırılması işi də gücləndirilib. Məhz İslam Konfransı Təşkilatının (İKT) Gənclər Forumunun sivilizasiyaların alyansı üzrə baş əlaqələndiricisi, Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın başçılığı ilə "Xocalıya ədalət" kampaniyasını xüsusi vurğulamaq olar. Bu kampaniya dünyanın 57 ölkəsində reallaşdırılacaq. Əlbəttə ki, bu cür geniş miqyaslı təbliğat işi Azərbaycanın beynəlxalq aləmdə haqlı mövqeyinin daha da möhkəmlənməsinə və müdafiə olunmasına gətirib çıxaracaq.

Ramil VƏLİBƏYOV,
Azərbaycan Mətbuat Şurası və "Xocalı soyqırımını Tanıtma" İctimai Birliyinin elan etdiyi müsabiqəyə təqdim edilir

"Yeni Azərbaycan".- 2009.-5 dekabr.-N.228.-S.9.

Xocalı qətliamı Avropada insan hüquqlarına həsr olunmuş konfranslarda müzakirə ediləcəkdir

Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏ-İKGF) Media Departamentindən bildirmişlər ki, İnsan Hüquqları Günü ilə əlaqədar dekabrın 10-da DƏ-İKGF-in dəstəyi ilə Berlin və Cenevrə şəhərlərində silahlı münaqişələr zamanı insan hüquqlarının kütləvi pozulması problemlərinə həsr olunmuş beynəlxalq konfranslar keçiriləcəkdir.

Tədbirlər DƏ-İKGF-in mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci il mayın 8-də elan edilmiş "Xocalıya ədalət" beynəlxalq məlumat və təşviqat kampaniyası çərçivəsində keçiriləcəkdir. Kampaniyanın məqsədi Xocalı şəhərində insanlığa qarşı törədilmiş cinayətin dünya ictimaiyyətinə çatdırılmasına və dünya ictimaiyyəti tərəfindən bu cinayətə hüquqi-siyasi qiymətin verilməsinə nail olmaqdır.

Sırf diaspor tədbirləri çərçivəsindən kənara çıxan bu konfranslar öz xarakterinə görə həm miqyası, həm də Avropa ölkələrinin vətəndaş cəmiyyəti nümayəndələrinin cəlb olunma səviyyəsi baxımından ilk dəfə keçirilən tədbirlərdəndir.

Cenevrədəki konfrans BMT-nin Cenevrə qərargahının İnsan Hüquqları Gününə həsr olunmuş tədbirləri çərçivəsində "Silahlı münaqişələr və insan haqları" adı altında keçiriləcəkdir. Tədbirdə diplomatların, Avropa ölkələri insan haqlarının müdafiəsi təşkilatları rəhbərlərinin və kampaniyanın fəallarının iştirakı planlaşdırılmışdır.

Konfransda Xocalıda törədilmiş qətliam İkinci Dünya müharibəsinin gedişində faşistlər tərəfindən insanlığa qarşı törədilmiş cinayətlərlə, Srebrenitsa və Ruandada həyata keçirilmiş soyqırımlarla yanaşı müzakirə ediləcəkdir. Tədbirdə, həmçinin kampaniya fəallarının beynəlxalq qrupu tərəfindən hazırlanmış və Qarabağ müharibəsinin bu qanlı səhifəsinə həsr olunmuş diskin təqdimatı nəzərdə tutulmuşdur. DƏ-İKGF-in baş katibi Elşad İskəndərovun məruzəsində Xocalı qətliamının İslam Konfransı Təşkilatının (İKT) sənədlərində siyasi tanınması və bu məsələ ilə bağlı mədəniyyətlərarası dialoq çərçivəsində İKT və Avropa strukturlarının əməkdaşlığının vacibliyi haqqında məlumat iştirakçılara təqdim ediləcəkdir.

Dekabrın 10-da isə Berlin şəhərində Bundestaqın sabiq deputatı Eduard Lintnerin təşəbbüsü ilə Qubanın azərbaycanlı və yəhudi əhalisinə qarşı 1918-ci ildə erməni daşnakları tərəfindən törədilmiş qətliama həsr edilmiş üçgünlük beynəlxalq konfrans da işə başlayacaqdır. Kampaniyanın Almaniya üzrə əlaqələndiricisi xanım Samira Patzer-İsmayılova bildirmişdir ki, tədbir 100-dən artıq qonağın iştirakı ilə Alman-Azərbaycan Münasibətlərinin İnkişafı Mərkəzində keçiriləcəkdir. Konfransda Almaniyanın siyasi xadimi Heyko Lanqner "Xocalı - unudulmuş faciə" mövzusunda çıxış edəcəkdir. "Xocalıya ədalət" kampaniyasının hazırladığı Xocalı qətliamı haqqında elektron təqdimat da iştirakçılara nümayiş etdiriləcəkdir. Tədbirdə, həmçinin kampaniyanın Xocalı qətliamını və digər qətliamları pisləyən bəyannaməsinə imzalar toplanacaqdır.

AzərTAc.

"**Xalq qəzeti**".-2009.-9 dekabr.-N 273.-S.5.

«Xocalı ili» təklifi dəstəklənir

Dekabrın 11-dən 13-dək Türkiyənin Bursa şəhərində «Yaxın tariximizdə türk və müsəlman soydaşlarımızın məruz qaldıqları insan haqlarının pozulması faktları» adlı iki günlük beynəlxalq simpozium keçirilib. Ahıska Türkləri Federasiyasının təşəbbüsü, Türkiyə Nazirlər Kabineti, Türkiyə Əməkdaşlıq və İnkişaf Agentliyi (TİKA) və Bursa Bələdiyyəsinin dəstəyi ilə düzənlənən simpoziumda 50-dən artıq ölkədən 200-ə yaxın nümayəndə, o cümlədən Azərbaycan Milli Məclisinin deputatları iştirak edib. Tədbirdə iştirak edən millət vəkili Qənirə Paşayeva 2010-cu ilin dünyada türklər və müsəlmanlar tərəfindən «Xocalı ili» elan edilməsi təklifi ilə çıxış edib.

Qeyd edək ki, hər il Xocalı faciəsinin ildönümü günlərində faciə ilə bağlı ölkə daxilində və xaricində həm dövlət, həm də ayrı-ayrı təşkilatlar səviyyəsində çoxsaylı tədbirlər keçirilir, anım mərasimləri düzənlənir. Amma bütün bunlar bir müddət keçdikdən sonra unudulur və hər şey öz axarı ilə davam edir. Bu mənada sözügedən təklif faciənin il ərzində türk və müsəlman cəmiyyətlərinin diqqətində saxlanması baxımından mühüm əhəmiyyət daşıyır. Bəs bu təklifin reallaşması nə dərəcədə mümkündür? Əgər təklif reallaşarsa, bu, Xocalı soyqırımının dünyada tanınması istiqamətində zəncirvarı həlqənin yaranmasına gətirib çıxarı bilərmi? «Xocalı ili» çərçivəsində həyata keçirilməsi planlaşdırılan tədbirlər nələrdən ibarət ola bilər?

Diasporla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətinin əməkdaşı Elşad Miraləm bildirdi ki, onun təmsil etdiyi dövlət qurumu nəinki Xocalı soyqırımının, eləcə də azərbaycanlılara qarşı törədilmiş digər analoji aktların dünya ictimaiyyətinə çatdırılması istiqamətində irəli sürülən bütün təşəbbüsləri dəstəkləyir: «Diasporla İş üzrə Dövlət Komitəsinin əsas fəaliyyət istiqamətlərindən biri də azərbaycanlılara qarşı törədilmiş soyqırımı aktlarını, ümumiyyətlə, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaqdan ibarətdir. Bu baxımdan qeyd etdiyim kontekstdə olan bütün təşəbbüsləri dəstəkləyirik». Müsahibimiz qeyd etdi ki, dövlət komitəsi mütəmadi olaraq bu istiqamətdə iş aparır, hər il dünyanın müxtəlif ölkələrində Xocalı soyqırımı ilə bağlı tədbirlər keçirilir: «Soyqırımı həqiqətlərinin daha effektiv təbliği ilə bağlı Diasporla İş üzrə Dövlət Komitəsinə indiyədək müxtəlif təklif və təşəbbüslər olub. Həmin təklif və təşəbbüslərə baxılıb və bizim gələcək fəaliyyətimizlə bağlı müəyyən ideyalarımız var. Amma hələlik bunun zamanı yetişmədiyi üçün bir söz demək mümkün deyil».

Qeyd edək ki, sözügedən simpoziumda Azərbaycandan Q. Paşayeva ilə yanaşı digər millət vəkilləri - Sabir Rüstəmxanlı və Fazil Mustafa da iştirak edib. Onlardan diaspor işi ilə bilavasitə məşğul olanı - Dünya Azərbaycanlıları Konqresinin həmsədri S. Rüstəmxanlı bildirdi ki, simpoziumda Xocalı faciəsi ilə bağlı təkcə Azərbaycan təmsilçiləri deyil, çıxış edən bütün türk dövlətlərinin və xalqlarının təmsilçiləri danışıblar və bildiriblər ki, mücərrəd «erməni soyqırımı» dünyanı başına götürdüyü halda, göz qabağında olan Xocalı soyqırımına biganə münasibət bəslənir: «Simpozumda bildirildi ki, dünya türkləri ən xarda şeylərdə ittiham etməyə hazır olsa da, Dağlıq Qarabağdan qovulmuş 1 milyona yaxın insanı, Xocalı qətliamını görmür. Türklər xalqları başlarına gətirilən bu müsibətləri küll halında dünyaya çatdırmağın zərurətini getdikcə başa düşürlər. Əgər gələn il bütün türk və müsəlman dünyasında «Xocalı ili» kimi geniş miqyasda qeyd edilməsi təklifi qəbul olunsa, bu əlbəttə çox mühüm bir iş olardı».

İndiyədək Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində müəyyən işlərin görüldüyünü diqqətə çatdıran S. Rüstəmxanlı 2010-cu ilin «Xocalı ili» elan edilməsinin özəlliyinin nədən ibarət olmasına da aydınlıq gətirdi: «Xocalı faciəsini bütün dünya görüb, bilir. Bununla bağlı xeyli sənədli və bədii materiallar da var. Hər kəs etiraf edir ki, Xocalı faciəsi görünməmiş vəhşilikdir və doğrudan da bir millətə qarşı əsl soyqırımı hadisəsidir. Ona görə də «Xocalı ili»ndə bu qətliamı dünyaya daha ciddi şəkildə çatdırmaq, faktları ardıcıl şəkildə beynəlxalq təşkilatlara çatdırmaq və ermənilərin uydurma soyqırımının qarşısında gerçək soyqırımın əslində onların özü tərəfindən törədildiyini ortaya qoymaq lazımdır. Eyni zamanda, bu cinayət hadisəsini beynəlxalq hüquqla ümumiləşdirib insan haqları məhkəmələrinə müraciətlər ünvanlamalıyıq».

Səxavət HƏMİD

“Mərkəz”.-2009.-15 dekabr.-N.222.-S.5.

"Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyi müraciət ünvanlayıb

"Azərbaycan ictimaiyyəti Dağlıq Qarabağa ayrılmış 8 milyon dollar məbləğində maliyyə yardımını nəzərdə tutan qərarın ABŞ prezidenti tərəfindən imzalanmayacağına əmin olmaq istəyir"

Azərbaycan Respublikası "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyinin İdarə Heyəti ABŞ Konqresinin Dağlıq Qarabağ separatçılarına maliyyə yardımı ayrılması barədə qəbul etdiyi qərara etiraz olaraq ABŞ-ın Azərbaycandakı səfirliyinə, Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Barak Obamaya, ABŞ Dövlət Departamentinə, ABŞ Konqresinə müraciət ünvanlayıb: "Möhtərəm cənab Prezident! ABŞ Nümayəndələr Palatasının və Senatın Dağlıq Qarabağın separatçı erməni rejiminə 8 milyon dollar ayırması xəbərini hədsiz təəssüf və kədər hissilə qarşıladıq. Özünü demokratiyanın və insan hüquqlarının müdafiəçisi kimi tanıdan ABŞ-ın bu kobud səhvi yaxın gələcəkdə ona çox baha başa gələcək. Nəzərinizə çatdırırıq ki, 1988-1994-cü illərdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində 20 faizdən çox ərazimiz işğal olunub, bir milyondan artıq müsəlman-türk soydaşımız ev-eşiyindən didərgin düşüb, maddi-mədəniyyət abidələrimiz-məscidlər dağıdılıb. 1992-ci il fevralın 26-da baş vermiş Xocalı soyqırımı Sonqmi, Xatın faciələri ilə müqayisə oluna bilər. Xocalı soyqırımının törədilməsində Ermənistanın indiki hakimiyyəti yaxından iştirak edib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli üçün səy göstərməli olan ABŞ-ın növbəti dəfə Dağlıq Qarabağa maliyyə yardımı ayırması başa düşülən deyil. Son 17 ildə ABŞ Dağlıq Qarabağdakı qondarma rejimə 200 milyon dollardan artıq yardım ayırıb. Məlumdur ki, bu yardımlar təyinatı üzrə-humanitar məqsədlər üçün xərclənməyib. ABŞ hökumətinin Ermənistana 2 milyard dollardan artıq yardım ayırması, Cənubi Qafqazda Azərbaycan kimi əhəmiyyətli bir strateji müttəfiqlə münasibətlərin pozulmasına gətirib çıxaracaq. ATƏT-in Minsk qrupunun həmsədri kimi ABŞ-ın növbəti "şıltaqlığı" Azərbaycan ictimaiyyəti tərəfindən narahatlıqla qarşılanmışdır. Yəqin ki, Siz mənşəcə şotland olan, ABŞ-ın Arkanzas ştatında vəkil işləmiş mərhum Samyuel A.Uimzin "Ermənistan-terrorçu xristian ölkənin gizlinləri" kitabını oxumamısınız. O, öz əsərində belə yazıb: "Azərbaycan dövləti erməni hücumlarından yaxa qurtarandan sonra özünü erməni terrorçularından qorumağa başladı. Konqres Azərbaycanı cəzalandırmaqla buna reaksiya verdi. Birləşmiş Ştatların lobbiləşmiş Konqresindəki erməni lobbisi Azərbaycana yardımın müxtəlif növlərini qadağan edən qanunlar qəbul etdi. Azərbaycana nöqsan tutulurdu ki, guya o, Ermənistanı blokadada saxlayır, göndərilən hərbi avadanlığın Ermənistana çatmasına mane olur. 1992-ci ildə Konqres Azadlığı Müdafiə Aktını qəbul edərək, onun 907-ci maddəsi ilə Ermənistanı "qeyri-qanuni" blokadaya almasını aradan qaldırana qədər Azərbaycanı xarici yardımın müxtəlif növlərindən məhrum etdi. Özlərini erməni adlandıran balaca, lakin, hay-küyçü qrupun siyasi təzyiqinə əsasən hərəkət etmək Konqresə başucalığı gətirmir. Erməni faktlarını yoxlamağın vaxtı çoxdan çatmışdır". Cənab Barak Obama! Biz, bu kitabı oxumağı Sizə məsləhət görürük. Ən azından ona görə ki, bu kitabı ABŞ qanunvericiliyinin keşiyində dayanan, müsəlman təəssübkeşliyindən uzaq olan bitərəf və işinin peşəkarı olan Samyuel A.Uimz qələmə alıb. Bu kitab çap olunan ərəfədə o, müəmmalı şəkildə qətlə yetirilib. Sizi əmin edirəm ki, bu qətldə də "erməni barmağının olması şübhəsizdir.

2009-cu ildə ABŞ-ın Florida ştatının Tamp şəhərində Xocalı Assosiasiyası yaradılıb. Bu təşkilatı yaradan milliyyətcə gürcü olan Feliks Sersvadzedir. Onun babası ötən əsrin əvvəllərində Azərbaycanda yaşayıb. O, Azərbaycan xalqının humanistliyinin dəfələrlə şahidi olub. Erməni daşnakları tərəfindən Xocalı soyqırımının törədildiyini eşidən cənab Feliks Sersvadze şəhidlərin ruhuna və ABŞ qanunvericiliyinə hörmət əlaməti olaraq Xocalı Assosiasiyasını qeydiyyatdan keçirməyə səy göstərir. Xahiş edirik ki, bu təşkilatın normal fəaliyyət göstərməsi üçün köməklik göstərəsiniz.

Azərbaycan ictimaiyyəti Dağlıq Qarabağa ayrılmış 8 milyon dollar məbləğində maliyyə yardımını nəzərdə tutan qərarın ABŞ prezidenti tərəfindən imzalanmayacağına əmin olmaq istəyir. İnanırıq ki, Siz və ABŞ hökuməti Dağlıq Qarabağ münaqişəsinin tezliklə və sülh yoluyla həlli, 17 ildir ki, öz yurdlarından qaçqın düşmüş, hüquqları pozulmuş Azərbaycan vətəndaşlarının Qarabağa qayıtmaları üçün öz pozitiv səy və fəaliyyətinizi daha da artıracaqsınız".

"Yeni Azərbaycan".-2009.- 23 dekabr.- N.240.- S.6.

Xocalı müəmmaları

Dinc sakinlərə xüsusi qəddarlıq edilməsinə dair yeni faktlar üzə çıxır

Hələ Xocalı soyqırımı yenicə baş verdiyi 1992-ci ildə Azərbaycan Ali Sovetində təşkil edilmiş xüsusi komissiya qətliamın xüsusi amansızlıqla həyat keçirildiyinə diqqət çəkərək, Xocalının dinc sakinlərinin qətlində muzdluların iştirak etdiyini vurğulamışdı. Belə ki, ermənilərin hücumu zamanı Xocalı şəhərindən evlərini tərk edərək qaçmağa məcbur olmuş insanların çöllük ərazilərdə çox tələfat verməsi, çoxlu sayda mülki vətəndaşın əsir və girova çevrilməsi olduqca müəmmalı görünürdü.

Qeyd olunmuşdu ki, mülki vətəndaşlara qarşı belə amansızlığım bir səbəbi də Dağlıq Qarabağda azərbaycanlılara qarşı etnik təmizləmə siyasətini sürətləndirmək məqsədilə dinc əhalini zorla köçürülməyə məcbur etməkdir. Sonradan bu fakt Ermənistanın indiki prezidenti, Xocalı hadisələrində mənhus rol oynamış Serj Sərkisyan tərəfindən də etiraf olunacaqdı. Belə ki, o, ingilis jurnalisti Tomas de Vaala müsahibəsində qeyd edir ki, "Xocalı hadisəsindən əvvəl azərbaycanlılar bizim zarafat etdiyimizi fikirləşirdilər. Ermənilərin mülki əhaliyə qarşı bu dərəcədə zorakılıq yoluna getməyəcəklərini hesab edirdilər. Biz bu fikirləri alt-üst etməyə nail olduq."

Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı ictimai birliyinin sədri Faiq İsmayılovun araşdırmaları nəticəsində də bəlli olub ki, erməni hərbçilərindən və Rusiyanın 366-cı batalyonundan başqa burada üçüncü bir qüvvənin də əli olub. Çünki məlumdur ki, Rusiyanın 366-cı alayı 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə Xankəndindən Xocalı istiqamətində hücuma keçsə də nə bu alay, nə də xüsusi döyüş qabiliyyətinə malik olmayan erməni batalyonu Xocalı şəhərini qabaqcadan mühasirəyə salmaq imkanına malik deyildilər: "Apardığımız tədqiqatlar nəticəsində məlum olub ki, bu hücumda ərəb ölkələrində uzun illər döyüşərək hərbi təcrübə əldə etmiş, Afrikada xilasedici dəstələrdə iştirak etmiş, SSRİ quru qoşunlarının 12-ci briqadasının tərkibində Əfqanıstanda döyüşmüş rus zabiti Vladimir Voronovun "xüsusi təyinatlılar"dan ibarət qrupu da iştirak edib".

F. İsmayılov "Paritet"ə açıqlamasında bildirir ki, Qarabağa döyüşə göndərilməmişdən əvvəl Vladimir Voronov 1988-1990-cı illərdə indiki Ermənistan ərazilərindən azərbaycanlıların zorla deportasiya edilməsində və günahsız insanların öldürülməsi və digər cinayətlərdə iştirak edib: " V. Voronov etiraf edir ki, "Ermənistanda 1989-cu ildə hərbi əməliyyatlar başlayanda, mənim xidmət etdiyim hərbi qüvvələr bölüşdürüldü. Gevorq Baqdasaryan şimal istiqamətinin koordinotoru, mən isə müasir müharibələrin və partizan müharibəsi metodlarının mütəxəssisi kimi öz alayımda fəaliyyət göstərməyə başladım".

Göründüyü kimi V. Voronov Ermənistan-Azərbaycan müharibəsi dövründə Ermənistan ordusuna gətirilmiş mühüm hərbi fiqurlardan biri olub. 1989-cu ilin dekabr ayında Ermənistan ordusunun yüksək rütbəli hərbi zabitlərindən olan Vano Siradeqyan və Vano Şaqinyan Vladimir Voronovu Müdafə Nazirliyinə çağıraraq ona Sovet İttifaqının xüsusi təyinat qruplarında xidmət etmiş, gizli xidmət döyüşçülərindən ibarət bir döyüşçü alayı formalaşdırmaq tapşırığı veriblər. Artıq 1990-cı ilin yanvar ayında nəzərdə tutulan döyüşçülərin toplanması başa çatdırılmışdı.

F. İsmayılovun araşdırmalarına əsasən, bu tapşırığın yerinə yetirilməsi üçün Ermənistan Müdafiə Nazirliyi V. Voronova Noyenberyan rayonunun Krasnoselsk kəndində hərbi təlim mərkəzi yaradıbmış. Bu mərkəzdə Qarabağın hava nəqliyyatı dəhlizini ələ keçirmək üçün Xocalı şəhərinə hücum planı hazırlanıb. Xocalı şəhəri üzərinə hücum əməliyyatının planını isə yeni polkun koordinatoru Feliks Qeoxlyan diktə edib: "Polkun məsləhət qrupunun üzvləri olan, qərargah rəisi, sovet kəşfiyyatının görkəmli simalarından biri olmuş İvan Qukasoviç Qukasov, Ermənistan ordusunun görkəmli simalarından olan Alik Petrosyan və partizan hərəkatı zamanı xüsusi əməliyyatların rəhbəri Vazgen Sərkisyan ümumi rəyə gələrək bildirirlər ki, Xocalını götürmək üçün 150 nəfərdən ibarət xüsusi təyinatlı qrup kifayət edər. Məsləhət şurasının qərarı ilə döyüşdən qabaq Azərbaycan cəbhəsində vəziyyəti öyrənmək üçün göndərilən kəşfiyyat qrupuna rəhbərlik V. Voronova tapşırılır. V. Voronovun hərəkətlərinə nəzarəti isə "Rembo" ləqəbli bir erməni döyüşçü həyata keçirir. Çox keçmir ki, Ermənistan hökuməti 150 nəfərlik qüvvə ilə Xocalı şəhərinə hücum edib şəhəri əllərində saxlamaq gücünə malik olmadıqlarını anlayaraq, döyüş tapşırığını dəyişdirirlər. Ermənilər qələbə əldə etmək üçün Xocalının üzərinə bir süvari erməni polkunu və Xankəndi şəhərində yerləşən Rusiyanın 366-cı motoatıcı alayını göndərməyi qərarlaşdırırlar. Rus alayı Xocalı ətrafındakı Azərbaycan döyüşçülərinin onsuz da zəif olan mövqelərini dağıdaraq şəhəri götürərək erməni polkuna təhvil verərək geriyə çəkilərək öz mövqelərinə qayıtmalı idi. V. Voronov isə öz 150 nəfərlik "xüsusi təyinatlı" dəstəsi ilə kiçik qruplara bölünərək, Xocalı, Naxçıvanik, Ağdam istiqamətlərində azərbaycanlıların döyüş mövqelərinə yaxınlaşmalı, mümkün olarsa onların arasına gizli xidmət adamları kimi daxil olmalı, döyüş zamanı təxribatlar törədərək, Xocalıya köməyə gəlmək istəyən azərbaycanlı döyüşçülərin planlarını əngəlləməli idi".

F. İsmayılov qeyd edir ki, V. Voronovun qrupu Xocalı üzərinə hücumdan 2 gün əvvəl Ağdam ərazilərinə yerləşdirilərək Xocalının süqutuna qədər orada qalıb. Onlar üzərlərinə düşən döyüş tapşırığını məharətlə yerinə yetirərək, hücumdan canlarını qurtarıb vahimə ilə Ağdam şəhərinə tərəf qaçan azərbaycanlı mülki vətəndaşları vəhşicəsinə güllələyir və ya əsir götürürdülər. V. Voronovun dediyinə görə, erməni döyüşçülər daha çox qəddarlıq göstərirdilər.

08.02.2006-cı ildə törətdiyi cinayətin məsuliyyətindən yaxa qurtarmaq üçün V. Voronov İrəvan şəhərinə gələrək, burada "Şuşi" jurnalının əməkdaşı Bakur Karapetyana müsahibə verərək bu cinayətdə əlinin olmadığını isbat etməyə cəhd edir. Lakin o özü də bilir ki, əlahəzrət fakt elə bir qüvvədir ki ondan açmaq olmaz.

Onu da deyək ki, İslam Konfransı Təşkilatına üzv qurum olan Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə 8 may 2008-ci ildə "Xocalıya Ədalət" (Justice for Khojaly) beynəlxalq məlumat və təşviqat kampaniyası elan edilib. Kampaniya çərçivəsində dünyanın bir sıra şəhərlərində tədbirlər keçirilib.

Türkiyədə fəaliyyət göstərən Qondarma Soyqırım İddialarıyla Mübarizə Dərnəyi (ASİMDER) isə Serj Sərkisyanın Xocalı soyqırımında iştirakıyla bağlı Avropa İnsan Haqları Məhkəməsinin tələb etdiyi sənədlərin ilk hissəsini göndərib.

Qeyd edək ki, Xocalıda baş verən soyqırım nəticəsində 613 nəfər həlak olub, 487 nəfər əlil qalıb, 1275 dinc sakin ermənilər tərəfindən əsir götürülüb, 150 nəfər isə itkin düşüb. Səkkiz ailə tamamilə məhv edilib.

C. HƏSƏNOĞLU

P.S. Yazı "Qarabağ mövzusunun və Xocalı soyqırımının mediada təbliğinə dəstək" müsabiqəsinə təqdim edilir.

"Paritet".- 2009.-31 dekabr.-6 yanvar.-N.142.-S.5.